ISSN: 2710-0820

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# SOSİAL ELMLƏR

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

# ОБЩЕСТВЕННЫЕ НАУКИ

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

# SOCIAL SCIENCES

## № 1

BAKI – “ELM” – 2021

***“Sosial elmlər” jurnalı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestri və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı” na daxil edilmişdir.***

**BAŞ REDAKTOR:**
**Nərgiz AXUNDOVA,** akademik

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Yaqub MAHMUDOV,** akademik

**MƏSUL KATİB:**
**Lamiyə QAFAR-ZADƏ,** tarix üzrə fəlsəfə doktoru

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**
İsmayıl Hacıyev (akademik), Nailə Vəlixanlı (akademik), Şahin Mustafayev (akademik), Musa Qasımlı (AMEA-nın müxbir üzvü), Zəhmət Şahverdiyev (AMEA-nın müxbir üzvü), Könül Bünyadzadə (AMEA-nın müxbir üzvü), İlham Məmmədzadə (fəlsəfə elmləri doktoru), Nazim İmanov (iqtisad elmləri doktoru), Aytən Mustafazadə (hüquq elmləri doktoru), Məryəm Seyidbəyli (tarix elmləri doktoru), Nəcəf Müseyibli (tarix elmləri doktoru), Ayxan Rüstəmzadə (hüquq elmləri doktoru), Əliağa Məmmədli (antropologiya elmləri doktoru).

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Azərbaycan Respublikası, Bakı şəh., İstiqlaliyyət küç., 30
Tel.: (+99412) 4925180; mob.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com

---

**ГЛАВНЫЙ РЕДАКТОР:**
**Наргиз АХУНДОВА,** академик

**ЗАМЕСТИТЕЛЬ ГЛАВНОГО РЕДАКТОРА:**
**Ягуб МАХМУДОВ,** академик

**ОТВЕТСТВЕННЫЙ СЕКРЕТАРЬ:**
**Ламия КАФАР-ЗАДЕ,** доктор философии по истории

**ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Исмаил Гаджиев (академик), Наиля Велиханлы (академик), Шахин Мустафаев (академик), Муса Гасымлы (член- корреспондент НАНА), Захмат Шахвердиев (член-корреспондент НАНА), Кёнуль Буньядзаде (член-корреспондент НАНА), Ильхам Мамедзаде (доктор философских наук), Назим Иманов (доктор экономических наук), Айтен Мустафазаде (доктор юридических наук), Марьям Сеидбейли (доктор исторических наук), Наджаф Мусеибли (доктор исторических наук), Айхан Рустамзаде (доктор юридических наук), Алиага Мамедли (доктор антропологических наук).

**АДРЕС РЕДАКЦИИ:**
AZ1001, Азербайджанская Республика, г. Баку, ул. Истиглалиййат, 30
Тел.: (+99412) 4925180; моб.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com

---

**EDITOR-IN-CHIEF:**
**Nargiz AKHUNDOVA,** Academician

**DEPUTY EDITOR-IN-CHIEF:**
**Yagub MAHMUDOV,** Academician

**EXECUTIVE SECRETARY:**
**Lamiya GAFAR-ZADA,** Doctor of Philosophy in History

**EDITORIAL BOARD MEMBERS:**
Ismayil Hajiyev (Academician), Naila Velikhanli (Academician), Shanin Mustafayev (Academician), Musa Gasimli (Corresponding member of ANAS), Zehmet Shahverdiyev (Corresponding member of ANAS), Konul Bunyadzada (Corresponding member of ANAS), Ilham Mammadzada (Doctor of Philosofical Sciences), Nazim Imanov (Doctor of Economic Sciences), Ayten Mustafazada (Doctor of Juridical Sciences), Maryam Seyidbayli (Doctor of Historical Sciences), Najaf Museyibli (Doctor of Historical Sciences), Aykhan Rustamzada (Doctor of Juridical Sciences), Aliagha Mammadli (Doctor of Anthropological Sciences).

**EDITORIAL ADDRESS:**
AZ1001, Azerbaijan Republic, Baku, 30 Istiglaliyyat St. Phone: (+99412) 4925180;
mob.: (+99455) 5581080
Email address: socialsciences.anas@gmail.com

## MÜNDƏRİCAT

### TARİX

**Aida BAĞIROVA.** Çinin Yaxın Şərq siyasətində İraq istiqaməti ... 9
**Aygün ƏZİMOVA.** 1917 – 1918-ci illərdə Bakıda baş verən hadisələrdə İngilis amili (dekabr 1917 – sentyabr 1918) ... 18
**Bilal DƏDƏYEV.** Xülvinin "Ləməzat-ı xülviyyə əz ləməat-ı ülviyyə" əsərində Şeyx Zahid-i Gilani və dörd əsas xəlifəsi ... 33
**Elxan QULİYEV.** Tibb elminin inkişafında müsəlmanların rolu. *Dr. Zikrullah Məhəmmədinin "Qərbin oyanışında islam mədəniyyəti və sivilizasiyasının rolu" adlı kitabından iqtibas və şərh.* ... 40
**Əli FƏRHADOV.** Ə.Kəsrəvinin yaradıcılığında Azərbaycan mövzusu ... 50
**Fərəh HÜSEYN.** Osmanlı İmperiyası ilə münasibətlərdə Nadir Şah Əfşarın təsis etdiyi *qardaşlıq hüququ* (Osmanlı mənbələri əsasında) ... 59
**Natavan AĞAYEVA.** XIX-cu əsrin ilk yarısında Osmanlı cəmiyyətinin transformasiyası. «Alafranga» və «alaturka» təbəqələrinin yaranması ... 66
**Seymur TALIBOV.** Siyasi düha və liderlik ... 75
**Şahlar ŞƏRİFOV.** Azərbaycanın Ərdəbil şəhərinin erkən orta əsrlər tarixi ərəbdilli mənbələrdə ... 81
**Tamam CƏFƏROVA.** Şimali Azərbaycanda qadın hərəkatının yaranması və inkişafı tarixinə dair (XIX əsrin ortaları – XX əsrin 80-ci illəri) ... 89
**Tofiq NƏCƏFLİ.** Şah Səfi dövründə Səfəvi imperiyasının Buxara xanlığı ilə hərbi-siyasi əlaqələri ... 101
**Vidadi UMUDLU.** "Difai" partiyasının qurulması Türkiyə tarixşünaslığında ... 112

### ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**Anar AĞALARZADƏ.** Azərbaycanın cənub-şərq bölgəsinin tunc-ilk dəmir dövrü sənətkarlığında bəzəklər (etnoarxeoloji tədqiqat) ... 118
**Şamil NƏCƏFOV.** Qazax rayonu ərazisində yeni arxeoloji tədqiqatlar (Əziztəpə son tünc-erkən dəmir dövrü abidəsinin arxeoloji tədqiqinin yekunları) ... 131
**Vəli BAXŞƏLİYEV.** Kültəpədə yaşayış yerində arxeoloji qazıntılar ... 144
**Elmira CƏFƏROVA.** Şirvanın orta əsr urbanizm mədəniyyəti (IX – XVI əsrlər) ... 160

### FƏLSƏFƏ və HÜQUQ

**Hümeyrə MUSTAFAYEVA.** Əhməd Bəy Ağaoğlunun multikultural baxışları ... 169
**Xatirə QULİYEVA.** Azərbaycan-Türkiyə birlik, həmrəylik fəlsəfəsi XXI əsrin mədəniyyətlərarası dialoq çağırışları kontekstində ... 174
**Oruc MƏMMƏDOV**. Dövlət qulluqçularının hüquqi məsuliyyəti: nəzəri-konseptual və metodoloji yanaşma ... 187
**Seyfəddin SƏMƏNDƏROV.** Milli birlik və milli iqtisadiyyat tarixi-fəlsəfi dəyərləndirmələr kontekstində ... 205

### SİYASİ ELMLƏR

**Anar EYYUBOV.** Ermənistan-Azərbaycan münaqişəsində tarixi narrativlər: müqayisəli təhlil ... 210
**Aynur ƏLİŞANOVA**. Beynəlxalq sülh proseslərində beynəlxalq təşkilatların fəaliyyətlərinin müqayisəli təhlili ... 216
**Eldar ƏMİROV.** Fələstin – İsrail qarşıdurmasının növbəti dalğası (10-21 may 2021-ci il): İranın geosiyasi maraqları kontekstindən baxış ... 225
**Günel MƏLİKLİ.** Azərbaycan Respublikası milli inkişaf siyasətində davamlı inkişaf: Asan Xidmət və Dost Mərkəzi ... 231
**Humay TAĞIYEVA.** Müasir beynəlxalq münasibətlərdə münaqişələr ... 237
**İlyas HÜSEYNOV.** Müasir dövrdə Avropa İttifaqının enerji təhlükəsizliyi kontekstində Azərbaycan-Yunanıstan münasibətləri ... 245
**Yeganə BAXŞIYEVA.** Cənubi Qafqaz ölkələrində su ehtiyatlarının mövcud vəziyyəti ... 251
**Lamiyə MƏHƏRRƏMOVA.** Multikulturalizm – müasirliyin problemlərinin həlli paradigmə kimi ... 257
**Ramilə DADAŞOVA.** Beynəlxalq münaqişələrin tənzimlənməsində BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı məsələsinin təhlili ... 264

### SOSİOLOGİYA

**Əliyar ORUCOV.** Azərbaycan Respublikasının silahlı qüvvələrinin formalaşmasında və müasirləşməsində Ümummilli Lider Heydər Əliyevin rolu (sosial-siyasi təhlil) ... 271

**PEDAQOGİKA**

**Könül İBRAHİMOVA.** Ali təhsil sistemində təhsil xidmətləri bazaları: inteqrasiya və müasirləşdirmə prosesləri........283

**DİNŞUNASLIQ**

**Yeganə RƏHNULLA.** Allahın zatı adlarının dini-elmi təhlili (Azərbaycan əlyazmalarına əsasən) (ikinci hissə)........288

**RESENZİYALAR**

İsa Həbibbəylinin Günel Məliklinin "Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi şərəfli tarixi yolu" adlı kitabına resenziyası ........295
Məmməd Rzayevin Xatirə Quliyevanın "Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" adlı kitabına resenziyası ........297

## СОДЕРЖАНИЕ

### ИСТОРИЯ

**Аида БАГИРОВА.** Иракское направление ближневосточной политики Китая .................... 9
**Айгюн АЗИМОВА.** Английский фактор в бакинских событиях 1917-1918 годов .................... 18
**Билал ДАДАЕВ.** Шейх Захид-и Гилани и четыре главных халифа в произведении Хулви «Ламазат-и хулвийя аз лемаат-и ульвийя» .................... 33
**Эльхан ГУЛИЕВ.** Роль мусульман в развитии медицинской науки. *Цитата и комментарий из книги др. Зикруллаха Махаммади под названием «Роль исламской культуры и цивилизации в пробуждении Запада»* .................... 40
**Али ФАРХАДОВ.** Азербайджанская тема в работах А. Касрави .................... 50
**Фарах ГУСЕЙН.** *Право братства*, учрежденное Надир Шах Афшаром в отношениях с Османской Империей (на основе османских источников) .................... 59
**Натаван АГАЕВА.** Трансформация Османского общества в первой половине XIX века. Появление категорий «алафранга» и «алатурка» .................... 66
**Сеймур ТАЛЫБОВ.** Политический гений и лидерство .................... 75
**Шахлар ШАРИФОВ.** Раннесредневековая история азербайджанского города Ардебиль в арабских источниках .................... 81
**Тамам ДЖАФАРОВА.** Об истории возникновения и развития женского движения в Северном Азербайджане (Середина XIX - 80-е годы XX века) .................... 89
**Тофиг НАДЖАФЛИ.** Военно-политические отношения империи Сефевидов с Бухарским ханством в период правления шаха Сефи .................... 101
**Видади УМУДЛУ.** Учреждение партии "Дифаи" в историографии Турции .................... 112

### АРХЕОЛОГИЯ и ЭТНОГРАФИЯ

**Анар АГАЛАРЗАДЕ.** Предметы украшения в ремесленном производстве эпохи бронзы – раннего железа юго-восточного региона Азербайджана (этно-археологическое исследование) .................... 118
**Шамиль НАДЖАФОВ.** Новые археологические исследования на территории Газахского района (итоги археологического исследования памятника периода поздней бронзы – раннего железа Азизтепе) .................... 131
**Вели Б. БАХШАЛИЕВ**. Археологические раскопки в поселении Кюльтепе .................... 144
**Эльмира ДЖАФАРОВА.** Урбанистическая культура средневекового Ширвана (IX-XVI вв.) .................... 160

### ФИЛОСОФИЯ и ПРАВО

**Хумейра МУСТАФАЕВА.** Мультикультуральные воззрения Ахмед бека Агаоглы .................... 169
**Хатира ГУЛИЕВА.** Философия единства и солидарности между Азербайджаном и Турцией в контексте вызовов межкультурного диалога в XXI веке .................... 174
**Орудж МАМЕДОВ**. Юридическая ответственность государственных служащих: теоретико-концептуальный и методологический подход .................... 187
**Сейфаддин САМАНДАРОВ.** Национальное единство и национальная экономика в контексте историко-философских оценок .................... 205

### ПОЛИТИЧЕСКИЕ НАУКИ

**Анар ЭЮБОВ.** Исторические нарративы в армяно-азербайджанском конфликте: сравнительный анализ .................... 210
**Айнур АЛИШАНОВА.** Сравнительный анализ деятельности международных организаций в процессах урегулирования мира .................... 216
**Эльдар АМИРОВ.** Очередной виток Палестино-израильского противостояния: взгляд в контексте геополитических интересов Ирана .................... 225
**Гюнель МЕЛИКЛИ.** Устойчивое развитие в национальной политике развития Азербайджанской Республики: центр АСАН и агентство ДОСТ .................... 231
**Хумай ТАГИЕВА.** Проблемы конфликтов в современных международных отношениях .................... 237
**Ильяс ГУСЕЙНОВ.** Азербайджано-греческие отношения в контексте энергетической безопасности Европейского Союза в современный период .................... 245
**Егяна БАХШИЕВА.** Современное состояние водных ресурсов Южного Кавказа .................... 251
**Ламия МАГЕРРАМОВА.** Мультикультурализм как модель решения проблем современности .................... 257

**Рамила ДАДАШОВА.** Исследование вопроса сотрудничества ООН с региональными и субрегиональными организациями в регулировании международных конфликтов ............................................264

## СОЦИОЛОГИЯ

**Алияр ОРУДЖОВ.** Роль Общенационального Лидера Гейдара Алиева в формировании и модернизации Вооруженных Сил Азербайджанской Республики (социально-политический анализ) ..................................................................................................................................271

## ПЕДАГОГИКА

**Кёнуль ИБРАГИМОВА.** Основы образовательных услуг в системе высшего образования: процессы интеграции и модернизации ....................................................................................................283

## РЕЛИГИОВЕДЕНИЕ

**Егяна РАХНУЛЛА.** Религиозно-научный анализ сущностных Имен Аллаха (на основе Азербайджанских рукописей) (часть вторая) ......................................................................................288

## РЕЦЕНЗИИ

Рецензия Исы Габиббайли на книгу Гюнель Меликли «Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi şərəfli tarixi yolu» ................................................................................................................295

Рецензия Мамеда Рзаева на книгу Хатиры Гулиевой “Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü” ........................................................................................................................297

## CONTENTS

### HISTORY

**Aida BAGHIROVA.** Iraqi direction of China's Middle East policy ............ 9
**Aygun AZIMOVA.** The English factor in the Baku events of 1917-1918 ............ 18
**Bilal DADAYEV.** Sheikh Zahid-i Gilani and his four main caliphs in "Lemezat-i khulviyye ez lemeat-i ulviyye" by Khulvi ............ 33
**Elkhan GULİYEV.** The Role of Muslims in the Development of Medical science. *Quotation and commentary from Dr. Zikrullah Mahammadi's book entitled "The Role of Islamic culture and civilization in the awakening of the West"* ............ 40
**Ali FARHADOV.** Azerbaijan topic in the works of A. Kasravi ............ 50
**Farah HUSEYN.** The *right of brotherhood* established by Nadir Shah Afshar in relations with the Ottoman Empire (based on the Ottoman sources) ............ 59
**Natavan AGHAYEVA.** Transformation of the Ottoman society in early 19$^{th}$ century. Appearance of «a-la frank» and «a-la turc» groups ............ 66
**Seymur TALIBOV.** Political genius and leadership ............ 75
**Shahlar SHARIFOV.** Early medieval history of Ardabil city of Azerbaijan in Arabic sources ............ 81
**Tamam JAFAROVA.** On the history of emergence and development of Women's movement in north azerbaijan (mid-19th century and 80s of the 20th century) ............ 89
**Tofig NAJAFLI.** Military-political relations of the Safavid Empire with the Bukhara Khanate during the reigon of Shah Safi ............ 101
**Vidadi UMUDLU.** Establishment of the party "Difai" in the historiography of Turkey ............ 112

### ARCHAEOLOGY and ETHNOGRAPHY

**Anar AGHALARZADE.** Ornamentals in the Bronze-Early Iron Age handicraft of the south-eastern region of Azerbaijan (ethno-archaeological research) ............ 118
**Shamil NAJAFOV.** New archeological investigations in Gazakh district (The results of archaeological investigations of the Late Bronze-Early Iron Age monument Aziztepe) ............ 131
**Veli B. BAKHSHALIYEV.** Archaeological excavations at the Kültepe settlement ............ 144
**Elmira JAFAROVA.** Urban culture of medieval Shirvan (9th-16th centuries) ............ 160

### PHILOSOPHY and LAW

**Humeyra MUSTAFAYEVA.** Ahmad bey Aghaoghlu's multicultural views ............ 169
**Khatira GULIYEVA.** The philosophy of unity and solidarity between Azerbaijan and Turkey in the context of the challenges of intercultural dialogue in the 21st century ............ 174
**Oruj MAMMADOV**. Legal responsibility of civil servants: theoretical-conceptual and methodological approach ............ 187
**Seyfaddin SAMANDAROV.** National unity and national economy in the context of historical and philosophical assessments ............ 205

### POLITICAL SCIENCES

**Anar EYYUBOV.** Historical narratives in the Armenian-Azerbaijani conflict: Comparative analysis ............ 210
**Aynur ALISHANOVA.** Comparative analysis of the activities of international organizations in international peace processes ............ 216
**Eldar AMIROV.** Another round of the Israeli-Palestinian confrontation: a view in the context of Iran's geopolitical interests ............ 225
**Gunel MELIKLI.** Sustainable development in the national policy of development of the Republic of Azerbaijan: ASAN center and DOST agency ............ 231
**Humay TAGHIYEVA.** Conflict issues in modern international relations ............ 237
**Ilyas HUSEYNOV**. Azerbaijan-Greek relations in the context of the energy security of the European Union in the modern period ............ 245
**Yegane BAKHSHIYEVA.** Current state of water resources in the South Caucasus ............ 251
**Lamiya MAHARRAMOVA.** Multiculturalism as a model for solving the problems of modernity ............ 257
**Ramila DADASHOVA.** Analysis of the United Nations relations with regional and subregional organizations in regulation of international conflicts ............ 264

## SOCIOLOGY

**Aliyar ORUJOV.** The National Leader Heydar Aliyev's role in the formation and modernization of the Azerbaijan Republic Armed Forces (socio-political analysis) ....................271

## PEDAGOGICS

**Konul IBRAGIMOVA.** Fundamentals of educational services in the higher educational system: integration and modernization processes....................283

## RELIGIOUS STUDIES

**Yegana RAHNULLA.** Religious-scientific analysis of the names of Allah (on the basis of Azerbaijani manuscripts) (part two)....................288

## REVIEWS

Isa Habibbayli's review of Gunel Melikli's book "Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi şərəfli tarixi yolu" ....................295
Mammad Rzayev's review of Khatira Guliyeva's book "Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü"....................297

UOT 94 (100-87)

**AİDA BAĞIROVA**
*Bakı Dövlət Universiteti, dosent, t.ü.f.d.,*
*aida_bagirova@yahoo.com, Azərbaycan*

# ÇİNİN YAXIN ŞƏRQ SİYASƏTİNDƏ İRAQ İSTİQAMƏTİ

***Açar sözlər:*** *Çin, Yaxın Şərq, İraq, ikitərəfli əməkdaşlıq, neft amili*

XX əsrin 70-ci illərində Çində "dörd modernləşmə" proqramına əsaslanan və ilk növbədə yeni iqtisadi inkişaf modelinin tətbiqini nəzərdə tutan proses başladı. Qarşısına qoyduğu geopolitik, iqtisadi, hərbi və digər məqsədlərinə çatmaq üçün Çinin diplomatiyasının yenilənməsi zəruri idi.

"Dözüm diplomatiyası" kimi xarakterizə olunan yenilənmiş Çin diplomatiyasının başlıca özəyini "fəaliyyət regionunda öz təsir dairəsini genişləndirmək, kənar güclərin geopolitik təsir imkanlarını məhdudlaşdırmaq" təşkil edirdi [1, s. 41]. "Dözüm diplomatiyası" çərçivəsində həyata keçirilən, "səssiz" və "yumşaq" adlandırılan siyasətin əsas prinsipi digər dövlətlərin daxili işlərinə qarışmamaqdan və regionda təsir imkanlarına malik dövlətlərə maneə olmamaqdan ibarət idi.

Çinin bu xarici siyasət kursu XX əsrin 90-ci illərindən özünü tam göstərməyə başladı. Məhz bu dövrdə beynəlxalq münasibətlər sistemində və dünya siyasətində dərin və köklü dəyişikliklər baş verdi. SSRİ-nin süqutundan və "soyuq müharibənin" bitməsindən sonra dünyada iki tendensiya meydana gəldi: siyasətdə çoxqütblük, iqtisadiyyatda isə qloballaşma, həmçinin müxtəlif regionların və dövlətlərin iqtisadi inkişaf templərində ciddi disbalans yarandı. Mövcud durum Pekindən diplomatiyanın həm ənənəvi, həm də yeni metodlarından yararlanaraq xarici siyasətinin aktivləşdirməsini tələb edirdi [21]. Enerji resurslarının iri idxalçısına çevrilməsi və artan tələbatının təmin edilməsi Çinin xarici siyasi və xarici iqtisadi əlaqələrinin diversifikasiyasına səbəb oldu. Bu məqsədlə Pekin əvvəllər xüsusi maraq göstərmədiyi regionlarla sıx təmaslar qurmağa başladı.

2000-ci illərdən etibarən Çin öz nüfuz coğrafiyasını tədricən genişləndirməyə başladı ki, bu da "mehriban qonşuluq zolağı" (həmsərhəd ölkələrlə münasibətləri ehtiva edirdi) və "qlobal mehriban qonşuluq" (nəinki Şərqi Asiya ölkələri ilə, hətta coğrafi nöqteyi nəzərdən daha uzaq regionlarla əməkdaşlığı və əlaqələrin genişlənməsi) ənənəvi anlayışlarında özünü ifadə edirdi. Beləliklə, 1990-cı illərin əvvəllərində "Çin islahatlarının atası" Den Syaopin tərəfindən formalaşdırılan "24 iyeroqlif strategiyası" və "günəş işığından yayınmaq, kölgədə gizlənmək" [12, s. 91] siyasəti tədricən ölkənin beynəlxalq statusunun regional gücdən qlobal gücə qədər dəyişməsinə yönəldi. Pekin ənənəvi tərəfdaşları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın mexanizmlərini formalaşması istiqaməti üzrə çalışmaqla yanaşı, əvvəllər onun mühüm xarici siyasət prioritetləri siyahısında olmayan regionlarla da əlaqələri inkişaf etdirirdi.

Belə regionlar arasında Çinin ən çox diqqətini çəkən Yaxın Şərq idi. Onun xarici siyasət strategiyasında Yaxın Şərq regionunun rolu və əhəmiyyətinin artması bir sıra obyektiv amillərlə bağlı idi ki, burada enerji və iqtisadi amillər aparıcı rol oynayırdılar.

Ölkənin sürətlə artan iqtisadiyyatı böyük miqdarda enerji resursları tələb edirdi. Müqayisə üçün qeyd edək ki, əgər 1980-cı illərdə Çin Şərqi Asiyada neftin ən iri ixracatçısı idisə, 2000-ci illərin əvvəllərində o, neft və neft məhsullarının istehlakçıları arasında ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu [14]. Bu səbəbdən də enerji resurslarının etibarlı və maneəsiz nəqli milli təhlükəsizlik məsələsinə çevrilməkdə idi, eyni zamanda xarici ixracatçılardan tam asılılığa düşməmək üçün Pekinin strategiyası enerji mənbə və marşrutlarının diversifikasiyasından ibarət oldu. Bu mənada zəngin enerji ehtiyatlarına malik Yaxın Şərq Çin üçün xüsusi çəki kəsb etməyə başlayır.

Çinin 1980-1990-cı illərdə dinamik inkişafı və istehsal templərinin artması Yaxın Şərqə yönəlik diplomatik strategiyasının dəyişməsini şərtləndirdi. Bu regionun tədricən Pekinin xarici siyasətinin ən perspektivli sahələrinin birinə çevrilməsi əsasən ticarət-iqtisadi və investisiya mexanizmlərindən istifadə etməklə burada öz varlığını genişləndirməsinə səbəb oldu [2].

Pekinin "İpək Yolu iqtisadi zolağı" və "XXI əsrin Dəniz İpək Yolu" layihələrini reallaşdırmaq strateji planları Yaxın Şərqin rolu və əhəmiyyətini artırmağa başladı. Məlumdur ki, e.ə. II əsrdə əsası qoyulan Böyük İpək Yolu vahid ticarət marşrutu deyildi, o, ölkələri, xalqları və sivilizasiyaları birləşdirən şahələnmiş bir şəbəkə idi. Onun cənub quru hissəsi Yaxın Şərq ərazisindən keçirdi. Bu səbəbdən də burada yerləşən ölkələrin iqtisadiyyatını və bazarlarını Çin öz geopolitik və geoiqtisadi maraq dairəsinə cəlb etməyə çalışırdı. "Dəniz İpək Yolu" isə karbohidrogen xammalının Hind okeanı və Mallak körfəzindən maneəsiz nəqlinin təhlükəsizliyini təmin etməli idi [20, s. 112].

2013-cü ilin sentyabrında ÇXR-ın lideri Si Tsinpin "İpək Yolu İqtisadi Zolağı" və "XXI əsrin Dəniz İpək Yolu" layihələrini birləşdirən və Çinin qərb sərhədlərindən Avropa İttifaqının şərq və cənub sərhədlərinə qədər davam edən coxşahəli infrastruktur şəbəkəsinin yaradılmasını ehtiva edən "Bir kəmər – Bir yol" adlı strateji konsepsiyanı bəyan etdi. Bu iddialı konsepsiyanın reallaşmasında Yaxın Şərq açar roluna malik idi, çünki bu regionun coğrafi vəziyyəti onu Asiya və Avropa arasında mühüm tranzit məntəqəsinə çevirmişdi [14]. Yeni nəqliyyat kəsişmələri bu regionda Çinin təsirinin genişlənməsi ilə yanaşı, daha qısa zamanda daşımaların həyata keçirilməsinə, təklif edilən malların və xidmətlərin dəyərinin azaldılmasına, yeni bazarlara çıxışın əldə edilməsinə, həmçinin buradakı ölkələrin iqtisadiyyatının və resurslarının istifadəsinə imkan yaradırdı [8, c.119]. Lakin Yaxın Şərqin Çin üçün əhəmiyyəti yalnız iqtisadi amillə məhdudlaşmırdı. Onun siyasətinin digər istiqaməti regionda hərbi-siyasi mövcudluğun fəallaşdırılması, buradakı dövlətlərlə hərbi-texniki əməkdaşlığın genişlənməsi idi [11].

Pekinin iddialı planlarının həyata keçməsi üçün Yaxın Şərqdə stabil və təhlükəsiz durumun olması vacib şərt idi ki, bu da onun enerji təhlükəsizliyi və yaratdığı iqtisadi sxemlərin normal çalışmasının təmin edilməsi ilə bilavasitə bağlı idi [15]. Əvvəllər Çin regionun ziddiyyətli və qarışıq siyasətindən kənar durmağa çalışırdı, lakin burada münaqişəli durumun davam etməsi enerji və çoxmilyardlı investisiyaların təhlükəsizliyinin təminatı istiqamətində addımların və səylərin artırılmasına sövq edirdi.

Yaxın Şərq vahid coğrafi və siyasi məkan kimi qavransa da, Çinin regionun Ərəb dövlətləri ilə əməkdaşlığa maraq göstərməsi xüsusi qeyd olunmalıdır.

Çinin Ərəb dövlətlərinə yönəlik siyasətində İraq mühüm yer tutur. İki ölkə arasında diplomatik münasibətlər 25 avqust 1958-ci ildə qurulmuşdu. Ardınca ticarət-iqtisadi əlaqələrin təməli qoyuldu və tədricən inkişaf etməyə başladı. 1959-1975-ci illərdə iki ölkə arasında bir sıra iqtisadi sazişlər imzalandı, 1974-cü ildən isə Çin İraq neftini idxal etməyə başladı. İran-İraq müharibəsi dövründə (1980-1988) Çin münaqişə tərəfləri arasında bitərəf mövqe tutsa da, hər ikisinə bazar qiymətlərindən ucuz silah satırdı. O dövrdə "dörd modernləşmə" siyasətinin həyata keçirilməsi üçün Pekininin əlavə maliyyə təminatına ehtiyacı var idi, eyni zamanda bu, dünyada və Yaxın Şərqdə stabil durumdan asılı idi. Müharibə dövründə Çinin tutduğu mövqe sonrakı illərdə İraqla tərəflərin mənafeyinə cavab verən münasibətlərin qurulmasını asanlaşdırdı.

Hərbi əməliyyatların bitməsindən sonra İraqın dağılmış iqtisadiyyatının bərpası məqsədi ilə Çin bu ölkəyə müxtəlif səpkili yardımlar edir, o cümlədən yenidənqurma layihələrində yüzlərlə çinli işçi və mütəxəssis çalışırdı. Eyni zamanda Çin İraq iqtisadiyyatının müxtəlif sahələrinə, ilk növbədə neftçıxarmaya investisiyaların həcmini artırmış, bu da o faktla bağlı idi ki, İraq nefti öz keyfiyyət göstəricilərinə görə Çinin neftayırma zavodlarında emala yararlı sayılırdı. Bu dövrdə Çin həm də İraqa iri silah ixrac edən əsas ölkələrdən birinə çevrilmişdi; Küveyt böhranı ərəfəsində ixracın həcmi 2 mln. doll. təşkil edirdi [3, s.279].

Çinin Küveyt böhranı (1990-1991) ilə bağlı siyasəti həm daxili (1989-ci il Tyananmen meydanındaki hadisələr), həm də xarici siyasət amilləri təsiri altında formalaşmışdı. Onların arasında Yaxın Şərqdəki ümumi maraqlarla ya-

naşı, İraq və Küveytlə olan perspektivli və iqtisadi cəhətdən sərfəli əlaqələri göstərmək olardı. Pekinin rəsmi mövqeyi 1990-cı ilin avqustun sonunda Baş nazir Li Pen tərəfindən ÇXR-in VII qurultayının 15-ci sessiyasında səsləndirilmişdir. Çin İraqın təcavüzünü, Küveytin ilhaqını və münaqişəyə iri dövlətlərin müdaxiləsini pisləmiş, İraq və Küveyt arasında danışıqların aparılması və münaqişənin Ərəb dövlətlərinin iştirakı ilə BMT çərçivəsində dinc həllinə çağırmışdır. Münaqişənin həlli məqsədi ilə 24 fevral 1991-ci ildə Çin hökuməti 6 bənddən ibarət sülh planı irəli sürdü: 1) İraq öz qoşunlarını Küveytdən qeyd-şərtsiz çıxarmalı; 2) münaqişə tərəfləri sülhə səy göstərməlidirlər; 3) yaranmış vəziyyətdə əsas məsələ hərbi əməliyyatların dayandırılması və sülhə yönəlik şəraitin yaradılması olmalıdır; 4) münaqişəyə cəlb olunan bütün tərəflər sülhə maneə olan addımlardan çəkinməli və münaqişənin dinc yolla həll olunmasına səy göstərməlidirlər; 5) Fars körfəzinin təhlükəsizliyi ilə bağlı məsələləri region ölkələri özü həll etməlidir; 6) xarici silahlı qüvvələr regiondan çıxarılmalı, münaqişənin həllində aparıcı rolu Ərəb və müsəlman dövlətləri oynamalıdırlar [5].

Ümumiyyətlə isə, Küveyt böhranı Çinin Yaxın Şərqin Ərəb ölkələri ilə münasibətlərinin inkişafında dönüş nöqtəsi oldu – belə ki, o, kənar müşahidəçi kimi yox, münaqişənin həllində bilavasitə iştirak edən dövlət kimi çıxış etdi [19].

Böhrandan sonraki dönəmdə Pekin və Bağdad səmərəli əməkdaşlığın, əsasən də hərbi-texniki və ticarət-iqtisadi sahələrdə davam etməsinə səy göstərirdilər. Lakin onlar İraqa qarşı tətbiq olunan beynəlxalq sanksiya və embarqo rejimi ilə hesablaşmağa məcbur idilər. Çin heç vaxt gizlətmirdi ki, İraqda onun xeyli iqtisadi maraqları var, ona görə də sanksiyaların davam etməsinə baxmayaraq, 1990-cı illərin ortalarından iri Çin şirkətləri İraq bazarına girmək uğrunda mübarizəyə girişdilər.

2000-ci illərin əvvəllərində Çin Rusiya və Fransadan sonra Bağdadın 3-cü ən önəmli ticarət-iqtisadi tərəfdaşı olaraq İraq idxalının 5,8%-nə nəzarət edirdi. İkitərəfli mal dövriyyəsi 2,7 mlrd. doll. təşkil edirdi və dinamik artımı ilə xarakterizə olunurdu (belə ki, yalnız 2001-ci ildə ticarət 30% qədər yüksəlmişdi). İraqa böyük həcmdə Çin investisiyaları daxil olurdu, ikitərəfli əməkdaşlığın sahələrini neft yataqlarının istismarı, enerji və nəqliyyat infrastrukturu, tikinti və s. təşkil edirdi. 1997-ci ildə Çin Milli Neft Şirkəti (CNPC) İraq hökuməti ilə zəngin əl-Əxtab neft yatağının istismarı ilə bağlı 22 il müddətinə 1,3 mlrd. doll. məbləğində saziş imzaladı [6]. 1996-ci ildən etibarən BMT tərəfindən həyata keçirilən "Neft müqabilində ərzaq" proqramı çərçivəsində 60-dan artıq Çin şirkəti 500-ə yaxın müxtəlif müqavilələrin reallaşmasında iştirak edirdi [32, s. 239]. 2000-ci ildə CATIC şirkəti İraqa meteoroloji peyklər və xüsusi avadanlığın, habelə hərbi kommunikasiya və rabitə sistemlərinin qurulmasında istifadə olunan fiber optik kabellərin tədarükü üçün 2 mln. doll. dəyərində müqavilə imzaladı. Bu dövrdə iki ölkə arasında hərbi-texniki əməkdaşlıq uğurla inkişaf edirdi – belə ki, 1980-2000-ci illər ərzində İraqın hərbi müqavilələrinin 18%-i Çinin payına düşürdü [17, s. 95].

BMT TŞ-nın daimi üzvü olan Çin 2000-ci illərin əvvəllərindən etibarən beynəlxalq aləmdə kəskinləşən İraq probleminin tənzimlənməsində yaxından iştirak edirdi. 2001-2002-ci illərdə İraq böhranı ətrafında siyasi-diplomatik mübarizə mərhələsində rəsmi Pekinin mövqeyi bir sıra amillərin təsiri altında formalaşırdı: digər dövlətlərin daxili işlərinə qarışmamaq siyasəti; qlobal antiterror kampaniyasının Çinin təhlükəsizliyinə yarada biləcəyi təhdid; ABŞ-la münasibətlər. Pekin anlayırdı ki, yeni dünya düzəninin formalaşması ölkənin geopolitik durumuna təsir göstərəcək və aparıcı dünya gücləri ilə qlobal rəqabətdə ilk növbədə öz milli-dövlət maraqlarından çıxış etmək zəruridir. Bununla əlaqəli qeyd edək ki, İraq böhranı XXI əsrdə Çinin xarici siyasətini xarakterizə edən bir sıra mühüm məqamları üzə çıxardı. Bu, ilk növbədə müstəqil xarıcı siyasət kursunun həyata keçirilməsinə, yeni dünya düzəni çizgilərinin müəyyənləşməsinə və mühüm beynəlxalq problemlərin çözülməsində ölkənin iştirakının təmin edilməsinə yönəlmişdi [16, s.42].

İraq probleminin güc müstəvisində həllinə hazırlıq dönəmində Çin problemin sülh yolu ilə həllinin tərəfdarı kimi çıxış edir, Fransa, Rusiya və Almaniyanın təşəbbüslərini dəstəkləyir və

BMT TŞ-nın daimi olmayan üzvlərini "doğru seçim"ə sövq etmək üçün fəallıq göstərirdi. Lakin adı çəkilən dövlətlərdən fərqli olaraq Pekinin mövqeyi daha təmkinli və ehtiyatlı idi, o, bir dəfə də olsun səsvermə zamanı veto hüququnun tətbiqi ilə təhdid etməmişdi. Hətta Çinin xarici işlər naziri İraqda hərbi əməliyyatdan öncə BMT TŞ-nın son iclasında (19 mart 2003-cü il) iştirak etməməyə üstünlük vermişdi [9, s. 37]. Qeyd edək ki, koalisiya qüvvələrinin 2003-cü il müharibəsindəki qələbəsi reallığa çevriləndən sonra Pekinin mövqeyi daha da praqmatik, rəsmi açıqlamaları ölçülü-biçili, KİV-də şərhləri isə son dərəcə neytral olmuşdur. Rəsmi Pekinin İraq böhranına münasibətinə geopolitik amillərlə yanaşı iqtisadi səbəblər də təsir etmişdir. İraq böhranı zamanı Çin müxtəlif hesablamalara görə 7 mlrd. doll. zərər çəksə də, "səssiz razılıq" və "qarışmamaq" prinsipi ilə hərəkət etməyə üstünlük verdi, Qərblə münasibətləri gərginləşdirmədi və regionun Səudi Ərəbistanı kimi iqtisadi cəhətdən sərfəli tərəfdaşları ilə əməkdaşlığın inkişafına çalışdı. Ayrıca İraqın Çinə borcu qeyd edilməlidir ki, Pekin onun geri qaytarılmasında israrlı olduğunu bildirmişdi.

Ənənəvi olaraq İraqın əsas ticarət-iqtisadi tərəfdaşları sırasına daxil olan Çin müharibədən sonra burada öz mövqelərini önəmli dərəcədə itirdi ki, bu da İraq neft yataqlarının əksəriyyəti üzərində nəzarəti faktiki olaraq inhisara alan ABŞ-ın yürütdüyü siyasətlə bağlı idi. Həm İraq, həm də Çin ikitərəfli əməkdaşlığın bərpası və inkişafında maraqlı olduqlarını bəyan etsələr də, bu yalnız 2006-cı ildən sonra baş verdi [7].

2007-ci il iyunun sonunda İraq prezidenti Cəlal Tələbaninin Pekinə səfəri zamanı Çin rəhbərliyi ikitərəfli münasibətlərin "inkişafın yeni mərhələsinə daxil olduğunu" bəyan etdi və İraqın yenidən qurulmasında iştirak etməyə, müxtəlif sahələrdə ona hərtərəfli yardım göstərməyə hazır olduğunu bildirdi. Çin tərəfi həmçinin İraqın yeni seçilmiş parlamenti ilə dövlətlərarası əlaqələrin inkişafına xidmət edəcək əməkdaşlıq və dostluq mübadiləsinə hazır olduğunu bildirdi. C.Tələbani öz növbəsində İraq hökuməti, parlamenti, siyasi partiyaları və ictimaiyyətinin Çinlə dostluq əlaqələrinin inkişafına tərəfdar olduqlarını bildirdi. O, həmçinin Çinin inkişaf təcrübəsinin mənimsənilməsində və müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın fəallaşmasında İraqın maraqlı olduğunu qeyd etdi. Səfər çərçivəsində bir sıra saziş, o cümlədən neftçıxarma, ticarət, təhsil, mədəniyyət və s. sahələrində imzalanmışdı.

Ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədi ilə tərəflər arasında 8 mlrd. doll. məbləğində İraq borcunun silinməsi haqda razılaşma əldə olunmuşdu. Bu xeyirxaq əmələ cavab olaraq hələ 1997-ci ildə Səddam Hüseynin dövründə CNPC-lə imzalanmış və Bağdad yaxınlığında Vasıt əyalətindəki əl-Əxtab neft yatağının istismarı ilə bağlı müqavilənin bərpası məsələsi müsbət həll olunmuşdu [17, s. 95]. Eyni zamanda İraq hökuməti bu şirkəti digər müqavilələr əldə etmək imkanı üçün "ədalətli və açıq tenderlərdə" iştiraka cəlb etmək istəyirdi. Lakin şirkətin nümayəndələri bəyan etdilər ki, yeni Neft Qanununun qəbul olunmasına qədər İraqın neft strukturuna əlavə vəsaitin yatırılması nəzərdə tutulmur.

2008-ci ildən etibarən ikitərəfli iqtisadi əməkdaşlıq yüksək templərlə inkişaf edirdi. Qeyd edək ki, Çinə İraq ixracatının 98%-i neft təşkil edirdi. 10 noyabr 2008-ci ildə əl-Əxtab neft yatağının birgə istismarı ilə bağlı saziş imzalandı (sövdələşmə 2,9 mlrd. doll. məbləğində dəyərləndirilirdi). Həmən ildə Çinin CNPC (50% pay), Fransanın "Total" (25% pay) və Malayziyanın "Petronas" (25% pay) şirkətləri Həlfiyə neft yatağının istismarı ilə bağlı tenderin qalibi oldular. 2009-cu ildə CNPC (37% pay), İngiltərənin BP (38% pay) və İraq neft marketinqi üzrə Dövlət şirkəti (25% pay) arasında 20 il müddətinə Cənubi Rumeyla neft yatağının istismarı ilə bağlı müqavilə imzalandı [4, s. 229]. 2010-cu ildə Çin Milli offşor neft korporasiyası (63,75% pay) Türkiyənin "Turkish petroleum Corporation" (11,25% pay) və İraq Milli neft şirkəti (25% pay) ilə birlikdə 20 il müddətinə Meysan əyalətinin üç neft ərazisində neft hasilatı hüququnu əldə etdi [22]. Əlavə olaraq qeyd edək ki, Çin neft şirkətləri müqavilələrin kifayət qədər sərt şərtləri və minimal gəlirləri ilə razılaşdığı halda, bunu Qərb şirkətləri haqda söyləmək mümkün deyildir.

2010-cu ilin fevralında İraqda biznes maraqlarının daha irəli aparılması müqabilində Çin bu ölkənin 8,5 milyardlıq borcunun 80%-i sildi.

Çin ilk növbədə öz milli neft-qaz şirkətlərinin İraq iqtisadiyyatının karbohidrogen sahəsində mövqelərinin gücləndirilməsini təmin etmək məqsədi ilə intensiv və məqsədyönlü fəaliyyət aparmağı nəzərdə tuturdu.

23 fevral 2011-ci ildə Çin xarici işlər nazirinin müavini Czay Tsunun rəhbərlik etdiyi nümayəndə heyətinin Bağdada işgüzar səfəri və İraq dövlət rəsmiləri ilə danışıqları ikitərəfli iqtisadi əlaqələrin dərinləşməsinə, beynəlxalq və regional problemlərlə bağlı siyası əməkdaşlığın möhkəm təməlinin qurulmasına yönəlmişdi. İraq rəhbərliyi müxtəlif sahələrdə çətinlikləri dəf edilməsi, ölkənin iqtisadi dirçəlişi, infrastruktur və təsərrüfatın bərpası yönündə mütəxəssislərin hazırlanması üçün Çinin yardımını və cəhdlərini yüksək qiymətləndirmiş, BMT TŞ-da sanksiyaların aradan qaldırılmasında dəstəyə görə təşəkkürünü bildirmişdi.

2011-ci ilin iyulunda İraq Baş naziri Nuri əl-Məliki Pekinə rəsmi səfər etmişdi. Bu, diplomatik əlaqələrin 50 ildən çox davam edən tarixində İraq hökumət başçısının ilk belə səviyyəli səfəri idi. Görüşlər zamanı Çin rəsmiləri siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığa, regional və beynəlxalq problemlərlə bağlı işbirliyinin möhkəmləndirilməsinə hazır olduqlarını bildirdilər. Eyni zamanda Çin tərəfi iki ölkə arasında praqmatizm və qarşılıqlı fayda prinsipləri əsasında ticarət-iqtisadi, o cümlədən neft və qaz emalı, infrastruktur inşası sahələrində əməkdaşlığın fəallaşmasının zərurətini qeyd edirdi. İraqın Baş naziri sözlərinə görə, onun ölkəsi Çinin inkişaf təcrübəsindən yararlanmaq niyyətindədir və bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini hədəfləyib. Səfər çərçivəsində iqtisadiyyat və texnologiya sahələrinə dair saziş imzalanmış, həmçinin texniki personalın hazırlanması üçün notalar mübadiləsi edilmişdi.

Beləliklə, 2003-cü il müharibəsindən sonra İraq Çinin mühüm enerji və ticarət tərəfdaşına çevrildi. İki ölkə arasında ticarətin həcmi 2002-ci ildəki 517 mln. doll.-la müqayisədə 2012-ci ilin sonunda 17,5 mlrd. doll-a qədər yüksəldi. Çin İraq ixracının alıcıları arasında ABŞ-dan sonra ikinci (12,6 mlrd. doll.) və bu ölkəyə ixrac mallarının həcminə görə Türkiyədən sonra (10,8 mlrd. doll.) ikinci oldu (4,9 mlrd. doll.) [24]. 2014-ci ildə İraqın neft layihələrinin 1/5-dən çoxu aparıcı Çin neft şirkətlərinin payına düşürdü. 2014-ci ildə İraqda gündəlik istehsal edilən 3 mln. barel neftin təqribən yarısını Çin alırdı [29]. Təsadüfi deyil ki, 2014-cü ildə son 23 il ərzində Bağdada səfər edən ilk Çin xarici işlər naziri Van İ enerji sahəsindəki əməkdaşlığı ikitərəfli münasibətlərin "təməl daşı" adlandırmışdı [30].

2013-cü illə müqayisədə 2014-cü ildə İraqdan Çinə xam neftin ixracı 68% artmış, bu da onu ən iri neft ixrac edən ölkələrdən birinə çevirmişdi. 2015-ci ilin məlumatlarına görə, Çin İraqdan 12,7 mlrd. doll. həcmində neft ixrac edirdi [28]. Bu dövrdə İraq neft sektoruna Çin investisiya yatırımlarının məbləği ildə 2 mlrd. doll. təşkil edirdi, neft ərazilərinin istismarı üçün ölkəyə 100-lərlə çinli mühəndis-neftçı və digər mütəxəssis gəlirdi. Çin hətta işçilərin gediş-gəlişi üçün İraqın sərhəd zonasında öz aeroportunu da inşa etmişdi. 2016-cı ildə Bəsrə və Çinin bir neçə şəhəri arasında birbaşa hava yolları açılmışdı. Həmin dövrdə İraqın neft yataqlarında çalışan 10 min Çin vətəndaşının əksəriyyəti cənub yataqlarının istismarı ilə məşğul idilər.

Qeyd edək ki, Çin həm də Kürd muxtariyyəti ilə sıx iqtisadi əlaqələr saxlayırdı. Bu sırada neft şirkətlərinin fəaliyyəti xüsusən geniş miqyas almışdı. Onların Şimalın neft yataqlarının istismarı üzrə əməkdaşlığı Qərbin orta miqyaslı şirkətlərindən neft layihələrindəki payları almaqla başlamışdı. Belə ki, miqyasına görə Çinin ikinci iri neft şirkəti Sinopec bölgənin ən iri Tak-Tak yatağını AddaxPetroleum adlı İsveçrə-Kanada şirkətindən 8,27 mlrd. doll.-a almış və 2009-2013 illər arasında burada 16 yeni quyu qazaraq istifadəyə vermişdi [27].

Sonrakı illərdə də Çinin iri neft şirkətləri İraqın enerji sektorunda öz iştirakını genişləndirirdi. Belə ki, 2013-cü ildə CNPC Qərbi Qurna yatağında Amerikanın Exxon-Mobil şirkətinə məxsus 25% payı almışdı. Lakin bu əməliyyatdan sonra Çinin gözlənilən iqtisadi ekspansiyasının perspektivləri İraqda İŞİD terror qruplaşmasının ölkənin həyati əhəmiyyətli neft infrastrukturunu ələ keçirməsi ilə faktiki aradan qalxdı. İraqın şimalında Çin şirkətlərinin çalışdığı bölgələrdə İŞİD dəstələrinin hücumu nəticəsində durum təhlükəli hala gəldiyi üçün Çin səfirliyi 1300 işçini təxliyə edərək Bağdada daşıdı [23]. İraqın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini müdafiə edən rəsmi Pekin eyni

zamanda ölkədə hökm sürən qeyri-sabitlikdən, təhlükəsizliyin olmamasından narahat idi və bunu öz maraqları üçün ciddi təhdid hesab edirdi. O, Səudi Ərəbistan, İran, Küveyt və BƏƏ kimi Yaxın Şərq ölkələri ilə iqtisadi, ilk növbədə enerjidaşıyıcıları sahəsində əməkdaşlığın stabil olacağı və müxtəlif sarsıntılara məruz qalmayacağı qənaətində idi, bu səbəbdən də həmin ölkələrdən neft ixracının diversifikasiyası haqda qərar qəbul etdi.

Pekin digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinə ənənəvi sadiqlik göstərsə də bu hadisələr onun prinsipləri üçün əsil sınaq oldu və ölkədən kənarda öz vətəndaşlarının və biznes maraqlarını daha aktiv qorumağa sövq etdi. Heç də təsadüfi deyil ki, 2014-cü ildə İŞİD-in hücumlarının qızğın vaxtı ÇXR-in lideri Si Tsinpin bəyan etdi ki, ölkəsi vəziyyətin stabilləşməsi məqsədi ilə İraq hökumətinə bütün mümkün olan vasitələrlə yardım etməyə hazırdı [25].

2015-ci ildə Pekinə rəsmi səfər gedişində ikitərəfli münasibətləri "strateji tərəfdaşlıq" kimi dəyərləndirən İraqın Baş naziri Heydər əl-Əbadi bildirdi ki, onun ziyarəti iqtisadi, enerji, təhlükəsizlik, infrastruktur, inşa və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə yönəlibdir. Çin lideri Si Tsinpin öz növbəsində İraq hökumətinin təhlükəsizlik və sabitliyin qorunmasında atdığı addımları dəstəklədiyini və bu yöndə Bağdadla əməkdaşlığa hazır olduqlarını təsdiq etdi. 2017-ci ilin əvvəllərində isə Çin ölkəyə humanitar yardım etmək istədiyi ilə bağlı İraq hökumətinə məktub göndərdi [26].

Çin İraqda iqtisadi varlığını gücləndirməyə davam edərək müxtəlif sahələrin, o cümlədən elektrik enerjisi, telekommunikasiya və xidmət sahələrinin inkişafına iri investisiyalar qoyur, həmçinin iqtisadiyyatın və infrastrukturun baza sahələrinin bərpası üçün geniş miqyaslı yardım edirdi [31]. 2018-ci ilin əvvəlində PowerChina və Nerco şirkətləri Bəsrə əyalətində günlük gücü 300 min barel olan əl-Fao neftayırma və neftkimya kompleksinin inşası üzrə tenderin qalibi oldular. Eyni vaxtda digər layihələrin həyata keçirilməsi ilə bağlı bir sıra şirkətlərlə də danışıqlar aparılırdı [18].

İraqda son illərdə təhlükəsizliklə bağlı durum yaxşılaşsa da tam sabitliyin əldə olunması haqda danışmaq hələ tezdir. Bu, Çin üçün, xüsusən də neftin ixracı ilə bağlı müəyyən risklər yaradır. Təhlükəsizlik problemləri ilə yanaşı konfessiyalar arası gərginlik, mürəkkəb hüquqi baza, korrupsiya və lazimi infrastrukturun olmaması kimi bir sıra başqa çağırışlar da mövcuddur. Bu da Pekini alternativ satıcılar axtarmağa məcbur edir.

Ümumilikdə, qeyd edə bilərik ki, tədqiq olunan dövrdə dünya siyasətində açar rolu oynayan və artan geopolitik ambisiyaları olan Çin Yaxın Şərq ölkələri ilə iqtisadi və hərbi-siyasi əlaqələrini xeyli dərinləşdirdi. Yaxın Şərq ölkələri ilə çoxşahəli əlaqələri məqsədyönlü və fəal şəkildə genişləndirmək, bu regionda öz təsirini gücləndirmək Çinin müasir xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Son illərdə Pekinin Yaxın Şərqdəki iqtisadi və siyasi mövqeləri xeyli möhkəmlənib və o, region ölkələrində "dost və məsuliyyətli dövlət" obrazının formalaşdırması istiqamətində səylər göstərir [10, s.158 ]. Artıq Yaxın Şərq ölkələrinin bəziləri Çinə beynəlxalq arenada alternativ güc və həm iqtisadi, həm də siyasi sahədə daha çevik tərəfdaş kimi baxmağa başlayıblar.

Lakin bu istiqamətdə Pekinin öz məqsədlərinə tam şəkildə çatmasına bir sıra obyektiv və subyektiv səbəblər maneə olur. Onların arasında ən əsaslarını qeyd edək.

Birincisi, Yaxın Şərqin münaqişə potensialı regiondan kənar istənilən qüvvənin siyasətini obyektiv olaraq çətinləşdirir.

İkincisi, ABŞ amilinin təsiri. Yaxın Şərqdə ABŞ-ın təsirinin müəyyən dərəcədə azalmasına baxmayaraq, onlar bu regionda əvvəlki kimi ən gözəçarpan aktor olaraq qalır. Bu mənada Çinin artmaqda olan fəallığı həm ABŞ, həm də regiondan kənar digər güclərin narahatçılığına səbəb olmaya bilməz.

Üçüncüsü, Çinin qarışmamaq və bitərəflik prinsiplərinin əsasında qurulan Yaxın Şərq siyasəti aparıcı dünya dövləti statusuna tam uyğun gəlmir. Çinin regionda yürütdüyü "sakit" və "yumşaq" siyasətin ABŞ-ın siyasətindən köklü fərqi məhz bu müstəvidə gizlənir. Müəyyən mənada bu amil mənfi yük daşıyır, çünki regiondakı durum və proseslərin dinamikası passiv mövqe nəzərdə tutmur.

Dördüncüsü, Pekin hələ ki Yaxın Şərqdə geopolitik proseslərin ümumi istiqamətlərini müəyyənləşdirən güc statusunda deyil.

## Ədəbiyyat siyahısı


**1.** Ersoy, E. Çin Dış Politikasında Ortadoğu: Temkin Diplomasisi Üzerine Bir İnceleme // - İstanbul: Uluslararası Hukuk ve Politika, - 2012. 8, №31, - s.37-55. URL: https://docplayer.biz.tr/11380531-Cin-dis-politikasinda-ortadogu-temkin-diplomasisi-uzerine-bir-inceleme.html

**2.** Арсентьева, И.И. Ближневосточный вектор внешней политики КНР // - Москва: Актуальные проблемы современных международных отношений, -2015, №15 URL: https://cyberleninka.ru/article/n/blizhnevostochnyy-vektor-vneshney-politiki-knr

**3.** Багирова, А. Внешняя политика Ирака (1968-2003) / А.Багирова. – Баку: Адильоглу, - 2003. – 540 с.

**4.** Багирова, А. Иракский кризис: внутренний и международный аспекты / А.Багирова. – Баку: Elm və təhsil, - 2017. – 376 с.

**5.** Базанова, Е. Позиция Китая в отношении кувейтского кризиса (1990-1991) // Москва: Вестник РУДН. Серия: Всеобщая история, - 2010, №4 URL: https://cyberleninka.ru/article/n/pozitsiya-kitaya-v-otnoshenii-kuveytskogo-krizisa-1990-1991.

**6.** Базанова, Е. Основные этапы сотрудничества КНР с арабскими странами Ближнего Востока в 1980-2010 гг. // - Москва: Проблемы Дальнего Востока, - 2011, №6 URL: https://cyberleninka.ru/article/n/osnovnye-etapy-sotrudnichestva-knr-s-arabskimi-stranami-blizhnego-vostoka-v-1980-2010-gg

**7.** Волович, А. Китай на энергетическом рынке Ближнего Востока. URL: http://www.iimes.ru/rus/stat/2004/22-09-04.htm

**8.** Голобоков, А. Становление и развитие внешнеполитической доктрины Китая // - Москва: Мировая система и межрегиональные отношения, - 2010, №3, - с.117-124

**9.** Давыдов, А. Китай в современной внешнеполитической стратегии США // Москва: США-Канада, - 2003, № 4, - с. 34-45.

**10.** Ильминская, М. Регион Персидского залива как зона жизненно важных интересов Китая // - Москва: Вестник РУДН. Серия: Международные отношения, - 2015, № 1, - с. 152-161.

**11.** Кашин, В. Зачем Китаю Ближний Восток // URL: https://vz.ru/opinions/2019/9/25/999656.html

**12.** Козыкина, Н., Муратшина, К. Особенности дипломатии современного Китая / Н.Козыкина, К.Мурташина. – Екатеринбург: Издательство Уральского университета, 2017. – 148 с.

**13.** Кокарев, В. К вопросу об интересах Китая на Ближнем Востоке URL: http://geopolitics.by/analytics/k-voprosu-ob-interesah-kitaya-na-blizhnem-vostoke-2015

**14.** Лузянин, С.Г. Китай: смена поколений и внешнеполитические прогнозы URL: http://www.intelros.ru/readroom/mir-i-politika/m11-2012/16955-kitay-smena-pokoleniy-i-vneshnepoliticheskie-prognozy.html

**15.** Лузянин, С. Внешняя политика Китая: региональные и глобальные аспекты URL: http://ras.ru/viewnumbereddoc.aspx?id=a3fef227-2eef-4ef7-a5bc-74cb0d5cd0d4&_Language=ru

**16.** Мамонов, М. Инерция и новации во внешней политике Китая. // Москва: Международные процессы, - 2010, - 8, №3 (24), - с.40-56.

**17.** Охотников, С. Иракская проблема как зеркало китайской дипломатии //Москва: Иракский кризис: международный и региональный контекст. Материалы «круглого стола». Институт стран Азии и Африки при МГУ. Институт изучения Израиля и Ближнего Востока, - 2003. – с. 90-99.

**18.** РИА Новости. Китайские компании построят НПЗ на юге Ирака URL: http://ria.ru/economy/20180129/151317238.htm

**19.** Пахомова, М. Политика Китая в странах Арабского Востока (1978 -2012 гг.) URL: http://cheloveknauka.com/politika-kitaya-v-stranah-arabskogo-vostoka-2013

**20.** Свешников, А. Концепции КНР в области внешней политики и национальной безопасности //- Москва: Китай в мировой политике. – 2001, -РОССПЭН, с. 93–143.

**21.** Тавровский, Ю. Политика «реформ и открытости» Китая и «возрождение

нации». URL: http://www.perspektivy.info/oykumena/azia/politika_reform_i_otkrytosti_kitaja_i_vozrozhdenije_nacii_2018-11-13.htm

**22.** Arango, T. & Krauss, C. China is Reaping Biggest Benefits of Iraq Oil Boom URL: https://www.nytimes.com/2013/06/03/world/middleeast/china-reaps-biggest-benefits-of-iraq-oil-boom.html

**23.** Blanchard, B. China says may have citizens fighting in Iraq. URL: https://www.reuters.com/article/us-iraq-security-china/china-says-may-have-citizens-fighting-in-iraq-idUSKBN0FX0FV20140728.

**24.** Cendrowski, Sc. China's Iraq Oil Problem. URL: http://fortune.com/2014/06/30/chinas-iraq-oil-problem

**25.** China to Support Iraqi gov't in stabilizing situation. URL: http://www.chinadaily.com.cn/world/2014-08/16/content_18369685.htm

**26.** Chinese premier announces humanitarian aid for Iraq in letter to Iraqi counterpart. URL: http://news.xinhuanet.com/english/2017-01/11/c_135974400.

**27.** China Looks to Kurdistan as Growing Oil Partner. URL: http://www.rudaw.net/english/kurdistan/29072013

**28.** Crude Oil Imports by Country, Crude Oil Imports into China. URL: http://www.worldstopexports.com/crude-oil-imports-by-country

**29.** Dexter, R. Iraq Crisis Threatens Chinese Oil Investments. URL: https://www.bloomberg.com/news/articles/2014-06-17/iraq-crisis-threatens-chinese-oil-investments

**30.** Keck, Z. China and Iraq Expand Energy and Defence Ties. URL: https://thediplomat.com/2014/02/china-and-iraq-expand-energy-and-defense-ties/

**31.** Lee, J. China offers Iraq 11.7 m for Reconstruction. Iraq Business News. URL: http://www.iraq-businessnews.com/2017/07/13/china-offers-iraq-11-7m-for-reconstruction

**32.** Аль-Джумхурийя аль-Иракийя. Визарат ат-тахтит. Аль-Джихаз аль-маркази ли-ль-ихса. Аль-Маджмуа аль-ихсаийя ас-санавийя //- Багдад: 1996, - 408 с.

## Резюме

**Аида Багирова**

### Иракское направление ближневосточной политики Китая

В статье рассматриваются особенности и характерные черты стратегии Китая в отношении Ближнего Востока начиная с 70-х годов XX в. и по настоящее время. Указывалось, что усиление роли и значения этого региона в его внешнеполитической стратегии было связано как с политическими, так и экономическими факторами. Быстро растущая экономика Китая требовала значительных энергоресурсов, в том числе углеводородных, и в этом смысле Ближний Восток с его огромными углеводородными запасами приобретает для Китая особый вес.

Автор указывает, что среди стран Ближнего Востока Ирак занимает важное место во внешней политике Китая. В статье исследуется история становления ирако-китайских отношений и их развитие на различных этапах. Особое внимание уделено анализу основных направлений двустороннего сотрудничества в различных областях, в особенности в нефтяной сфере. Центральное место в статье занимает рассмотрение места Ирака в геоэкономической стратегии Китая после войны 2003 г.

***Ключевые слова:*** *Китай, Ближний Восток, Ирак, двустороннее сотрудничество, нефтяной фактор*

**Summary**

**Aida Baghirova**

**Iraqi direction of China's Middle East policy**

The article examines the features and characteristics of China's strategy towards the Middle East since the 70s of the XX century to the present. It was pointed out that the strengthening of the role and importance of this region in its foreign policy strategy was associated with both political and economic factors. China's rapidly growing economy required significant energy resources, including hydrocarbons, and in this sense, the Middle East with its huge hydrocarbon reserves is gaining special weight for China.

The author points out that among the countries of the Middle East, Iraq occupies an important place in China's foreign policy. The article examines the history of the formation of Iraqi-Chinese relations and their development at various stages. Special attention is paid to the analysis of the main directions of bilateral cooperation in various fields, especially in the oil sector. The article focuses on the consideration of Iraq's place in China's geo-economic strategy after the 2003 war.

***Keywords:*** *China, the Middle East, Iraq, bilateral cooperation, oil factor*

**UOT 94 (479.24)**

**AYGÜN ƏZİMOVA**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu*
*aygun.azimova77@gmail.com, Azərbaycan*

# 1917-1918-Cİ İLLƏRDƏ BAKIDA BAŞ VERƏN HADİSƏLƏRDƏ İNGİLİS AMİLİ (dekabr 1917 – sentyabr 1918)

***Açar sözlər:*** *Bakı Soveti, Sovet Rusiyası, bolşeviklər, daşnaklar, ingilislərin dəvət edilməsi, Makdonell, Denstervil, Şaumyan*

1917-1918-ci illərdə Azərbaycanda baş verən hadisələrdə xarici amillərin də mühüm rol oynadığı danılmazdır. Həmin dövrdə hələ Rusiyadan siyasi cəhətdən ayrılmayan Qafqazla birgə Azərbaycan da öz geostrateji mövqeyi ilə, ilk növbədə neft və Xəzər dənizinə çıxışı ilə diqqət çəkməkdə idi. Lakin Azərbaycana maraq Rusiyadakı siyasi vəziyyət ilə şərtlənirdi. Belə ki, bəhs edilən dövrdə daxilində burjua demokratik inqilab baş vermiş Rusiya I Dünya Müharibəsində vuruşan tərəflərdən biri kimi qalırdı və burada hakimiyyətə gələn siyasi qüvvələrin xarici siyasətdə hansı kursu seçəcəyindən çox şey asılı idi. Həm Rusiyanın müttəfiqləri olan İngiltərə, Fransa, ABŞ, həm rəqib Almaniya və Türkiyə (Qafqaz cəbhəsində ) ölkədə baş verənləri diqqətlə izləyirdilər. Əgər Müvəqqəti Hökumət əvvəlki xarici siyasi kursu davam etdirdisə, artıq Oktyabr çevrilişindən sonra hakimiyyətə gələn bolşeviklər bu istiqamətdə radikal addımlar atdılar. Məhz belə bir tarixi şəraitdə Cənubi Qafqaz və o cümlədən Azərbaycan ərazisi bolşevik Rusiyası, Antanta, Mərkəz dövlətləri və Qafqazdakı milli qüvvələrin mübarizəsinə meydan oldu. Cənubi Qafqazda ortaya çıxan siyasi qurum-Zaqafqaziya Komissarlığının bolşevik hakimiyyətini qəbul etməməsi buna imkan yaratmışdı. Cənubi Qafqazda milli qüvvələrin -müsavatşı, daşnak və gürcü menşeviklərinin hər birinin hansı xarici dəstəyi alması hadisələrin gedişinə ciddi təsir edə bilərdi.

Noyabrın 20-də (3 dekabr) Bolşevik Rusiyasının Almaniya ilə Brest-Litovsk barışığı imzalayaraq müharibədən çıxmasından sonra Zaqafqaziya Komissarlığı da dekabrın 5 (18) -də Türkiyə ilə Ərzincan barışığı imzaladı və Qafqaz cəbhəsində hərbi əməliyyatların dayandırılmasına qərar verildi. Müharibənin dayandırılması ayrıca olaraq, müttəfiqlərini itirmiş Antanta dövlətlərindən biri olan Böyük Britaniyanın da siyasi mövqeyinə zərbə idi və bu dövrdən etibarən ingilislərin Qafqaz işlərinə birbaşa müdaxiləsi başladı.

Sovet tarixşünaslığında 1917-1918-ci illərdə Azərbaycanda və ümumiyyətlə bölgədə baş verən hadisələrə Böyük Britaniya dövlətinin təsirləri bir sıra tədqiqatlarda imperialist dövlətlərin Sovet Rusiyasına qarşı müdaxiləsi aspektindən araşdırılmış, ingilislərin hərbi işğal həyata keçirdikləri göstərilmişdir. Bu zaman Bakıda bolşevik hakimiyyəti ilə ingilislər arasında münasibətlərə səhti toxunulmuş [27] bu səbəbdən də ingilislərin Bakıda baş verən hadisələrdə rolu dəqiq müəyyən edilməmişdir. Haşiyəyə çıxaraq qeyd etmək lazımdır ki, ingilis siyasi dairələri və tarixşünaslığı ingilis hərbi missiyasının bölgədə mövcudluğunu öz maraqlarını qorumağa yönələn müvəqqəti taktiki addım kimi təqdim edirdi. Hazırda Vətən tarixşünaslığında bu məsələ yenidən araşdırılmaqdadır. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti bağlı ümumi monoqrafiyalardan sonra, məhz Böyük Britaniyanın bölgədəki siyasəti ilə bağlı sənəd toplularının nəşri bu istiqamətdə hərtərəfli tədqiqatlar aparılmasına imkan yaradır [7, 8]. Britaniya arxiv sənədləri bəhs edilən dövrdə Bakıda siyasi hadisələrin gedişinə ingilis kəşfiyyatının təsirini ortaya qoyur. Xüsusən, son dövrdə tarixçi alim N. Maksvellin silsilə elmi məqalələri bir çox qaranlıq məsələlərə aydınlıq gətirir [20, 21]. Müəllifin fikrincə, Cənubi Qafqazda, xüsusən, Azərbaycanda öz nəzarətini təmin etmək cəhdlərini Böyük Britaniyanın bütün Orta

Şərqdəki siyasətinin prioritet məsələsi hesab etmək olar [ 20, c.97 ].

Beləliklə, Ərzincan barışığından sonra Cənubi Qafqaz ərazisindən rus ordusunun tərxis edilməsi prosesi başlandı. Lakin bu heç də bölgədə sülhün bərqərar olması deyildi. Bu səbəbdən də buradan gedən rus ordusunu gürcü, erməni, müsəlman eləcə də rus hərbi qüvvələrinin daxil olduğu milli hərbi hissələrin əvəz etməsi məsələsi ortaya çıxdı. Necə olur-olsun bölgədə alman-türk blokunun mudaxiləsinin qarşısını almağa çalışan Antanta dövlətləri belə qüvvələrin yaradılmasında maraqlı idilər.

Konkret olaraq Böyük Britaniya rus ordusunun bölgədən çıxarılmasından sonra Türkiyə və Almaniyanın Qafqaz və Xəzəri keçməklə Türküstan və Orta Asiyanı işğal edəcəyindən və bununla da Əfqanıstan və Hindistanda onun mövqeyinə təhlükə yaradaçağından narahat idi. Həmin vaxt Qafqaz ərazisi ingilislərin olduğu Bağdad cəbhəsindən çox uzaqda yerləşdiyindən onlar hələki buraya kifayət qədər canlı qüvvə də göndərmək imkanına malik deyildilər. Bu səbəbdən də yeganə mümkün və məqsədəuyğun plan Tiflisə ingilis missiyası göndərmək idi. Missiya burada dağılmış rus, gürcü və erməni ordusunun qalıqlarını yenidən təşkil etməklə türklərə qarşı cəbhəni bərpa etməli idi [12, c.2]. Lakin bu yolla ingilislər yalnız öz mülklərinin təhlükəsizliyini qorumağı düşümürdülər. Onlar hesab edirdilər ki, bölgədə yaranacaq erməni-gürcü siyasi muxtariyyəti Almaniyanın əlində daha güclü silaha çevriləcək və dünya üçün daha təhlükəli ola biləcək İstanbuldan –Çinədək uzana bilən panturan hərəkatının inkişafı qarşısında duran yeganə maneə ola bilərdi [19, c. 94 ].

Türkiyənin siyasi planları barədə Britaniya hökumətinin narahatlığı üçün əslində müəyyən dərəcədə əsas da var idi. Belə ki, bu zaman Türkiyə də sözügedən ərazilərdə siyasi və təbliğat işləri görməkdə idi. Məhz Cənubi Qafqaza gəldikdə, Türkiyə buradakı təsirini Azərbaycan milli qüvvələrini dəstəkləmək yolu ilə yaymaqda idi. Türkiyənin bu istiqamətdə fəaliyyəti ilk növbədə “Turan” ideyasının (Tükriyənin siyasi hakimiyyəti altında Qafqaz, Türküstan, İran, Krım, Volqaboyu ərazilərinin daxil olduğu siyasi birliyin yaradılması ideyası-A.Ə.) reallaşdırılması məqsədi ilə bağlı idi və bu ərazilərdə siyasi təbliğat işi görmək üçün emissarlar da göndərilmişdi. Müharibə illərində Tehran, Təbriz, İsfahan, Rəşt və digər şəhərlərdə fəaliyyət göstərən “İttihadi islam” komitələri [15, c.187 ] də əslində bu məqsədə xidmət etməli idi. 1917-ci ilin dekabr ayında isə bu məqsədlə Rüştü bəy Bakıya göndərilmişdi [5, s.51].

Yerli milli qüvvələri dəstəkləmək xətti tutan ingilislər hələlik Türkiyəyə qarşı mübarizədə daha maraqlı tərəf - ermənilər üzərinə seçim etmişdilər. Ermənilərin cəbhə xəttində mövqelərdə qalması ingilisləri buna görə onları maddi cəhətdən təmin etməyə sövq edirdi [20, c.96]. Dekabrın 7-də İngiltərənin Hərbi kabineti ermənilərə maliyyə dəstəyi edilməsi haqqında qərar qəbul etmişdi [4, s.237]. Konsul Stivens rəsmi şəkildə Britaniya hökumətinin erməniləri dəstəkləmək niyyətində olduğunu onlara bildirmişdi [20, c.96; 7, c.66 ]. Xüsusi bir komitə yaradılaraq milli qüvvələrin maliyyələşdirilməsi işinə başlanmışdı**.** Ermənilərin dəstəklənməsi üçün 20 milyon sterlinq ayrılmışdı [4, s.237]. Birinci dəfə üçün erməni hərbi hissələrinə verilməli olan 1 milyon rubl general Averyanova çatdırılmışdı [ 7, c.66 ].

Qeyd etmək lazımdır ki, ABŞ və Fransa dövlətləri də burada antibolşevik qüvvələrin maliyyələşdirilməsidə niyyətli idilər. Hələ 27 oktyabr (9 noyabr)-da ABŞ-ın Rusiyadakı konsulu Smit dövlət katibi Lansinqə Cənubi Qafqazdakı antibolşevik qüvvələrə 10 milyon dollar maliyyə yardımı etmək lazım olduğunu yazmışdı [27, c.39]. Lakin dekabrın 23-də Böyük Britaniya və Fransa Rusiya ərazisində maraq dairələri barədə razılığa gəlmiş və Qafqaz da Britaniyanın təsir dairəsi elan edilmişdi. Bundan sonra ingilislər fəal şəkildə öz planlarını həyata keçirməyə başlamışdılar.

Qafqazda Milli korpusların yaradılması vəzifəsi Tiflisdəki Britaniya missiyasının başçısı briqada generalı Offli Şoura (Bir qədər sonra onu podpolkovnik Payk əvəz eləmişdi.-A.Ə.) həvalə olunmuşdu. Bu məqsədi həyata keçirməli olan general mayor L. Denstervil isə 1918-ci ilin yanvarında Bağdaddan İrana yola düşmüşdü. Denstervilin həyata keçirəcəyi əməliyyatın müvəffəqiyyətli olması üçün hazırlıq işləri görmək məqsədilə əvvəlcə mayor C.M. Qoldsmis göndərilmişdi. O, fevralın 13-də Bakıya gəlmiş oradan da Tiflisə yola düşmüşdü [21, c.333]. Qafqazda gedən prosesləri yaxından izləmək

üçün buna qədər Bakıda İngiltərənin vitse-konsulu vəzifəsində işləyən R. Makdonell də Bakı ilə Tiflis arasında kuryer olaraq Tehrandan Tiflisə göndərilmişdi. O, ingilislərin ermənilərə ayırdığı pulları İrandan Tiflisə çatdırmalı idi [34, c.185]. Bir qədər sonra, fevral ayında digər xüsusi xidmət orqanı əməkdaşı, rus və fars dillərini yaxşı bilən kapitan Edvard Noel də ona qoşulmuşdu [ 2, s.23; 6, s.152]. Makdonellin öz sözlərinə görə, 1918-ci ilin əvvəlində Makdonell kapitan Noel ilə birlikdə 2 milyon rubl pulu ermənilərə çatdırmaq üçün xüsusi hazırlanmış vaqonda Bakıdan Tiflisə aparmışdılar.

Lakin xarici dövlətlərin siyasi müdaxiləsi regionda milli münasibətlərə ciddi təsir etməklə burada onsuz da milli qüvvələrin bir –birinə qarşı olan inamsızlığını daha da artırırdı. İngilislərin dəstəyini alan ermənilərin “öyünmələri” buna ciddi təsir edirdi. Belə vəziyyət mövqeləri hələ kifayət qədər möhkəm olmayan ingilisləri narahat etmişdi [7, c.66 ]. Sonradan Makdonell da məhz bunu nəzərdə tutaraq təəssüf ki, ilk pul yardımı ermənilərə edildi və bundan da bütün bəlalar başladı”-deyə, bildirmişdi [34, c.184]. Hətta ingilislərin ermənilərə maliyyə yardımı etməsindən çox narahat olan Azərbaycan milli qüvvələri qabaqlayıcı tədbirə də əl atmalı olmuş, Gəncə Milli Komitəsi ermənilərə pul aparan Makdonell və Noeli həbs etməyə cəhd göstərmişdi [ 7, c.67].

Mövcud vəziyyətdə çox çətinliyə düşən Azərbaycan milli qüvvələri isə xarici qüvvələr arasında manevr etmək imkanından məhrum idilər. Ümumilli mənafenin məhz bu cür addımlar atılmasını tələb etdiyi halda milli qüvvələr yalnız Türkiyə ilə birliyə ümid bəsləyə bilirdilər. Halbuki, bəzi sənədlərdən aydın olur ki, bolşeviklərə qarşı mübarizə üçün ingilislər Azərbaycan milli qüvvələrini də maliyyələşdirmək variantını da düşünmüşdülər. Onları buna sövq edən amillərdən biri ingilislər tərəfindən maliyyələşən erməni hərbi qüvvələrinin müsəlmanlara qarşı genişləndirdikləri zorakılıq hərəkətləri idi [34, c.184]. Sözssüz ki, bu hal türk və müsəlman qüvvələrin konsolidasiyasını gücləndirir, bolşevizm qarşısında Cənubi Qafqaz siyasi birliyini yaratmağı mümkünsüz edirdi. 1918-ci ilin yanvarın sonunda Bakıdakı vəziyyəti xarakterizə edən Noel Londona göndərdiyi teleqramında buradakı antiingilis əhvali-ruhiyyəsi barədə məlumat verərək bildirirdi ki, azərbaycanlıları ingilislərin hec bir millətə digərindən artıq himayə etmədiyi və ingilislərin yeganə istəyinin birləşmiş Qafqaz bloku yaratmaqdan ibarət olduğu barədə əmin etmək zəruridir [7, c.201]. Makdonellin verdiyi məlumatdan aydın olur ki, ingilislər general X.Talışxanovu (sənəddə Xan Talışxanov qeyd edilmişdir-A.Ə.) ingilislərin köməyini qəbul etməyə razı salsalar da, “Tiflisdəki müsəlman partiyası rəhbəri (?) Makdonelə artıq Türkiyə ilə razılaşmanın olduğuna görə belə addımın atılmasının gec olduğunu” bildirmişdi [7, c.68]. Hər halda, Azərbaycan milli qüvvələri ingilislərlə bağlı müstəqil qərar qəbul etmək imkanından məhrum idilər.

1918-ci ilin ilk aylarında bolşeviklərin siyasi addımları barədə qeyri-müəyyənlikdə olan ingilislər burada baş verən hadisələri uzaqdan izləyir və hələki birbaşa müdaxilə edə bilmirdilər. 1918-ci ilin yanvarında hələ Almaniya ilə sülh müqaviləsi imzalamayan Rusiya onunla müharibə vəziyyətində hesab olunurdu. Bu səbəbdən də həmin vaxt Britaniya nümayəndəsi Petroqradda bolşevik hökuməti ilə hərbi əməliyyatların davam etdirilməsi barədə danışıqlar aparırdı [ 18, c.39]. Hətta həmin vaxt İngiltərə sovet hökumətinin nümayəndəsi olan yeganə Qərb dövləti idi. İki dövlət arasında rəsmi olmasa da, qeyri rəsmi səviyyədə danışıqlar gedirdi [19, c.96].

Lakin 1918-ci ilin martında Almaniya və Sovet Rusiyası arasında imzalanan Brest-Litovsk sülhündən sonra ingilislərin mövqeyi qətiləşdi. Martın 16-da Londonda müttəfiqlərin siyasi müşavirəsi keçirildi və Brest-Litovsk sülhünün tanınmadığı bildirildi [19, c.101]. İngilislər hesab edirdilər ki, bu sülhdən sonra türklər və ən əsası da almanlar artıq digər bir istiqamətdən -İranın şimalından keçməklə Hindistana- ingilis mülklərinə soxulmaq imkanı əldə edə bilərdilər. Sülhə görə, Qara dəniz almanların nəzarətinə keçmişdi. İngilislər isə öz növbəsində Xəzər hövzəsində möhkəmlənərək buradan Türküstana gedən yolu bağlamaq istəyirdilər. Məhz bu dövrdən başlayaraq da regionun strateji sxemində Xəzər dənizi əsas element kimi ingilislərin diqqətini cəlb edir [18, c.44].

1918-ci ilin martında Bakıda bolşeviklərin daşnaklarla hərbi alyansda hakimiyyətdə qəti şəkildə möhkmlənmələri bölgədə yeni siyasi si-

tuasiya yaratmış, burada Bolşevik Rusiyasının rəsmi hakimiyyəti bərqərar olmuşdu. Lakin eyni zamanda müsəlmanlara qarşı soyqırımı törətməklə hakimiyyətin qəsb edilməsi bolşevik hakimiyyətinə ciddi "problem" yaratmışdı. Belə ki, müsəlmanların soyqırımı onsuz da Brest-Litovsk sülhünün şərtlərini gerçəkləşdirməyə çalışan Türkiyənin qətiyyətini artırmış, digər tərəfdən soyqırımından sonra Rusiya daxilində muxtariyyat fikrindən tamamilə imtina edən Azərbaycan milli siyasi qüvvələrinin Türkiyə oriyentasiyası daha da güclənmişdi. Lakin Rusiyada baş verənlər və eləcə də Şimali Qafqazda da sovet qüvvələrinın milli qüvvələrlə gərgin mübarizəsi səbəbindən Bolşevik Rusiyası buraya fəal müdaxilə edə bilmirdi. Belə olan halda obyektiv olaraq Xəzər hövzəsinin türk-alman blokunun əlinə keçməsi təhlükəsi (ingilislərin hadisələrə baxış bucağından baxdıqda -A.Ə.) də artırdı. Bu səbəbdən də regionda güclü hərbi qüvvəsi olmayan və geniş miqyaslı hərbi əməliyyatlar aparmaq niyyətində olmayan ingilis komandanlığı Denservilin ilk başdan nəzərdə tutulan Tiflis missiyasını Bakı missiyası ilə əvəz etdi. Məqsəd, artıq qeyd edildiyi kimi, ingilislərin rəqiblərinin Xəzər dənizində ağalıq etmək və Asiyada ingilis "mülk"lərinə soxulmaq planının qarşısını almaq idi. Bunun üçün Denstervil ilk növbədə Xəzər Hərbi Donanmasını (XHD) öz tərəfinə çəkmək və "erməni hərbi qüvvələri və keçmiş rus ordusu qalıqlarını təşkil etmək"lə [34, c.202] Bakının müdafiəsinə nail olmalı idi. Şəhərdə ingilislərin dəstəyinə ümid edən çoxsaylı siyasi qüvvələr və qrupların mövcudluğu ingilislərin bu planı reallaşdırmaq üçün əminliyini artırırdı.

Bakıda ingilislərin gəlişini arzulayan və onlarla bilavasitə əlaqə yarada bilən bir neçə qrup mövcud idi. Bunlardan birincisi erməni siyasi qüvvələri (Erməni Milli Şurası və daşnaklar – A.Ə.) idi. Hələ aprel ayının ikinci yarısında Bakı EMŞ Həmədanda olan Denstervilin yanına nümayəndə göndərərək ingilislərdən kömək istəmişdi [12, c.100].

Denstervillə əlaqə yaratmağa cəhd edən digər fəal qrup Bakı eserləri idi, hansılar ki, hərbi donanmada güclü siyasi mövqeyə sahib idilər. Bolşeviklərin donanmada apardığı "islahat"lar eserlərin mövqeyini sarsıda bilməmişdi. Denstervil dəfələrlə eserlərin nümayəndələri ilə danışıqlar apardığını qeyd edir. Onlar ingilislərdən ilk növbədə maliyyə köməyi istəyirdilər [12,c.164].

Bundan başqa keçmiş çar ordusunda xidmət edən və Bakıda yığılıb qalan hərbiçilər də potensial olaraq ingilispərəst qüvvə idilər. Onların əksəriyyəti Cəbhəçilər İttifaqı adlı təşkilatda birləşmiş və müəyyən dövrdə bolşeviklərin "baş ağrısı"na çevrilmişdilər. Rusiyanın əksər şəhərlərində eyniadlı ittifaqlara bolşevik ordusuna qoşulmayan xeyli sayda hərbçilər daxil idi [14]. Bakıdakı belə ittifaq demək olar ki, müstəqil fəaliyyət göstərirdi [26, v.1]. Onlar bolşeviklərə qarşı çıxa bilən hər hansı digər qüvvəyə də dəstək ola bilərdilər. Ümumiyyətlə, sözügedən ittifaqın üzvü olan və ya olmayan xeyli sayda hərbiçi var idi. Makdonell ona Bakıda 1500-ə qədər belə hərbiçi olduğu barədə məlumat verildiyini qeyd edir [34,c.224]. Bu hərbiçilərin nümayəndələri hələ ingilis missiyasi İranda olarkən onunla əlaqə yaratmışdılar. Eləcə də, Bakıda olan Aviasiya məktəbinin (məktəbin bir neçə hidrotəyyarəsinin olması onun heyətinin bəzi avanturalara baş qoşmasına səbəb olmuşdu.-A.Ə) heyəti ingilislərə rəğbətli idi. Bu qüvvələrin dəstəyini nəzərdə tutan Denstervil sonradan yazırdı: "Mən öz ətrafımda 20-yə yaxın rus zabitini ciddi seçilən və çox bacarıqlı olan, əsasən də Bakı aviaməktəbinin aviatorları arasından yığmışdım. Onlar Qafqaza gələcək müdaxilə zamanı lazım ola bilərdilər. Hələlik isə, onlar Bakı ilə əlaqə yaratmaq və zəruri məlumatlar toplamaq üçün lazım idilər" [12, c.110].

Onu da qeyd etmək lazımdır ki, bəhs edilən dövrdə Bakıdakı siyasi qüvvələrin ingilis amilinə diqqət yönəltməsi bir tərəfdən "Türkiyə təhlükəsi"ilə bağlı idisə, digər tərəfdən bu daxildə böhranlı vəziyyətdən, zəruri ərzaq mallarının, əlalxsus, çörəyin qıtlığından dolayı yaranan kəskin narazılıqlardan irəli gəlirdi. Gözlənilənlərin əksinə olaraq, bolşeviklərin daxili siyasəti qeyri-müsəlman fəhlələrin də ümidlərini doğrultmamışdı. Müsəlman əhaliyə gəldikdə onlar obyektiv olaraq bolşevik hakimiyyətinə müxalif mövqedə idilər. Ümumiyyətlə, əgər siyasi qüvvə olaraq eserlər, menşeviklər, daşnaklar, ingilislərin Rusiyanın müttəfiqi qismində (Çar Rusiyasının və Müvəqqəti Hökumətin – A.Ə.) alman-türk blokuna qarşı əsas qüvvə ola-

cağına inanırdılarsa, fəhlələr məhz ingilislərin şəhərdəki ərzaq problemini aradan qaldıracaqlarına ümid edirdilər. Lakin nə qədər obyektiv səbəblər olsa da, ingilislərin Bakıya dəvət edilməsi ideyasının müəllifi ilk növbədə ingilislərin özləri idi. Denstervilin "Hərbi qüvvə olmadığına görə biz Bakıda özümüzə əlverişli mövqe yaradana qədər gözləməli, şəhərin intriqalarla neytrallaşdırılmasına nail olmalı idik" [12, c.121] sözləri bu zaman ingilislərin hansı məqsəd güddüklərini aydın izah edir. Beləliklə, Denstervil missiyası gələnə qədər ingilislər kəşfiyyat xidməti vasitəsilə Bakıda buna əlverişli şərait və şərtlər yaratmağa başlayırlar. Hərbi cəhətdən manevr imkanları olmasa da regionda kəşfiyyat işi yaxşı təşkil edən ingilislər Həmədandan Qafqaza qədər olan bütün ərazidə bütöv bir xəfiyyə və kuryer sistemi yarada və öz düşmənlərinə qarşı uğurla fəaliyyət göstərə bilmişdilər [12, c.56]. Onlar ilk növbədə Bakı bolşeviklərindən qaçan rus zabitlərini öz xidmətlərinə cəlb edərək şəhərdə cərəyan edən hadisələrdən xəbərdar olurdular. Bu cür hərbiçilər özlərini göstərmək üçün hər bir tapşırığın öhdəsindən gəlməyə hazır idilər. Denstervil qeyd edir ki, sonradan onlar hamısı öz reputasiyalarını tamamilə doğrulada bilmişdilər [12,c.66]. Lakin bu istiqamətdə əsas rolu uzun müddət Bakıda yaşayan və siyasi intriqalar qurmaqla kəşfiyyatçı xidməti göstərən ingilis vitse-konsulu (Həmin vaxt vitse-konsul vəzifəsini həm də Hevelke adlı şəxsin həyata keçirdiyi qeyd olunur-A.Ə.) Makdonell oynamışdı. O, demək olar ki, şəhərdəki bütün siyasi qüvvələrlə əlaqə yaratmağa nail olmuşdu.

Şimali Qafqazda Antatnta dövlətlərinin (İngiltərə, Fransa, ABŞ) nümayəndəsi olan polkovnik Paykın təlimatları əsasında işləyən Makdonellin üzərinə bir sıra mühüm vəzifələr qoyulmuşdu ki, bunlardan da biri ingilis qoşunlarının Bakıya daşınması üçün Xəzər Donanmasını hazırlanması idi. Bu məqsədlə bolşeviklərlə, erməni siyasi qüvvələri ilə və donanmada güclü mövqeyi olan eserlərlə yaxşı münasibəti saxlamaq lazım idi [7,c.71]. Bu planı həyata keçirmək üçün Makdonell ilk növbədə bolşeviklərin etibarını qazanmağa çalışmalı, mümkün olan yerdə isə EMŞ ilə işləməyə nail olmalı idi. İngilislər müşahidə etmişdilər ki, EMŞ Bakı Sovetində, əsas etibarilə, inzibati aparat və polisdə vəzifələrə təyin olunma məsələsində əhəmiyyətli təsir güçünə malik idi [7, c.71] Bolşevik ordusunda ermənilərin iştirakından dolayı EMŞ –nın imtiyazlı vəziyyətdə olması Makdonelli bu variantı da istifadə etməyə yönəldirdi. Makdonell Bakıda olan Daşnaksütyun partiyasının yaradıcılarından biri olan Rostom Zoryanla da görüşmüşdü (kitabda Rustəm bəy adı ilə qeyd olunur.-A.Ə) [34, c.247].

Makdonellin hesabatları və xatirələri Bakıda erməni siyasi dairələri ilə bolşeviklər arasında münasibətləri bir başqa tərəfdən işıqlandırır. Belə ki, Makdonell EMŞ ilə asanlıqla əlaqə yaratsa da, şuranın bu əlaqənin bolşeviklərlə olan münasibətlərini pisləşdirə biləcəyindən çəkindiyini qeyd edir [34,c.211]. Digər tərəfdən isə, daşnakların Şaumyan kimi danışığa meyilli olmadığını da bildirir [34,c.211]. Bu isə həmin vaxt daşnakların fəaliyyət baxımından Şaumyandan asılı olmaları ilə bağlı idi.

Qeyd etmək lazımdır ki, Makdonell daha irəli gedərək Bakıda "bekar qalan" 600 rus zabitini Qırmızı Orduya daxil edilməsinə nail olmaqla bolşeviklər arasında öz etibarlı adamlarını əldə etmək kimi planı da gerçəkləşdirmək istəyirdi. Lakin bu fikir həmin zabitlərə qəribə gəlmiş və baş tutmamışdı [7,c.73].

İngilis missiyası ilə əlaqəni lazımı səviyyədə təmin etməli olan Makdonell donanmanı L.Biçeraxovun və ya Denstervilin təlimatlarına uygun hərəkət etməyə hazırlamalı idi [7,71]. Həmin vaxt ingilislər artıq məlumat və hesabatları mütəmadi olaraq Rəştdəki ingilis konsulluğuna göndərən Makdonell [34, c.214] vasitəsi ilə Xəzər donanması barədə xeyli məlumat toplaya bilmişdilər. Qısa müddətdə bu işdə kifayət qədər müsbət nəticə də əldə edilmişdi. Belə ki, donanmada ingilislərdən köməyin qəbul edilməsi üçün təşviqat aparanların sayı durmadan artmaqda idi. Makdonell də öz xatirələrində "müxtəlif rütbəli rus zabitlərinin onun yanına gələrək xüsusən, donanmada agent kimi öz xidmətlərini təklif etdiklərini" bildirirdi [7,c.73]. Bolşeviklərin də əksəriyyəti öz xatirələrində donanmada məhz belə bir vəziyyəti təsvir edirdilər. Hadisələrin şahidi və iştirakçısı olan Sur. Şaumyan donanmanın ingilislərin təsirinə düşməsini ona lazımı diqqətin olmaması, Bakıda aclıq şəraitinin orada alver və möhtəkirliyə yol açması və bu səbəbdən də İran sularında dola-

şan donanmanın Bakı XKS-nin nəzər diqqətindən kənarda qalaraq ingilislərə təbliğat işi aparmağa imkan verməsi ilə izah etmişdi [32, c.47].

Məlumatlardan aydın olur ki, özündə 2 milyon rubl saxlayan Makdonell bu puldan Bakıda köhnə rus zabitlərini, rus keşişlərini, dənizçi kadetləri əksinqilabi qrupa daxil etmək üçün istifadə etməyə çalışırdı. O, kuryer kimi qaçqın və ya tibb bacısı və xidmətçi qızlardan istifadə edirdi. Ümuniyyətlə, ingilislər Bakı XKS-də işləyən bir çox adamları ələ ala bilmişdilər. Makdonell öz agentlərini EMŞ vasitəsilə bolşeviklərin gizli xidmətinə də daxil edə bilmişdi. Onun bolşevik komitəsindəki digər agentləri isə mühüm olan bütün informasiyaları verirdilər. Hətta onlardan biri Mariya Kudryavtseva Bakı bolşevik komitəsində makinaçı işləyirdi. Lazım olan zaman donanma və partiya ingilisləri dəstəkləməli idi [7,c.73].

Ən əsası isə bu idi ki, Makdonell bolşeviklərlərin liderləri S. Şaumyan və P. Caparidze ilə sıx ünsiyyət yarada bilmişdi. O demək olar ki, hər gün onların yanında olurdu. Uzun müddətdir Şaumyanı tanıyan, və "özünün dostu" [34, c.207] adlandıran Makdonell onu ingilislərin hadisələrdə mühüm rol oynaya biləcəklərinə inandırmağa çalışırdı. Tez-tez Şaumyanın evinə gedən Makdonell onunla siyasi məsələləri müzakirə edir, bolşeviklərin bilmədiyi məsələlər barədə onu məlumatlandırırdı.

Həm görülən işlərin nəticəsi olaraq, həm də yaranmış siyasi vəziyyətdən dolayı artıq iyun ayında vəziyyət ingilislər üçün qənaətbəxş olmağa başlamışdı. Beləki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun ölkə ərazisində hakimiyyətini bərqərar etmək istəyi bolşevik hakimiyyətini müharibəyə tələsdirdi. Lakin Sovet Rusiyasının hələ fəal şəkildə Bakıya kömək edə bilməməsi burada bolşevikləri çətin vəziyyətə salırdısa da, ingilislər üçün əksinə, əlverişli vəziyyət yarada bilərdi. Bunun üçün Bakı bolşeviklərini ingilislərin köməyindən istifadə etməyə və onların Bakıya daşınmasına razı salmaq lazım idi.

Lakin Bakı XKS-də ingilislərdən kömək alınması məsələsində fikir ayrılığı var idi. Caparidze bu köməyin qəbul edilməsi tərəfdarı idisə, [34, c.212] Şaumyan tərəddüddə olaraq əvvəlcə buna qarşı çıxmışdı. İyunun 5-də isə Moskvadan təlimat aldıqdan sonra isə Şaumyan ingilis konsuluna Sovet hökumətinin ingilislərin Bakıya girməsinə izin verməyəcəyini bildirmişdi. Məsələ burasında idi ki, Sovet Rusiyasının yerli hakimiyyətinə başçılıq edən Şaumyanda EMŞ-na xass olan manevr imkanı yox idi. Nə qədər erməni siyasi qüvvələrin maraqlarına uyğun olsa da, erməni olmasına baxmayaraq bolşevik hakimiyyətinin rəhbəri olaraq Şaumyan ingilislərdən açıq şəkildə köməyi qəbul edə bilməzdi. Doğrudur, o, Mərkəzə alman-türk təhlükəsinin artmasını sübut edən dəlilləri göstərərək ingilis konsulu ilə danışıqları barədə məlumat verirdi. Bunlardan birində Bakıdakı ingilis konsulunun Şaumyanı Tiflisdəki ingilis konsulunun məktubu barədə (10 may tarixli) məlumatlandırdığı bildirilirdi, hansında ki, hətta "ingilislərin ən etibarlı dostları ermənilərin" də onlardan üz döndərdiyi qeyd olunmuşdu [10, c.424]. Yəqin ki, bu xəbəri verməklə Şaumyan Mərkəzə ingilislərdən kömək alınmasının zəruriliyini anlatmağa çalışırdı. Hadisələrin gedişi isə Şaumyanın heç bir halda birbaşa olaraq ingilislərin köməyindən istifadə etmədiyini göstərmişdi.

İyunun 5-də AXC və Bakı XKS arasında müharibənin başlanması, lakin Mərkəzdən vəd olunan hərbi yardımın hələ Bakıya gəlib çatmaması burada mövcud antiazərbaycan qüvvələr arasında ciddi narahatlıq yaradır və ingilislərə müraciət edilməsi fikrini daha cəlbedici edirdi. Məhz belə vəziyyətin mövcudluğu iyunun 12-də Bakıda hakimiyyətə qarşı, daha doğrusu məhz Şaumyana qarşı açıq qəsd təşəbbüsünə də gətirib çıxarmışdı.

Sağ eser P. İvanov və "Ərdəhan" gəmisinin mexaniki S. Kiriçenkonun başçılığı altında həyata keşirilməsi planlaşdırılan, lakin baş tutmayan bu çevriliş cəhdinin bilavasitə təşkilatçısı Daşkənddə sovet hakimiyyətinə qarşı yaradılmış "Türküstan Hərbi Təşkilatı"na rəhbərlik edən general Y. P. Cunkovski idi. Qəsdin məqsədi yalnız Şaumyanı həbs etməklə, Bakı XKS-də hakimiyyəti ələ almaq və Bakı Sovetini buraxmaq idi [ 3, s.357].

1917-ci ilə aid hesabat xarakterli məlumatda Makdonellin Cunkovskiyə ingilslər və ya Biçeraxov Bakıya gələnə qədər hər hansı hakimiyyət dəyişikliyi cəhdi uğursuzuqla nəticələnəcəyini bildirdiyi və onu bu planı reallaşdırmaq cəhdindən daşındırmaq istədiyi və əlveriş-

li psixoloji məqam gələnədək hələ hazırlığı davam etməyi təklif etdiyi qeyd olunsa da, [7, c.74] Makdonellin sonradan çap olunan xatirələrindən onun bu qəsdin təşkilində əvvəldən iştirakı etdiyi aydın olur. Hətta o, qəsd iştirakçıları arasında bilavasitə koordinator rolu oynamışdı. Belə ki, iyun ayının əvvəlində Şimali Qafqazda müttəfiq dövlətlərinin hərbi nümayəndəsi polkovnik Paykdan aldığı məktubla Bakıya gələn Cunkovski burada Makdonellə görüşmüşdü. Məhz Paykın göstərişinə uyğun şəkildə Cunkovskiyə kömək edən Makdonell qədciləri maliyyələşdırmiş, onunla ermənilər arasında əlaqə yaratmışdı [34,c.230]. Çünki Makdonell Bakıda belə bir işin donanma və erməni hərbi qüvvələrinin köməyi ilə həyata keçirilə biləcəyini düşünürdü [34, c.222].

Qəsddə adı hallanan Kiriçenkonu isə Makdonell şəxsən tanıyırdı [7, c.73]. Cunkovski özü burada olan Cəbhəçilər İttifaqının sədri Sısoyevlə əlaqə yaratmışdı. 1918-ci ilin əvvəlindən Zakaspi vilayətində bolşeviklərə qarşı mübarizənin iştirakçısı olan Cunkovski Məşhəddə olan ingilis missiyası (Mallesonun missiyası-A.Ə.) ilə əlaqə yaradaraq bolşeviklərə qarşı mübarizənin təşkilində onların köməyindən istifadə etməyə çalışırdı. Denstervilin Bakıya gəlişi və Xəzər hövzəsinin ingilislərin nəzarətinə keçməsi təbii ki, Zakaspidəki siyasi mübarizəyə də təsir edəcəkdi. Bu səbəbdən də onun hələ ki, ingilislərə mane olan Şaumyana qarşı qəsd hazırlaması məntiqli idi.

Ümumiyyətlə, Bakıda bolşeviklərə qarşı qəsd planları hər birinin maliyyələşdirilməsi üçün ingilislərə müraciət olunurdu. Cunkovskiyə qədər İrandan Biçeraxovun göndərdiyi ropmistr (kapitan) V.Voskresenski də Bakıya bolşeviklərə qarşı qəsd təşkil etmək üçün gəlmişdi. O, aviaməktəbin komandasının köməyi ilə məktəbin sərəncamında olan təyyarələrlə donanmanı batırmaqla hədələmək yolu ilə donanmanı tabe etmək və sonra da onun köməyi ilə qəsd təşkil etməyi planlaşdırmışdı [34, c.229]. Lakin plan elə plan olaraq da qalmışdı.

Qeyd etmək lazımdır ki, 12 iyun qəsdində eser partiyasının adı hallansa da əslində, partiya bu qəsddə iştirak etməmişdi [3, s.354]. Bu məsələyə toxunan professor E. İsmayılov Şaumyanın Bakı Sovetinin iclasında qəsddən danışarkən eserlərlə yanaşı daşnaklar barədə də ittiham irəli sürmədiyinə diqqət çəkir [16, c.322]. Halbuki Makdonellin məlumatlarına görə ermənilər bu işdə iştirak etmişdilər və üstəlik, Makdonellin görüşdüyü erməni nümayəndələr ona Bakı XKS tərəfindən həbs ediləcəyi halda nə etmək lazım olduğu halqda təlimat da verərək heç nəyi boynuna almamağı tapşırmışdılar. Onlar həmçinin Makdonelə bolşeviklərin onu mühakimə edəcəkləri halda onun "müdafiəsini" də təşkil etməyə söz vermişdilər [34, c.238].

Ermənilərin antibolşevik çıxışında hər hansı marağı olmasını izah etmək üçün onu qeyd etmək lazımdır ki, bu dövrdə, yəni artıq Türkiyənin Brest –Litovsk şərtlərini həyata keçirilməsində israrlı olduğu aydın olduqdan və türklərlə mübarizədə ermənilərin məğlubiyyətindən sonra müharibə və ya sülh dilemması qarşısında qalan erməni siyasi qüvvələri arasında da fikir ayrılığı yaranmışdı. Tiflisdəki daşnaklar isə əksinə İngiltərə ilə münasibətləri çox problemli hesab edərək türklərlə danışığa meyl edirdilər. Onlar şəhəri təslim etmələri üçün Bakıda daşnaklara təsir etməyi də öhdələrinə götürmüşdülər [32, c.41 ]. Bakıda isə EMŞ Bakı Sovetinin arxasınca getməyin deyil, artıq Tiflisə sülh nümayəndiliyi göndərməyi də düşünməyə başlamışdı [28]. Başqa sözlə, Bakı EMŞ və buradakı daşnaklar mövcud vəziyyətdə ingilislərə ümid bəsləyirdilər. Bakı daşnaklarınının Sovetdən uzaqlaşmaq istəyən hissəsinin maraqlarını O. Kaçaznuni ifadə edirdi. Sonradan Kaçaznuni Bakıdakı daşnakların məqsədlərinə aydınlıq gətirərək bildirmişdi ki, onların öz siyasi xətti var idi və onlar hesab edirdilər ki, Bakıda möhkəmlənməklə türk-tatar qüvvələrini buraya cəlb edərək Ermənistanın qalan hissəsini türk hücumlarından qoruya bilərlər [17, c.22]. Lakin vəziyyət pisləşdikcə isə daşnaklar Şaumyanı ittiham etməyə başlamışdılar [13]. Hər halda, öz maraqlarını güdən erməni siyasi dairələrinin müxtəlif kombinasiyalara əl atdığı görünürdü.

Sonradan Makdonell Şaumyanın yanına çağrılaraq sorğu suala tutulsa da, həbs edilməmişdi. Görünür ki, Şaumyan qəsddə erməni izinin də olması səbəbindən mövcud vəziyyətdə onu açıb-ağartmaq niyyətində olmamışdı. Bolşeviklərin mühakiməsindən can qutaran Makdonell isə İrana qaça bilmişdi. İngilis tədqiqatçısı P. Hopkirk Makdonellin fəaliyyətini onu Mərkəzlə əlaqəsinin qırılması ilə əlaqələndirə-

rək may-iyun aylarında onun Bakıda “öz başına”qaldığını bildirir [6, s.176].

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, ingilislərin dəvət olunması barədə fikirlər Rusiya bolşevik hakimiyyətinin nəzərində Bakı bolşeviklərinin “etibarlı”lığını şübhə altına saldığından Şaumyan və Caparidze iyunun 21-də Şimali Qafqaz və Volqaboyu sovetlərinə və Leninin özünə radioqramma göndərərək bu barədə yayılan fikirləri təkzib etməli olmuşdular [25].

Açıq şəkildə ingilislərin köməyindən istifadə etmək bolşeviklər üçün mümkünsüz olsa da, bu heç də tərəflər arasında pərdəarxası hansısa danışıqların olduğunu inkar etmir. Belə ki, Makdonellin məruzəsində iyun ayında vəziyyətin qənaətbəxş olmağa başlaması, Şaumyan və bəzi bolşevik liderlərin ehtiyatla ingilislərdən kömək almaq yolunu yoxladıqları da qeyd olunur. Çox ehtimal ki, bu ilk növbədə L.Biçeraxovun Bakıya dəvət edilməsi təklifi ilə bağlı idi. Belə ki, Şaumyan ingilislərin əvəzinə İranda yerləşən rus-kazak partizan dəstəsinin rəhbəri Biçeraxovun təklif etdiyi yardımdan istifadə etməyə qərar vermişdi. Biçeraxov haqqında tədqiqatın müəllifi A. Bezuqolnunun fikrincə, bolşeviklər Biçeraxovla əlaqə vasitəsi ilə ingilislərin köməyindən istifadə etmək istəyirdilər [9, c.73]. Biçeraxov ingilis hərbi missiyası ilə əlaqədə idi. Biçeraxovla Ənzəlidə görüşən Denstervil sonrakı birgə fəaliyyət üçün onunla tam razılığa gəlmişdi [ 12, c.164].

Qeyd etmək lazımdır ki, məhz daşnaklar Şaumyanı Biçeraxovun köməyindən istifadə etməyin məqsədəuyğunluğuna inandırmışdılar. A. Bezuqolniy da qeyd edir ki, Şaumyanda Biçeraxov haqqında müsbət fikir yaranmasında Ənzəli HİK nümayəndələri, xüsusən, daşnak N. Cigityan əhəmiyyətli rol oynamışdılar [9,c.72]. Nerses Cigityan özü isə məhz Bakıdan Ənzəli HİK-nin tərkibinə daxil edilmək üçün göndərilmişdi. Ənzəli HİK-nin sədri bolşevik A. Çelyapin öz xatirəsində qeyd edir ki, Cigityanın ingilis kəşfiyyatı xeyrinə işləməsi səbəbindən özü onu həbsə edərək Bakıya göndərmişdi. Lakin Şaumyan onu azad edərək sonradan Bakıda əkskəşfiyyat rəhbəri təyin etmişdi [ 23, v.134 ].

Bir neçə dəfə Leninə Biçeraxov haqqında məlumat verən Şaumyan ingilislərin xidmətində olan və onlardan məvacib alan dəstənin xalis rus əsgərlərdən ibarət dəstə olmasına görə ingilispərəst olmayacağını bildirirdi [3,s.368]. Aparılan danışıqlar nəticəsində Biçeraxov əvvəlcə Ənzəliyə, oradan da Bakıya gələrək Şaumyanla görüşmüşdü. Qeyd etmək lazımdır Biçeraxovun Bakıya gəlməsi əslində ingilislərə buradakı vəziyyəti daha düzgün təhlil etməyə imkan verə bilərdi. Denstervil özü də Biçeraxovla birlikdə Bakıya gəlməyi planlaşdırmış lakin buna nail olmamışdı. Beləki, o, mayın 24-də Hərbi İdarəyə müraciət edərək Biçeraxovla birlikdə Bakıya yürümək üçün icazə istəsə də ona razılıq verilməmişdi [20, c.99]. Daha sonra iyulun 8-də generalın eyni mahiyyətli təklifi rədd edilmişdi. Çünki Britaniya Hərbi Komandanlığında bu məsələ ilə bağlı fikir ayrılığı var idi. Buna baxmayaraq, Biçeraxovla birlikdə ingilis podpolkovniki Klatterberq də Bakıya göndərilmişdi [34, c.284].

Yeni qüvvənin köməyinə baxmayaraq, iyulun 10-da Kürdəmir, 14-də Kərrar stansıyası Qafqaz İslam Ordusu tərəfindən bolşevik-daşnak qüvvələrindən azad edilmiş və artıq bundan sonra hərbi təşəbbüs türk-Azərbaycan qüvvələrinin əlinə keçmişdi. Hər vasitə ilə Mərkəzi bolşevik hökumətindən hərbi qüvvə alacağına ümid edən Şaumyan iyulun 13-də göndərdiyi teleqramda vəziyyətin çox qarışıq olduğunu, siyasi meyillərin tez-tez dəyişdiyini və özünün çıxılmaz vəziyyətini göstərərək dərhal güclü kömək göndərilməsini xahiş edirdi [10,c.557]. Şaumyan bir neçə başqa nümayəndələri ilə yanaşı hətta oğlu Sureni də Moskvaya göndərmişdi. Lakin bir tərəfdən Rusiyanın ərazisində vətəndaş müharibəsinin başlanması onun Bakıda bolşevik hakimiyyətinə güclü dəstək verməsinə imkan vermir, digər tərəfdən isə, artıq bu zaman Sovet Rusiyası Bakı məsələsini Almaniya vasitəsi ilə həll etməyə çalşır və onunla danışıqlar aparmaqda idi. Sovet Rusiyası Bakı məsələsində almanlarla razılığa gəlməyi daha mümkün variant hesab edirdi.

İngilis hökumətinin mövqeyinə gəlincə isə, iyulun ortalarınadək Hərbi Nazirliklə Hindistan Hökuməti arasında Rusiya ərazisində hərbi əməliyyatlar aparılmasının mümkünlüyü barədə qeyri-müəyyənlik [33, p.29.] hökm sürsə də, Londonda sovet-alman gizli danışıqları barədə xəbər tutulduqdan sonra ingilislər Bakıya missiya göndərilməsinə razı olmuşdular [33, p.35]. Eləcə də, ingilislər düşünürdülər ki, türklər Ba-

kıya deyil, Təbrizə də hücum edə bilərlər [6, s.173]. Nəhayət, iyulun 15-də Britaniya Hərbi İdarəsi Denstervilin planlaşdırılan missiyasına –Bakıya yürüşünə icazə vermişdi [20, c.99]. Artıq bu zaman həm də Bakı daxilində vəziyyət ingilislərin xeyrinə dəyişməkdə idi.

Belə ki, bolşevik-daşnak hərbi qüvvələrinin Kürdəmir yaxınlığında məğlubiyyəti Bakıda siyasi qüvvələr arasında ziddiyyətləri daha da gücləndirərək ingilislərin dəvət edilməsini ifadə edən çağırışların artmasına səbəb olmuşdu [22, c.18]. İngilislərin regionda real gücü barədə qeyri-müsəlman əhalidə yaranan yanlış təsəvvür siyasi qüvvələri bolşevik hökumətinə qarşı açıq fəaliyyətə yönəldirdi. Fəhlələrin və matrosların müxtəlif yığıncaqlarında aclıqdan və məğlubiyyət təhlükəsindən qurtulmağın yeganə yolu kimi məhz bu variant təklif olunurdu. Xüsusən, ingilis agentlərinin çox olduğu donanmada ingilislərə müraciət ediməsinin zəruriliyi səsləndirilirdi. (Burada sag eserlərlərdən söhbət gedir-A. Ə.) Bunun nəticəsi idi ki, ayrı-ayrı gəmi komitələrinin iclaslarında ingilislərin dəvət edilməsi lehinə çıxışlar edilirdi. İyul ayının 16-da Bakı Sovetinin fövqəladə iclasında Şaumyanın geniş və "təsirli" nitqinə baxmayaraq məhz donanmadan olan nümayəndələrin səyi ilə ingilislərin dəvət edilməsi barədə qərar qəbul edilmişdi. Lakin bu dəfə bolşeviklər çevik tərpənərək ertəsi gün həmin qərarın ləğvinə nail olmuşdular [24]. Bakı Sovetinin rəsmi orqanı isə həmin vaxtan başlayaraq manşetlərə ingilislər əleyhinə şüarlar yerləşdirməyə başlamışdı. Bu zaman Mərkəzdən Bakıya göndərilən V. Poluxin Rusiya Hərbi-Dəniz Kollegiyasına məktubunda ingilislərin təbliğatının yaratdığı reallığı göstərərək yazırdı: "...ingilis pulları hər yanda işləyir..." [ 11, c.48].

Yuxarıda qeyd olunan iclas barədə öz komandanlığına məlumat verən Makdonell fəal bolşeviklərdən başqa hər kəsin ingilislərin tərəfinə çəkməsinin mümkün olacağını bildirirdi [8, c.273]. Həmin dövrdə Makdonellin fəaliyyətini qiymətləndirən general Malleson da öz komandanlığına teleqramında Makdonellin Bakıda güclü təsir imkanına malik olduğunu və "şəraitə nəzarəti öz əlində saxladığı"nı [8, c.274] qeyd edirdi. Densterillin də xatirələrindən bu dövdə də Bakı ilə əlaqənin yaxşı olduğu və hər gün kuryerlərin gedib gəldiyi aydın olur [12,c.159].

İngilislər daxildə eserlərin ciddi addımlar atacağını düşünürdülər. Məsələ burasında idi ki, Denstervil eserlərlə Bakıda hakimiyyətin dəyişdirilməsi barədə danışıqlar aparırdı. O, ümid edirdi ki, eserlər əvvəlcə Həştərxanda, sonra da, Bakıda bolşevikləri devirəcəklər [12, c.163]. Bunu nəzərdə tutan Denstervil qeyd edir: "Bizə elə gəlirdi ki, bizim dostlarımız, sosial- inqilabçılar tezliklə, çevriliş edə bilərlər və bolşevikləri devirib, yeni idarə üsulu yarada və ingilisləri köməyə çağıra bilərlər" [12, c.159]. Lakin eyni zamanda onu da qeyd etmək lazımdır ki, ingilislər eserlərin siyasi gücü barədə şişirdilmiş məlumatlara malik idilər. Məsələ burasında idi ki, eserlərin nümayəndələri Denstervilə bolşeviklərlə heç bir iş birliyində olmadıqları və hər hansı bir vəzifə tutmaqdan imtina etdiklərini [12, c.169] bildirmiş və bununla da ingilislərdə özlərinin bolşeviklərlə barışmaz olduqları təsəvvürü formalaşdırmışdılar. Halbuki, Bakıda eserlərlə bolşeviklər arasında ziddiyyət Mərkəzdəki kimi kəskin deyildi. İngilislərə böyük ümid bəsləyən qüvvələr hər vasitə ilə Bakıda vəziyyətin onlar üçün əlverişli olacağını göstərməyə çalşırdılar. Denstervilə Bakıda 15 minədək hərbi qüvvənin olduğu bildirilmişdi [12, c.241].

İngilisləri gözləyən digər qüvvə ermənilərə gəldikdə isə bir tərəfdən Azərbaycan –türk qüvvələrinin hərbi uğurları regionda erməni siyasi qüvvələrinin tərəddüdlərini daha da artırmaqda idi. Hətta çıxılmaz vəziyyətdə qalan ermənilər hələ iyul ayının ortalarında almanlardan Bakını onların tutmasını xahiş etmişdilər [2, s.129]. Digər tərəfdən isə erməni qüvvələrinin əksəriyyət təşkil etdiyi Kommuna ordusunda da artıq iyulun sonuna doğru "Bakının müdafiəçiləri"nə köməyin yalnız ingilislər tərəfindən ola biləcəyini düşünürdulər. Buna görə də, əvvəlcə iyulun 21-də Şaumyana ingilislərin dəvət edimənin labüdüyü barədə teleqram göndərən Qırmızı Ordunun müvəqqəti komandanı Avetisov [10, c.579] ertəsi gün bunu Şaumyanın qarşısında qəti tələb kimi qoymuşdu [1, s.126].

Lakin Mərkəzi bolşevik hökumətinin bu məsələdə mövqeyi aydın və qəti idi. Buna görə də Stalin öz teleqramında Şaumyandan Sovetin daxilində ingilislərin dəvət edilməsi tərəfdarları və "xarici kapitalın agentləri" ilə qətiyyətli mübarizə edilməsini tələb edirdi [10, c.574]**.** Aydın

idi ki, belə vəziyyətdə Şaumyanın hansısa şəxsi təşəbbüsü müzakirə mövzusu ola bilməzdi. İrandakı ingilis qüvvələri barədə daha daha düzgün məlumatlara malik olan Şaumyan onların Xəzər hövzəsində möhkəmlənməklə Bakıdan o tərəfə getməyəcəklərinə də əmin idi [31]. Bu səbəbdən də türklərə qarşı onların ciddi bir köməyi olacağına inanmırdı. Bu zaman vəziyyətin gərginləşdiyini görən Şaumyanın təşəbbüsü ilə Bakı Sovetinin geniş iclası çağrılmış, iclasdan sonra isə eserlərin təklifi ilə cəbhə xəttinə Caparidze, Markaryan, Ter-Ohanyan, Cigityan, Melik-Yolçiyan, Avetisov, Korqanov, Biçeraxov və Palaşkovdan ibarət komissiya göndərilmişdi [29]. Komissiyanın iclasında çıxış edən Biçeraxov belə vəziyyətdə real koməyin yalnız ingilislərdən olacağını bildirməklə müvafiq qərarın qəbul edilməsinə nail olmağa çalışmışdı [30]. Ola bilsin ki, eser-daşnak təsiri altında Şaumyan bu məsələdə Mərkəzin müəyyən "güzəşt"inə də ümid edirdi. Əks halda, onun Mərkəzin mövqeyini bilə-bilə iyulun sonunda yenidən bu məsələ ilə bağlı müvafiq təlimat istəməsi məntiqsiz idi. Lakin oradan növbəti dəfə əvvəlcə Stalin, sonra isə Ümumrusiya MİK-in sədri Sverdlov (25 iyul tarixli teleqramında) qəti şəkildə Bakı bolşeviklərindən V Ümumrusiya sovetlər qurultayının qərarına tabe olmağa və ingilislərin hərbi köməyindən imtina etməyi tələb etmişdilər [10, c.593].

İyulun 25-də Bakı Sovetinin fövqəladə iclasında sonuncu dəfə bolşeviklərin iştirakı ilə bu məsələ müzakirə edilmişdi. İngilisləri dəvət etmək istəyən daşnaklar hesab edirdilər ki, Bakıdakı Sovetin hakimiyyəti federativ hakimiyyətdir və Şaumyan Xarici İşlər Komissarı olaraq xarici siyasətlə bağlı zəruri bir qərar verə bilər [29]. Şaumyan Mərkəzdən hərbi kömək göndərilməsi barədə məlumat verərək eser-menşevikləri və daşnakları ingilisləri dəvət etmək fikrindən daşındırmağa cəhd göstərsə də, [10, c. 594] buna nail olmamışdı. Nəhayət, ingilislərlə bağlı məsələdə razılıq əldə edilmədiyindən iyulun 31-də Bakı XKS hakimiyyəti təhvil vermişdi. İngilislərin köməyindən istifadə edilməməsi bolşeviklərə qarşı əsas arqument idi. Bundan sonra isə aylardan bəri ingilislərin xeyrinə təbliğata məruz qalan hərbi donanmaya arxalanan Sentrokaspi təşəbbüsü ələ aldı və avqustun 1-də Bakıda yeni hökumət-Sentrokaspi Diktaturası yaradıldı. Göründüyü kimi, faktiki olaraq ingilislərin dəvət edilməsi məsələsinin müsbət həll edilməməsi Bakıda bolşevikləri hakimiyyətdən getməyə məcbur etmişdi.

QİO-nun müvəffəqiyyətli yürüşünün qarşısını almaq və Bakını əldə saxlamaq üçün Sentrokaspi hökumətinin ilk addımı, gözlənildiyi kimi də, İrandan general Denstervilin başçılığı altında ingilis qüvvələrinin buraya dəvət edilməsi oldu. Bu məsələni nəzərdə tutan Denstervil qeyd edir ki, yeni hökumət hakimiyyəti ələ alar-almaz razılaşdırılmış plana uyğun olaraq bizi dəvət edilər [12, c.184].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, eyni mahiyyətli siyasi hadisə və ya bü cür siyasi gediş Zakaspidə baş vermişdi. İyul ayının 12-də burada hakimiyyəti ələ alan eserlərin çoxluq təşkil etdiyi Zakaspi Müvəqqəti Hökuməti ingilislərdən kömək istəmişdi. Təbii ki, analoji hadisənin təkrarı ilk növbədə Britaniya hökumətinin ölçülmüş xarici siyasətinin nəticəsi idi. Artıq qeyd edildiyi kimi, ingilislərin başlıca məqsədi Xəzər hövzəsində strateji mövqe qazanmaq idi. Bununla onlar Asiyadakı ərazilərinin təhlükəsizliyini təmin etmək, Bakı neft mədənləri ələ keçirildiyi halda Bakı-Batum dəmir yoluna da nəzarət imkanını qazanmış olurdular.

Beləliklə, nəhayət ki, ingilislər Bakıya gəlmək niyyətlərini gerçəkləşdirmək imkanı qazandılar. Lakin hadisələrin gedişi onların bu missiyadan gözləntilərinin doğrulmadığını göstərdi. Əvvəlcə avqustun 4-də polkovnik Stoksun rəhbərliyi altında ingilis qoşunlarının bir dəstəsi, ayın 17-də isə qalan hissə Denstervillə Bakıya gəldi. İngilis bölmələrinin gəlməsi ilə Sentrokaspi qoşunlarının Biləcəri və Binəqədi istiqamətindəki mövqeləri möhkəmləndirildi. Sonradan kral donanması zabiti Norris də Denstervilə qoşulmuşdu. Onun məqsədi Xəzər dənizindəki ticarət donanması gəmilərini silahlandırmaq yolu ilə dənizdə ağalığa nail olmaq idi [12, c.156]. Malleson ilə öz fəaliyyətini uzlaşdırmağa çalışan Denstervil Xəzərdə ticarət donanmasının hərbiləşdirilməsi hesabına Krasnovodska hər hansı "türk yürüşü"nün qarşısını almağa çalışırdı [33, p.36].

Lakin tezliklə israrla ingilislərin gəlməsini istəyən eser-menşevik-daşnak hakimiyyəti ilə ingilis komandanlığı arasındakı münasibətlərdə inamsızlıq ortaya çıxdı. Gözlənilənin əksinə

olaraq, Bakıya 900-1000 nəfərədək ingilis hərbi qüvvəsi gəlmişdi. İngilislər Bakıya göndəriləcək hərbi qüvvələrinin çox olmadığını əvvəlcədən bidirsələr də, onlardan çox qüvvə gözlənilirdi.

İngilis missiyası burada yeganə çıxış yolunu Diktatura qoşunlarının döyüş qabiliyyətini artırmaqda görsə də, bu niyyətin həyata keçirilməsi çətin məsələ idi. Əvvəla, hərbi qüvvələrin sayı Denstervilə bildirildiyindən az idi. Üstəlik, ermənilər döyüşdən yayınmağa çalışırdılar. Hələ avqustun 15-də Bakıdakı vəziyyət barədə Denstervilə məktub yazan polkovnik Keyvort şəhərdə olan daxili siyasi ziddiyyətlərin onlara ciddi şəkildə mane olduğunu, rusların ermənilərlə birgə işləmək istəmədiklərini bildirmişdi [12, c.198].

Lakin şəhərdə böyük silah ehtiyatı var idi. Belə ki, Denstervil gələn ərəfədə Şaumyan və Petrov başda olmaqla bolşeviklər böyük miqdarda silah sursatı da özləri ilə götürərək Bakını tərk etməyə cəhd göstərmiş, lakin Sentrokaspi Diktaturası onları geri qaytararaq silahları almış, özlərini isə həbs etmişdi. Denstervil missiyasında iştirak edən podpolkovnik A. Roulinson arsenala rəhbərliyə təyin olunaraq həmin həmin silahların hesabını aparmışdı.  O, Bakıda böyük miqdarda silah-sursatın, 50-dən çox  top, 100 min tüfəng patronu, milyonlarla tapanca patronu, böyük miqdarda partlayıcı olduğunu qeyd edir və  bildirir ki, Bakıda olan silah Mesopotamiyadakı ingilis ordusuna lazım olduğundan da çox idi [35, p.77].  Bu səbəbdən də, qüvvə az olsa da, ingilislər buradakı hərbi qüvvələrlə fəaliyyətlərini əlaqələndirməklə, müdafiəni  təşkil edəcəklərinə ümid etmişdilər və bu istiqamətdə müəyyən addımlar atmışdılar. İlk addımlardan biri olaraq hər bir yerli bataylona bir ingilis zabiti təyin edilmişdi. Lakin sentrokaspiçilər hərbi işi tamamilə ingilislərin əlinə vermək istəmirdilər. Beləki, ingilislər ordunun döyüş qabiliyyəti yüksəldilməsi üçün Şimali Stradford alayına, Uorçester və Varvirk batalyonlarının hər birinə yerli qüvvələrdən ibarət 3 batalyonun təhkim edərək briqadalar yaradılması təklif etsələr də, lakin sentrokaspiçilər buna imkan verməmişdilər [12, c.225]. Onlar belə briqadalara ya rus, ya erməni komandirinin təyin edilməsinin üzərində inad edirdilər [12, c.259]. Sonda da bir nəticə əldə edilməmişdi.

İrəli gedərək qeyd etmək lazımdır ki, ingilislər Bakını tərk edərkən həmin silahların böyük əksəriyyətini özləri ilə aparmışdılar. A.Roulinson silahların bir hissəsinin sonradan Lənkəranda vuruşan qüvvələrə (ruslara), eləcədə Krasnovodskdakı qüvvələrə və Biçeraxov ordusuna verildiyini qeyd edir [35, p.108].

QİO güclənən hücumlarına davam gətirmək üçün hər vasitədən istifadə etmək istəyən Denstervil bir neçə gün Bakıda qalıb vəziyyətlə tanış olduqdan sonra avqust ayının 20-də Biçeraxovu geri qaytarmaq məqsədi ilə Dərbəndə getsə də, Dərbənd limanında naməlum gəmilər dayandığından sahilə yan almaqdan ehtiyatlanaraq geri qayıtmalı olmuşdu [12, c.221]. Bundan başqa Denstervil hətta israrla Petrova öz qüvvələri ilə birgə türklərə qarşı mübarizə aparmağı təklif etmişdi. (Şaumyan həbs edilsə də, Petrov azadlıqda idi – A.Ə.) Petrov isə  qəti şəkildə bundan imtina etmişdi [12, c.197-198].

Artıq avqustun sonuna doğru aydın oldu ki, ingilislərin Bakı missiyası uğursuzluğa məhkumdur. QİO-nun hücumlarının güclənməsi şəhərdəki qüvvələri bir qərar qəbul etməyə məcbur edirdi. Denstervil əvvəlcə avqustun 31-də EMŞ, Sentrokaspi nümayəndələri, fəhlə, əsgər və matros nümayəndələri, kəndli deputatları nümayəndələrinin iştirak etdiyi iclaşa gələrək vəziyyətlə bağlı öz fikirlərini onlara bildirmiş, lakin bu zaman bir nəticə əldə edilməmişdi. Ertəsi gün, sentyabrın 1-də  Denstervil  özü yenidən hökumət üzvləri və şəhərdəki bütün təşkilat nümayəndələrini təkrar görüşə çağıraraq müqavimət göstərməyin mənasız olduğunu, yerli qoşunların ingilislərə köməklik göstərməməsi ucbatından məğlub olduqlarını onların nəzərinə çatdırmışdı. O, dərhal türklərin yanına nümayəndə göndərərək sülhə razılaşmağı təklif etmişdi [12, c.246-247]. Lakin vəziyyəti düzgün qiymətləndirməyən Diktatura rəhbərləri bu təklifi qəbul etməyərək açıq şəkildə ingilis qoşunlarını şəhərdən buraxmayacaqları ilə hədələmişdilər. Onlar hesab edirdilər ki, vaxtilə ingilislərin vədləri olmasaydı Sovet Rusiyası Sentrokaspi hakimiyyətinə kömək edərdi. Bu səbəbdən də onlar ingilislərdən Bakıya əlavə qoşun gətirilməsini tələb etdilər. Denstervil isə ittihamlara cavab olaraq ingilislərin burada olmaqla ən azından Bakının “süqutu” vaxtını uzadaraq sentrokaspiçilərə öz düşmənləri ilə daha müna-

sib şərtlərlə sülhə nail olmağa imkan yaratdıqlarını bildirmişdi. Qeyd etmək lazımdır ki, hadisələrin şahidi olan ingilis müəlliflərin hər biri öz xatirələrində ermənilərin qorxduqlarını və döyüşmək istəmədiklərini xüsusilə vurğulayırlar. Hər hansı real hücum təhlükəsi ilə üzləşən kimi ermənilərin dərhal öz postlarını qoyub qaçmağa üz qoyurdular [33, p.39; 35, p.79].

Diktatura ingilisləri şəhərdə saxlamaq üçün donanmaya ümid edirdi. Lakin ingilislər Bakı donanmasının öz hökuməti ilə hesablaşmadığını da yaxşı bilirdilər [12, c.273]. Onu da qeyd etmək lazımdır ki, mövcud vəziyyətdə Denstervil şəhərdə hakimiyyətin ələ keçirilməsini düşünsə də, lakin kifayət qədər qüvvəsi olmaması səbəbindən bunu etməmişdi [12, c.259]. Uğrsuzluğa düçar olan və artıq müqavimət göstərməyin mənasız olduğunu görən ingilislər də sentyabrın 14-də Bakını tərk etmişdilər.

Göründüyü kimi, ingilislərin geniş miqyaslı hərbi müdaxilə deyil, taktiki addım ataraq, bölgədə yerli hərbi qüvvələri təşkilatlandırmaq cəhdi özünü doğrultmamışdı. Lakin bununla belə, 1917-1918-ci illərdə Bakıda baş verən hadisələrə ingilis amili ciddi təsir etmişdi. Əsas maraqları Asıyadakı mövqelərini alman-türk təhlükəsindən qorumaq olan, lakin regiona geniş hərbi müdaxilə imkanı olmayan ingilislər bu istiqamətdə bir sıra addımlar atmışdılar. Əvvəlcə maliyyə dəstəyi verərək erməni hərbi qüvvələrininin döyüş qabiliyyətini artırmaqla türklərin irəliləməsinin qarşısını almaq istəyən ingilislər, Brest-Litovsk sülhündən sonra Xəzər dənizində və Bakıda möhkəmlənməyə cəhd etmişdilər. Mərkəzi bolşevik hökumətinin xarici siyasi kursunu həyata keçirən Bakı XKS ingilislərin Bakıya gəlişinə imkan vermədikdə isə buradakı siyasi qüvvələr arasında ziddiyyətləri artıraraq sonda bolşeviklərin hakimiyyətinin devrilməsinə təsir göstərmişdilər. Lakin bununla belə, bolşeviklərin hakimiyyətdən getməsi və ingilisləri dəvət edən yeni eser-menşevik-daşnak hökumətinin qurulması da ingilislərin öz məqsdlərinə çatmasına kömək etməmişdi. Çünki artıq burada hadisələrin gedişini Türkiyənin dəstəyinə arxalanan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin öz torpaqlarının azad etməyə yönələn siyasi iradəsi müəyyən edirdi. QİOnun uğurlu hərbi əməliyyatları ingilislərin aylardan bəri apardıqları təbliğat işini heçə endirmişdi. Onu da qeyd etmək lazımdır ki, ingilislər həm erməni qüvvələrinin, həm də eserlərin əsl siyasi gücünü olduğundan artıq qiymətləndirmişdlər.

Sonda bunu da qeyd etmək lazımdır ki, ingilis amilinin mövcudluğu alternativlik vəziyyəti yaradaraq Bakıda siyasi qüvvələri parçalanmasını sürətləndirmişdi.

### Ədəbiyyat siyahısı

**1.** Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. [üç cilddə] / Tərtib edəni N.Məmmədzadə və b.- 26 Bakı komissarlarının əsl tarixi. –Bakı: Çaşıoğlu, c.1. –2009.

**2.** Həsənli, C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918- 1920). -Bakı, GARISMA MMC, -2009, - 576 s.

**3.** Şaumyan, S. Seçilmiş əsərləri [2 cilddə]. –Bakı: Azərnəşr, – c.2, – 1978.

**4.** Şıxəliyev, E. XX əsrin əvvəllərində İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqlarında erməni faktoru. / "Azərbaycan və Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri. Xüsusi buraxılış. №56, 57, 58. 2016, – s.236 – 241.

**5.** Azerbaycan Cumhuriyeti. 1918-1920. Osmanlı Arşiv belgeleri. Neşre hazırlayan Q.Şükürov, V.Qafarov. -Istanbul: TEAS Pres, – 2018.

**6.** Hopkirk, P. İstanbulun doğusunda bitmeyen oyun. Çevireni Mehmet Harmancı. – İstanbul: Bilgin Yayınçılıq, 1995..

**7.** Азербайджанская Демократичкская Республика. Архивные документы Великобритании. Составитель: Н.Максвелл. – Баку: Şərq – Qərb, -2011.

**8.** Азербайджанская Демократичкская Республика. Документы Национального архива Индии. Составитель: Н. Максвелл, – Баку: Турхан, – 2018.

**9.** Безугольный, А.Ю. Генерал Бичерахов и его Кавказкая армия 1917-1918. -Москва: Центрполиграф, - 2011. -348 с.

**10.** Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. – Баку: Azərnəşr, – 1957.

**11.** Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии 1918 – 20 гг. – Баку: 1971.

**12.** Генерал-майор Денстервилл. Британский империализм в Баку и Персии 1917-1918 (Воспоминания). Перевод с английского Б. Руденко. – Тифлис: Советский Кавказ, – 1925.

**13.** Заседание Сов. РС и МД // Известия Совета рабочих и военных депутатов Бакинского района. – 1918, 12 июня, №112. – с.3.

**14.** Заяц, Н. «Союзы фронтовиков» в 1917–1918 гг. и их роль в революции и Гражданской войне. // Скепсис. Научно просветительский журнал. https://scepsis.net/library/id_3641.html

**15.** Иванова, М.Н. Национально освободительное движение в Иране в 1918-1922гг. – Москва: Изд. Восточной литературы. – 1961.

**16.** Исмаилов Э. Степан Шаумян- обреченный на забвение. Портрет «легендарного коммунара» без ретуши – Баку: Şərq –Qərb, 2012.

**17.** Качазнуни О. Дашнакцутюун больше ничего делать! – Баку: Элм, – 1990.

**18.** Куприянов, А.В. Англо-индийская интервенция в Закаспийском крае в 1918–1919 гг. Диссертация на соискание ученой степени кандидата исторических наук. – Москва: 2015.

**19.** Ллойд Джодж, Д. Военные мемуары. / Давид Ллойд Джордж. Пер. с. анг. И.Звавича – Москва: Гос.Эконом.изд. – т.5. – 1938.

**20.** Максвелл, Н. Азербайджан в геополитических планах Великобритании (1917-1918гг.) (поматериалам Британских архивов) // “Birinci Dünya müharibəsi və Azərbaycan” mövzusuna həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu elmi əsərlərinin xüsusi buraxılışı //2014. 48,49, 50- ci cildlər. s. 94 – 104.

**21.** Максвелл, Н. Новые факты о деятельности представителей Британского военного истаблишмента, работающего на Кавказе //Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi Beynəlxalq elmi konfransın materialları, – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu elmi əsərlərinin xüsusi buraxılışı // 2018. 74, 75, 76-cı cildlər. –s.332 – 341.

**22.** Последные дни коммиссаров Бакинской Коммуны. (По материалам судебных процессов составил А. С. Букшпан). – Баку: Интернационал, – 1928.

**23.** Работа А.П.Челяпина «Кавказский фронт, Закавказское правительство и партии Закавказья» // Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.268, s.20, iş153.v.-137.

**24.** Резолюция общего собрания моряков КВФ 17 июля //Известия Совета рабочих и военных депутатов Бакинского района. – 1918,19 июля, №141. – с.2.

**25.** Совдепам: Петровска, Екатринодара, Астрахана, Царицына, Саратова // Бакинский рабочий.-1918, 23 июня, №120. – с.1.

**26.** Стенограмма вечера воспоминаний Крас. Гвард-ии .тов. Сорокина // ARPİİSSA, f.456, s.18, iş 24. – v.1.

**27.** Токаржевский, Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. -Баку, Изд. АН Аз. ССР, – 1957. – 332 с.

**28.** Торжественное заседание Сов. РС и МД совместно с Сов. Кр. Деп Бак. уезда // Известия Совета рабочих и военных депутатов Бакинского района. – 1918, 4 июня, №105 (327). – с.3.

**29.** Чрезвычайное заседание от 25 июля // Бюллетени Диктатуры Центрокаспия и Временного Исполнительного Комитета. -1918, 3 августа, № 2. – с.2.

**30.** Чрезвычайное заседание от 25 июля // Бюллетени Диктатуры Центрокаспия и Временного Исполнительного Комитета. – 1918, 5 августа, № 4. – с.3.

**31.** Чрезвычайное заседание Совета совместно с районными советами, Судовыми комитетами и ВР КККА // Известия Совета рабочих и военных депутатов Бакинского района. -1918, 21 июля, №143. -с.2.

**32.** Шаумян, Сур. Бакинская коммуна. – Баку: Красный Восток, – 1927.

**33.** Ellis, C.H. The British ‘Intervention’ in Transcaspia (1918-1919). Berkeley: University of California Press, 1963. – 176 p.(ruscaya tərcümənin əlyazması – Эллис, К.Г. Закаспийский епизод (1918-1919). Перевод Л.А. Умаева) // AMEA Tarix İnstitutunun Elmi Arxivi, inv.kod 5502, qutu, 395, iş 1.

**34.** McDonell, R. And Nothing Long / McDonell, R. – London : Edward Arnold, 1938. – 328 p. (ruscaya tərcümənin əlyazması- Макдонелл, Р. Ничего больше..) // AMEA RH Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi, akad. P.Əzizbəyovanın şəxsi arxivi. f.16, s.1, iş 1.1012.

**35.** Rawlinson, A. Adventures in the Near East, 1918-1922 / Rawlinson, A. – London: Melrose, 1923. – 377 p. (ruscaya tərcümənin əlyazması – Роулинсон, А. Приключения на Ближнем Востоке 1918-1922 годы. Перевод Л.А. Умаева // AMEA Tarix İnstitutunun Elmi Arxivi, inv.kod 5349, qutu, 395, iş 3.

## Резюме

**Айгюн Азимова**

### Английский фактор в бакинских событиях 1917-1918 годов

В настоящей статье на основе значительного архивного материала из различных мировых архивов, с привлечением также большой английской мемуарной литературы, освещается значение английского фактора в политический борьбе великих держав за обладанием нефтяным Баку в период декабря 1917- сентября 1918 гг. В связи с этим рассмотрены такие ключевые вопросы как: роль и место Баку в планах мировых держав, их деятельность в регионе с учётом большевистского фактора.

Подробно описываются попытки английского политического и военного и эстаблишмента создать необходимые предпосылки для внедрения сюда специального военного подразделения британских войск во главе с генералом Денстервилем, основной задачей которого было недопущение в регионе турецкого присутствия и удержания его в интересах стран Антанты.

В связи с этим в статье подробно исследуются все этапы английского вторжения в регион, анализируются основные внутренние силы на которые английский генералитет делал ставку для осуществления своих планов. Наряду с этим освещается роль и действие основных политических сил контролирующих Баку в тот период, а именно первоначально большевистско-дашнакский альянс, сменившийся впоследствии силами так называемой Диктатуры Центрокаспия.

В заключительной части статьи анализируются причины краха английской военной миссии здесь, приведшие к окончательному падению большевистского режима и освобождение Баку и закрепление за ним статуса столицы независимого государства в лице АДР.

***Ключевые слова:*** *Бакинский Совет, Советская Россия, большевики, приглашение англичан, Макдоннел, Денстервиль, Шаумян, дашнаки*

**Summary**

**Aygun Azimova**

**The English factor in the Baku events of 1917-1918**

This article, based on world-wide archival material and British memoirs, highlights the importance of Britain in the political struggle of the great powers to seize Baku's oil, between December 1917 and September 1918.

British political and military plans to introduce its troops into the region are analysed in detail. Coverage includes the preparations for the deployment of forces led by General Dunsterville, whose main task was to prevent Turkish occupation of the region, in order to protect the interests of the Entente countries.

The role and activities of the Bolshevik-Dashnak Alliance is also highlighted, as it represented the main political force controlling Baku at that time.

The final part of the article analyses the reasons for the withdrawal of the British military mission in Baku. The consequences of this were: the fall of the Bolshevik-Danshanak regime; the occupation of Baku by Turkish forces; and the consolidation of Baku's status as the future capital of an independent state - the Azerbaijan Democratic Republic.

***Keywords:*** *the Baku Soviet, Soviet Russia, bolsheviks, invitation of British, McDonnell, Densterville, Shaumyan*

**UOT 94(479.24)**

**BİLAL DƏDƏYEV**
*Bakı Mühəndislik Universiteti*
*"Ümumi fənlər" kafedrasının müdiri, t.ü.f.d., dosent*
*bdedeyev@beu.edu.az, Azərbaycan*

# XÜLVİNİN "LƏMƏZAT-I XÜLVİYYƏ ƏZ LƏMƏAT-I ÜLVİYYƏ" ƏSƏRİNDƏ ŞEYX ZAHİD-İ GİLANİ VƏ DÖRD ƏSAS XƏLİFƏSİ*

***Açar sözlər:*** *Şeyx Zahid-i Gilani, Xülvi, Siyavar kəndi, Şixakəran kəndi.*

**Giriş**

"Ləməzat-ı xülviyyə əz ləməat-ı ülviyyə" (tanınmış vəlilərin şirin, dadlı vəziyyətləri) əsəri XVII əsrin birinci yarısında Osmanlı dövlətində yaşayıb yaratmış təsəvvüf əhli alim və şairlərdən biri olan Mahmud Cəmaləddin Xülvi (1574-1654) tərəfindən qələmə alınmışdır. Atası Əhməd Ağa Topqapı sarayında "halvacıbaşı" olduğu üçün atasının peşəsinə uyğun olaraq "şirniyyat" mənasına gələn Xülvi ləqəbini almışdır. Xülvi atasının vəfatından sonra (1602) çalışdığı dövlət işindən çıxmış və bütün sonrakı fəaliyyətini uşaqlıqdan həvəs göstərdiyi təsəvvüfə həsr etmişdir. İlk zamanlar Xəlvətiyyənin Sünbüliyyə qolunun şeyxi Nəcməddin Həsən Əfəndidən (v. 1610) Sünbülü təriqətini öyrənmiş, 1619-cu ildə isə Həcdən qayıdarkən Qahirəyə getmiş və burada Xəlvətiyyənin başqa bir qolu olan Gülşəniyyə təriqətini qəbul etmişdir. Bununlada Xülvi İstanbula Gülşəni şeyxi kimi dönmüşdür. Xülvinin bir divanı və bir neçə əsəri günümüzə qədər gəlib çatmışdır. Onun yaradıcılığında heç şübhəsiz ki, ən önəmli yer tutan 12 il müddətində yazaraq 1621-ci ildə tamamladığı və qısaldılmış şəklində "Ləməzat" kimi də tanınan "Ləməzat-ı xülviyyə əz ləməat-ı ülviyyə" əsəridir [16, s. 78; 28, 347]. Xüsusilə diqqətəlayiq haldır ki, müəllif bu əsəri yazarkən 50 müxtəlif mənbədən istifadə etmişdir. Məhz buna görə "Ləməzat" əsəri dövrünün ən qiymətli tədqiqtlarından sayıla bilər. Üç fəsildən (müqəddimə, lemza və xətimə) ibarət olan bu əsərdə, İslam dövlətinin ilk xəlifələri, məzhəb imamları, əhl-i beytin on iki imamı (22 şəxs), Xəlvətiyyə təriqəti və şöbələrini quran şeyxlər və onların davamçıları (118 şəxs) və müəllifin şəxsən görüşüb söhbət etdiyi zəmanənin tanınmış şeyxləri (52 şəxs) ilə birlikdə özü də daxil olmaqla ümumilikdə 193 şəxs haqqında məlumat verilir [16, s. 9-10]. Əsərin 11 əlyazma nüsxəsi hal-hazırda da Türkiyənin müxtəlif kitabxanalarında saxlanılmaqdadır. Bu əlyazmalar əsasında Mehmet Serhan Tayşi "Ləməzat" əsərini müasir Türk dilinə uyğunlaşdıraraq iki dəfə 1980 [4] və 1993-cü illərdə nəşr etdirmişdir. Burada istifadə olunan kitab, əsərin 1993-cü ildə müasir Türk dilinə uyğunlaşdırılaraq nəşr olunmuş variantıdır [17].

Əsərin müəllifi olan Xülvinin özünün də Xəlvətiyyənin bir qolu olan Gülşəniyyə təriqətinə mənsub şeyxlərdən biri olduğuna xüsusi diqqət yetirilməlidir. Əsərdə silsilə etibarilə Səfəvilikdən sonra Xəlvəti əkabirinin də "mürşid-i piri" sayılan Şeyx İbrahim Zahid-i Gilani və ona ən yaxın dörd davamçısı (xəlifələri olan Şeyx Səfi, Şeyx Əxi Yusif, Şeyx Pir Hikmət və Şeyx Əxi Məhəmməd) haqqında, eyni zamanda onların danışdıqları mənqibələr, onlara Allah tərəfindən verilən kəramətlər, doğulub vəfat etdikləri yerlər kimi bioqrafik məlumatlar əks olunmuşdur. Həmçinin əsərdən dövrün bəzi hökmdar və əmirləri haqqında da məlumatlar əldə etmək mümkündür.

Əsərdə keçən tarixi məlumatların doğruluğunu tədqiq etmək üçün əsas olaraq "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi kimi tanınan

* Bu məqalə 13-15 dekabr 2018-ci ildə Lənkəran Dövlət Universitetində keçirilən "Doğumunun 800-cü ilində Şeyx Zahid Gilani Beynəlxalq Simpoziumu"nda çıxış üçün hazırlanmış olsa da, ancaq bəzi səbəblərdən nəşr edilməmişdir. Məqaləyə yeni mənbələr əlavə olunaraq indiki genişləndirilmiş vəziyyətinə gətirilmişdir.

"Şeyx Səfi təzkirəsi", Həsən bəy Rumlunun (v.1578?), Şərəfxan Bitlisinin (v.1603), İsgəndər bəy Münşinin (v.1634) əsərlərindən və bu mövzu ilə əlaqədar daha əvvəl tədqiq edilmiş kifayət qədər kitab və məqalədən də istifadə olunmuşdur.

**Şeyx İbrahim Zahid-i Gilani**

Xülvi, Şeyx Zahid Gilaninin Azərbaycanda Gilan nahiyəsinə daxil olan "Siyavərud" (indiki Siyavar) kəndində doğulduğunu, ləqəbinin Tacəddin, künyəsinin Əbus-Səfvət, adının isə İbrahim b. Rövşən Əmir b. Yabil b. Şeyx Bidar kimi qeyd edir. Yeddi ataya qədər şeyx oğlu şeyx olduğunu yazır. İlk təhsilini Gilanda aldıqdan sonra, əsas təhsilini davam etdirmək üçün Şiraza getdiyini bildirir. Orada əvvəl Sədi Şirazidən dərs alır, onun tövsiyyəsi ilə sonradan Gilandaki Lahican nahiyəsində yaşayan Şeyx Seyyid Cəmaləddinin yanına göndərilir. Xülvi əsərində bu məsələni "Əzəli nəşvəsi Ələvi olduğundan bu hal və məqamlar onu tətmin etmirdi. Şeyx Sədi həzrətləri onun bu halını kəşf edib, ona: Ey oğul, mən səni ancaq bu məqama qədər gətirə bildim. Sən bir az da məmləkətin olan Gilana get. Orada Şeyx Cəmaləddinin xidmətində bulun. Bəlkə muradın onunla təcəlli edər" şəklində izah edir. O uzun illər Seyyid Cəmaləddinin yanında təriqət elmini öyrənərək, təhsilini başa vurur və ondan Zahid adını alır. Əsərdə ona "Zahid" adının Seyyid Cəmaləddin tərəfindən verildiyi iki ayrı formada izah edilir.

Şeyx Zahid təriqətdəki irşad (mürid yetişdirmə, öyrətmə) vəzifəsinə Seyyid Cəmaləddinin vəsiyyətinə əsasən onun ölümündən iyirmi il sonra başlamışdır. Müəllif bu hadisəni belə qələmə alır: "Seyyidin (Cəmaləddinin) vəfatından sonra, o dərəcə mücahidə və riyazət (nəfsi tərbiyyə üçün pəhriz) eylədi ki, bütün gündüzləri oruc və gecələri də nəfsini qiyam edib hesaba çəkərdi... İldə iki kərə ərbəinə girib, on beş gündə bir kərə, beş dirhəm arpa unundan bulamacla iftar edərdi. Bu halda iyirmi il tamamlanınca, bir mənəvi işarət üzərinə irşada oturdular". Əsərdə ümumiyyətlə Şeyx Zahidin elmi səviyyəsi çox yüksək qiymətləndirilərək vəsf edilir. Xülvi bu fikirlərini "O, aləm və Adəmin sultanı, şəriət və təriqət elmlərinin rəhbəri, Haqq yolunun abid və zahid xidmətkarı olan şeyxlərin qütublarındandır" şəklində dilə gətirir. Müəllif Şeyxin kəramət sahibi olduğunu mənqibələrdən topladığı bir neçə rəvayətlə izah edir [17, s. 319-324]. Ümumiyyətlə isə buraya qədər verilən məlumatların demək olar ki, hamısı İbn Bəzzaz Ərdəbilinin "Səfvətüs-səfa" əsərində geniş bir şəkildə öz əksini tapmaqdadır [5, s. 139-200].

Əsərdə Şeyx Zahidin irşad fəaliyyəti zamanı səyahətə çıxdığı vurğulansa da, əsas etibarilə onun Ərdəbil və Gilandakı işləri haqqında məlumat verilir. Halbu ki, "Şeyx Səfi təzkirəsi" və bir çox tədqiqat əsərində göstərilir ki, o, irşad fəaliyyəti üçün Gilandan ayrılaraq Azərbaycanın bir çox yerini; Salyan, Muğan, Ərdəbil, Xiyav, Sərab, Xalxal, Savalan və Şirvan bölgəsini də gəzib dolaşmışdır [5, s. 153-183; 11, s. 359-360; 2, s. 84-85]. Bundan başqa Şeyx Zahidin Elxani hökmdarı Qazan xanla (1295-1304) bir neçə dəfə görüşdüyü "Səfvətüs-səfa"dan bəlli olsa da [5, s. 160-165], Xülvinin əsərində bu haqda heç bir məlumat verilmir.

Əsərdə Şeyx Zahidin ölümü ilə bağlı konkret yer göstərilməsə də Gilanın "Ləngər-i Künan" (indiki Lənkəran)* adlanan yerində h.705 (1305-1306)-ci ildə vəfat etdiyi qeyd edilir. "Şeyx Səfi təzkirəsi" və Xülvinin müasiri olmuş İsgəndər münşinin əsərindən aydın olur ki, h.700-ci ilin rəcəb ayında (12 mart-11 aprel 1301-ci il) vəfat edən Şeyx Zahid, Lənkəranın Siyavrud kəndində dəfn olunmuşdur [5, s. 199-200; 3, s. 52]. Sonralar buraların dəniz suyunun altında qalması ilə əlaqədar, məzar Şıxəkəran kəndinin ərazisinə köçürülmüşdür [2, s. 85-86; 11, s. 360]. Həsən Rumlunun yazdığına görə məzarın dəyişdirilməsi 1487-ci il-

* Lənkəran sözünün mənası haqqında ən geniş məlumatı B. Hüseynbala oğlu və M. Talışlı tərəfindən 1990-cı ildə nəşr edilmiş "Lənkəran" kitabından əldə etmək mümkündür. Bu kitabda göstərilir ki, aparılan tədqiqatlara görə Lənkəran toponomi orta əsrlərdə üç ayrı mənada işlənmişdir. Bunlardan biri, talış dilində "qamışlı evlər" mənasına gələn Lənkon, ikincisi farsca "ləngiyən yer" olaraq Ləngkəran və nəhayət üçüncü ad isə yenə farsca "lövbər salınan məkan" kimi məna daşıyan Ləngərkünan olmuşdur [2, s. 15-16]. Onu da qeyd etmək lazımdır ki, Lənkəran toponiminin orta əsrlərdə "Ləngərkünan" (və ya Ləngərkonan) şəklində adlandırılmasını Xülvidən əvvəl, Səfvətüs-səfa nüsxələrində [25, s. 402], 1543-cü ildə hazırlanmış "Şeyx Səfi təzkirəsi"ndə [5, s. 196], Həsən bəy Rumlunun [1, s. 326, 358) və eyni zamanda İsgəndər bəy Münşinin "Tarixe-alaməraye-Abbasi" əsərində 1592-ci il hadisələrindən bəhs edərkən də [3, s. 754] görmək mümkündür.

də ikinci Çərgəz səfərindən qayıdan Şeyx Heydər (1470-1488) tərəfindən həyata keçirilmişdir [1, s. 324-325]. Hal-hazırda da Şeyx Zahid Gilaninin türbəsi Lənkəran rayonunun Şıxəkəran kəndindədir.

**Şeyx Səfi**

Əsərdə Şeyx Səfinin Ərdəbilin "Gülhəvaran"* kəndində dünyaya gəldiyi, adının İshaq b. Cəbrail b. Əbubəkr, künyəsinin Əbülfəth, ləqəbinin isə Səfiəddin olduğu qeyd olunur. Şeyx Səfinin gənc yaşlarından bəri təmiz əxlaqlı və ibadətlə məşğul olduğundan bəhs edərkən gördüyü yuxusunda Səvfətüs-səfada olduğu kimi Xəzər dənizi Gilan dənizi olaraq verilir. Müəllif daha sonra yazır ki, Şeyx Zahid Gilani ilə görüşmək məqsədi ilə yola düşən Səfiəddin, ancaq dörd il sonra onunla görüşə bilir. Xülvi, bu hadisəni Səvfəsüs-səfada yazıldığı kimi bu cür qeyd edir: “Şeyx Zahid Həzrətləri: Xoş gəldin Ərdəbilli... Nə məqsədlə gəlmisən? dedikdə, Şeyx Səfi: Sultanım, sizə məlumdur, dedi. Şeyx Zahid naqibinə təkrar səslənərək: Bu Ərdəbilli dörd ildir ki, irşad üçün istiğraq və iştiyaq içində gözləməkdədir. Halı acildir, maraqlan, deyə əmr etdi” [17, s. 326]. Bu görüşdən sonra Səfiəddin, şeyxinin vəfatına qədər onun yanında iyirmi beş il qalmış, "seyri-sülukunu" (təriqət təhsilini) mükəmməl bir şəkildə tamamlamışdır. Şeyx Zahidin qızı Bibi Fatimə ilə evlənməsindən sonra isə şeyxinin həm maddi, həm də mənəvi varisinə çevrilmişdir [5, s. 130-131; 3, s. 61; 22, 180; 7, s. 114]. Xülvi isə bu məsələlərlə bağlı əsərində heç bir məlumat vermir.

Şeyx Zahidin 1301-ci ildə vəfatından sonra Ərdəbilə köçən Şeyx Səfiəddin, Məhəmmədəli Tərbiyyətin (v.1940) yazdığına görə Şeyx Cüneyd Bağdadidən (v. 909) sonra sıra ardıcıllığı ilə təriqətin onuncu, Hüseyin Vəssafın (v.1929) qeyd etdiyinə görə isə, on ikinci mürşidi olmuşdur [7, s. 114; 29, s. 449]. Beləliklə Səfəvi təriqətinin əsası qoyulmuş və qısa zamanda Azərbaycan, Xorasan, İraq və Anadoluda yayılmağa başlamışdır. Xüsusilə Anadolu və İraqdan hər üç aydan bir təqribən üç min ziyarətçinin Ərdəbilə gəldiyi qaynaqlardan ortaya çıxarılmışdır. Bundan əlavə dövrün Azərbaycan hakimləri olan, Elxani hökmdarları Olcaytu Məhəmməd Xudabəndə (1304-1316) və Əbu Səid Bahadır Xan (1316-1335), Elxani bəyləri Əmir Çoban (v. 1327), Vəzir Xoca Rəşidəddin (v.1318) və çox sayda dövrün dövlət adamları Şeyx Səfiəddinin müridləri olmuşdular [26, s. 134-135; 22, s. 180; 15, s. 6; 24, s. 258; 21, s. 176, 183-184; 20, s. 114-115].

Xülvi əsərində XVI-XVII əsrlər üçün də aktual olan Şeyx Səfinin seyyidlik məsələsinə də münasibət bildirir. Birinci olaraq qeyd edir ki, nəql edildiyinə görə Şeyx Səfi həzrətləri "Bizim irqimizdə siyadət (seyyidlik) vardır. Amma bilmirəm Hüseynilərdənik, yoxsa Əli b. Əbu Talibin evladındanıq" şəklində demişdir. Sonra davam edərək bu ailənin seyyid olduqlarını qəbul edənlər Səfəvilərin soylarını İmam Musa Kazıma ordan da Hz. Əliyə qədər apardıqlarını bildirir [17, s. 327]. Səfəvilərin seyyidliyi ilə bağlı bu məlumatlar “Səfvətüs-səfa” nüsxələrində şeyx Səfiəddinin dilindən “... bizdə seyyidlik var, amma Ələvi, yaxud Şərif olduğumuzu (yəni İmam Hüseyn, yaxud İmam Həsən soyundan olduğumuzu) soruşmadım” şəklində də qeyd edilir [14, s. 231-232]. Xülvi, daha sonra isə, İbn İsa risaləsinə istinadən Şeyx Səfiəddinin bu məsələdə tərəddüd etdiyinə görə seyyidliyindən əmin olmadığını “Yaşıl əmmamə və əba geydikləri halda seyyidlikdə şübhəyə düşüb, ağ əba geydilər...” cümləsilə bildirir və davam edərək Şeyx Səfiəddindən sonra övladlarının da seyyidlik simgəsi olan yaşıl əba geymədiklərini, Şeyx Ələəddin Əli qara qisvə geydiyinə görə "Qarabaş", Şeyx Heydər "qırmızı (qızıl) tac" qoyduğuna görə də "Qızılbaş" adlandırılmış; sonralar Qarabaş sünnü olanlara, Qızılbaş isə şiə heydəri olanlara deyilmişdir məlumatını verir [17, s. 327]. Halbu ki, “Səfvətüs-səfa” əsərinin bəzi nüsxələrindən ortaya çıxarılaraq Şeyx Səfiəddindən sonra yerinə keçən oğlu Şeyx Sədrəddinin (1334-1392) h. 770 (1368/69)-ci ildə Həcc ziyarətində ikən, soyla-

---

* Şeyx Səfinin doğulduğu Kəlxoran kəndi Ərdəbilin 3 km. yaxınlığında yerləşir. Xülvinin əsərini (əslini görmədiyim üçün) nəşrə hazırlayan müəllif bu kəndin adını "Gülhevaran" kimi oxuyub. "Səfvətüs-səfa" əsərinin Serap Şah tərəfindən tənqidi təhlilində və eləcə də Nişatinin "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi şəklində hazırladığı "Şeyx Səfi təzkirəsi"ində bu kəndin adı Kəlxoran olaraq qeyd olunur [25, s. 227-228, 242-243, 265, 278, 289; 5, s. 49, 190; 15, s. 7]. Görgəmli səfəvişünas alim Şahin Fərzəliyev isə, "Tarixe-alaməraye-Abbasi" əsərinin tərcüməsində bu kəndin adını Kəlxaran kimi göstərir [3, s. 54, 55; 4, s. 1279].

rının İmam Musa Kazıma dayandığını Məkkənin hakimi (və yaxud naqibul-əşrəfi olan) Seyyid Şəhabəddin b. Əhməd b. Hüseynə tədqiq etdirərək təsdiklədiyi bilinməkdədir [14, s. 233; 13, s. 63].

Xülvinin xəlvəti şeyxlərindən olduğu nəzərə alınaraq, onun Səfəvilərin seyyid olmadıqlarına dair fikrinə bir az ehtiyyatlı yanaşılmalıdır. Baxmayaraq ki, Xülvidə əhli-beyt sevgisi yüksək səviyyədə olub və əsərində də 12 imama yer veribdir. Eyni zamanda qeyd etməliyik ki, XVI əsrdən başlayaraq məzhəb fərqlərinə görə çox gərgin olan Osmanlı-Səfəvi münasibətləri zamanı xəlvətilər Osmanlı dövlətinin tərəfini tutaraq qızılbaşlara qarşı idilər [18, s. 435-444]. Belə ki, əvvəllər bəzi silsilənamələrində hz. Əli ilə Həsən Bəsrinin (642-728) arasında bəzi əhli beyt imamlarının adları keçir və ibadətlərdə 12 imam zikr edilirdi. Hətta bu məsələyə görə Seyyid Yəhya və müridləri “rafizi” damğası altında günahlandırılmışdılar. Bu iki təriqətin kökü Zahidiyyədə birləşsə də, Səfəvilər dövlətinin şiəlik ideologiyası əsasında qurulmasından sonra, xüsusilə də Osmanlı dövlətində inkişaf edən Xəlvəti təriqətinin əhli-beytə dayanan mürşid silsiləsində və zikr ibadətlərində əhli-beyt imamlarının adları çıxarılaraq bəzi dəyişikliklər edilmişdir [10, s. 542-543, 547-548, 559; 6, s. 93-94]. Görünür ortaya çıxan siyasi səbəblərdəndir ki, bir sünni təriqəti olan xəlvətilərə qarşı şübhə və inamsızlıq başlayınca, bu cür tədbirlərə əl atılmışdır.

Xülvi, Şeyx Səfiəddinin h.760 (1358/59)-cı ildə Ərdəbildə vəfat etdiyini yazır. Əsas tarixi mənbələrə görə isə, Şeyx Səfiəddin, məhərrəm ayının 12-si 735 (12 sentyabr 1334)-ci ildə, 85 yaşında (miladi olaraq təqribən 83 edir) Ərdəbildə vəfat etmişdir [5, s. 758; 3, s. 60]. Özündən sonra təriqətə rəhbərlik edən oğlu Şeyx Sədrəddin Ərdəbilinin göstərişi ilə atası Şeyx Səfinin məzarı üzərində türbə inşa edilmişdir. XVI əsrdə I Şah İsmayılın (1501-1524) dövründə kompleksə daxil olan tikililər təmir edilmiş, Şeyx Səfi türbəsi bir memarlıq nümunəsi kimi bərpa edilərək fasadı bədii kaşılarla bəzədilmişdir [12, s. 53].

**Şeyx Əxi Yusif**

Əsərdə Şeyx Əxi Yusifin seyyid olduğu, soylarının Seyyid Əhmədi Yəsəvi övladlarından gəldiyi bildirilir. Şirvanın Mişqat qəzasında anadan olmuşdur. Gənc yaşlarından Şeyx Zahiddən dərs almışdır. İrşad və seyri-sülukunu tamamladıqdan sonra Anadoluya göndərilərək Niydə şəhərinin Təpəviran deyilən yerində ömrünün sonuna qədər irşad fəaliyyətini sürdürmüşdür. O, Anadoludakı fəaliyyəti dövründə Şeyx Zahidin təsəvvüfi görüşlərinin təbliğ və təşviqini genişləndirməyə çalışmış, təmsil etdiyi sufi düşüncəsinin tərəfdarlarını daha da artırmağa səy göstərmişdir. H. 708 (1308-09)-ci ildə orada vəfat etmiş və fəaliyyət göstərdiyi zaviyədə dəfn edilmişdir [17, s. 329-331].

**Şeyx Pir Hikməti Şirvani**

Əsərdə Şeyx Pir Hikmətin Şamaxıda dünyaya gəldiyi, əsl adının Məhəmmədəli, künyəsinin Əbu Hikmət, ləqəbinin isə Məhyəddin olduğu bildirilir. Daha sonra qeyd olunur ki, uşağlığı Gəncə və Bərdədə keçmişdir. İlk təhsilini bu şəhərlərdə alan Pir Hikmət sonralar təhsilini Təbrizdə davam etdirərək bitirmiş və Şirvana qayıdaraq ipək ticarəti ilə məşğul olmuşdur. Pir Hikmət Şirvandan Gilana qədər gedərək, buradakı Lahican mahalında tanış olduğu bir ipək taciri ilə şərik işləmişdir. Şərikinin ölümündən sonra, varisi olmadığına görə "bəylikçi" kimi qeyd olunan yerli idarəçilər tərəfindən onun bütün var-dövləti müsadirə edilmişdir. Bu məsələ ilə əlaqədar Lahicana gedən Pir Hikmət, Lənkəranda tanış olduğu Şeyx Zahidə mürid olmuşdur. Bir müddət onun yanında qalaraq, "seyri-sülukunu" tamamladıqdan sonra "xəlifə" olaraq "icazət" ala bilmişdir.

Müəllif daha sonra qeyd edərək bildirir ki, Sultan Əbu Səid Bağdadda zəhərlənərək öldürüldükdən sonra, vəziri Cəlaləddin onun yerinə hakimiyyəti ələ keçirtmişdi. Şeyxə xüsusi hörməti və sevgisi olduğu üçün, ona bir miqdar pul göndərmişdi. Cəlaləddinin göndərdiyi bu ianə pulu ilə Pir Hikmət Gəncədə məscid və yanında da bir zaviyyə inşa etdirərək, irşad fəaliyyətini burada davam etdirdi [17, s. 333-334]. Xülvinin bəhs etdiyi bu hadisələr ümumi şəkildə tarixi reallığa uyğundur. Bəzi qaynaqlara görə Sultan Əbu Səid, qısqanclıq üzündən zövcələrindən biri olan Bağdat xatun tərəfindən zəhərlənərək 30 noyabr 1335-ci ildə Qarabağda vəfat etmişdir. Özündən sonra varis qoymadığı üçün dövlət işləri bir neçə əmirin əlinə keçmişdir [30, s. 219].

Xülvi, Şeyx Pir Hikmət Şirvaninin h.736 (1335-1336)-cı ildə Gəncədə vəfat etdiyini bildirdikdən sonra bu hadisənin Əmir Teymurun Xorasana və Əmir Çobanın da Təbrizə hökm etdiyi dövrdə baş verdiyini qeyd edir [17, s. 334]. Burada göstərilən hadisələrin hər biri başqa tarixlərdə baş verdiyi üçün, bu məlumat həqiqətə uyğun deyildir. Əmir Çobanın sultan Əbu Səid tərəfindən 1327-ci ildə öldürüldüyü tarixindən Teymurun Xorasana hakim olduğu 1380/82-ci illər [23, s. 97-99; 8, s. 31; 9, s. 10-12] arasında 55 ildən çox müddət var. Buradan aydın olur ki, Şeyx Pir Hikmət Şirvaninin h.736 (1335-1336)-cı ildə göstərilən ölüm tarixi də yuxarıda bəhs olunan hadisələrlə uyğun gəlmir.

**Şeyx Əxi Məhəmməd Xarəzmi**

Xarəzmdə dünyaya gəlmişdir. Adı Məhəmməd, ləqəbi Kəriməddin, künyəsi isə, Əbulfiyuzatdır. Tariximizdə Əxi Məhəmməd kimi tanınaraq məşhurlaşmışdır. Xülvinin "Ləməzat" əsərindən bizə məlum olur ki, gördüyü bir yuxudan sonra Gilana gedərək Şeyh Zahidə mürid olmuşdur. İrşadını tamamladıqdan sonra Xarəzmə geri dönsədə, bir müddət keçdikdən sonra təkrar Gilana qayıdaraq Heri qəsəbəsində məskunlaşmışdır. O, ömrünün sonuna qədər burada yaşamışdır

Xülvi, Şeyx Əxi Məhəmməd Xarəzminin h. 780 (1378/79)-ci ildə vəfat etdiyini göstərir [17, s. 335-337]. Qeyd olunan bu tarixin doğruluğu bir az şüphəli görülsə də, ehtimal etmək olar ki, o uzun ömür yaşamışdır.

Məhmət Rıhtımın təsbitlərinə görə Xəlvəti adını alan ilk şeyx Əxi Məhəmməd Xarəzmidir. Onun ən məşhur vəkili, qardaşı oğlu və eyni zamanda qaimi məqamı isə Xəlvətilik təriqətinin qurucusu olmuş Şeyx Pir Ömər Xəlvətidir (v.1397) [17, s. 338; 6, s. 100-102; 27, s. 65].

**Nəticə**

Nəticə olaraq onu demək olar ki, tanınmış Osmanlı alimi Mahmud Camaləddin Xülvinin "Ləmazat-ı xülviyyə əz ləməat-ı ulviyyə" əsəri Azərbaycan tarixinin orta əsrlər dövrünün öyrənilməsi baxımından XVII əsr mənbəsi kimi çox böyük önəm kəsb edir. Müəllifin 50 fərqli qaynaqdan istifadə edərək bu əsəri yazmasına diqqət etsək qiymətli mənbə kimi çox mötəbər sayıla bilər. Bu əsərlərdən biri də heç şübhəsiz ki, İbn Bəzzaz Ərdəbilinin "Səvfətüs-səfa" əsəridir. Xüsusilə, Şeyx Zahid Gilani və Şeyx Səfi haqqında verilən məlumatların çox hissəsi bu əsərdən götürülmüşdür. Lakin burada qeyd olunan bəzi xronoloji tarixlər reallığa uyğun gəlmədiyi üçün, mövzu ilə əlaqədar dövrün başqa mənbələri və bir çox tədqiqat əsərlərinə də müqayisəli təhlil üçün nəzər yetirilməlidir.

Bütün bu deyilənlərə baxmayaraq fikrimcə, XVII əsr bir Osmanlı mənbəsi kimi azərbaycanlıların həyat və yaradıcıqlarını ortaya çıxartmaq baxımından bu əsərin daha dərindən tədqiq edilməsində fayda var. Eyni zamanda məqalənin ərsəyə gəlməsi bu istiqamətdə aparılacaq başqa yeni tədqiqat işlərinin ortaya çıxarılmasına da şərait yaradacaqdır.

**Ədəbiyyat siyahısı**

1. Həsən bəy Rumlu. Əhsənüt-Təvarix. Fars dilindən tərcümə: Oqtay Əfəndiyev və Namiq Musalı. Uzanlar. Kastamonu. 2017. 661 s.

2. Hüseynbalaoğlu Böyükağa, Talışlı Mirhaşım. Lənkəran. Maarif nəşriyyatı. Bakı, 1990. 512 s.

3. Münşi İsgəndər bəy Türkman. Tarixe-aləmaraye-Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). fars dilindən tərcümə: Şahin Fərzəliyev. Şərq-Qərb nəşriyyatı. Bakı. 2010. 1144 s.

4. Münşi İsgəndər bəy Türkman. Tarixe-aləmaraye-Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). II kitab. fars dilindən tərcümə: Şahin Fərzəliyev. Şərq-Qərb nəşriyyatı. Bakı. 2011. 1056 s.

5. Nişati Məhəmməd b. Hüseyn Katib. Şeyx Səfi təzkirəsi (Səfvətüs-səfanın XVI əsr türk tərcüməsi). redaktoru, izahların və lüğətin müəllifi: Möhsün Nağısoylu. Bakı, 2010.

6. Rıhtım Mehmet. Seyid Yəhya Bakuvi və xəlvətilik. Qismət. 2005, Bakı.264 s.

7. Tərbiyyət Məhəmmədəli. Danişməndani Azərbaycan. tərcümə: İsmayıl Şəms ve Qafar Kəndli. Azərnəşr. Bakı. 1987. 464 s.

8. Vamberi German. Əmir Teymur. ruscadan tərcümə edən: S. İbrahimov. Azərbaycan Dövlət Kitab Palatası. Bakı. 1991. 84 s.

9. Aka İsmail. Timur ve Devleti. Türk Tarih Kurumu Basımevi. Ankara. 1991. 172 s.

10. Aşkar Mustafa. Bir Türk Tarikatı Olarak Halvetiyyenin Tarihi Gelişimi ve Halvetiyye Silsilesinin Tahlili.// Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi, C. 39, sy.1, 1999. s. 535-563.

11. Bahadıroğlu Mustafa. Zahid Geylani. //TDV İslam Ansiklopedisi. C. 21. 2000, s.359-360.

12. Bilgili Ali Sinan. Devletlik Pir; Şeyh Safiyyüddin-i Erdebili Vakfı. // Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi. Sayı-49: 2009, s. 47-94.

13. Ekinci Mustafa. Anadolu Aleviliğinin Tarihsel Arka Planı. Beyan Yayınları. İstanbul. 2002. 240 s.

14. Gölpınarlı Abdülbaki. 100 Soruda Türkiyede Mezhebler ve Tarikatlar. Gerçek Yayınevi. İstanbul. 1969. 304 s.

15. Hınz Walther. Uzun Hasan ve Şeyh Cüneyd. çeviren: Tevfik Bıyıklıoğlu. Türk Tarih Kurumu Basımevi. Ankara. 1992. 165 s.

16. Hulvi Mahmud Cemaleddin. Lemezat-ı Hulvi ez Lemeat-ı Ulvi "Ağıztadı". C. I-II. hazırlayan: Mehmet Serhan Tayşi. Tercüman Yayınları. İstanbul. 1980. 401 s.

17. Hulvi Mahmud Cemaleddin. Lemezat-ı Hulviyye ez Lemeat-ı Ulviyye, hazırlayan: Mehmet Serhan Tayşi. İstanbul. Marmara Universitesi İlahiyat Fakültesi Vakfı Yayınları.1993. 656 s.

18. Küçükdağ Yusuf. Osmanlı Devleti'nin Şah İsmail'in Şii Propagandalarına Halvetiye ile Karşı Koyma Politikası. / XIII. Türk Tarihi Kongresi, 4-8 Eim 1999 Ankara. Ankara. 2002, s. 435-444.

19. Mecdi Mehmed. Şakaik-ı Numaniye ve Zeyilleri: Hadaiku'ş-Şakaik (Şekaik Tercümesi). neşre hazırlayan: Abdulkadir Özcan. C. I. Çağrı Yayınları. İstanbul, 1989. 41+528 s.

20. Mohammesnejad Hamidreza, Erdebil Tarikatı ve İlhanlılar: Tasavvuf ve Siyaset İlişkilerinde Yeni Dönem.//. TAD, C.34/S.57, 2015: 99-120.

21. Musalı Namiq. Şeyh Safi Velayetnamesi: Tahkiki ve Transkripsiyonu. //Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi. Sayı: 184. Kış-2017, s. 163-193.

22. Müneccimbaşı. Sahaifü'l-Ahbar fî Vekayii'l-A'sar. C. III. tercüme: Nedim. İstanbul. 1285. 873 s.

23. Nizamüddin Şami. Zafername. Farçadan çeviren: Necati Lugal. Türk Tarih Kurumu Basımevi. Ankar. 1987. 403 s.

24. Rıhtım Mehmet. Azerbaycan Sufileri Halvetîler-Safevîler. // Azərbaycan Milli Elmlər Akademiyası Elmi Araşdırmalar 1-2, S. 5, Bakı. 2003, s. 255-264.

25. Şah Serap. Safvetü's-Safa'da Safiyyüddin-i Erdebili'nin Hayatı, Tasavvufî Görüsleri ve Menkıbeleri, (Marmara Universitesi, Sosial Bilimler Enstitüsü, İlahiyat Anabilimdalı Tasavvuf Bilimdalı üzere yayınlanmamış doktora tezi). İstanbul, 2007.

26. Şeref Han. Şerefname (Osmanlı-İran Tarihi). Arapçadan çeviren: Mehmet Emin Bozarslan. Ant Yayınları. İstanbul. 1971. 312 s.

27. Tayşi Mehmet Serhan. Ömer el-Halveti. //TDV İslam Ansiklopedisi. C. 34. 2007. İstanbul, s. 347.

28. Uzun Mustafa. Hulvi, Cemaleddin. //TDV İslam Ansiklopedisi. C. 18. 1998, s. 347.

29. Vassaf Hüseyin. Sefîne-i Evliya. C. II. neşre hazırlayan: Ali Yılmaz ve Mehmet Akkuş. İstanbul, 1999.

30. Yuvalı Abdülkadir. Ebu Said Bahadur Han. // TDV İslam Ansiklopedisi. C. 10.1994, s. 218-219.

## Summary

**Bilal Dadayev**

### Sheikh Zahid-i Gilani and his four main caliphs in "Lemezat-i khulviyye ez lemeat-i ulviyye" by Khulvi

"Lemezat-i khulviyye ez-lemeat-i ulviyye" written by Mahmud Jamaladdin al-Khulvi (1574-1654), one of the well-known tasavvuf (sufism) scholars and poets, who lived in the Ottoman Empire in the first half of the XVII century, was completed in 1621. This work consists of three

parts: preface (mukaddima), lemza and a conclusion (hatime). It gives information about the first caliphs of the Islamic state, scholars of religious sect (mazhab), twelve imams of Ahl al-Bayt, Khalvatiyya sect of Sufism and sheikhs that founded its branches and their followers, and well-known sheikhs of that period with whom author personally met and had conversation. In total, the work covers information about 193 persons, including author himself.

As a series, after Safavism, it is possible to get information about Sheikh Ibrahim Zahid-i Gilani, who was considered "a mürşid-i pir" (teacher) of famous personalities of Khalvatism and his main four followers (Sheikh Safi, Sheikh Akhi Yusif, Sheikh Pir Hikmat and Sheikh Akhi Mahammad).

***Keywords:*** *Sheikh Zahid-i Gilani, Khulvi, the  village of Siyavar, the  village of Shikhakaran.*

## Резюме

**Билал Дадаев**

## Шейх Захид-и Гилани и четыре главных халифа в произведении Хулви «Ламазат-и хулвийя аз лемаат-и ульвийя»

В первой половине XVII века один из суфийских ученых и поэтов Махмуд Джамаладдин Хулви (1574-1654) жил и творил в Османском государстве. В 1621 году он завершил свой труд «Ламазат-и хулвийя аз ламаат-и ульвийя». В этой работе, состоящей из трех глав (введение, лемза и хатима), напоминаются первые халифы исламского государства, ученые которые принадлежали сектам, двенадцать имамов ахль аль-байта, шейхи, основавшие секту Халватийя, и их последователи, также напоминаются известные шейхи того времени которыми лично встретился и беседовал автор. Всего сообщается о 193 человеках, включая самого автора.

В произведении также возможно получить информацию о Шейхе Ибрагиме Захид-и Гилани и четырех его ближайших преемниках (Шейх Сафи, Шейх Ахи Юсуф, Шейх Пир Хикмет и Шейх Ахи Мухаммад), которые считаются «муршид-и пири» Халвати  после Сефевидов.

***Ключевые слова:*** *Шейх Захид-и Гилани, Хулви, село Сиявар, село Шихакаран.*

UOT 9301

**ELXAN QULİYEV**
*Azərbaycan MEA-nın Elm Tarixi İnstitutunun kiçik elmi işçisi*
*elkhan2000@yahoo.com, Azərbaycan*
*Orcid İd: 0000-0002-9226-8877*

# TİBB ELMİNİN İNKİŞAFINDA MÜSƏLMANLARIN ROLU
## *DR.ZİKRULLAH MƏHƏMMƏDİNİN "QƏRBİN OYANIŞINDA İSLAM MƏDƏNİYYƏTİ VƏ SİVİLİZASİYASININ ROLU" ADLI KİTABINDAN İQTİBAS VƏ ŞƏRH*

***Açar sözlər:*** *Tibb elmi, inkişaf, müsəlmanlar, müsəlman alimlərinin rolu*

Tibb sahəsinin inkişafında müsəlman alimlərinin elmi fəaliyyətləri xüsusi rol oynamışdır. İslam zühur etdikdən yalnız bir neçə yüz il sonra islam elmlərinin Qərb aləminə ötürülməsi prosesi başlamış və bu proses əsnasında avropalılar başqa elmlərlə yanaşı müsəlmanlar tərəfindən inkişaf etdirilmiş tibb elmini də onlardan əxz etməyə başlamışlar.

Müsəlman alimlərinin elmi əsərləri Avropanın təhsil ocaqlarında nəinki orta əsrlərdə tədris olunurdu, bəlkə bu kitablar intibah (Renesans) dövrü və XVII əsrdə belə tibb mərkəzləri tərəfindən əsas mənbə olaraq qəbul edilirdi. Reallıq bundan ibarətdir ki, həmin əsərlər son iki-üç yüz il bundan əvvəl qədər tibb fakültələrində tədris proqramlarının əsas tərkib hissəsi hesab olunurdu (bax: 1, s.633).

Tanınmış ingilis alimi Edvard Qranvil Braun bu barədə yazır: "Müsəlmanlar tibb elminin az qala sönməkdə olan məşəlini Hippokrat və Calinusun (Claudius Galenus) naxələf ardıcıllarının əlindən alaraq beş əsrdən sonra daha parlaq şəkildə onlara geri qaytardılar" (bax: 2, s. 104).

Əlbəttə qeyd etmək lazımdır ki, bu arada Yunan təbiblərinin əsərlərinin və onların tibb elmi sahəsində irəli sürdükləri elmi fikirlərin islam təbabətinə qoyduğu təsirləri heç kim inkar edə bilməz. Amma, "müsəlmanlar yalnız Yunan tibb elmindən istifadə edib, sonra onu olduğu kimi Avropa və avropalılara geri qaytarıblar" deməyimiz heç də ədalətli görünmür. Çünki islam tibabətində Yunan və Aleksandriya amilindən başqa digər amillərin də iştirak etdiyi bizə məlumdur. Burada ilk növbədə Çin, Hindistan, İran təbabəti, eləcə də sağlamlıq və şəxsi gigiyena ilə bağlı islam Peyğəmbəri (s.v.) tərəfindən buyurulmuş hədis və göstərişləri qeyd etmək olar. Belə ki, İslam Peyğəmbərinin (s.v) pəhriz, sağlamlıq, xəstəliklər, təmizlik və gigiyena barədə buyurduqları rəvayətlər islam alimləri tərəfindən toplanaraq kitab şəklinə salınmış və "Tibbun-Nəbi" adı ilə şöhrət qazanmışdır. Digər tərəfdən, Qurani-Kərimin müxtəlif surə və ayələrində təbabətlə bağlı müxtəlif mövzular ümumi şəkildə bəyan edilmişdir.

İslam təbabətinin inkişafında ən mühüm rol oynamış təhsil ocaqlarından biri Condişapur (indiki İranın Xuzistan əyaləti) təhsil mərkəzi olmuşdur. Sasanilər dövründə yaradılmış bu təhsil ocağı Orta Şərqin ən qədim elm mərkəzlərindən olmuş, burada Zərdüşt dini, eləcə də Yunan və Hind ənənəsindən istifadə edilərək tibb, fəlsəfə, ilahiyyat və digər elmlər tədris olunmuşdur. Hind təbabəti ilə bağlı elmi biliklərin Condişapur elm mərkəzinə gətirilməsilə bağlı deyə bilərik ki, bu iş Sasani hökmdarı I Xosrov Ənuşirəvanın dövründə yaşamış və Nişapurda doğulmuş məşhur həkim-təbib Borzuyanın vasitəsilə həyata keçirilmişdir. Yunan təbabəti isə Rüha (Edesa) mədrəsəsinin Şərqi Roma imperatorluğu tərəfindən bağlandıqdan sonra oradan İrana köçüb gəlmiş alimlərin vasitəsilə sözügedən elm mərkəzinə gətirilmişdir (bax: 3, s.194-195). Buna görə də, Condişapuru Hind, Yunan və İran təbabətinin eyni məkanda görüşdüyü elm mərkəzi də adlandırmaq mümkündür. İslamın ilk dövrlərində müsəlmanların rastlaşdığı tibb elmi də məhz, həmin üç növ təbabət üsulundan sintez olunmuş təbabət elmi olmuşdur. Condişapur mərkəzinin bütün həkimləri, xüsusilə də Buxtişu nəslinin nümayəndələri Abbasilər xəlifəsi Mənsurun dövründən eti-

barən Məmunun dövrünə qədər tədricən Bağdad şəhərinə köçürülmüş və orada salınmış xəstəxanalarda fəaliyyət göstərmişlər.

Digər tərəfdən, İslam təbabətinin inkişaf və formalaşmasında mühüm rola malik olan digər amillər sırasına Yunan və Hind təbabətini də daxil etmək lazımdır. Demək olar ki, sözügedən dövrlərdə Yunan alimlərinin tibb elminə dair bütün əsərləri müsəlman alimləri, o cümlədən Hüneyn ibn İshaq, Yuhna ibn Bitriq və Yaqub ibn İshaq ibn Kindi tərəfindən ərəb dilinə tərcümə edilmişdi. Hindistandan isə bir çox həkim və alim bir başa Bağdada köçmüş və "Beytül-hikmə" mədrəsəsinin tərcüməçiləri ilə birlikdə fəaliyyətə başlamışdı. Bütün qeyd edilənləri nəzərə alaraq bu qənaətə gəlmək olar ki, islam təbabəti dedikdə, Yunan, Hind və İran təbabəti haqda məlumatlar, eləcə də islam Peyğəmbəri (s.ə.) və Qurani-Kərimin insan sağlamlığı ilə bağlı təqdim etdiyi biliklər və üstə gəl müsəlman alimlərinin praktika və təcrübələrinin məcmusu nəzərdə tutulmalıdır.

İslam təbabətinin tarixi barədə bunu da deyə bilər ki, İbn Əbi Usəybianın (4, s. 13). yazdığına görə artıq Həzrəti Peyğəmbərin (s.v) öz dövründə Haris ibn Kildə adlı bir şəxs İrana səfəri zamanı Condişapurda tibb elmini öyrənmişdi. Bu şəxsi nəzərə almasaq, ilk tanınmış müsəlman həkim Abbasilər xəlifəsi Mötəsimin dövründə islamı qəbul edərək sarayda qulluq edən Əli ibn Rəbbən Təbəri olmuşdur (5, s. 527). Bu alimin ən məşhur əsəri isə "Firdovsəl-hikmə" adlanır. Hımin kitab 360 bölümdə (babda) tərtib edilərək m.947 (hc.336)-cı ildə yazılmışdır. Tanınmış alim Zəkəriyə Razinin müəllimi olan Əli ibn Rəbbən Təbəri öz əsərinin məlumatlarının əsas hissəsini Qalenin və Hipokratdan iqtibas etmişdir. Əlbəttə bu arada o, Hind təbabətinə dair əsərlərin məlumatlarından də istifadə etmiş və kitabın 36 fəsildən ibarət olan son bölümünü də məhz Hind təbabətinə həsr etmişdir (bax: 3, s.203).

Əli ibn Rəbbən Təbəridən sonra islam dünyasında ən şöhrətli təbiblərdən biri də Məhəmməd ibn Zəkəriyə əl-Razi olmuşdur. O, m.932 (hc.320)-ci ildə Rey şəhərində vəfat etmişdir. Zəkəriyə Razi tibb elmini Əli ibn Rəbbən Təbəridən öyrənmiş (6, s.358) və bu sahə üzrə çox sayda elmi əsərlər yazmışdır. İbn ən-Nədim öz kitabında Zəkəriyə Razinin 220-dən çox kitab və risaləsinin adını çəkmişdir (5, 532-535). Baxmayaraq ki, Zəkəriyə Razi öz dövrünün bir çox elm sahələrini mənimsəmiş və onlar haqda əsərlər yazmışdır, amma o, daha çox kimya və tibb sahələrini mükəmməl bilən bir mütəxəssis olaraq şöhrət qazanmışdır. Demək olar ki, onun əsərlərinin yarısı məhz, tibb elminə aiddir və bu kitablardan ən məşhuru "əl-Havi", "əl-Mənsuri fit-tibb", "Çiçək" və "Qızılca" adlı kitablarıdır. İllərin mütaliəsi, təcrübə və tibbi analizlərin nəticəsində yazılmış "əl-Havi" əsəri əslində böyük bir islam ensiklopediyası hesab olunur. Bu əsərdə tibb elmi ilə bağlı bir çox məsələlər, o cümlədən xəstələrin müalicə üsulları, sağlamlığın qorunması, cərrahiyyə və sınıqlar, dərmanlar və pəhriz xörəkləri (dieta), tibb sənayesi, əczaçılıq və s. məsələlər öz əksini tapmışdır (5, s.533). Zəkəriyə Razini digər müsəlman təbiblərdən fərqləndirən cəhət isə, onun praktiki və kliniki metodlara üstünlük verməsi olmuşdur və "əl-Havi" əsərinin əhəmiyyəti də məhz onun bu iki cəhətə üstünlük verməsində idi. Onun digər kitabı isə "əl-Mənsuri fi ət-Tibb" əsəridir və o, bu kitabı Mənsur ibn İsmailin adına yazmışdır (bax: 3, s. 185 və 532).

Zəkəriyə Razidən sonra şöhrət qazanmış müsəlman təbiblərdən biri də, Əli ibn Abbas Məcusi Əhvazi (latınca: Haly Abbas) olmuşdur. O, "əl-Məleki" adı ilə şöhrət qazanmış "Kamil əs-sənaəh" əsərinin müəllifidir və bu kitabı yazdıqdan sonra Əzud əd-Dövləyə hədiyyə etmişdir. Əli ibn Abbas Əzud əd-Dövlənin sarayında təbib kimi çalışması ilə yanaşı Bağdadın "Əzudi" adına xəstəxanasının müdiri vəzifəsinə də təyin edilmişdi. Nizami Əruzi özünün "Çahar məqalə" kitabında Əli ibn Abbasın müalicə sahəsində mahir bir təbib olduğuna dair məlumat vermişdir (7, s.124 və 125). Əli ibn Abbas tərəfindən yazılmış kitabın əhəmiyyəti ondadır ki, müəllif bu əsərdə təkcə Yunan və müsəlman təbiblərinin adlarını çəkməmiş, bəlkə onların müsbət və mənfi cəhətlərini də obyektiv şəkildə bəyan etmişdir (bax: 3, s.217).

Adları çəkilən təbiblərdən başqa islam dünyasında, xüsusilə də Əndəlüsdə şöhrət qazanmış digər təbiblərin, o cümlədən Əbülqasim Zəhravi və İbn Zuhər Əndəlüsinin adını da qeyd etmək olar və məqaləmizin cərrahiyyə və oftalmologiya bölməsində bu iki təbib haqda ayrıca məlumat verilmişdir.

X əsrdə tibb elmi sahəsində elə bir alim zühur etdi ki, özündən əvvəlki təbib və alimləri kölgədə qoydu. Əlbəttə ki, "Hüccət əl-Həqq" adı ilə şöhrət qazanan alimin adı Hüseyn ibn Abdullah ibn Sina (m.980-1037 / h.370-428) idi (6, s.442 və 453).

İbn Sinanın "Qanun" adlanan ən böyük elmi əsəri barədə Alman şərqşünası, oftalmoloq alim Meyerhof Maks yazır: "Qanun" kitabı islam dünyasının şah əsəri hesab olunur (bax: 16, s. 116).

İbni Sinanın "Qanun" kitabı tibb elminin bütün sahələrindən və əczaçılığın sirlərindən bəhs edən böyük bir ensiklopedik əsərdir. Nizami Əruzi bu əsər barədə yazır: "Əgər tibb sahəsində digər kitablara, o cümlədən Hippokrat, Huneyn ibn İshaq, Zəkəriyə Razi, Sabit ibn Qurrə, Galen və s. müəlliflərin elmi əsərlərinə möhtac qalmaq istəmirsənsə, İbn Sinanın "Qanun" kitabını əldə etməlisən. Bu əsərin birinci cildi kimin əlində olarsa, həmin şəxs tibb elminin əsasları və bu sahə üzrə ümumi bilikləri sahib olmaq şansına malik olacaqdır. Əgər Hipokrat və Galen sağ olsaydı, bu kitabın qarşısında baş əyərdi" (bax: 8, s.602-603).

İbn Sinadan sonra tibb elmi islam coğrafiyasına aid olan müxtəlif məntəqələrdə öz inkişaf mərhələsinin növbəti fazasına qədəm qoymuş və bunun nəticəsi olaraq Misir, Şam, İraq, İran, Əndəlüs (İspaniya) və Hindistanda kifayət qədər şöhrət qazanmış alim və təbiblər zühur etmişlər. İspaniyada tanınmış filosof və həkim İbn Rüşd özünün "əl-Kuliyyatu fit-tibb" əsərini yazmış və ilk dəfə olaraq bir şəxsin ikinci dəfə çiçək xəstəliyinə tutulmasının qeyri-mümkünlüyünü sübuta yetirmişdir. Eləcə də, İbn əl-Xətib Əndəlüsi sübuta yetirmişdir ki, taun xəstəliyi yoluxucu bir xəstəlikdir, hətta xəstə tam örtülü vəziyyətdə olsa belə (bax: 9, s.54). İbn Zuhər nəslindən olan Əbu Mərvan ibn Zuhər özünün "ət-Təysir fil-mudavat və ət-tədbir" adlı əsərini ərsəyə gətirmişdir. İbn Məymun yəhudi olmağına baxmayaraq İbn Sina, İbn Rüşd və İbn Tufeylin elmi-nəzəri fikirlərini daha da inkişaf etdirərək onu təkmilləşdirmiş və özünün "əl-Fusul" əsərini yazmışdır (bax: 3, s.190).

Sözügedən dövrdə Misirdə İbn ən-Nəfis və İbn Əbi Useyba kimi təcrübəli alimlər meydana çıxmışdır. İbn ən-Nəfis ingilis alimi Harveydən həhlə dörd yüz ilə əvvəl kiçik qan dövranını kəşf etmiş müsəlman alimidir (bax: 10, s.106-107). Onunla eyni dövrdə yaşamış İbn Əbi Usayba isə "Uyun əl-ənba fi təbəqat əl-ətibba" kitabının müəllifidir və o, bu əsərdə 399 nəfər tanınmış təbib alimin həyat və yaradıcılığı haqda çox qiymətli məlumatlar verilmişdir.

İslam təbabətinin Avropaya ötürülməsi ilə bağlı deyə bilərik ki, tarixi mənbələrin verdiyi məlumata əsasən XI əsrdən etibarən bu proses artıq başlamışdı və islam təbabəti islam coğrafiyasının hüdudlarını aşıb keçərək Qərb dünyasına nüfuz etmişdi. Müsəlman alimlərinin əsərləri, onların tibb elmi ilə bağlı yeni fikirləri iki yolla, yəni İtaliya və İspaniya vasitəsilə Qərb aləminə yol açdı və tədricən xurafat və mövhumatla dolu olan ənənəvi Qərb təbabətinin dirçəlişinə səbəb oldu. Bununla bağlı ilk növbədə İtaliyanın "Salerno" mədrəsəsini və həmçinin, orada çalışan tanınmış həkim "Afrikalı Konstantin" (Constantinus Africanus) adını çəkmək olar. Salerno təhsil ocağı ona görə ilk universitet adlandırılmamışdır ki, orada yalnız tibb elmi tədris olunmuş və təhsil səviyyəsi universitet səviyyəsindən aşağı olmuşdur. Bütün bunlara baxmayaraq sözügedən təhsil ocağı XI-XII əsrlərdə tibb elmi sahəsində Avropa təhsil mərkəzlərinə liderlik edirdi (bax: 11, s.535).

"Salerno" mədrəsəsinin yaradılma tarixi barədə müxtəlif fikirlər irəli sürülmüşdür. Siqrid Hunke bildirir ki, bir çox faktlara əsasən deyə bilərik ki, bu mədrəsə müsəlmanların Siciliya və Cənubi İtaliyaya nüfuz etdikləri dövrdə yaradılmışdır (12, s.154). Amma Filip K. Hitti və bəzi digər tədqiqatçılar onun dörd nəfər Latın, Yunan, Yəhudi və Ərəb müəllimləri tərəfindən inşa edildiyini bildirirlər (13, c.2, s.741).

Bəhs edilən təhsil ocağının yaradılma tarixinə dair şübhəli məqamlar olsa da, onun tibb elmi sahəsi üzrə göstərdiyi fəaliyyəti kifayət qədər əhəmiyyətli rola malik olmuşdur. "Salerno" mədrəsəsində çalışan görkəmli şəxsiyyətlərdən biri və bəlkə də birincisi Konstantin Afrikayi olmuşdur. O, Karfagendə anadan olmuş, islam dünyasının şərqində yerləşən böyük şəhərlərə, o cümlədən Hələb, Antakya, Şizar və Misirə səfərlər etmiş, ərəb dilini öyrəndikdən və İbn Butlan (Əbu Anis əl-Muxtar ibn əl-Həsən ibn Butlan, m.1001-1038) kimi tanınmış təbiblə tanış olduqdan sonra öz vətəninə dönmüşdür. Konstantin bir müddətdən sonra Siciliyaya,

oradan isə İtaliyanın Salerno şəhərinə getmişdir (12, s.156).

Konstantin Afrikayi Salerno mədrəsəsində islam təbabətinin tədris olunması istiqamətində bir sıra mühüm işlər görmüş, müsəlman alimləri tərəfindən yazılmış elmi əsərləri isə tərcümə etmişdir. O, bir müddət sonra Monte Kazinoda (Monte Casino) yerləşən monastıra gedərək ömrünün son illərini orada yaşamışdır. Konstantin məhz Monte Kazinoda yaşadığı müddət ərzində Əli ibn Abbasın tibb elmi üzrə "Kamil əs-Sənaət" adlı böyük ensiklopedik əsərini tərcümə etməklə Avropa ictimaiyyətini ilk dəfə olaraq islam təbabətinin əsas mənbələri ilə tanış etmişdir (11, s.535).

İslam təbabətinin Avropaya ötürülməsi prosesində İtaliya ilə yanaşı İspaniyada yaradılmış Tərcümə mərkəzi (Darut-tərcümə) də mühüm rolu ifa etmişdir. İspaniyanın şöhrətli alimi Gerard Kremona (Gerard Cremona) müsəlman alimlərinin bir çox əsərlərini Latın dilinə tərcümə edən ən tanınmış şəxsiyyətlərdən biridir. O, tibb elmi üzrə islam dünyasına aid üç ən mühüm elmi əsəri, yəni "ət-Təsrif Zəhravi", "Mənsuri Razi" və İbni Sinanın "Qanun" kitabını ərəb dilindən Latın dilinə tərcümə etmişdir (13, s. 741). Edvard Braun Gerard Kremona barədə yazır: "Həqiqətən də orta əsrlər Avropa cəmiyyəti islam təbabəti ilə bağlı elmi məlumatları əldə edə bildiyinə görə bu iki şəxsə, yəni Konstantin Afrikayi və Gerard Kremona və Fərəc ibn Səlim adlı bir yəhudi həkimə borcludur" (2, s.105).

Fərəc ibn Səlim ilk dəfə olaraq Razinin "Əl-Havi" kitabını 1279-cu ildə tərcümə etmiş və ömrünün təxminən yarısını məhz bu işə sərf etmişdir (10, c.2, s.170). "Əl-Havi" əsəri tərcümə edildikdən sonra Avropa və xristian aləminin alimləri tərəfindən çox böyük rəğbətlə qarşılanmışdır. Beləki, bu əsər təkcə 1542-ci ildə beş dəfə yenidən çapa verilmiş və tibb elmi üzrə Avropada əsas dərslik kitabına çevrilmişdir. Vill Durant bu barədə yazır ki, bu kitab 1395-ci ildə Paris şəhəri Tibb fakültəsində əsas doqquz dərslik vəsaitindən biri hesab olunurdu (14, s. 316). Bundan əlavə, "Qanun" kitabı da latın dilinə tərcümə edilən zaman, eynilə "əl-Havi" kitabı kimi tez bir zamanda alimlərin diqqətini özünə cəlb etdi və Avropada şöhrət qazandı. Belə ki, bu əsər XV əsrin sonlarında 16 dəfə, yəni 15 dəfə latın dilində, bir dəfə də ibrani dilində yeni çapa verilmişdir. XVI əsrdə bu kitab iyirmi dəfədən çox yenidən çapa verilmiş və XVII əsrin ikinci yarısınadək dəfələrlə nəşr olunmaqla yanaşı həm də uzun müddət tibb elmi sahəsində əsas mənbə və dərslik vəsaiti kimi istifadə olunmuşdur. Dr.Maks Meyerhof yazır ki, "Bəlkə də heç bir tibbi əsər bu kitab qədər yayılmamışdı və tibb elmində bu qədər inkişafın əldə edilməsinə baxmayaraq, hələ də alimlər bu əsəri mütaliə edir və onun elmi məlumatlarından geniş şəkildə faydalanırdılar" (bax: 15, s. 116-117).

Qeyd olunanlardan aydın olur ki, İbn Sinanın "Qanun" və Razinin "Havi" əsəri Avropa cəmiyyətində böyük rəğbətlə qarşılanmış və uzun müddət elmi ictimaiyyət müsəlmanların bu nailiyyətindən bəhrələnmişdir. Bu iki əsər altı yüz il müddət ərzində Avropada tibb elminin əsas mənbəyi kimi qəbul edilmişdir, xüsusilə də İbn Sinanın kitabları Fransa və İtaliya universitetlərində dərslik vəsaiti olaraq tədris proqramına daxil edilmişdir (bax: 1, s.633). Qeyd etməliyik ki, 1520-ci ildə Vyanada, 1588-ci ildə isə Frankfurtda tibb universitetlərində tədris proqramları İbn Sina və Razinin həmin elmi əsərlərindəki elmi məlumatlar əsasında tərtib edilirdi (bax: 15, s.133).

Beləliklə də, müsəlman alimlərinin tibbi əsərlərinin tərcümə edilərək Qərb aləminə nüfuz etməsi nəticəsində Avropada tibb elmi sahəsində böyük dəyişikliklər baş verdi və bir çox tibbi terminlər alimlər tərəfindən olduğu kimi saxlanıldı və qəbul edilərək istifadəyə verildi. Onlardan aşağıdakı tibbi terminləri misal olaraq göstərmək olar: 1- ***Julep*** - ərəb dilində "Culab/جلاب", fars və Azərbaycan dilində isə "Gülab/گلاب" deyilən ətirli şərbət. 2- ***Rob*** - ərəb dilində "Rubb/رُبّ" deyilən bal ilə qarışdırılmış qatı meyvə şirəsi. 3- ***Syrup*** - ərəb dilində "Şərab/شراب" deyilən su və şəkərlə qarışdırılmış içkiyə deyilir və xəstəlikləri müalicə etmək məqsədilə ona bəzi digər maddələr də qoşula bilir. 4 – ***Soda*** – Orta əsrlərdə ərəb dilində baş ağrısına "Soda / صداع"deyilərdi. 5- ***Sodanum*** –ərəb dilində baş ağrısına əlac deməkdir. 6- ***Alcohol*** - ərəb dilində "əl-Kuhul / الکحُل" alkol deməkdir (bax: 13, s. 741-742).

Bildiyimiz kimi, tibb elmində göz xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikası ilə məşğul olan oftalmologiya sahəsi hələ qə-

dim dövrlərdən diqqəti özünə cəlb edən sahələrdən biri hesab olunurdu. Müsəlman alimlərinin ciddi səyi və elmi araşdırmaları nəticəsində bu sahədə də müəyyən uğurlar əldə edilmişdi. Con Bernal yazır ki, islam aləmində oftalmologiya sahəsinin inkişafının səbəblərindən biri də müsəlman coğrafiyasında, xüsusilə də ekvator xətti üzərində yerləşən məntəqələrdə göz xəstəliklərinin geniş yayılması olmuşdur (bax: 16, s.213-214). Əlbəttə onun bu fikri həqiqətə daha yaxın görünür. Çünki islamdan öncəki dövrlərdə də Misir və onun yaxınlığında yerləşən digər məntəqələrdə toz-torpaq və digər amillər nəticəsində yaranan göz xəstəliklərinin yayılması ilə bağlı bu məntəqələrdə göz xəstəliklərinin müalicəsi (oftalmologiya) sahəsinə xüsusi diqqət yetirilirdi (bax: 3, s. 176).

Beləliklə də, müsəlmanlar bu sahədə də Yunan, Süryani və İsgəndəriyyə alimlərinin əsərlərini bəşər mirası olaraq qəbul etmiş, həmin elmi məlumatları öz praktika və məlumatlarına qoşaraq çox faydalı yeni elmi əsərlər ərsəyə gətirmişlər. Huneyn ibn İshaq islam dünyasında oftalmologiya sahəsinə dair müxtəlif elmi əsər və monoqrafiyalar yazmış ilk alimlərdən biridir. Onun ən məşhur əsərlərindən "Əlac əl-əyn", "Təqsim iləlu əl-əyn", "İxtiyar ədviyyət iləlu əl-əyn" və "Əlac əmrad əl-əyn bil-hədid" kitablarının adlarını çəkmək olar (5, s.525).

Müsəlman alimlərindən ilk dəfə oftalmologiya sahəsi ilə məşğul olan şəxs, hc.IV yüzilliyində yazılmış "Təzkirə əl-kuhhalin / تذكرة الكحّالين" adlı kitabın müəllifi Əli ibn İsa Bağdadi olmuşdur. Bundan sonra "əl-Muntəxəb fi elm əl-əyn və iləluha / المنتخب فى علم العين و عللها" adlı kitab Əmmar ibn Əli Mosuli adlı şəxs tərəfindən Fatimilər xəlifəsinin Misirdəki hakiminin adına yazılmışdır (4, s.147). Adları çəkilən bu iki islam aliminin əmək və fəaliyyətləri təkcə müsəlmanlar deyil, bəlkə Avropa xalqları üçün də çox faydalı və səmərəli olmuşdur. Dr.Maks Meyerhof yazır: "Onların monoqrafiyaları Latın dilinə tərcümə edildi və XVII əsrin ikinci yarısınadək oftalmologiya sahəsində yazılmış digər kitablardan daha üstün hesab olunurdu" (bax: 15, s. 52).

Bundan əlavə, Səlcuqlu Məlikşahın dövründə Zərrindəst adı ilə məşhurlaşmış şöhrətli alim Əbu Ruh Məhəmməd ibn Mənsur tərəfindən oftalmologiya sahəsində "Nur əl-əyn / نور العين" adlı daha bir mühüm elmi monoqrafiya yazılmış və bu əsər sonrakı həkim və təbiblərin əsas elmi mənbəyi hesab olunmuşdur (bax: 9, s. 52).

Beləliklə də, müsəlmanlar hər iki sahə üzrə, yəni cərrahiyyə və gözün anatomiyası sahəsində yüksək səviyyəli əsərlər ərsəyə gətirmiş və həmin sahələrdə böyük nailiyyətlərə imza atmışlar. Sözügedən dövrlərdə mirvari suyu kimi tanınan məşhur göz xəstəliyi asanlıqla müalicə edilirdi. Müsəlman həkimlər mirvari suyu xəstəliyini müalicə etmək üçün özlərinin ixtira etdikləri yeni üsuldan istifadə edirdilər. Belə ki, içi deşik və bir tərəfi də hava ilə dolu kisəyə birləşdirilmiş bir iynəni gözün ağ hissəsindən gözün daxilinə yeridib, gözüm qarası (Pupil) və bəbək (lens) arasında yığılmış suyu çəkib çıxarırdılar. Bu metodun Əmmar ibn Əli Mosuli tərəfindən ixtira edildiyi bildirilmişdir (bax: 17, c.2, s. 698). Həmin metod tez bir zamanda Avropanın müxtəlif məntəqələrinə də gedib çıxmış və onların xəstəxanalarında bu metoddan geniş istifadə olunmuşdur. Hətta bəzi tədqiqatçıların fikrincə, Avropada gözdə olan müxtəlif növ su yığılmalarını məhz, müsəlman cərrahlarının metod və üsullarından istifadə edərək müalicə edirdilər. Bu üsuldan İngiltərədə 1780-ci ilədək, Almaniyada isə 1820-ci ilədək istigfadı olunduğu da mənbələrdə öz əksini tapmışdır (bax: 9, s.56).

Göz cərrahiyyəsi sahəsindəki inkişaf gözün anatomiyasının daha da dərindən öyrənilməsinə marağı artırdı. Bunun nəticəsi olaraq müsəlman alimləri işığın şəffaf cisimlərdən keçməsinə (dioptrika) dair daha düzgün fikir ortaya qoya bildilər və bununla da onlar yeni optika sahəsinin əsasını qoymuş oldular (bax: 18, s.213-214).

Əbu Reyhan Biruni, Məhəmməd ibn Zəkəriyə əl-Razi və Əli ibn Heysəm kimi alimlər nəinki Hippokrat, Evklid və Ptolemeyin görmə ilə bağlı elmi nəzəriyyəsini etibarsız hesab edirdilər, bəlkə onun əvəzində yeni bir elmi fikir irəli sürürdülər. Belə ki, Hippokrat və digər Yunan alimləri hesab edirdilər ki, görmə prosesi gözdə yaranan şüanın nəticəsində baş verir, yəni onlar düşünürdülər ki, gözdən çıxan bu şüa hər hansı bir əşya ilə qarşılaşdıqdan sonra gözə qayıdır və həmin əşyanın kəmiyyət və keyfiyyəti barədə informasiyanı şəxsə ötürür və bu da şəxsin həmin əşyanı görməsinə səbəb olur. Halbi ki, İbn

Heysəm və Zəkəriyə Razi bu nəzəriyyəni düzgün hesab etmir və deyirdilər ki, əşyalardan əks olunan şüalar gözə düşür və göz özündən heç bir şüa buraxmır (bax: 17, c.2, s.697).

Sözügedən sahə üzrə ən şöhrətli alim İbn Heysəm özünün "əl-Mənazir / المناظر" adlı əsərini yazmaqla optika sahəsində ən fundamental məsələləri elmi əsaslarla elmi ictimaiyyətə təqdim edə bilmişdir. Məşhur ingilis fiziki Con Desmond Bernal İbn Heysəmin bu elmi nəzəriyyəsinin Avropa alimlərinin düşüncəsinə təsiri barədə yazır: "İbn Heysəmin "əl-Mənazir" kitabı bu sahə üzrə ilk ən ciddi elmi araşdırma hesab olunur və bununla da o, Orta əsrlərdə optika sahəsinin əsasını qoymuş oldu. Əlbəttə ki, sonralar bu sahə daha da inkişaf etdirildi, amma onun ortaya qoyduğu nəzəriyyə XVII əsrə qədər dəyişməz olaraq qaldı" (bax: 18, s. 213-214). Bütün qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, islam alimləri optika sahəsinin əsasını qoymaqla tibb elminin inkişafı prosesində ən təhlükəli və həssas missiyanı öz öhdələrinə götürmüş oldular.

Bildiyimiz kimi, tibb elminin digər mühüm şaxələrindən biri də cərrahiyyə sahəsidir və müsəlman alimləri bu sahədə də kifayət qədər nailiyyətlər qazanmışlar. Onlar hətta orta əsrlərdə cərrahiyyə əməliyyatı zamanı anesteziyadan da istifadə edirdilər. Qustave Le Bon bu barədə yazır: "Müsəlman cərrahlar ən yeni ixtiraya imza atmışdılar və onlar xəstəni bihuş etmək üçün ona "Bəzr əl-bənc" adlı dərman verirdilər" (bax: 1, s.637).

Orta əsrlərsə yaşamış cərrahlarından biri və Əl-Bəqasis kimi məşhurlaşan alim Əbulqasim Xələf ibn Abbas Zəhravi Əndəlüsü (vəfatı: m.1013 / hc.404) "ət-Təsrif limən əcəzə ən ət-təlif" adlı qiymətli bir elmi əsərin müəllifidir. Bu alim Abdurrəhman Nasir və onun canişini ikinci Həkəmin dövründə saray təbiblərindən biri olmuşdur (4, c.3, s.85).

Zəhravinin kitabı üç əsas bölmədən ibarətdir və onun sonuncu bölməsində bəhs edilən dövrdə cərrahiyyə sahəsi ilə bağlı bütün elmi məlumatlar xülasə şəklində oxuculara təqdim edilmiş və kitabın həmin bölümü də müəllifin alimlər arasında şöhrət qazanmasına səbəb olmuşdur. Müəllif öz əsərində ölü və diri insanların cəsədlərinin təşrih edilməsi məsələsinin zəruriliyi, eləcə də dağlama, diş əməliyyatları, sidik kisəsi və böyrəkdəki daşların xırdalanaraq xaric edilməsi, doğuş və digər cərrahi prosedurlar haqda diqqəti cəlb edən məlumatlar da vermişdir (bax: 13, s.738).

Əbulqasim Xələf ibn Abbas Zəhravi Əndəlüsi cərrahiyyə sahəsinə dair məlumatlardan əlavə digər özəl bacarıqlara da malik olmuşdur. Belə ki, tədqiqatçıların verdiyi məlumatlara görə, o, cərrahiyyə sahəsində istifadə olunan müxtəlif cərrah alətlərini şəxsən özü istehsal edirdi (bax: 1, s.633).

*Şəkil No 1:*



Zəhravinin "Ət-təsrif" kitabı İspaniyada Cerard Kremonai tərəfindən Latın dilinə tərcümə edilmiş və m.1497 (hc.903)-cü ildə Venesiyada, eləcə də m.1778 (hc.1192)-ci ildə Oksfordda nəşr olunmuşdur (bax: 13, s.738).

Sözügedən müsəlman təbibin bu kitabından əlavə digər elmi əsərləri də mövcuddur ki, onların əksəriyyəti Avropa tərcüməçiləri tərəfindən Fransız və Latın dillərinə tərcümə edilmiş və bu günümüzə kimi gəlib çatmışdır. Bu kitablar Salerno və Montpellier universitetlərində tədris proqramına salınmışdır. Zəhravinin əsərləri, xüsusilə də onun cərrahiyyə sahəsinə aid kitabları yalnız orta əsrlərdə deyil, bəlkə son dövrlərə qədər Avropa cərrahları üçün əsas mənbə rolunu ifa etmişdir. Bəhs edilən mövzu ilə bağlı Haler yazır ki: "XIV əsrdən sonra meydana çıxmış bütün cərrah həkimlərin əsas elmi mənbəyi Əl-buqasisin kitabı olmuşdur" (bax: 1, s. 633). Doktor Maks Mayerhof deyilənləri təsdiq edərək yazır ki, "Onun elmi əsərlərini müasir Avropa cərrahiyyəsinin əsasları kimi dəyərləndirmək lazımdır" (bax: 15, s. 117).

İslam dünyasında xəstəxanaların yaranması ilə bağlı deyə bilərik ki, ərəbdilli mənbələrə əsasən müsəlmanlar tərəfindən ilk xəstəxana Harun ər-Rəşidin dövründə qurulmuşdur. Deyilənlərə görə Harun ər-Rəşid Cəbrail Bəxtşuyu adlı şəxsə göstəriş verir ki, Bağdadda Condişapur xəstəxanasına bənzər bir xəstəxana inşa edilsin. O, bu tapşırığı yerinə yetirir və xəstəxanaya rəhbərliyi İbn Masuyə adlı şəxsə tapşırır (19, s.517).

Bundan sonra m.978 (hc.368)-ci ildə Ədududdövlə Bağdadda, həmin yerdə tam təchizatlı yeni bir xəstəxana inşa etdirmişdir. Bu xəstəxanada tibb və cərrahiyyənin müxtəlif sahələri, sınıqçılıq, göz cərrahiyyəsi və həkimliyin digər sahələri üzrə iyirmi dörd nəfər mütəxəssis həkim çalışırdı (4, s. 344).

Mənbələrdən bəzisi həmin xəstəxananın inşa ediləcək yerinin müəyyən edilməsi məsələsini Zəkəriyyə Raziyə aid edərək yazır ki, Əzududdövlə Zəkəriyyə Raziyə tapşırıq verir ki, Bağdadda xəstəxananın qurulması üçün ab-hava baxımından ən uyğun bir yer təyin edilsin. Z.Razi bu işi görmək məqsədlə heyvan kəsdirdi və kəsilmiş heyvanın təzə ətindən şəhərin bir neçə yerində sallaq şəkildə asılmasını tapşırdı. Onun fikrincə hansı yerdə ət daha gec xarab olarsa, həmin yer xəstəxana üçün daha uyğun hesab olunur. Amma İbn Usəybəə bu məlimatı qəbul etməyib yazır ki, Zəkəriyyə Razi Ədududdövlədən əvvəlki illərdə yaşamış və m.932 (hc.320)-ci ildə o, artıq dünyasını dəyişmişdi. Onun verdiyi məlumata əsasən isə "Adudi" xəstəxanası 978 (hc.368)-ci ildə yaradılmışdı (4, s.343-344). Bu xəstəxana hc.VI əsrə kimi əvvəlki əzəmət və təmtərağı ilə öz fəaliyyətini davam etdirmişdir. Qeyd edilən yüzillikdə oraya səfər etmiş İbn Cubeyr yazrı ki, Bağdad xəstəxanası çox sayda otaqları olan bir saraya bənzəyir. Həftənin hər bazar ertəsi və cümə axşamları həkimlər oraya baş çəkir və xəstələrin durumu ilə tanış olurlar. Müayinə apardıqdan sonra xəstələr bütün zəruri ləvazimatlarla təmin olunur. Tibb bacıları isə daimi şəkildə xəstələrin yanındadır və onların qida və dərmanlarının hazırlanması işi ilə məşğuldurlar (20, s.276).

Qeyd olunanlardan əlavə XIV (hc.VI) əsrdə hər cəhətdən təmin və təchiz olunmuş Dəməşq xəstəxanası da özünəməxsus şöhrət qazanmışdı. İbn Cubeyr Dəməşq xəstəxanasını da görmək üçün oraya səfər etmiş və yazmışdır ki, bu xəstəxananın gündəlik xərci on beş qızıl dinardır (20, s.346).

Amma islam dünyasında ən böyük xəstəxana XIII (hc.VII) əsrdə Sultan Qəlavun (m.1279-1290 / hc.678-689) tərəfindən Misirdə yaradılmış "Mənsuri" xəstəxanası olmuşdur. Tarixçilər bu xəstəxananın inşa edilmə səbəblərini belə izah edirlər ki, deyilənlərə görə qulunc xəstəliyindən əziyyət çəkən Qəlavun Dəməşqdə "Nuri" xəstəxanasında müalicə alan zaman nəzir edir ki, əgər bu xəstəlikdən sağalarsa, Qahirədə ona bənzər bir xəstəxana inşa etdirəcəkdir (21, s.406).

Bu xəstəxanada müxtəlif şöbələrdə istirahət və əyləncə üçün xəstələrin istifadəsinə verilmiş avadanlıqlardan əlavə, yuxusuzluqdan əziyyət çəkən xəstələrə həzin musiqilər ifa edilir və xoşagəlimli səslə dastanlar oxunurdu. Həmçinin, sağalmış xəstələrə evə yazılan zaman müəyyən məbləğdə pul da verilir ki, onlar xəstəxanadan çıxan kimi çətinlik çəkib, artıq zəhmətə düşməsinlər (bax: 9, s. 58)

Qeyd etmək lazımdır ki, Harun ər-Rəşidin dövründə yalnız adi xəstəxanalar deyil, bəlkə ruhi xəstələrin müalicəsi üçün ixtisaslaşmış psi-

xiatriya xəstəxanaları da yaradılmışdı. Belə xəstəxanalar “Dar əl-məcanin” (dəlilər evi) adlanırdı (bax: 22, s.71). Tarixi mənbələrdə həmçinin Abbasi xəlifəsi Mütəvəkkilin dövründə, Vasit əyaləti ilə Bağdad arasında yerləşən Hizqil monastırı adlanan məntəqədə bu məqsədlə digər bir xəstəxananın da yaradılmasına dair məlumat verilmişdir (23, s.54).

İbn Cubeyr VI əsrdə Dəməşq şəhərində yerləşən “Dar əl-məcanin” və oradakı ruhi xəstələrin müalicə metodlarından söz açmışdır. Müəllif öz əsərində bəzi xəstələrin ruhi vəziyyəti haqqında da çox maraqlı məlumat vermişdir (20, s.346).

İslam dünyasında yaradılmış xəstəxanaların Avropadakı roluna gəldikdə demək lazımdır ki, əksər Avropa tədqiqatçılarının fikri belədir ki, avropalılar Səlib yürüşləri zamanı müsəlmanların xəstəxanaları ilə yaxından tanış olduqdan sonra belə xəstəxanaların öz ölkələrində də yaratmaq fikrinə düşdülər.

Siqrid Hunke bəhs edilən mövzu ilə bağlı yazır: “Səlib yürüşlərinin döyüşçüləri müsəlmanların böyük xəstəxanalarını görüb təsirləndilər və Avropaya qayıtdıqdan sonra bu cür xəstəxanaları öz ölkələrində də görmək istədiklərini bildirdilər. Bu məqsədlə üçüncü Papa İnosan kilsə müəssisələrindən birinə tapşırıq verdi ki, xəstəxanalar inşa etsin” (bax: 10, c. 2, s. 181).

Bundan əlavə, doqquzuncu Lui məğlub və yorğun halda Avropaya qayıtdıqdan sonra Parisdə bir xəstəxana və kasıblar evi inşa etdirdi (bax: 15, s.131-132).

Baxmayaraq ki, Avropada xəstəxanaların salınması XIII əsrdən etibarən başlamışdır, amma bu sahədə inkişaf çox ləng gedirdi. Belə ki, deyilənlərə əsasən Almaniyanın Leypsiq şəhərində ilk xəstəxana 1517-ci ildə, Parisdə isə “Hotel Dieu” adına xəstəxana 1536-cı ildə inşa edilmişdir (bax: 10, c. 2, s. 182). Bu durumu ruhi və psixi dispanserlərin salınmasına da aid etmək olar. İspaniya istisna olmaqla Avropa ərazisində XVIII əsrə qədər ruhi xəstələr zindanlarda və polis nəzarəti altında saxlanılırdı. Yalnız XVIII və XIX əsrlərdən sonra avropalılar ruhi xəstələrin müalicə olunması üçün xüsusi dispanserlərin yaradılması fikrinə düşmüşlər. Qərb alimlərindən biri bu barədə yazır: “İslam dönəmində Avropada yalnız İspaniya ərazisində ruhi xəstələr üçün “Günahsizlar / İnnocentes” adlı xüsusi xəstəxanalar mövcud olmuşdur. İngiltərə islam mədəniyyətindən irəli gələn bir sistemi təqlid edərək 1751-ci ildə ruhi xəstələrə xüsusi qayğının göstərilməsi istiqamətində tədbirlər görməyə başlamışdır. Fransalı təbib Penil XVIII əsrin sonlarında monastır şurasına müraciət edərək ruhi xəstələrin əl və ayaqlarından zəncirlərin açılması və həmçinin, onların zindanlardan azad edilərək həkimlərin nəzarətinə verilməsinə nail ola bilmişdir” (bax: 10, c. 2, s. 98).

## Ədəbiyyat siyahısı


گوستاولوبون، **تمدن اسلام و عرب**، ترجمه محمد تقی فخر داعی گیلانی، تهران، بنگاه مطبوعاتی علی
1
اکبر علمی، ١٣٣٤، چاپ چهارم.

براون، ادوارد: **تاریخ طب اسلامی**، ترجمه مسعود رجب نیا، تهران، علمی و فرهنگی، ١٣٦٤، چاپ چهارم.
2

حسین نصر، **علم و تمدن در اسلام**، ترجمه احمد آرام، تهران، نشر اندیشه، ١٣٥٠، چاپ اول.
3

ابن ابی اصیبعه، **عیون الانباء فی طبقات الاطباء**، بیروت، دارالفکر، ١٣٧٧ ه./ ١٩٧٥ م.، ج ٢.
4

ابن الندیم، محمد بن اسحاق، **الفهرست**، ترجمه و تحقیق محمد رضا تجدد، تهران، امیر کبیر ١٣٦٦، چاپ سوم.
5

شهر زوری، شمس الدین محمد بن محمود، **نزهةالارواح و روضة الافراح (تاریخ الحکماء)**، ترجمه مقصود
6
علی تبریزی، بکوشش محمد تقی دانش پژوه و سرور مولایی، تهران، علمی و فرهنگی، ١٣٦٤، چاپ اول.

نظامی عروضی، **چهار مقاله**، به اهتمام محمد قزوینی و به کوشش محمد معین، تهران،
7
زوار، ١٣٣٣ ه.ش.، چاپ سوم.

زیدان، جرجی، **تاریخ تمدن اسلام**، ترجمه علی جوهر کلام، تهران، امیر کبیر، ١٣٦٩، چاپ ششم.
8

زرین کوب، عبدالحسین، **کارنامه اسلام**، تهران، امیر کبیر، ١٣٦٢، چاپ سوم.
9

زیگید هونکه، **فرهنگ اسلام در اروپا**، ترجمه مرتضی رهیابی، ٣ جلد، تهران، دفتر نشر فرهنگ اسلامی،
10

و امیر کبیر، ۱۳٦۱-۱۳٦۳ ه.ش.
هنری لوکاس، **تاریخ تمدن**، ج ۱.
11
زیگرید هونکه، **فرهنگ اسلام در اروپا**، ج ۲.
12
فیلیپ حتی، **تاریخ عرب**، ج ۲.
13
ویل دورانت، **تاریخ تمدن**، تهران، اقبال، فرانکلین، ۱۳۳۷، ج ۲، بخش اول.
14
**میراث اسلام**، مقاله دکتر ماکس مایر هوف ( Max (Mayerhof
15
جان برنال، **علم در تاریخ**، ترجمه حسین اسدپور پیرانفر... (و دیگران)، تهران، امیر کبیر،
16
۱۳۵٤، ٤ جلد در ۲ مجلد.
مهدی فرشاد، **تاریخ علم در ایران**، تهران، امیر کبیر، ۱۳٦٥، ج ۲.
17
جان برنال، **علم در تاریخ**، چهار جلدی در دو جلید، ترجمه محمد حیدری ملایری – محسن ثلاثی،
18
امیر کبیر، ۱۳۵٤، دوره چاپ: ۱، ۱۰۰۵ ص.
ابن القفطی، **تاریخ الحکماء**،
19
ابن جبیر، **سفرنامه**، ترجمه پرویز اتابکی، آستان قدس رضوی، ۱۳۷۰، ٤۲۷ ص.
20
المقریزی تقی الدین، **المواعظ و الاعتبار بذکر الخطط** ، ج ۲.
21
جعفر مرتضی عاملی، **الآداب الطبیة فی الاسلام**، قم، جامعة المدرسین فی الحوزة العلمیة، ۱٤۰۳ ه.ق.
22
یاقوت حموی، **معجم البلدان**، دار صادر، بیروت، الطبعة الثانیة، ۱۹۹۵ م.، ج ۲.
23


## Резюме

**Эльхан Гулиев**

### Роль мусульман в развитии медицинской науки

*Цитата и комментарий из книги др. Зикруллаха Махаммади под названием «Роль исламской культуры и цивилизации в пробуждении Запада»*


Исследуя историю медицинской науки, выявляется, что мусульманские ученые сыграли значительную роль в развитии этой науки. Через несколько сотен лет после появления ислама, наряду с исламскими науками, начался процесс передачи медицинской науки в западный мир. Труды мусульманских ученых преподавались в европейских школах не только в средние века, но может в эпоху Возрождения и в XVII веке они принимались основным научным источником. Несмотря на то, что процесс создания больниц в Европе начался в XIII веке, развитие в этой области шло очень медленно. Так, первая больница в городе Лейпциге Германии была построена в 1517 году, а больница «Hotel Dieu» в Париже – в 1536 году. Аналогичная ситуация была и в сфере создания психиатрических диспансеров, предусмотренных для лечения душевнобольных. Лишь в конце XVIII века французский врач по имени Пенил смог получить разрешение монастырского совета снять цепи с рук душевнобольных, освободить их из тюрем и передать в распоряжение врачей.


***Ключевые слова:*** *Медицинская наука, развитие, мусульмане, роль мусульманских ученых*

**Summary**

**Elkhan Guliyev**

**The Role of Muslims in the Development of Medical science**
*Quotation and commentary from Dr. Zikrullah Mahammadi's book entitled*
*"The Role of Islamic culture and civilization in the awakening of the West"*

Researching the history of Medical science, it turns out that Muslim scholars have played a significant role in the development of this science. Several hundred years after the appearance of Islam, along with the Islamic sciences, began the process of transferring medical science to the Western world. The works of Muslim scholars were taught in European schools not only in the Middle Ages, but perhaps during the Renaissance and in the 17$^{th}$ century they were accepted as the main scientific source. Despite the fact that the process of creating hospitals in Europe began in the 13$^{th}$ century, development in this area was very slow. So, the first hospital in Leipzig, Germany was built in 1517, and the hospital "Hotel Dieu" in Paris – in 1536. A similar situation was in the sphere of creating psychiatric dispensaries provided for the treatment of the mentally ills. Only at the end of the 18$^{th}$ century, a French physician named Penil was able to obtain permission from the monastery council to remove the chains from the hands of the mentally ills, release them from prison and transfer to the disposal of doctors.

***Keywords**: Medical science, development, Muslims, the role of Muslim scholars*

UOT 94 (479.24)

**ƏLİ FƏRHADOV**
*Milli Azərbaycan Tarixi Muzeyinin*
*böyük elmi işçisi, t.ü.f.d.*
*ali_farhadov@yahoo.com, Azərbaycan*

# Ə.KƏSRƏVİNİN YARADICILIĞINDA AZƏRBAYCAN MÖVZUSU

***Açar sözlər:*** *Ə.Kəsrəvi, Azərbaycan, Qacarlar, dini-siyasi proses*

## Giriş

Məqalədə İran tarixçisi Əhməd Kəsrəvinin yaradıcılığında Azərbaycan mövzusuna baxış işlənilmişdir. O, məsələlərin izahında İran millətçiliyi mövqeyindən çıxış edib, İranın bütünlüyünü, irançılığı müdafiə etsə də, məşrutə inqilabı, Xiyabani hərəkatı kimi mövzuları öz əsərlərində dərindən tədqiq və təqdim etmişdir. Müasir İran tarixşünaslığında Kəsrəvinin tarixə irançılıq nöqteyi-nəzərindən baxışı müdafiə edilsə də, mütəfəkkirin şiə məzhəbinə etdiyi tənqidlər qəbul edilməmişdir. Eləcə də əslən Cənubi Azərbaycandan olan tədqiqatçı Ə. Rəhimli (Bije) və b., Ə.Kəsrəvinin iddiasının əksinə olaraq, Azərbaycan xalqının artıq erkən orta əsrlərdə bir xalq kimi formalaşdığını, azərbaycanca yazıb-yaratdığını irəli sürmüşdür [44, s.13]. Rəsmi Azərbaycan tarixşünaslığında isə Kəsrəvinin irançılıq və türklük əleyhinə mövqeyi Eynulla Mədədlinin 2011-ci ildə Bakıda çap olunmuş "Azərbaycan həqiqətləri İran tarixşünaslığında" kitabında və s. əsərlərdə tənqid edilmişdir. Lakin Kəsrəvinin məşrutə dövrünə baxışı tarixşünaslığımızda tam araşdırılmamışdır. Məqalədə bütün bu məsələlər, o cümlədən Kəsrəvinin İran məşrutə inqilabı və Xiyabani hərəkatı dövründə Azərbaycana, babiliyə və s. dini cərəyanlara baxışı ortaya qoyulmuşdur. Müqayisə baxımından C.Məmmədquluzadənin, M.Ə.Rəsulzadənin və s. azərbaycanlı mütəfəkkirlərin mövzu ilə əlaqəli baxışları da təqdim edilmişdir.

Görkəmli İran ziyalısı, tarixçi, publisist və hüquqşünas Əhməd Kəsrəvi 1890-cı ildə Təbrizdə anadan olmuş, "İran məşrutə tarixi", "Azərbaycanın 18 illik tarixi" və s. əsərlərində İranın, o cümlədən Azərbaycanın bir sıra tarixi məsələlərini işıqlandırmışdır. Ə.Kəsrəvi öz əsərlərində Azərbaycana, məşrutə inqilabına xüsusi yer ayırmış, əsərləri tarixi bir mənbə kimi böyük əhəmiyyətə malikdir.

Məzhəbçiliyə, xurafatçı və mövhumatçı ruhanilərə tənqidi baxış tərzi sərgiləyən Ə.Kəsrəvi iranlı müctəhidlər tərəfindən dinsiz elan edilmiş və 1946-cı ildə "İslam fədailəri" təşkilatının üzvləri tərəfindən qətl edilmişdi [28, s.201].

## Ə.Kəsrəvidə Azərbaycan tarixinə baxış

Milliyyətcə azərbaycanlı olan Ə.Kəsrəvinin "Tarixe-məşruteye-İran" ("İran məşrutə tarixi") kitabında 1905-11 illər İran inqilabının, o cümlədən Cənubi Azərbaycanın o dövrkü tarixi tədqiq olunur. "Şəhriyaran-e qomnan" ("Naməlum hökmdarlar"), "Azəri, ya zəban-e bastan-e Azərbaycan" ("Azəri, yaxud Azərbaycanın qədim dili"), "Namha-ye şəhrha və dehhaye İran" ("İranın şəhər və kəndlərinin adları"), "Şeyx Səfi və təbarəş" ("Şeyx Səfi və onun nəsəbi") və s. əsərlərində İranın, o cümlədən Azərbaycanın qədim və orta əsrlər tarixindən bəhs edilir. Mütəfəkkirin əsərlərində iranpərəstlik təmayülü güclüdür. O, öz yaradıcılığında Azərbaycana xüsusi yer ayırsa da, İran azərbaycanlılarının əslən irandilli olub, sonradan türkdilli olduğunu və farslaşdırılmasının vacibliyini irəli sürmüşdür [39]. Öz nəzəriyyəsində Məsudi, Yaqut əl-Həməvi kimi orta əsr ərəb tarixçilərinin "Azərbaycanda danışılan dil "azəri" dilidir" tezisini "Azəri, ya zəban-e bastan-e Azərbaycan" əsərində irəli sürən Ə.Kəsrəviyə görə bu bölgədə türk dili yayılmadan əvvəl İran dilləri ailəsindən olan "azəri" dili mövcud olmuş, səlcuqlular və monqollar tərəfindən bölgənin işğalından xeyli sonra yerli əhali türkləşməyə başlamışdır

[27, s.146]. Buna qarşı çıxan Z.Bünyadov Azərbaycanda, xüsusilə Muğanda türklərin sıx yaşadığını qeyd edən Yaqut əl-Həməviyə, həmçinin orta əsr ərəb qaynaqlarında keçən "Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir"; "Azərbaycan qədimdən türklərin əlində olan bir ölkədir" kimi ifadələrə əsaslanaraq yazır ki, "Türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı" [40, s.200, 203]. Z.Bünyadovun bu fikirləri N.Vəlixanlı, N.Əliyeva və bir çox Azərbaycan tarixçisi tərəfindən də qəbul edilmişdir. N.Vəlixanlı Z.Bünyadovun bu fikrini qəbul edir ki, "Azərbaycanda hələ Sasanilər daxilində türkləşmə prosesi başlamışdı" [41, s.105]. N.Əliyeva da Yaqut əl-Həməvinin "Muğanda əhalinin əksəriyyətini türkmənlər təşkil edir" fikrini qeyd edir [42, s.265] və yazır ki, "Azərbaycan əhalisinin yalnız səlcuqların gəlişi ilə Qafqaz və İran dillərindən türk dilinə keçməsi yanlış iddiadır" [43, s.121].

XIX əsr - XX əsrin əvvəlləri Qacarların hakimiyyəti altında olan İranın, o cümlədən Cənubi Azərbaycanın ağır ictimai-siyasi, iqtisadi vəziyyəti Əhməd Kəsrəvini xüsusilə narahat etmiş, öz əsərlərində bu mövzunu geniş işıqlandırmışdır.

"O zaman İranda bir dövlət var idi, bir də şəriət. Bu iki qüvvə arasında daim gizli və açıq toqquşmalar gedirdi" [16, s.2-3] deyən Ə.Kəsrəvi Azərbaycanda tarix boyu baş vermiş ictimai-siyasi prosesləri izah edərkən, dini faktora, məzhəb, təriqət parçalanmasına xüsusi diqqət ayırmışdı. Orta əsrlərdən bəri davam edən məzhəbçilik probleminin Qacarlar dövründə də davam etməsi mütəfəkkiri narahat edirdi. O, dindən siyasi məqsəd, şəxsi mənafe üçün istifadə edənləri qınayır, islam müqəddəslərini təhqir etmənin məzhəb mənsubları arasında nifrəti artırdığını yazırdı.

Ə.Kəsrəvi "Şiəçilik" əsərində məzhəbçilik edənləri "islam düşməni" [24, s.15] adlandırır və yazır ki, onlar "xalqı xurafat, cəhalət və fanatikliyə qərq edirlər. Onların ilk üç xəlifənin hz. Əlinin xəlifəlik haqqını qəsb etdiyi iddiası, imamlara aid etdikləri fövqəladə hallar, 12-ci imamın yenidən yer üzünə gələcəyi iddiası əsilsizdir. İmamlar üçün tikilən türbələri ziyarət məkanına çevirmək bütpərəstlikdən qaynaqlanır. Məhz Səfəvilər dövründə bu cür bidət [qeyri-islami] adət-ənənələr yerləşdirildi və ilk üç xəlifəyə təhqirlər rəsmiləşdirilərək şiələrlə-sünnilər arasında ziddiyyət artırıldı" [27, s.143]. Yenə Ə.Kəsrəvi şiə hədislərinə istinad edərək, "Allahın aləmi imamlar üçün yaratdığı və zamanının imamını tanımadan ölənin cahiliyyə üzərinə öləcəyi" [21, s.55; 28, s.203] rəvayətini nəql edir və Mehdi inancının sonradan islama əlavə edildiyini bildirir [21, s.73; 28, s.204]. Qeyd edək ki, Mehdi inancı təkcə şiələrdə deyil, sünnilər tərəfindən də qəbul edilir.

Bu dövrdə İranda qeyri-müsəlmanlara mənfi münasibət var idi. Müsəlman məzhəb və təriqətlərinin bir-birlərinə olan münasibəti də əslində fərqli deyildi. Sünnilər şiələri, şiələr sünniləri qəbul etmirdi [11, s.645]. Ə.Kəsrəvinin qeyd etdiyi kimi "Bu ziddiyyət Azərbaycanda daha şiddətli idi. Şah İsmayıl və Sultan Səlim dövründən siyasi rəng almış, düşmənçiliyə çevrilmiş, qan tökülmüşdü. Sünni və şiələr arasında kin-küdurət var idi" [22, s.160; 25, s.130-131]. Cənubi Azərbaycandan fərqli olaraq Şimali Azərbaycanda sünni və şiələrin birgəyaşayışı mövcud idi və xristianlara, Qubanın timsalında yəhudilərə qismən tolerant münasibət var idi. Qacar hökuməti isə İranda və Osmanlı tabeliyində olan İraq ərəbləri arasında şiəliyin təbliğatını aparır, bu da sünnilərlə siyasi toqquşmaya gətirib çıxarırdı [32, s.419].

Ə.Kəsrəvi yazır ki, bu dövrdə dini mərasimlərdə başyarma, zəncirvurma, sinəvurma, ağlaşma, hz. Əlidən öncəki xəlifələri lənətləmək geniş yayılmışdı. Əhli-beyt düşmənlərinə düşmən olmaq mənasında olan "təbərra" tərəfdarı dərvişlər küçə-bazarları dolaşıb imamların düşmənlərinə lənət oxuyar, xalq da onları seyr edərdi [22, s.161-164]. Bu kimi dini mərasimlər hökumətin əlində ölkədəki şiələri sünnilərə, o cümlədən osmanlılara və özbəklərə qarşı birləşdirmək üçün bir vasitə idi [2, s.5]. Biz burada Qacarların şiə məzhəbindən siyasi vasitə kimi istifadə edildiyini görürük. Bu məzhəb amilinin Səfəvi – Osmanlı dövründə də beynəlxalq münasibətlərdə əsas amillərdən biri olduğunu görürük.

Səfəvi – Osmanlı dövründən bəri davam edən məzhəb mübarizəsi Qacar – Osmanlı münasibətlərində də öz əksini tapmışdı. Osmanlılar İranı sünniləşdirmək, Qacarlar Anadolunu şiələşdirmək istəyirdilər. Osmanlının dəstəklədiyi sünni kürd lideri Şeyx Übeydullah tərəfin-

dən "İranla böyük cihada hazır olun" [33, s.26] şəklində fətva verilmiş və icra edilmişdir. Şeyx Übeydullah Urmiya şəhərinin şeyxülislamı Mir Cəmaləddin ağaya və Azərbaycan müctəhidi Mirzə Həsən ağa Təbriziyə göndərdiyi məktubda yazırdı ki, "Əgər xalqın əzab-əziyyətə düşməsini, qətl və qarət olunmasını istəmirsinizsə, mənə təslim olun" [31, s.532]. "İranı işğal edib nizama salacağam" [31, s.533] deyən Şeyx Übeydullahın başçılıq etdiyi silahlı dəstə, Ə.Kəsrəvinin ifadəsilə - "Urmiya bölgəsindəki hücumları zamanı uşaq, qadın, qoca demədən qarşısına çıxan hər kəsə işgəncə verib qətl və qarət etmiş [26, s.12-13; 27, s.128], lakin sonunda Qacar ordusu tərəfindən məğlub edilmişdilər [6, s.24].

Ə.Kəsrəvinin yaradıcılığında sufilərə münasibət də xüsusi yer tutur. O, sufiləri dünyanı dəyərsizləşdirməkdə, ətalət və təvəkküldə ittiham edirdi [18, s.197]. Buna baxmayaraq, mütərəqqi sufilər də var idi. Onlar ərəbcə bilməyən iranlılara Quranın təfsirini farsca izah edən əsərlər yazırdılar. Bu, şiə ruhanilərini narahat edən bir məsələ idi və onlar sufilərin Qurana və şəriətə hörmət etmədiklərini iddia edirdilər. "Təfsiri-mənzumi-Quran", "İrfanül-həqq" kimi əsərlər yazan nemətullahi sufisi Mirzə Həsən Safi Ali Şah sufizmi əxlaqi islahatçılıq hərəkatı kimi təqdim edir, ilahi kəlamı şeirləşdirmədiyini, farslar üçün Quranın mənzum təfsirini yazdığını bildirmişdi [30, s.18, 36].

1891-1892-ci illərdə Nəsrəddin şahın tütün-tənbəki imtiyazını ingilislərə verməsi ölkədə üsyana səbəb olmuşdu. Yerli əhali, xüsusilə tacirlər xaricilərin ölkə içinə ayaq açmasından xoşlanmadı. Xalqa ağır gəlirdi ki, tütün və tənbəkini öz əlləri ilə əksinlər, xaricilərə az pula satıb istehsal ediləndən sonra yenidən onlardan baha qiymətə alsınlar. Tənbəki imtiyazı adlanan bu hadisə xalqın, xüsusilə tacir və ruhanilərin şiddətli etirazına səbəb oldu. İlk dəfə olaraq Təbriz əhalisi ayağa qalxdı. Şəhərin divarlarına öz etiraz bəyannamələrini asdılar. İngilis şirkətinin azərbaycanlıları işə götürmə vədi də nəticəsiz qaldı. Təbriz ruhaniləri də ingilislərə verilən imtiyazlara qarşı ciddi mübarizə aparırdı. Bu dövrdə Təbrizin müctəhidi əslən İrəvandan olan Mirzə Cavad Təbrizi idi. Tarixçi Əhməd Kəsrəvi yazır ki, xalqın ona olan inamı güclü idi. Xalq içində deyilirdi ki, "Şəriətin qüvvəti, ancaq hacı Mirzə Cavad ağa dövründə idi" [22, s.159; 25, s.130].

Əslən Azərbaycandan olan maarifçi dövlət xadimi Məhəmmədhəsən xan Etimadüssəltənə müctəhid Mirzə Cavad ağanı şəriət elmlərində Azərbaycanın birinci alimi adlandırmışdı [13, s.352]. Nəsrəddin şahın əmri ilə müctəhid 1871-ci ildən Azərbaycanın imam-cüməsi olmasına baxmayaraq daşıdığı vəzifəyə xəyanət etməyərək şahın təslimçi siyasətinə tabe olmamış, əhalini bu imtiyazlara qarşı mübarizəyə çağırmışdı. Etimadüssəltənə bu hadisəni öz gündəliyində qələmə alaraq yazırdı: "1309-cu il məhərrəm ayının 7-si [13 avqust 1891] Təbrizdən ingilis, rus və osmanlı səfirliyinə belə bir teleqram daxil oldu ki, təfsilatı belədir: Sizi xəbərdar edirik. Şah ölkəni Avropaya satır" [14, s.235]. Xaricilərə verilən imtiyazlara qarşı qəzəbli olan Təbriz əhalisinin məhərrəmlik mərasimi zamanı şəhərdə olan bütün avropalıları qətl etmək istəyinə "Günahsız minlərlə insanın qanını tökmək olmaz" deyən Mircə Cavad Təbrizi mane olmuş və xalqın adından şaha bu məzmunda bir məktub göndərmişdi: "42 ildir ki, səltənəti idarə edirsiniz. Tamahkarlıq edib, öz məmləkətini hissə-hissə avropalılara satırsan, bunu özün bilirsən. Amma bizlər, Azərbaycan əhli özümüzü avropalılara satmırıq. Nə qədər canımız sağdır, buna çalısırıq [14, s.235-236]."

Görkəmli İran və Azərbaycan maarifçisi M.Tərbiyət yazır ki, xalq tərəfindən dəyər verilən Mirzə Cavad ağa 1895-ci ildə öldüyündə Təbrizdə 40 gün matəm mərasimi keçirilmişdi [36, s.405]. Məhz mütərəqqi ruhanilərin, Mirzə Cavad ağa Təbrizi, Cəmaləddin Əfqani, Mirzə Həsən Şirazi kimi ilahiyyatçıların səyi nəticəsində şah ingilislərə verdiyi tütün-tənbəki imtiyazını ləğv etmişdi.

Şaha qarşı cihad elan edən C.Əfqaninin təşviqi ilə Mirzə Rza Kirmani 1896-cı ildə Nəsrəddin şahı öldürdü. "Bütün insanlara yaxşılıq etdiyimi və xalqı oyandırdığımı düşünürəm" deyən Mirzə Rza Kirmani 1896-cı ildə Tehranda yeni şah Müzəffərəddin Mirzənin əmri ilə xalqın gözü qarşısında edam edildi [17, s.99]. M.R.Kirmani qətl edilsə də onun bu addımı 50 ilə yaxın İranı müstəbidcəsinə idarə edən Nəsrəddin şahın zülmündən xalqı xilas etdi.

Ə.Kəsrəvi Qacarlar dövrünün mövhumatçı, xurafatçı adət-ənənələrini və məşrutəçiləri kafir elan edən Şeyx Fəzlullah Nuri ilə Hacı Mirzə Həsən ağa kimi mürtəce ruhaniləri ifşa etsə də [22, s.163, 275, 509-510], təbrizli müctəhid Mirzə Cavad ağa Təbrizini, Mirzə Həsən Rüşdiyyənin açdığı dünyəvi məktəbləri müdafiə edən məşhur müctəhid Seyid Məhəmməd Təbətəbaini təriflәmişdi. Məşrutə inqilabında mütərəqqi rol oynayan müctəhid Seyid Məhəmməd Təbətəbai Mirzə Həsən Rüşdiyyəyə dəstək olmuş, hətta "İslam" adlı məktəb açmaqla xalqı buna təşviq etmişdi [22, s.58; 25, s.38].

Mirzə Həsən Rüşdiyyə tərəfindən 1889-cu ildə [5, s.73; 25, s.21] Təbriz şəhərində ilk üsuli-cədid məktəbinin – "Dəbistan"ın əsası qoyulmuşdu. Bu məktəb İran maarifi tarixində ilk yeni üsullu məktəb idi. Bu təhsil ocağı müasir məktəb atributlarını xatırladan yazı lövhəsi, parta və başqa ləvazimatlarla təchiz olunmuşdu. Ən əsası isə orada əlifbanı yeni metodla – tez və asan öyrənməyə imkan verən "sovti" [səsləndirmə] üsulla tədris edirdilər. Məktəb mürtəce mollaların fətvasıyla dağıdıldı [8, s.224]. Bundan sonra o, Qafqaza getdi. Azərbaycan valisi olan Mirzə Əli xan Əminüddövlənin ona dəstək olmasından sonra Təbrizdə 1893-cü ildə açılan məktəbdə - "Mədrəseye-milliye-Rüşdiyyə"də [Rüşdiyyə milli mədrəsəsi] çalışdı [8, s.24; 22, s.37-38; 25, s.21]. Mirzə Həsən Rüşdiyyə 1903-cü ildə Tehranda ilk qız məktəbi də açmışdı [7, s.86, 94]. Ə.Kəsrəvi yazır ki, azərbaycanlı xeyriyyəçi H.Z.Tağıyev də 1900-cü ildə Rüşdiyyə məktəbinə və sair məktəblərə minlərlə manat yardım etmişdi [22, s.59; 25, s.39].

Qeyd edək ki, bundan öncə iranlı qadınlar ancaq evdə təhsil alır, əsasən məişətdə ona lazım olan yemək pişirmə, naxış tikmə, əl işi və milli rəqs öyrənirdilər, çox nadir hallarda savad alırdılar [38, s.44]. Ümuniyyətlə, ictimai həyatda qadınlar qul kimi olub, yanında kişi, yaşlı qadın və ya hərəmağası olmadan, çadrasız evdən çölə çıxa bilməzdilər [38, s.49-51].

Ə.Kəsrəvinin yaradıcılığında İran məşrutə inqilabı və Səttarxan kimi inqilabçıların fəaliyyətinin tədqiqi də xüsusi yer tutur. Ə.Kəsrəvi yazır ki, məşrutə öncəsi İranı qıtlıq bürümüşdü. Kənd sahibi olan əyanlar, molla və tacirlər ərzağı anbarlarda yığıb saxlayır, qəsdən qıtlıq yaradıb qiymətləri qaldırırdılar. Hökumət də bu işin qarşısını almırdı, çünki şahzadələrin özləri də kənd sahibi olub, bahalaşmaqda maraqlı idilər [22, s.178-181]. İnqilabın qarşsını almaq üçün hökumət dinlər və məzhəblər arasında ziddiyyəti gərginləşdirir, müsəlmanların babi və bəhailərə hücumlarını təşkil edirdi. Ə.Kəsrəvinin və ingilis şərqşünası E.Braunun dediyi kimi 1903-cü ilin baharında bir neçə bəhai öldürülmüşdü [25, s.30]. Həqiqətən də Qacar hökumətinin məşrutə inqilabını bəhanə edərək, babi və bəhailərə qarşı hücumlar təşkil etməsi, babi, bəhai adı ilə məşrutəçiləri kafir elan edib məhv etməyə çalışması C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının 1908-ci il tarixli "Babilər" (№26) məqaləsində, M.Ə.Rəsulzadənin "İran türkləri" əsərində tənqid edilmişdir. Sovet tarixşünaslığında da Qacar hakimiyyətinin babilərin haqlarını pozduğu, din və məzhəb amilindən süni şəkildə istifadə etdiyi, nadan ruhanilərin xalqa zülm etdiyi qeyd edilirdi [8, s.224]. Sovet dövründə yazılan elmi əsərlərdə də babilər inqilabçı kimi göstərilsə də, bəhailərə münasibət mənfi olmuş, bəhailər xarici imperializmin agentləri kimi təqdim edilmiş, tarixi və dini əsasları obyektiv tədqiq edilməmişdir [45; 46].

1905-ci ildə Qafqazda baş vermiş erməni-müsəlman münaqişəsi Cənubi Azərbaycanda da böyük əks-səda oyatmışdı. Çünki Qafqaza yaxın olub, bir çoxları da orda yaşayır və ya gəlib-gedirdilər [22, s.176-177]. Ə.Kəsrəvi yazır ki, cənubda Qafqazı "o tay" adlandırırdılar, çünki onu özlərindən sadəcə Araz çayı ayırırdı [22, s.157; 25, s.127-128]. Qafqazdakı erməni-müsəlman münaqişəsinin Cənubi Azərbaycana sıçramasının qarşısı Təbrizin imam-cüməsi Hacı Mirzə Kərim ağa tərəfindən alınmışdı [22, s.177].

Ə.Kəsrəvi Qafqazda baş verən erməni-müsəlman davasında H.Z.Tağıyevin sülh yaratma təşəbbüsünü xüsusi qeyd edir [25, s.146]. Qeyd edək ki, 1918-ci ilin 29 mart tarixində Tiflisdə nəşr olunan "Znamya truda" qəzeti də bunu təsdiqləyir, H.Z.Tağıyevin - "Bütün şiddət və düşmənçilik hərəkətlərinin dərhal dayandırılması üçün səsimi qaldırıram. Əhali arasında sülh və əmin-amanlığı qorumaq üçün mümkün olan hər şeyi etməyinizi xahiş edirəm" [37, s.98], dediyini qəzet bizə xəbər verir.

XX əsrin əvvəlində Qacarlara qarşı ən böyük hərəkat olan məşrutə (konstitusiya-Ə.F.)

inqilabı Qacarların konstitusiyalı monarxiyaya çevrilməsinə səbəb oldu. Əhməd Kəsrəvi yazır ki, məşrutə hərəkatı Tehranda yarandı, lakin onun inkişafını Təbriz boynuna götürdü [22, s.156; 25, s.127]. İran paytaxtından sonra ən böyük şəhər Təbriz sayılırdı. Vəliəhd həmişə Təbrizdə yerləşirdi. Uzaqlığına baxmayaraq Təbriz Tehranda baş verən hadisələrdən xəbərsiz qalmırdı. Həmçinin bölgənin Qafqaza və Osmanlı ərazisinə yaxınlığı azərbaycanlıların ayıqlığına və hazırlığına artıq kömək edirdi [22, s.157]. 1906-cı ildə İranda parlament seçkisi keçirildi. Lakin Ə.Kəsrəvi qeyd edir ki, deputatlar içində ictimai-siyasi vəziyyəti anlaya bilməyən və ya anlamaq istəməyən mürtəce və xam adamlar çoxluq təşkil edirdi [22, s.201]. O, göstərirdi ki, parlamentə təzyiq göstərən mürtəce ruhanilər bütün azadlıq tərəfdarlarını, məşrutəçi deputatları babi, bəhai adlandırır, onların islam düşməni olduqlarını vurğulamağa cəhd edirdilər [22, s.341-342].

Ə.Kəsrəvi Qacar hökmdarı Məhəmmədəli şahın parlament əleyhinə olan fəaliyyətini tənqid edir və göstərirdi ki, Azərbaycan məşrutəçiləri şaha teleqram göndərərək, "konstitusiya dərhal təsdiqlənməyincə, Azərbaycanı ölkənin digər yerlərindən ayırmaqla" təhdid etmiş, teleqramlar “Ümum milləti-Azərbaycan” şəklində imzalanmışdı [3, s.91; 25, s.305]. Ə.Kəsrəvi yazır ki, “Məşrutəçilərə yardım məqsədilə N.Nərimanov tərəfindən Qafqazda yaradılmış Sosial-Demokrat Mücahid partiyası Təbrizə gizlicə silah-sursat göndərir, öz nümayənləri də “Qafqaz mücahidləri” adı ilə şah rejiminə qarşı məşrutəçilərlə birlikdə döyüşürdülər” [23, s.834-835]. Biz burada Şimali və Cənubi Azərbaycan əhalisinin zalım şah rejiminə qarşı birgə mübarizəsini görürük.

Ə.Kəsrəvi məşrutəyə yardım edən Seyid Təbətəbai, Axund Xorasani kimi mütərəqqi ruhaniləri mədh edir və qeyd edir ki, məşrutəçiləri babi və ya dinsiz adlandıran mürtəce ruhanilərə qarşı Nəcəf ruhanilərinin fətvaları olmasaydı, məşrutəçilərə az adam kömək edərdi. Təbrizə yardım edənlər məhz bu fətvalara arxalanırdılar [25, s.730]. Məşrutə lideri Səttarxan da dəfələrlə bildirmişdi ki, “Mən Nəcəf ruhanilərinin hökmünü icra edirəm” [25, s.730]. Məşrutəyə dini dəstək vermək üçün mütərəqqi ruhanilərin istifadə etdiyi əsas simvollardan biri də hz. Hüseyn və Kərbəla faciəsi idi. Onlara görə - “Kərbəla qurbanlarını anlamaq və ondan dərs almaq ədalət kəlməsinin dillərdən düşmədiyi bu günlərdə (məşrutə dövrü-Ə.F.) cəmiyyətin borcudur və çox gözəl nəticə verə bilər” [9, s.216].

Məşrutə dövründə Səttarxan Sərdari-əzəm [böyük baş komandan] və Sərdari-milli, Bağırxan Salari-milli [Milli baş komandan] adlandırılır [25, s.711] və Səttarxanı Allahın Təbrizə göndərdiyi ilahi yardım sayırdılar [23, s.884]. Səttarxanın məşrutə inqilabındakı rolunu qeyd edən “Molla Nəsrəddin” jurnalı belə yazırdı: “Səttarxan şahın qoşunlarını basdı. Az qalıb ki, bütün Azərbaycana padşah olsun” [35, s.339].

1909-cu ildə Səttarxanın başçılığı ilə Təbriz üsyanı məğlub olsa da, İran məşrutə inqilabının qorunub yayılmasında böyük rol oynadı. Bu haqda yazan Ə.Kəsrəvi belə deyirdi: “Konstitusiya hərəkatı Tehranda başlasa da Təbriz onu qorudu. Təbrizin qeyrəti və insanlığı bütün İranın heyrətinə səbəb oldu" [34, s.1-7].

Səttarxandan sonra Təbrizdə Qacarların müstəbid siyasətinə qarşı mübarizəyə Şeyx Məhəmməd Xiyabani başladı. O, hakimiyyətin xalqın mənafeyinin düşünmədiyini, xaricilərin İranın daxili işlərinə müdaxiləsini tənqid edirdi [19, s.492; 20, s.338]. M.Xiyabani şah rejiminə etiraz olaraq, 1920-ci ilin aprelində Cənubi Azərbaycanda “Azadistan” hökumətini qurdu. O, deyirdi ki, “İran dövlət başçıları məşrutə qanunlarını ləğv edib, xalqın tələbatını qəbul etmirlər. Biz qiyam odunu bütün İranda yandıracağıq” [10, s.12].

M.Xiyabaninin fəaliyyətinin tədqiqi də Ə.Kəsrəvinin yaradıcılığında xüsusi yer tutur. Ə.Kəsrəvi yazır ki, “Xiyabaninin iti yaddaşı, bacarığı var idi. Buna görə də gündən-günə onun nüfuzu artır və çoxlarını öz təsiri altına alırdı. Onlar da onu özlərinə rəhbər seçir və onun sözündən və göstərişlərindən boyun qaçırmazdılar” [10, s.16]. Qeyd edək ki, Ə.Kəsrəvi ilk vaxtlarda M.Xiyabaninin şah rejiminə azadlıq hərəkatını dəstəkləsə də, sonralar onun liderliyinə və Azərbaycan muxtariyyəti ideyasına qarşı çıxmışdı [1, s.295; 27, s.149]. Bu barədə yazan Ə.Kəsrəvi ingilis agentinin ondan Xiyabaniyə qarşı istifadə etmək istədiyini, lakin onun konstitusiya inqilabının müdafiəçisi olan Azərbaycan naminə bu yola getmədiyini qeyd edərək belə deyir: “Xiyabani Azərbaycan nami-

nə hərəkət etdi. O, bizimlə pis rəftar etsə də, biz Azərbaycanı düşünməliyik. Bu hərəkat Azərbaycan naminədir" [34, s.1-7]. Lakin qeyd edək ki, M.Xiyabaninin öz hakimiyyəti dövründə muxtariyyətlə yanaşı türk dilini dövlət dilinə çevirə bilməməsi Cənubi Azərbaycanda mədəni türkləşmə prosesinə mənfi təsir etdi.

Tənbəki üsyanı, məşrutə inqilabı, Rusiya və İngiltərənin müdaxilələri Qacarları zəiflətdi və Rza şah Pəhləvi 1925-ci ildə Qacarlara son qoydu. Qacarların süqut səbəbini izah edən Ə.Kəsrəvi qeyd edir ki, "Qacar dövründə İran çox zəiflədi, böyüklükdən düşdü, şöhrəti azaldı. Bunların hamısının səbəbi hər şeydən əvvəl bir şey idi; o da dünyanın dəyişilməsi idi, ölkələrdə dirçəlişin yaranması idi. Lakin İranda keçmiş vəziyyət olduğu kimi qalırdı. Avropada inqilablar, xalq hərəkatı, hərbi texnikanın inkişafı, güclü və nəhəng dövlətlər yaranmışdı. İran ölkəsi bütün bu dəyişikliklərdən xəbərsiz və bəhrəsiz qalmışdır, belə bir dəyişiklikdən baş çıxartmırdı, xəbərsiz və köhnə üsulla yaşamağı davam etdirirdilər. Səriştəsiz Qacar padşahları yaramaz idilər" [22, s.22-23; 25, s.7-8]. Ə.Kəsrəvi mürtəce ruhanilərin təzyiqinin də İranın modernləşə bilməməsindəki mənfi rolunu qeyd edir [22, s.23; 25, s.7-8].

Ə.Kəsrəvinin Qacarların yarıtmaz siyasəti mövzusundakı fikirləri dövrün M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi mütəfəkkirləri tərəfindən də təsdiq edilmişdir. M.Ə.Rəsulzadə "İran türkləri" əsərində yazır ki, "şah öz rejimini qorumaq və ruhanilərin rəğbətini qazanmaq üçün ölkədəki dini və dünyəvi zülmlərə qarşı mübarizə aparan babilərə qarşı qəddarca davranıb, onların başçılarını edam etdirdi. O, hətta babilik ittihamı ilə babi olmayan hürriyyətpərəstləri, rejim düşmənlərini də məhv etdirirdi" [29, s.68]. Ə.Hüseynzadə də "Siyasəti-fürusət" əsərində Qacar müstəbidi Nəsrəddin şahı "altında hər cürə yırtıcı heyvanların toplaşdığı quru, meyvəsiz ağac" adlandırır və onun qətl edilməsini "insanlara yaxşılıq" adlandırır [15, s.433]. Ə.Ağaoğlu isə "Şah qan tökməkdən zövq alır. Yapmadıqları haqsızlıq və zülm yoxdur" [4, s.61] deyən C.Əfqaninin Qacarlara qarşı mübarizəsini dəstəkləmiş və belə demişdi: "Zənn edilməsin ki, Seyid mübaliğə edir, xeyr! Onun təsvir etdiyi lövhə o zamankı İran həyatının acı həqiqətidir!" [4, s.61]. Həqiqətən də Qacar hakimiyyəti zamanı babilərin kütləvi qətl edilməsi, qovulması, dini hüquqlarının tapdalanması, tənbəki üsyanında şah hökumətinin xalqazidd siyasəti bunu təsdiq edir.

"Molla Nəsrəddin" jurnalı da məşrutəyə qarşı mübarizə aparan Qacarları və onları dəstəkləyən Şeyx Fəzlullah Nuri ilə təbrizli Hacı Mirzə Həsən ağa kimi mürtəce mollaları ifşa edərək deyirdi: "Məşrutiyyəti şəriətə zidd hesab eləyən müctəhidlərin sayı gün-gündən artmaqdadır. Müctəhidlər şaha ərizə veriblər ki, qanuni-əsasi (konstitusiya-Ə.F.) verməsin. Məşrutəçiləri kafir elan ediblər" [12, s.351].

**Nəticə**

Deyə bilərik ki, Ə.Kəsrəvi Qacarları "səriştəsiz" adlandırıb, ölkənin ərazi bütünlüyünü qoruya bilməməkdə, mürtəce ruhaniləri də ölkənin inkişafına mane olmaqda qınamış, baş verən ictimai-siyasi, dini proseslərə özünəməxsus qiymət vermişdir. Onun İran millətçisi kimi mövqeyinə baxmayaraq, inqilablara, Qacarların süqutuna şahid olması, yazdığı əsərlər, xüsusilə "İran məşrutə tarixi", "Azərbaycanın 18 illik tarixi" və s. kitabları Cənubi Azərbaycan tarixini tədqiq etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Ə.Kəsrəvinin yaradıcılığının tədqiqi Azərbaycan xalqının Qacar hakimiyyətinə qarşı şanlı mübarizəsini tədqiq və təbliğ baxımından da mühümdür.

**Ədəbiyyat siyahısı**

1.Abrahamian, E. "Communism and Communalism in Iran: The Tudah and the Firqah-I Dimukrat" // International Journal of Middle East Studies, Vol. 1, No. 4. – 1970. - p. 291-316.

2.Abrahamian, E. A history of modern Iran. - Cambridge: Cambridge University Press, - 2008. - 228 p.

3.Abrahamian, E. Iran between two revolutions. - Princeton: Princeton University Press, - 1983. - 562 p.

4. Ağaoğlu, Ə. İran və inqilabı. - Bakı: Azərnəşr, - 2009. - 152 s.

5.Alam Tabriz, A. Aydınların, dini liderler ve esnafın İranın yakın dönem toplumsal hareketlerindeki ve devrimlerindeki rollerinin

incelenmesi. - Ankara: Ankara Üniversitesi, - 2004. - 256 s.

6.Atmaca, M. İran'daki Sünni Grupların Sosyal, Kültürel Ve Dini Yapılanmaları Ve Türkiye'nin Bu Gruplara Yönelik Politikaları. - Ankara, - 2012. - 112 s.

7.Aydın, M.A. Kadın // TDV İslam Ansiklopedisi. 24-cü cild. - İstanbul, - 2001. - s.86-94 // https://islamansiklopedisi.org.tr/kadin

8.Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Məsul red: Ə.S. Sumbatzadə. - Bakı: Elm, - 1985. - 316 səh.

9.Doğan, E. "Kaçarlar dönemi İran hac seyahatnamelerinde Kerbela hadisesi ve Hz.Hüseyinin Kerbela yolu", s.213-248 // Çeşitli Yönleriyle Kerbela. I cild. Red. A.Yıldız. - Sivas: Asitan yay., - 2010. - 559 s.

10.Əhməd, V. Ş.M.Xiyabaninin həyatı, mühiti və ədəbi fəaliyyəti. - Bakı, «Müəllim» nəşriyyatı, - 2010. - 126 s.

11.Əl-Bakuvi, M. Kəşfül-həqayiq. Üç claddə, c.I, - Tiflis: "Kaspi" qəzetinin Buxariyyə mətbəəsi, - 1904. - 745 səh.

12."Həqiqət" // Molla Nəsrəddin", №52, 1908 // Məmmədquluzadə, C. Əsərləri. Dörd cilddə. II cild / Tərtib edəni: İ.Həbibbəyli. - Bakı: Öndər nəşriyyat, - 2004. - 584 s.

13.Həsənzadə, T. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri. - Bakı: "Tural", - 2001. - 224 s.

14.Həsənzadə, T. XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər (Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında). - Bakı: Nurlan, - 2007. - 319 s.

15.Hüseynzadə, Ə. Siyasəti-fürusət // Ə.Hüseynzadə. Seçilmiş əsərləri. Tərtib edəni: Ofeliya Bayramlı. - Bakı: Çaşıoğlu, - 2007. - 640 s.

16.İbrahimov (Şahin), T.A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti, 66 s. // https://www.achiq.info/pitikler/t%20shahin%201ci.pdf

17.İpek, Y. Kaçar hanlığı ve bahailer. - Kayseri: Erciyes Üniversitesi, - 2009. - 202 s.

18.Jazayery, M.A. Ahmad Kasravi and the Controversy over Persian Poetry - 1. Kasravi's Analysis of Persian Poetry International Journal of Middle East Studies, Vol. 4, No. 2 (Apr., 1973), pp. 190-203.

19. Karadeniz, Y. İran tarihi (1700-1925). - İstanbul: Selenge yay., - 2012. - 577 s.

20. Karadeniz, Y. Kaçar hanedanı (1795-1925). - Malatya: İnönü Universiteti, - 2004, 424 səh.

21.Kəsrəvi, Ə. ət-Təşəyyü vəş-Şia. – Tehran, - 1988, 155 s.

22. Kəsrəvi, Ə. İranın məşrutə inqilabının tarixi. I cild. Tərc: A.Ə.Haşimi (Cavanşir). - Essen, - 2003. 528 s.

23. Kəsrəvi, Ə. İranın məşrutə inqilabının tarixi. II cild. Tərc: A.Ə.Haşimi (Cavanşir). - Essen, - 2003. - s.529-1047.

24.Kəsrəvi, Ə. Şiigari. - Tehran: Çapxaneyi-Peyman, - 1323. - 90 s.

25. Kəsrəvi, Ə. Tarixe-məşruteye-İran. - Tehran: Müəssəseye-intişarate-Əmir Kəbir, - 1343. - 906 s.

26.Kəsrəvi, Ə. Zendegani-ye man. – Tehran, 1323, 93 s.

27.Koç, M.A. "Modenleşme sürecinde "İran milliyetçiliği" yanlısı Tebrizli bir aydın: Ahmed Kesrevi – hayatı, şahsiyeti, dünya goruşü, mücadelesi ve eserleri" // Kadim Akademi Sosyal Bilimler Dergisi, C.3, sayı 2. – 2019. - s.115-155.

28.Oktan, Y. "et-Teşeyyüʿ ve'ş-Şîa, Ahmed el-Kesrevî (Kitap tanıtımı)" // Academic Knowledge 2 (2), - 2019. – s.200-206.

29.Rəsulzadə, M.Ə. İran türkləri. Haz: Y.Türkel. - Bakı: Təknur, - 2013. - 100 s.

30.Ridgeon, L. Sufi castigator: Ahmad Kasravi and the Iranian mystical tradition. - London: Routledge, - 2006. - 244 p.

31.Şahzadə Nadir Mirzə Qacar. Təbriz darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri. Bakı: Elm, - 2019. - 566 səh.

32.Sarıkaya, M.S. "Dini ve siyasi bakımdan Osmanlı-İran münasebetleri" // Türk Kültürü. Sayı 363, 1993. – s. 406-422.

33.Sarıkçıoğlu, M. "İran arşivlerine göre Şeyh Übeydullah isyanı" // Sosyal Bilimler Dergisi, Cilt 3, Sayı 5, - 2013. – s.1-35.

34.Siegel, E. Ahmad Kasravi on Iran and Azerbaijan, 7 s. // https://www.academia.edu/33903083/Ahmad_Kasravi_on_Iran_and_Azerbaijan?auto=download

35.“Siyasi məsələ” // Molla Nəsrəddin, №47, 1908 // Məmmədquluzadə, C. Əsərləri. Dörd cilddə. II cild / Tərtib edəni: İ.Həbibbəyli. - Bakı: Öndər nəşriyyat, - 2004. - 584 s.

36. Tərbiyət, M. Danişməndani-Azərbaycan. - Bakı: Elm və təhsil, - 2012. - 129 s.

37.Дадаян, Х. Армяне и Баку (1850-1920). Пер. с арм. - Ереван., НОФ «НОРАВАНК», - 2007. - 208 стр.

38.Мисль-Рустем. Персия при Наср-Эдин-шахе с 1882 по 1888 г. – Санкт-Петербург, - 1897. - 117 с.

39. http://ensiklopediya.gov.az/az/terms/17614/cild/20

40. http://www.anl.az/el/b/bz_az7-9.esrlerde1.pdf // Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. - Bakı: Şərq-Qərb, - 2007. – 424 s.

41. http://web.anl.az/el/Kitab/2017/Azf-294948.pdf // N.Vəlixanlı. Azərbaycan VII-XII əsrlərdə. – Bakı: Elm və təhsil, - 2016. – 476 s.

42.https://www.academia.edu/45105078/_Muc%C9%99m_%C9%99l_buld%C9%99n_%C9%99s%C9%99rind%C9%99_Az%C9%99rbaycan_v%C9%99_Qafqaz // N.Əliyeva. “Mucəm əl-Buldən” əsərində Azərbaycan və Qafqaz. - Bakı: Elm və təhsil, - 2020. – 424 s.

43. http://web.anl.az/el/Kitab/2017/06/2016-2171.pdf // N.Əliyeva. Şeyx əs-Siləfi və Azərbaycan. - Bakı: Elm və təhsil, - 2016. – 160 s.

44. http://web.anl.az/el/Kitab/2019/09/2000-1378.pdf // Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə. – Bakı: Orxan, - 2000. – 216 s.

45. http://web.anl.az/el/arxiv/arxkitab2013/1931-401.pdf // A.Məmmədov. Bəhailik: məsələnin əslini öyrənmək üçün. - Bakı: Azərnəşr, - 1931. - 48 s.

46. http://web.anl.az/el/arxiv/arxivKitab/1930-447.pdf // B.Rzayev. Bəhayilər kimlərdir? - Bakı: Azərnəşr, - 1930. - 28 s.

## Резюме

**Али Фархадов**

### Азербайджанская тема в работах А. Касрави

Выдающийся иранский интеллектуал, историк, публицист и юрист Ахмед Касрави в своих трудах осветил ряд исторических проблем Ирана, в том числе Азербайджана. Хотя А. Касрави в своих произведениях занимает особое место для Азербайджана и в объяснении вопросов выступает с позиции иранского национализма, его труды имеют большое значение как исторический источник. Сложное социально-политическое и экономическое положение Ирана, в том числе Южного Азербайджана, под властью Гаджаров в XIX - начале XX веков также беспокоило Ахмеда Касрави, и он широко освещал эту тему в своих работах. Объясняя общественно-политические процессы, происходившие в Азербайджане на протяжении всей истории, А. Касрави особое внимание уделил религиозному фактору, сектантскому и сектантскому разделению. Мыслителя беспокоило то, что проблема сектантства, существовавшая со времен средневековья, сохранялась и в период Гаджаров. Он осудил тех, кто использует религию в политических и личных целях, и написал, что оскорбление исламских святых усиливает ненависть среди членов секты. Хотя А. Касрави критиковал реакционное духовенство периода Гаджара, он хвалил прогрессивное духовенство. Особое место в творчестве А. Касрави занимает изучение деятельности таких героев иранской конституционной революции, как Саттархан и Багирхан, М. Хиябани. Можно сказать, что А. Касрави назвал Гаджаров «некомпетентными», осудил неспособность защитить территориальную целостность страны,

реакционное духовенство за препятствование развитию страны, дал особую оценку происходящим социально-политическим и религиозным процессам. Это особенно важно с точки зрения изучения истории Азербайджана того времени.

***Ключевые слова:*** *А.Касрави, Азербайджан, Гаджары, религиозно-политический процесс*

**Summary**

**Ali Farhadov**

**Azerbaijan topic in the works of A. Kasravi**

Prominent Iranian intellectual, historian, publicist and lawyer Ahmad Kasravi highlighted in his works a number of historical problems of Iran, including Azerbaijan. Although A. Kasravi occupies a special place for Azerbaijan in his works and speaks from the position of Iranian nationalism in explaining issues, his works are of great importance as a historical source. The difficult socio-political and economic situation of Iran, including South Azerbaijan, under the rule of the Qajars in the 19th - early 20th centuries also worried Ahmad Kasravi, and he widely covered this topic in his works. Explaining the social and political processes that took place in Azerbaijan throughout history, A. Kasravi paid special attention to the religious factor, sectarian and sectarian division. The thinker was worried that the problem of sectarianism, which had existed since the Middle Ages, persisted in the Qajar period. He denounced those who use religion for political and personal ends, and wrote that insulting Islamic saints increased hatred among members of the sect. Although A. Kasravi criticized the reactionary clergy of the Qajar period, he praised the progressive clergy. A special place in the work of A. Kasravi is occupied by the study of the activities of such heroes of the Iranian constitutional revolution as Sattarkhan and Bagirkhan, M. Khiyabani. We can say that A. Kasravi called Qajars "incompetent", condemned the inability to protect the territorial integrity of the country, the reactionary clergy for hindering the development of the country, and gave a special assessment to the ongoing socio-political and religious processes. This is especially important from the point of view of studying the history of Azerbaijan at that time.

***Keywords:*** *A. Kasravi, Azerbaijan, Qajars, religious and political process*

UOT 94(479.24)

**FƏRƏH HÜSEYN**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*"Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin a.e.i., t.ü.f.d., dosent*
*ferah@mail.ru, Azərbaycan*

# OSMANLI İMPERİYASI İLƏ MÜNASİBƏTLƏRDƏ NADİR ŞAH ƏFŞARIN TƏSİS ETDİYİ *QARDAŞLIQ HÜQUQU*
## (Osmanlı mənbələri əsasında)

***Açar sözlər:*** *Nadir Şah Əfşar, sultan I Mahmud, Osmanlı-Əfşar münasibətləri, Türkman mirası, Azərbaycan, İraq-i Ərəb, qardaşlıq hüququ.*

**Giriş**

Nadir Şah Əfşarın (1736-1747) qurduğu dövlət Səfəvi dövlətinin varisi kimi həmin coğrafiyaya sahib çıxmaqla Osmanlı dövləti ilə münasibətlərdə, Səfəvi dövründə bu münasibətləri şərtləndirən təxminən analoji geostrateji çağırışlarla qarşılaşdı. Belə ki, Osmanlı-Səfəvi müharibələrində rəqabət əsasən iki bölgə – Azərbaycan və İraq-i Ərəb uğrunda gedirdi. Hələ 1555 Amasya sülhünün şərtlərinə görə, Azərbaycan Səfəvi dövlətinin, İraq-i Ərəb isə Osmanlı dövlətinin tərkibində qalmaqla əldə olunan balans [14, 76-77] sonrakı dövrlərdə bir-neçə müharibənin baş verməsinə baxmayaraq, 1639-cu ildə Qəsr-i Şirin sülhü ilə yenidən təsdiqləndi [14, 192-195]. Bu sülh, bölgəyə hakim olan iki aparıcı siyasi güc arasında yaranmış balansı müəyyənləşdirdi və nüfuz dairəsinin bölgüsünü bir daha təsdiq etdi. Lakin Səfəvi dövlətinin (1501-1736) süqutu və Nadir xanın hakimiyyətə gəlməsi ərəfəsində, həmçinin onun şahlıq dövründə həmin bölgələr uğrunda rəqabət yenidən alovlandı.

Məqaləmizdə hər iki dövlət üçün müstəsna əhəmiyyət daşıyan Azərbaycan və İraq-i Ərəb məmləkətləri uğrunda baş verən Osmanlı-Əfşar müharibələri və eyni zamanda dövlətlərarası diplomatik fəaliyyət kontekstində Nadir Şahın Osmanlı dövlətinə olan siyasətinin əsl mahiyyətini açıqlamağa və bu siyasətin nəticələrinə diqqət çəkməyə çalışacayıq.

Şah II Təhmasib (1729-1732) tərəfindən baş komandan (qorçubaşı) təyin olunan Nadir xan Xorasanda öz movqeyini möhkəmləndirdikdən və əfqanları məğlubiyyətə uğratdıqdan sonra Rusiya və Osmanlı tərəfindən zəbt olunan Azərbaycan ərazilərinin azad edilməsinə başladı. Azərbaycanın azad olunmasında hər-hansı bir güzəşti qətiyyən qəbul etməyən Nadir xanın bu mövqeyi ilk növbədə Azərbaycanın Səfəvi dövlətindəki statusuna və Səfəvi hökmdarlarının Azərbaycana olan irsilik haqqına əsaslanırdı. Azərbaycan ölkəsi hər zaman Səfəvi dövlətinin *mülk-i mövrusu,* yəni irsi mülkü hesab olunurudu, və təsadufi deyil ki, Şah I Abbas 1603-cü ildə Osmanlı dövlətinə qarşı müharibəyə başlayarkən, İsgəndər bəy Münşinin yazdığına görə, hər nə qədər *"İmana gəldikdən sonra imanınızı pozmayın" müqəddəs ayəyə əməl edərək, bağlanmış əhd-peymanı pozmaq istəmirdisə də"* [8, 1159], lakin mülk-i mövrusu olan Azərbaycanı geri qaytarmaq haqqını bundan üstün görmüşdür.

Nadir xan 1730-cu ilin yayı-1731-ci ilin əvvəllərinə qədər bütün Cənubi Azərbaycanı və Səfəvi dövlətinin digər qərb torpaqlarını Osmanlılardan geri alıb İrəvan istiqamətində yürüşə hazırlaşdığı əsnada Xorasanda üsyan edən əfqanları yatırmaq üçün ora getmək məcburiyyətində qalmışdır [3, 375-376]. Öz nüfuzunu qaldırmaqdan ötrü təkbaşına İrəvan üzərinə yürüş edən, lakin məğlubiyyətlə üzləşərək ardınca Kirmanşahı, Urmiyanı, Təbrizi də itirən II Təhmasibin 1732-ci ilin yanvarında imzaladığı Kirmanşah müqaviləsini [3, 376; 21, 69; 9,399] tanımaqdan qəti şəkildə imtina edən Nadir xan, Osmanlı hakimiyyətini Azərbaycan torpaqlarını bütünlüklə geri verməyə vadar etmək üçün 1732-ci ilin payızında İraq istiqamətində dərhal hücuma keçdi. Bir-neçə mərhələdə cərəyan edən və tarixşünaslıqda daha çox hərbi tarix ba-

xımından, yəni döyüşlərin gedişatı, səbəbləri, nəticələri vs. işıqlandırılan bu müharibənin Nadir xan tərəfindən torpaq əldə etmək məqsədilə başlanıldığı qələmə verilir. Halbuki həmin müharibə əsnasında dövlətlər arasında həyata keçirilən diplomatik yazışmaları, həmçinin Nadir xanın apardığı hərbi əməliyyatları əlaqəli şəkildə təhlil etdikdə belə qənaətə gəlmək olar ki, onun bu müharibədən məqsədi heç də sırf ərazi iddiası deyildi, və yaxud əsla bu deyildi. Əsl məqsəd, Osmanlı dövləti ilə bərabər hüquqlu, sağlam zəminə söykənən və nəinki mövcud durumda, gələcəkdə belə özünü doğruldacaq ədalətli sülhün bağlanmasına İstanbul sarayını sövq etmək idi.[1] Belə sülhün başlıca şərti isə Azərbaycanın azad olunması idi.

Tarixşünaslıqda *birinci İraq hərəkatı* adlandırılan hərbi əməliyyat əsnasında 1733-cü ilin yanvar ayında Bağdad şəhərini mühasirəyə alan Əfşar ordusuna qarşı Osmanlı sarayı Ərzurum valisi, sabiq vəzir-i əzəm Topal Osman paşanın sərdarlığı ilə ordu göndərdi. 1733-cü ilin iyul ayının 19-da Bağdada 12 saatlıq məsafədə yerləşən Ducum adlı mövqedə baş verən və hər iki tərəfdən təxminən 30 min nəfərə qədər insanın həlak olmasına səbəb olan 9 saatlıq savaş nəticəsində Əfşar ordusu Bağdad mühasirəsini qaldıraraq geri çəkilməli oldu [13, 90-91; 9, 403; 2, 226-232; 5,57-59]. Lakin, iki ay ərzində Həmədanda yeni bir ordu toplayan Nadir xan Kərkük istiqamətində yenidən hücuma keçib 1733-cü ilin noyabr ayında Osmanlı ordusunu ağır məlubiyyətə uğratdı. 20 min nəfər ölü və əsir vermiş və bütün hərbi texnikası Nadir xanın əlinə keçmiş Osmanlı ordusunun sərkərdəsi Topal Osman paşa bu döyüşdə həyatını itirmişdi. Allahyar adlı bir döyüşçü tərəfindən Topal Osman paşanın başı zəfər nişanəsi olaraq kəsilərək Nadir xana gətirildikdə o, qəhraman sərkərdəyə qarşı edilən bu təhqiramiz hərəkətə qəzəblənmiş və sərkərdənin başını bədəninə birləşdirərək əsir düşmüş Osmanlı ordu qazısı Əbdülkərim əfəndi ilə birgə hörmət əlaməti olaraq Bağdada göndərmişdi [13,90]. Sərkərdənin cənazəsinin qoyulduğu şümşad tabutun ətrafı isə gümüşlə bəzədilmişdi [5,62].

Maraqlıdır ki, bu qalibiyyət nəticəsində Əfşar ordusu tərəfindən olduqca əlverişli strateji üstünlüklərin əldə edildiyi, o cümlədən Şəhrizol, Kərkük və Dərnənin ələ keçirildiyi, Bağdadın cənubundakı Hillə, Nəcəf və Kərbəla kimi şəhərlərin Nadir xanın göndərdiyi qüvvələr tərəfindən zəbt olunduğu və bununla da Bağdada döyüş sürsatı və ərzaqın çatdırılması üçün bütün yolların kəsildiyi, və hətta Təbrizin də bu şəraitdə osmanlılar tərəfindən boşaldılaraq tezliklə Vana çəkildikləri halda, Bağdad önünə gələn Nadir xan bu əlverişli şəraitdən şəhəri ələ keçirmək üçün yox, savaşa son qoyub sülh bağlamaq üçün istifadə etdi. Bağdad valisi Əhməd paşa ilə 1733-cü il dekabr ayının 19-da [4,29] bağlanan sülhün (Türkiyə tarixşünaslığında "Əhməd paşa sülhü" kimi tanınır) əsas müddəası Azərbaycanın Osmanlı qüvvələri tərəfindən bütünlüklə azad olunması idi. Beləliklə, son 10 ildə Osmanlılar tərəfindən tutulan Səfəvi torpaqlarının geri qaytarılmasını, yəni 1639-cu il Qəsri-Şirin müqaviləsi şərtlərinin bərpa olunmasını, hər iki tərəfdən əsirlərin sərbəst buraxılmasını və İran zəvvarlarının müqəddəs torpaqları maneəsiz ziyarət etmələri üçün şəraitin yaradılmasını nəzərdə tutan sülh imzalandı və təsdiq üçün İstanbula göndərildi. Bu sülhün imzalanması ilə bağlı Nadir xanın osmanlı sədrəzəmi Həkimoğlu Əli paşaya göndərdiyi məktub mövzumuz açısından olduqca əlamətdardır. Həmin məktubda o, özünün və osmanlıların cədlərinin qardaş olduqlarına istinad edərək tərəflər arasında sülhün münasib olduğunu vurğulayır:

*"... mənim cəddim müqəddimə Çingiz [xan] xürucunda Ruma gələn Əl-i Osmanın cəddi Ərtuğrulun qarındaşı olub, babaları (ataları – H.F.) Süleyman şah suya qərq olduqda mənim cəddim İrana getmiş idi. Bu təqrib səlatin-i Osmaniyyə ilə usubət-i nəsəbiyyə cəhətindən qərabətim (əqrabalığım) vardır. Münasib olan sülhdür..."* [18,60].

Nadir xanın Osmanlı dövləti ilə sülhə nail olmaqda nə qədər qətiyyətli olduğunu göstərən bir məqamı da qeyd etmək yerinə düşər. Bağdad sülhünün şərtlərini qəbul etməkdən imtina edən Osmanlı sarayı Köprülüzadə Abdullah paşanı Şərq səfərinə yeni sərdar təyin edərək ciddi şəkildə növbəti müharibəyə hazırlaşdığı; Gən-

---

[1] Bu məsələyə diqqət çəkən Gözalova N. və Bağırov Ə. müştərək tədqiqatlarında haqlı olaraq qeyd edirlər ki, Nadir Şahın Osmanlı imperiyasına münasibətdə yeritdiyi siyasət, etnik və dini birlik zəminində iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin qurulmasına və inkşaf etdirilməsinə yönəldilmişdi [4,49].

cə, Şirvan, İrəvan, Tiflis valilərinə hökmlər göndərərək bu əyalətləri Nadir xana təhvil verməmələrini əmr etdiyi [13, 96]; Krım xanı Qaplan Gəraya və Dağıstanda qumuqların rəisi Usumi Əhmədə də müraciət edərək hərbi səfərə qatılmaları haqqında göstərişlər göndərdiyi halda Nadir xan Osmanlı dövlətinin hətta bu mövqeyi qarşısında belə İsfahanda həmin ərəfədə qəbul etdiyi Rusiya səfiri Qolitsinin Osmanlılara qarşı Rusiya-İran ittifaqını bağlamaq təklifini rədd etmişdir [13, 98].

Bununla belə osmanlıların tərk etmədiyi Azərbaycan torpaqlarını, xüsusilə Osmanlı qarnizonlarının möhkəmləndiyi İrəvan və Gəncə qalalarını geri qaytarmaq əzmində olan Nadir xan Osmanlı dövlətini buna vadar etmək üçün bu dəfə Osmanlı sərəskəri Köprülüzadə Abdullah paşanın möhkəmləndiyi Qars qalasını mühasirəyə almaq qərarına gəldi. Abdullah paşa İstanbuldan gələn əmrə görə Qars qalasından çıxıb Əfşar ordusuna qarşı hərəkət etdikdə tərəflər arasında tarixə Arpaçay döyüşü adı ilə düşən məşhur savaş baş verdi. 80 min nəfərlik Osmanlı ilə 70 min nəfərlik Əfşar orduları arasında 1735-ci il iyun ayının 18-də baş verən həmin döyüşdə Osmanlılar böyük itkilər verərək məğlubiyyətə uğradılar. Osmanlı ordusunun topları və silah-sürsatı Nadir xanın əlinə keçdi, Abdullah paşa özü isə həlak oldu. Tiflis və 8 ay yarım mühasirədə qalan Gəncə qalalarında yerləşən osmanlı qarnizonları Arpaçay döyüşünün nəticəsində təslim olub Qarsa çəkildilər. Lakin İrəvan qalasının Osmanlı qarnizonu hələ də direniş göstərdiyi üçün Nadir xan yenidən Qarsı mühasirəyə aldı. Bu vəziyyətdə Abdullah paşanın yerinə Şərq sərəskərliyinə təyin olunan Bağdad valisi Əhməd paşa tərəfindən sülh bağlamaq təklifi gəldikdə Nadir xan yalnız İrəvanın təslim ediləcəyi müqabilində Qarsın mühasirəsinin qaldırılacağını bildirmişdir.

Beləliklə, istər Bağdad, istərsə Qars qalalarının Nadir xan tərəfindən mühasirəsi ilə bağlı hadisələri təhlil etdikdə belə qənaətə gəlmək olar ki, Nadir xanın bunlardan əsl məqsədi Osmanlı torpaqlarına təcavüz deyildi, sadəcə Osmanlı dövlətini Azərbaycan torpaqlarından çəkilməyə məcbur etmək üçün bir təzyiq vasitəsi idi. Bu, həm də Nadir xanın arzuladığı sağlam təmələ söykənən davamlı, sabit və möhkəm bir sülhün əldə olunmasının əsas şərtlərindən biri idi.

Nadir Şahın Osmanlı dövləti ilə münasibətlərdə başlıca məqsədinin sülh bərqərar etmək olduğunu təsbit edən mənbələr arasında Osmanlı qaynaqları, və xüsusilə Nadir Şahın Sultan I Mahmud (1740-1754) ilə yazışmaları çox önəmlidir.

Məlumdur ki, Nadir Şahı dərindən düşündürən və Muğan çölündə şah elan olunduğu gündən (14 fevral 1736) [21, 119; 11, 43] etibarən hakimiyyətdə olduğu müddət boyunca israrla həllinə çalışdığı məsələ, İslam dünyasını parçalayan məzhəblərarası ədavətə son qoymaq və dini həmrəylik yaratmaq idi.

Bir dövlət xadimi olmaqla yanaşı, Nadir Şah həm də bir müsəlman idi, özünün ifadəsinə görə bir abid, yəni Allaha ibadət edən bir qul idi. Və buna görə də o, İslam aləmində sülhün və qardaşlığın yaradılmasını, təfriqçiliyin aradan qaldırılmasını və müsəlman-türk aləminin birləşdirilməsini özünün bir müsəlman kimi ən ümdə vəzifəsi hesab edirdi və Osmanlı dövlətini də müqabil tərəf kimi buna dəvət edirdi. Nadir Şahın bu istiqamətdəki siyasi iradəsi və fəaliyyəti bir sıra tədqiqatçı tərəfindən yüksək qiymətləndirilmişdir. Ümumtürk dünyasının görkəmli fikir nümayəndəsi Əhməd Ağaoğlu (1869-1939) hələ keçən əsrin 30-cu illərində *"İran və inqilabı"* adlı əsərində Əfşar hökmdarının türk-İslam aləmində həmrəylik yaratmaq fəaliyyətini təqdir edərək yazır ki, *"Nadir bu işdə daha irəli getdi; Hindistanı, Türküstanı, Buxaranı və Xivəni aldı və Osmanlılarla birləşmək istədi; sünni-şiə ixtilaflarını aradan qaldıraraq vahid bir millət və vahid bir ümmət qurmaq sevdasına düşdü. Fəqət bu sevdaya da İstanbulun inadı mane oldu!"* [1, 123; 2, 60-61]

Türk tarixinin ən mötəbər tədqiqatçılarından olan Faruk Sümer də *"qövmi duyğuları qüvvətli, inqilabçı böyük şəxsiyyət"* adlandırdığı Nadir Şahın "*məsələni həll etmək üçün səmimiyətlə hərəkətə keçdiyini... Osmanlı xanədanının, özünün mənsub olduğu Türkmən qövmünün ən böyük ailəsi olduğunu söylədiyini və sıx sıx qövmi əqrabalıqdan bəhs etdiyini"* yazır, lakin müəllifin təbirincə desək, *"qəflət içində bulunan",* və hətta *"çox mühtəməldir ki, ... bu əqrabalığın fərqində olmayan Osmanlı ricalının"* bu təşəbbüsə rəğbət göstərmədiyini təəssüflə qeyd edir [17, 155]. Osmanlı dövlətinə dəfələrcə müraciət etmiş, məktublar göndərmiş Nadir Şahın bu məsələdə nə dərəcədə israrlı və səmimi ol-

duğu Osmanlı qaynaqlarındakı məlumatlarla təsdiq olunur. Məsələn, Nadir Şahın Əfqanistan və Hindistan səfərlərindən döndükdən sonra yenə bu məsələ ilə bağlı Bağdadın Osmanlı valisi Əhməd paşaya göndərdiyi və Osmanlı müəllifi Mehmed Subhinin əsərində yer aldığı məktub bu baxımdan olduqca mənalıdır. Məzhəb mübahisəsinin həlli üçün Dövlət-i Aliyyə tərəfindən alim göndərilməsinə dair əvvəllər də etdiyi müraciətlərin cavabsız qaldığına diqqət çəkən Nadir Şah: *"qaliba sülhü nə vəchilə murad etdiyimiz məlumları deyildir; məlumları olsa dəxi, etimad etmirlər...Hər dürlü əməllərimiz cümləyə mütabiq olmaq şərtilə müsalihə işinə biz bu tərəfdən, kəndiləri (Osmanlılar – H.F.) ol tərəfdən səy edəlim. Umur-i ibad cümləyə fərzdir, mabeyndən bu ədavət qalxsın. Ruz-i fərda Tanrıya və Peyğəmbərinə cavab verilməz. Dövlət-i Aliyyədən bir-iki alim göndərsinlər, bizim üləmamız ilə bəhs etdirəlim. Füruatımızda xilaf-i şər`-i şərif və əimmə-yi ərbaa-i*[1] *əqvalindən xariç nə var isə rəf` edəriz",* – deyə təkid edirdi [15, VIII-IX; 12,75].

Məlumdur ki, bu məsələnin həlli istiqamətində Cəfəriliyin həm dövlət dini, həm də beşinci məzhəb kimi qəbul edilməsi üçün diplomatik yazışmalar və elçi mübadiləsi vasitəsilə Osmanlı hakimiyyəti ilə intensif müzakirələr aparan Nadir Şah bu məqsədlə Nəcəf şəhərinin yaxınlığında Bəlx, Əfqanıstan, Buxara, Turan, Nəcəf, Hillə və Bağdaddan dəvət olunan İslam alimlərinin iştirakı ilə 1743-cü ildə məclis təşkil etmişdir [12, 77]. Bağdad uğrunda ikinci hərbi kampaniya əsnasında keçirilən həmin toplantıda Nadir Şahın şəxsi müraciətinə əsasən Bağdadın Şafii alimlərindən olan Abdullah Hüseyn Süveydi də sədr qismində iştirak etmişdir. Ərəb dilində qələmə aldığı *"Vekayi'name-i Nadir Şah der Mezahib-i Şi'iyye-i Ca'feriyye"* adlı əsərində [15] bu məclis və dini diskussiya əsnasında müzakirə olunan məsələlər haqqında nəql edən Süveydi, həmin məclisdən əvvəl Nadir Şahın onunla şəxsən görüşdüyünü və bu məsələ ilə bağlı düşüncələrini, narahatçılığını ifadə etdiyini qeyd edir. Süveydi yazır ki, həmin görüş zamanı Nadir Şah məmləkətindəki qövmlərin bir-birilərinə "*kafir deyib fərq və təməyyüz (fərqlənmə, seçilmə)"* etdiklərini *"iyi məna olmayub və İslam daiyəsində (iddiasında) olanlara yaraşan şey deyildir",* deyə bunu aradan qaldırmaq niyyətində olduğunu bildirmişdir [15, 35-36].

Abdullah Süveydinin Nadir Şahın dilindən nəql etdiyi bu passaj Əfşar hökmdarının bu məsələyə nə dərəcədə həssas yanaşdığını göstərir. Lakin o, öz dövləti daxilində Cəfəriliyi qəbul etdirməyə nail oldu isə də, beşinci məzhəb kimi tanınmasına bütün səylərinə rəğmən müvəffəq ola bilmədi. Osmanlı dövləti şər'i və siyasi əsaslar gətirərək bu təklifi qəbul etməkdən imtina etdi. Məsələ ilə bağlı təxminən 10 ilə yaxın müddət ərzində Osmanlı sarayı ilə elçilər və məktublar mübadiləsi vasitəsilə aparılan müzakirələrin, diplomatik və hətta hərbi cəhdlərin nətcəsiz qaldığını görən Nadir Şah 1746-cı ilin əvvəlində Fəthəli bəy Türkman adlı bir elçi ilə Osmanlı rəsmilərinə daha bir məktub ünvanlamışdır. Qətlindən təxminən bir il öncə yazılmış bu məktubu oxuduqda onun həm nəsihət, həm də sanki vəsiyyət mahiyyətli olduğu təəssuratı yaranır. Osmanlı sarayının tutduğu barışmaz mövqeyi üzündən Cəfəriliyin beşinci məzhəb kimi qəbul olunması niyyətindən əl çəkdiyini müəyyən dərəcədə giley ilə ifadə edən Nadir Şah: *"dostluq, bir olma və sevgi yolu naminə o əbəd-müddət dövlət (Osmanlı dövləti – H.F.) tərəfinə İmam Cəfər-i Sadiqin məzhəb başılığı üçün rükn təyin olunması təklif olundu və bu təklifdən qəsdimiz müslümanlar arasındaki qanayan yaranın qabuq bağlamasını və Hz. Peyğəmbərin ümməti arasında dostluğun təmin edilməsindən başqa bir şey olmadı və [bu təklifin Osmanlı sarayı tərəfindən] böyük bir məmnuniyyətlə qəbul olunacağına və riza göstəriləcəyinə şübhəmiz bulunmamaqdaydı.[Lakin] sərəskər Yeğen Mehmed paşanın çıxışından sonra çox düşündük daşındıq. Tərtəmiz şəriətlə hökm edən əminlərlə Dövlət-i Aliyyə ricalının bu təklifə rıza göstərəcəkləri yerdə bu qədər qanın tökülməsinə rıza göstərdiklərini müşahidə etdik... Bu duacının [Nadir Şahın – H.F.] məqsədi iki tərəfin xeyrinə çalışmaq olduğundan, [amma] iki tərəf də bu təklifə rıza göstərmədikdən sonra bu xeyir-xah israrın heç bir anlamı və lüzumu qalmamışdı... Nə tərəfdən baxılırsa baxılsın, çəkişmə və niza'ya (çəkişmə, qovğa) səbəb olan iki tərəfin üzərinə aldıqları məsuliyyəti yerinə gətirmələrinə mə'tuf olduğundan, biz də məzkur vacibələrdən fərağat eylədik. "Hər nə zaman id-*

[1] Əimmə-yi ərbaa – dörd imam deməkdir. İslamda 4 məzhəbin əsasını qoyan məşhur hüquq alimləri və müctəhidləri: Əbu Hənifə, Əhməd ibn İdris əş-Şafii, Malik ibn Ənəs, Əhməd ibn Hənbəl nəzərdə tutulur.

*dia olunan şey tərk olunursa, dava da onunla birlikdə tərk olunur". "İstədiyimdən vazgeçincə, istənilən şey də bitdi"* [10, 131-132].

Daha sonra məktubda iki tərəf arasında mütəmadi olaraq savaşlara səbəb olan Azərbaycan və İraq-i Ərəb məmləkətləri mövzusuna gəlinir. Nadir Şah hər iki məmləkətin Türkman mirası olaraq bu tərəfə, yəni Əfşar dövlətinə və sələflərinə aid olduğunu qeyd edir, lakin bununla belə Osmanlı ilə bir cəddən gəldiyini əsas gətirərək bu məsələnin gələcəkdə bir daha qarşıdurmaya səbəb olmaması üçün *qardaş hüququna* istinadən çözülməsini təklif edir: *"Madəm ki, həyat davam etmədədir; bu gündən sonra bir daha mal və mülk üçün müxalifət qılıncı qınından çıxıb niza'ya və müxalifət girdabına düşdüyümüz təqdirdə* ***qardaşlıq hüququna*** *binaən şunu biliniz ki, Iraq və Azərbaycan məmləkətləri çox əski dövrlərdən bəri Türkman padişahlarının olmaqla, doğrusu bu xeyir-xah dostunuza (Nadir Şaha – H.F.) mirasdır. Şah İsmayılın hükümdarlığı zamanında o topraqların yarısı əbəd-müddət olan dövlət[iniz]in təsərrüfünə keçmişdi. Iraq və Azərbaycandan ibarət olan o iki məmləkətdən birisi birlik və bərabərliyin gərəyi olaraq təqibçiniz olan bu dostunuza əta və ehsan olunursa, təsərrüflərində bulunan digəri də kəndilərinə halal olmalıdır. Və o həzrətin (Sultan Mahmud nəzərdə tutulur – H.F.) ixlas və səmimiyətdən yana olan bu biradərləri (Nadir Şah nəzərdə tutulur – H.F.) haqqında vücuda gələn iltifatları cümlə-yi aləmə zahir və ayan olur. Və bu təklifimiz də sevgi və ittihad cəhətiylə olub israr və zorakılıqla deyildir. Bunu rədd ya da qəbul etmək Sizin seçiminizdədir. Hər nə şəkildə təbiət-i dövlətinizə uygun düşər, şirin gələrsə, bu səmimiyyət-pərvərlərinə də o şirin gələcəkdir. Daha başqa bir şeyə həmledilməsin. Xilafət günəşiniz baqi olsun; cihan sahibi oluşunuz zəval görməsin"* [10, 132].

Məktubdan göründüyü kimi, Nadir Şah həm Əfşarların, həm Osmanlıların ortaq Türkman mənşəyinə mənsub olduqlarını Osmanlı dövləti ilə münasibətləri şərtləndirən əsas amil kimi qiymətləndirirdi. Ümumiyyətlə, Türkman kimliyinə mənsubiyyət şüuru Nadir Şahı bir tarixi şəxsiyyət və dövlət xadimi kimi səciyyələndirən, həm də onun xarici siyasətini şərtləndirən önəmli amil idi. Osmanlı sultanına yazdığı məktubda özünü *"Tanrının inayəti ilə... türkman elinin böyüyü və İran ilə Türküstan məmləkətlərinin sahibi"* kimi təqdim edən Nadir Şahın öz ali statusunun mahiyyətini açıq şəkildə ifadə etməsi [7] bu mənada diqqət çəkicidir. Türkman şüuru və həmrəyliyi amili Nadir Şahının sadəcə Osmanlı imperiyasına deyil, digər müsəlman Türk xanədanı tərəfindən idarə olunan Böyük Moğol dövlətinə də münasibətində özünü göstərirdi. Belə ki, Hindistanı fəth edən Nadir Şah ona qarşı vuruşmuş Moğol hökmdarı Məhəmməd Gürganini (1719-1748) öz ordugahında qəbul etdiyi zaman *"Türkmanlıq adətlərini əsas tutaraq o həzrətə həddindən artıq lütf ilə mərhəmət... və hökmdarlara layiq izzət ilə təmkinlik nümayiş"* etdirərək, onu məhz Türk olduğu üçün əfv etdiyini bildirmiş, Hindistanda isə türk hökmranlığının davam etməsində qətiyyət göstərəcəyinə söz vermişdir [2, 61-62; 6, məktub №7; 7]. Bu xüsusa Maykl Aksvorti də diqqət çəkərək yazır ki, *"Nadir Şah Məhəmməd Şahın İranla dostluğu qoruyacağı şərti əsasında Hindistanı idarə etməsinə icazə verdi. Çünki, onların hər ikisi türk əsilli idilər"* [2, 85].

Osmanlı dövləti ilə qardaşlıq və qarşılıqlı etimada söykənən münasibətlərin yaradılması istiqamətində Nadir Şahın atdığı addımlar və, ümumiyyətlə, yürütdüyü siyasət öz bəhrəsini vermişdir. Doğrudur, məzhəb məsələsində arzuladığı şəkildə uğur qazana bilməsə də, lakin iki dövlət arasındakı münasibətlərin əvvəlki dövrlərdən keyfiyyətçə tamamilə fərqli mahiyyət qazanmasına və yeni mərhələyə qədəm qoymasına zəmin yaratmışdır. Bu tarixi gerçəklik, hətta Nadir Şahın ölümündən sonra Osmanlı dövlətinin Əfşar və Qacar dövlətlərinə münasibətinin xarakterini müəyyənləşdirmişdir. Belə ki, Nadir Şahın ölüm xəbərini alan Sultan I Mahmud dərhal sarayda fövqəladə məclis toplayaraq Nadir Şahla bağlanılan siyasi anlaşmalara sadiq qalacağını bəyan etmişdir [20, 95-96; 12,94].

Nadir Şahın qətlindən sonra Əfşar dövlətinin parçalanması şəraitində ölkədə yaranmış qarışıqlıqdan, hakimiyyət uğrunda baş verən çəkişmələr və üsyanlardan məlumatları olan Bağdad və Ərzurum valiləri bu barədə İstanbul hakimiyyətini xəbərdar edib İranı asanlıqla işğal edə biləcəklərini bildirmişdilər, lakin Sultan Mahmud Nadir Şah dövründə iki dövlət arasında imzalanan bütün andlaşmalara sadiq qalacağını və İran xalqına zərər verəcək bütün davranışlardan uzaq olacağını bildirmişdir [19,1; 12, 94].

Sultan I Mahmudun bu mövqeyi sonrakı dövrlərdə də, onun xələfləri, xüsusilə Sultan III

Mustafa (1757-1774) tərəfindən qətiyyətli şəkildə davam etdirilmişdir. Əfqanistan hökmdarı Əhməd Şah Dürrani 1763-cü ildə Osmanlı dövlətinə müraciət edərək İran torpaqlarını aralarında bölüşdürüb, dövlətinə son qoymağı təklif etdikdə, Sultan III Mustara *"Dövlət-i Aliyyə tərəfindən İrana əskər göndərilməsinə və məmləkətin zəbtinə tərəfimizdən rəğbət edilməməkdədir. Zira, Nadir Şahın vəfatından əvvəl Səltənət-i səniyyə ilə İran dövləti arasında əqd olunan dostluq müahidəsi yalnız Nadir Şah və zamanına aid olmayıb, onlardan sonra iki dövlət arasında da geçərlidir. Bundan dolayı bu dostluq andlaşması iki dövlət davam ettdyi müddətcə baqi qalacaqdır",* deyərək təklifi rədd etmişdir [12, 94-95].

Əfşarlardan sonra hakimiyyətə gələn Qacarlar sülaləsi dövründə də tərəflər arasında bəzi gərginliklərin, xüsusilə İraq bölgəsindəki bəzi əşirət rəislərinin Osmanlı hakimiyyətinə üsyan edərək İrana sığınması, sərhəd bölgəsində qonar-göçər əhalinin yaratdığı problemlər, qacar şahzadəsi Abbas Mirzənin həyatına yarandığı təhlükədən dolayı Osmanlı dövlətinə sığınması kimi gərginliklərin yaşandığı halda hər iki tərəf bunların böyüməsinə rəvac vermədən yalnız danışıqlar yolu ilə həllinə səy göstərmişdir [16, 62-66; 12, 95-96]. Nəsirəddin Şah (1831-1896) dövründə isə Osmanlı dövləti ilə münasibətlər daha da irəliləmişdi. O, Avropa ölkələri səyahətindən sonra 1873-ncü ildə İstanbula təşrif buyurmuş və *"yenidən təhkim edilən birlik və qarşılıqlı dostluqdan"* dolayı sevincini ifadə etmişdir [12, 98].

***Sonuç***

Beləliklə, Nadir Şahın siyasi düşüncəsinin bəhrəsi olan birliyin və qardaşlığın İslam dünyasında yaradılması ideyası özünün ən dolğun ifadəsini Osmanlı dövləti ilə münasibətlərdə tapdı. Türkman mirasının varisləri kimi gördüyü iki dövlət arasındakı münasibətlərdə *qardaşlıq hüququna* təşəbbüs edərək, öz ardıcıl siyasəti, israrlı səyləri və aldığı tədbirlər sayəsində bunu uğurla tətbiq etməyə nail olmuşdur. Nadir Şahın mənəvi mirası olaraq dəyərləndirə biləcəyimiz bu prinsip iki dövlət arasındakı münasibətlərə tamamilə yeni ruh, yeni mahiyyət qazandırmışdır və zamanın sınağından çıxaraq bu gün Azərbaycan-Türkiyə qardaşlığında özünü doğrultmaqdadır.

**Ədəbiyyat siyahısı**


1. Ağaoğlu Əhməd, *İran və inqilabı* // Seçilmiş əsərləri. Bakı, 2007.
2. Aksvörti Maykl, *Nadir Şah*, Bakı: Şərq-Qərb, 2018.
3. Azərbaycan tarixi, III cild, Bakı: Elm, 1999.
4. Gözalova Nigar, Bağırov Əkrəm, *XVIII əsrin 30-40-cı illərində Nadir Şah Əfşarın Bağdad yürüşləri*, Bakı, 2018.
5. Mahmudov Yaqub, Mustafazadə T. Nadir Şah Əfşar: Tarixin gedişinin dəyişdirən dahi sərkərdə, Bakı: Turxan NPB, 2019.
6. Mehdiyev Ramiz, Nadir Şah Əfşar: Diplomatik yazışmalar. Tərcümə: R.Şeyxzamanlı. Bakı, 2015.
7. Mustafayev Şahin, *Tarixin və bugünün işığında Nadir şah. İngilis şərqşünasın kitabı üzərində bəzi düşüncələr.* "Azərbaycan" jurnalı, 25 iyul 2018, S.1; 4.
8. Münşi İsgəndər bəy Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-alemaraye-Abbasi)*, II kitab, Fars dilindən çevirən: Şahin Fazil, Bakı, 2014.
9. Nəcəfli Tofiq, *Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında)*, Bakı: Turxan NPB, 2015.
10. *I.Mahmud-Nadir Şah Mektuplaşmaları, 3 Numaralı Nâme-i Hümâyûn Defteri*, (Transkripsiyon / Tıpkıbasım). T. C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, Yayın Nu: 136 İstanbul, 2014.
11. Albayraq Rəcəb, *Türklərin İranı*, Yaxın gələcək, II cild, Türkçədən tərcümə edən Ramiz Əskər. Bakı, 2016.
12. Arı Saim, *Osmanlı Arşiv Kaynakları Işığında Nadir Şah - I.Mahmut Dönemi Ehli Sünnnet-Şiî Diyalogu,* Şanlıurfa, 2001.
13. Ateş Abdurrahman, *Avşarlı Nadir Şah ve Dönemide Osmanlı-İran Mücadeleleri,* Isparta, 2001.
14. Kılıç Remzi, *XVI ve XVII. Yüzyıllarda Osmanlı-İran Siyasî Antlaşmaları,* İstanbul, 2001.
15. Özer Alâettin, *Vekâ`yi-nâme-i Nâdir Şâh der Mezâhib-i Şi`iyye-i Ca`feriyye,* İstanbul, 1990.

16. Saray Mehmed, *Türk-İran Münasebetlerinde Şiîliğin Rolü,* Ankara, 1990.
17. Sümer Faruk, OĞUZLAR (TÜRKMENLER) Tarihleri - Boy teşkilatı – Destanları, İstanbul, 1980.
18. Şem'dani-zade Süleyman Efendi, *Mür`i't-Tevarih*, yay. M.Münir Aktepe, İstanbul, 1976.
19. Uzunçarşılı İsmail Hakkı, *Osmanlı Tarihi,* c IV, Ankara, 1982.
20. Hammer, Baron Joseph Von Purgstall, *Osmanlı Devleti Tarihi,* I-XVI, çev. Vecdi Bürün, İstanbul ty.
21. Локкарт Лоуренс, *Надир Шах. Критическое исследование на основе первоисточников*, (Лондон -1938). Переведено с английского Гёзаловой Н.Р., Баку, 2004.

## Резюме

**Фарах Гусейн**

### *Право братства*, учрежденное Надир Шах Афшаром в отношениях с Османской империей (На основе османских источников)

В статье рассматривается политика Надир-шаха по отношению к Османской империи в контексте исследования взаимоотношений этого государства с Сефевидским государством накануне его развала и с государством Афшаров. На основе анализа военных действий и дипломатических отношений, осуществлявшихся между двумя государствами в этот период, раскоывается суть политики Надир шаха в отношении Османской империи. Будучи инициатором идеи создания единства и братства в тюркско-мусульманском мире, Надир шах стремился, прежде всего, осуществить ее в отношениях с Османским государством. В то же время, опираясь на общее туркманское наследие, он заложил основу *права братства* в отношениях двух государств.

***Ключевые слова:*** *Надир шах Афшар, султан Махмуд I, османо-афшарские отношения, туркманское наследие, Азербайджан, Ирак Арабский, право братства.*

## Summary

**Farah Huseyn**

### The *right of brotherhood* established by Nadir Shah Afshar in relations with the Ottoman empire (Based on the Ottoman sources)

The article discusses the policy of Nadir Shah towards the Ottoman Empire in the context of the study of the relationship of this state with the Safavid state on the eve of its collapse and with the Afshar state. Based on the analysis of military actions and diplomatic relations that were carried out between the two states during this period, the essence of Nadir Shah's policy towards the Ottoman Empire is revealed. Nadir Shah, the initiator of the idea of creating unity and brotherhood in the Islamic Turkic world, tried to realize it, first of all, in relations with the Ottoman state. At the same time, based on the common Turkman heritage, he laid the foundation for the *right of brotherhood* in relations between two states.

***Keywords:*** *Nadir Şah Afshar, Sultan Mahmut I, Ottoman-Afshar relations, Turkman heritage, Azerbaijan, Iraq-i Arab, brotherhood right.*

UOT 94

**НАТАВАН АГАЕВА**
*Институт востоковедения им. ак. З. Буниятова НАНА*
*n.aghaeva@gmail.com, Азербайджан*

# ТРАНСФОРМАЦИЯ ОСМАНСКОГО ОБЩЕСТВА В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА. ПОЯВЛЕНИЕ КАТЕГОРИЙ «АЛАФРАНГА» И «АЛАТУРКА»

***Ключевые слова:*** *Османская империя, XIX век, трансформация, «алафранга», «алатурка».*

Изучаемое нами явление - турецкое «алафранга» общество, в той форме, в какой мы встречаем его со второй половины XIX века, было порождением тех ранних реформ, которые осуществлялись в первой половине столетия. Тогда, как известно, государство ставило себе задачу в первую очередь воспитание нового по-современному образованного чиновничества, способного решать задачи времени. «Эти просвещенные указы, в сочетании с той великой реформой, проведенной в сфере образовательных учреждений в Османской империи, были рассчитаны на осуществление более важных и благотворных изменений в стране» [22, стр. 317]. Благодаря первым реформам образования уже к середине XIX века «каждый турок был обязан отправить своего ребенка в школу, а государство брало на себя обязанность его обучить» [22, стр. 317]. Более того, со вступлением Османской империи в систему международных отношений понадобились новые знания, для чего молодых служащих отправляли за границу:

Paris'e git hey efendi akl-ü-fikrin var ise
Âleme gelmiş sayılmaz gitmeyenler Paris'e (Hoca Tahsin Efendi)

«Отравляйся в Париж, эй эфенди, если у тебя есть ум. Не считается, что ты достиг знаний, если ты не побывал в Париже» (Ходжа Тахсин-эфенди) [24, стр. 151]

Именно из этого чиновничества в дальнейшем сформируется новая социальная прослойка, которая вскоре после смерти Махмуда II превратится в доминирующее сословие, а в правление султана Абдул-Меджида I будет отныне самостоятельно определять политический курс империи и задавать тон культурному развитию общества. Из этого сословия выйдут первые турецкие интеллигенты. В последствии, с ростом числа образованных людей, получением знаний в области светских наук, увеличивающимися контактами с иностранцами в различных сферах деятельности, возвращением на родину первых выпускников из-за границы с новыми бытовыми привычками и взглядами, облик османского общества начнет постепенно меняться, и из него вскоре выделится группа, в народе получившая определение «алафранга». Слово «алафранга» - это отюреченное «a la franque» - «а-ля франк». «Франкское общество Константинополя, состоящее из служащих посольств, консульств, семей драгоманов и купцов из различных европейских народов» [26, стр. 282] вело отличный от традиционного для османов образ жизни. Поэтому все, что олицетворяло их манеры, развлечения, внешний вид и прочее, в народе обозначалось словом «а-ля франк» - «по-франкски». Позже, когда их манеры стали перениматься местным населением, данным эпитетом начали награждать и тех, кто им подражал. Это означало, что обладание определенными «атрибутами» жизни «франков» превращало традиционного османца в «алафранга». Соответственно те, кто в противоположность последним все еще придерживался традиционных порядков, назывались «алатурка». Классик османской литературы, один из самых известных сатириков времен Танзимата Ахмет Митхат-эфенди в своем произведении «Фелатун-бей и Ракым-эфенди» так описывает одного из героев: «Мустафа Мераки-эфенди был человеком «алафранга»

взглядов. Будучи родом из Ускюдара (Н.А. - район в азиатской части Стамбула), где располагался его прекрасный особняк, сад, огород, он однажды захотел «алафранга», то есть комфортной, жизни, для чего продал всё, не заботясь о цене, и переехал в Бейоглу (Н.А. - район в европейской части Стамбула), где построил себе новый, обязательно в стиле «алафранга» каменный дом» [12, стр. 9]. Здесь автор неслучайно для характеристики жизни «алафранга» выбрал предместье Бейоглу, ибо именно оно являлось тем направлением Стамбула, где проживало «франкское» общество. В отличии, например, от того же Ускюдара, куда во времена захвата Константинополя согласно политике заселения территорий было переселено большое количество анатолийских тюрков [5, стр. 28], из-за чего этот район Стамбула превратился в исконно тюркский, с его «алатурка» культурой и бытом, район Пера был полностью «иностранным». Здесь проживала основная часть нетюркского населения столицы; исконное население Пера генуэзцы вели торговлю с Европой, из-за чего европейские купцы и их товары в первую очередь попадали сюда, и европейское влияние чувствовалось в наибольшей степени. Здесь издревле, еще с XVI века, были открыты первые европейские посольства. С расширением дипломатических отношений с Западом в XVIII веке в страну стало приезжать большое количество художников, архитекторов и деятелей различных искусств. Им покровительствовал сам султан Селим III и его сестра Хатидже-султан, по просьбе которой даже один из них - немецкий художник и архитектор Антуан Игнас Меллинг - был приглашен во дворец и прослужил придворным архитектором 18 лет. «Именно в этот период (Н.А. - в Бейоглу) были построены многочисленные здания посольств, особняки и дворцы» [4, стр. 26], расположившиеся вдоль главной улицы Rue de Pera, нынешняя Улица Истикляль - Istiklal Caddesi. В этих дворцах позже проводились балы и карнавалы, демонстрировались первые спектакли, давались оперные концерты. Так, Пера превращалась в «аристократическое поселение Стамбула» [21, стр. 3]. Великая французская революция 1789 года привнесёт в Бейоглу еще бо̀льшие изменения. Бежавшие от революции подданные Франции привезут с собой новую моду: мужчины начнут носить кокарды с французской символикой, а женщины украшать шляпки или сумочки лентами белого, красного и синего цвета [27, стр. 12-14]. Сочувствующие им поддержат эту моду, и она разрастется до таких масштабов, что вызовет недовольство других посольств, да так, что старший переводчик австрийского посольства напишет жалобу реис-уль куттабу (Н.А. - пост, который соответствует современному министру иностранных дел) Рашиду-эфенди, в которой выразит обеспокоенность по поводу распространения идей революции в Османской империи. Но, в типичной для османской политики того времени «самодостаточной» манере, со стороны османов эти настроения не будут восприняты всерьез, и Рашид-эфенди отправит ему следующий ответ: «Друг мой, мы вам уже восемьсот раз говорили, что Османское государство - это мусульманское государство, и у нас к таким вещам, как кокарды почтения нет. Купец дружественной страны для нас гость. Он может надеть на голову все, что пожелает, любой символ. Даже если он наденет на голову виноградную корзину, спросить зачем он это сделал не дело Османского государства. Не изводите себя понапрасну» [8, стр. 70]. Позже, новое французское правительство пожелает наладить отношения с империей, для чего отправит своего представителя - Мари Луи Анри Дескорша (*Marie Louis Henri* Descorches), по прибытии которого на берегах Босфора посадят «древо свободы», а через 8 недель султан Селим III отправит в Париж полный список специалистов и инструкторов, которых ему хотелось бы «выписать» из Франции для временной службы в его армии и флоте. Его просьба будет удовлетворена, и отношения между двумя странами начнут стремительно развиваться. Так, «в начале века, когда модное общество в Париже и Версале развлекало себя посредством *turquerie* (Н.А. - 1) художественные произведения на тему турецкой жизни; 2) безде-

лушка в турецком, восточном стиле [19, стр. 1004]), Константинополь открывал для себя французскую мебель, французские декоративные сады и французский декоративный дизайн» [28, стр. 56]. И все, кто желал соприкоснуться или быть непосредственно причастным к «алафранга» культуре стремились в центр «европейской жизни» Стамбула - в предместье Бейоглу. Здесь селились первые молодые «алафранга» чиновники, дипломаты и преподаватели новых школ, что привело к тому, что со временем национальный состав предместья стал постепенно меняться. Переселившиеся сюда турецкие семьи перенимали европейский образ жизни, «в «алафранга» нарядах они гуляли по Кягытхане (Н.А. - Kağıthane - одно из важных рекреационных направлений Стамбула XVIII - начала XIX века, с родниками с питьевой водой, полями тюльпанов и променадами)... С приходом зимы их видели в театральных ложах, а когда приходило время карнавала, в своих нарядах они появлялись на балах» [11, стр. 217]. Таким образом, к середине XIX века демографическая картина предместья выглядела следующим образом: «Европейцы, обобщенные под единым названием «франк», живут в предместьях Пера и Галата. Большинство из них рождены в Турции от родителей разных национальностей, и в этих двух кварталах возможно найти только малое число настоящих европейцев, особенно среди лиц женского пола. Всего их насчитывается не больше тысячи или тысячи двухсот душ» [31, стр. 370]. А то, что выделяло «алафранга» из общей массы, помимо прочего, было еще и особое воспитание детей: «После того, как Мустафа Мераки-эфенди из человека глубоко «алатурка» превратился в человека «алафранга», стало нетрудно догадаться, какое образование он предпочтет для своих детей-сирот, оставшихся без матери. Ребенка он отдал в среднюю школу, куда тот с сумкой ходил ежедневно. Более того, дважды в неделю к ним на дом приходил преподаватель-француз» [15, стр. 131].

Bir sıra Azərbaycan tarixçiləri və şərqşünasları öz tədqiqatlarında digər ərəb coğrafiyaçılarının əsərlərinə müraciət etmiş və bu mənbələrin əhəmiyyətini xüsusi olaraq qeyd etmişlər. Belə tədqiqatlar sırasında ilk növbədə Z.M. Bünyadovun [4], M.X. Şəriflinin [16], S.B. Aşurbəylinin [24], N.M. Vəlixanlının [18; 19; 20] əsərlərini xüsusilə, qeyd etmək lazımdır.

Orta əsr ərəbdilli müəllifləri (Əl-İstəxri, ibn Havqəl, əl-Məsudi, Qudama ibn Cəfər və başqaları) Ərəb xilafəti dövründə Azərbaycanda mövcud olmuş şəhərlər haqqında maraqlı məlumatlar verirlər. İlkin yazılı qaynaqlardan əldə olunan məlumatlara görə, Azərbaycan şəhərləri əsas etibarilə xarici hücumlardan qorunmaq məqsədilə hasar və xəndəklərlə əhatə olunurdu. Orta əsrlər Azərbaycan şəhərlərinin əksəriyyəti öz dövrünün iqtisadi, ictimai, siyasi, mədəni və təsərrüfat həyatında mühüm rol oynayan mədəni mərkəzlər idi. Ərəbdilli mənbələrdə Azərbaycanın qədim və paytaxt şəhərlərindən olan Ərdəbil haqqında daha geniş məlumat verilir. Azərbaycanın qədim şəhərlərindən olan Ərdəbil, eyni zamanda Azərbaycanın mədəniyyət, ədəbiyyat, siyasət və dini mərkəzi olmuşdur.

Antik müəlliflərdən fərqli olaraq orta əsr müəllifləri şəhərin tarixi, abidələri, ictimai həyatı və s. ilə əlaqədar çoxlu dəyərli məlumatlar verirlər. Lakin antik mənbələrdə məlumatın azlığı o anlama gəlməməlidir ki, bu dövrdə şəhər az inkişaf etmişdir. Əldə olan azsaylı arxeoloji tapıntılar şəhər ərazisində yaşayışın ən azı Tunc dövründə olduğunu göstərir. Firdovsi əsərində Bəhmən qalasının Keyxosrov tərəfindən atəşgaha çevrilməsindən və bu qalanın Ərdəbildə yerləşməsindən danışır. Həmdullah Qəzviniyə görə Ərdəbil Siyavuşun oğlu Keyxosrov tərəfindən bina edilmişdir [10, s.83]. Bu məlumatın özü də şəhərin qədim tarixindən xəbər verir. Bəhmən qalası və Ruinqala toponimlərinə hazırda Ərdəbilin Qərbində, Savalan dağının ətəyində farslaşdırılmış şəkildə Ruyin-dizeq və Dej-Vican formada təsadüf edilir. Eyni zamanda şəhər ətrafında atəşpərəstliklə bağlı ay adlarına, o cümlədən Şəhrivar və Əmərdad toponimik adlarına da rast gəlinir. Buna əsaslanan bəzi müəlliflər Ərdəbil şəhərinin əsasının Zərdüşt dövründə qoyulduğu fikrini irəli sürürlər.

VII əsrin ortalarında baş verən ərəb yürüşləri haqqında ərəbdilli mənbələrdə geniş məlumat verilmişdir. Bu məlumatlarda Azərbaycanın qədim və paytaxt şəhərlərindən olan, Savalan dağının şərqində yerləşən Ərdəbil şəhəri

haqqında məlumatlar da öz əksini tapmışdır. Raşidi xəlifələrindən olan Ömər ibn Xəttabdan (634-644) Azərbaycanın valisi əmrini alan Huzeyfə ibn Yəman Azərbaycanın əsas şəhəri olan Ərdəbilə gəldi. Xərac yığımına nəzarət edən sasani mərzbanının da iqamətgahı Ərdəbildə idi. Hüzeyfə gələnədək ona qarşı Bacərvan, Miməz, Neriz, Sərat, Şiz, Məyanic və başqa məntəqələrdən ordu toplayan mərzban, bir neçə gün müsəlmanlara qarşı vuruşmuşdur [2, s.325-326].

Sasanilərin əlində olan Rey və Qəzvin şəhərlərini ələ keçirdikdən sonra Hüzeyfə ibn Yəmanın başçılığı ilə Azərbaycana daxil olan ərəblər, burada güclü müqavimətə rast gəldilər. Xilafət qoşunlarına qarşı mübarizə aparan qoşuna mərzban İsfəndiyar ibn Fərruxzad başçılıq edirdi. O, qonşu əyalətlərin əhalisindən Ərdəbildə böyük qoşun toplayıb, ərəblərlə döyüşə başladı. Lakin baş verən döyüşdə ərəblər qalib gəldi və İsfəndiyar əsir götürüldü. Onun qardaşı Bəhram ibn Fərruxzad qoşun toplayaraq, yenidən döyüşə başlasa da bu döyüşdə də ərəblər qalib gəldilər. Ərəbdilli müəlliflərindən olan əl-Bəlazurinin verdiyi məlumata görə, günlərlə davam edən döyüşdən sonra Azərbaycan xalqı adına cizyə qarşılığında müqavilə imzalandı. Müqavilənin şərtlərinə əsasən: “Yerli əhali səkkiz yüz min dirhəm vergi ödəyəcək, heç kim öldürülməyəcək, əsir alınmayacaq, atəşgah məbədləri yandırılmayacaq. Balsacan, Savalan və Satrudan kürdləri təqib olunmayacaq. Şiz əhalisinin öz bayramlarında rəqs etməsinə və keçmişdə icra etdikləri işləri açıq görmələrinə mane olunmayacaq” [3, s.455-456; 17, cild IV, s.154-155; 2, s.325-326].

Ərdəbilin ələ keçirilməsindən sonra Muğan və Gilanı da ələ keçirən Hüzeyfə ibn Yəman əhali ilə vergi ödəmək şərti əsasında müqavilə bağladı [3, s.455-456; 2, s.325-326].

Ərdəbili tutan ərəblər şəhərin siyasi və inzibati statusuna toxunmadılar. Əl-Bəlazuri yazır ki, xəlifə Əli ibn Əbu Talib əl-Əşəs ibn Qeysi Azərbaycana vali təyin etdi. O, Azərbaycana gələndə əhalinin çoxu İslamı qəbul etmişdi və “Quran” oxuyurdu. Əl-Əşəs təqaüd alan və divan əhli olan ərəbləri Ərdəbildə yerləşdirdi və sonralar genişləndirilən məscid inşa etdirdi. Ərəblər Azərbaycanda yerləşdikdən sonra onların Kufə, Bəsrə və Suriyadan olan qohumları oraya can atdı. Bacardıqları qədər torpağa sahib olan ərəblərdən, sonda yerli əhali asılı vəziyyətə düşdü [3, s.460; 2, s.328-329].

Əl-Bəlazuri, həmçinin Azərbaycanın qədim şəhərlərindən olan Ərdəbilin Azərbaycanda əsas paytaxt şəhəri olduğunu qeyd edir [2, s.325].

Əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin dövründə (724-743) 730-cu ildə 300 minlik qoşunla Azərbaycana hücum edən Xəzər xaqanının oğlu Barsbəy bir çox şəhər və kəndləri talan etdikdən sonra Ərdəbili də mühasirəyə almışdır. Bu məlumat ərəbdilli mənbələrdə də geniş qeyd olunur: “Xəzərlər Ərdəbilə hücum etdilər. Şəhərin əhalisi bir neçə gün onların hücumlarını dəf etdilər. Sonda heç bir kömək gəlmədiyi üçün şəhəri onlara təslim etdilər. Şəhərə qılınc gücünə daxil olan xəzərlər, müdafiəçiləri qırdılar, arvad-uşaqları əsir edib, şəhəri talan etdilər. Sonra şəhərin nahilərinə yayılan xəzərlər, onları mühasirə edir, əhalini öldürür, evləri yandırır, camaata zülm edirdilər” [9, s.242-243].

731-ci ildə Xilafət qoşunları Ərdəbil daxil olmaqla xəzərlərin ələ keçirdikləri bir çox Azərbaycan şəhərlərini geri qaytardılar. Lakin çox keçmədən Ərdəbil şəhəri və onun ətraf nahiyələri ərəblərə qarşı mübarizə mərkəzinə çevrildi. IX əsrin əvvəllərində isə Ərdəbil Babəkin başçılıq etdiyi xürrəmilər hərakatının fəaliyyət mərkəzinə çevrildiyi üçün Azərbaycan vilayətinin mərkəzi Marağa şəhərinə köçürüldü.

Azərbaycanın bir çox orta əsr şəhərləri kimi Ərdəbilin də Sasanilər dövründə salınması barədə məlumatlar mənbələrdə öz əksini tapmışdır. Ərəbdilli müəlliflərdən olan Yaqut əl-Həməvi Ərdəbil şəhərinin Sasani şahı Firuz (457-484) tərəfindən salındığını və onun şərəfinə Bazani Firuz adlandırıldığını qeyd edir [21, cild I, s.145]. Həmdullah Qəzvini Ərdəbil şəhərinin Sasani hökmdarlarından olan Kəyani Key-Kavus ibn Siyavuş tərəfindən salındığını qeyd edir [25, s.43]. Əl-İstəxri Sacilər dövründə dövlət idarələrinin yerləşdiyi Ərdəbil şəhərinin divarlarla əhatə olunduğunu qeyd edir [7, s.181]. İbn Havqəl Salarilər dövründə şəhər divarlarının əhalinin əli ilə dağıldığını, yerli əhalinin azaldığını, ticarətin zəiflədiyini qeyd edir [12, s.287]. Lakin bütün bunlara baxmayaraq İbn Havqəl şəhərdə çörəyin, ətin, balın, qozun, kiş-

mişin çox ucuz olduğunu xüsusilə qeyd edir [12, s. 288].

X əsr ərəbdilli müəlliflərdən olan əl-Müqəddəsi Ərdəbil şəhərində olsa da "bütün iqlimin baş şəhəri" adlandırdığı bu yerin "keçilməz istehkamı"ndan xəbər verir [8, s.377]. Eyni zamanda əl-Müqəddəsi şəhər əhalisinin məkrli və səhlənkar olduqlarından, məzhəb əhlinə haqq qazandırmadıqlarından şikayətlənir [8, s.378].

XIII əsrin əvvəllərində Azərbaycanda olmuş ərəbdilli müəlliflərdən olan Yaqut əl-Həməvi "Mucəl əl-buldan" əsərində monqolların Ərdəbilə hücumundan bəhs edir. Monqollar Ərdəbili mühasirəyə aldıqları zaman məşhur ərəb tarixçisi və coğrafiyaçısı Yaqut əl-Həməvi şəhəri tərk etmək üzrə idi. Buna görə də Ərdəbil haqqında geniş məlumat vermişdir. Yaqut əl-Həməvi Ərdəbilin monqol hücumu sırasında vəziyyətini belə təsvir etmişdir: "Mən şəhəri tərk etdikdən sonra Tatarlar buraya yaxınlaşıb əhalini qırmağa başladılar. Tatarlarla şəhər xalqı arasında döyüşlər cərəyan etdi; camaat düşmənə qarşı var gücüylə müqavimət edirdi. Hətta onlar şəhərə girmək istəyən Tatarları iki dəfə geri qovdular. Ancaq monqollar şəhərə üçüncü dəfə hücum etdilər. Xalqın isə dayanacaq gücü qalmamışdır. Buna görə Tatarlar güc bəla ilə şəhərə girdilər. Müsəlmanların üzərinə hücum çəkən monqollar bir nəfəri də sağ buraxmayıb hamını doğradılar. Sadəcə, saxlanaraq gizlənənlər öz həyatlarını qurtara bildilər. Tatarlar şəhərdə böyük vəhşiliklər törətdilər və sonra da buranı tərk etdilər. Əhalisi öldürülmüş şəhər viranəyə qalmışdır. Qorxuducu bir mənzərə ortaya çıxmışdır" [21, cild I, s.145-146]. Yaqut əl-Həməvinin verdiyi məlumatlardan məlum olur ki, şəhəri ələ keçirən monqollar demək olar ki, Ərdəbili viran etmişlər.

Ərəbdilli müəlliflərdən olan əl-Yəqubi "Kitab əl-buldan" əsərində Azərbaycan haqqında bəhs edərkən Ərdəbil şəhərini də qeyd edir: "Azərbaycana getmək istəyən, Zəncandan çıxaraq, 4 mərhələ Ərdəbil şəhərinə gedir. Bu onun ilk qarşılaşdığı Azərbaycan şəhərlərindəndir. Ərdəbildən Azərbaycan mahallarından olan Bərzəndə 3 günlük yoldur. Bərzənddən Azərbaycan mahallarından olan Varsana, Varsandan əl-Beyləqana, əl-Beyləqandan Marağaya gedirsən bu, Yuxarı Azərbaycanın şəhəridir. Azərbaycan mahallarından Ərdəbil, Bərzənd, Varsan, Bərdə, Şiz, Sərat, Mərənd, Təbriz, Məyanic, Urmiya, Xuveyy və Salmas" şəhərləri qeyd olunur [22, s.47].

Orta əsr ərəbdilli müəlliflərdən olan Əbul Fərəc Qudama ibn Cəfər "Kitab əl-xərac və sanət əl-kitabə" əsərində Azərbaycana aid olan şəhərlər sırasında Ərdəbil şəhərinin də adını qeyd etməklə yanaşı Azərbaycandan əldə edilən gəlirin 4 milyon 500 min dirhəm olduğunu göstərir [14, s.174].

Əl-Məsudi Azərbaycanın Ərdəbil nahiyəsindən dənizə 3 günlük yol olduğunu qeyd edir [15, cild I, s.142].

X əsr alimlərindən olan Əbu Duləf Misar "ər-Risalətul-uxra" əsərində Azərbaycan şəhərlərindən olan Ərdəbil haqqında da məlumat verir: "Sonra Ərdəbilə yola düşdüm. Mən əl-Vayzur, Qaban, Xaçin, ər-Rub, Həndan və əl-Bəzzeyn dağlarından keçdim. Orada bu yerin adı ilə adlanan kvars mədəni vardır. Bu Yəmən kvarsı adı ilə məşhur olan qırmızı kvarsdır. Ondan Yəmənə və Vasitə aparırlar. Vasitdə yun yalnız onunla boyanır. Bu Misir kvarsından daha davamlıdır. Əl-Bəzzeyn, Ərdəbil və yuxarıda qeyd olunan dağlarda qotur xəstəliyini müalicə edən isti su bulaqları vardır [18, s.265].

X əsrin 80-ci illərinə aid edilən "Hüdud əl-aləm" əsərində Azərbaycan şəhərləri, məşhur qəsəbələr və bəzi qalalar o cümlədən Ərdəbil şəhəri haqqında məlumat verilir [11, s.164-169].

"Hüdud əl-aləm"də Bərdə və Marağanın böyük [11, s.164, 167], Ərdəbil, Beyləqan, Təbriz, Naxçıvan, Şəki, Şabran, Girdman, Gəncə, Şəmkür, Xuveyy və Salmasın abad, xürrəm və nemətli şəhər olduğu qeyd edilir [11, s.164, 166, 167, 168, 169].

Adı çəkilən əsərdə Ərdəbil şəhəri haqqında belə qeyd olunur: "Ərdəbil Azərbaycanda böyük bir şəhərdir, ətrafı hasardır, o vaxt möhkəm və çox möhtəşəm bir şəhər imiş, indi isə məhsulu azdır. Azərbaycan hakimlərinin qərargahıdır. Oradan zol-zol və rəngli paltar da ixrac edilir [11, s.164].

Ərəbdilli müəlliflərdən olan İbn Xordadbeh Azərbaycan şəhərlərini və Azərbaycan vilayətlərində meydana gələn hökmdarlıqları qeyd edərək yazır ki, Marağa, Məyanic, Ərdəbil, Varsan, Sisər, Bərzə, Saburxast və Təbriz Mə-

həmməd ibn ər-Rəvvad əl-Əzdinin hakimiyyəti altında idi [13, s.119; 4, s.319].

X əsr alimlərindən olan əl-İstəxri "Kitab məsalik əl-məmalik" adlı əsərində Azərbaycan şəhərlərindən olan Ərdəbil haqqında bunları qeyd edir: "Azərbaycana gəlincə, onun ən böyük şəhəri Ərdəbildir. Əsgəri düşərgə və hökmdarın sarayı buradadır. Bu şəhərin üçdə iki fərsəx eni, bir o qədər də uzunu var. Ətrafındakı divarın üç darvazası var. Binalarının çoxu palçıqdandır. Məhsulu bol, qiymətləri ucuz şəhərdir. Onun rustaq və mahalları vardır. Təqribən iki fərsəxliyində olan dağ Sabalan adlanır; əzəmətli və ucadır. Nə qışda, nə də yayda qarı əskik olmur. Dağda yaşayış yoxdur. Ərdəbildən sonra böyüklükdə Marağa gəlir" [7, s.181].

Azərbaycan, Ərməniyə və ər-Ran vilayətlərinin məsafələrinə toxunan əl-İstəxri Bərdədən Ərdəbilə olan məsafəni belə qeyd edir: Bərdədən Yunana 7 fərsəx, Yunandan Beyləqana 7 fərsəx, Beyləqandan Varsana 7 fərsəx, Varsan Bəlxaba 7 fərsəx, Bəlxabdan Bərzəndə 7 fərsəxə, Bərzənddən Ərdəbilə 15 fərsəxdir [7, s.192]. Ərdəbildən Zəncana olan yol: Ərdəbildən Səfidrud körpüsünədək 2 mərhələ, körpüdən Sərata bir gün, Səratdan Nüveyə 1 gün, Nüveydən Zəncana 1 gündür [7, s.194]. Ərdəbildən Marağaya olan yol: Ərdəbildən Məyanicə 20 fərsəx, Məyanicdən Xunaca 7 fərsəx, Xunəcdən Kulsurəyə 3 fərsəx, Kulsurədən Marağaya 10 fərsəxdir [7, s.194].

Ərdəbildən Amidə olan yol: Ərdəbildən əl-Marağaya 40 fərsəx, Marağadan Dəxarrəqana 2 mərhələdir, oradan Urmiyaya 2 mərhələ, Urmiyadan Salmasa 2 mərhələ, Salmasdan Xuveyyə 7 fərxəs, Xuveyyədən Bərkəriyə 30 fərsəx, Bərkəridən Ərcişə 1 gün, Ərcişdən Xilata 3 gün, Xilatdan Bədlisə 1 gün, Bədlisdən Məyyafariqinə 3 gün, Məyyafariqindən Amidə 2 gündür [7, s.194].

X əsr ərəbdilli müəlliflərdən olan İbn Havqəl "Kitab surət əl-ard" əsərində Azərbaycan və onun şəhərləri haqqında geniş məlumat verir. Adı çəkilən əsərində İbn Havqəl Azərbaycan şəhərlərindən olan Ərdəbil haqqında daha geniş məlumat verir: "Bu nahiyələrin ən mükəmməli Azərbaycandır. Onun ən böyük və ən mühüm şəhəri Ərdəbildir. Bizim vaxtımızda (söhbət İbn Havqəlin Ərdəbildə olduğu zamandan yəni X əsrin ortalarından gedir Ş.Ş) şəhərin vəziyyəti ağırlaşıb, çünki orada hərbi düşərgə, əmirlərin sarayı və divanlar yerləşir. Bu şəhərin amallarının ərazisi 30 fərsəxdir. Tikililərin əksəriyyəti palçıq və bişmiş kərpicdən. Onun ətrafında möhkəm divarlar idi. 31-ci ildə (söhbət hicri 331-ci ildən gedir. Bu da miladi 942-ci ilə təsadüf edir) şəhər əhalisini Deysəm ibn Şazluyəni müdafiə etməkdə təqsirləndirən əl-Mərzban ibn Məhəmməd ibn Müsafir əs-Sallar onları dağıtdırdı. O, bu işi onlarla kəsdiyi şərtə görə etmiş, həmin şərt ona divarları dağıtmaq imkanı vermişdi. Həmin divarları şəhərin tacirlərinin və sahibkarlarının əlləri ilə dağıtdırdı. Öz ölkələrində geniş mövqe tutan bu nüfuzlu insanlar buraya kətan və ya ətir və ya başqa bir şeyin satışının sövdəsini həyata keçirdikləri zaman geydikləri ən yaxşı paltarda gəlir, külünc götürür və divarı dağıdırdılar. Bu mövqedə olan başqa tacirlər də onların dağıtdıqları divarın palçıq və daşlarını öz əbalarında, örtüklərində və ya paltarlarında daşıyırdılar. Çox hallarda daş-kəsəyi daşımaq üçün kimlərsə özlərinin əl-mərvi və əl-münəyyir (ipək parça növləri) tikilmiş, bərbəzəkli, bir-birlərinə tərifədikləri ən yaxşı başqa libaslarını geyinir, divarı tamam sökərək, izini belə yox edirdilər. Sonra Mərzban onları dilənçi kökünə salaraq, mallarını əllərindən aldı, onlara olan tələblərini daha da artırdı, bundan sonra da başqa ölkələrə dərbədər saldı. Onları dağlara, biyabanlara qovdu. Çünki onlar avaralıq və ara qarışdırmaqla məşğul olurdular. Onların dələduzluğa olan meyilləri o yerə çatmışdı ki, hakimiyyətə əhəmiyyət vermir, şeytanı tutur, bəlaya və qiyama qurşanırdılar. Səyahət edənlərin malları onlar tərəfindən çapıb talanır, nemətləri qarət olunur, qanları qisası alınmadan axıdılırdı. Nəhayət, başqa bir adam mənə xəbər verdi ki, o, bir qəssabdan ona qoyun ətinin xoşuna gələn yerindən verməsini xahiş etdi. Həmin adam ona verilən hər şeyi götürdükdə, qəssab müştərinin üst paltarından bir parça qoparmış və ətlə birlikdə tərəzinin gözünə qoymuşdur, başqa bir parçanı o, Allahın qəzəbinə rəğmən hiddət və kobudluqla onun paltarının qolundan, digərini isə yaylığından qopartmışdı.

Allahın səbir və mülayim rəftarından sonra, nəhayət onların üzərində qələbə bəxş etdi. Bizim vaxtımızda həmin yer əhalisinin azlığına, karvan ticarətinin çoxluğuna görə əvvəllərlə müqayisədə korlanmışdır.

Bu şəhər bol məhsulludur, qiymətləri ucuzdur. Rustaq və dairələri çox gözəldir. Onun dağına qalxmaq və düşmək 3 fərsəxə yaxındır. Adına Sabalan deyirlər, əzəmətlidir, hündürdür, çıxıntısı qərb tərəfdən şəhərin üstündən yüksəlir. Nə yayda, nə də qışda üstündəki qarlar ərimir. Bu şəhərin axar çayları, şirin sulu quyuları vardır. Əksər vaxtlarda oranın çörəyinin 50 kömbəsi 1 dirhəmdir. Ətinin 1 mann yarımı 1 dirhəmdir. Bal, yağ, qoz, kişmiş və bütün yeməli şeylər o qədər ucuzdur ki, sanki havayıdır. Öz ucuzluğu ilə şöhrət tapmış çox ölkələr, burada olan şeylərin təzəliyinə görə ondan geri qalır" [12, s.287-288].

Arrandakı şəhərlər haqqında məlumatların təqdimatına Bab əl-Əbvabdan başlayan İbn Havqəl Arrandan əslində, Azərbaycan tərkibində olan bir vilayət kimi bəhs edir və onun Dərbənddən Araz çayınadək olan əraziləri əhatə etdiyini göstərir. Arranın şəhərlərini ardıcıllıqla təqdim edən müəllif əvvəlcə, şimaldan qərbə doğru Lahican, Qibsi, Qəbələ, Şəki və Tiflis şəhərlərini qeyd edir. Daha sonra isə əsərdə Dərbənd-Bərdə yolu üzərində yerləşən Şabran, Şamaxı, Bərdic, Bərdə şəhərlərindən bəhs olunur. İbn Havqəl Bərdədən Tiflisə qədər uzanan yolun üzərində Gəncə, Şəmkir, Xunan, əl-Qələ şəhərlərinin olduğunu göstərir. Ər-Ras çayı (Araz çayı) üzərində Varsan şəhərinin yerləşdiyini qeyd edən müəllif daha sonra Bərdədən Ərdəbilə uzanan yol üzərində Bərzənd şəhərinin olduğunu göstərir. İbn Havqəl yalnız bundan sonra Araz çayından cənubdakı Azərbaycan şəhərlərinin təsvirinə başlayır. Ərdəbildən Dəbilə uzanan yolun üzərində Meymənd, Əhər, Ruzqan şəhərlərinin yerləşdiyini yazan müəllif Ərdəbildən Bidlisə istiqamətlənən yol üzərində olan daha çox şəhərdən bəhs edir. Sərah, Marağa, Daxerqan, Təbriz, Səlmas, Xoy, Bərkəri, Mərənd, Miyanə, Cəbravan, Xunəc şəhərləri də İbn Havqəlin xəritəsində öz əksini tapmışdır [1, cild 39, s.10-31].

Azərbaycan şəhərləri və onun ətrafındakı kəndlərdən bəhs edən İbn Havqəl əkin sahələrinin geniş yayıldığını və müxtəlif dənli məhsullar becərildiyini göstərir. Həmin taxıl məhsullarının emalından bəhs edən müəllif dəyirmanlar haqqında da məlumat verir. Ümumiyyətlə, müəlifin verdiyi məlumatlara əsasən iqlimdə və ətraf ərazilərdə üç növ dəyirmanlarından istifadə olunmuşdur [1, cild 39, s.10-31].

Azərbaycan şəhərləri arasında olan məsafələrdən bəhs edən İbn Havqəl belə yazır: Ərdəbildən Marağaya təqribən 40 fərsəx, Marağadan Urmiyaya təqribən 30 fərsəx, Urmiyadan Səlmasa 2 mənzil, Səlmasdan Xuveyə 9 fərsəx, Xuveydən Bərkəriyə 30 fərsəx, Bərkəridən Ərcişə 2 mənzil, Ərcişdən Xilata 3 gün, Xilatdan Bidlisə 3 gün, Bidlisdən Arzan yolu ilə Meyafariqinə 4 gün, Meyafariqindən Amidə 2 günlük yoldur [12, s.302; 3, s.212].

Orta əsr ərəbdilli müəlliflərdən olan əl-Müqəddəsi "Əhsən ət-təqasim" əsərində Azərbaycan, Ərməniyə və ər-Ran haqqında geniş məlumat verir. Bu vilayətlərin şəhərləri haqqında məlumat verən əl-Müqəddəsi Ərdəbil şəhəri haqqında da məlumat vermişdir: "Ərdəbil, Azərbaycanın paytaxtı və bütün iqlimin əsas şəhəridir. Onun keçilməz istehkamı var. Ərdəbil Dəbildən kiçikdir. Bazarları dörd yolun ayırıcındadır. Came xaçın ortasındakı hündür yerdə, istehkamın arxasındadır. Rabadın sıx əhalisi var. İşığın düşməsi üçün çoxlu pəncərələri olan binalarının əksəriyyəti palçıqdandır. Meyvələri, axar suları olan arxları vardır, daimi qoşun buradadır. Nemətləri çoxdur. Hamamları yaxşıdır. Lakin sakinləri simic, xoşagəlməzdir, alimləri azdır. Şəhər natəmizdir, üfunətlidir, dünyanın ən çirkin yerlərindəndir. Əhalisi məkirli və səhlənkardır. İşin qiymətini vermirlər. Məzhəb əhlinə haqq qazandırmırlar. Öyüdverən fəqih, tanınmış başçı, bilikli hakim, qabil həkim yoxdur." [8, s.377-378].

Bu vilayətin möcüzələrindən bəhs edən əl-Müqəddəsi Ərdəbil haqqında bunları qeyd edir: "Ərdəbilin came məscidində böyük bir daş var. Çəkiclə vurduqda, üstündə yeri qalmır. O şəhərdən bir qədər məsafədə, göydən düşmüşdür. Sonra onu cameyə gətirmişdilər. Mən Zərif əl-Xadimdən eşitmişəm, o deyir: "Biz Ərdəbilin yaxınlığından keçdikdə çox böyük qalxana bənzər bir şey göydən endi. Yerə düşdükdə daş olduğu bilindi. Ola bilsin ki, bu elə həmin o daş idi. Bunu cilalamaq üçün boyaqçıların işlətdikləri alətin hər iki tərəfi nazikləşmiş idi" [8, s.380]. Əl-Müqəddəsi Azərbaycan şəhərlərindən bəhs edərkən Rüsbə, Təbriz, Cəbrəvan, Miyanic, Sərat, Varsan, Muğan, Miməz və Bər-

zənd kimi şəhərlərin Ərdəbilə tabe olduğunu qeyd edir [8, s.375].

XI-XII əsrin alimlərindən olan Əbu Hamid əl-Əndəlusi əl-Ğərnati "Tuhfət əl-əlbab" əsərində Ərdəbil haqqında belə yazır: "Ərdəbilin meydanında bir qara daş gördüm. Onun səsi polad səsi verirdi. Özü qurğuşun qalayı kimi, inəyin böyrəyi şəklində idi. Çəkisi 200 manndan çoxdur. Daşın bir xüsusiyyəti var. Yağış yağmadıqda onu arabaya qoyub, Ərdəbil şəhərinə gətirirlər. Yağış yağmağa başlayır. Daşı meydana gətirənə qədər yağış yağmaqda davam edir, apardıqda yağış ara verir. Bu isə dünya möcüzələrindəndir. Doğrusunu Allah bilir" [6, s.82; 5, s.325].

Azərbaycan, onun kəndləri və şəhərləri haqqında məlumat verən, XIII əsr alimlərindən biri də Zəkəriyyə ibn Məhəmməd əl-Qəzvinidir. Müəllif "Əsar əl-biləd və əxbar əl-ibad" adlı əsərində Azərbaycan şəhərlərindən olan Ərdəbil haqqında da geniş məlumat vermişdir. Ərdəbil şəhərindən bəhs edən alim bunları qeyd edir: "Ərdəbil Azərbaycanda möhkəmləndirilmiş, məhsuldar torpaqlı, dadlı suyu və xoş iqlimi olan şəhərdir. Şəhərdə və ondan kənarda çoxlu çaylar olsa da, bununla belə, burada meyvə ağacları yoxdur. Şəhər hər tərəfdən dağlarla əhatə olunmuş açıq ərazidə yerləşir. Dağlarla şəhər arasında olan məsafə bir günlük mərhələyə bərabərdir. Bu şəhərin əsasını Sasani şahı Firuz qoyub. Şəhər dənizdən iki günlük yoldadır, şəhərlə dəniz arasındakı qalın meşəlik olan çökək yerdə möhkəm oduncaqlı əl-xələnc ağaclarını doğrayır, ondan boşqab və kasa hazırlayırlar. Şəhərdə qablar düzəldən çoxlu sənətkar vardır [23, s.193].

Ərdəbil şəhərinin möcüzələrindən bəhs edən alim, demək olar ki, əl-Ğərnatinin qeyd etdiklərini təkrar edir: "Əbu Həmid əl-Əndəlusi belə deyir: "Mən şəhərdən kənarda, meydanda böyük bir daş gördüm, elə bil ki, dəmirdən düzəldilmişdi. Çəkisi 200 ratldan çox idi. Əgər şəhərlilərə yağış lazım olardısa, onlar həmin daşı arabaya yükləyib şəhərə gətirirdilər, nə qədər ki, daş şəhərdə olurdu – yağış yağırdı. Daşı şəhərdən apardıqda yağış dayanırdı [23, s.193].

Zəkəriyyə əl-Qəzvini Ərdəbil şəhərindən bəhs edərkən əhalinin həddən artıq yeməyə meyilli olduqlarını da qeyd edir: "Ərdəbillilər özlərinin çoxyemələri ilə məşhurdurlar. Bir tacir danışırdı: Mən Ərdəbildə gördüm ki, bir adam oturub, qabağında dəf, surnay çalırlar. Səbəbini soruşanda, dedilər ki, indi bu adam 9 ratl düyü və öküz başı yeyəcək. O, bütün bunların hamısını yedi. Ərdəbil ratlı 1040 dirhəmə bərabərdir. Onların düyüsü bişəndə üç dəfə artır [23, s.193-194].

Nəticə olaraq qeyd edə bilərik ki, erkən ərəbdilli mənbələrin öyrənilməsi bir daha təsdiq edir ki, Azərbaycanın ən böyük orta əsr və paytaxt şəhərlərindən biri də Ərdəbil şəhəri olmuşdur. İqtisadi, ictimai, siyasi, mədəni və təsərrüfat baxımından digər şəhərlərdən geri qalmayan Ərdəbil, erkən orta əsrlərdə Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Bunları nəzərə alan ərəbdilli müəlliflər hərbi düşərgə, xəzinə və hökumət idarələrinin Ərdəbildə yerləşdiyini qeyd edirlər.

Digər şəhərlər kimi Ərdəbil şəhəri də yerli feodallar və gəlmə ərəblər tərəfindən idarə edilirdi. Feodalların bəziləri əldə etdikləri gəlirləri sələmə verərək böyük gəlir toplayırdılar. Feodalların torpağında yaşayan və torpağı becərən kəndlilərdən torpaq vergisini mübaşirlər (feodal nümayəndələri) toplayırdılar.

Beləliklə, ərəbdilli mənbələr Azərbaycan tarixinin və onun şəhərlərinin öyrənilməsi üçün ən mühüm mənbələrdən hesab olunur. Gələcəkdə ərəbdilli mənbələrin araşdırılması Azərbaycan və onun şəhərləri haqqında yeni faktların meydana çıxmasına və bununla da Azərbaycan tarixinin daha da dərindən öyrənilməsinə imkan verə bilər.

**Ədəbiyyat siyahısı**

**1.** Ağayev R.Ə. İbn Havqəlin "Kitab surət əl-Ard" əsəri Azərbaycan haqqında" / Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Elmi Əsərlər, Turxan NPB, Bakı: 2011, cild 39, s.10-31.

**2.** Bəlazuri. Əhməd ibn Yəhya. Fütuhul-buldan. Mətbəati-Biril, Leyden: 1866, 681 s.

**3.** Bəlazuri. Əhməd ibn Yəhya. Fütuhul-buldan. Dərul-kutubul-ilmiyyə, Beyrut: 1987, 777 s.

**4.** Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989, 334 s.

**5.** Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 454 s.

**6.** Əbu Hamid əl-Əndəlusi əl-Ğərnati. Tuhfət əl-əlbab. Dərul-məarif, Beyrut: 1983, 764 s.

**7.** Əl-İstəxri. Əbi İshaq İbrahim ibn Məhəmməd. Kitab məsalik əl-məmalik. Bimətbəa Biril, Leyden: 1870, 357 s.

**8.** Əl-Müqəddəsi. Şəmsəddin Əbi Abdullah Məhəmməd ibn Əhmədş Əhsənət-təqasim fi mərifətil-əqalim. Məktəbəti mədbuli, Qahirə: 1991, 505 s.

**9.** Əsəm əl-Kufi. Kitab əl-Fütuh. cuz-us-səbiu vəs-səminu. Dərul-ədvau, Beyrut: Lübnan. h.1411/ m.1991, 460 s.

**10.**Həmdullah Qəzvini. Nuzhət əl-qulub (trc. G. Le Strange), Biril, London: 1919, 338 s.

**11.**Hüdud əl-Aləm min əl-məşriqi iləl-məğrib. Əd-dərus-səqafiyyəti lin-naşri, Qahirə: 2002, 258 s.

**12.** İbn Havqəl. Əbil Qasim. Surət əl-arz. Dərus-sadr, Beyrut, Lübnan: 1992, 439 s.

**13.** İbn Xordadbeh. Əbil Qasim Ubeydullah ibn Abdullah. Əl-məsalik vəl-məmalik. Bimətbəati Biril, Leyden: 1889, 340 s.

**14.** Qudamə ibn Cəfər. Kitab əl-xərac. Dərur-raşid, Bağdad: 1981, 632 s.

**15.** Məsudi. Əbil Həsən ibn Əli. Muruc əz-zəhəb. Əl-məktəbətul-asriyyəti, Beyrut: 2005, 296 s.

**16.**Şərifli M.X. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətlləri. Turxan NPB, Bakı: 2015, 458 s.

**17.** Təbəri. Məhəmməd ibn Cərir. Tarixul uməm vəl-muluk. Dərul-məarif, Qahirə: 1970, 584 s.

**18.**Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə, Elm və təhsil, Bakı: 2016, 480 s.

**19.**Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 220 s.

**20.**Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.

**21.** Yaqut əl-Həməvi. Mucəm əl-buldan. Dərus-sadr, Beyrut: 1977, 540 s.

**22.** Yəqubi. Əhməd ibn Yəqub ibn Cəfər. Kitab əl-buldan. Bimətbəa Bəril, Leyden: 1860, 168 s.

**23.** Zəkəriyyə ibn Məhəmməd əl-Qəzvini. Əsar əl-biləd və əxbar əl-ibad. Əl-mustafa, Leyden: 1848, 427 s.

**24.**Ашурбейли С. Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Элм, 1983, 344 с.

**25.**Хамдаллах ибн Абу Бекр Мостоуфи Казвини. Нузхат ал-кулуб. / Пер. З.М. Буниятова и И.П.Петрушевского. Баку: Элм, 1983, 37-65 s.

## Резюме

**Шахлар Шарифов**

### Раннесредневековая история азербайджанского города Ардебиль в арабских источниках

Обширная информация об Ардебиле, одном из древних и столичных городов Азербайджана, упоминается в исторических источниках. Арабские походы середины VII века широко известны в арабских источниках. Эта информация также включает информацию о городе Ардебиль, одном из древних и столичных городов Азербайджана, расположенном к востоку от горы Савалан.

До арабской оккупации столицей Южного Азербайджана был Ардебиль. Изначально арабы поддерживали статус политического и административного центра города, и даже аль-Ашас ибн Кайс, который был назначен правителем Азербайджана при халифе Али (656-661), заселил арабов, живущих в Ардебиле, улучшил город. и построил там мечеть. В период Омейядов (661-750) арабы основали военные и административные центры в Ардебиле.

С началом арабо-каспийских войн Ардебиль и его окрестности стали полем напряженных сражений, что привело к перемещению столицы в восстановленную Марагу во время правления Марвана ибн Мухаммада (732-744). До конца девятого века, когда Юсуф ибн Абу-с-Садж сделал Ардебиль своей столицей, это место стало столицей провинции.

***Ключевые слова:*** *Азербайджан, Армения, Ар-Ран, Худхайфа ибн Яман, Исфандияр ибн Фаррухзад, Ардебиль.*

**Summary**

**Shahlar Sharifov**

**Early medieval history of Ardabil city of Azerbaijan in Arabic sources**

Extensive information about Ardabil, one of the ancient and capital cities of Azerbaijan, is mentioned in historical sources. The Arab marches that took place in the middle of the 7th century are widely reported in Arabic sources. This information also includes information about the city of Ardabil, one of the ancient and capital cities of Azerbaijan, located on the east of Mount Savalan.

Prior to the Arab occupation, the capital of South Azerbaijan was Ardabil. Initially, the Arabs maintained the status of the city as a political and administrative center, and even al-Ashas ibn Qays, who was appointed ruler of Azerbaijan during the caliph Ali (656-661), settled the Arabs living in Ardabil, improved the city and built a mosque there. During the Umayyad period (661-750), the Arabs established military and administrative centers in Ardabil.

With the outbreak of the Arab-Caspian wars, Ardabil and its environs became a tense battlefield, which led to the relocation of the capital to the restored Maragha during the reign of Marwan ibn Muhammad (732-744). Until the end of the ninth century, when Yusuf ibn Abu-s-Saj made Ardabil the capital, this place became the capital of the province.

***Keywords:*** *Azerbaijan, Armenia, Ar-Ran, Hudhayfah ibn Yaman, Isfandiyar ibn Farrukhzad, Ardabil.*

**UOT 94(479.24)**

**TAMAM CƏFƏROVA**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*tjafarova59@mail.ru, Azərbaycan*

# ŞİMALİ AZƏRBAYCANDA QADIN HƏRƏKATININ YARANMASI VƏ İNKİŞAFI TARİXİNƏ DAİR (XIX əsrin ortaları-XX əsrin 80-ci illəri)

***Açar sözlər:*** *ilk qadın məktəbləri, "İşıq" qəzeti, qadın azadlığı uğrunda hərəkat, Bakı Müsəlman qadın xeyriyyə cəmiyyəti, Xədicə Əlibəyova, Hənifə Məlikova, Azərbaycan qadınlarının I qurultayı, qadın şöbələri, Ayna Sultanova, qadın şuraları, Ziba Qəniyeva, Şamama Həsənova, Tahirə Tahirova, Elmira Qafarova*

***Giriş:*** *XIX əsrin ortaları-XX əsrin 80-ci illəri Azərbaycan tarixində milli oyanışın, demokratik fikir düşüncəsinin yaranması, formalaşması və inkişaf etdiyi bir dövrdür. Bu prosesin tərkib hissəsini Şimali Azərbaycanda qadın hərəkatının yaranması və inkişafı məsələsi təşkil edir. Şimali Azərbaycanda qadın hərəkatı həm də milli azadlıq hərəkatının aparıcı bir hissəsi olub dövlət müstəqilliyinin bərpa edilməsində mühüm rol oynamışdır. Problemin tədqiqi bu gün milli tarixşünaslıq üçün siyasi və elmi əhəmiyyət kəsb edir.*

Azərbaycan qadınlarının müstəqillik dövrünə qədər ictimai-siyasi həyata transformasiyasını öz vüsəti, əsas istiqamətləri, məzmunu və ictimai-siyasi əhatəliliyinə görə aşağıdakı tarixi mərhələlərə ayırmaq olar: 1) 1828-1875-ci illər; 2) 1875-ci il – XX əsrin əvvəllərinə qədər olan dövr; 3) 1905-1907-ci illərdən – 1918-ci ilin may ayına qədər olan dövr; 4) Azərbaycan Xalq Cümhuriyyəti dövrü (28 may, 1918 - 27 aprel, 1920-ci il); 5) Azərbaycan SSR dövrü (1920-1991-ci illər). Azərbaycanda qadın hərəkatı xeyriyyəçilik və maarifçilik fəaliyyətindən başlamış, siyasi təşkilatlara daxil olması kimi və sonrakı inkişaf mərhələlərində parlamentdə və dövlət idarəçiliyində yüksək mövqe tutmaq statusuna qədər ictimai-siyasi fəallığın mürəkkəb təşəkkül yolunu keçmişdir. Bu tarixi inkişaf yolu öz xüsusiyyətləri, forması və məzmunu, humanistliyi və təbiiliyi ilə fərqlənir.

Rusiya imperiyasının tərkibində qatılmış Şimali Azərbaycanda maarifçilik hərəkatının genişlənməsi nəticəsində Avropada və Rusiyada yüksək təhsil alan ziyalı qadınlarının ilk nümayəndələri bu hərəkata həvəslə qoşuldular. Azərbaycanda qadın azadlığı uğrunda hərəkatın ön sıralarında ilk olaraq imtiyazlı sinfin nümayəndələri olan qadınlar çıxmışlar [35, s.12-13].

XIX yüzilliyin 50-70-ci illərində Tiflisdə yerləşən "Müqəddəs Nina" cəmiyyətinin Şamaxı, Bakı, Gəncə və İrəvan şöbələrinin tərkibində azərbaycanlı qadınlar da fəallıq göstərirdilər. Cəmiyyətin Şamaxı şöbəsinin üzvlərindən Fatma Əsədbəyova, Xədicə Haqverdiyeva, Gövhər Qutqaşinskaya, Balaxanım Xandəmirova kimi maarifçi qadınlar XIX əsr rus və Avropa mədəniyyəti ilə yaxından tanış idilər. 1850-ci ildə Şamaxıda, 1864-cü ildə Dərbənddə, 1872-ci ildə Zaqatalada, 1873-cü ildə isə Şuşada qız məktəbləri, 1874-cü ildə Bakıda ilk qadın gimnaziyası fəaliyyətə başlamışdı. 1865-ci ildə Cəmiyyətin Bakı şöbəsində çalışan azərbaycanlı qadınların sayı 17 nəfər, İrəvan quberniyasında "Müqəddəs Ripsime" cəmiyyəti qızlar üçün məktəbdə təhsil alan 65 qızdan 42 nəfəri azərbaycanlı idi [31, s.181].

Azərbaycanda qadın hərəkatının təşəkkül tapmasının ikinci mərhələsi XIX əsrin son rübünə təsadüf edir. Həmim dövrdə siyasi, iqtisadi və mədəni sahədə baş verən dəyişikliklər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan vermişdir. Bu dövrdə Azərbaycanın kübar qadınlarının ictimai fəaliyyəti haqqında məlumatlardan belə məlum olur ki, xeyriyyə cəmiyyətlərinin fəal üzvləri olan qadınlar maarifçiliyin yayılmasında, yoxsul uşaqların təhsil almasında çox böyük rol oy-

namışlar. İlk qadın məktəblərinin, qadın yığıncaqlarının və xeyriyyə cəmiyyətlərinin yaradılması vasitəsilə digər qadınlar da bu fəaliyyətə cəlb edilirdi. 1896-1901-ci illərdə Hacı Zeynalabdin Tağıyevin maliyyə vəsaiti hesabına tikilən ilk qadın Rus-Müsəlman Pedaqoji Məktəbi 9 oktyabr 1901-ci il tarixdən H.Z. Tağıyevin həyat yoldaşı Sona xanımın rəhbərliyi altında fəaliyyətə başlamışdır [14, s.13].

Azərbaycan qadınlarının ictimai oyanışının üçüncü mərhələsi Rusiyada mühüm ictimai təlatümlərə gətirib çıxaran 1905-1907-ci illər inqilabından başlanır və 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə başa çatır. Bu illərin ictimai-siyasi hadisələri Azərbaycan qadınlarının həyatında çox böyük rol oynamış, onun ictimai-siyasi şüurunun inkişafına ciddi təsir göstərmişdir. 1908-ci ildə Bakıda ilk qadın xeyriyyə cəmiyyətinin yaradılmasının təşəbbüsçüşü Azərbaycanın ictimai xadimi Həsən bəy Zərdabinin xanımı Hənifə Məlikova olmuşdur. Cəmiyyət "Nicat" xeyriyyə cəmiyyətinin qadın şöbəsi kimi yaradılmış, daha sonra müstəqil nizamnaməsi olan "Bakı xanımlarının ilk xeyriyyə təşkilatı"na çevrilmişdir. Gəncə, Şəki, Lənkəran, Şuşa, Zaqatala, Dərbənd, İrəvan və Tiflisdə qadın xeyriyyə cəmiyyətlərinin qadınların ictimai fəallığının artmasında böyük rolu olur [20, s.132]. Fəal qadınlardan Rəhilə Hacıbababəyova, Məryəm Sulkeviç, Nabat Nərimanova, Şəhrəbanu Şabanova, Səkinə Axundzadə, Şəfiqə Əfəndizadə, Xədicə Əlibəyova, Məryəm Qembitskaya, Həmidə Cavanşir-Məmmədquluzadə ilə yanaşı "Nicat", "Şəfa", "Səadət", "Cəmiyyət" kimi maarifçi cəmiyyətlərinin daxilində ictimai fəallıq göstərən qadınların sayının artması müşahidə olunurdu [10, s.58].

Xeyriyyəçiilk təşkilatlarının fəaliyyəti ilə toplanan vəsaitlər kimsəsiz və yoxsul uşaqların təlim və təhsilinə sərf olunurdu. 1906-cı ildə Gəncədə ilk dəfə olaraq Müsəlman Qadın Komitəsi qadınlar arasında xeyriyyə marafonu keçirilmişdi [25, s.54-57]. 1910-cu ildə Tiflisdə Gövhərxanım Qacarın sədrliyi ilə Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti yaradılır. 1912-ci ildə H.Z.Tağıyevin açdığı rus-müsəlman qız ilk məzunlarından olan Nazlı Tahirova Naxçıvanda qızlar məktəbində müəllim, sonra pedaqoji məktəbin müdiri təyin edilmişdi [13, s. 13]. 1911-ci ildə ictimai fəallığı ilə seçilən Xədicə Əlibəyovanın redaktorluğu ilə çıxan "İşıq" qəzetinin əsas ideyasını qadınların hüquqlarının qorunmasına bütün ziyalı vətəndaşları səfərbər etmək idi. Qəzetin müəllifləri qadın savadsızlığı və hüquqsuzluğunu ön plana çəkməklə bu hüquqlar uğrunda gələcək mübarizəyə hazır olduqlarını bildirirdilər. Qəzetin fəal müxbirləri qadınların seçki hüquqları uğrunda mübarizə aparmaqla (Həlimə Axundova), qadın birliklərinin (Münəvvər Əlixanova) və qadın vətənpərvərlik təşkilatlarının (Həyatxanım Çayqırağlı) yaradılmasında fərqlənirdilər [20, s.162-163]. Maarifpərvər qadınlarından Sona Tağıyeva, Rəhilə Hacıbababəyova, Mədinə Qiyasbəyli, Fatma xanım və Liza Muxtarova, Səltənət və Nigar xanım Qayibovalar, Əminə xanım Batrişina xeyriyyə cəmiyyətlərinin imkanlarından yararlanaraq qadın hüquqları uğrunda fəal mübarizə aparırdılar [30, s.50]. 1913-cü ildə H.Z. Tağıyevin müsəlman qızlar üçün açdığı ibtidai məktəbin müəllimlər seminariyasına çevrilməsinin ardınca Tiflisdə, Dərbənd, Lənkəran, Naxçıvan və İrəvanda da məktəblər açıldı. Balaxanıda (İqlimə Əliyeva) Qazaxda (Mədinə Qiyasbəyli) seminariyalar açılmışdı [31, s.181]. İctimai-siyasi, ədəbi, fəlsəfi dərgi olan "Şəlalə" jurnalında qadın mövzusu əsas yer tuturdu. Jurnalın ilk nömrəsi Bakıda 19 yanvar 1913-cü ildə "Kaspi" mətbəəsində, son nömrəsi isə 1914-cü ildə nəşr edilmişdi. Jurnalın işıq üzü görən 56 sayında qadın azadlığı, yeni nəslin tərbiyəsi, ana dilinin qorunması kimi məsələlər jurnalın səhifələrində yer tutmuş müzakirələrin əsas obyektinə çevrilmişdi [1, s.103].

1914-cü il noyabrın 21-də Liza Muxtarovanın (neft sənayeçisi Murtuza Muxtarovun həyat yoldaşı) təşəbbüsü ilə "Bakı müsəlman qadın xeyriyyə cəmiyyətinin təsis yığıncağında M.S. Tağıyeva idarə heyətinin sədri, Rəhilə Hacıbababəyova sədrin müavini, Əminə Ağayeva katib, Pəri Topçubaşova xəzinədar seçilmişdilər. Cəmiyyət valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara "Ağ çiçək" adlı tədbirlərdə yardım göstərilirdi. Cəmiyyət üzvləri tərəfindən Qafqaz cəbhəsində əsir düşmüş yaralı türk əsgərlərinə yardım göstərməsi xüsusi qeyd edilməlidir [31, s.184]. Cəmiyyətin fəal üzvləri sırasında Zərrintac Ağayeva, Mina Aslanova, Sabirə Əbdürrəhmanova, Tamara

Axundova, Nigar Vəlibəyova, Gövhər Qazıyeva, Gülsüm Liyanova, Bəydigül Camal, Nabat Nərimanova, Məryəm Sulkeviç, Məryəm və Xədicə Terequlovalar, Fatma Tambiyeva və Əminə Əfəndi də var idi. 1917-ci ilin oktyabrında "Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti"nin sədri Liza Muxtarovanın təşəbbüsü ilə yoxsul qızlar üçün peşə məktəbi açılmışdı [20, s.135].

1917-ci il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayının gündəliyinə "Qafqazda qadınların vəziyyəti haqqında" məsələ daxil edilmişdi. Qurultayda həmin məsələ barədə çıxışında M.Ə. Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirmiş və demişdi: *"Bütün dünya xalqlarının qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır"* [26, s.41]. Bu məsələ ətrafında qurultayın siyasi komissiyasının onuncu iclasında müsəlman qadının siyasi və iqtisadi hüquqlarının kişilərlə bərabərləşdirilməsinin zəruriliyini müəyyən edən 12 maddədən ibarət qətnamə qəbul olunmuşdu. Komissiyanın üzvü Fatimə Tutaş Güləhmədovanın təklifi ilə qətnaməyə aşağıdakı iki maddə də əlavə olunmuşdu: *1) Müslimə qadınlar bütün siyasi və mülki hüquqda ərlər ilə bərabərdir; 2) Təəddüdi zövcat insaniyyət və ədalətə müxalif olduğundan bu qəti surətdə pislənilməlidir*. Yeri gəlmişkən, bu qətnamə Rusiyada, ölkənin ictimai həyatında kişilərlə qadınların hüquqlarını bərabərləşdirməyə çağıran ilk siyasi sənəd olmuşdu [27, s.213-215]. Müsavat partiyasının 1917-ci il oktyabrın 25-31-də Bakıda keçirilən I qurultayında qəbul edilən Proqramda söz, mətbuat, vicdan, mitinq azadlığı, fəhlələr üçün 8 saatlıq iş günü, və normal əmək şəraiti, istirahət hüququ, qanun qarşısında dinindən, milliyətindən, cinsindən, partiya mənsubiyyətindən asılı olmayaraq hamının bərabərliyi, təhsil hüququ nəzərdə tutulurdu. "İşçi məsələsi" bölməsində göstərilirdi ki, *"qadınlara zərərli sahələrdə işləmək olmaz"* [34, s.59]. 1917-ci il 26-28 noyabr tarixlərdə Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilər də isə "Müsavat" tərəfindən qadın məsələsi irəli sürüldü. İslamçıların əks-təbliğatına baxmayaraq, Azərbaycan qadınlarının bu seçkilərdə iştirakı "Müsavat" partiyasının qələbəsinin həlledici amillərindən biri oldu [29, s. 4].

Xalqımıza qarşı 1918-ci ildə bolşevik-daşnak dəstələri tərəfindən törədilən mart soyqırımı qadınlardan da yan keçməmiş, onlar daha ağır formada qətlə yetirilmişdi [17, s.145-146].

Azərbaycanda qadın hərəkatının formalaşması tarixinin dördüncü mərhələsi 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul edildiyi vaxtdan 1920-ci il aprelin sonuna qədər olan dövrü əhatə edir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan qadınının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi, ictimai-siyasi baxışlarının formalaşması üçün geniş imkanlar açdı. Yaxın Şərqin ilk demokratik dövləti kişi və qadın hüquqlarını bərabərləşdirdi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin 4-cü maddəsi məhz kişi-qadın bərabərliyini özündə təsbit etməsi Azərbaycan qadınının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar yaradırdı. 1919-cu il iyulun 21-də "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"ni təsdiq etməklə Şərqdə ilk dəfə olaraq qadınlara səsvermə hüququ verildi. "Əsasnamə"yə görə seçkilər bərabər, birbaşa və gizli səsvermə yolu ilə keçirilməli idi. Sənədə əsasən, seçkilərdə cinsindən, dilindən, dinindən, mülkiyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün vətəndaşlar iştirak edə bilərdilər. Həmin dövrdə 26 nəfər qadın müxtəlif vəzifələrə təyin edildi. Şəfiqə Əfəndizadə Parlamentin yeganə qadın əməkdaşı, Cənubi Qafqazın ilk qadın jurnalisti idi [15, s.215-216].

Cümhuriyyət hökuməti Bakı Müsəlman qadın xeyriyyə cəmiyyətinin açdığı yoxsul qızlar üçün peşə məktəbinin fəaliyyətinin təşkili məqsədilə cəmiyyətə 30 min manat vəsait ayırmışdı. 1919-cu ilin əvvəllərində cəmiyyət məktəbin işini yenidən bərpa etmişdi. Məktəb azərbaycanlı qızların savadlanmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynamışdır. Lakin 1920-ci il Aprel işğalından sonra cəmiyyət fəaliyyətini dayandırmışdı. Milli qadın pedaqoqlardan təhsil prosesinin təşki-

lində istifadə edilir, qadınların ali təhsil alması-na məhdudiyyətlər qoyulmurdu. Bakı Dövlət Universitetinin əsasnaməsində bu məsələ öz ək-sini tapmışdı [4, s.229]. Qadınlar rəhbər vəzifə-lərə irəli çəkilir, onlara kişilərlə bərabər imkan-lar yaradılır, qadın hüquqlarının müdafiəsi qə-bul edilən qanunlarda öz əksini tapırdı. Məsə-lən, Sara Yaqubova, Sara Ramoviç və Xədicə Ağayeva 1919-cu il noyabrın 7-də təşkil edilən Maarif komissarlığı yanında islahat komissiya-sının üzvü kimi məktəb islahatının həyata keçi-rilməsində iştirak edirdilər. Enülhəyat Yusif-bəyli Xalq maarif nazirliyinin məktəblər şöbəsi-nin rəisi Məryəm Bayraməlibəyova Lənkəran qız gimnaziyasına inspektoru Mədinə Qiyas-bəyli isə Qazax xalq məktəblərinin direktoru tə-yin edilmişdilər. Hənifə Məlikova I türk məktə-bində, Sara Əfəndizadə Balaxanı üns (qız) mək-təbində müdir işləyirdilər. Şəfiqə Əfəndizadə Azərbaycan Parlamentinin dəftərxana rəisinin köməkçisi vəzifəsində çalışırdı. Parlamentin aparatında bir çox qadınların texniki vəzifələrdə işləmələri haqqında məlumatlar vardır. Qadın-lar əsasən mədəni-maarif və ictimai sahədə ta-nınsalar da, kökündə maarifçilik missiyası du-ran həm pedaqoji, həm də publisistik fəaliyyət-lərinə görə kişilərdən geri qalmırdılar [11].

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Sovet Rusiyasının təz-yiqi altında hakimiyyəti Azərbaycan bolşevik-lərinə təhvil verməyə məcbur oldu. Aprel işğalı ilə başlamış repressiyalar milli təfəkkürün bü-tün əlamətlərini məhv etməyə çalışaraq Azər-baycan xalqının milli özünüdərketmə prosesini ləngidirdi. İlk növbədə qeyd edilməlidir ki, so-vet quruluşunun bu və ya digər mənfi cəhətləri-nə baxmayaraq, sosializm quruculuğu şəraitin-də Azərbaycan qadınlarının cəmiyyət həyatında rolu və mövqeyi əvvəlki tarixi dövrlərə nisbət-də ölçüyəgəlməz dərəcədə yüksəlmişdir. Azər-baycan qadınlarının bu illərdə dövlət quruculu-ğu və ictimai-siyasi sahədə, xalq təsərrüfatında, təhsil, səhiyyə, mədəniyyət və incəsənət sahələ-rində fəalliyyəti yüzlərlə əsərlərdə elmi cəhət-dən əsaslandırılmışdır.

Azərbaycan qadınlarının ictimai-siyasi fəa-liyyətə cəlb edilməsi sovet hakimiyyətinin ilk aylarından əsas siyasi məsələlərdən olmuşdur. 1920-ci il sentyabrın 1-8-də Bakıda keçirilən Şərq xalqlarının I qurultayında 55 qadın iştirak edirdi. Azərbaycandan olan nümayəndə Xavər Şabanova qurultayın Rəyasət Heyətinə, müsəl-man qadınlar adından isə qurultayın Təbliğat və Hərəkat Şurasına üzv seçilmişdi [42, s.219].

1921-ci il fevralın 8-11-də Bakıda Azər-baycan qadınlarının I qurultayının keçirilməsi yeni şəraitdə respublikada qadın hərəkatının mühüm göstəricisi sayıla bilər. Qurultayın nü-mayəndələrinin tərkibində yeganə azərbaycanlı qadın görkəmli pedaqoq Şəfiqə Əfəndizadə ol-muşdur [16, s.65]. Qurultayda Azərbaycan İn-qilab Komitəsinin və hökumətinin sədri Nəri-man Nərimanovun əsas məruzə ilə çıxışı, digər partiya və hökumət rəhbərlərinin qurultayın işində fəal iştirak etməsi yeni ictimai quruluşun formalaşdırılmasında qadınların roluna verilən böyük əhəmiyyətdən xəbər verirdi. Qurultayda əsasən çoxarvadlılıq, qadın klubları kimi məsə-lələr ətrafında geniş müzakirələr aparılmış, "Şərqin bütün qadınlarına" adlı müraciət qəbul edilmişdi. Qurultaydan sonra Azərbaycanda qa-dın hərəkatının mütəşəkkilliyi xeyli artdı. 1921-ci ildə qızlar üçün təşkil olunmuş məktəbəqədər tərbiyə institutu 1922-ci ildə ali qadın pedaqoji institutuna çevrildi. 1923-cü ilin noyabrında Şərqdə qadın azadlığı uğrunda mübarizə aparan "Şərq qadını" jurnalının nəşrə başlaması (1938-ci ilin fevralından "Azərbaycan qadını") Azər-baycanda qadın hərəkatı tarixində əlamətdar ha-disə oldu [8, s.135].

1923-cü ildə Azərbaycan MİK yanında "əməkçi qadınlara kömək edən xüsusi bir komi-tə" yaradılmışdı. Bu komitədə qadınların şika-yətlərinə baxılır və lazım gəldikdə, işlər məhkə-məyə və ya başqa bir müəssisəyə göndərilirdi. 1925-ci ildən başlayaraq Şəki, Gəncə, Qazax, Lənkəran, Cəbrayıl və Naxçıvanda da əməkçi qadın komitələri təşkil olunur [32, s.47]. Cey-ran Bayramovanın təşəbbüsü ilə yaradılmış ilk qadın klubu bu dövrdə qadın hərəkatının inkişa-fında mühüm rol oynadı. Görkəmli dövlət xadi-mi Nəriman Nərimanov Bakıda ilk qadınlar klubunun yaradılması təşəbbüsünü bəyənərək milyoner Murtuza Muxtarovun evinin qadınlar klubunun istifadəsinə verilməsinə göstəriş ver-mişdi [24, s.7].

1922-ci ildə siyasi maarifləndirmə sahəsin-də mütəxəssislər hazırlamaq məqsədilə türk (Azərbaycan) dilində mühazirələrin oxunduğu məktəblərinin açılmasına qərar verildi. Bakının

bütün rayonlarında nəzəri biliklər və praktiki təbliğat işləri aparmaq sahəsində biliklər verən iki tip siyasi maarif məktəbləri təşkil olundu. Bakı şəhər partiya komitəsi yanında ali partiya məktəbi yaradıldı və bura 75 nəfər dinləyici, o cümlədən qadın dinləyicilər qəbul edildi. Bakı xalq maarif idarəsinin məktəbdənkənar təhsil şöbəsinin nəzdində elmi-kütləvi mövzularda keçirilən mühazirələri dinləməyə qadın işçilər, o cümlədən azərbaycanlı qadınlar cəlb olunurdu [39, s. 58].

Yeni cəmiyyət quruculuğunda Azərbaycan qadınlarının ictimai-siyasi və iqtisadi həyata qovuşması ildən-ilə güclənirdi. Onların faktiki hüquq bərabərliyinə nail olmasında mühüm addımlar atılırdı. Lakin bu cəhət xüsusilə qeyd edilməlidir ki, Sovet Azərbaycanda qadınların bəşəri, hüquqi cəhətdən azad olunması, onların ictimai-siyasi, iqtisadi və mədəni həyata cəlb edilməsi yolunda addımlar atılarkən qadın probleminin həllində, o cümlədən qadın əməyindən istifadə olunmasında tələskənliyə, əyintilərə, bayağılığa yol verilir, ənənəvi dini mənəviyyatla şərtləşən, islam mədəniyyətindən doğan milli xüsusiyyətlər, əsrlərdən qalmış və yaşamaqda olan, adət-ənənə, milli-əxlaqi irs nəzərə alınmırdı.

1920-1930-cu illərdə Azərbaycan SSR-də həyata keçirilən kadr siyasətinə həsr edilmiş maraqlı bir tədqiqat işi A. Muradova tərəfindən qələmə alınmışdır. Müəllif qeyd edir ki, sovetlərə seçki kampaniyaları Azərbaycan qadınlarının siyasi həyatda iştirakına ciddi təkan verirdi. Əsərdə göstərilir ki, Azərbaycan qadınları qarşıya çıxan bir çox maneələrə baxmayaraq, sovetlərin hesabat yığıncaqlarında və seçkilərdə fəal iştirak edirdilər. Şəhər və kənd sovetlərinə keçirilən seçkilərdə qadınların iştirakı artmaqda idi. Eyni zamanda deputatlar arasında qadınların nisbətinin sistemli şəkildə artması müşahidə olunurdu. O dövrün partiya sənədlərində (1927-ci il may) kənd qadınlarının 28,3 faizinin seçkilərdə iştirak etməsi əsrlər boyu bir türk (Azərbaycan) qadınının həyat və ailə vəziyyətini nəzərə alaraq irəliyə atılan əhəmiyyətli bir addım olması qeyd edilirdi. Belə ki, 1926-cı ildə 5633 qadın (13,2 faiz) sovetlərə üzv seçilmişdisə, 1931-ci ildə - 10393 (18,4 faiz), o cümlədən 6793 azərbaycanlı qadın seçilmişdi. Əgər 1926-cı ildə 11 qadın kənd sovetlərinin sədri seçilmişdisə, 1929-cu ildə onların sayı 116 nəfərə çatmışdı. 1927-ci ildə qadınların fəallığı 36,5 faiz, 1929-cu ildə - 63 faiz, 1934-cü ildə - 77,6 faiz təşkil etmişdi [40, s.34].

1927-ci ildə Azərbaycan SSR sovetlərə seçilən qadınların sayına görə ittifaq respublikaları arasında birinci yeri tutdu [37, s. 348].

Qadınların dövlət idarəçiliyinə cəlb edilməsinə, onların sovetlərin işində iştirakına mühüm əhəmiyyət verilirdi. 20-30-cu illərdə qadınların faktiki hüquq bərabərliyinə nail olmasında addımlar atılırdı. 1932-ci ilin sonuna yaxın respublikada istehsalatda çalışan qadınların sayı 23412 nəfər idi. Qadınların sovet işində iştirakına mühafizəkar müqavimətə baxmayaraq, seçkilərdə onların fəallığı ildən-ilə artırdı. Qadınların sırasından sovet aparatı işçiləri formalaşır, onların bir çoxu kənd soveti sədri seçilirdilər. Məsələn, təkcə 1929-cu ildə seçilmiş 1100 nəfər kənd soveti sədrindən 116-sı qadın idi. Artıq 1931-ci ildə sovetlərə 10360 qadın seçilmişdi. Onların 6993 nəfəri azərbaycanlı idi. Azərbaycan SSR sovetlərə seçilmiş qadınların sayına görə o dövrdə digər müttəfiq respublikalar içərisində üçüncü yeri tuturdu. Qadın klubları əmək və məişət komissiyaları vasitəsilə bir sıra qanunvericilik, iqtisadi və mədəni xarakterli tədbirlər keçirirdilər. Azərbaycanlı qadınların özlərinin təşəbbüsü ilə çadranı atmaq uğrunda hərəkat nəticəsində 1928-ci ildə 12573 nəfər, 1929-cu ildə isə 20387 nəfər qadın çadradan imtina etmişdi [9, s.289-290].

Sovet hakimiyyətinin həyata keçirdiyi siyasi islahatların bir məqsədi də qadınların mümkün qədər kütləvi şəkildə cəmiyyətin ictimai-siyasi həyatına qoşulması idi. Qadınların ictimai-siyasi fəaliyyət sisteminə aşağıdakılar daxil idi: partiya komitələrində nümayəndə iclasları institutu ilə qadın şöbələri, sovetlərin icra komitələri yanında qadınların işini və həyatını yaxşılaşdırmaq komitələri, həmkarlar ittifaqlarında qadın komissiyaları və qadın təşkilatçıları, əməkdaşlıqda xüsusi qadın komissiyaları, qadın gənclər arasında iş sektorları, komsomol təşkilatları və s. Sovet hakimiyyəti illərində qadınlar üçün nəzərdə tutulmuş hər bir qanun Azərbaycan qadınlarına da şamil edilirdi. Sovet hakimiyyətinin ilk illərində qadınlara münasibətdə aşağıdakı hüquqi irəliləyişlər əldə edilməsi bir vəzifə kimi irəli sürülmüşdü: kişi və qa-

dınların siyasi və sosial hüquqlarının bərabərliyi; ailə kişi və qadınların azad ittifaqıdır; ev işləri ilə bərabər qadın kişilərlə bərabər istehsalatda da çalışır; analıq təkcə qadınların şəxsi işi hesab edilmir, uşaqların tərbiyəsi və təhsili birbaşa dövlət nəzarətində idi. Bütün bunları həyata keçirmək üçün müvafiq qanunlar qəbul edilmişdi.

1920-1930-cu illərdə qadınların maarifləndirilməsi istiqamətində aparılan işlərə qadın şöbələri ("jenotdel") rəhbərlik edirdi. Müxtəlif sahələrdə qadın şöbələrinin yaradılmasında məqsəd qadınların ictimai-siyasi həyata fəal qoşulmalarına yardım etmək idi. Lakin qadın şöbələrinin mühüm məsələlərin həllinə qarışmaq səlahiyyəti yox idi [38, s.38]. Qadın fəalların və deputatların öhdəsinə düşən klubların, yeməkxanaların, körpələr evləri və uşaq baxçalarının işinə nəzarət etmək idi. Qadın nümayəndələr kəndlərdə "qırmızı guşə"lərin yaradılmasına, dövlət tərəfindən məktəblilərə verilən geyimlərə nəzarət edirdilər, kəndli qadınları təsərrüfat işlərində baş verən yeniliklərlə tanış edirdilər. Məhz bu hərəkat sayəsində yüzlərlə qadın ictimai işə cəlb edilir, idarəetmə vərdişlərinə yiyələnirdi.

Həmin dövrdə qadınlar arasında aparılacaq kütləvi işlər, mədəni-yaşayış xidməti haqqında və s. qərarlar verilmişdir. Məsələn, Cənubi Qafqaz respublikaları və vilayət partiya komitələrinin Qadın sektorlarının II müşavirəsinin 1932-ci il 19 fevral tarixli "Qadınlar arasında aparılacaq kütləvi işlər haqqında" adlı qərarında qadın kadrlarının hazırlanması və onların hazırlıqlarının yüksəldilməsi məqsədilə respublika partiya təhsili məktəb və kurslarında qadınların cəlb olunma faizinin artırılması, habelə qısa müddətli kurslara təşkil edilməsi və yay kurslarının tərkibinin 25-30 faizinin qadın fəallarından ibarət olması, həmkarlar təşkilatının kadr tərkibinin, xüsusilə kütləvi işlər sahəsində kifayət qədər qadın işçilərlə təmin edilməsi tövsiyə edilirdi [12, s.6-7].

Sovet qadınının yeni siyasi mədəniyyətlə ünsiyyəti, onun siyasi həyata cəlb olunması çox vaxt çətinliklərlə qarşılaşır, qadının klubda, "jenotdel"də iştirakı ailə öhdəliklərini yerinə yetirməyə vaxt qalmaması üzündən ailə münaqişələrinə səbəb olurdu; artıq hamının mənimsəmiş olduğu qadın davranışı stereotipinə (təvazökarlıq, səssiz razılıq, kişinin əsas rol oynaması) uyğun gəlməyən əxlaq normaları və tələblər çoxsaylı tanış olmayan söz və anlayışlarla dolu və çox zaman da qadının gündəlik qayğılarına aidiyyəti olmayan ideoloji sxemlərin mənimsənilməsi ilə bağlı çətinliklər qadının özünə qiymətini laxladır və əsasən siyasi fəaliyyətindən imtina etməsinə səbəb olurdu. 1934-cü ildə faktiki olaraq bütün "jenotdellər" fəaliyyətini dayandırdı və Yenidənqurma illərində yeni qadın şuralarının ("jensovetlərin") açılmasına kimi qadının idarəetmə vərdişlərinə nail olması ilə bağlı təşkilatlar daha yaradılmadı.

Azərbaycan qadın hərəkatının görkəmli nümayəndələri Ayna Sultanova, Xavər Şabanova-Qarayeva, Frida Şlemova, Ceyran Bayramova, Məryəm Mirqədirova, Gülarə Qədirbəyova, Fatma Hacıyeva, Sənubər Eyyubova və bir çox başqaları kütləvi repressiyaların qurbanları oldular [43, s.108].

İkinci Dünya müharibəsi illərində 10 min nəfərdən çox azərbaycanlı qızı alman faşizminə qarşı vuruşmuş, hərbi hissələrdə və hospitallarda həkim, tibb bacısı kimi çalışmışdı. Ziba Qəniyeva, Aliyə Rüstəmbəyova, Dürrə Məmmədova və başqa Azərbaycan qızlarının adı İkinci Dünya müharibəsinin ən fəal iştirakçıları sırasında çəkilir. Azərbaycan qadınlarından Suğra Paşayeva, Səkinə Əliyeva, Tahirə Fəttahova, Sona Əliyeva döyüş meydanında onlarca döyüşçü və komandirlərin yaşamasına səbəb olmuşlar. Azərbaycanın ilk qadın təyyarəçilərindən biri Züleyxa Seyidməmmədova 1935-1936-ci illərdə Bakı aeroklubunda təlimatçı-təyyarəçi işləyərkən azərbaycanlı qızlardan pilotların hazırlanmasına böyük əmək sərf etmiş və fəaliyyəti dövründə 60 təyyarəçi və 80 paraşütçü hazırlamışdır. Sonralar o həmin klubda bölmə komandiri vəzifəsində işləmiş, 1938-ci ildə Jukovski adına Hərbi-Hava Akademiyasında təhsil almağa göndərilmiş və əlaçı tələbə kimi Moskva şəhər zəhmətkeş deputatlar Sovetinə deputat seçilmişdi. O, Böyük Vətən müharibəsi illərində Sovet Ordusunda xidmət etmiş və qırıcı-təyyarəçidən aviapolk komandirinin müavini və 8-ci aviakorpus qərargahının əməliyyat şöbəsinin rəis köməkçisinə qədər yüksəlmişdi. Züleyxa Seyidməmmədova qadınlardan ibarət aviadəstənin tərkibində 500-dən çox uçuş keçirmişdi [23, s.3].

Həmin dövrdə Leyla Məmmədbəyova, Sona Nuriyeva kimi təyyarəçi, Şövkət Səlimova

kimi qadın gəmi kapitanı yetişmişdi. Dinc quruculuq işlərində kişilərlə çiyin-çiyinə çalışan qadınlarımız müharibə dövründə də bir çox istehsalat sahələrində cəbhəyə gedən kişiləri layiqincə əvəz etdilər. Onlar həmçinin müharibə meydanlarında misilsiz qəhrəmanlıq nümunələri və rəşadət göstərdilər. Müharibə dövründə qadınlarımız ön cəbhədə mərdliklə döyüşmüş, arxa cəbhədə əmək rəşadəti, fədakarlıq nümayiş etdirmişlər. Bütün bunlar Azərbaycanda qadın hərəkatı tarixinin qəhrəmanlıq səhifələridir [15]. Şövkət Səlimovanın kapitanı olduğu gəmi ilə 1941-1942-ci illərdə Xəzər dənizi-Volqa istiqamətində Stalinqrad cəbhəsini hərbi sursat və ləvazimat, arxaya isə hərbi hospitala yaralılar daşınırdı. [21, s.106-107].

Müharibə illərində Azərbaycan qadınları arxa cəbhədə, ən ağır iş yerlərində cəbhəyə getmiş kişiləri əvəz edərək ordunun lazım olan sənaye və kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında böyük fədakarlıq göstərmişlər. Müharibənin ilk günlərində 50 nəfər evdar qadınlar “Əzizbəyovneft” mədənlərində işləməyə gəlmişdi. Fabrik və zavodların nəzdində qadın və yeniyetmələri istehsalata hazırlanması üçün qısamüddətli kurslar açılmışdı. 1941-ci ilin oktyabrında təkcə Bibi-Heybət neft mədənlərində 1800 nəfər qadın işləyirdi. Əgər 1942-ci ilin ortalarında respublikanın neft sənayesində 25 min nəfər (33 faiz) qadın çalışırdısa, 1944-cü ildə bu göstərici 32,3 minə (48 faiz) çatmışdı [41, s.45, 47, 56].

Azərbaycan qadınlarının 1957-ci il mart 28- 29-da ikinci, 1967-ci il oktyabrın 20-22-də üçüncü və 1972-ci il iyunun 15-16-da dördüncü keçirilən qurultayları ictimai-siyasi əhəmiyyətinə görə qadın hərəkatı tarixində mühüm yer tuturdu. Bu qurultaylar Azərbaycan qadın hərəkatının inkişafında və daha mütəşəkkil forma almasında mühüm rol oynamışdır.

Ötən əsrin 60-cı illərin əvvəllərində Azərbaycan qadınlarının qabaqcıl nümayəndələri dövlət hakimiyyəti orqanlarında təmsil olunurdular. 1962-ci ildə altıncı çağırış SSRİ Ali Sovetinin birinci sessiyasında iki dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova ikinci dəfə Ali Soveti İttifaq Sovetinin sədr müavini seçilmişdi. Onlardan Valentina Biryukova Azərbaycan SSR Ali Soveti sədrinin müavini, Tahirə Tahirova respublika Nazirlər Soveti sədrinin müavini, Səkinə Əliyeva Naxçıvan MSSR Ali Sovetinin sədri, Zərifə Şükürova Azərbaycan SSR Ali Sovetinin katibi, Züleyxa Seyidməmmədova sosial təminat naziri, Nəbibə Həsənovanı yerli sənaye və məişət xidməti naziri vəzifəsini daşıyırdılar. 1963-cü ildə Azərbaycan SSR Ali Sovetinə seçilən deputatların 31, 9 faizini, yerli sovetlərə seçilən deputatların 39, 4 faizini qadınlar təşkil etmişdi [43, s.117].

Sovet quruluşu dönəmində qadınların siyasi, sosial və əmək inkişafının həyata keçirilməsinə yönəlmiş bir sıra fərmanlar qəbul edildi. Qadınların hüquqi və faktiki bərabərliyinin təməli qoyuldu. Lakin qadınların qanunlar çərçivəsində aldıqları hüquqlar, əvvəlki faktikii bərabərsizliyi aradan qaldırmadı. Sovet siyasi sistemində qadınların siyasi bərabərliyi və sosializmin qurulmasında onun fəal iştirakı qurultaylarda, rəsmi iclasların rəyasət heyətlərində qadınların formal iştirakı ilə, yerli və ali qanunvericilik hakimiyyəti orqanlarında isə qadın deputatların say artımı göstəriciləri ilə “kompensasiya” olunurdu. Real siyasi qərarların qəbul olunmasında qadınların rolu az idi. Sovet qadınlarının siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi kommunist ideologiyası və sovet təbliğatı çərçivəsi ilə məhdudlaşırdı. Kvota sisteminin mövcudluğu siyasətə gəlmiş qadınların sayının müntəzəm şəkildə artmasına təsir etsə də, birpartiyalılıq sisteminin mövcudluğu, nomenklatur elitanın hökmranlığı, seçkilərdə siyasi rəqabətin olmaması bu yüksək statistik məlumatların mahiyyətini azaldırdı. Bütün bunlarla bərabər, XX yüzilliyin 70-80-ci illərində Azərbaycan qadınlarının siyasi və sosial-iqtisadi vəziyyətinə əhəmiyyətli təsir göstərən dəyişikliklər baş vermişdir. Qadınların içərisindən dövlət, partiya və istehsalat işində fəal çalışan bir çox qadınlarla yanaşı, ölkənin ictimai və mədəni həyatında fərqlənən minlərlə qadın yetişdi. Hələ 1974-cü ilin mayında “Azərbaycan qadını” jurnalının 50 illik yubiley tədbirində respublika rəhbəri Heydər Əliyev Azərbaycan qadınlarının inkişafından danışaraq demişdir: *“Ali Sovetdə də, yerli sovetlərdə də deputat qadınlar respublikamızın çoxcəhətli həyatı ilə bağlı olan məsələləri kişilərlə birlikdə həll edirlər. Qadınlar yüksək partiya və dövlət vəzifələri tutur, nazir vəzifələrində işləyir, respublikanın idarə və müəssisələrinə rəhbərlik edirlər”* [6, s.24].

Bu mərhələdə uğurlu inkişaf siyasətinin kişilərlə bərabər qadınları da əhatə etməsi respublika rəhbərliyinin diqqət mərkəzində idi. Qadınların bu proseslərdə iştirakı iqtisadi və sosial səmərəlilik baxımından qiymətləndirilirdi. İqtisadi artıma arxalanan inkişaf üçün əlavə insan ehtiyatları zəruri idi və kənd rayonlarında açılan yeni sənaye müəssisələrinə yüzlərlə qız və qadınların cəlb olunması inkişafın uğuru olaraq qəbul edilirdi. Qadınların təhsil, səhiyyə və digər sahələrdə qabiliyyətləri və imkanları genişlənirdi. Qadınların fəallığı həyatın bütün sahələrində – təsərrüfat sahəsində, siyasi həyatda və mədəni quruculuqda təzahür edirdi.

Sovet hakimiyyəti illərində qadınların cəmiyyətdə faktiki hüquq bərabərliyinin başlıca, müəyyənedici məqamı kimi onun ictimai əməkdə iştirakı əsas götürülürdü. 1970-1980-ci illərin ilk yarısında Azərbaycan SSR-də qadınların ictimai istehsala cəlb edilməsi və onların əməyindən səmərəli istifadə olunması sahəsində həyata keçirilən kompleks sosial-iqtisadi tədbirlər nəticəsində onların əmək və məişət şəraiti xeyli yaxşılaşmış və ictimai istehsaldakı məşğulluq səviyyələri yüksəlmişdi. Bütünlükdə xalq təsərrüfatında məşğul olan qadınların, həm də ali və orta ixtisas təhsilli qadın mütəxəssislərin sayı ittifaqda olduğuna nisbətən üstün sürətlə artmışdı [27, s.200-206].

XX əsrin 70-80-ci illərində həyata keçirilən qadın siyasətinin əsas məqsədlərini, prinsip və istiqamətlərini müəyyənləşdirmək baxımından respublika rəhbəri Heydər Əliyevin o dövrdə qadınlarla bağlı çıxış və məruzələri mühüm nəzəri-metodoloji əhəmiyyəti vardır. Ulu öndər Azərbaycan qadınlarının işgüzarlıq keyfiyyətlərini də çox yüksək qiymətləndirir və çətin işləri onlara etibar etməkdən ehtiyat etmirdi. Qadınlara olan etibar və inamının nəticəsi idi ki, onun respublikaya rəhbərlik etdiyi sovet dövründə neçə-neçə qadın yüksək vəzifələrə təyin edilmişdi. Onlardan Azərbaycan SSR Xarici işlər naziri Tahirə Tahirova, Xalq maarifi naziri Elmira Qafarova, Ticarət naziri Svetlana Qasımova, Təhsil naziri Lidiya Rəsulova, Məişət xidməti naziri Nailə Bağırova, Qadın Komitəsinin sədri Zəhra Quliyeva, Ali Arbitraj Məhkəməsinin sədri Flora Əhmədova, Səhiyyə nazirinin müavini Zemfira Hüseynova, Ticarət nazirinin müavini Qəndab Səfərovanın adları qeyd edilməlidir [19, s.2]. Fəal ictimai və dövlət xadimi kimi yetişən Elmira Qafarova 1961-1962-ci illərdə respublika komsomol təşkilatı Mərkəzi Komitəsinin katibi, 1966-1970-ci illərdə birinci katibi seçilmişdir. E.Qafarova 1971-1980-ci illərdə AKP Bakı Şəhər Komitəsinin ideologiya üzrə katibi vəzifələrində işləmişdir. 1980-1983-cü illərdə Azərbaycan SSR maarif naziri vəzifəsində, 1983-1987-ci illərdə Azərbaycan SSR xarici işlər naziri vəzifəsində çalışmış E.Qafarova məktəb quruculuğunda, Azərbaycanın Avropa, Asiya və Afrikanın bir sıra ölkələri ilə siyasi, ictimai və mədəni əlaqələrinin genişləndirilməsi istiqamətində işlər görmüş, həmçinin bir sıra beynəlxalq müşavirə, konfrans və sessiyalarda yaxından iştirak etmişdir. 1984-cü ilin oktyabrında BMT Baş Məclisinin 29-cu sessiyasının Üçüncü Komitəsinin irqçilik və irqi ayrı-seçkilik qalıqlarının kökünün kəsilməsi məsələlərinə həsr edilmiş müzakirələrdə çıxış etmişdir. 1987-1989-cu illərdə E.Qafarova Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışmışdır. Tahirə Tahirova Azərbaycan Sülhü müdafiə komitəsinin rəhbəri, Sovet Qadınları komitəsinin Rəyasət heyətinin üzvü olmuşdur. 1959-1983-cü illərdə Azərbaycan SSR xarici işlər naziri və Nazirlər Soveti sədrinin müavini vəzifələrində işləyərkən iti ağlı, mədəni-siyasi davranışı, ünsiyyət bacarığı və s. bu kimi şəxsi keyfiyyətləri ilə istər ölkəyə gələn xarici qonaqların, həmkarlarının və siyasi xadimlərin rəğbətini qazana bilmişdi. T.Tahirova deputat kimi SSRİ Ali Sovetinin, Azərbaycan Ali Sovetinin sessiyalarında fəal iştirak edirdi. Azərbaycanın ilk qadın naziri Tahirə Tahirova tərcümeyi-halında yazmışdı: *"Mən gənc yaşlarımdan ictimai fəaliyyətlə məşğul olmağı sevmişəm. İctimaiyyət və insanlar arasında olmaq, onların həyatına təsir göstərəcək müsbət və ən vacib sayılan qərarları qəbul etmək mənim üçün çox maraqlı idi. Ailəmə vaxtım və imkanım çatan qədər diqqət göstərməyə çalışmışam. Baxmayaraq ki, mənim ömrüm daha çox siyasi hadisələrlə dolu aləmdə, fərqli insanlarla görüşlərdə, xarici səfərlərdə keçib, yaşadığım ömür payından narazı deyiləm. Çünki bütün bu etdiklərim sadəcə, xalqımın və millətimin rifahı, xoş gələcəyinə xidmət edirdi"* [33, s.13].

1975-ci il iyunun 15-də Doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinə keçirilən seç-

kilərdə deputat seçilən 400 nəfərdən 151 nəfəri və ya bütün seçilənlərin 37,7 faizi qadınlar olmuşdu ki, bu səkkizinci çağırışda seçilən qadınların sayından 9 nəfər çox idi [2, s.5]. Qadınların sovet hakimiyyəti illərində ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında iştirakı baxımından bir sıra müəlliflərin əsərləri mühüm əhəmiyyət kəsb edir.

Tarix elmləri doktoru Elmira Qədirovanın monoqrafiyasının üçüncü fəslində Azərbaycan qadınların ictimai-siyasi fəallığının artması, o cümlədən partiya və gənclər təşkilatlarında (komsomol), sovet orqanlarında və ictimai təşkilatlarda iştirakı məsələləri araşdırılmışdır. Əsərdə göstərilir ki, 1976-cı ildə respublika Ali Sovetinin qərarına əsasən qadın əməyi və məişəti, ana və uşaqların mühafizəsi məsələləri ilə məşğul olan və 17 üzvündən 12-si qadınlardan ibarət yeni daimi komissiya təşkil olunmuşdu [22, s.157]. 1980-ci ildə Azərbaycan SSR Ali Sovetinə seçilmiş 450 deputatın 339 nəfəri daimi komissiyaların tərkibinə daxil olmuşdu ki, onların da 148 nəfəri və ya 43,6 faizi qadınlar olmuşdu. Azərbaycan SSR Ali Sovetinə 1985-ci il fevralın 24-də keçirilən seçkilərdə 450 deputat seçilmişdi. Onlardan 179 nəfəri qadınlar olmuşdur (39,8 faiz) [41, s.5].

Azərbaycan qadınları ədliyyə orqanalarında da fəal təmsil olunmuşdular. Azərbaycan SSR Ali Məhkəməsinin 42 nəfər üzvündən 7 nəfərini və ya 16,6 faizini qadınlar təşkil edirdi. Azərbaycanlı qadınlardan Xədicə Əliyeva, Zərifə Həsənova, Badam Ələkbərova, Südabə Həsənova Azərbaycan SSR Ali Məhkəməsinin üzvü seçilmişdilər. 1980-ci ildə 651 nəfər xalq iclasçısından 219 nəfəri və ya 35,5 faizi qadınlardan ibarət idi [42, s.6].

Azərbaycan qadınlarının elm və mədəniyyət sahələrində əldə etdikləri nailiyyətlər Azərbaycanda elmin, ədəbiyyat və incəsənətin inkişafı tarixində silinməz izlər qoymuşdur. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir. Bu nailiyyətlər onların böyük istedad və əməksevərliyinə dəlalət edən tutarlı sübutdur [22, s.163].

Bütün bunlarla bərabər, əldə edilmiş nailiyyətlərlə yanaşı sovet dövründə formalaşan stereotiplər milli və ənənəvi xüsusiyyətləri, sırf qadına məxsus cəhətləri bəzən nəzərə alınmırdı. Qadınların sosial inkişaf məsələlərinin həlli və qadın inkişafı haqqında sovet konsepsiyasında bir çox amillər diqqətdən kənarda qalırdı. Bir tərəfdən qadın məşğulluğunun forması, göstəriciləri qabardılır, digər tərəfdən isə qadının öz potensialını ifadə etmək imkanları unudulurdu.

Beləliklə, Sovet hakimiyyəti illərində siyasi rejimin dəyişməsindən asılı olaraq qadınların cəmiyyət həyatında rolu və mövqeyində mühüm dəyişikliklərin baş verdiyi nəzərdən qaçırılmamalıdır. Burada yeni cəmiyyət quruculuğunun həyata keçirildiyi 20-30-cu illərin, İkinci Dünya müharibəsi və müharibədən sonrakı 50-60-cı illərin, 70-80-ci illər və 1985-ci ildən başlayan yenidənqurma və aşkarlıq dövrünün ictimai-siyasi xüsusiyyətlərinin qadın hərəkatına da təsirsiz ötüşmədiyini görürük.

1988-1991-ci illərdə Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsinin pik həddə çatdığı hadisələrin fonunda qadınların ictimai-siyasi fəallığının daha da yüksəldiyinin şahidi oluruq.

Sovet hakimiyyəti illərində Azərbaycan qadını çox mürəkkəb və şərəfli yol keçmişdir. Qadın emansipasiyası, qısa bir müddətdə qadınlar arasında savadsızlığın ləğvi, qadınların müəllim, həkim, mühəndis və sair peşələrə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqları malik olması, öz istedad və bacarıqlarını gerçəkləşdirə bilməsi, həmin dövrün başlıca nailiyyətləridir.

Heydər Əliyevin qadınlarla keçirdiyi çoxsaylı görüşləri və çıxışlarında Azərbaycan qadınlarının onların ictimai-siyasi sahədə fəallığına və onların ölkənin sosial-iqtisadi və mədəni yüksəlişində roluna mühüm qiymət verilmişdi. Bu tarixi irsdən belə nəticəyə gəlmək olur ki, əsrlər boyu Azərbaycan qadını cəmiyyət həyatında, xalqın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışdır. Azərbaycan qadını xalqın milli-mədəni ənənələrinin qorunub saxlanılması və zənginləşdirilməsinə xidmət etmişdir [18]. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 6 mart 2000-ci il tarixli Fərmanında göstərildiyi kimi, *"Azərbaycan qadını öz idarəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışdır"* [7].

***Nəticə:*** *XIX ikinci yarısı-XX əsrin sonu Şimali Azərbaycanda yaranan və inkişaf edən qadın hərəkatının Azərbaycan xalqının milli azadlıq hərəkatının mühüm tərkib hissəsi olması fikrini bir nəticə olmasını söyləməyə əsas verir. Arxiv sənədləri, faktiki materiallar və elmi ədəbiyyata istinad edilərək yazılan və təqdim edilən məqalədə Şimali Azərbaycanda yaranan, formalaşan və inkişaf edən qadın hərəkatı prosesi onun Azərbaycan milli azadlıq hərəkatının tərkib hissəsi olması faktını təsdiq etməklə bərabər milli dövlətçiliyinin bərpasında mühüm rol oynadığını deməyə əsas verir. Bütün bu məsələlər təqdim edilən məqalədə öz elmi təhlilini və həllini tapmışdır.*

## Ədəbiyyat siyahısı


1. Aşırlı A. Azərbaycan mətbuat tarixi (1875-1920). Bakı: Elm və təhsil. – 2009. – 296 s.
2. Azərbaycan Ali Sovetinin deputatları. On birinci çağırış. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin nəşri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. – 1976. – 421 s.
3. Azərbaycan Ali Sovetinin deputatları. On birinci çağırış. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin nəşri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. – 1985. – 471 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. I cild. Bakı: "Lider nəşriyyat". – 2004. – 440 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə. 2-ci cild. Baş red.: Yaqub Mahmudov. Bakı: Lider, 2004. – 440 s.
6. Azərbaycan qadınının səadəti: "Azərbaycan qadını" jurnalının 50 illiyinə həsr olunmuş təntənəli yubiley iclasının materialları. 14 may 1974-cü il. Bakı: Azərnəşr. - 1974. – 76 s.
7. "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli 289 saylı Fərmanı // Azərbaycan. - 2000. - 7 mart. - s.1
8. Azərbaycan Sovet Ensiklopediyası. I cild. Azərbaycan nəşriyyatı, Bakı, 1976, 591 s., s.135 .
9. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı: "Elm". – 2008. - 568 s.
10. Azərbaycanda qadın məsələsi (tarix və müasirlik: XIX əsrin sonu – XX əsrin əvvəli). Bakı: Azərbaycan nəşriyyatı. – 2006. – 272 s.
11. Cümhuriyyətə işıq saçan qadınlar: araşdırma yazılar toplusu: Azərbaycan Xalq Cümhuriyyəti: 100 (1918-2018) / red. T.Əhmədov. Burax. məsul D.Əliyev. Bakı: Nurlar. – 2018. – 495 s.
12. Cümhuriyyət mərkəzi komitələrinin və oblast firqə komitələrinin qadın sektorları ikinci Zakafkaziya müşavirəsinin qərarları. Bakı, Azərnəşr. – 1932. – 23 s.
13. Fərəcov S. Xələfləri onları böyük minnətdarlıqla xatırlayır // Mədəniyyət. - 2011.- 13 aprel.- s. 13
14. Gəncəli S. Cümhuriyyətə qədərki dövrdə Azərbaycan qadınlarının fəaliyyəti / Cümhuriyyətə işıq saçan qadınlar: araşdırma yazılar toplusu: Azərbaycan Xalq Cümhuriyyəti: 100 (1918-2018) / re. T.Əhmədov. Burax. məsul D.Əliyev. Bakı: Nurlar. – 2018. – 495 s.
15. Gəncəli S. İgid oğullarla bir cərgədə: ensiklopedik toplu / S. Gəncəli ; elmi və bədii tərtibi S. Gəncəli-Məmmədov; red. S. Tağızadə. Bakı: Elm və təhsil. – 2015. – 216 s.
16. Əliyeva G.A. Hacı Zeynalabdin Tağıyevin qız məktəbi // Tarix və onun problemləri. - 2011. №2, s.60-66
17. Əliyeva L. 1918-ci ildə Azərbaycan qadınlarının soyqırımı // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. – 2015. – №1. – s.145-146 .
18. Heydər Əliyev və dövlət qadın siyasəti: fərmanlar, sərəncamlar, nitqlər, təbriklər, məlumatlar. Tərt. ed. S.Qəhrəmanova, T.Əhmədov. Bakı: Nurlar. – 2008. – 414 s. .
19. `Həsənova S. Azərbaycanda qadın hərəkatının mühüm nailiyyətləri //Respublika. – 2020, 8 mart. – s.2 .
20. İbrahimova G.İ. Azərbaycan qadını: tarix və gerçəklik. Bakı: Elm. – 2009. – 500 s.
21. İsmayılov İ.Z. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. Bakı, 2000, 192 s.
22. Qədirova E. H. Azərbaycan qadınları kommunizmin fəal qurucularıdır: 1966-1980-ci illər. Bakı: Elm. – 1982. – 187 s.
23. Qəhrəmanova A. Azərbaycan qadınları İkinci Dünya müharibəsində // Azərbaycan. – 2015. – 14 may – s.3
24. Məmmədov S. (Gəncəli). Nəriman Nərimanov və milli azadlıq uğrunda mübarizədə

Azərbaycan qadınları // Respublika. – 2019. – 14 sentyabr. – s.7

25. Məmmədova R. "İşıq" qəzetinin imperatriça Aleksandra Fyodorovnaya təqdim edilməsi // "İşıq" qadın jurnalı, № 1 (77), 2014, s.54-57

26. Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992). Bakı: Azərnəşr. – 2001. – 272 s.

27. Ramazanova S. Sovet Azərbaycanında qadınların sosial-ictimai həyatı // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2006. -№2. s.200-206 .

28. Rəsulzadə M.Ə. Əsərləri. IV cild. Bakı: Qanun nəşriyyatı. – 2013. – 456 s.

29. Rüstəmova-Tohidi S. Azərbaycan Parlamenti necə yarandı // 525-ci qəzet. - 2018.- 4 dekabr. - № 214. - s. 4

30. Süleymanova S. Azərbaycan qadınının ictimai-siyasi hərəkatda yeri və rolu (XIX əsrin sonu-XX əsrin əvvəlləri) //Tarix və onun problemləri. Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş konfransın materialları. №2, 2012, s.48-51

31. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat: XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri. Bakı: Azərbaycan Dövlət Kitab palatası. – 1999. – 422 s.

32. Şlemova F. Qadın və Şura hökuməti. Köçürmə kənd siyasi məktəbinin kitabxanası. Bakı, "Bakı işçisi". – 1926. – 49 s. (əski əlifba ilə)

33. Tahirqızı Ü. Azərbaycanın ilk xanım naziri Tahirə Tahirova həm də ilk xanım neft mühəndisidir // Xalq Cəbhəsi. – 2014. – 29 noyabr. – s.13.

34. Yaqublu N.Q. Müsavat partiyasının tarixi. Bakı: Adiloğlu. – 2012. - 335 s.

35. Гумбатова Т. К истории русско-мусульманских женских учебных заведений Баку // Вышка. – 2011. – 2 декабря. – с.12-13

36. Женщины в СССР. Статистический материал. Москва. – 1981. – с.6.

37. История Азербайджана: в 3-х томах. Т. 3, ч. 1. Баку: Академия Наук Азербайджанской ССР. – 1963. – 547 с.

38. Козлова Н.Н. Гендерная модернизация советской политической системы: инсттуциональный аспект // Женщина в советском обществе. – 2011. – №4. – с.38-42

39. Мосесова И.М. Первые шаги советской власти по коммунистическому воспитанию трудящихся Азербайджана (1920-1922 гг.) / Материалы по истории Азербайджана. Музей истории Азербайджана АН Азербайджанской ССР. Т.8. Баку: Элм, - 1973. –с. 58

40. Мурадова А. Дж. Вовлечение женщин азербайджанской ССР в органы государственной власти (20-30-ые годы XX века). Баку: Нурлан. – 2007, - 176 с.

41. Мурадова А. Дж. Женщины Азербайджанской ССР в период войны в 1941-1945 гг. Баку: Elm və təhsil. – 2016. – 94 с.

42. 1-ый Съезд народов Востока. Стнографический отчет. Петроград, Смольный 63: Изд-во Коммунистического Интернационала Петроград. – 1920. - 232 с.

43. Султанова А. И. Счастливые женщины Советского Азербайджана: из истории борьбы КП Азербайджана за раскропощение женщины-азербайджанки и вовлечение ее в социалистическое строительство. Баку: Азернешр. – 1964. – 132 с.

**Резюме**

**Джафарова Тамам**

**Об истории возникновения и развития женского движения в Северном Азербайджане (Середина XIX - 80-е годы XX века)**

В статье рассматривается историческое развитие женского движения в Северном Азербайджане с середины XIX века до 1980-х годов, благотворительное и просветительское направления на основе разных источников. А также содействие этого движения в деятельности общественно-политических организаций, присутствие и участие женщин в работе законодательных и исполнительных органов страны.

К исследованию привлечено более 40 источников. С их помощью автор прослеживает историю возникновения и развития первого женского движения в Северном Азербайджане. И разделяет её хронологические рамы на пять основных периодов. Автор приходит к выводу, что это движение сыграло важную роль в общественно-политической, социально-экономической и культурной жизни страны. Азербайджанские женщины имели и занимают исключительное место в формировании национальных и нравственных ценностей народа.



***Ключевые слова:*** *первые женские школы, газета «Ишыг», движение за свободу женщин, Бакинское благотворительное общество мусульманских женщин, Хадиджа Алибекова, Ханифа Маликова, I Конгресс азербайджанских женщин, женские отделения, Айна Султанова, женские советы, Зиба Ганиева, Шамама Гасанова, Тахира Тахирова, Эльмира Кафарова*



**Summary**

**Jafarova Tamam**

**On the history of emergence and development of women’s movement in North Azerbaıjan (mid-19th century and 80s of the 20th century)**

Along with the charitable and enlightenment activities of the women’s movement in North Azerbaijan from the mid of the 19th century to the 1980s, the article is devoted to the illumination of their participation in socio-political organizations, their place in the legislative and executive bodies of the country in chronological order, on the basis of various sources.

Using more than 40 sources, the author dividing the history of the emergence and development of the first women’s movement in North Azerbaijan into five main periods investigates it. The author's conclusion in the article is that changes have taken place that have had a significant impact on the political and socio-economic condition of women in North Azerbaijan, especially in the 20th century, and this movement played an important role in the socio-political, socio-economic and cultural life of the country. Azerbaijani women have an exceptional place in the formation of the national and moral values of the people.



***Keywords:*** *the first women's schools, the Ishyg newspaper, movement for women's freedom, the Baku Muslim Women's Charitable Society, Khadija Alibekova, Khanifa Malikova, the 1st Congress of Azerbaijani Women, women's branches, Aina Sultanova, women's councils, Ziba Ganieva, Shamama Hasanova, Tahira Takhirova, Elmira Kafarova*

UOT 94 (479.24)

**TOFİQ NƏCƏFLİ**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,*
*şöbə müdiri, tarix elmləri doktoru, dosent,*
*tofignajali@gmail.com, Azərbaycan*

# ŞAH SƏFİ DÖVRÜNDƏ SƏFƏVİ İMPERİYASININ BUXARA XANLIĞI İLƏ HƏRBİ-SİYASİ ƏLAQƏLƏRİ

***Açar sözlər:*** *Səfəvi dövləti, Şah I Abbas, Şeybanilər, Buxara xanlığı, Şah Səfi.*

XVI əsrin sonlarında Şah I Abbasın hərbi islahatları nəticəsində dövlətin əsas dayağı olan daimi nizami ordu yaradıldı, müdafiə qabiliyyəti gücləndirildi. 1598-ci ilin avqustunda nizami Səfəvi ordusu Herat yaxınlığında Puli-Salar döyüşündə Dinməhəmməd xan Özbəyin ordusunu məğlub etdi və Xorasan uğrunda yüz ilə qədər davam edən qarşıdurma Səfəvilərin qələbəsi ilə başa çatdı [bax: 3,1046-1051; 14,209]. Şeybanilər dövlətinə son qoyuldu, Herat, Mərv, Nisa, Əbivərd, Sistan vilayətləri özbəklərdən alındı, Səfəvi dövlətinin sərhədləri Amudərya çayına kimi genişləndirildi.

Buxara xanlığında hakimiyyətə Həştərxanilər sülaləsi gəldi. Özbəklər bir təhlükə mənbəyi sayılmayacaq səviyyəyə salındı. Onlar qüdrətli bir xanın rəhbərliyi altında birləşsələr də, nizam-intizamı çox güclü olan, odlu silahlarla təmin olunmuş və mükəmməl döyüş taktikasına malik olan Səfəvi ordusu qarşısında ənənəvi döyüş qaydalarını davam etdirən özbəklərin mühüm uğurlar əldə edəcəyini gözləmək olmazdı [7,21].

Xorasanın Səfəvilərin hakimiyyəti altına keçməsindən sonra Səfəvilərlə Buxara xanları arasında dinc münasibətlər bərpa olunmadı. Şah I Abbas Mərkəzi Asiyada hökm sürən daxili qarışıqlıqdan və vətəndaş qarşıdurmasından öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Baqi Məhəmməd xanın Mavəraünnəhrdəki qələbəsi Şah I Abbası keçmiş Şeybani mülkləri ilə bağlı planlarından əl çəkməyə məcbur etmədi; yalnız öz taktikasını bir qədər dəyişdirməyə vadar etdi. 1602-ci ildə Şah I Abbasın Bəlx səfəri uğursuz olsa da, Səfəvi dövlətinin hərbi qüdrətini nümayiş etdirdi [bax: 4,1140-1147; 1,277].

1611-ci ildə Vəli Məhəmməd xanın ölümündən sonra Buxara taxtında qardaşı oğlu İmamqulu xan (1611-1641) oturdu. Buxarada İmamqulu xanın hakimiyyətdə möhkəmlənməsi ilə Səfəvi imperiyası ilə münasibətlərdə qısa müddətli sakitlik dövrü başlandı. Şah I Abbasın Osmanlı imperiyası ilə apardığı müharibədə parlaq qələbələr əldə etməsi onun qonşularını, xüsusən də özbəkləri onunla hesablaşmağa vadar etdi. Özbəklərin qarətedici hücumları nəinki uzun müddət dayandırıldı, hətta bu dövrdə Əndixudla Xəzər dənizi arasındakı ərazidə yaşayan türkmənlər belə Səfəvi şahının müttəfiqinə çevrildilər [12,76].

Lakin Şah I Abbasın Osmanlı dövlətinə qarşı növbəti müharibəyə cəlb olunması Buxara xanının Xorasana hərbi yürüşlərinə şərait yaratdı. Şah I Abbas Osmanlılara qarşı müharibəni davam etdirdiyinə görə özbək xanlarının Xorasana hücumlarının qarşısını ala bilmədi. Bu dövrdə Səfəvi imperiyası ilə Buxara xanlığı arasında münasibətlərin gərgin olduğunu 1620-1622-ci illərdə Buxarada olan rus elçisi İvan Xoxlovun məlumatları da təsdiq edir [16,420; 8,81]. Rus elçisinin verdiyi məlumat bir daha təsdiq edir ki, bu dövrdə Şah I Abbasla Bəlx hakimi arasında münasibətlər xeyli gərgin olmuşdu. Nədr Məhəmməd xanın Xorasana qarətedici hücumları iki dövlət arasındakı münasibətlərin pisləşməsinin əsas səbəbi olmuşdu.

XVII əsrin 20-ci illərində Səfəvi imperiyası ilə Buxara xanlığı arasında hərbi-siyasi gərginliyin davam etməsi Şah I Abbas üçün məqbul deyildi. Səfəvi hökmdarı Osmanlı imperiyasına qarşı müharibə apardığına görə özbəklərlə uzunmüddətli sülhə nail olaraq şərq sərhədlərinin təhlükəsizliyini təmin etməyə çalışırdı. Sə-

fəvi nizami ordusunun Xorasana göndərilməsi Buxara xanını öz elçisini göndərərək danışıqlara başlamağa vadar etdi. Tərəflər arasında danışıqlar uğurla başa çatdırıldı və barışıq imzalandı. Bununla da iki dövlət arasında qarşılıqlı əlaqələrdəki gərginlik aradan qaldırıldı, dostluq əlaqələri Şah I Abbasın ölümünə qədər qorunub saxlanıldı. Məhz İmamqulu xanın hakimiyyəti illərində özbəklər əvvəlki dövrlərdən fərqli olaraq, Səfəvilərlə mübarizəyə xüsusi əhəmiyyət vermədilər. O da məlumdur ki, Səfəvi ordusunun Xorasanda baş verən hadisələrə fəal müdaxiləsi nəticəsində özbəklər geri çəkilməyə məcbur qalaraq tarixi reallıqlarla barışmalı oldular. Buna görə də, İmamqulu xan Osmanlıların Səfəvilərə qarşı hərbi ekspedisiya göndərmək təklifinə müsbət cavab vermədi [5,569].

1629-cu ilin yanvarında Şah I Abbas vəfat edəndə, oğlu sağ qalmadığından Qızılbaş əmirləri tərəfindən nəvəsi Sam Mirzə* Şah Səfi adı ilə 17 fevral 1629-cu ildə İsfahanda Ali Qapı sarayında taxta çıxdı [6,75]. Şah Səfi (1629-1642) dövründə Osmanlı imperiyası ilə hərbi əməliyyatların davam etməsi ölkədəki sosial-iqtisadi vəziyyəti daha da çətinləşdirdi, baş vəzir Sarı Tağı xan buna qarşı tədbirlər görməyə çalışdı. Bəlx hakimi Nədr Məhəmməd xan və əmirləri Səfəvi dövlətində hakimiyyət dəyişikliyi səbəbindən yaranan qarışıqlıqdan istifadə etmək istədilər. Daim anarxiya və qarışıqlıqdan istifadə etməyə çalışan üsyançılar iğtişaşlara can ataraq hər yerdə başlarını qaldıranda, özbək tayfası, Nədr Məhəmməd xanın adamları da ordu yığaraq nəzakət dairəsindən kənara çıxdı. 1629-cu ilin yayında Nədr Məhəmməd xanın qoşunları Meymənə hakimi Uraz Quşbəyinin komandanlığı altında Səfəvilərin nəzarətindəki Badğis vilayətinə soxuldular. Onlar basqın edib vilayəti viran qoydular, Badğis vilayətinin taxıl zəmilərini yandırdılar, həmçinin Maruçaqda və onun ətrafında hər şeyi dağıdaraq darmadağın etdilər. Özbək ordusu Maruçaq qalasına gələrək onun yaxınlığında düşərgə qurdu [6,107].

Maruçaq hakimi Hüseyn sultan yanında olan şamlı döyüşçüləri və digər qüvvələrlə qalanı müdafiə etmək qərarına gəldi. Qala qarnizonunun qaladan çölə çıxması və heç bir fayda gətirmədən düşmənlə vuruşması kimi bir vərdiş olmasa da, Maruçaq döyüşçüləri qala hakiminin həddindən artıq igidliyini, şücaətini və cəsarətini nəzərə alaraq hər gün dəstə-dəstə qala qapılarından çıxdılar, özbəklərlə döyüşdülər və hər dəfə bir neçə məşhur baqatır öldürüldü, müdafiəçilərdən də bir çoxu həlak oldu. Özbəklər 12 gün idi ki, qala di-varları qarşısında idilər, qalaya yaxınlaşa bilmədiklərini gördükdə, qarşıya qoyulmuş vəzifəni yerinə yetirməkdən ümidlərini kəsdilər və tamamilə uğursuzluğa düçar olaraq geri çəkildilər [6,107].

Bu zaman Nisa və Dərunda yürüşdə olan Xorasan ordularının komandanı Zaman bəy Maruçaq qalasının mühasirəyə alındığını öyrənərək, vəziyyəti bərpa etmək və mühasirədə olanları ərzaqla təmin etmək üçün Məcnun bəy Bəcistaninin rəhbərlik etdiyi hərbi dəstəni oraya göndərdi. Uraz bəy onun qarşısını almaq üçün min nəfərlik bir qüvvə göndərdi. Maruçaq yaxınlığında Məcnun bəyin qüvvələri Uraz Quşbəyinin dəstəsi ilə qarşılaşdı. Baş vermiş döyüşdə özbəklər məğlub oldu və bir çox əsgərləri öldürüldü. Uraz Quşbəyi bu dəstənin ardınca Səfəvilərin əsas qüvvəsinin onlara doğru irəlilədiyi barədə məlumat aldığına görə qalan əsgərləriylə tələsik qaçdı. Uraz Quşbəyinin və Yalangtuş bəyin qardaşı oğlanları da daxil olmaqla bir çox özbək Səfəvilər tərəfindən əsir götürüldü [24,34; 22,36].

İkinci dəfə Bala Murqaba gələn özbək ordusu, orada Maruçaq qalasına tab gətirə biləcək bir qala tikmək istədi. Xosrov sultan və Maruçaq döyüşçüləri onlara qarşı hərəkət etdi və tərəflər arasında döyüş baş verdi. Döyüşdə Maruçaq döyüşçüləri qalib gəldilər, özbəklərin çoxu qırıldı və özbək ordusu heç bir şey əldə etmədən geri döndü [12,107].

Uraz bəy Xorasan hakimi Zaman bəyə məktub yazaraq etdiyi hərəkətlərə görə üzr istədi, baş verən hadisənin məsuliyyətinin onun üzərində olduğunu bildirdi. O, Şah I Abbasın hakimiyyəti dövründə mövcud olan sülh və dostluğa əməl etməyə çalışacağını, Nədr Məhəmməd xanın barışıq istədiyini, Şah Səfiyə baş sağlığı və təbrik üçün bir elçi göndərəcəyini söylədi. Zaman bəy cavab məktubunda dinc münasibətlərin qurulması ilə bağlı onun təkliflərini dəstəklədi və Mavəraünnəhr özbəklərinin

* *Sam Mirzə Şah I Abbasın oğlu Məhəmməd Bağır Mirzənin oğludur.*

Xorasan ərazisinə hücumlarını dayandıracaqlarını vurğuladı [bax: 20,61-63; 22,114].

Uraz bəyin göndərdiyi məlumat Şah Səfiyə çatdırıldı. Səfəvi şahı Osmanlı dövlətinin Bağdada hücum edəcəyini gözlədiyindən Uraz bəyin üzrxahlığını qəbul etdi və diqqətini Bağdada yönəltdi. Bununla yanaşı, Şah Səfi 1629-cu ilin noyabrında baş verən qarşıdurmalar zamanı tutulan və ona gətirilən özbək əsirlərini də sərbəst buraxdı. Buna cavab olaraq İmamqulu xan, Çaharcuyda tutulan iki Səfəvi əsirini azad etdi. Səfəvi-Özbək sərhədində barışıq demək olar ki, 18 ay davam etdi. Şah Səfi Xorasandakı barışıqdan istifadə edərək Bağdada bir tüfəngçi dəstəsi göndərdi [9,177].

Elə həmin vaxt Xorasan bəylərbəyinin tabeçiliyinndə olan və Herat ətrafında toplaşan qıpçaqlar üsyan qaldırmağı qərara aldılar. Xorasan bəylərbəyi Həsən xan Şamlı onları cəzalandırmaq məqsədilə Heratdan hərəkətə başladı. O, böyük bir qoşunla qiyamçıların üzərinə getdi, onların əsas rəhbərlərini ələ keçirərək ağır cəzalandırdı. Həmin üsyançı dəstə üzvləri ağır cəza aldığına görə digərləri özlərini nəzakətlə aparmağa başladılar. Həsən xan edam edilən üsyançıların başlarını Sah Səfiyə göndərdi [12,107; 18,237].

Beləliklə, Xorasan ordusunun baş komandanı Zaman bəy, yuxarıda qeyd edildiyi kimi, Nisa və Dərun qalalarında işlərini başa çatdıraraq Məşhədə gəldi və orada da bütün zəruri işləri həyata keçirdi. Sonra qərara alındı ki, Herata getsin, özbəklər tərəfindən törədilən özbaşınalığı aradan qaldırsın. Maruçaq və Neretu qalalarındakı nizamı bərpa etmək və bu ətrafdakı işləri təşkil etmək üçün Zaman bəy Məşhəd hakimi Mənuçöhr xanın, hərbi sərkərdələrin və döyüşçülərin müşayiəti ilə oraya hərəkət etdi. Herat bəylərbəyi Həsən xan onları qarşılamaq üçün Guriyan qalasından çıxdı, yaxınlıqda görüşdükdən sonra bəhs olunan qalalarda işi nizama salmaq üçün birlikdə getdilər və Maruçaq qalasına təxminən 3 min xarvar ehtiyat buğda daşıdılar. Maruçaqı qorumaq üçün təxminən 500 nəfər "tüfəngçi" təyin edərək, qala üçün lazım olan digər malları göndərdilər. Şahın ordusundan təxminən 200 nəfər tüfəngçi göndərdilər ki, onlar yolda daşınan bütün təchizatı və silahları qorusunlar və onları qalaya çatdırıb geri qayıtsınlar. Onlar özləri də düşərgədən Herata hərəkət etdilər və eyni şəkildə Xorasanın məşhur qalalarından biri olan Neretu qalası üçün lazım olan hər şeyi təşkil etdilər [12,108].

Lakin bu zaman Maruçaq vilayətində qızılbaşların avanqard dəstəsi ilə görüşən özbək qoşunu arasında toqquşma baş verdi. Tərəflər arasında baş verən döyüş nəticəsində qızılbaşlar qalib gəldi və özbək dəstəsi məhv edildi. Tüfəngçibaşı və qızılbaş əsgərləri adı çəkilən tapşırığı yerinə yetirdilər, sursatı və silahları qalaya gətirərək qala hakiminə təhvil verərək geri qayıtdılar [13,108].

Xorasanda qızılbaşlarla özbəklər arasında baş verən qarşıdurmaları nəzərə alan Nədr Məhəmməd xan tərəfindən Çiçəktu və Meymənə hakimi, tanınmış özbək hərbi sərkərdəsi Uraz bəy Qızılbaş vilayətlərində – Maruçaq və Murqabda sərhəd xətlərini qorumaq üçün təyin edildi [12,108].

1630-cu ildə Xorasan sərhədindən hərbi komandirlərin Şah Səfiyə göndərdiyi məlumatlardan məlum oldu ki, özbəklər Xorasan qoşunlarının keçmiş komandanı Zaman bəy ilə Bəlxin tanınmış özbək əyanları arasında bağlanmış sazişin şərtlərini tamamilə unutmuşlar. Çiçəktu hakimi Uraz bəydə yenidən üsyankar düşüncələr baş qaldırmış və Maruçaq qalasını fəth etmək üçün qoşunlara rəhbərlik etmək istəyi ortaya çıxmışdır. Bu məlumatlarda həmçinin, Maveraünnəhr hökmdarı İmamqulu xan tərəfindən Mərv qalasını fəth etmək üçün göndəriləcək böyük bir ordu Çarcuydan keçəcəkdi [12,108].

Səfəvi hökumətinin yüksək vəzifəli şəxsləri tanınmış qızılbaş əmirinin rəhbərlik etdiyi şah qoşununu Xorasana göndərməyi faydalı hesab etdilər ki, əgər hücum hadisəsi həqiqətən baş verərsə, Xorasanda olan bəylərbəyilər və qızılbaş qoşunları ölkənin müdafiəsini təşkil edərək düşməni dəf edə bilsinlər. Hökumətə sadiq olan təcrübəli və bacarıqlı şəxslərin hər birinin namizədliyi diqqətlə nəzərdən keçirildikdən sonra bu səlahiyyətin vaxtı ilə Şah I Abbasın süfəçibaşısı olan, onun zamanında fədakarlıq göstərərək taleyin sınaqlarında sınanmış olan Xələf bəyə verilməsi münasib bilindi. O, şah ordusunun komandanı adına layiq görüldü. Onu müşayiət etmək üçün Xorasan tüfəngçı dəstələri, şah tüfəngçi alayı və Qızılbaş alaylarının bir hissəsi təyin edildi. Xələf bəy ehtiyac duyulduğunda Xorasan tayfalarından uyğun və sərrast

tüfəngçilərin şah alayına daxil edilməsi, iman və dövlət naminə düşmənlərə qarşı müharibəyə başlaması üçün fərman verildi. Xələf bəy şahın əmrinə əsasən, İsfahandan yola çıxaraq Xorasana hərəkət etdi [12,109].

Məhz bu dövrdə vaxtı ilə Şah I Abbasa sığınan Rüstəm Məhəmməd sultan yaranmış vəziyyətdən yararlanaraq Bəlx sərhədinə qədər dağıdıcı yürüşlərinə başladı. O, 1631-ci ildə Bəlx sərhədlərini pozaraq Maruçaq, Meymənə və Cuzcana hücum edərək bölgəni qarət etdi. Bundan sonra, o, həmin ilin ba-harında Herat və Məşhəd hakimləri Zeynal xan və Hüseynqulu xan ilə əlbir olaraq bu basqını yenidən təkrarladı. Yalangtüş bəy atalıq, Baqi bəy divanbəyi və Buxara xanlığının digər hərbi rəhbərləri onu təqib etdilər. Rüstəm Məhəmməd xanın bu hücumlara tab gətirə bilməyən qoşunları Maruçaq qalasına sığındı. Əbdüləziz sultan qalanı mühasirəyə almağa çalışsa da, bacara bilmədi. Sonra Nədr Məhəmməd xan ora yeni qüvvələr göndərdi, onlar da qalanı fəth edə bilmədilər. Bununla belə, müttəfiqlərin qüvvələrinin Həştərxanilərin qüvvələrindən çox zəif olduğu tamamilə özünü büruzə verdi. Buna görə də mühasirədə olanlarla danışıqlar aparıb barışıq imzaladılar. Barışığın şərtlərinə görə Rüstəm Məhəmməd xan və tərəfdarları qarət etdikləri bütün malları qaytarmalı və Bəlx hakiminə xərac ödəməli idilər. Əldə olunmuş barışığa görə müttəfiqlərin müntəzəm olaraq Bəlxə xərac göndərməyi öz üzərlərinə götürmələri onların zəif olduğunu bir daha təsdiq edirdi [18,243; 17,152].

Lakin bu da, özbəklərin Xorasana hücumlarını dayandırmadı. 1631-ci ilin yazında özbəklər Bala Murqab və Badğisə hücum etdilər. Badğisi ələ keçirməyə çalışan özbəklər Herata kimi irəliləyə bildilər. Lakin Heratdan səkkiz kilometr şərqdə Çaharbar adlı yerdə Herat hakimi Həsən xan İmamqulu xanın qoşununu məğlub edərək üç yüz nəfər əsir aldı. 11 may 1631-ci ildə Həsən xan Şah Səfiyə məktub yazaraq özbəkləri məğlub etdiyini və 300-ə yaxın əsir götürdüyünü bildirdi. Özbəklər 1631-ci ilin noyabrında yenidən hücuma keçdilər. Şibirğan hakimi Nədr Məhəmməd xanın oğlu Əbdüləziz sultan iki min nəfərlə Çicəktu və Badğisə hücum etdi. Badğisi talan edib bölgədəki qalaları dağıtdıqdan sonra atası tərəfindən əlavə qüvvə göndərilməsini gözləmədən Türbət-i Cam tərəfə getdi. Özbəklər Cam və Boxarz qalalarını da dağıtdılar. Həsən xanın izdihamlı bir ordu ilə onun üzərinə gəldiyini eşidərək ələ keçirdiyi qənimətlə birlikdə ölkəsinə qayıtdı [15,82,83; 9,179].

Rüstəm Məhəmmədin Übehdən Bəlxə hücum etdiyini öyrənən İmamqulu xan, Mərv valisi Aşur xan Çekeninin ölüm xəbərini aldığına görə Əbdüləziz sultana Xorasana hücum etməsini əmr etdi. O zaman Xorasanda böyük Səfəvi ordusu olduğuna görə İmamqulu xan önləyici bir səfər təşkil etmək istədi. Plana görə Nədr Divanbəyi Mərvə və Əbdüləziz sultan isə Maruçaqa hücum edəcəkdi [18,245].

Mərv qoşunları əsasən Qacar tayfasından təşkil olunduğundan və keçmiş hakim Mehrab xanın komandanlığı altında xidmət etdiyindən vilayət hakimiyyəti bu il Qəzvinə hakim və daruğa təyin edilmiş, artıq oraya getmiş Murtazaqulu bəyə həvalə edildi. Səfəvi şahı onun Qəzvindən Mərvə mümkün qədər tez getməsi üçün fərman verdi. Murtuzaqulu bəy təyinat yerinə yollandı. Lakin bir müddət sonra kəşfiyyatçılar belə bir xəbər gətirdilər ki, Mavəraünnəhr hökmdarı İmamqulu xan Nədr Divanbəyinin rəhbərliyi altında 15 minlik qoşunu Mərvə göndərib və onlar Mərv qalasını mühasirəyə alıblar. Mərv hakimi təyin olunmuş Murtazaqulu xan yaranmış vəziyyətdə çıxış yolu tapmadığına görə hələ də Məşhəddə gözləməli oldu [18,245]. Eyni zamanda Bəlx hakimi Nədr Məhəmməd xan oğlu Əbdüləziz sultanın, Yalangtuş Bahadırın və digər özbək hərbi rəislərinin başçılığı ilə 20 minlik ordunu Maruçaq qalasına göndərdiyinə görə Herat qoşunları və əhalisi arasında narahatlıq yarandı [12,109-110].

Bundan xəbər tutan Şah Səfi özbək qoşunlarına qarşı mübarizədə xorasanlılara yardım etmək məqsədilə cəsur Səfəvi sərkərdələri Rüstəm bəy və Xələf bəyi Xorasana yola saldı [22,123-124; 9,179]. Şah Səfi bu qoşunu Xorasana göndərməklə özbəklərə qarşı əvvəlki mərhəmətli siyasətini dəyişdirdi və and içdi ki, o, düşmənlərə qarşı bir daha mərhəmətli olmayacaq, onların riyakar vədlərinə və andlarına inanmayacaqdır [20,23].

Xələf bəy və Məşhəd bəylərbəyi Mənuçöhr xan həmin vilayətin tüfəngçiləri ilə birlikdə Mərvə yollanmağa qərar verdilər. Lakin bu za-

man Xorasan bəylərbəyi Həsən xandan bir çapar gəldi, Əbdüləziz sultan və Bəlx qoşunlarının Maruçaq qalasını mühasirəyə aldığını bildirdi. Xələf bəy və hərbi sərkərdələr qoşun toplamaq, hər iki tərəfdən (Maruçaq və Mərvdən) məlumat almaq və bundan sonra dövlətin xeyrinə və zamanın tələblərinə cavab verən hər şeyi həyata keçirmək üçün Məşhədə qayıtmaq və orada olmağı daha münasib hesab etdilər [12,110].

Mərvə hərəkət etmək bu səbəbdən təxirə salındı ki, vəzifəsindən geri çağrılan, lakin Xələf bəyin razılığı ilə Xorasanda öz xətalarını və günahlarını aradan qaldırmaqla məşğul olan Səbzvarın keçmiş hakimi Əhməd sultan Çekeni Mərvə getmək və məlumat almağa çalışdı. O, özü ilə bələdçi götürərək, heç kimə məlum olmayan yola getdi və Mərv qalasının yanına təhlükəsiz çatdı. Gecə yarısı o, gizli şəkildə qalanı mühasirəyə alan özbək dəstəsindən keçərək qalaya daxil oldu, heyrətamiz bir cəsarət, şücaət və qəhrəmanlıq nümunəsi göstərmiş oldu [12,110].

Bu zaman Murtazaqulq xan Mərvə getmək üçün Xələf bəydən böyük səylər hesabına icazə aldı, qala əhalisini gəlişi barədə xəbərdar etdi ki, onu gözləsinlər. O, özü ilə döyüşçülərin bir dəstəsini götürərək yola çıxdı. Murtazaqulu xan bələdçini irəli göndərməklə tanımadığı yol ilə getdi. Bələdçi qəsdən və ya istəmədən qeyri-adi yoldan çıxdı, Məşhəddən Mərvə gedən ümumi istifadə olunan və hamıya məlum olan Hauz-i xan vasitəsilə yoluna davam etdi. Təsadüfən 1500 nəfərlik özbək dəstəsi Məşhəd və Nişapur bölgələrinə hücum etmək məqsədi ilə Mərv yaxınlığındakı düşərgədən hərəkət edən zaman yolda adı çəkilən bələdçi ilə qarşılaşdı. Onlar bələdçini tutaraq ondan məktubu götürdülər və Murtazaqulu xanın özbək sərkərdəsinin istifadə etmək istədiyi yol ilə hərəkəti barədə məlumat aldılar. Onlar basqın etmək niyyətindən imtina edərək, Murtazqulu xanı ələ keçirməyi daha vacib və hər şeydən üstün hesab etdiklərindən bu yola yönəldilər. Səhrada uzun bir at çapışından sonra ona yetişdilər. Özbək ordusunun gözü qarşısında Murtazaqulu xan və əsgərləri ruhdan düşsə də, döyüşmək qərarına gəldilər [12,111].

Məhəmməd Məsum yazır ki, bundan əvvəl Mehrab xan Qacar ilə özbəklərin arasında baş vermiş döyüşlərin birində özbək qoşunlarının sərkərdəsi Qızılbaş ordusu tərəfindən əsir götürülmüşdü. Mehrab xan onun nəcibliyini və xidmətlərini öyrənərək, onunla mərdliklə davranmış, şahdan əfv olunmasını istəmişdi. İcazə aldıqdan sonra, onu insanlıq hisslərinin təsiri altında evinə göndərmişdi. Buna görə özbək sərkərdəsi Murtazqulu xana atasına minnətdar olduğunu xatırlatmaq məqsədilə bir elçi göndərdi. Onun təklifi belə idi: "Yanınızda az adam var, döyüş olsa, min beş yüz özbək üzərində qələbə qazanmaq mümkün deyil və siz dərhal həlak olacaqsınız. Daha uyğun olanı döyüşmək fikrindən əl çəkməli, bu qədər insanın qanını tökməmək daha məqsədəuyğun olardı, çünki döyüş olacağı təqdirdə hər iki tərəfdən də öldürülənlər ola bilər. Hətta qızılbaşların oxları və tüfəngləri özbəklərin bir hissəsini öldürsə də, qızılbaşlar son nəticədə hələ də sağ qalan özbəklərin öhdəsindən gələ bilməz. Mən söz verirəm ki, sənə özbək qoşunundan hər hansı bir zərər yetirilməsinə imkan verməyəcəyəm" [12,111].

Təkliflə razılaşmayan Murtazaqulu xan belə cavab verdi: "Nə qədər ki, mənim və yanımdakı insanların bir damla qanı, qolçanında bir oxu qalsa da, biz döyüşü dayandırmamağa çalışacağıq". Danışıqlar və gediş-gəliş qurtarandan sonra özbəklər silaha sarılıb döyüşməyə başladılar. Qızılbaş tüfəngçiləri özbək ordusunun hücumunu dəf etməyə başladılar və tərəflər arasında böyük döyüş baş verdi. Hər iki tərəfdən də bir neçə nəfər həlak oldu. Qaranlıq düşəndə tərəflər dağılışdı və gecələməyə başladılar. Gecə yarısı Murtazaqulu xan və sağ qalan döyüşçüləri Mərv qala divarlarına çatmağı düşünərək yola çıxdılar. Lakin yolu azıb başqa istiqamətə getdilər. Hava işıqlaşandan sonra onlar qalanın digər istiqamətdə qaldığını öyrəndilər. Ancaq onlar yaxınlıqdakı meşə talasına sığınsalar da, onları təqib edən özbəklər izlərini tapıb həmin yerə çatdılar. Özbək sərkərdəsi bir adam göndərdi və onlara mübahisələri buraxaraq, özlərini ölümə məhkum etməmələrini bildirdi [12,111].

Murtazaqulu xanın yoldaşlarından bir neçə nəfər həlak olmuş, qalanların isə artıq mübarizə aparmaq imkanı və gücü qalmamışdı. Çünki bir neçə nəfər yaralılar artıq hərəkət etmək gücünü itirmişdilər və əlavə olaraq bu çöldə suyun yoxluğundan ciddi əziyyət çəkirdilər. Buna görə Murtazaqulu xan təklifi qəbul etdi. Özbək sərkərdəsi Murtazaqulu xan və yoldaşlarını yanına

gətirmək tapşırığı ilə bir neçə etibarlı adam göndərdi. Onlar gətirildikdən sonra özbək sərkərdəsi Murtazaqulu xana qarşı alicənablıq göstərdi, yaralıları həkimə tapşırdı və onu özü ilə götürüb Buxaraya tərəf getdi [12,111-112].

Özbəklər Mərv qalasının mühasirəsinə böyük həvəslə başlamışdılar. Qalanın mühafizəçiləri Murtuzaqulu xanın əsir alınması ilə bağlı xəbər aldıqdan sonra çox əziyyətlər çəkdilər. Lakin onlar ruhdan düşmədilər, çaxnaşma salmadılar və əvvəllər olduğu kimi qalanı axıra qədər cəsarətlə müdafiə etdilər. Mühasirə davam edərkən Xələf bəy və Rüstəm Məhəmmədin də yardıma gəlməsi xəbəri özbəklərin əhval-ruhiyyəsini pozdu. Nədr Divanbəyi mühasirəni dayandırdı və böyük qənimətlə Buxaraya döndü [24,102-103; 12,112; 9,179].

Murtazaqulu xanı Buxaraya aparanda İmamqulu xan onu mərhəmətlə və xeyirxahlıqla qarşıladı, qohumluq əlaqələrinə riayət edərək şah və qızılbaşlarla barışdı. O, əməlindən və Mərvə qarşı qoşun göndərməsindən tövbə edərək, özbək qoşunlarına Mərvin mühasirəsini dayandırmaq və geri çəkilmək əmrini verdi. Sərəncama əsasən, özbək ordusu mühasirəni ləğv edib Buxaraya yollandı [12,112].

A.Barton yazır ki, İmamqulu xanın Murtazaqulu xan Qaçarla yaxşı davranmasına və xoş rəftarına səbəb onun cəsarətlə döyüşməsi ilə yanaşı, xanın anasının bir vaxtlar Murtazaqulunun atası ilə evli olması idi [9,179].

Yuxarıda qeyd etdiyimiz kimi, Əbdüləziz sultan Yalangtuş bəylə birlikdə 20 minlik qoşunla Maruçaqa yürüş etmişdi. Şiddətli döyüşdən və Saki Xoca adlı əmiri əsir düşdükdən sonra Maruçaq ələ keçirildi. Lakin bu vaxt Buxara hökmdarı İmamqulu xan Şah Səfi ilə atəşkəsə razılaşdığına görə qardaşı Nədr Məhəmməd xana bildirdi ki, qızılbaşlarla düşmənçilikdən və çəkişmədən əl çəkərək müharibəni dayandırdığına görə, Maruçaqın mühasirəsindən əl çəkmək lazımdır. Buna görə də Əbdüləziz sultana Maruçaqdan geri qayıtmaq əmri verildi [12,112].

Osmanlı ordusunun hücumu və gürcülərin üsyanı ilə bağlı Şah Səfi qərbdə çətin vəziyyətdə qalmışdı və əsgərlərə ehtiyac duyurdu. Buna görə Xorasana yolladığı ehtiyat qüvvələri yoldan qaytararaq Gürcüstana göndərmişdi. Səfəvi şahı da Saki Xocanı xoş niyyətin əlaməti kimi sərbəst buraxmışdı [9,180]. Lakin Qızılbaş əmirləri Xorasandakı atəşkəsə əməl etmədilər. Özbəklərin hücumlarına qarşı Mərv və Herata göndərilən əsgərlər uzunmüddətli yürüşdən sıxılmışdılar və qənimət toplamaq istədilər. Əbdüləziz sultanın Maruçaqdan ayrıldığını eşidəndə Rüstəm Məhəmməd və Həsən xanın əsgərləri onları təqib etdilər. Keçdikləri yerlərdən çox sayda əsir götürərək geri döndülər. Bir neçə aydan sonra Bəlxdəki ordunun tərxis olunacağını eşidəndə bu fürsətdən istifadə etmək istədilər. Bu dəfə Xorasan əmirlərinin başçısı Həsən xan, Abdulla Şamlı və Herat hakimi qoşunlarını toplayaraq 1632-ci ildə Çiçəktu və Meymənəyə hücum etdilər. Bu yerləri qarət etdilər və bir çox insanı əsir götürdülər. Aldıqları əsirləri Şah Səfiyə göndərdilər [22,129-130; 9,180].

1632-ci ilin iyul ayında Nədr Məhəmməd qiymətli hədiyyələrlə Vəqqas Hacı adlı elçisini Şah Cahanın sarayına göndərdi və taxta çıxması münasibətilə onu təbrik etdi. Kabildəki qarşıdurmalara görə üzr istədi və Səfəvilərə qarşı birgə hərəkət etməyi təklif etdi. Vəqqas Hacı yeddi ay sonra Şah Cahanın elçisi Tərbiyət xanla birlikdə geri döndü. 1633-cü ilin martında Tərbiyət xan Şah Cahanın uzun bir məktubunu Nədr Məhəmmədə təqdim etdi. Tərbiyət xanın gəlişi, Şah Cahanın Nədr Məhəmmədin üzürünü qəbul etməklə yanaşı, Vəqqas Hacı Hindistanda olarkən Bəlxə sığınmaq istəyən rəqibi Baysungurun istəyinin rədd edilməsini də yüksək qiymətləndirdi. Buna görə də Baysunqur Səfəvi sarayından sığınacaq istədi. Şah Cahan məktubunda Səfəvilərə qarşı birgə hücumun Nədr Məhəmmədin iştirakı ilə müzakirə edilməsinin vacib olduğunu söylədi [9,181].

Şah Cahanın ona münasibətindən və Səfəvilərə qarşı birgə fəaliyyət təklifindən məmnun olan Nədr Məhəmməd xan 1633-cü ilin mart ayında Sərəxsə və Zorabada qoşun göndərdi və əlavə ordu toplamağa başladı. 1633-cü ilin mayında Mərv valisi Murtazaqulu xan Şah Səfiyə məktub yollayaraq sərhədlərə yaxın ərazilərdə böyük bir ordunun toplandığını və bu ordunun Xorasana hücumundan şübhələnildiyini bildirdi. Qısa müddətdən sonra Yalangtuş bəy Sərəxsi ələ keçirdi və burada min nəfərlik bir hərbi dəstə yerləşdirdi. Şah Səfi böyük ordu toplayaraq Xələf bəy və Rüstəm Məhəmmədin rəhbərliyi altında bölgəyə göndərdi. Səfəvi ordusu

sentyabr ayında Sərəxsi azad etdi və 200 nəfəri əsir götürdü. Komandirlərdən savayı əsirlərin hamısı öldürüldü. Şah Səfi özbəklərin yenidən hücum etməsinin qarşısını almaq üçün Yalangtuşun qardaşı oğlu da daxil olmaqla əsirləri azad etdi. Lakin özbəklər məğlub olduqları üçün müharibədən əl çəkmədilər və dekabr ayında Əbdüləziz sultan Cam bölgəsini talan etdi. Buna görə Şah Səfi 1634-cü ilin yanvarında Əmir xanı Xorasanın əmirül-ümərası təyin etdi və ona ordu toplamaq əmri verdi [9,182].

Maruçaqa uğursuz yürüşündən sonra Bəlx hakimi Nədr Məhəmməd xan Səfəvilərlə yaxşı münasibətlər qurmağa qərar verdi və öz elçisini İsfahana göndərdi. Lakin oğlu Əbdüləziz sultan buxaralılara qoşularaq tərəflər arasında əldə olunmuş razılığı pozdu. 1634-cü ilin mart ayında Əbdürrəhman Uşunun komandanlığı altında 12 minlik özbək ordusu Heratın şimalındakı Kusuya bölgəsinə hücum etdi, çoxlu qənimət ələ keçirərək geri qayıtdı. Əbdürrəhman Uşunun əldə etdiyi uğurdan ruhlanan Əbdüləziz sultan bir neçə həftə sonra 20 minlik ordu ilə Kusuya bölgəsinə növbəti yürüşə başladı. Bölgə əhalisi qalalara çəkilərək müdafiə olunduna görə Kusuya hücumdan imtina edildi və cənubda Fərəhə doğru gedildi. Lakin buradakı qala çox sərt olduğundan onlar hücumdan imtina edərək geri qayıtdılar [9,184].

1634-cü ilin ortalarında Əbdüləziz sultanın komandanlığı altında Buxara qoşunları dörd minlik ordu ilə Cam və Xavofa hücum edərək soyğunçuluq və talançılıqla məşğul oldular. Xorasanın Səfəvi qoşunları döyüş bölgəsinə yaxınlaşdıqda buxaralılar geri çəkildilər [22,174]. Bundan sonra Əbdüləziz sultan 20 minlik ordu toplayaraq Xorasanın Hüsəviyyə və Fərəh ərazilərinə yürüş etdi. O, iyirmi gün ərzində Fərəh qalasını mühasirədə saxlasa da, ala bilmədi və Bəlxə qayıtdı. 1634-cü ilin oktyabr-noyabr aylarında Əbdüləziz sultan üç minlik ordu ilə Məşhəd, Səbzəvar və Cama hücum etdi və bu şəhərləri talan etməyə başladı. Əmir xan Suğlan Qorçibaşının komandanlığı altında qızılbaşlar Məşhəd, Səbzəvar və Herat hakimlərinin qoşunları ilə birləşərək Təcərrüd bölgəsində Buxara qoşunlarının yolunu bağladılar. Burada üç min Buxara əsgərinin öldürüldüyü şiddətli döyüş baş verdi. Əbdüləziz sultan çətinliklə xilas ola bildi, bütün əsirlər azad edildi və ələ keçirilən qənimətlər geri qaytarıldı [22,207-208; 15,83-84]. Əmir xan Əbdüləziz sultanın təbillərini, bayraqlarını, silahlarını, xəzinəsini, kitabxanasını, atlarını və dəvələrini ələ keçirdi. Əbdüləzizdən alınan qənimət Şah Səfinin yanına gətiriləndə onları Rüstəm Məhəmmədə verdi. Beləliklə, Rüstəm Məhəmmədin Özbək taxtı üzərindəki iddiasını dəstəklədiyi mesajını verdi [22,38; 18,245; 15,84].

Lakin Səfəvi şahının qələbə sevinci uzun sürmədi. Belə ki, iki həftə sonra Əbdüləziz atasının icazəsi olmadan və əmisinin qəti qadağasına baxmayaraq, qisas almaq məqsədilə Xorasana yenidən yürüş etdi. Yol boyu bir çox qalaya və kəndlərə hücumlar etdi. Xorasandakı qızılbaş əsgərlərinin Məşhəddə toplandığını xəbər alaraq planlarını dəyişdirdi və Məşhəddən Nişapura tərəf hərəkət etdi. O, ordusunu iki yerə ayırdı, bir hissəsini Qain və Tun üzərindən Nişapura yolladı, özünün rəhbərliyi altında olan qüvvələr də Türbət-i Cama hərəkət etdi. Lakin böyük bir Səfəvi qoşununun üzərinə gəldiyini eşidərək geriyə çəkildi [9,185].

Əbdüləziz sultan Bəlxə qayıtdıqdan sonra icazəsiz hərbi yürüşə getdiyinə görə atasından üzr istədi. Atası uğur qazandığına görə onu bağışladı və hədiyyələr verdi. Sonra onu əmisi İmamqulu xanla barışmaq üçün Səmərqəndə göndərdi. Əbdüləziz sultan və atası Əbdürrəhman Uşunla birlikdə 21 fevral 1635-ci ildə Buxaraya gəldilər. Əmisi İmamqulu xan da Əbdüləzizi bağışladı və uğurunu qiymətləndirdi. Əbdüləziz Buxarada olarkən Xorasandakı Səfəvi əmirləri intiqam almaq üçün ona məxsus Çiçəktunu qarət etdilər. Nədr Məhəmməd xan Yalangtuş bəyi bölgəni müdafiə etmək üçün göndərdi. Yalangtuş bəy bölgəyə gələndə Səfəvi qoşunu artıq qayıtmışdı [9,186].

Səfəvilər tərəfindən məğlubiyyətin qisasını almağa çalışan Əbdüləziz sultan 1636-cı ilin iyul-avqust ayında 3 minlik qüvvə ilə yenidən Xorasana hücum etdi. Xorasanlılar bu hücumdan xəbərdar idilər, buna görə yaxşı hazırlaşdılar və düşmənə sarsıdıcı zərbə vurdular. Buxara xanlığının qüvvələri geri çəkilmək məcburiyyətində qaldı [9,187].

1637-ci ilin mayında Nədr Məhəmməd xan Xorasana yenidən qoşun göndərdi. Onun Xorasana hücumuna səbəb müttəfiqləri Osmanlı və Moğol imperatorlarına dəstək olmaq istəməsi

idi. Çünki Osmanlılar Bağdadı, Moğollar isə yenidən Qəndəharı ələ keçirmək üçün Səfəvilərə hücum etməyə hazırlaşırdılar. Bu zaman həm də, Səfəvilərin Xorasan əmirül-ümərası Əmir xanın qəfil ölüm xəbəri alınmışdı. Osmanlılar Bağdada hücum etməyə başladıqları üçün Səfəvi ordusunun əksəriyyəti Bağdadda olduğundan Xorasanda çox az sayda əsgər qalmışdı [9,190]. Səfəvi şahı özbək hücumunun qarşısını almağı Siyavuş xan Qullarağasına həvalə etdi. Bu vaxt özbəklər artıq Cam bölgəsinə gəlmişdilər. Siyavuş xan oraya çatmadan əvvəl Səbzvar hakimi Məhəmməd sultan və Çəmişgəzək hakimi Yusuf sultan özbəklərlə vuruşaraq onları artıq məğlub etmişdi. Lakin Allahverdi Bahadır və Əlimurad Bahadır özbəklər tərəfindən əsir alınmışdı [18,255].

Özbəklərin Xorasana hücumları 1637-ci ilin payızında da davam etdi. Nədr Məhəmməd xan orduya özü rəhbərlik etmək istəsə də, əmirləri onu qoşuna Əbdüləziz sultanın rəhbərlik etməsinə inandıra bildilər. Yürüş Badğis bölgəsində qazanılan uğurlarla başladı. Bundan sonra özbək ordusu Herata tərəf hərəkət etdi. Lakin Əbdüləziz sultan əsgərləri şəhərə yaxınlaşan kimi onun əmrlərinə tabe olmayaraq hücuma keçdiyinə görə xeyli itki verməsindən çox əsəbiləşdi. Buna görə ölən əsgərlərin dəfn edilməsini qadağan etdi və hamının görməsi üçün onları dəvələrə yüklədi. Bu zaman Xorasan hakimlərinin Heratı xilas etmək üçün Məşhədə toplandığını eşitdi. Əbdüləziz sultan Səfəvi ordusunun şəhəri tərk etməsindən sonra Məşhədə gözlənilməz hücum etməyi düşünürdü. Ancaq düşünülən yürüş sürət və səy tələb edirdi. Özbək əsgərləri Səfəvi qoşununu görər-görməz onlara hücum etdilər. Qızılbaşlar özünü sanki onlardan qaçan kimi göstərərək onları pusquya saldı. Nəhayət, hər iki tərəfdən komandirlərin öldüyü qanlı bir döyüş başladı. Əbdüləziz sultan Məşəhədi mühasirəyə almağı düşünsə də, şəhərin möhkəmləndirildiyini görüb geriyə qayıtdı [9,191].

1638-ci ildə Osmanlı ordusunun ciddi müqavimətə baxmayaraq Bağdadı ələ keçirərək Ərəb İraqına yiyələnməsi Səfəvi şahını çıxılmaz vəziyyətə saldı. Bu zaman Moğol hökmdarı Şah Cahan yaranmış vəziyyətdən yararlanaraq Qəndəharı ələ keçirdi. Şübhəsiz ki, belə bir vəziyyətdə Özbək sultanları da Səfəvi imperiyasının düşdüyü gərgin hərbi-siyasi vəziyyətdən istifadə edir və Xorasana yürüşlərini dayandırmırdılar [2,9].

Məhəmməd Məsumun verdiyi məlumata görə, 1641-ci ildə Yalanqtuşun rəhbərliyi altında özbəklərin Mərvi ələ keçirmək cəhdinin də qarşısı alındı. Xələf bəyin və Herat hakimi Həsən xanın birləşmiş qüvvələri Tacardu kəndində özbək qüvvələrini qarşılayaraq ağır məğlubiyyətə uğratdı. Üç min qüvvə itirən özbəklər geri qaçmağa məcbur oldular. Şah Səfi özbəklər üzərində əldə olunan bu qələbəni yüksək qiymətləndirərək döyüşdə fərqlənmiş əsgərlərə fəxri paltarlar və qiymətli hədiyyələr verdi [22,44; 15,85].

XVII əsrin 40-cı illərinin əvvəllərində bölgənin siyasi həyatında baş verən köklü dəyişikliklər Herat üçün yaranmış təhlükəni xeyli azaltdı. İmamqulu xan kor olduqdan sonra qardaşı Nədr Məhəmməd xan taxt-taca dəvət edildi. Bu hadisə artıq Xorasana qarşı hücum siyasətini davam etdirmək üçün kifayət qədər gücə sahib olmayan Nədr Məhəmmədin oğlanları arasında çəkişmələrə səbəb oldu [17,153].

1641-ci ilin mayında İmamqulu xan gözlərindəki iltihab səbəbiylə bağlı taxtdan imtina etdi və hakimiyyətə qardaşı Nədr Məhəmməd xan gətirildi. Taxtını Nədr Məhəmməd xana verən İmamqulu xan Məkkəyə getməyə qərar verdi [19,6901].

İmamqulu xan Hindistan üzərindən Məkkəyə Həcc ziyarətinə getmək niyyətində idi. Lakin Nədr Məhəmməd xan qardaşının Hindistan hakimi Şahca xanın sarayına getməsini istəmirdi. O, qardaşının topladığı bütün var-dövlətini mənimsəyərək onu Səfəvi ərazisindən Məkkəyə göndərdi [21,360-361; 25,271-272]. Bu barədə Məhəmməd Saleh Kanbu Laxuri yazır ki, İmamqulu xan ehram geyinərək Hindistandan Həccə getmək niyyətində idi. Lakin Nədr Məhəmməd xan belə qərara gəldi ki, xan oraya İraq yolu ilə, yəni Səfəvi ərazisindən getməlidir. Eyni zamanda Həcc ziyarətində xanın yaxınlarından heç kimin, hətta Məkkəyə səfəri zamanı xanın yanında olmaq istəyən sevimli arvadı Oyxanımın da ziyarətə getməsinə icazə vermədi. İmamqulu xanı Səfəvi sarayına göndərərək bütün sərvətini mənimsədi [23,288].

Bu dövrdə Səfəvi imperiyası ilə Buxara xanlığı arasındakı ikitərəfli münasibətlərdəki

mühüm siyasi hadisələrdən biri də İmamqulu xanın müqəddəs Kəbəni ziyarət etmək üçün Məkkəyə getmək istəyi ilə bağlı Səfəvi sarayına gəlməsidir [13,93]. İmamqulu xan min nəfərlik məiyyəti ilə Həcc ziyarətinə yola düşdü. Ancaq onlar yolda Nadir Məhəmməd xanın göndərdiyi dəstə tərəfindən qarət olundu və bəzi heyət üzvləri öldürüldü. İmamqulu xan bir neçə nəfərlə Karakul və Çaharcuy üzərindən Mərvə qaçıb xilas oldu. Mərv hakimi Murtazaqulu xan Qacar İmamqulu xanın Mərvə gəlişi ilə bağlı dərhal Şah Səfiyə məlumat verdi. Bütün məsul şəxslərə və İmamqulu xanı müşayiət edən adamların keçməli olduğu şəhərlərin hakimlərinə lazımi əmrlər verildi. Onlar xanın Səfəvi ərazisindən keçən bütün yol boyu qarşılamalı və müşayiət etməli idilər. Nədr Məhəmməd xan qardaşına yaxşı davranmaq üçün Şah Səfiyə iki elçi göndərdi. Məhəmməd Yusuf adlı birinci elçi 6 aprel 1642-ci ildə Kaşanda Şah Səfi ilə görüşdü. İkinci elçi həmin ilin may ayında Səfəvi sarayına gəldi. 1642-ci ilin fevralında şahın əmri ilə Buxara xanının qarşılanması Murtazaqulu xana həvalə edildi. Şahın bu hərəkətinin əsas məqsədi Nədr Məhəmməd xana qarşı əsas təzyiq rıçaqını ələ keçirmək idi ki, o, gələcəkdə Səfəvilərə hücum etməkdən çəkinsin [20,295; 9,209].

Şah Səfi Nədr Məhəmməd xanın elçisi Məhəmməd Yusifə qarşı mehriban davrandı. Səfəvi şahı hətta elçini İstanbuldan, Moskvadan və Hindistandan gələn elçilərlə birlikdə ova da dəvət etdi. Şah Səfinin Buxara xanının elçisinə xoş rəftarın, qarşılanacaq keçmiş Buxara xanı İmamquluya isti münasibətə səbəb bu idi ki, Şah Səfi Qəndəharı geri almaq üçün Xorasana qoşun göndərmişdi. Buna görə Nədr Məhəmmədin xanın dəstəyini almağa və ya bitərəfliyini saxlamağa çalışırdı. Lakin Səfəvilərin Qəndəharı almaq planları 1642-ci ilin may ayında Şah Səfinin qəfil ölümü ilə yarımçıq qaldı [10,98].

Şah Səfi dövründə Səfəvi imperiyasının Buxara xanlığı ilə münasibətlərinin təhlili göstərir ki, Səfəvi dövlətində mərkəzi hakimiyyətin zəifləməsi və Şah Səfinin Osmanlı dövləti ilə müharibə aparmasından istifadə edən özbək xanlarının Xorasana ardıcıl yürüşləri davam etmişdi. Özbək xanları ilə başlıca toqquşmalar Herat və Mərvdə baş verirdi. Bütün bunlara baxmayaraq, Səfəvi şahı əsasən Xorasanın yerli şəhər və qala hakimlərinin səyi nəticəsində Şah I Abbas dövründə dövlətin bərpa edilmiş şərq sərhədlərini qoruyub saxlamağa nail olmuşdu.

## Ədəbiyyat siyahısı


**1.** Azərbaycan tarixi, Yeddi cilddə, Üçüncü cild. Bakı: Elm, 2007.

**2.** Həsənəliyev Z., Bayramlı Z. II Şah Abbasın hakimiyyət illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bakı, 2011.

**3.** Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi. I Kitab. Fars dilindən çevirəni t.e.d. Ş.F.Fərzəliyev. Bakı, 2010.

**4.** Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi. II Kitab. Fars dilindən çevirəni t.e.d., prof. Ş.F.Fərzəliyev. Bakı, 2014.

**5.** Nəcəfli T.H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı: Turxan NPB, 2020.

**6.** Alpargu M. Türküstan Hanlıkları. /Türkler, cilt 8, Yeni Türkiye Yayınları, Ankara: 2002, s. 557-605.

**7.** Aydoğmuşoğlu C. Safevi Devleti Tarihi. Gece Kitaplığı, Ankara: 2014.

**8.** Sümer F. Safevi tarihi incelemeleri: I. ve II. Abbas devrleri. //Türk Dünyası Araştırmaları, sayı 69. İstanbul: 1990, s.21.

**9.** Türker Ö. Keşfetmek ve Tanımlamak: 17. ve 18. Yüzyıl Rus Seyyahlarına Göre Buhara. /Seyyahların izinde Türküstan. Pegem Akademi, Ankara: 2019, s. 73-110.

**10.** Burton A, The Bukharans: A Dynastic, diplomatic and commercial history (1550-1702), Great Britain, Curzon Press, 1997.

**11.** İslam R. Indo-Persian Relations. Tahran: Iranian Culture Foundation, 1970.

**12.** Вамбери Г. История Бохары или Трансоксании съ древнейшихъ временъ до настояшаго. Том II. Перевод А.И.Павловского. С.-Петербургъ: Типография Скарятина, 1873.

**13.** Исфахани Мухаммад Ма'сум ибн Хаджаги. Хуласату-с-сияр. /Материалы по истории туркмен и туркмении. Перевод под. ред. А.А.Ромаскевича. Т.2. М.-Л: 1938.

**14.** Мунши Мухаммад Юсуф. Мукимханская история /пер. с тадж., предисл.,

примеч. и указ. проф. А.А.Семенова. Ташкент: 1956.

**15.** Павлова И.К. Хроника времен Сефевидов. М.: Наука, 1993.

**16.** Сборникь князя Хилкова. Петербургь: Типография брат Пантелеевыхъ 1879.

**17.** Туманович Н. Н. Герат в XVI-XVIII веках. М.: Наука, 1989.

**18.** Astrabadi Həsən bin Murtaza Hüseyn. Tarix-i Sultani: Əz Şeyx Səfi ta Şah Səfi. Tehran: 1399.

**19.** Hidayət Rızaqulu xan. Tarix-i rövzətüs-səfa fi sirətil-ənbiya vəl-müluk vəl-xuləfa. Səfəviyan və Əfşariyan. Cild-i həştom. Tehran: 1380.

**20.** İsfahani Məhəmməd Məsum ibn Hacağa. Xülasətüs-siyər. Be kuşeşe İrac Əfşar. Tehran: 1368.

**21.** Qəzvini Məhəmməd Tahir Vəhid. Tarix-i cahanara-yi Abbasi. Be kuşeşe Səid Mirməhəmməd Sadiq. Tehran: 1383.

**22.** Qəzvini Məhəmməd Yusif Valeh. Xolde bərin. Be kuşeşe Mir Haşim Muhaddis, Tehran: 1372.

**23.** Laxuri Məhəmməd Saleh Kanbu. Şah cahannamə, t. II. Be kuşeşeş Vahid Kurayşi və Qulam Yəzdani. Laxor: 1972.

**24.** Münşi İsgəndər bəy. Zeyle tarix-i alamara-yi Abbasi. Be kuşeşe Əhməd Suhayli Xansari. Tehran: 1317.

**25.** Vəliqulu bəy ibn Davudqulu Şamlı. Qisasul-xaqani, c. 1. Be kuşeşe Həsən Sədat Nasiri. Tehran: 1371.

## Резюме

**Тофиг Наджафли**

### Военно-политические отношения империи Сефевидов с Бухарским ханством в период правления шаха Сефи

В конце XVI века Сефевидский шах Аббас I предпринял ряд шагов для возвращения потерянных земель государства. В результате успешного военного похода на Хорасан было разгромлено войско шейбанидов, весь Хорасан (включая и Герат) был включён в состав государства Сефевидов. Династию Шейбанидов сменила династия Хаштарханидов. И новая династия обострила отношения с Сефевидами.

В статье с использованием первоисточников анализируются военно-политические отношения империи Сефевидов с Бухарским ханством в период шаха Сефи.

Сефевидско-узбекское противостояние за Хорасан длилось более 100 лет и завершилось успехом Сефевидов в период правления шаха Аббаса I. Таким образом, были восстановлены восточные границы, существующие в годы правления шаха Исмаила I (1501-1524).

После смерти шаха Аббаса I государство Сефевидов значительно ослабло. Воспользовавшись этим обстоятельством, узбеки совершили ряд военных походов на Хорасан. Основные сражения с узбеками произошли в Герате и Мерве. Несмотря на это, государство Сефевидов всё ещё имело определённое военно-политическое влияние на Среднем Востоке, в Центральной Азии, поэтому бухарским ханам приходилось считаться с этим.

***Ключевые слова:*** *государство Сефевидов, шах Аббас I, шейбаниды, Бухарское ханство, шах Сефи.*

## Summary

**Tofig Najafli**

### Military-political relations of the Safavid Empire with the Bukhara Khanate during the reign of Shah Safi


At the end of the 16th century, the Safavid Shah Abbas I took a number of steps to return the lost lands of the state. As a result of a successful military campaign against Khorasan, the Sheibanid army was defeated, the entire Khorasan (including Herat) was included in the Safavid state. The Sheibanid dynasty was replaced by the Hashtarkhanid dynasty. And the new dynasty aggravated relations with the Safavids.

The article, using primary sources, analyzes the military-political relations of the Safavid Empire with the Bukhara Khanate during the period of Shah Safi.

The Safavid-Uzbek confrontation for Khorasan lasted more than 100 years and ended with the success of the Safavids during the reign of Shah Abbas I. Thus, the eastern borders that existed during the reign of Shah Ismail I (1501-1524) were restored.

After the death of Shah Abbas I, the Safavid state significantly weakened. Taking advantage of this circumstance, the Uzbeks made a number of military campaigns against Khorasan. The main battles with the Uzbeks took place in Herat and Merv. Despite this, the Safavid state still had a certain military and political influence in the Middle East, in Central Asia, so the Bukhara khans had to reckon with this.


***Keywords**: Safavid state, Shah Abbas, Sheibanids, Bukhara Khanate, Shah Safi.*

**UOT 94 (479.24)**

**VİDADİ UMUDLU**
*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu*
*"Azərbaycanın yeni tarixi" şöbəsinin aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent*
*v.umudlu@yahoo.co.uk, Azərbaycan*

# "DİFAİ" PARTİYASININ QURULMASI TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

***Açar sözlər:*** *Türkiyə tarixçiləri, Əhməd bəy Ağaoğlu, Gəncə, Difai" partiyası, çar Rusiyası, erməni terrorizmi*

## Giriş

1905-ci ilin oktyabrında Rusiya vətəndaşlarına bəzi siyasi hüquqlar verən "17 Oktyabr Manifesti"nin imzalanması ölkədə siyasi partiya və təşkilatların qurulmasına imkan verdi. Bununla eyni vaxta təsadüf edən erməni silahlı dəstələrinin təşkili və getdikcə artan erməni vəhşiliyi, Cənubi Qafqazdakı müsəlman icmasının yaxınlaşmasına səbəb oldu. Nəticədə Azərbaycan xalqının müdafiəsi üçün hərbi bir qurumun təşkili zərurətə çevrildi. Bu məqsədlə Azərbaycanda "Difai" partiyası təşəkkül tapdı. Azərbaycan əhalisinin erməni terrorizmindən qorunmasında mühüm rol oynayan "Difai" partiyasının qurulması türk tarixçilərinin də çox bəhs etdiyi və rəğbətlə yanaşdığı bir hadisədir. Azərbaycanın görkəmli ziyalıları tərəfindən Gəncədə "Difai" partiyasının təsis edilməsin Türkiyə tarixşünalığında da geniş şəkildə işıqlandırılması tariximizin müəyyən dövrünun zənginləşməsinə bir töhvə hesab oluna bilər.

Türkiyə tarixşünaslığında problemin tədqıqı səviyyəsi öyrənilərkən çoxsaylı monoqrafıyaya və elmi məqalələrə müraciət edilmişdir. Bu əsərlər elmi dəyər və obyektivlik baxımından qruplaşdırılmış, ilkin mənbələrə istinad edilərək təhlıl edilmişdir. Məqalə türk tarixçiləri Hüseyin Baykara, Naki Kekurun (Şeyhzamanlı), Betul Aslan, Sebahettin Şimşir, Tahir Sünbül və digər müəlliflərin tədqiqatları əsasında yazılmışdır.

## "Difai" partiyasının qurulması Türkiyə tarixçilərinin əsərlərində

Məlumdur ki, çarizmin verdiyi "17 Oktyabr Manifesti"ndən yararlanan Azərbaycan ziyalıları da 1905-ci ilin sonlarında bir sıra təşkilat və cəmiyyətlər təsis etməyə nail oldular. Çox keçmədən Gəncədə, əhalinin erməni qırğınlarından müdafiəsi üçün "Difai" partiyasının təşkilinə qərar verildi. "Difai" partiyasının qurulmasında Əhməd bəy Ağaoğlu ilə yanaşı Ələkbər Rəfibəyov, Ələkbər və Ələsgər Xasməmmədovlar, Nəsib bəy Yusifbəyli yaxından iştirak etdilər. Partiyanın əsas mərkəzləri Şuşa, İrəvan, Nuxa, Bakı və Tiflis şəhərlərrində yerləşirdi.

Çarizmin xalqları qarşı-qarşıya qoymağı nəzərdə tutan "parçala və hökm sür" siyasətinin nəticəsində təşəkkül tapan Difai" partiyasının əsas hədəfi işğalçı çar zabitləri və erməni quldurları idi. 1905-ci ilin qanlı hadisələrindən bəhs edən türk tarixçisi H.Baykara "Azerbaycan İstiklal Tarihi" adlı əsərində yazır: "Qafqazdakı rus məmurlarının gizli şəkildə erməniləri təşviq etmələri və silahlandırmaları nəticəsində İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda silahsız və sakit həyat sürərək öz işi ilə məşğul olan türklərə hücüm edərək onları qırmağa, öldürməyə başladılar. Öldürə bilmədikləri türkləri isə öz yurdlarından sürgün etmək və qaçırmaq fikrində idilər" [2,132]. Tarixçi T.Svyataxovskinin fikrincə bu təşkilat rus-erməni yaxınlaşmasının təhlükəsinə cavab olaraq təsis olunmuşdu [11,72].

Partiyanın qurulma səbəblərindən bəhs edən N.Keykurun yazır: "Difai" zərurət qarşısında qurulan bu təşkilat, xalqımıza qarşı qeyri-insani davranan, azğınlıq edən, erməni-azərbaycanlı mübarizəsində ermənilərə açıq şəkildə yardım edən çar məmurlarına layiq olduqları cəzanı vermək üçün qurulmuşdu. Çar məmurlarının cinayəti lazımınca araşdırıldıqdan sonra ölümə məhkum edilir  və bu məsələ bəyannamə ilə xalqa elan edilirdi" [7,10]. Partiyanın fəaliy-

yətindən bəhs edən T.Sünbül yazır: “Erməni-azərbaycanlı savaşının bir məhsulu olan “Difai” öncəliklə Rusiyaya qarşı tutarlı bir mövqe ortaya qoydu və şeyx Şamildən bəri hər hansı ciddi bir müqavimətin göstərilmədiyi çarizmə qarşı uzun sürən sükutu pozmuş oldu” [10,20].

H.Baykara qeyd edir ki, "Difai” rəhbərləri, ermənilərlə Azərbaycan türkləri arasındakı məsələdə əsas günahkarın ruslar olduğunu bildirir və ruslar gəlməmişdən əvvəl ermənilərlə Azərbaycan türklərinin qardaş olduqlarını iddia edirdilər[2,133]. Osmanlı dövlətinin Tiflisdəki səfirliyinin məlumatında da, cəmiyyətin qurulmasına səbəb olan erməni-müsəlman münaqişəsinin Rusiya hökumətinin təhriki nəticəsidə meydana gəldiyi qeyd olunurdu. Bu səbəbdən də təxribatçı çar məmurlarının cəzalandırılması haqda qərar qəbul edilmişdi [3,509/55]. Tarixçi G.İşyarın qənaətincə Qafqazda azərbaycanlı-erməni qırğınlarını törətməyə çalışan Rusiyanın əsl niyyəti bu millətləri bir-birlərinə qırdırıb yox etmək olmuşdur [6,300].

Qeyd olunmalıdır ki, erməni millətçiləri 1905-ci il hadisələrinə çoxdan hazırlaşmışdılar. Beləki XIX əsrin ikinci yarısında qurulan erməni terror təşkilatları erməni əhalisinin xeyli hissəsini sılahlandırmağa nail olmuşdular. Əlbəttə adı çəkilən bölgələrdə yaşayan ermənilərə paylanılan silahların tezliklə Azərbaycan əhalisinə qarşı çeviriləcəyinə şübhə edilməməlidir. Bu hadisələrdən bəhs edən görkəmli türk tarixçisi M.Saray “Azerbaycan Türkləri Tarihi” adlı əsərində yazır: “1905-ci ilin fevralında ermənilərlə Azərbaycan türkləri arasında ilk döyüşlər başlayanda türklərin, ermənilər kimi bir təşkilatı (“Daşnak”-V.U)) yox idi. Nəticədə azərbaycanlılar, ermənilərlə döyüşlərdə nizamsız, plansız və silahsız olaraq mübarizə apardıqları üçün ağır tələfata uğradılar [9,31]. H.Baykara qeyd edir ki, Azərbaycan XX əsrin əvvəlinə güclü və çoxsaylı bir ziyalı təbəqəsi ilə daxil olmuşdu. Lakin Azərbaycanda müəyyən və proqramlı bir siyasi təşkilat yox idi. Azərbaycan ziyalılarının çoxu maarif sahəsində çalışır və savadlı əhalinin çoxalmasına üstünlük verirdilər [2,70]. Lakin çox keçmədən Azərbaycanda da belə bir təşkilat təsis olundu.

M.Saray yazır ki, hakim rolu oynayan rusların laqeydliyi, erməni “Daşnak” təşkilatının insanları amansızcasına öldürmələri Azərbaycan türklərini də təşkilatlanmağa vadar etdi [9,32]. H. Baykara adı çəkilən kitabında qeyd edir ki, 1905-ci ilin sonlarında bəzi azərbaycanlı görkəmli şəxslər "Difai” adlı bir təşkilat təsis etmək üçün Gəncəyə toplaşdılar. Bu təşkilatın yeganə məqsədi azərbaycanlılara qarşı hücumların və haqsızlıqların qarşısını almaq idi. Şəfi Rüstəmbəyov, İsmayıl Ziyadxanov, Nəsib Yusufbəyov, Ələkbər və Xəlil Xasməmmədov və doktor Həsən Ağazadə təşkilatın qurucuları idi. “Difai”nin qurulması ilə Gəncə Azərbaycan Milli Hərəkatının mərkəzinə çevrildi [2,133]. 1905-ci ildə Gəncədə Şəfi Rüstəmbəyov, İsmayıl Ziyadxanov, Nəsibbəy Yusifbəyli, Ələkbər və Xəlil Xasməmmədov və Həsən Ağazadə tərəfindən “Difai”(Müdafiə) təşkilatı quruldu. Azərbaycanlı ziyalılarının rəhbərlik etdiyi və milliyyətçi azərbaycan xalq kütlələrinin də qoşulduğu bir təşkilat olaraq “Difai” qurulmuşdu [13,599]. 1905-ci ildə ermənilərin hücumlarına qarşı türklərin müdafiəsini üzərinə götürmək məqsədi ilə “Difai” partiyası təsis edildi. Əhməd bəy Ağaoölu tərəfindən gizli olaraq qurulan bu partiya, erməni komitələrinin özbaşınalıqlarına son qoyduqları kimi, inqilabın gedişində ümumi razılıq və birlikdə hərəkət etmə təkliflərinə də yol açmışdır [12,184].

H.Baykaranın fikrincə, Azərbaycan türkləri arasında ilk olaraq “Hümmət” adlı siyasi partiya gizli şəkildə fəaliyyətə başladı.. İkinci siyasi təşkilat isə 1905-ci ildə ermənilərin Qafqazdakı türk-müsəlman əhaliyə qarşı kütləvi qırğın hərəkətini həyata keçirdikləri zaman Əhməd bəy Ağaoğlu tərəfindən qurulan “Difai” firqəsidir. Adından da göründüyü kimi partiyanın əsas məqsədi ermənilər tərəfindən tüklərə qarşı yönələn qırğını dəf etmək olmuşdur. Qurulduğu andan Azərbaycan xalqına çoxlu xidmətlər göstərmişdir. [2,77].

“Difai” partiysının qurulması haqqında məlumatlar Başbakanlıq Osmanlı Arxiv sənədlərində də öz əksini tapmışdır. Sənəddə göstərilir ki, Qafqaz müsəlmanları erməni hücumlarına qarşı təşkilatlanmağa başladılar. Qurulan təşkilatların ən əhəmiyyətlisinin əsas mərkəzləri İrəvan, Nuha, Şuşa, Bakı və Tiflis olan “Difaui İttihad-ı İslam Cəmiyyəti”dir. Bu cəmiyyətin üzvləri məzhəb fərqi qoymadan qardaşlıqı əhd imzaladıqları, cəmiyyətin üzvlərinin maddi dəstəyi ilə silahlanmış iyirmi min milisinin olduğu,

vəzifələrinin isə İslam təşkilatlarına məxsus əmlakın sahiblərinə geri qaytarılması, Qafqaz xristianlarına tanınan mülki, iqtisadi və siyasi hüquqların müsəlmanlara da şamil olunması idi. Cəmiyyət, həmçinin müsəlman əhalinin hüquqlarını pozanlara qarşı müdafiə əsasında hərbi birliyin qurulmasını nəzərdə tuturdu. [3,509/55].

"Difai" partiyasının üzvü olan, sonralar Türkiyəyə mühacirət etmiş tarixçi N. Şeyxzamanlı (Keykurun) Gəncədə Cümə məscidində camaatla bir araya gəlindiyini və çar hökumətinə sinə gərəcək bir təşkilat qurmağa və bu təşkilatın "Difai" olaraq adlandırılmasına qərar verildiyini qeyd edir [7,10]. Betul Aslanın "Kardaş Kömeği (Yardımı) və Bakü Müslüman Cemiyyet-i hayriyesi" kitabında da Azərbaycan türklərində milli oyanış, 1905-ci il inqilabının Azərbaycana təsiri ilə yanaşı, Azərbaycanda türk-erməni döyüşləri, "Difai" təşkilatının qurulması məsələsi də öz əksini tapmışdır [1,412]. Onu da qeyd edək ki, T.Sünbülün "Azərbaycan Dosyası" kitabında 1905-ci ildə Rusiyada baş verən hadisələrin Azərbaycana təsiri və siyasi hərəkatlar, ermənilərin Azərbaycan türklərinə qarşı hücumları, "Difai" partiyasının qurulması haqqında məlumatlar yer almışdır [10,128].

Bir məsələni də qeyd edək ki, "Difai" partiyasının qurulması və yeri ilə bağlı Azərbaycan və Türkiyə tarixçiləri arasında bəzi fikir ayrılıqları mövcuddur. Beləki, Türkiyəli tarixçilər partiyanı 1905-ci ilin sonlarında Gəncədə, Azərbaycan tarixçiləri isə 1906-cı ilin ortalarında Bakıda təsis olunduğunu qeyd edirlər. Azərbycanın siyasi partiya və təşkilatları haqqında geniş həcmli monoqrafiyanın müəllifi tarixçi İ.Bağırova yazır ki, "Difai" partyası 1906-cı illərin ortalarında Bakıda təsis olunmuşdur. Fikrini əsaslandıran müəllif qeyd edir ki, erməni terroristlərinin qarşısını ala biləcək hərbi qabiliyyətli müsəlman təşkilatının qurulması haqqında qərar, canişin Vorontsov-Daşkovun rəhbərliyi ilə fevralın 20-dən martın 6-na kimi Tiflidə davam edən erməni-azərbaycanlı barışdırıcı qurultayından sonra qəbul edilmişdir [14,88]. Belə ki, qurultayda Azərbaycan tərəfi millətlərarası toqquşmaların qızışdırılmasında "Daşnaksütyun" partiyasını, erməni silahlı dəstələrini ittiham edərək bu quldur dəstələrinin buraxılmasını tələb etmişdi [16,66-67]. Bu tələbin yerinə yetirilməməsi partiyanın təşkil olunmasına səbəb olmuşdur. Tarixçi D.Seyidzadə yazır ki, qurultayın siyasi yekunu 1906-cı ilin payızında "Difai" partiyasının yaradılması oldu. Belə ki, qurultayın azərbaycanlı nümayəndələri öz siyasi qüvvələrini bir təşkilatda birləşdirmək qərarına gəldilər [16,72]. "Difai" haqqında kitabın müəllifi tarixçi E.Əzizov da partiyanın 1906-cı ilin payızında Ə.Ağayev tərəfindən yaradıldığını qeyd edir. Lakin hökümətin bu partiya haqqında ilk məlumatları yalnız 1907-ci ildən başlayaraq, yəni qanlı erməni-azərbaycanlı qarşıdurmasının aktiv fazası başa çatdıqdan sonraya aiddir [15,51].

Beləliklə, "Difai" partiyasının 1906-cı ilin ortalarında Bakıda təsis olunması faktı bağlı məlumatlar daha sabit hesab oluna bilər. Belə ki, bu fikrin iddiaçıları arxiv sənədləri və dövrün mətbu orqanlarına əsaslanaraq bu qənaətə gəlmişlər. Digər tərəfdən, Türkiyəli tarixçilərin tədqiq olunan əsərlərində bu faktla bağlı Azərbaycan Respublikasının arxiv sənədlərinə müraciət etməməsi də faktlarda yanlışlıqların olmasını istisna etmir. Əlbəttə ki, əsas məsələ qardaş ölkə tarixçilərinin problemə baxışı və hadisələri obyektiv təhlil edərək düzgün nəticə çıxarmalarıdır.

Tarixçi A.E.Gökdemir erməni komitəçiləri ilə mübarizə aparmaq üçün Azərbaycandakı "Difai" partiyasının bir qolunun Qarsda açıldığını qeyd edir. Qars şöbəsində yerli ziyalılardan İbrahim bəy Cahangiroğlu, Həsən xan qardaşları ilə yanaşı Səttar bəy və Hacı Ağa yer almışdı. Getdikcə artan təşkilat üzvləri can başla çalışmaqda idilər [5,13]. Bu təşkilat beləcə Azərbaycan Milli Hərəkatının ilk nüvəsini təşkil etmişdir [9,32]. Bu firqənin bəyannaməsi Qafqaz müsəlmanlarının "var olma və ya olmama" şüarını açıq bəyan etməklə öz siyasi platformasını elan etmişdi [2,133].

Daşnak döyüşçü dəstələrinin hücumları Azərbaycan müsəlmanlarının birliyi üçün katalizator rolunu oynamışdır [11,70]. 1905-ci ilin dekabrın 4-də Yeilzavetpolda(Gəncədə-V.U.) erməni quldur dəstəsi iki müsəlman kəndinə hücüm edərək səkkiz insanı qətlə yetirmiş və İrəvan əyalətindəki erməni quldur dəstəsi ilə birləşərək Osmanlı torpaqlarına girməyə cəhd göstərmişdilər. Bu hadisədən bəhs edən G.İşyar, quldur dəstəsinin yaxalanaraq cəzalandırıl-

ması və zəruri tədbilərin görülməsinin Rusiya hökumətinin vəzifəsi olduğunu qeyd edir [6,81]. Lakin cəzaslıq erməni quldurlarını yeni cinayətlərə sövq etmiş, Azərbaycan əhalisi özünü müdafiə etmək üçün zəruri tədbirlər görmək məcburiyyətində qalmışdır.

Türkiyəli tarixçilərin təsbitinə görə müsəlmanları qətl edən ermənilərə yardım etdiklərinə görə bir sıra çar məmurları aradan götürüldü. Şuşadakı qığınlarda ermənilərə yardım edən rus məmurları layiqli cəzalarını aldılar. Belə ki, general Qoloşapova qarşı hesbat vermək üçün getdiyi Tiflisdə sui-qəsd təşkil olundu. Əməliyyat “Difai” partiyasının Şuşa təşkilatının üzvü, xalq arasında cəsur bir igid kimi tanınan Hüsü tərəfindən həyata keçirildi. Hüsü “Difai”nin köməyilə İrana qaçırıldı. Gəncə hakiminin müşaviri Kreşçinski Şuşada olarkən ermənilərə kömək etdiyi üçün Gəncədə evinin qarşısında Topal Həsən kəndinin sakini Səməd tərəfindən vurularaq öldürüldü. Şuşada “Dəli sudya” kimi tanınan rus ordu məhkəməsinin prokuroru Lunyakin ermənilərə yardım etdiyi üçün “Difai”nin Şuşa komtəsinin qərarı ilə öldürülmüşdür. Tərtərdə polis müdiri Felikinski (Felştinski –V.U.) eyni şəkildə öldürülənlər arasında idi. [2,136; 7,12]. Gəncədə həbsxana imamı Molla Atakişi rus gizli polisinə xəfiyyəlik edərək bir çox difai üzvünü ələ verdiyi üçün “Difai” partiyasının qərarı ilə öldürüldü. Gəncənin polis müdiri Bannikov eyni səbəblə və “Difai” partiyasının qərarı ilə öldürülmüşdür [1,12].

Bir sıra türk tarixçilər bütün bu hadisələrin Azərbaycanın azadlıq mübarizəsinin başlanğıcı kimi dəyərləndirməyin lazım olduğunu qeyd edirlər [2,136; 7,12]. “Difai” partiyasının rolunu yüksək qiymətləndirən türk tarixçisi H.Baykara, ermənilərin cəzalandırılmasında bu partiyanın nümayəndələrinin cox qəhrəmanlıq göstərdiyini qeyd etmişdir [2,132]. “Difai” təşkilatının Gənc Milli Komitəsi iki ay ərzində hərbi hissələrin köməyi ilə şəhərdəki 218 və 219-cu rus alaylarını tərksilah edə bildi. Həmin alaylar şəhəri tərk etməli oldular. 1908-ci ilə qədər “Difai”nin fəaliyyəti o qədər genişləndi ki, Azərbaycan qəzalarında çar hakimiyyətinin mövcudluğu təhlükə altına düşdü. Partiya üzvlərinə qarşı təzyiqlər başladı. 1908-ci idə “Difai” “müharibə partiyası” elan edildi və Qafqaz hakiminin həmin il 4 mart tarixli fərmanı ilə bağlandı [13,598 ].

Lakin müxtəlif sənədlərə istinad edən tarixçi İ.Bağırova partiyanın fəaliyyətinin, passiv də olsa 1912-ci ilə qədər davam etdiyini qeyd edir. Bununla yanaşı müəllif “Difai” partiyasının hətta Birinci Dünya müharibəsi illərində mövcud olduğunu da istisna etmir [14,97]. Tarixçi E.Əzizovun fikrincə isə "Difai" rartiyası Birinci Dünya Müharibəsinə qədər və hətta 1917-ci il fevral inqilabından sonra da mövcud olmuşdur [15,79]. Partiyanın Birinci Dünya müharibəsi dövründə mövcud olduğunu Türkiyə tarixçisi A.N.Kurat da təsdiq edir. Müəllif qeyd edir ki, Osmanlı qoşunlarının bir müddət orda (Təbrizdə-V.U) qalması İran Azərbaycanı və Şərqi Qafqazda, mərkəzi Gəncə olmaqla ruslara qarşı bəzi üsyanların başlanmasına səbəb oldu. Gəncədə Azərbaycan türklərinin “Difai” adlı gizli təşkilatının mümməssili sifəti ilə Əmiraslan xan Xoyski, 1915-ci ilin fevralında gizlin olaraq Ərzuruma gəlmiş və Ənvər paşa ilə görüşmüşdü. Bu görüşdə Arslan xan, Qafqazda bir çox millətlərin daxil olduğu İsveçrə kimi bir dövlətin qurulmasının mümkün olduğunu bildirmiş və bu fikir Ənvər paşa tərəfindən müsbət qarşılanmışdı [8,499-500].

Göründüyü kimi, problemlə məşğul olan türk tarixçiləri də, “Difai” partiyasının qurulmasını zərurətdən doğan bir müdafiə tədbir kimi qiymətləndirmiş və bu təşkilatın Azərbaycan əhalisi arasında çoxsaylı itkilərin qarşısının alınmasında misilsiz bir rol oynadığı qeyd etmişlər.

**Nəticə**

Beləliklə, 1905-ci ildə Rusiyada başlayan inqilab və azərbaycanlılarla-ermənilər arasında başlayan döyüşlərin nəticəsi olaraq Azərbaycan ziyalılarının rəhbərliyi ilə “Difai” partiyası quruldu. Türkiyə tarixşünaslığının görkəmli nümayəndələri olan M.Saray, H.Baykara, N.Keykurun (Şeyxzamanlı) və başqa müəliflərin Əhməd bəy Ağaoğlunun rəhbərliyi ilə təsis olunan “Difai” partiyası ilə bağlı apardıqları araşdırmalar tariximizin ətraflı öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu araşdırmalarda əsasən milliiyyətçi xalq kütlələrinin qoşulduğu bu hərbi təşkilatın qurulma səbəbləri və qarşıya

qoyulan məqsədləri geniş şəkildə öz əksini tapmışdır.

Türk tarixçiləri tərəfindən partiya üzvlərinin Qafqazdakı müxtəlif məzhəbləri təmsil etmələrinə baxmayaraq islam həmrəyliyini əsas tutaraq və bütün ayrılıqları bir kənara ataraq eyni fikir ətrafında birləşən müsəlmanlardan ibarət olması təqdirə layiq hal kimi qeyd olunmaqdadır. Digər tərəfdən cəmiyyətin maliyyə dəstəyi ilə əksəriyyəti Dağıstan əhalisindən ibarət olmaqla iyirmi min nəfərdən ibarət hərbi milis (polis) dəstəsi təşkil olunması və partiya proqramında Qafqaz xristianlarına verilmiş mülki, iqtisadi və siyasi hüquqların müsəlmanlara da şamil olunması haqqındakı müddəa çox mühüm hadisə idi. Əsas mərkəzləri Gəncə,Şuşa, Nuxa, İrəvan, Bakı və Tiflis olan və sonradan bir bölməsi də Qars şəhərində fəaliyyətə başlayan "Difai" partiyası Azərbaycan xalqının erməni terrorçularından müdafiəsində çox mühüm və əvəzsis rol oynadı.

**Ədəbiyyat siyahısı**

1.Aslan, B. "Kardaş Kömeği(Yardımı)" ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi / B.Aslan. - Ankara:Atatürk Kültür Merkezi Yayınları, - 2000. - 412 s.

2.Baykara, H. Azerbaycan İstiklal Mücadilesi Tarihi / H.Baykara. - İstanbul: Genclik Kitabevi, - 1975. - 331 s.

3. Başbakanlık Osmanlı Arşivleri (BOA), YSH. M. fondu, nr. 509/55, 2 Mart 1907

4. Bolhovitinov. 11 Aralık 1915 il Resmi Ermeni Raporu / Hazırladı M.Perinçek. – İstanbul:2012. – 136 s.

5. Gökdemir,.A.E. Cenub-i Qarbi Kafkas Hükümeti / A.E.Gökdemir. - Ankara:Atatürk Araştırma Merkezi, - 1998. – 297 s.

6. İşyar, Ö.G. Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu / Ö.G.İşyar. – İstanbul: Alfa, - 2004. – 294 s.

7. Keykurun, N. Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920) / N.Keykurun. - Ankara: İlke Kitabevi Yayınları, - 1998. – 217s.

8. Kurat, A.N. Türkiye Ve Rusya / A.N.Kurat. - Ankara: Kültür Bakanlığı, - 1990. - 735 s.

9.Saray, M. Azerbaycan Türkleri Tarihi / M.Saray. - İstanbul: İstanbul Matbaası, - 1993. - 149 s.

10. Sünbül, T. Azerbaycan Dosyası / T.Sünbül. – Ankara: Kök Sosyal Ve Stratejik Araştırmalar Yayınları, - 1990. - 128 s.

11. Swietochowski, T. Müslüman Cemaatten Ulusal Kimliğe: Rus Azerbaycanı (1905-1920) / T.Swietochowski. - İstanbul: Bağlam Yayınlaı, - 1988. - 296 s.

12. Şimşir, S. Türk Dünyası Tarihi / S.Şimşir. – İstanbul: Post Yayınevi, - 2012. - 352 s.

13.Yanar, Ş. Azerbaycanda Ebülfez Elçibey Döneminde Türk Kimlik Oluşumu // Der. B.Günay. – Avrupadan Asyaya Sorunlu Türk Bölgeleri. – İstanbul: İG Kültür Sanat Yayınçılık, - 2005. – s.579-638

14.Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917), Баку – «Елм» - 1997., 336 с.

15.Əzizov E. «DİFAİ»: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri, Bakı - 2009. 360 s.

16.Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, Bakı – 1998. – 187 s.

**Резюме**

**Видади Умудлу**

**Учреждение партии "Дифаи" в историографии Турции**

Известно, что «Манифест 17 октября», обещавший российским гражданам политические права и свободы, в 1905 году привел к созданию в стране ряда политических партий и организаций. Воспользовавшись этой ситуацией, армянские бандиты начали вооружаться и совершать агрессию против азербайджанцев. В том же году патриотическая интеллигенция Азербайджана в Гяндже под руководством Ахмад бека Агаоглу основали партию «Дифаи» для защиты людей и предотвращения армянской агрессии. Основная цель статьи является определение степени изученности формирования партии «Дифаи» в турецкой историографии.

В статье исследуются причины необходимости создания партии Дифаи в конце 1905 г. на основе работ представителей турецкой историографии Хусейна Байкара, Мехмет Сарая, Наки Кейкуруна (Шейхзаманлы), Тахира Сунбула, Бетул Аслана и других историков. Турецкие историки отмечают, что партия, первоначально созданная для борьбы с колониальной политикой царской России, позже начала организовывать мусульман на Кавказе против армянских нападений.

В статье отмечается, что основные центры партии действовали в Ереване, Шуше, Нухе, Баку и Тбилиси. Важную роль в организации партии сыграли Алекпер Рафибеков, Алекпер и Алескер Хасмамедовы, Насиб бек Юсифбейли.

Большинство турецких историков, говоря об изучаемой проблеме, отмечали незаменимую роль партии в защите азербайджанского народа.

***Ключевые слова:*** *Турецкие историки, Ахмед бек Агаоглу, Гянджа, партия Дифаи, царская Россия, армянский терроризм*

**Summary**

**Vidadi Umudlu**

**Establishment of the party "Difai" in the historiography of Turkey**

It is known that the Manifesto of October 17, which promised Russian citizens political rights and freedoms, in 1905 led to the creation of a number of political parties and organizations. Taking advantage of this situation, the Armenian bandits began to arm themselves and commit aggression against the Azerbaijanis. In the same year, the patriotic intelligentsia of Azerbaijan in Ganja under the leadership of Ahmad bey Agaoglu founded the Difai party to protect people and prevent Armenian aggression. The main purpose of the article is to determine the degree of study of the formation of the Difai party in Turkish historiography.

The article examines the reasons for the need to create the Difai party at the end of 1905 based on the works of representatives of Turkish historiography Hussein Baykar, Mehmet Saray, Naki Keikurun (Sheikhzamanli), Tahir Sunbul, Betul Aslan and other historians. Turkish historians note that the party, originally created to combat the colonial policies of Tsarist Russia, later began to organize Muslims in the Caucasus against Armenian attacks.

The article notes that the main centers of the party operated in Yerevan, Shusha, Nukha, Baku and Tbilisi. Alekper Rafibekov, Alekper and Alasgar Khasmamedovs, Nasib bey Yusifbeyli played an important role in organizing the party.

Most Turkish historians, speaking about the problem under study, noted the irreplaceable role of the party in the protection of the Azerbaijani people.

***Keywords:*** *Turkish historians, Ahmed bey Agaoglu, Ganja, ,Difai party, , tsarist Russia, Armenian terrorism*

UOT 94 (479.24)

**ANAR AĞALARZADƏ**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*a.aghalarzada@arch.science.az, Azərbaycan*

# AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ BÖLGƏSİNİN TUNC-İLK DƏMİR DÖVRÜ SƏNƏTKARLIĞINDA BƏZƏKLƏR
***(etnoarxeoloji tədqiqat)***

***Açar sözlər:*** *Tunc-İlk Dəmir dövrü, bəzək nümunələri, kurqanlar və daş qutu qəbirlər, arxeoloji mədəniyyətlər.*

## Giriş

Azərbaycanın qədim dövr sənətkarlığında bəzək istehsalının zəngin ənənəsi vardır. Kür-Araz, Naxçıvan, Xocalı-Gədəbəy və Talış-Muğan mədəniyyəti sakinlərinin istehsal təsərrüfatında mühüm elementlərdən biri olan bəzəklər dövrün həyat tərzində insanların zövqlərinin aydın göstəricisidir. Bəzəklərin insanların məişəti ilə təsərrüfat həyatı arasında bağlılığı da olmuşdur. Bəhs olunan dövrə aid bəzək nümunələrinin Azərbaycanın cənub-şərq bölgəsinin bir sıra abidələrində xüsusi yeri vardır.

Bölgədə aparılmış arxeoloji qazıntılar nəticəsində tapılan bəzək nümunələri qeyd olunan müxtəlif dövrlü abidələrə aid olmasına baxmayaraq onlar arasında demək olar ki, çox az sayda fərqlilik müşahidə edilir. Əsas oxşar elementlər əqiq, şüşə, gil və pasta muncuqlarda özünü göstərir. Tunc məmulatından hazırlanmış bəzəklər demək olar ki, eyniyyət təşkil edir. Lakin istisnalar da vardır ki, bu da əsasən hazırlanmış nümunələrin çox və ya az olması ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, sənətkarlıqda bəzək istehsalının ortaya çıxmasını aydın müşahidə etmək üçün e.əv. III minilliyin əvvəllərindən başlayaraq e.əv. I minilliyin əvvəllərinə kimi keçdiyi mərhələni izləməklə müəyyən nəticələrə gəlmək mümkündür. Ona görə də sənətkarlığın bu sahəsinin istehsal və inkişaf dinamikasını 3 mərhələyə ayırmaq lazım gəlir:

1. *İlk Tunc dövrü bəzəkləri;*
2. *Orta Tunc dövrü bəzəkləri;*
3. *Son Tunc-İlk Dəmir dövrü bəzəkləri;*

### *İlk Tunc dövrü bəzəkləri*

İlk Tunc dövrü bəzəklərinə Azərbaycanın cənub-şərq bölgəsində hələ ki, az təsadüf edilmişdir. Əlbəttə, bunun birinci səbəbi qeyd olunan dövrün çox az sayda abidələrinin qazıntısı olsa da, ikinci səbəbi İlk Tunc dövründə bu istehsal sahəsinin hələ başlanğıc mərhələdə olması ilə izah edilə bilər. Çox az sayda tapılmış bu bəzəklərə İlk Tunc dövrünə aid Telmankənd kurqanlarında rast gəlinmişdir. XX əsrin 60-cı illərində bu kurqanlarda aparılmış qazıntılar nəticəsində 1 №li kurqanın qəbir kamerası içərisindən 2 ədəd tunc məftil parçalarından döyülmüş, hər iki ucu şişlənmiş metal əşya tapılmışdı ki, (12, 16) lakin bu əşyaların da hansı tip bəzəklərə aid edilməsi isə aydın deyildir.

İlk Tunc dövrünə aid digər bəzək əşyası isə 2019-cu il qazıntıları zamanı Yardımlı rayonunun Kürəkçi kəndi yaxınlığındakı Komanı yaylağında kurqandan aşkar edilib. 4№li Komanı kurqanında skeletin boyun hissəsindən tapılmış 1 ədəd metal muncuq nazik, lövhəşəkilli və dairəvidir. Bəzək əşyası lövhə formasına salındıqdan sonra ortasından və yanlarından sapa keçirmək üçün ikitərəfli deşik açılmışdır. Əşyanın diametri 1,3 sm-dir (Şəkil 1/1). Qeyd etmək lazımdır ki, bəhs olunan dövrə aid Azərbaycanın cənub-şərq bölgəsində bu günə qədər hələlik bunlardan başqa tapıntılar aşkarlanmamışdır.

İlk Tunc dövrü bəzəklərinə Azərbaycanın bir sıra abidələrində rast gəlinir. Q.İsmayılzadə Kiçik Qafqazın cənub-şərq ətəklərinin İlk Tunc dövrü abidələrindən yazarkən Günəştəpə və Qaraköpəktəpə yaşayış yerlərindən tapılan çoxlu sayda yarımfabrikat serdolik asma bəzəklər-

dən və antropomorf fiqurlardan danışır. Onun fikrincə, Kür-Araz mədəniyyətinin yayıldığı arealda bəzəklərin geniş təşəkkül tapması həm yerli, həm də gəlmə ənənələrlə əlaqələndirilir. Gətirilmə ənənələri sübut edəcək faktorlar Baba-Dərvişdən tapılan fayans muncuqdur. Bu tapıntıya əsasən demək olur ki, Azərbaycan qədim Şərq ölkələrinin periferiyasında olmuşdur. Məlumdur ki, fayans Misir və İkiçayarasında e.əv. V-IV minilliklərdə geniş yayılmış və e.əv. III minilliyin əvvəlindən Qafqazda yayılmışdı (22, 64-65).

Naxçıvanın II Kültəpə, Şortəpə, Govurqala və I Kültəpənin ikinci təbəqəsinin İlk Tunc dövrü metal bəzəkləri içərisində sancaqlar tapılıb. Bu faktlar onu sübut edir ki, qeyd olunan dövrdə metallurgiya istehsalı ilkin mərhələdə olsa da, lakin ondan müxtəlif formalı məmulatların hazırlanması prosesi sürətli getmişdir (18, 124-125).

### *Orta Tunc dövrü bəzəkləri*

Cənub-şərq bölgəsində bəhs olunan dövrə aid abidələrin hələlik az bir qismində qazıntılar aparıldığı üçün əlimizdə kifayət qədər material yoxdur. Orta Tunc dövrünə aid bəzək nümunələri də yalnız F.Mahmudovun Əliköməktəpə yaşayış yerində apardığı qazıntılar zamanı üzə çıxmış 79 və 80 №li sallama qəbirlərin materiallarıdır. Bu qəbirlərdən tapılan saxsı qabların forma və məzmun xüsusiyyətlərinə görə tədqiqatçı onları Orta Tunc dövrünə aid etmişdir. Az saylı olmasına baxmayaraq bu tapıntıların təhlili bəhs olunan dövrün bəzək istehsalı haqqında müəyyən fikir yürütməyə imkan verir.

1974-cü il qazıntıları zamanı Əliköməktəpə yaşayış yerinin 79 №li sallama qəbirindən bəzək əşyaları içərisində metal asmalar tapılıb. Bu metal asmalar eyni formada olub, bir-yarım dövrəli spiral tipindədir. Asmaların ikisi 0,5 sm qalınlığında tunc və gümüş məftildən üçüncüsü isə 0,6 sm enində nazik qızıl lövhəciklərdən düzəldilib. Qızıl asmanın ucları ortasına nisbətən enlidir. Gümüş və qızıl asmalar ölünün boynundakı muncuqların ortasında yanaşı, tunc asma isə kəllənin gicgah tərəfində tapılmışdır. Belə təsəvvür yaranır ki, onlar muncuq düzümündə kulonu əvəz etmiş, bəziləri isə saça bənd edilmişdir (10, 15).

Gümüş sürmə muncuqlar isə 62 ədəd uzunsov - bikonik formalı, "arpa" tipli olub, üstündəki "damarlar" onların tökmə üsulu ilə hazırlandığını göstərir. Muncuqlar standart ölçülü olmayıb, uzunluqları 0,4-1 sm arasında dəyişir (10, 15).

Skeletin boynunda pasta muncuqlardan ibarət boyunbağı da olmuşdur. Bu muncuqlar xırda, disk şəkilli biserdən ibarət olub, sarı və ağ rəngli pastadan düzəldilmişdir. Diametrləri 0,2 - 0,3 sm-dir (10, 15).

Əliköməktəpə yaşayış yerində 1976-cı il qazıntıları zamanı 80 №li sallama qəbirdən tapılan dəfn avadanlıqları içərisində tuncdan hazırlanmış bəzək əşyaları da diqqəti cəlb edir. Bəzək əşyalarına nazik tunc lövhədən hazırlanmış pilələr, tağvari düymələr və ulduz formalı düymələr daxildir. Tunc pilələr iri ölçülü olub nazik lövhədən gümbəzvari düzəldilmişdir. Onların diametri 6-6,8 sm arasında dəyişir. Pilələri tikmək üçün onların oturacaq hissəsində dörd dairəvi deşik açılmışdır. Tunc düymələr (84 ədədi bütöv qalmışdır) də pilələrin formasını təkrar edir. Lakin onlar kiçikdir (diametrləri 2 sm-ə qədər) və tikmək üçün oturacaq hissəsində 2 deşik düzəldilib. Düymələrin bir qrupunun üstü dairəvi şəkildə basıqdır (Şəkil 1/3). Tunc lövhədən "dördguşəli ulduz" formasında hazırlanmış bəzəklər də tapılmışdır (10 ədədi salamat qalıb). "Ulduz"un ortasında bir dairəvi deşik açılıb (Şəkil 1/2). Haqqında bəhs olunan pilək, düymə və "ulduz" formalı tunc naxışlar skeletdən təqribən 1 m cənub tərəfdə zolaq halında tapılmışdır. Bu zolaqda pilələr seyrək düzülüb: onların hər biri 8-9 düymə ilə əhatələnmiş, pilələrin arasındakı boşluqlara isə "ulduz" formalı naxışlar qoyulmuşdur. Onların gön və ya parçaya tikilməsini aydınlaşdırmaq mümkün deyildir. Bunun səbəbi məhz bu bəzəklərin altında yalnız kül təbəqəsinin qalması olub. Lakin düzülüşləri bu tapıntıların kəmər bəzəkləri olduğunu söyləməyə əsas verib (11, 18).

Qəbirdən tapılan bəzək əşyalarına nazik gümüş məftildən düzəldilmiş halqa-üzük də daxildir. Onun ucları bir-birinə bərkidilmişdir. Bundan başqa qəbirdən düzxətli formada nazik tunc məftil parçaları da toplanmışdır. Lakin onlar pis qaldığından hansı əşyaya aid olması aydın deyildir (11, 19-20). Bu artefaktların - xüsusilə qızıl, gümüş və tuncun birlikdə tapılması

həmin dövrdə üç müxtəlif metalın istehsal edilməsi haqqında təsəvvür yaradır, həmçinin Azərbaycanın qonşu ölkələrlə müəyyən əlaqəsini izləməyə imkan verir. Müqayisəli təhlillər əsasında bu qəbirlər e.əv. II minilliyin başlanğıcına aid edilir (25, 123; 24, 157).

Bütün bunlara əsasən respublikamızın ayrı-ayrı yerlərindən tapılmış Orta Tunc dövrü bəzəklərinin analoji nümunələrinə nəzər yetirmək yerinə düşərdi. Azərbaycanın Orta Tunc dövrü zərgərlik incəsənəti yüksək inkişaf mərhələsinə qədəm qoymuş, zəngin bəzəklər (xüsusilə tuncdan) qəbir abidələrindən və yaşayış yerlərindən tapılmışdır. Analoji tunc qolbaqlar Naxçıvanın Qızılvəng və Şaxtaxtı nekropollarından, II Kültəpə yaşayış yerlərindən məlumdur. Orta Tunc dövrü bəzəkləri içəsində sancaqlar da maraqlı tapıntılardır. Onlar daha çox Qızılvəngdən və Culfa yaxınlığındakı Aznabyurd kurqanından məlumdur (19, 114).

Azərbaycan ərazisində bəzək istehsalı ilə məşğul olan qədim sənətkarlar müxtəlif minerallardan yüksək keyfiyyətdə muncuqlar hazırlayıblar. Tunc dövrünün orta mərhələsinə aid ayaq, əl, boyun, saç və paltar üçün geniş hazırlanmış bəzəklər vardır. Bu müxtəlif muncuqlara Üzərliktəpə, I və II Kültəpə, Qızılburun, Böyükdaş, Qaraköpəktəpə yaşayış yerlərində, Şaxtaxtı, Qızılvəng, Aznabyurd, Naxçıvan, Baba-Dərviş və Xaçbulağın qəbir abidələrində rast gəlinib. Çox sayda çəhrayı, qırmızı rəngli serdolikdən dairəvi və kəsilmiş formalı muncuqlar tapılıb. Qızılvəngin daş qutu qəbirlərindən ən çox tapılan bu muncuqlar qədim Zaqafqaziyada daha çox yayılıb (19, 115).

Ən çox tapılan muncuqlar xırda kəsilmiş və xüsusən də silindrik formalı hazırlanmış boz rəngli pasta muncuqlardır. Boruşəkilli pasta muncuqlar daha geniş yayılıb. Bəzi pastalar üç və dördüzlüdür. Analoji pasta muncuqlar Aznabyurd kurqanında məlumdur. Onlar Yaxın Şərqin qonşu ölkələrinin tapıntıları ilə səsləşir. Silindrik formalı muncuqlar Qızılvəng qəbirlərindən və II Kültəpədən məlumdur. Azərbaycanın Orta Tunc dövrü muncuqları, xüsusilə də Naxçıvan tapıntıları materialı, forma və naxış elementlərinə görə İran ərazisindəki Göytəpə muncuqları ilə daha çox eyniyyət təşkil edir. (19, 115).

*Son Tunc-İlk Dəmir dövrü bəzəkləri*

Bəzək əşyalarının ən zəngin kolleksiyası Son Tunc-İlk Dəmir dövrünə aiddir. Məhz bu dövrdə metallurgiya və metalişləmə sənəti dövrün iqtisadi, sosial-ictimai həyat tərzi ilə sıx bağlı olmuşdur. Azərbaycanın cənub-şərq regionlarında bu dövrə məxsus qəbir abidələrindən çoxlu sayda bəzəklər tapılmışdır. Kurqanlar, daş qutu tipli qəbirlər, sadə torpaq qəbirlərdə dəfn avadanlığı içərisində mütləq əksəriyyəti təşkil edən bu nümunələrin ilk nüsxələrinə XIX əsrin sonlarında Jak de Morqanın Lerik rayonu ərazisində apardığı qazıntılar nəticəsində rast gəlinmişdir.

Morqanın tapdığı tuncdan hazırlanmış bəzəklər içərisində *fiqurlar* xüsusi yer tutur. Maral, öküz, keçi, qoyun təsvirlərindən ibarət tökmə üsulunda hazırlanmış bu fiqurlar bölgənin Son Tunc - İlk Dəmir dövrü qəbir abidələrinin başlıca tapıntılarından hesab edilir. Maral fiqurları digərlərinə nisbətən iri qabaritlidir, onların geniş şaxələnmiş buynuzları vardır (Şəkil 2/1,4,7). Bu fiqurların bel hissəsində asmaq üçün yer açılmışdır. Qoyun və öküz fiqurları isə nisbətən kiçik ölçülü olub çıxıntılı buynuzları təsvir edilmişdi (Şəkil 2/2,5-6). Morqan bu fiqurları Coni, Tülü və Hiveridən tapdığını yazır. Müəllif qeyd edir ki, bütün bunlara baxmayaraq heç bir yerdə insan fiqurlarına rast gəlinməmişdir. Morqan yazır ki, Talış ərazisində hazırlanmış bu fiqurların tərtibatında mahir ustalıq bacarıqları əks olunmur. Lakin Dağıstan ərazisindən və Qafqaz Tiflis Muzeyində saxlanılan Kevsureti və Samtavrdan tapılan fiqurlarda hərəkətlilik və bir növ canlılıq müşahidə edilir (26, 102). Bu baxımdan o Talışın tunc fiqurlarını yaxın və həmdövr tapıntılardan nisbətən zəif hesab edir. Analoji tunc fiqurlar Gilan vilayətindəki Marlik abidələrindən məlumdur (16, 510, şək.58). Tunc fiqurların qəlibkarlıq texniki üsulu ilə hazırlanması Son Tunc-İlk Dəmir dövründə sənət sahəsinin bu formasının inkişaf etdiyini göstərir. Bu dövrdə qəlibin modeli yumşaq və möhkəm materiallardan hazırlanır, üzəri müvafiq naxış ünsürləri ilə işlənərək dekorativ şəklə salınıb (1, 31). Əmək məhsuldarlığının artmasına imkan verən bu üsulun tətbiqi sayəsində sənətkarlar böyük diqqət və məharət kəsb edən mürəkkəb əməliyyatları nisbətən qısa müddətdə görməklə yüksək keyfiyyətli məhsul

istehsal etmişlər. Xocalı-Gədəbəy mədəniyyəti abidələrində də tuncdan tökülmüş analoji zoomorf fiqurlara təsadüf olunmuşdur (1, 32-33).

Tunc və dəmirdən üzüklər, sırğalar, bilərziklər, saç sancaqları, yaxa sancaqları, boyundan asma bəzəklər, düymələr, zınqırovar və bu kimi əşyalar da düzəldilmişdir (Şəkil 2/8-38; Şəkil 3). Morqan bütün bunları dəfn adəti baxımından çox maraqlı hesab edir və rus ermənisindəki nekropollardan bu tipli materialların az sayda aşkarlandığını yazır (26, 99-101). Ortasında tunc məftildən spiralvari hazırlanmış asma bəzək əşyasının analoji nümunəsini Morqan Gümrü yaxınlığındakı Cəlaloğlu qəbirlərindən də tapmış və onları e.əv. XII-IX əsrlərə aid etmişdir (33, 84). Tunc qolbaqların da analoji nümunələrini Morqan Ağtala nekropolundan əldə etmişdir (33, 80). Oxşar tunc qolbaqlar Xaçbulaqdan məlumdur. Tunc və İlk Dəmir dövrünün Xocalı-Gədəbəy mədəniyyətinə daxil olan Xaçbulaq yaylağındakı kurqan və daş qutu qəbirlərdən məlum olan bu tapıntılar e.əv. XIII-XII əsrlərə aid edilir (5, 74). Üzəri dilikli olan bilərziklərə Naxçıvan MR-nın Tunc və İlk dəmir dövrü abidələrində də rast gəlinir. Bu cür bilərziklər ya bütöv, ya da ucları aralı halda olur (5, 140).

Lakin Morqanın metal tapıntıları içərisində 1 ədəd tunc üzük maraq doğurur. Tülü kəndindən tapılmış nazik, lövhəşəkilli üzüyün üzərində sanki irəliyə doğru hərəkətdə olan keçi təsvir edilmişdir. Keçinin buynuzları geriyə çəkilmiş, çənəsinin altında qısa saqqalı təsvir olunub. Cızma üsulunda çəkilmiş bu təsvirli bəzək əşyasını Morqan dəmir dövrünün əvvəllərinə aid edir (33, 85). Analoji tunc möhür üzük Naxçıvan MR ərazisindəki Muncuqlutəpə və Mərdangölü nekropollarından məlumdur. Muncuqlutəpə nekropolunun 4-cü qəbirindən tapılmış tunc möhür üzüyün üzərində zəif seçilən oturaq vəziyyətdə fiqur təsviri vardır. Adətən belə üzük möhürlər tökmə üsulu ilə hazırlanmış, sonra isə onun möhür hissəsində süjetlər cızma üsulu ilə rəsm edilmişdir. Tədqiqatçıların fikrincə, tökmə və ya bütöv hazırlanmış üzük möhürlər Azərbaycan ərazisində e.əv. I minillikdən geniş yayılmağa başlamışdı (5, 142).

Lerikin qızıldan bəzək əşyaları içərisində maraq doğuran saç üçün disklər, sırğa və asmalar vardır. Morqan qeyd edir ki, qəbirdən tapılan skeletin yanında tunc məmulatı ilə yanaşı qızıldan olan əşyaların qadın bəzəkləri içərisində mühüm rolu olub. Onların bir qismi disk formasındadır, nazik lövhədən çox incə üslubda hazırlanıb. Yanlarından deşik açılan disklərə diqqətlə baxdıqda onların zoomorf, xüsusilə də öküz sifətini xatırlatdığını aydın müşahidə etmək mümkündür. Digərləri müxtəlif forma və bəzək xüsusiyyətləri ilə seçilir. Morqan bu tipli qızıl bəzək nümunələrinə və onların üzərindəki naxış elementlərinə Miken və Hissarlık mədəniyyətində rast gəlindiyini söyləyir (33, 81).

Analoji qızıl disklər İranın şimalındakı Son Tunc dövrü Xurvin və e.əv. XIII-XII əsrlərə aid Əmlaş qəbristanlıqlarından məlumdur (21, 45). Qızıldan zoomorf formalı asma bəzəklər olan muncuqlara və sırğalara Tüli-Gilan nekropolunda da təsadüf edilib. Ola bilsin ki, bunlar bürc simvolunu xatırladıb. Verinin qızıl sırğalarının oxşarlarına Zəngəzur kurqanlarında da rast gəlinib. Tədqiqatçıların fikrincə, Cənubi Qafqazın Son Tunc dövrü abidələri üçün nadir hesab edilən qızıl məmulatı içərisində sırğalar da gətirilmə bəzəklər hesab oluna bilərdi (21, 45). Oxşar tapıntılar Marlikdən də məlumdur. Bu nekropolun qızıldan bəzək əşyaları ornamentli boyunbağı və həmçinin bir az qızıl muncuq və düymələr olmuşdur (29, 59, fig.63). Verinin qızıldan asma bəzəkləri olan muncuqların analoji nümunələrinə Lçaşen (Ördəkli) və Lori Berd qəbirlərində təsadüf edilib (e.əv. VIII-VII əsrlər). Analoji nümunələr Ziviyə abidələrinin maddi mədəniyyətindən məlumdur. Bu tapıntılar da Ziviyənin bəzəklərinə oxşayır. Eyni qızıl bəzəklər Ur abidələrinin e.əv. VII əsrə aid təbəqəsindən tapılıb. Dağlıq Qarabağın abidələrindən də bu tip qızıl bəzəklər aşkarlanıb. 1893-cü ildə E.Resler 1№li Arçadzor kurqanında digər tapıntılarla yanaşı qızıl muncuq və geometrik naxışlı bəzəklər tapmışdır (21, 44-45).

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycan arxeologiyasının bəzi suallarının araşdırılmasında qızıl məmulatının rolu böyükdür. Çoxlu arxeoloji materiallar içərisində təsadüfən rast gəlinən qızıl əşyalar az sayda olmaqla istehsal mərkəzlərinin aparıcı predmeti olduğunu göstərməkdədir (21, 44). B.Piatrovski qızıl məmulatının xüsusilə də qızıldan slindrik möhür və vəhşi heyvan başı təsvirli nümunələrini Ön Asiya ilə əlaqələndirir (21, 47).

Morqanın tapdığı bəzək əşyaları içərisində ***əqiq, pasta, şüşə və gil muncuqlar*** da vardır. Lakin əksəriyyəti əqiqdən hazırlanmış nümunələrdir. Əqiq muncuqlar çəlləkvari, boruşəkilli, trapes formalı olmaqla kifayət qədərdir (Şəkil 6). Çəlləkvari formada kəsilmiş əqiqlər istisna olmaqla qalanları simmetrik qaydada hazırlanmışdır. Bir neçəsinin üstü kəsmə bəzəklərlə naxışlanmışdır. Pasta və gil muncuqlar da çəlləkvari formada olub məhdud saydadırlar. Pasta və şüşə muncuqların istehsal ocaqları qədim Misir və Yaxın Şərq ölkələri, kauri (qarnıyarıq) tipli muncuqların vətəni isə Hind okeanı, Qırmızı dəniz və İran körfəzi sahilləri hesab edilir. N. Müseyibli digər regionlardan da tapılmış bu tipli muncuqları Azərbaycanın qədim əhalisinin iqtisadi-mədəni əlaqələrinin öyrənilməsi üçün dəyərli maddi faktlar hesab edir (15, 63).

Lerik tapıntıları arasındakı bir ədəd əqiq muncuq amuletdir, bir tərəfi oval, digər tərəfi yastıdır. Ortasından sap keçirmək üçün ikitərəfli deşik açılmışdır. Morqanın tədqiq etdiyi Keraveladi nekropolundakı 40 №li sərdabə tipli daş qutu qəbirdən tapılan bu açıq-boz rəngli əqiq mineral daşının yastı üzü möhürdür. Möhürün üzərində zoomorf təsvir - ***"Bos Zebu"*** adlanan hind donqar öküzünün şəkli təsvir edilmişdir.

Azərbaycanın Son Tunc-Erkən Dəmir dövrü incəsənətində müxtəlif süjetli təsvirlər üstünlük təşkil edir. Saxsı qablar, metal əşyalar və daş bəzəklər üzərində çəkilmiş zoomorf təsvirlər bu dövrün incəsənətinin yüksək inkişaf səviyyəsinin göstəricisidir. Azərbaycanın cənub-şərq bölgəsinin bu dövrə aid maddi mədəniyyəti içərisində zoomorf təsvirlər xüsusi maraq doğurur. Qeyd edək ki, bu tapıntı hal-hazırda Fransanın Sen Jermen Milli Arxeologiya Muzeyində saxlanılır (2, 69). Morqanın fikrincə, Hindistan ərazisinə məxsus olan zebular sərdabə qəbirlərin tikilişi dövründə Azərbaycanın cənubunda məlum olmuşdur. O, hesab edir ki, bu yarım qiymətli daşın üzərindəki hind-donqar öküzü təsviri Hindistan xalqları ilə Xəzər dənizi sahilində yaşayan xalqlar arasında qədim zamanlardan etno-mədəni əlaqələrin izlənilməsi baxımından maraqlıdır. Morqan bu təsvirə İran ərazisindəki Mazandaran, Gilan və Talışda təsadüf olunduğunu qeyd etmiş və öküzün tunc dövrü əhalisinin maldarlıq təsərrüfatında əhəmiyyətli yer tutduğunu söyləmişdir (7, 95-96). İranın şimalındakı Marlik abidələrində isə zebu təsvirli tunc fiqurlar tapılmışdır. Bu fiqurlarda zebu daha qabarıq təsvir edilmiş, onun belindəki hürgücünün xış əkinçiliyi zamanı kotana qoşmaq üçün qoşqunu asanlıqla dartrmaqda istifadə edildiyini açıq görmək olur (16, 425). Zebunun etnik iqtisadi əlaqələr vasitəsilə yayıldığını nəzərə alsaq, onun Azərbaycanda e.əv. II-I minillikdə maldarlıq təsərrüfatında başlıca rolu olduğunu ehtimal etmək olar.

2012-ci ildə təşkil olunan Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası da Morqanın tərtib etdiyi qəbirlərin xəritəsinə əsasən Lerik rayonunun Keraveladi kəndi ərazisindəki II Keraveladi nekropolunda apardığı qazıntılar zamanı 7 ədəd daş qutu qəbir açmışdır. Qazıntılar zamanı 4 №li qəbir çalasının şərq tərəfindən 11 ədəd tünd göy rəngli, bikonik gövdəli, üzəri cızma xətli naxışlarla bəzədilmiş, çəlləkvari formaya malik pasta muncuqlar, 1 ədəd uzunsov və piramidal şəkilli əqiq muncuq, 1 ədəd tünd göy rəngli şüşə muncuq, 1 ədəd göy rəngli muncuq, 1 ədəd piramidal formalı pasta muncuq, 1 ədəd düzbucaqlı formalı pasta muncuq və 1 ədəd zınqırov formalı qızıldan asma bəzək tapılmışdır (Şəkil 1/4-5) (3, 23).

Azərbaycanın maddi-iqtisadi əlaqələri içərisində böyük bir qrupu pasta muncuqlar tutur. Onlar ağ, sarı, açıq-göy və şüşəşəkilli pastalardır. Bu bəzəklər torşəkilli, yolkavari və başqa ornamentlərlə naxışlanıblar. Bu tip muncuqlar arxeoloji qazıntılar nəticəsində Qızılvəng, Gəncəçay rayonu, Daşkəsən, Mingəçevir, Uzuntəpə, Dağlıq Qarabağ və Azərbaycanın digər rayonlarından tapılıb. Onlar dairəvi, oval, künclü, slindrik, şarşəkilli və s. formalıdırlarlar. Azərbaycan ərazisindən əldə olunmuş pasta muncuqları 12 tipə ayıran tədqiqatçılar onlardan 8 tip pastaların təkcə Cəlilabad rayonu ərazisindəki Uzuntəpə abidələrindən tapıldığını qeyd edirlər (21, 49-50).

Pasta muncuqların geniş forması Jak de Morqanın Lənkərandakı qazıntılarından tapılıb. Oxşar formalı pasta muncuqlar İran Talışının Çiləxana, Şağularədə, Həsən Zəmini və Ağa Evləri qəbristanlıqlarından məlumdur. Marlikin Son Tunc dövrü qəbirlərindən çoxlu sayda silindrik pasta muncuqlar aşkar edilib. Yüksək keyfiyyətdə hazırlanmış bu oxşar muncuqlar

Mesopotamiya ərazisindəki abidələrdən məlumdur. Tədqiqatçıların fikrincə, muncuqların pasta tipi və bəzək əşyalarının oxşarlıqlarını Qafqazla cənub ölkələri (Mesopotamiya) arasındakı mübadilənin nəticəsi hesab etmək olar. E.Krupnov Şimali Qqafqazın e.əv. II minilliyə aid abidələr kompleksindən tapılan pasta muncuqların Ön Asiya ölkələrindən gətirildiyini hesab edir. Onun fikrincə, Şimali Qafqazla Şərq arasındakı əlaqələrdə Cənubi Qafqaz vacib rol oynamışdır (21, 53-54).

1973-cü ildə Lənkəran zonasında aparılmış kəşfiyyat xarakterli tədqiqatlar zamanı şəhərin qərb tərəfindəki Şilavar adlanan yerdə dağılmış qəbirlərdən tapılan nümunələr Lənkəran ölkəşünaslıq muzeyinə aparılmışdır. Dağılmış bu qəbirin inventar avadanlıqları içərisində bəzək nümunələri də yer tutur. Bunlar qalın tunc məftildən ucları aralı düzəldilmiş gümüş bilərzik və nazik gümüş lövhədən ucları aralı düzəldilmiş gümüş bilərziklərdir. Onların xarici səthində oyma üsulu ilə həndəsi naxış çəkilib (Şəkil 4/1-3). Bu tapıntılar Dəmir dövrünün əvvəllərinə (e.əv. IX-VII əsrlər) aid edilir (10, 6).

1967-ci ildə Lənkəran yaxınlığındakı Bəlləbur kəndinin şimal-qərbində Sığon adlanan yerdə dağılmış qəbirlərdən də bəzək nümunələri tapılmışdır. 1 №li qəbir torpağının içərisindən dəmir sancaq başlığı və qırıqlar, tuncdan tökülmüş oval formalı lövhə asma və müxtəlif muncuqlar toplanmışdır. Bəzək əşyaları içərisində tuncdan tökülmüş ovalşəkilli lövhə asmanın diametri 4 sm-dir. 1 sm-ə qədər diametri olan, üzəri ağ maddə ilə bəzədilən dairəvi və kiçik, beştilli əqiq muncuqlar, pastadan dördgüşəli ulduz şəklində, üzəri cızma xətlərlə bəzədilərək göy şir qatı çəkilmiş muncuq, dəmir parçaları və s. daxildir (8, 8). 3 və 4 №li dağılmış qəbirlərdən də göyümtül rəngli iri şəffaf şüşə muncuğun parçaları, boçkaşəkilli pasta muncuq, tutqun qırmızı rəngli, yuvarlaq formalı (diametrləri 1 sm-ə qədər) əqiq cinsli daş muncuq tapılmışdır (8, 9).

Analoji nümunələr Lənkəran yaxınlığındakı Divəlona adlanan yerdən tapılıb. Divəlona tapıntıları içərisində müxtəlif bəzək əşyaları da vardır. Tunc bilərziklərdən biri qalın olub, tökmə üsulu ilə hazırlanmış, ucları bir-birinə yaxınlaşıb. Bilərziyin üzərini əhatə edən paralel qabarıq zolaqlar sıra ilə xırda yolkavari cızma naxışlarla bəzədilmişdir. İkinci bilərzik üzəri spirala bənzər formalı, üçüncü isə naxışsız qalın tunc məftildən düzəldilmişdir. Talış-Muğan zonasının bir sıra Son Tunc-İlk Dəmir dövrü abidələrindən (Həsən Zəmini, Ağaevləri, Şağuladərə, Coni, Uzuntəpə) kifayət qədər belə bilərziklər tapılmışdır (14, 51).

Cəlilabad rayonunda, Muğanın dağdibi zolağında yerləşən Boyanalıq adlanan yerdə, Bəcirvan kəndinin cənub-şərq kənarında inşaat işləri üçün qum çıxarmaq məqsədilə qazıntılar aparılmış və xeyli sayda qəbirlər dağıdılmışdır. Buradan tapılmış bəzək əşyalarının xeyli hissəsi (bilərziklər, muncuqlar və s.) itib-batmışdır. Yalnız materialların cüzi bir hissəsi kənddəki orta məktəbə toplanmışdır. Bəzək nümunələri aşağıdakılardır: tunc sancaq başlığı - yumrudur, mismar şəkillidir. Bundan əlavə “misir pastası”ndan hazırlanmış və üzəri göyümtül rənglə örtülü olan müxtəlif formalı muncuqlar da vardır. Həmin muncuqlar da Uzuntəpə tapıntıları ilə eynidir (10, 11-12). Analoji muncuq 1963-cü ildə Q.Aslanov tərəfindən Ağdaşdüzü (Abşeron) abidəsinin 7 №li qəbirindən tapılmışdır. Balaca, slindrik formalı bu muncuq mismarşəkilli olub, mavi rəngli “misir pastası”ndan hazırlanmışdır. Bu qəbir Erkən Dəmir dövrünə aid edilir. Onlar Misirdən gətirilmədir. Oxşar muncuqlar Misirdə e.əv. XIV-XIII əsrlərdə geniş yayılmışdır (21, 52).

Azərbaycanın cənub-şərq bölgəsinin Erkən Dəmir dövrü sənətkarlığında bəzək istehsalı nümunələrinə Uzuntəpə abidələrində də rast gəlinmişdir. 1941-ci ildə Bakı-Astara dəmir yolu xəttinin çəkilişi zamanı Cəlilabad rayonu ərazisində, Uzuntəpə kəndi yaxınlığında təsadüfən aşkar edilmiş abidədən torpaq qəbirlər üzə çıxarılmışdır. Bəzək nümunələri içərisində mütləq üstünlüyü deşici-biz, saç və yaxa sancaqları, tuncdan balaca düymələr, tunc qolbaqlar və üzüklər təşkil edir (20, 37).

Tunc deşici-biz 1 ədəd olub sonluğu zoomorf fiqurludur. Uzunluğu 5,2 sm olan əşya qırılmışdır (Şəkil 4/8). Tunc sancaqlar da papaqşəkilli sonluğa malik olub yuxarı hissəsində kanalvari xətlidir. 1 ədəd sancağın sonluğu buynuzlu öküz başı formalıdır. 17 sm uzunluğu olan əşyanın baş hissəsi 6 mm-dir (Şəkil 4/4). Digər sancaqlar demək olar ki, eyni formaya malikdir.

Tunc bəzəklər içərisində düymələr kiçik və böyük ölçülü olub 31 ədəd nümunədən ibarətdir. Böyük düymələrin diametri 3 sm, kiçik düymələrin isə 1,2 sm-dir. Bu düymələr yarımsferik formalı və fincanşəkillidir.

Tunc qolbaqlar sadə və spiralşəkilli olub insan qolunun sümüyü ilə birlikdə tapılıb. Onların diametri 6 sm-dir (Şəkil 5/1-5). Qalın tunc lövhələrdən hazırlanmış üzüklər də incə sonluqlarla işlənmişdir. 5 mm qalınlıqda olan kiçik üzüklərin diametri 7 sm-ə qədərdir. Böyük üzüklər isə orta qalınlıqda olub tunc lövhənin bir neçə dəfə burulması nəticəsində düzəldilmişdir. Daha iri ölçülü qolbaqlardan biri bəzək əşyasının yarı hissəsi olub 9 mm qalınlıqda tunc məftildən hazırlanmışdır. Onun diametri 9,6 sm-dir (20, 37-41).

Analoji tunc qolbaqlar İranın şimalında Gilan vilayətinin Tükəmcan kəndi ərazisindəki daş qutu qəbirlərdən tapılıb. Bu bəzək əşyalarının gündəlik həyatdan savayı dini ayinlər zamanı da istifadə edildiyi aydın olur (32, 51, fig.28).

Spiralşəkilli tunc qolbaqların ən geniş kolleksiyası Gilanın Vaske nekropolundan məlumdur. Bu qolbaqlar da qalın tunc məftildən burma formasında tökmə üsulu ilə hazırlanmışdır. Onların adətən iki tərəfdən olan sonluqları isə dairəvi ya üçbucaq formada üstü naxışlıdır (30, 91).

İlk Dəmir dövrünün tunc və dəmirdən hazırlanmış analoji nümunələrinə Naxçıvan ərazisindəki Qızılvəng nekropolunda rast gəlinib. Bu bəzək əşyaları sancaq, qolbaq, üzük və başqa tapıntılardan ibarətdir. Bəzəklər içərisində müxtəlif formalı əqiq, pasta və daşdan hazırlanmış muncuqlar vardır (18, 186).

Bundan əlavə Uzuntəpə qəbirlərindən yüksək keyfiyyətlə hazırlanmış pasta muncuqlar - ağ, açıq-mavi, mavi və yaşıl rəngli, ümumi sayı 274 ədəd olan bəzəklər tapılıb. Sarı və çəhrayı bərk şüşə muncuqlar 14 ədəd, tuncdan 14 ədəd və bərk cinsli daşdan, əqiq və mineral yəşəm daşından 16 ədəd muncuqlar əldə edilib. Muncuqlar müxtəlif forma və məzmuna malikdirlər: onlar dairəvi, oval künclü, silindrik, yastı və s. formalıdır. Bütün pasta muncuqlar ornamentli naxışlarla üfüqi, şaquli və düz xətlərlə işlənilib. Üzəri torşəkilli naxışlarla kəsilmiş bəzəklərə də rast gəlinir (Şəkil 5/6-7).

2014-cü il çöl tədqiqatları zamanı Yardımlı rayonunun Alar kəndi yaxınlığındakı Sarıbulaq yaylaqlarında tədqiq edilmiş 3 №li daş qutu tipli qəbirdə analoji tunc sancaq, pasta, əqiq və gil muncuqlara, daşdan bəzək əşyasına rast gəlinmişdi (2, 76). Bu materialların qısa təsviri aşağıdakı kimidir.

Daş əşya boz rəngli hamarlanmış çay daşından olub oval formalıdır. Alt üzü sınmışdır. Üst üzdən cilalanıb. Ortasında simmetrik qaydada ikitərəfli deşik açılmışdır. Əşyanın yarı hissəsi tapılmışdır. Lakin hansı məqsədlə istifadə edilməsi məlum deyildir (Şəkil 4/11).

1 ədəd tuncdan hazırlanmış saç və ya yaxa sancağı da maraqlı tapıntıdır. Bəzək əşyasının yuxarı başlıq tərəfi papaq formalıdır. Başlıqdan 2,2 sm aşağıda ikitərəfli deşik açılmış və bu hissə tam olaraq halqavari naxışlanmışdır. Bu çox ehtimal ki, digər bəzəyin dəlikdən keçirilməsi nəticəsində onun möhkəm saxlanılması funksiyasını daşıyıb. Aşağı sonluğa doğru iti ucludur. Bəzək əşyası salamatdır. Uzunluğu 12 sm-dir (Şəkil 4/10). Oxşar saç sancaqları Gilan vilayətinin dağlıq Talış regionundakı həmdövr qəbir abidələrindən də məlumdur. M.Xələtbəri bu bəzək əşyalarını qəbir abidələrinə əsasən e.əv. I minilliyin əvvələrinə aid edir (6, 302). Analoji tunc sancaqlar Xaraba Gilan və Dəmyələr nekropollarından tapılıb. Bu sancaqlar 3 qrupdan ikincisi olub başı yumrulaşdırılmış, en kəsiyi dairəvi olan, diametri boyunca uc sırada dərin cızma xətlər çəkilmiş sancaqlardır. Bəzi hallarda bu sancaqlara da zəncir keçirilmişdir (5, 138).

Muncuqlar da tunc, ağ və mavi pasta, əqiq, kauri (qarnıyarıq) və gil bəzək əşyalarıdır (Şəkil 4/9). 1 ədəd tunc muncuq boruşəkillidir. Uzunluğu 6 mm, diametri 4 mm-dir. Ağ (6 ədəd) və mavi (2 ədəd) pastadan olan muncuqlar çəlləkvari formalıdır, ümumi sayları 8 ədəddir. 1 ədəd qırmızı rəngli əqiq mineral daşından hazırlanmış muncuq yastı və hamar formada kəsilmiş, diametri 1 sm-dir. 1 ədəd kauridən (qarnıyarıq) olan muncuq da bütövdür. 1 ədəd qonur gildən çiy hazırlanmış muncuq dairəvi formalıdır, qalındır, ortasından sapa keçirmək üçün ikitərəfli böyük deşik açılmışdır. Bəzək əşyasının diametri 2 sm, qalınlığı 1,8 sm, sapa keçirilən yerinin diametri isə 1 sm-dir. Əşya salamatdır.

Analoji bəzək əşyaları 1981-ci ildə Masallı rayonunun Tatyan kəndi yaxınlığındakı Köhnə Qışlaq adlanan yerdən tapılıb. Yol çəkilişi zamanı təbii təpənin dağılması nəticəsində buradan torpaq qəbirlər üzə çıxmışdır. Toplanaraq kənd 8 illik orta məktəbindəki tarix-diyarşünaslıq muzeyinə verilmiş maddi mədəniyyət nümunələri içərisində bəzək əşyaları da vardır. Tuncdan bilərziklər, üzük və kobud şəkildə düzəldilmiş əqiq muncuq və spiralşəkilli muncuqlar da tapılmışdır. Oxşar nümunələrə əsasən Köhnə Qışlaq abidəsi e.əv. I minilliyin ikinci yarısına aid edilir (4, 86).

Tədqiqatçılar bəzək əşyaları içərisində yer tutan balıqqulağı, kauridən (qarnıyarıq) olan nümunələri 3 növə ayırmaqla onların bütün növünün Azərbaycan ərazisindəki abidələrdən məlum olduğunu yazırlar. Onlar kaurinin bir çox ölkələrin ərazisində pulaqədərki mübadilə vasitəsi kimi istifadə edildiyini zənn edirlər. Ehtimal ki, Azərbaycan ərazisində də Son Tunc - İlk Dəmir dövründə yerli tayfalar pulaqədərki mübadilə vasitəsi kimi balıqqulağından istifadə etdikləri istisna edilmir. Bütün bunlar da qədim Azərbaycanın yerli tayfalarının cənub ölkələrinin tayfaları ilə sıx əlaqələrinin olduğunu açıqaydın göstərir. Analoji bəzək nümunələrinə Gürcüstanın və Şimali Qafqazın sinxron abidələrində rast gəlinir (21, 60-61). Naxçıvan ərazisindəki Muncuqlutəpə nekropolundan da kauridən muncuqlar tapılıb (5, 148).

2019-cu ilin qazıntıları zamanı Yardımlı rayonunun Arvana kəndi yaxınlığındakı Qaryatan adlanan ərazidə 1 №li kurqandan da bəzək əşyaları kimi 1 ədəd tunc üzük və 21 ədəd muncuq aşkar edilmişdir. Üzük nazik tunc məftildən halqavari formada hazırlanmışdır. Diametri 2 sm-dir. Pasta və sümükdən hazırlanmış muncuqlar müxtəlif ölçülü və formalıdır. Çox kiçik ölçülü mavi və ağ rəngli muncuqlar dairəvi formalı kəsilib, hazırlanıb. Onların sayı 16 ədəddir. 2 ədəd nisbətən iri ölçülü ağ rəngli pasta muncuqlar isə çəlləkvari formalıdır və üstü qabarıq düz xətli naxışlıdır, bir növ dişli halqa formasını xatırladır. Onların diametri 0,5 sm-dir. 1 ədəd uzunsov, arpaşəkilli muncuq sümüyə oxşar materialdan hazırlanıb. Onun uzunluğu 1,4 sm-dir. Daha 2 ədəd rombşəkilli uzunsov muncuqlar mavi və ağ rəngli nisbətən bərk materialdan hazırlanmış bəzək əşyalarıdır. Bu muncuqların üzərində kəsmə formada həndəsi elementlərdən ibarət naxışlar çəkilmişdir. Uzunluqları 1,2 sm-dir (Şəkil 1/6). Qeyd etmək lazımdır ki, Arvana kurqanından tapılmış bu muncuqlar konkret olaraq skeletin üzərindən deyil, qəbir kamerasının içərisindən səpələnmiş şəkildə tapılmışdı. Bu da dəfn ayini zamanı muncuqların ritual olaraq tökülməsi anlamına gəlməlidir. M.R.Xələtbəri İranın şimal vilayətlərində, Dağlıq Talış bölgəsindəki Erkən Dəmir dövrü qəbir abidələrindən də analoji olaraq yüzlərlə ornamental bəzəklərə (qızıl, gümüş, əqiq, pasta və s.) təsadüf edildiyini yazır. Müəllif qeyd edir ki, bu tapıntılar əsasən qadın qəbirlərindən tapılıb və bəzəklərin məişətlə yanaşı qədim insanların dəfn ayinlərində də mühüm rola malik olduğunu söyləyir (28, 20).

**Nəticə**

Azərbaycanın cənub-şərq bölgəsində Tunc-İlk Dəmir dövrünə aid aşkarlanmış bəzək nümunələrinin rəngarəngliyini müşahidə etdik. Çoxsaylı bəzək nümunələrinin təhlili göstərdi ki, onların əksəriyyəti Ön Asiyanın qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqəli olmuşdur. R.Munçayev Şimali Qafqazla Ön Asiyanın qədim dövrdə sıx əlaqəsini Cənubi Qafqazla bağlılıqda görür. Qədim Azərbaycan tayfalarının Ön Asiya ölkələri ilə təmaslarını birinci yol kimi Naxçıvandan keçdiyini hesab etsək, ikinci yol kimi isə cənubda Talışdan (Astara, Lənkəran, Cəlilabad, Masallı) keçməklə Muğan düzü vasitəsilə yayıldığın görmək olur. E.Krupnov qeyd edir ki, Qafqazla qədim Şərq arasındakı əlaqələrdə Şərqi Zaqafqaziya vacib rol oynamışdır. Qədim yollardan danışırıqsa unutmaq lazım deyil ki, Yaxın Şərq ölkələrindən başlayan iqtisadi-ticari əlaqələr istisnasız olaraq Azərbaycan ərazisi ilə keçmişdir. Bu iqtisadi-ticarət əlaqələri üçün Qafqaza doğru şərqdən aparıcı yol kimi məhz Luristan (Təpə Giyan), Marlik təpə və yaxud Mazandaran (Kalar, Xurvin), İran Talışı (Ağa Evləri, Həsən Zəmini) mühüm hesab edilməlidir (21, 67-69).

Bütün bunlar onu sübut edir ki, Tunc-İlk Dəmir dövründə qonşu regionlar ilə geniş mədəni-iqtisadi əlaqələr yerli tayfaların həyatında əhəmiyyətli olmuş və bütün bu əlaqələr onların sosial-ictimai həyatında bir sıra dəyişikliklərə gətirib çıxarmışdır. Bu dəyişikliklər də məhz is-

tehsal təsərrüfatı, sənətkarlıq sahələri və yerli istehsal ənənələrinin sürətli inkişafı ilə xarakterizə olunmalıdır.

### Ədəbiyyat siyahısı


**1.** Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.əv. XIV-VII əsrlər). Bakı, Nurlan 2007, 192 s.

**2.** Ağalarzadə A.M. Lerik rayonu ərazisindən tunc dövrünə aid daş qutu qəbirdən tapılmış bir əqiq möhür haqqında (etno-arxeoloji tədqiqat)/ Azərbaycan arxeologiyası və etnoqrafiyası 2015, №2. Bakı,Nafta-Press 2015, səh. 38-42.

**3.** Ağalarzadə A.M. Lerik rayonunun Son Tunc-İlk Dəmir dövrü qəbir abidələri və dəfn adətləri (fransız arxeoloqu Jak de Morqanın qazıntıları əsasında etno-arxeoloji tədqiqat) /Azərbaycan arxeologiyası və etnoqrafiyası, №2, 2017, s. 22-38.

**4.** Ələkbərov A.İ., Əzizov T.H. Köhnə Qışlaqda arxeoloji tapıntılar// S.Qazıyevin ahadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı, Elm 1994, s.85-88.

**5.** Əliyev E.H. Ordubad rayonunun tunc və ilk dəmir dövrü arxedoloji abidələri. Bakı, “Elm və təhsil”, 2018. 272 s.

**6.** Xələtbəri M.R. Gilan Dəmir dövründə. Tehran 1392, 337 s. (fars dilində).

**7.** Kərimov S.K. Lerik rayonunun arxeoloji abidələri. Bakı, Araz 2006, 164 s.

**8.** Mahmudov F.R. Talış-Muğan zonasına 1967-ci il kəşfiyyat səfərinin hesabatı// AEİEA, 30 s.

**9.** Mahmudov F.R. Talış və Muğanın qədim mədəniyyətinə aid arxeoloji materiallar//Azərb.SSR EA xəbərləri – tarix, fəlsəfə, hüquq seriyası. Bakı, Elm 1970, №2, s. 66-76.

**10.** Mahmudov F.R. 1973-cü ildə (5-15 iyun) Lənkəran zonasına arxeoloji kəşfiyyat səfərinin hesabatı// AEİEA, 1974, h-113, 19 s.

**11.** Mahmudov F.R., Nərimanov İ.H. Muğan arxeoloji dəstəsinin 1976-cı il tədqiqatlarının hesabatı//AEİEA, h-101. Bakı 1977, 52 s.

**12.** Mahmudov F.R. Astara rayonundakı İlk Tunc dövrü kurqanları haqqında/AMM, X cild, Bakı 1987, s. 12-21.

**13.** Mahmudov F.R., Nərimanov İ.H. Muğan arxeoloji dəstəsinin 1974-cü il tədqiqatlarının hesabatı//AEİEA, h-123. Bakı 1975, 46 s.

**14.** Mahmudov F.R., Kəsəmənli H.P. Lənkəran yaxınlığındakı qədim qəbiristan haqqında// Azərb. SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. Bakı, Elm 1974, №4, s. 47-56.

**15.** Müseyibli N.Ə. Zəyəmçay nekropolunda arxeoloji qazıntılar// Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2004, №2, s. 58-65.

**16.** Nəgbiyan İ. Marlikdə qazıntılar. I cild. Tehran 1378, 520 s. (fars dilində).

**17.** Rəhimova M., Ələkbərov A., Kazanova M., Lorre K. Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Lerik rayonunda apardığı çöl-tədqiqat işləri haqqında// Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı 2013, səh. 352-357.

**18.** Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм 1982, 315 с.

**19.** Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм 1991, 256 с.

**20.** Джафарзаде И.М. Элементы археологической культуры древней Мугани// Изв. АН Азерб. ССР, 1946, №9, с. 21-51.

**21.** Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа (по археологическим материалам Азербайджана). Баку, «Элм» 1984, 108 с.

**22.** Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, Нафта-пресс 2008, 304 с.

**23.** Кесаманлы Г.П. Хачбулагский курган с массовым захоронением// АММ, VIII cild, Bakı 1976, s. 46-75.

**24.** Махмудов Ф.Р., Нариманов И.Г., Ахундов Т.И. Некоторые памятники эпохи бронзы Муганской равнины/ Инст. ист. мат. культ. Петербургская трасологическая школа и изучение древних культур Евразии. Санкт-Петербург 2003, ст. 147-157.

**25.** Махмудов Ф.Р., Нариманов И.Г. Исследования на поселении Аликемек тепеси// АЭИА (1974 г). Баку, Элм 1975, с. 10-14.

**26.** Morgan J de. Mission scientifique en Perse. Tome quatrieme. Recherches archeologiques. Paris, Ernest leroux editeur 1896.

Premiere partie, 125 page. Chapitre II, page. 14-125.

**27.** Khalatbari M.R. Talesh/ Gilan 1383 (1965), 297 p.

**28.** Khalatbari M.R. A report in Occasion of the Second Congress for Talish// Culture and civilization. Gilan 2007, 60 page.

**29.** Khalatbari (A) M.R. Archaeological investigation in Talesh. Gilan -1. Excavations at Toul-e Gilan. Gilan 2004, 184 p.

**30.** Khalatbari (B) M.R. Archaeological investigation in Talesh. Gilan -2. Excavations at Vaske and Mianroud. Gilan 2004, 239 p.

**31.** Jahani V. Archaeology of Amlash/ Gilan, Rasht 2015, 209 p.

**32.** Jahani V. Manifestation of the Iran I Culture in the Polerud Basin: an archaeological investigation of the Qaleh-Garden, Bonyeh and Tukamjan cemeteries//Bulletin of the Okayama Orient Museum, 2011, vol.25, p.31-58.

**33.** Clairfontaine F.F. Jacques de Morgan et le recherche sur les ages du Bronz et du Fer en Armenie. A propos de ouvrage Mission scientifique au Caucase// Caucase, Egipte et Perse: Jacques de Morgan (1857-1924) pionnier de l aventure archeologique// cahiers de musee d Archeologie Nationale, Paris 2009, numero 1, p. 77-88.



**Şəkil 1.** 1- Komanı kurqanı №4; 2-3 - Əlikömәktәpә y.y. 80 №li sallama qәbir; 4-5 - Keraveladi nekropolu, 4 №li daş qutu qәbir; 6 - Arvana kurqanı №1.



**Şəkil 2.** Tunc bəzəklər *(Jak de Morqanın qazıntıları, Lerik rayonu).*



**Şəkil 3.** Tuncdan sancaqlar və bəzəklər *(Jak de Morqanın qazıntıları, Lerik rayonu).*



**Şəkil 4.** 1-3 - Qolbaqlar (Masallı rayonu, Şilavar kəndi); 4-8 - Tunc sancaqlar – (Uzuntəpə kompleksi, Cəlilabad rayonu); 9-12 - Müxtəlif bəzək əşyaları (Sarıbulaq daş qutu qəbiri, Yardımlı rayonu).



**Şəkil 5.** Bəzək əşyaları *(Uzuntəpə kompleksi, Cəlilabad rayonu).*



**Şəkil 6.** Əqiq muncuqlar *(Jak de Morqanın qazıntıları, Lerik rayonu)*

**Резюме**

**Анар Агаларзаде**

**Предметы украшения в ремесленном производстве эпохи бронзы – раннего железа юго-восточного региона Азербайджана ( этно-археологическое исследование)**

В статье повествуется о различных типах украшений, обнаруженных в памятниках эпохи бронзы – раннего железа, расположенных в юго-восточном регионе Азербайджана и о технологии их производства. Анализ многочисленных предметов украшения показывает, что большинство из них имеет тесные связи с древними центрами культуры Передней Азии. Установленная взаимосвязь изучаемых находок с синхронными культурами данной эпохи доказывает, что люди в те далекие времена старались обмениваться навыками в сфере производства и широко использовали готовые изделия в своих культуро-экономических связях.
***Ключевые слова:*** *Эпоха бронзы – раннего железа, украшения, курганы и погребения в каменных ящиках, археологические культуры.*

**Summary**

**Anar Aghalarzade**

**Ornamentals in the Bronze-Early Iron Age handicraft of the south-eastern region of Azerbaijan (*ethno-archaeological research*)**

The article deals with various types of ornaments found in the Bronze-Early Iron Age monuments in the south-eastern region of Azerbaijan and the technology of their production. An analysis of numerous ornamental patterns shows that most of them were closely associated with the ancient cultural centers of Central Asia. The observation of the interaction of these findings with the local synchronous cultures of the time proves that the ancient people also tried to share their skills in the culture of production and used their examples in cultural and economic relations with each other.
***Keywords:*** *Bronze-Early Iron Age, ornamentals, kurgans and stone box graves, archaeological cultures.*

UOT 902.2

**ŞAMİL NƏCƏFOV**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*"Etnoarxeologiya" şöbəsi aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent*
*shamil_necefov@mail.ru, Azərbaycan*

# QAZAX RAYONU ƏRAZİSİNDƏ YENİ ARXEOLOJİ TƏDQİQATLAR
## (Əziztəpə Son Tunc-Erkən Dəmir dövrü abidəsinin arxeoloji təqiqinin yekunları)

***Açar sözlər:*** *Qazax, Əziztəpə, Tunc dövrü, Orta Kür hövzəsi, yaşayış yeri, qəbir abidələri*

**Giriş.** AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən Gəncə-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun genişləndirilməsi və yeni yol tikintisi ilə bağlı yol oxu boyunca arxeoloji kəşfiyyat və tədqiqat işləri həyata keçirilmişdir. Yeni tikinti sahələrinin arxeoloji tədqiqi proqramına əsasən aparılan arxeoloji tədqiqatlar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Qazax arxeoloji ekspedisiyası tərəfindən (müəllifin rəhbərliyi ilə) 20 fevral-15 mart 2019-cu ildə həyata keçirilmişdir.

Arxeoloji kəşfiyyat işlərinin aparılmasında məqsəd yol dəhlizinə düşə biləcək arxeoloji abidələrin varlığını müəyyən etmək, onları koordinatlaşdırmaq, abidələrin xəritəsini çəkmək və planını çıxartmaqdan, növbəti mərhələdə isə əsaslı arxeoloji qazıntı işləri aparmaqdan ibarət olmuşdur.

Yeni yol dəhlizi Kür çayı vadisi boyunca uzanır və Böyük Qafqazla Kiçik Qafqaz sıra dağları arasında yerləşən geniş ovalıqlardan şərq-qərb istiqamətində keçir. Bu ərazidə uzununa tektonik hərəkətlər zamanı vulkanik fəaliyyətlər baş vermişdir. Bu ən çox I Şıxlı kəndinin yuxarısında dağ massivində özünü göstərir. Ərazilərin çox hissəsi allüvial çöküntülər ilə örtülmüşdür. Allüvial düzənliklərdə hələ də mənbəyini Böyük və Kiçik Qafqaz dağlarından götürən çayların gətirdiyi çoxlu miqdarda çöküntülər toplanır və bu çöküntülər miqdarına görə ən çox çöküntü gətirən digər çaylarla bir sırada durur. Kür çayının subasar düzənlikləri əsasən açıq, yumşaq qum və allüvial çöküntülərdən ibarət az maili geoloji tipə malikdirlər. Müşahidə edilmiş torpaqlar, demək olar ki, əsasən gilli tərkibə malik və sıxdılar. Bəzən çox ərazilərdə duzlu torpaqlara rast gəlinir. Yol dəhlizində əsas torpaq növləri kimi şabalıdı, çəmən və boz torpaqlara (dağ-çəmən boz torpaqlara) rast gəlinir (10, 5).

Yeni yol dəhlizi arxeoloji abidələrin sıx cəmləşdiyi Cəyir, Qanlı Qobu, Zəyəmçay, Əsrikçay, Tovuzçay, Həsənsu, Ağstafaçay hövzələrini kəsərək keçir.

Daşbulaq Orta əsr yaşayış yeri, Dəllər-Cəyir və Zəyəmçay kurqanları, Zəyəmçay nekropolu, Sarı Rəmə Son Tunc-Erkən Dəmir dövrü yaşayış yeri, Tovuzçay nekropolu, Bozalqanlı yaşayış yeri, Həsənsunun torpaq qəbirləri, Mahmudlu və Bəşirli torpaq qəbirləri, Keçili kurqanları və s. arxeoloji abidələr yeni yol dəhlizinə yaxın yerləşirlər (10, 6). Qazıntısı aparılmayan bir çox abidələr, o cümlədən Qazax rayonu ərazisində Ocaqtəpə, Qanlı Töyrə, Mollamey (Mollaney) yaşayış yerləri, Tovuz rayonu ərazisində Bozalqanlı yaşayış yeri, Ağstafa rayonu ərazisində Ağalıqtəpə və Arançı təpələri yaşayış yerləri də yeni yol dəhlizinə çox yaxın məsafədədirlər.

Arxeoloji kəşfiyyat işləri zamanı bir neçə kiçik əhəmiyyətli arxeoloji risk zonası və yeni yol dəhlizinin üzərinə düşən bir abidə - Qazax rayonunun Qazaxbəyli kəndi ərazisindəki Əziztəpə abidəsi qeydə alınmışdır. Arxeoloji risk zonaları aşağıdakılardır:

1. Tovuz rayonunun Aşağı Eyyublu kəndinin çıxışında, Düz Qırıqlı kəndinin başlanğıcında əkin yerləri içərisindən xeyli sayda keramika nümunələri və daş məmulatı aşkar edildi (10, 7-8). Bu keramika nümunələri təmiz gil tərkibli olub, keyyfiyyətli hazırlanmışlar. Əsasən Son Tunc-Erkən Dəmir dövrü (e.ə. II minillliyin II yarısı-I minilliyin əvvəli) üçün səciyyəvidir. Daş məmulatı əsasən dən daşlarının

qırığından ibarətdir. Koordinatlar: N40$^0$57$^{/}$04.1$^{//}$ E045$^0$49$^{/}$19.7$^{//}$ N40$^0$57$^{/}$04.4$^{//}$ E045$^0$49$^{/}$09.4$^{//}$

2. Yeni yol dəhlizinin 49.400-cü km-də yenə də əkin yerləri içərisində xeyli sayda keramika nümunələri aşkar edildi. Bu nümunələr müxtəlif ölçülü və təyinatlı saxsı qabların ağız, çiyin, gövdə və oturacaq hissələrinin fraqmentləri idi. Koordinatlar: N40$^0$57$^{/}$15.6$^{//}$ E045$^0$47$^{/}$05.0$^{//}$

3. Ağstafa rayonunun Dağ Kəsəmən mövcud yolundan sağa ayrılan dolama yol yaxınlıqdakı Arançı təpəsi yaşayış yerinin əhatəsindən keçsə də abidəyə toxunmur. Bir qədər aralıda isə dəhlizin üzərində keramikaların cəmləşmə sahəsinə rast gəlindi. Bu keramikalar əkin yerinin üzərindən tapıldı və sahə nisbətən maili təpəlikdən ibarətdir. Həmin ərazidən tapılan çox sayda keramikalar Tunc və Erkən dəmir dövrləri (e.ə. III-I minilliklər) üçün xarakterikdir (10, 8). Ərazi Dağ Kəsəmən kəndinin şimal-şərqində yerləşir. Bu sahənin koordinatları belə idi: N41$^0$06$^{/}$31.9$^{//}$ E045$^0$24$^{/}$40.3$^{//}$.

4. Qazax rayonunun Kosalar kəndinin qurtaracağında, kəndin köhnə qəbristanlığı yerləşir. Bu qəbristanlığı mövcud baş daşlarının üzərindəki epiqrafik yazılardan XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid etmək olar. Qəbristanlıqdan bir qədər aralıda sahəsi təxminən 50x30 metr olan kiçik təpəlik yerləşir və təpə üzərində tək məzar və yanında sinə daşları kromlex formasında düzülmüş daha bir qəbir vardır. Sahə N41$^0$08$^{/}$54.3$^{//}$ E045$^0$21$^{/}$11.6$^{//}$ koordinatlarında yerləşir. Əslində bu kiçik təpə yaxınlıqdakı müsəlman qəbristanlığının davamıdır (10, 8).

Yeni yol dəhlizinə düşən yeganə arxeoloji abidə Qazax rayonunun Qazaxbəyli kəndi ərazisindəki Əziztəpə abidəsi olmuşdur (Şəkil 1).

**Əziztəpə abidəsi və onun arxeoloji səciyyəsi.** Əziztəpə abidəsi (inv. 5848), Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində, kənddən 450-500 metr şərqdə, Bakı-Tiflis magistral yolunun sağ tərəfində, N41°09'40.5" E45°19'34.5", N41°09'44.9" E45°19'36.7" və N41°05'41.3" E 45°15'36.9" koordinatlarında, dəniz səviyyəsindən 354 metr yüksəklikdə yerləşir (10, 9).

Yerli əhəmiyyətli abidələrdən sayılan bu abidənin sahəsi çox təəssüflər olsun ki, kənd sakinləri tərəfindən onilliklərdir ki, əkin yeri və biçənək kimi istifadə olunur.

Abidə təxminən 2,5 ha-ya yaxın sahəni əhatə edir.

Əziztəpə abidəsi ilk dəfə 1954-cü ildə qeydə alınmışdır. Əkin sahələrini genişləndirmək məqsədilə abidənin yerləşdiyi təpənin torpağı hamarlanıb düzəldilərkən təsadüfən qəbirlər aşkar edilmiş və arxeoloji materiallar üzə çıxarılmışdır (6, 140). 1954-cü ildə S.M.Qazıyevin rəhbərliyi və C.Ə.Xəlilovun iştirakı ilə əraziyə ezam olunan arxeoloji ekspedisiya burada kiçik miqyaslı qazıntı işləri aparmış və üzə çıxarılan qəbirlərlə yanaşı əlavə qəbirlər də qazıb tədqiq etmişlər. Ekspedisiya təpənin qismən dağıdılmamış mərkəzi hissəsində arxeoloji qazıntılar zamanı 7 torpaq qəbir aşkar etmişdir (6, 141). Sonuncu dəfə 1956-cı ildə İ.H.Nərimanov və C.Ə.Xəlilov əraziyə gələrək bəzi arxeoloji materiallar toplamışlar (4, 30). Həmin vaxtdan keçən yarım əsrdən çox müddət ərzində burada heç bir əsaslı arxeoloji qazıntılar aparılmamışdır.

Abidənin yerləşdiyi alçaq maili təpəni yerli əhali bəzən "Eşşəktəpə" də adlandırır. Lakin abidənin tarixi adı Əziztəpə olmuşdur. Yerli kənd əhalisi "Eşşəktəpə" adını abidəyə sonradan vermişdir. Kənd camaatının dediyinə görə bu təpənin üzərində əvvəllər çoxlu qanqal bitkisi bitirmiş və sahibsiz qalan uzunqulaqlar qanqal otlamaq üçün bu təpənin üzərinə toplaşarmış. Ona görə əhali təpəyə "Eşşək təpəsi" və yaxud "Eşşəktəpə" adını vermişdir. Eşşəktəpə yaxud Əziztəpədən bir qədər aralıda – təxminən 250-300 m məsafədə, şimal-şərqdə daha bir möhtəşəm abidə - Mollamey (Mollaney) abidəsi vardır (10). Dövlət tərəfindən qorunan maddi mədəniyyət abidələrinin külliyyatına bu abidə səhvən "Qazaxbəyli kurqanı" adı ilə düşmüşdür. Lakin bu abidə kurqan deyildir. Bu yaşayış yerinin sahəsi təxminən 2,5-3 ha-ya yaxındır və Son Tunc-Erkən Dəmir dövrünə aiddir. Hündürlüyü 4-6 metr olan bu yaşayış yerinin üzərində aid olduğu dövr üçün xarakterik yüzlərlə artefaktlar vardır. Keyfiyyətli hazırlanmış, təmiz gil təkibli keramika fraqmentlərinin əksəriyyəti qara və boz rənglidir (10).



**Şəkil 1. Əziztəpə abidəsinin şimaldan görüntüsü**

Əziztəpədə 1954-1956-cı illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar edilən qəbirlər torpaq qəbirlər olub insan skeleti və avadanlıqlarla müşayiət olunurlar. Qazılmış 7 torpaq qəbir haqqında S.M.Qazıyev və C.Ə.Xəlilovun nəşr etdirdikləri elmi məqalələrdə (4; 6) ətraflı məlumat verilmişdir. Bu məqalələrdə qeyd olunur ki, qəbirlərdə avadanlığın zəngin, orta və bəzilərində az olması bu dövrdə ictimai və sinfi bərabərsizliyi göstərən amillərdəndir. Qəbirlərə qoyulmuş gil qablar çox zərif hazırlanmış və yaxşı bişirilmişdir. Bu fakt isə qeyd olunan dövrdə mahir ustaların və öz dövrünə görə mükəmməl kürəxanaların olduğunu göstərir (6, 145).

Abidənin tarixi adı ilə adlandırılmaması, abidənin tipinin tam müəyyən edilməməsi və yalnız nekropol adlandırılması, bəzi yerlərdə isə buranın Erkən Dəmir dövrünün nekropolu və Orta əsrlərin yaşayış yeri adlandırılması, arxeoloji materialların zəif interpretasiyası və s. qeyd olunanlar həmin müəlliflərin tədqiqatlarının çatışmayan tərəfləri olsa da bu məqalələr hər halda abidənin elmi ictimaiyyətə çatdırılması və tanıdılması baxımından əhəmiyyətli olmuşdur.

Hər iki mərhələdə Əziztəpədə arxeoloji qazıntı işləri yeni tikinti sahələrinin arxeoloji tədqiqi proqramına uyğun olaraq aparılmış və bir növ arxeoloji xilasetmə funksiyası daşımışdır.

2019-cu ildə aparılmış arxeoloji qazıntılar zamanı az vaxt ərzində abidənin ilkin tarixi adı və koordinatları müəyyən edilmiş, yerləşdiyi ərazinin topoplanı çıxarılmış, dövrü, tipi, arxeoloji materialların təyinatı, dəfn adətləri öyrənilmiş və insan sümüklərindən analiz üçün nümunələr götürülmşdür. Tədqiq olunmuş 5 qəbrin hamısı torpaq qəbirlər olub avadanlıqları və dəfn adətləri baxımından bir qədər fərqlidirlər (10).

**Əziztəpədə arxeoloji tədqiqatlar.** AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Qazax arxeoloji ekspedisiyası 01-30 may 2019-cu il tarixində Əziztəpə abidəsində arxeoloji qazıntıları həyata keçirmişdir.

Abidə hündür təpə formasında olmuş, zaman-zaman torpağı daşınmış və nəhayət alçaq maili təpəlik formasına salınaraq əkin işləri üçün yararlı vəziyyətə gətirilmişdir (Şəkil 2). Hazırda təpənin bir hissəsində dənli bitkilər əkilir, qalan hissə isə otlaq yeri kimi istifadə olunur.

Abidənin üzərində xeyli sayda keramika nümunələri və daş alətlərin fraqmentlərinə rast gəlinir. Bu keramika nümunələri əsasən qara və boz rəngli, təmiz gil tərkibli və nazik divarlı xeyrə, küpə, bardaq, qazan kimi saxsı qabların ağız, çiyin, gövdə hissələrindən ibarət fraqmentlərdən və eləcə də həvəng, dəstə, sürtgəc kimi daş alətlərin hissələrindən ibarətdir. Bu tip materiallara abidənin bütün ərazisi boyunca rast gəlinir (10).

Abidə yaşayış yeri olub birtəbəqəlidir. Bunu stratiqrafik məlumatlar da sübut edir. Lakin qazıntı üçün seçdiyimiz sahədə apardığımız tədqiqatlar onu sübut etmişdir ki, qazılan səviyyə nə vaxtsa qalın və zəngin mədəni təbəqə yatımına malik olan abidənin ən son materik hissəsinə yaxın olan sahəsidir.



**Şəkil 2. Abidənin topoplanı**

Məlum olmuşdur ki, Əziztəpə abidəsinin təxminən 100 metr uzunluğunda və 20 metr enində olan hissəsi yeni yol dəhlizinə düşür. Hansı ki, bu hissə abidənin yerləşdiyi maili təpənin ətəyidir. Abidənin qalan böyük hissəsi və mərkəzi dəhlizdən kənardadır.

Müəyyən edilmiş sahədə qazıntı üçün ərazi ayrıldı. İlk öncə qazıntı aparılacaq sahənin üst münbit torpağı texnika vasitəsilə qaşındı. Çünki, bu münbit torpaq qatı onilliklər boyunca əkilməkdədir və bu qatda heç bir arxeoloji materialın izlənilməsi mümkünsüz idi. 50 metr uzunluğunda və 20 metr enində sahənin üst qatı qaşınaraq götürüldü. Daha sonra burada hər biri 10x10 m ölçüdə olmaqla 4 kvadrat qoyuldu. Kvadratlar şərqdən qərbə yol oxu istiqamətində nömrələndi (10, 12).

Müasir yer səthindən 20-80 sm dərinliyədək qazıntılar aparıldı.

*Keramika məmulatı:* Əldə edilən artefaktların böyük hissəsi gil qabların ağız, çiyin, oturacaq, gövdə hissələrindən ibarət idi. Gil qabların əksəriyyəti təmiz tərkibli olub, heç bir qarışığa malik olmayan gildən bişirilmişdir. Sabit temperaturda bişirildikləri üçün keyfiyyətli qalmışlar. Daha çox xeyrə, küpə, bardaq, dopu, parç, qazan tipli gil qabların hissələri tapılmışdır (Şəkil 3). Onlar qara və boz rəngdə olub yaxşı cilalanmışdır. Üzərilərində boya izlərinə də rast gəlinir. Qulpların əksəriyyəti bardaq tipli gil qablara aiddir (10, 12).

Küpələr ən çox tapılan keramika nümunələridir. Onların gil tərkibi təmiz olub, sabit tempratur rejimində bişirilmişdir. Nazik divarlı

(0,5-1 sm) küpələrin xarici səthi yaxşı cilalanmış, hamarlanmışdır. Əsasən şargövdəlidir. Ağız kənarları xaricə azacıq çıxıntılı olub, boğaz hissəsi kiçikdir. Bəzi küpələrin üzəri cilalandıqdan sonra qara boya ilə boyanmışdır. Nadir hallarda onların üzərində his və yanıq qatına rast gəlinir. Küpələrin üzərində zəngin naxış elementinə rast gəlinir. Belə ki, əksər küpələrin çiyin hissəsindən batıq kanalvari (2 və ya 3) naxış verilib. Ağızdan çiyinə qədər isə günəş şüaları formasında və yaxud dalğavari formada həm şaquli və üfüqi formada naxışlar vardır. Tədqiqatçıların fikrincə küpələrdən daha çox süd və süd məhsullarının saxlanılmasında istifadə edilmişdir. Belə küpələrə Göygöl, Mingəçevir, Agstafada (17, 59, 61, 73), Şəmkir və Zəyəm çayları hövzələrində (1, 124; 5, 78, Tablo XIV, Şəkil 1, 3), eləcə də Qazax və Ağstafa rayonlarının Sarıtəpə, Sarvantəpə, Yastıtəpə yaşayış yerlərində (13; 20; 21) geniş rast gəlinir.



**Şəkil 3. Gil qablara məxsus fraqmentlər**

Qazanlara məxsus fraqmentlər ən çox ocaq yerləri ətrafından və dağılmış təsərrüfat quyularının içərisindən aşkar olunurdu. Onların hamısının üzərini qara his qatı örtmüşdür. Gil tərkibində narın qum və kiçik çınqıl qarışığı olan qazanlar uzun müddət məişətdə istifadə olunmuş və ocaq üstündə yemək bişirilməsi səbəbindən keyfiyyətsiz hala düşmüşdür. Qazanlar quruluşuna görə geniş ağızlı və şarvari gövdəyə malik olmuşdur. Divarları oturacaq və gövdə hissədə qalın olub ağıza doğru getdikcə nazikləşir.

Bardaqlar boz, tünd boz və qonur rəngdə olub mətbəx-məişət qabları içərisində ən keyfiyyətli hazırlanmış qablardır. Onların gil tərkibi təmizdir. Keyfiyyətli hazırlanmış və sabit ocaq tempraturunda bişirilmişlər. Bəzi bardaqların səthi sığallanmış və hamar olduğu halda daxili səthi qopuqlarla müşayiət olunur. Bu da yəqin ki, onun içində saxlanan mayenin tipindən asılı olmuşdur (10, 12).

Gil manqal fraqmentləri daha az aşkar edilmişdir. Fraqmentlər ən çox manqalların oturacaq və divar hissələrinin birgə qırıqlarından ibarətdir. Fraqmentlərə əsasən söyləmək olar ki, gil manqallar ən çox qırmızı və açıq-qırmızı rəngli olub əldə kobud hazırlanmışlar. Gil tərkibləri qarışıq olub, narın qum, kiçik çınqıl hissələrinə də rast gəlinir. Gil manqalların xarici səthi daraqvari alətlərlə şırımvari formada daraqlanmış və naxışlanmışdır. Onların xarici səthi cilalanmışdır. Bu da onların tez dağılmasının qarşısını alır. Manqalların içində adətən his və yanıq izləri aydın bilinir. Bu da təbiidir. Çünki, onların içində ya ət bişirilmişdir, ya da ev qızdırılması üçün daimi köz olmuşdur.

Kasaların və camların gil tərkibi qarışıq olsa da təmiz tərkiblilərə də rast gəlinir. Belə kasa və camlar adətən qonur və açıq-qırmızı rəngdə olmaları ilə seçilirlər. Daxili səthində qopuqlar da mövcuddur. Kasalar nisbətən geniş ağızlı olub, ağız kənarlarında nə xaricə nə də daxilə əyinti müşahidə olunmur. Amma cam tipli gil qab fraqmentlərinin ağız kənarından onların daxilə meylliliyi müşahidə olunmur. Amma cam tipli gil qab fraqmentlərinin ağız kənarından onların daxilə meylliliyi müşahidə edilir.

Yaşayış yerinin gil məmulatı içərisində sayına görə əsas yerlərdən birini də xeyrələr təşkil edir. Xeyrələr ən çox qara və qonur rəngdə olub, yaxşı hazırlanmış və təmiz gil tərkibə malikdirlər. Xeyrələrin hamısı dulus çarxında hazırlanmış və sabit od tempraturunda bişiriliblər. Onların sadələri səthi cilalanmış və üzəri cilalanaraq sığallanmışdır. Belə xeyrələrin ağız kənarı da sadə olub düzdür və nə daxilə, nə də xaricə əyintilidir. Yalnız daxili səthində mərkəzə doğru günəş şüaları formasında cızma və boyalı naxışlı süa təsvirləri verilmişdir. Ağız kənarları nisbətən mürəkkəb olan xeyrələr əsasən boz rənglidir. Belə xeyrələrin ağzı daxilə nisbətən meylli olub, xaricə isə bəzən köbəli çıxıntılıdır. Çiyində bəzən 2, bəzən isə 3 ədəd paralel batıq kanalvari naxış verilmişdir. Xeyrələrin ölçülərində heç bir fərq yoxdur. Onların demək olar ki, hamısı yastı oturacaqlı, geniş ağızlıdır.

Boşqablar da formaca xeyrələri təkrarlayırlar. Lakin, onlar həcmcə daha kiçik olub, amma xeyrələrdən dərindirlər. Ən çox boz və tünd qonur rəngdə olub keyfiyyətli hazırlanıblar və təmiz gil tərkibə malikdirlər. Belə boşqabların yalnız bircə ağız kənarında qabarıq və batıq kanalvari oturacaqlı sadə naxış növünə rast gəlinir.

Sinilər də nisbətən az sayda tapılıblar. Sinilərin demək olar ki, hamısı əldə kobud hazırlanıblar. Onlar da formaca xeyrə və boşqablara bənzəyirlər. Amma sinilər daha böyük lakin, dayaz olurlar. Yəni həcmcə xeyrələrdən də çox böyük olan sinilər onlardan da dayaz olurlar. Əsasən onların dərinıliyi 2 sm-dən çox olmur. Mətbəx və məişət şəraitində onlardan ən çox dənli bitkilərin qovrulmasında və saxlanmasında, eləcə də unun yığılılıb saxlanılmasında, hazır ət xörəklərinin yığılmasında istifadə olunurmuş.

Əziztəpənin gil qablarının oxşarlarına Şəmkirçay və Gəncəçay hövzələrində (12, Tablo XXI, Şəkil 6; 18, 53-62), Qobustanda (8, 50), Quşçu qəbristanlığında (16, 136, Рис. 5, IV-85) o cümlədən Sarıtəpədə (13), Bozalqanlı yaşayış yerində (11, 95), Sarvantəpədə, Qazaxbəyli qəbristanlığında (6, 144-147; 20), I Tovuzçay nekropolunda (15, 136-137), Mingəçevirdə (18, 53-62) aparılan arxeoloji qazıntılarda geniş rast gəlinmişdir.

*Daş alətlər:* Qazıntı sahəsində rast gəlinən arxeoloji materiallar sırasında keramikadan sonra ən çox toplanan artefaktlar daş alətlərdir. Daş alətlərin fraqmentləri dən daşları, sürtgəc, həvəng, bülöv və dəstələrə aiddir (Şəkil 4). Dəstələr dən əzilməsində istifadə edilmiş döyüm alətləridir.

Dən daşları ən çox qayıqvari formada olub, qırıq vəziyyətdədirlər. Daha çox ocaq yerləri ətrafından və təsərrüfat quyularından tapılan dən daşları qırmızı rəngli tuf daşından və boz rəngli çay daşından hazırlanmışdır. Daha çox qırmızı rəngli məsaməli tuf daşları üstünlük təşkil edir. Bunun səbəbi odur ki, həmin dən daşlarının iri məsamələri girintili-çıxıntılı olduğu üçün dənin əzilməsində böyük üstünlüyə malikdir və burada dən daha yaxşı əzilir (10).

Uzun müddət işlənmədən çox nazilən alt dən daşları ilkin ölçülərini saxlamamışlar. Üst dən daşları, yəni böyük ölçülü sürtgəclər içərisində həcmcə daha böyüklərinə rast gəlinir. Onların ən çox halda bir üzü yaxşı sürtülmüşdür.

Yaşayış yerindən aşkar edilmiş iki ədəd böyük ölçülü həvəngin biri qismən rəngli çay daşından, digəri isə ağ rəngli bərk cinsli əhəngdaşından hazırlanmışdır. Üçüncü həvəng isə daha yaxşı hazırlanmış və nisbətən kiçik ölçülüdür.

Yaşayış yerinin mədəni təbəqə yatımında 80 sm dərinlikdən sonra demək olar ki, heç bir arxeoloji material izlənilmir.



**Şəkil 4. Daş alətlər**

**Əziztəpənin torpaq qəbirləri.** 2019-cu il tədqiqatları zamanı qazıntı sahəsinin müvafiq kvadratlarından 5 qəbir aşkar edildi. Bu qəbirlər torpaq qəbirlər olub, yarımdağılmış formada idilər. Antropogen amillərin təsirindən dağıntıya uğrayan bu qəbirlərin başlıca dağılma səbəbi isə uzun illər ərzində burada aparılmış əkin işləri olmuşdur. Qəbirlər aşağıdakılardır:

*1 №-li qəbir.* Müasir yer səthindən 65 sm dərinlikdə aşkar edilən torpaq qəbrin üzərində heç bir əlamət yox idi. Lakin qəbir kamerasının torpağı aydın seçilirdi. Narın qum qarışıqlı torpağı olan qəbir kamerasının ölçüləri 1,6x1,5 m idi. Qəbir qazıntı üçün ayrılmış sahənin 3-cü kvadratına düşürdü. Kvadratın şərq divarından 1,6 m, qərb divarından isə 7 m aralı məsafədə yerləşirdi.




**Şəkil 5-6. 1 №-li qəbirdən tapılmış muncuqlar (əqiq və pasta)**

Qəbir kamerasının içindəki insan skeletinin vəziyyətindən çətin də olsa müəyyən etmək olurdu ki, meyit qərb-şərq istiqamətində basdırılmışdır. Skeletin sümükləri demək olar ki, tam yarasız vəziyyətdə idi (1, 13). Qəbirdən 3 ədəd gil qab aşkar edildi. 1-ci qab qara rəngli küpə olub tam dağılmışdır. Ölçülərini yerindəcə götürmək mümkün oldu: d (gövdə)=30 sm, h=19 sm. 2-ci gil qab isə kiçik həcmli qulplu küpə olub yalnız hündürlüyünü müyyən etmək mümkün oldu (10 sm). 3-cü gil qab xeyrə tiplidir. Xeyrə digər iki qabdan bir qədər aralıda yerləşirdi. O tam dağılmış halda idi. Qəbir kamerasından daha 2 ədəd əqiq və 1 ədəd iri ölçülü pasta muncuq aşkar edildi (Şəkil 5-6).

*2 №-li qəbir.* 50 sm dərinlikdə aşkar edilən qəbir kamerasının ölçüləri 1,8x1,9 m olub 4-cü kvadratdan aşkar edildi. Qəbir kamerası kvadratın şimal divarından 40 sm aralıda yerləşirdi. Narın torpaqla doldurulmuş qəbir kamerası təmizlənərkən sümükləri tamam çürümüş vəziyyətdə olan insan skeleti aşkar edildi. Kəllə sümükləri və qabırğaların bəzisi qismən yaxşı vəziyyətdə idi. Sümüklərin torpaqda qalmış izlərindən müəyyən etmək olurdu ki, meyit qəbirdə qərb-şərq istiqamətində basdırılıb. Skeletin ətrafından 2 ədəd gil qab, əqiq muncuq, 3 ədəd tunc ox ucluğu, 1 ədəd dəmir xəncərin qalıqları (Şəkil 8), tuncdan bəzək əşyası aşkar edildi. Gil qabların hər ikisi dağılmış vəziyyətdədir. Ox ucluqları isə sallaq qanadlı olub Cənubi Qafqaz tiplidir (Şəkil 7). Bu tipə aid olan bəzi ox ucluqlarının arxa hissəsində ağaca bağlamaq üçün istifadə olunmuş nazik dəridən köşə sarıntısı qalmışdır (2, 78). I Tovuzçay nekropolunun 80 №-li qəbrindən də üzərində sarıntıları olan ox ucluqları tapılmışdır (3, 203). S.M.Qazıyevə görə ox ucluqlarına ağaca keçirilməzdən əvvəl sulcuqlarla sıyrım sarılmışdır ki, onlar öz yerindən çıxmasın (sıyrım cavan ağacdan soyulmuş qabığa deyilir). Bir çox hallarda bu sıyrımlar saxlanılmamışdır. Ehtimal ki, bu sıyrımlar tut ağaclarından soyulmuşdur (7, 14-15, Tablo III, Şəkil 18).

H.F.Cəfərova görə bu tip ox ucluqlarının ilkin vətəninin Azərbaycan olması gümanı əsassız deyil (2). Həmin tip ucluqların həm Cənubi Qafqaz regionunda, həm də Ön Asiya ölkələrinə yayılmasında Azərbaycan mühüm rol oynamışdır (14, 55-57). H.F.Cəfərov eyni sözləri şəbəkəli başlıqlı tunc xəncərlərə də aid edir (2, 164).






**Şəkil 7-8. Cənubi Qafqaz tipli qanadlı tunc ox ucluqları və dəmir xəncərin qalıqları (2 №-li qəbir)**

*3 №-li qəbir.* 60 sm dərinlikdə aşkar edilən torpaq qəbir 3-cü kvadratın şimal hissəsində aşkar edildi. Üzərində heç bir yerüstü əlaməti olmayan qəbir kamerasına narın torpaq tökülmüşdü. Qəbir kamerasının ölçüləri 2,5x1,9 m idi. Qəbir kamerasında yarımdağılmış formada insan skeleti aşkar edildi. Skeletin vəziyyətindən məlum olurdu ki, meyit şərq-qərb istiqamətində basdırılmışdır. Skeletin vəziyyətindən meyitin qəbrə qoyulma istiqamətini müəyyən etmək mümkün olsa da onu təmizləmək və torpaqdan götürmək mümkünsüz oldu. Ona görə də qismən təmizləyib ölçülərini götürdük. Salamat qalmış diş nümunələri isə analiz üçün qablaşdı-

rıldı (10, 13-14). Qəbir kamerasının şərq küncündəki insan kəlləsinin ətrafından mavi, ağ və yaşıl rəngli pasta muncuqlar aşkar edildi. Bundan əlavə qəbir kamerasında 2 ədəd dəmir xəncər, 9 ədəd gil qab tapıldı. Gil qablar 2 küpə, 2 ədəd xeyrə, qazan, boşqab, parç, vaza, bardaq tipli gil qablardan ibarət idi (Şəkil 9-12). Dəmir xəncərlər eyni uzunluqda (23 sm) olub, eyni formada idilər. Aşkar edilən dəmir xəncərlərin oxşarları Dağlıq Qarabağdan (22, 162-163; 21, 40-54) və qazıntısı son illərdə aparılmış II Tovuzçay nekropolundan (9) da tapılmışdır.



**Şəkil 9. 3 №-li qəbirdəki gil qabların düzülüşü**




**Şəkil 10-12. Gil qablar (3 №-li qəbir)**

*4 №-li qəbir*. Torpaq qəbir yer səthindən 65 sm dərinlikdə 4-cü kvadratda aşkar edildi. Qəbir kamerasında insan skeleti aşkar edilmədi. Ehtimal ki, skelet ya tamamilə çürümüş, ya da əkin işləri zamanı texnika tərəfindən məhv edilmişdir. Qəbir kamerasının ölçüləri 80x60 sm idi. Qəbir kamerasında yalnız iki ədəd gil qab aşkar edildi. Onlardan biri kiçik həcmli dopu, digəri isə parç idi (Şəkil 13-14). Qabların hər ikisi yarımdağılmış halda olsa da yerindəcə ölçülərini götürmək mümkün oldu (10, 14).







**Şəkil 13-14. Gil qablar (4 №-li qəbir)**

*5 №-li qəbir*. Torpaq qəbir 65 sm dərinlikdən aşkar edildi. Qəbir 4-cü kvadratdan tapıldı. Qəbir kamerasının torpağı ətrafın gilli bərkimiş torpağından seçilirdi. Qəbir kamerası 1,7x2 m olub zəngin deyildi. Kamerada aşkar edilən insan skeletinin sümükləri xaotik vəziyyətdə idi (Şəkil 15). Burada parçalanaraq dəfn etmə ayininin izləri müşahidə edilirdi. Kəllə üzüstə torpaqda qalmış, onurğa sümükləri dağılmış, çanaq və bud sümükləri kəllənin yanından tapılmışdı. Alt çənə yox idi. Çiyin sümükləri təmizlənən zaman bir ədəd dəmir ox ucluğu tapıldı. Ehtimal etmək olardı ki, bu skelet döyüşçüyə məxsus olmuş, hərbi əməliyyat zamanı çiyindən oxla yaralanmış və yerində çabalayaraq ölmüşdür. Bir müddət sonra onun meyiti tapılmış və elə bu vəziyyətdə də basdırılmışdır. Qəbir kamerasında yalnız bir ədəd xeyrə tipli gil qab aşkar edildi (10, 16).



**Şəkil 15. İnsan skeletinin qalıqları (5 №-li qəbir)**

**Yekun elmi nəticələr və qazıntının əhəmiyyəti.** Əziztəpə abidəsinin yeni yol dəhlizinə düşən hissəsində arxeoloji qazıntı işləri aparılmış və abidənin təyinatı, tipi, tapılmış materialların xüsusiyyətləri, qəbirlər, dəfn adətləri və s. haqqında mühüm elmi nəticələr əldə edilmişdir.

Abidənin ilk tədqiqatçılarının (S.M.Qazıyev və C.Ə.Xəlilov) elmi təhlillərində biri-digərini təkzib edən və tamamlanmayan fikirlər vardır. Birincinin "Eşşəktəpə", ikincinin isə "Qazaxbəyli qəbristanlığı" adlandırdığı Əziztəpə abidəsi haqqında əslində bu fikilərin bəziləri yanlışdır və aparılan son araşdırmalar abidənin tipi, dövrü, xüsusiyyətləri haqqında tamamilə yeni faktlar ortaya çıxmışdır. Həmin fikirlərə yeni elmi yanaşmalar belədir:

-tədqiqatçılar abidənin yerləşdiyi təpədə "müxtəlif dövrlərə aid qəbristanlıq və orta əsrlərə aid yaşayış yeri" olduğunu qeyd etsələr də əslində burada yalnız bir dövrə aid – Son Tunc və Erkən Dəmir dövrünə aid torpaq qəbirlər mövcuddur. Orta əsrlərə aid yaşayış yerindən isə söhbət belə gedə bilməz. Çünki, abidənin üzərindən tapılmış yerüstü materialların hamısı, eləcə də qazıntılar zamanı əldə edilən artefaktlar bütövlükdə yuxarıda qeyd etdiyimiz dövrə - Son Tunc və Erkən Dəmir dövrünə (e.əv. II minilliyin II yarısı-I minilliyin əvvəli) aiddir və Orta əsrlərə aid heç bir materiala rast gəlinməmişdir. S.M.Qazıyev və C.Ə.Xəlilov elmi tədqiqatlarında bu fikri səsləndirsələr də məqalələrində Orta əsrlərin maddi mədəniyyət qalıqları haqqında heç bir şərh verməmişlər.

-digər bir yerdə müəlliflər təpənin üst hissəsindən iri küplər və üzəri cızma, oyma və qabartma naxışlı iri daşların tapıldığını qeyd edirlər. Lakin bu küplərin təyinatı və işlədilmə funksiyaları haqqında, ümumiyyətlə küplər haqqında heç bir məlumat verilmir. Daşların isə yalnız naxışları təsvir edilməklə kifayətlənilir. Əslində isə tapılmış küplər təsərrüfat küpləridir və belə küplərin qalıqlarına 2019-cu il qazıntılarında da geniş şəkildə rast gəlinmişdir. Son Tunc-Erkən Dəmir dövrünə aid yaşayış yerlərində təsərrüfat quyuları ilə yanaşı iri həcmdə təsərrüfat küpləri də tapılır və bu əhalinin təsərrüfat məşğuliyyətinin əsas göstəricilərindəndir.

-S.M.Qazıyevin məlum məqaləsində "təpənin orta hissəsinin əsasən Tunc dövrünün axırı və Dəmir dövrünün əvvəllərinə aid qəbristanlıq olması" qeyd edilir. Lakin, 2019-cu ilin qazıntıları zamanı tapılmış 5 torpaq qəbrin hamısı təpənin ətəyindən aşkar edilmişdir. Bu isə onu sübut edir ki, torpaq qəbirlərə təpənin bütün ərazisi boyunca rast gəlmək mümükündür.

-S.M.Qazıyev məqaləsində qəbirlərdən zəngin mis, tunc və dəmirdən hazırlanmış alət və silahlar tapılmasını yazır və buna əsasən qəbristanlığın uzun bir dövrə aid olduğunu xatırladır. Lakin "uzun bir dövr"ün xronoloji çərçivəsi göstərilmir. C.Ə.Xəlilov isə əksinə qəbirlərdən tapılmış dəmir məmulatlarının çoxluğunu əsas gətirərək bu qəbirləri, dəmir istehsalının geniş yayıldığı bir dövrə -e.əv.VII-VI əsrlərə aid edir.

Abidənin ərazisində sonuncu qazıntı işləri aparıldıqdan sonra belə bir yekun elmi nəticəyə gəlinmişdir ki, Əziztəpə e.ə.II minilliyin II yarısı-I minilliyin əvvəllərinə aid olan yaşayış yeridir. Yaşayış yerinin mədəni təbəqə yatımı onilliklər ərzində əkilmiş və dağıdılmışdır. Hazırda qalan mədəni təbəqə yatımı arxeoloji materiallar baxımından çox zəifdir. Burada yaşayış kəsildikdən sonra yaxınlıqdakı yaşayış yerlərində məskən salmış qədim insanlar öz ölülərini məhz bu təpədə dəfn etmişlər. Yaşayış yerinin arxeoloji materialları ilə qəbirlərdən əldə edilən artefaktların dövrü arasında da müəyyən fərqlər özünü göstərir. Yaşayış yerinin arxeoloji materialları daha çox e.ə. XII-X əsrlərə aiddirsə, qəbir avadanlığının xroloji çərçivəsi e.ə. X-VII əsrlərlə məhdudlaşır.

Bu baxımdan abidə həm yaşayış yeri həm də nekropol hesab olunmalıdır. Yaşayış yerinin mədəni təbəqə yatımından və qəbirlərdən tapılan artefaktlar Azərbaycanın daha çox qərb bölgəsi üçün xarakterik olan Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə (e.ə. II minilliyin II yarısı-I minilliyin əvvəli) daxildirlər.

## Ədəbiyyat siyahısı

**1.** Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, "Elm", 1969, 185 s.

**2.** Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı- I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında). Bakı, "Elm", 2000, 187 s.

**3.** Hacılı Z.C. Tovuzçay nekropolunun metal məmulatı // AMEA Xəbərlər: tarix, fəlsəfə, hüquq seriyası, № 1-2, 2010, s. 201-210

**4.** Xəlilov C.Ə. Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığındakı qədim qəbristanlıq haqqında // Azərb. SSR EA-nın Xəbərləri, ictimai elmlər seriyası, № 2, 1958, s. 29-40

**5.** Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1959, 171 s.

**6.** Qazıyev S.M. Qazax və Ağstafa rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında (1957-ci il) // AMM, IV cild, Bakı, 1962, s. 140-170

**7.** Qazıyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlardan // AMM, 1951, II cild, s. 5-30

**8.** Muradova F.M. Qobustan tunc dövründə. Bakı, "Elm", 1979, 118 s.

**9.** Müseyibli N.Ə., Nəcəfov Ş.N. CQBKG boru marşrutunun 358.250-350 km-də yerləşən II Tovuzçay nekropolunun qazıntısı haqqında geniş elmi hesabat. Azərbaycan-Bakı, 2019, 171 s.

**10.** Nəcəfov Ş.N. Gəncə-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsi layihəsi ilə bağlı yeni yol oxu boyunca aparılmış arxeoloji kəşfiyyat işlərinin və yeni yol dəhlizindəki Əziztəpə (Eşşəktəpə) abidəsində aparılmış arxeoloji qazıntıların yekunlarına dair geniş elmi hesabat. AMEA AEİ, Bakı, 2019, 26 s.

**11.** Nəcəfov Ş.N., Hüseynov M.M. Bozalqanlı yaşayış yerinin arxeoloji tədqiqinin ilk yekunları // Azərbaycan arxeologiyası, 15 cild, № 1, 2012, s. 92-101

**12.** Nərimanov İ.N. Gəncəçay rayonunun arxeoloji abidələri (ən qədim zamanlardan dəmir dövrünün əvvəllərinə qədər). Bakı, Azərb. SSR, EA nəşriyyatı, 1958, 142 s.

**13.** Nərimanov İ.H., Xəlilov C.Ə. Sarıtəpə arxeoloji qazıntıları (1956-cı il) // AMM, 1962, IV cild, s. 6-67

**14.** Ökse A. T., Görmüş A., İnal N. İlisu barajı – Salattepe 2005 yılı kurtarma kazısı // T.C. Kültür ve Turizm Bakanlığı, Kültür Varlıkları ve Müzeler Genel Müdürlügü. 28 Kazı sonuçları toplantısı I cild, 29 mayıs-2 haziran 2006, Yayın No: 121-1, Ankara, 2007, s. 51-64

**15.** Асадов В.А. О двух грунтовых погребениях Товузчайского некрополя / Археология, этнография и фольклористика Кавказа. Новейшие археологические и этнографические исследования на Кавказе. Материалы международной научной конференции. Махачкала, Эпоха, 2007, с. 136-137

**16.** Гуммель Я.И. Археологические очерки (сб.ст.). Баку, Изд-во Аз. ФАН, 1940, 164 с.

**17.** Гуммель Я.И. Раскопки поселения I на западе от Ханлара // КСИИМК, 1948, выпь. XXIII, с. 67-79

**18.** Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.). Баку, "Элм", 1989, 126 с.

**19.** Джафарова Д.Г. Исследование оружия Карабахской группы Ходжалы-Кедабекской культуры // Azərbaycan arxeologiyası, "Xəzər Universiteti", № 1-2, 2008, s. 40-54

**20.** Наджафов Ш.Н. Археологическое исследование древнего поселения Сарвантепе в 2009-2014 гг. // «Актуальная археология 4: комплексные исследования в археологии» (Тезисы межд. научной конференции молодых ученых), РАН ИИМК, Санкт-Петербург, 2-5 апреля 2018 г., Изд-во «Невская книжная типография», стр. 275-278

**21.** Наджафов Ш.Н. Некоторые проблемы и результаты исследований поселений эпохи бронзы на территории Гянджа-Казахского региона // «Актуальная археология: археологические открытия и современные методы исследования» (Тезисы научной конференции молодых ученых Санкт-Петербурга), РАН ИИМК, Санкт-Петербург 22-23 апреля 2013 г., Изд-во РАН, стр. 88-89

**22.** Кушнарева К.Х. Некоторые памятники эпохи поздней бронзы в Нагорном Карабахе // СА, 1957, том XXVII, с.135-177

## Резюме

**Шамиль Наджафов**

### Новые археологические исследования на территории Газахского района (Итоги археологического исследования памятника периода поздней бронзы-раннего железа Азизтепе)

Памятник Азизтепе находится на территории села Газахбейли Газахского района, на 450-500 метров к востоку от села, на высоте 354 метров от уровня моря. Площадь памятника равна примерно 2,5 га.

В соответствии с программой исследования археологического исследования новостроек, связанной с проектом расширения в четыре полосы автомобильной трассы Гянджа-Газах-Грузинская граница, в феврале-марте 2019 года были проведены археологические разведочные работы вдоль оси новой трассы. Во время археологических разведочных работ был зафиксирован единственный памятник Азизтепе, попадающий в дорожный коридор. В мае месяце того же года на Азизтепе были проведены археологические раскопочные работы и сделаны заключительные выводы о типе памятника, предназначении полученных археологических находок, структуре погребений, погребальном обряде и т.д.

Во время раскопок здесь были обнаружены образцы разных глиняных сосудов и фрагменты каменных орудий, характерных для поселений, а также грунтовые погребения (5 погребений). В погребениях были найдены образцы керамики, металлическое оружие, бусы. Скелеты находились на правом и левом боку, в сильно и слабо скорченном положении.

Памятник является поселением, относящимся к Ходжалы-Кедабекской культуре и датируется второй половиной II - началом I тыс. до н.э.


***Ключевые слова:*** *Газах, Азизтепе, период бронзы, бассейне Средней Куры, поселения, погребальные памятники*


## Summary

**Shamil Najafov**

### New archeological investigations in Gazakh district (The results of archaeological investigations of the Late Bronze-Early Iron Age monument Aziztepe)

Aziztepe monument is located in Gazakhbeyli village of Gazakh district, 450-500 meast of the village, 354 m above sea level. The area is about 2.5 ha.

Archaeological excavations were carried out along the new road section in February-March 2019 in accordance with the archaeological research program for new construction sites on the four-line expansion of the Ganja-Gazakh-Georgia border road. During the archaeological excavations, the only monument on the corridor - Aziztepe monument was recorded. In May of the same year, archeological excavations were carried out in Aziztepe, and the final scientific report was madeon the type, period, purpose of use of these archaeological finds, the structure of the graves, the burial rites and so on..

During the excavations, various clay pots and fragments of stone tools, as well as soil graves (5 graves) were found here. Ceramic patterns, metal weapons and beads were found in the graves. The skeletons were found in the right and left shoulders, tightly and slightly bent.

The monument is a Khojaly-Gedabey archeological culture residence dated to the second half of the $2^{nd}$ – early $1^{st}$ millennia BC.


***Keywords:*** *Gazakh, Aziztepe, Bronze Age, Middle Kura basin, settlement, burial monuments*

**UOT 902**

**VƏLİ BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü, AMEA Naxçıvan Bölməsi*
*velibahshaliyev@mail.ru, Azərbaycan*

## KÜLTƏPƏDƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR

***Açar sözlər***: *Cənubi Qafqaz, Naxçıvan, Kültəpə, Neolit, keramika.*

### Giriş

Cənubi Qafqaz və Yaxın Şərqin qovşağında yerləşən I Kültəpə yaşayış yeri əlverişli coğrafi mövqeyə malikdir (Şəkil 1). Bu, Yaxın Şərq ölkələri ilə I Kültəpə sakinləri arasında iqtisadi-mədəni əlaqələrin inkişafı üçün şərait yaratmışdır. I Kültəpə yaşayış yerində ilk arxeoloji qazıntılar 1959-1964-cü illərdə Osman Həbibullayevin rəhbərliyi ilə aparılmışdır. Yaşayış yerinin alt təbəqəsi O.H.Həbibullayev tərəfindən "1a" və "1b" olmaqla iki yerə bölünmüşdür (3, s. 14). Yaşayış yerinin "1a" təbəqəsi Neolit dövrünə "1b" təbəqəsi isə Eneolit dövrünə aid edilmişdir. Lakin, O.H.Həbibullayev sonrakı tədqiqat işlərində özünün əvvəlki fikirlərindən imtina etmiş, "1a" və "1b" təbəqələrinin hər ikisini Eneolit dövrünə aid etmişdir (5, c. 24). Digər tədqiqatçılar isə müqayisəli analizlərə əsaslanaraq "1a" təbəqəsini Neolit dövrü ilə tarixləndirməyə davam etmişlər (14, c. 133; 26, c. 30-40; 4, s. 21, 39-40). 2013-2018-ci illərdə Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının apardığı araşdırmalar isə hər iki təbəqənin Neolit dövrünə aid olduğunu göstərmişdir (Şəkil 2). 2017-2018-ci illərdə Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı Erkən Eneolit dövrünə aid abidələr də aşkar olunmuşdur. Buna görə də I Kültəpədən Sovet dövründə və Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının fəaliyyəti nəticəsində aşkar edilmiş arxeoloji materialların müqayisəli təhlili Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Neolit mədəniyyətinin mənşəyi ilə bağlı məsələlərin həll edilməsi üçün olduqca faydalıdır.




**Şəkil 1.** Regionun xəritəsi (Vəli Baxşəliyev)

**Stratiqrafiya və tikinti qalıqları**

O.H.Həbibullayev qeyd etmişdir ki, "1a" təbəqəsi "1b" təbəqəsindən tünd rəngli olması ilə fərqlənir (3, s. 15). O.H.Həbibullayev tərəfindən "1a" təbəqəsində beş tikinti qatı aşkar olunmuşdur (5, c. 25). Bu tikinti qatlarının dördü yalnız ocaq qalıqları ilə təmsil olunmuş, yalnız üçüncü tikinti qatında dördkünc formalı evin qalıqları aşkar olunmuşdur. Bu evin divarları möhrədən inşa edilmişdir. Evin içərisində gil məhlulu ilə bərkidilən çay daşlarından inşa edilmiş dairəvi ocaq aşkar olunmuşdur (5, c. 25). Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının I Kültəpənin Neolit dövrü təbəqəsində apardığı qazıntı nəticəsində iki təbəqə aşkar olunmuş (Şəkil 3) və uyğun olaraq "təbəqə 1" və "təbəqə 2" adlandırılmışdır (32, p. 81-113). Birinci təbəqə O.H.Həbibullayevin qazıntılarında olduğu kimi tünd rəngdə olması ilə fərqlənir (Şəkil 3, 1). Bu təbəqə çay daşlarından qurulmuş ocaq qalıqları (Şəkil 4) və qara rəngli qalın kül qatından ibarət idi. Ehtimal ki, bu, ocaqlardan intensiv istifadə olunduğunu və havaların soyuq keçdiyinin göstəricisidir.




**Şəkil 2.** I Kültəpə. Tikinti qalıqlarının planı (Guilliam Gadebois)




**Şəkil 3.** I Kültəpə. Neolit təbəqəsinin kəsiyi (Remi Berthon)

Birinci təbəqədə arxeoloji qazıntılar kiçikhəcmli bir şurfda aparıldığından tikinti qalıqlarının formasını müəyyən etmək mümkün deyildi. Yalnız qazıntının kəsiyinə əsasən erkən evlərin yarımqazma tipli olduğunu demək olar (Şəkil 3, 2). Tədqiqatlara əsasən deyə bilərik ki, "təbəqə 1" O.H.Həbibullayevin "1a" təbəqəsi ilə, "təbəqə 2" isə "1b" təbəqəsi ilə uyğundur. Azərbaycan-Faransa arxeoloji ekspedisiyası zamanı aşkar olunan hər iki təbəqənin ümumi qalınlığı 8 metrdir. Tədqiqatlar xam torpağadək aparılmışdır (Şəkil 5).Yaşayış yerinin Neolit təbəqəsi e. ə. 6400-5200-cü illərə aiddir (Cədvəl 1).

**Cədvəl 1**

I Kültəpənin kömür nümunələrinin analizinin nəticələri

| | *Sampl İD* | *Sample* | *Radiocarbon Age (BP)* | $\delta^{13}C$ (‰) | *Date BC (95,4%)* |
|---|---|---|---|---|---|
| 1 | Kultepe-2013- B-035 | LTL14889A | 6374 ± 50 | -24.4 ± 0.4 | 5473-5293 BC |
| 2 | Kultepe-2013- B-006 | LTL14890A | 6926 ± 45 | -18.6 ± 0.2 | 5903-5720 BC |
| 3 | Kultepe14-P1,002 | LTL14935A | 6477 ± 45 | -21.3 ± 0.6 | 5520-5341 BC |
| 4 | Kultepe14-D004 | LTL14936A | 7042 ± 45 | -22.8 ± 0.6 | 6014-5836 BC |
| 5 | Kultepe14-C021 | LTL14937A | 6548 ± 45 | -19.6 ± 0.5 | 5616-5466 BC |
| 6 | Kultepe14-C034 | LTL15113A | 7099 ± 50 | -21.1 ± 0.6 | 6070-5880 BC |
| 7 | Kultepe14-C032 | LTL15114A | 7065 ± 50 | -19.9 ± 0.5 | 6040-5840 BC |
| 8 | Kultepe 18-E362B | LTL18619A | 7268±45 | -21.1 ± 0.6 | 6226-6050 BC |
| 9 | Kultepe 18-E362A | LTL18618A | 7210±45 | -21.1 ± 0.6 | 6210-6004 BC |
| 10 | Kultepe 18-E362C | LTL16900A | 7361±55 | -19.9 ± 0.5 | 6372-6084 BC |



**Şəkil 4.** Daş döşəməli ocaq qalığı. Birinci təbəqə (Vəli Baxşəliyev)

İkinci təbəqə birincidən açıq rəngdə olması ilə fərqlənir (Şəkil 3, 1). Bu tikintidə istifadə olunan möhrə və kərpiclərin rəngi ilə bağlı olmuşdur. Birinci təbəqədən fərqli olaraq ikinci təbəqədə tikinti qalıqları daha aydın izlənmişdir. Qazıntı ölçüsü 450 kvadratmetr olan böyük bir sahədə aparılmışdır. Bu təbəqə oval və dairəvi formalı evlərlə xarakterizə olunur (Şəkil 6, 1-2). Bəzən divarların yaxınlığında qapı daşları da aşkar olunmuşdur ki, bu da vertikal ox üzrə hərəkət edən qapıların olduğunu göstərir (Şəkil 6, 4).




**Şəkil 5.** I Kültəpədə təbəqənin sonu (Catherine Marro)

Evlərin içərisində döşəməsinə çay daşları döşənmiş ocaqlar (Şəkil 7; Şəkil 6, 3), obsidian parçaları, sapand daşları (Şəkil 8), bazalt, obsidian və sümükdən hazırlanmış əmək alətləri aşkar olunmuşdur. Bu təbəqədə insan skeletinə aid qalıqlar da aşkar olunmuşdur (Şəkil 9). Evlərin ölçüsü olduqca müxtəlifdir. Evlərin ətrafından da iş yerləri, əmək alətləri və keramika məmulatı aşkar olunmuşdur. Bir evin ətrafında dən daşlarının bir yerə toplanmasına rast gəlinmişdir. Bir yerdə təsərrüfat çuxuru da aşkar olunmuşdur (Şəkil 10). Bu onu göstərir ki, insanlar ev işləri ilə yalnız evin içində deyil, həm də həyətdə məşğul olmuşlar.




**Şəkil 6.** İkinci təbəqənin arxitektura qalıqları

**Əkinçilik və maldarlıq**

Fauna və flora qakıqlarının araşdırılması göstərir ki, I Kültəpə sakinləri artıq istehsal təsərrüfatını mənimsəmişdir. Əsas heyvan cinsləri artıq əhliləşdirilmişdir. Maldarlıqda birinci yeri xırdabuynuzlu heyvanlar tutmuşdur. Birinci təbəqədə olan sümüklərin 85% xırdabuynuzlu heyvanlara, 5% isə iribuynuzlu heyvanlara aid olmuşdur. İkinci təbəqədə iribuynuzlu heyvanlar sayı 15%-ə çatmış, xırdabuynuzlu heyvanlar isə 80%-ə qədər azalmışdır (32, p. 105). Göründüyü kimi, azacıq dəyişiklik olmasına baxmayaraq xırdabuynuzlu heyvanlar heyvandarlıqda əsas yer tutmuşdur. Ehtimal ki, bu I Kültəpə sakinlərinin maldarlıqla məşğul olması və həyat tərzinin xüsusiyyətləri ilə bağlı olmuşdur. I Kültəpədən xeyli uzaqda olan obsidian və mis yataqlarından istifadə olunması onların köçmə maldarlıqla da məşğul olduğunu təsdiq edir. Osteoloji qalıqların analizi insanların təsərrüfat həyatında ovçuluğun da müəyyən yer tutduğunu göstərir. Onlar vəhşi qaban, ceyran, maral, keçi və quş ovlamışlar. Osteoloji qalıqlar arasında tülkü, ayı və tısbağa sümükləri də vardır (32, p. 105). Ehtimal ki, bəzi vəhşi heyvanların dərisindən istifadə edilmişdir.



**Şəkil 7.** Daş döşəməli ocaq qalığı. İkinci təbəqə (Vəli Baxşəliyev)

Əkinçilikdə əsasən çılpaq buğda (*Triticum aestivum/durum)*, arpa (*Hordeum vulgare)*, əmmər (*Triticum turgidum* subsp. *dicoccon)* və mərcimək (*Lens culinaris)* becərilmişdir. Tədqiqatların nəticəsi bu taxıl növlərinin ev şəraitinə uyğunlaşdırıldığını göstərir (32, p. 104-105). Beləliklə, deyə bilərik ki, qədim Kültəpə sakinlərinin təsərrüfatında əkinçilik, maldarlıq, qismən isə ovçuluq əsas yer tutmuşdur.



**Şəkil 8.** Sapand daşları (Vəli Baxşəliyev)



**Şəkil 9.** İkinci təbəqədə insan skeletlərinin qalıqları (Vəli Baxşəliyev)



**Şəkil 10.** Təsərrüfat çuxurunun qalıqları (Vəli Baxşəliyev)

**Daş və sümük alətlər**

Əmək alətlərinin əsas növləri də I Kültəpə sakinlərinin təsərrüfatınında əkinçilik və maldarlığın əsas yer tutduğunu göstərir. Əmək alətlərinin hazırlanmasında müxtəlif daş növlərindən istifadə olunmuşdur (5, c. 52). Onlar arasında obsidiandan hazırlanan alətlər üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, birinci və ikinci təbəqədə aşkar olunan çox sayda nukleus (Şəkil 11, 1), həmçinin müxtəlif qəlpə və yonqalar (5, c. 53), obsidianın yaşayış yerində emal olunduğunu göstərir. Alətlərin müəyyən qrupu dördkünc və üçkünc formalı lövhələrlə təmsil olunmuşdur. Onların bir çoxunun uzunluğu 15-20 santimetr arasındadır (Şəkil 11, 2-3). Bu tip alətlərin bəzisi əlavə olaraq işlənməmiş, bəziləri birtərəfli, bəziləri isə ikitərəfli retuşla işlənmişdir. Buna baxmayaraq işlənməmiş alətlərin bir çoxunda istifadə olunduğunu göstərən kütləşmə və qopuqlar vardır (5, c. 54). Lövhələr arasında bir neçə mikrolit də vardır. O.H.Həbibullayevin fikrinə görə böyük lövhələr bütöv oraqların dişləri kimi, kiçik lövhələr isə (Şəkil 11, 5-6) qurama oraqların dişləri kimi istifadə olunmuşdur (5, c. 54). Qurama oraqların əsası sümükdən, bəzən isə maral buynuzundan hazırlanırdı. Bu zaman dişlər əsasda açılan yarıqlara bərkidilirdi (Şəkil 11, 9). Belə alətlər yaşayış yerinin birinci təbəqəsindən məlumdur (5, c. 54). I Kültəpədə bir yerə yığılmış xeyli maral sümüyünə də rast gəlinmişdir. Qeyd etmək lazımdır ki, böyük lövhələr bıçaq kimi də istifadə oluna bilərdi Obsidian məmulatının bir hissəsi də qaşovlardan ibarətdir (Şəkil 11, 4). Bu alətlər qövsşəkilli və oval formalı olub retuşla işlənmişdir. Ehtimal ki, bu tip alətlər dərinin emal olunması üçün istifadə olunmuşdur.




**Şəkil 11.** Daş və sümük alətlər (Osman Həbibullayev, Vəli Baxşəliyev)

Əkinçilik alətləri arasında toxalar da diqqəti cəlb edir (Şəkil 11, 10). Az miqdarda aşkar olunan daş toxalar oval formalıdır . Onların tiyəsi hər iki tərəfdən itilənərək cilalanmış, küpündə ağac dəstək keçirmək üçün deşik açılmışdır. Torpağın işlənməsində, ehtimal ki, deşik açılmamış daş alətlərdən də istifadə olunmuşdur (Şəkil 11, 11).

Dənin emal edilməsi üçün istifadə olunan əkinçilik alətləri əsasən dən daşları ilə təmsil olunmuşdur (Şəkil 12). Bu tip alətlər məsaməli və bərk daşlardan hazırlanmışdır. Dən daşları alt və üst daşlarla təmsil olunmuşdur. Birinci təbəqədən aşkar olunmuş dən daşları oval və yastıdır. İkinci təbəqədə isə qayıqşəkilli dən daşları da ortaya çıxır. Bəzi dən daşlarının üzərində qırmızı boya izlərinə rastlanır (5, c. 59). Bu fakt dən daşlarının mineralların emalı üçün də istifadə olunduğunu göstərir.




**Şəkil 12.** Dən daşı. İkinci təbəqə (Vəli Baxşəliyev)

Daş alətlərdən başqa xeyli miqdarda sümük alətlər də var (Şəkil 11, 12-14). Bu alətlər də qədim Kültəpə sakinlərinin əkinçilik və maldarlıq təsərrüfatı ilə bağlıdır. Sümük alətlər toxa, biz, iy başlığı və deşicilərdən ibarətdir.

**Metallurgiya və metalişləmə**

I Kültəpə sakinlərinin təsərrüfatında əkinçilik və maldarlığın əsas yer tutmasına baxmayaraq onlar başqa sənət sahələri ilə də məşğul olmuşlar. Belə fəaliyyət sahələrindən biri də metallurgiya və metalişləmə olmuşdur. Metal alətlər yaşayış yerinin ikinci təbəqəsindən aşkar olunmuşdur. Dağ-mədən işi ilə bağlı olan alətlər də bu təbəqədən məlumdur. Bu alətlər bərk daş cinslərindən hazırlanmışdır. Onlardan biri uzunsov oval formalı olub baş tərəfləri dəyirmidir (5, c. 58). Mərkəzi hissəsi novşəkillidir. Ehtimal ki, bu nov ağac dəstək bərkitmək üçün nəzərdə tutulmuşdur (Şəkil 11, 7). Alətlər yaxşı işlənmişdir. Onların səthində istifadə olunma izləri vardır. Digər alətin baş tərəfində tam açılmamış deşiklər vardır (Şəkil 11, 8). Bu tip daş çəkiclər bizim apardığımız araşdırmalar zamanı Duzdağdan da aşkar olunmuşdur (33, p. 229-244) ki, bu da həmin alətlərin dağ-mədən işlərində istifadə olunduğunu göstərir. Bundan başqa üzərində mis izləri olan daş çəkiclərdən biri Naxçıvantəpə yaşayış yerinin yaxınlığından tapılmışdır[1].

I Kültəpə yaşayış yerinin ikinci təbəqəsində yeddi metal əşyanın qalığı aşkar olunmuşdur (5, c. 78). Bu metal əşyaların əksəriyyəti mislə digər metalların qarışığından hazırlanmışdır. Lakin, forması məlum olmayan metal əşyalardan birinin tərkibində 0,4% mərgümüş vardır (9, c. 31). Digər əşya, mis burğu mis-mışyak-nikel qarışığından hazırlanmışdır (9, c. 32). Tədqiqatçıların fikrinə görə mis-nikel ərintisindən hazırlanmış əşyalar cənub ölkələri üçün xarakterikdir. Onlar ya idxal olunmuş, ya da idxal olunmuş xammal əsasında hazırlanmışdır (15, c. 23). İ.R.Səlimxanovun fikrinə görə, o dövrdə

[1]Этонаходканеопубликована

insanlar nikellə hələ tanış deyildilər, lakin nikelli metalın bəzi xüsusiyyətləri onlara məlum idi. Ehtimal ki, qədim metallurq əritmə ocağına nikel filizini də əlavə etmişdir (19, c. 58). I Kültəpənin ikinci təbəqəsindən aşkar olunmuş metal əşyalar kifayət qədər inkişaf etmiş metallurgiyanın məhsuludur. Bu isə onun erkən mərhələsinin də olduğunu göstərir. I Kültəpənin mis-arsen ərintisindən hazırlanmış əşyaların idxal malı olaraq inkişaf etmiş Yaxın Şərq ölkələrdən gətirildiyini güman etmək olmaz. Çünki, mis-arsen ərintisindən hazırlanmış əşyalar Yaxın Şərq ölkələri üçün xarakterik deyil.

**Obsidian yataqlarından istifadə**

Araşdırmalar göstərir ki, bu dövrdə istehsal təsərrüfatı kifayət qədər inkişaf etmiş səviyyədə olmuş və qədim insanlar uzaq ölkələrlə əlaqə saxlamışdır. Göyçə (indiki Sevan) hövzəsinin və Zəngəzur obsidianlarının da istifadə olunması bunu təsdiq edir (8, c. 245-264). I Kültəpə sakinləri Göyçə obsidianından e. ə. VII minilliyin ikinci yarısından başlayaraq istifadə etmişlər. Obsidian yataqları Naxçıvanda və Şimal-Qərbi İranda yoxdur. I Kültəpə sakinləri başlıca olaraq Zəngəzur (49%) və Göyçə hövzəsində yerləşən Göyhasar (50%) obsidianından istifadə etmişdir. Digər yataqların obsidianları olduqca azdır (2, s. 17-19). Göyhasar obsidianı, həmçinin Qarabağda Çalağantəpə və Töyrətəpə yaşayış yerlərində üstünlük təşkil etmişdir. Qeyd etmək lazımdır ki, I Kültəpə yaşayış yeri Göyçə obsidianından istifadəyə görə Cənubi Qafqazda dominant mövqeyə malikdir, bu isə Kültəpə sakinlərinin yataqlarla birbaşa əlaqə saxladığını göstərir. Zəngəzur və Göyhasarın obsidian yataqları Eneolit dövründə də geniş istifadə olunmuşdur. Belə ki, Naxçıvantəpədə Zəngəzur obsidianı (42%), Göyhasar obsidianı isə 37%-dir. Ovçulartəpəsi yaşayış yerində isə obsidianın 74% Göyhasardan, 13%-i isə Zəngəzurdan gətirilmişdir. Urmiya hövzəsinin yaşayış yerləri başlıca olaraq (95%) Zəngəzur obsidianından istifadə etmişdir (25, p. 1956-1965). Şübhəsiz ki, obsidian mənbələrinin istismar edilməsi regionlararası əlaqələrin yaranmasında müəyyən rol oynamışdır.

**Keramika məmulatı**

Arxeoloji tapıntıların böyük bir qismi keramika məmulatından ibarətdir. Keramika saman qarışığı olan gildən hazırlanaraq qırmızı rəngin müxtəlif çalarlarında bişirilmişdir. Kermika məmulatlarının kəsiyində boy, bəzən isə qalın gil layına rast gəlinir. Keramika nümunələrinin böyük hissəsi anqoblanmış və cilalanmışdır.

Birinci təbəqənin keramika məmulatı az sayıdadır. Bu təbəqənin keramika məmulatı kasalar və banka tipli qablarla təmsil edilmişdir. Qablar kobud hazırlanmışdır. Onların xarici səthi kələ-kötürdür. Kasalar qabarıq gövdəlidir (Şəkil 13, 2-5). Banka tipli qablar silindrik gövdəli olub oturacağa doğru dəyirmilənmişdir (Şəkil 13, 1). Qabların oturacağı yastı olub bəzən xaricə doğru çıxıntılıdır (Şəkil 13, 6). Bu tip qablar formasına görə Xassuna, Samarra və Çatalhöyük (31, p. 105, fig. 52) materialları ilə bənzərdir.

Qazıntılar zamanı 71№-li qəbirdən aşkar olunan boyalı çölmək də bu təbəqəyə aiddir. Çölmək qabın birbaşa boyanmamış səthinə qəhvəyi rənglə çəkilmiş vertikal xətlərlə naxışlanmış, xətlərin arası dalğalı ornamentlə doldurulmuşdur (Şəkil 13, 7). Lakin, çölməyin naxışları yaxşı qalmamış və bəzi yerlərdə silinmişdir. Bu çölməyin yaxın bənzərləri Təpə Quran yaşayış yerindən məlumdur. Lakin onun naxışları bir qədər fərqlidir (31, p. 86, fig.38, g).

İkinci təbəqədə keramika məmulatı sayca artmış və müxtəlif formalar ortaya çıxmışdır (Şəkil 14). Bu təbəqənin keramika məmulatı küpə, çölmək, banka, kasa və çəlləkşəkilli qablarla təmsil edilmişdir. Bu qablar Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Neolit dövrü yaşayış yerlərindən aşkar olunmuş keramika məmulatı ilə bənzərdir. Kültəpə keramikasının yaxın bənzərləri Şomutəpə (6, c. 367-384), Molla Nağıtəpəsi (18, c. 40-50), Göytəpə (12, c. 26-30), Hacı-Firuz (35, p. 114-140) və digər yaşayış yerlərindən məlumdur.




**Şəkil 13.** Keramika məmulatı. Birinci təbəqə (Osman Həbibullayev, Vəli Baxşəliyev)

Küpələr bir neçə nümunə ilə təmsil olunmuşdur.Onların boğazı silindrik olub ağzının kənarı xaricə qatlanmışdır. Küpələrdən birinin boğazı iki sıra məməcikşəkilli qabarıq ornamentlə naxışlanmışdır (Şəkil 14, 1, 2). Bu tip naxışlı qablar Qadaşirili qora (27, fig.7), İmiris qora (24, abb, 40, 13) və Şomutəpə (6, таблица 209, 5/526) yaşayış yerlərindən məlumdur.

Kasa tipli qabların müxtəlif tipləri vardır. Kasaların bir qrupu qabarıq gövdəli və xaricə qatlanmış ağız kənarlıdır (Şəkil 14, 3). İkinci tip kasaların ağzının kənarı içəriyə doğru qatlanmışdır (Şəkil 14, 4). Bu tip kasalar Hacı-Firuz (Voigt, 1983. Fig. 83,O) və Şomutəpədən (6, таблица 205, 4/548) məlumdur. Üçüncü tip kasalar konusvari gövdəlidir (Şəkil 14, 5-6). Bu tip kasaların müxtəlif növləri Hacı-Firuz yaşayış yerindən məlumdur (35, fig. 75, b, p, q). Bu tip kasaların qədim nümunələri Tell əs-Savan (31, p. 133, fig. 91) yaşayış yerindən də məlumdur. Yaxın Şərqin yaşayış yerlərində bu tip kasaların boyalı nümunələri də vardır. Onlar Arpaçiya, Yunus və Tell Xalafdan (31, p. 133, fig. 93) məlumdur. I Kültəpənin ikinci təbəqəsindən məlum olan bu tip kasalar Naxçıvanda uzun müddət istifadə olunmuşdur. Belə ki bu tip kasaların bənzərləri Erkən və Son Eneolit abidələrində aşkar olunmuşdur (10, c. 88-95). Silindir gövdəli kasalar da formaca Yaxın Şərq abidələrinin qədim nümunələri ilə bənzərdir.

Keramika məmulatı arasında bankatipli (Şəkil 14, 7) və qazantipli qablar üstünlük təşkil edir. Silindir gövdəli, yaxud bankatipli qabların müxtəlif nümunələri vardır. Onların bəzisinin ağız kənarında deşik açılmışdır. Bu tip qablar I Kültəpənin “1a və “1b” təbəqələrindən yaxşı məlumdur (3, c. 59). Formaca buna bənzər qablar həmçinin Hacı-Firuz (35, fig. 74, f, g) və Xatunarx yaşayış yerindən məlumdur. Bəzi qablar relyef kəmərlə əhatə olunmuşdur (Şəkil 14, 8-9, 14). Qeyd etmək lazımdır ki, relyef kəmərlə əhatələnmiş qaklar Cənubi Qafqaz abidələrində olduqca azdır. Ancaq, Danqreuli qora yaşayış yerinin keramikasında qabarıq ilanşə-

killi ornamentə rast gəlinir (24, abb. 19, 15). Bankatipli qablardan birinin silindirşəkilli lüləyi vardır (Şəkil 14, 13). Bu tip lülələr də Cənubi Qafqaz abidələrində olduqca az rast gəlinir. Lakin bu tip silindrik lüləkli qablar Yaxın Şərqin Filia (31, p. 133, fig. 78) və Mersin (31, fig. 74) yaşayış yerlərindən məlumdur.




**Şəkil 14.** Keramika məmulatı. İkinci təbəqə (Vəli Baxşəliyev)

Bəzi qablar qabarıq, qulaqcıqşəkilli ornamentlə naxışlanmışdır (Şəkil 14,8-10; Şəkil 15, 4). Məlum olduğu kimi, qabarıq, qulaqcıqşəkilli ornament Cənubi Qafqazda Şomutəpə (6, c. 56, таблица 209 и 210), Xatunarx (21, p. 185-218), Göytəpə, Aruxlo (26, fig. 9, 1-2) yaşayış yerlərindən məlumdur.

Qazantipli qablar qabarıq gövdəlidir (Şəkil 40, 12). Onların bəzisinin ağız kənarında dairəvi deşik açılmış, bəziləri isə qulaqcıqşəkilli ornamentlə naxışlanmışdır. Bəzi qabların gövdəsinin aşağı qismi oval batıq ornamentlə naxışlanmışdır (Şəkil 14, 11).

Bəzi qablar ərzaq ehtiyatı saxlamaq üçün istifadə olunmuşdur (Şəkil 15, 5). Ehtimal ki, bu tip qabların bir hissəsi torpağa basdırılmış və bu şəkildə istifadə olunmuşdur. I Kültəpə yaşayış yerində təsərrüfat quyuları olduqca az tapılmışdır. Ola bilsin ki, böyük həcmli qablar ərzaq ehtiyyatlarının saxlanması üçün istifadə olunmuşdur.




**Şəkil 15.** Keramika məmulatı. İkinci təbəqə (O. Həbibullayev, V. Baxşəliyev)

Qabların ağız hissəsi ilə bərabər oturacaq hissəsi də çox tapılmışdır. Araşdırmalar göstərir ki, Kültəpə qabları başlıca olaraq azacıq xaricə çıxıntılı olan yastı oturacağa sahib olmuşdur. Qabların bəzisin oturacaq hissəsi çox qabarıq hazırlanmışdır. Bu tip oturacağı olan qablar Şomutəpə (14, рис. 10; 6, таблица 211-216), Molla Nağıtəpəsi (18, таблица VI, 3-6) və digər yaşayış yerlərindən məlumdur. Bəzi qabların oturacağı içəriyə doğru batıqdır (Şəkil 14, 16). Bu tip oturacağı olan qablar Hacı-Firuz yaşayış yerindən də məlumdur (35, fig.91, n).

Kültəpədən aşkar olunmuş keramika məmulatının yaxın bənzərlərinin Cənubi Qafqaz, o cümlədən Azərbaycanın yaşayış yerlərindən aşkar olunmasına baxmayaraq Kültəpə keramikası qabların forması özünəməxsus xüsusiyyətləri ilə fərqlənir ki, bu da onların onun müstəqil inkişafı və yerli ənənələrə malik olması ilə bağlıdır. Həmçinin, qeyd etmək lazımdır ki, I Kültəpənin alt qatlarında aşkar olunmuş, yüksək ustalıqla hazırlanmış boyalı keramika (Şəkil 14, 1-3) Yaxın Şərq ölkələri qarşılıqlı iqtisadi-mədəni əlaqələrin olduğunu göstərir. O.H.Həbibullayev (5, c. 72-74) Kültəpənin Neolit dövrü təbəqəsindən aşkar olunmuş keramikanı iki qrupa bölmüşdür. Saman qarışığı olan gildən hazırlanmış boyalı keramika yerli istehsala aid edilmiş, lakin qum qarışığı olan gildən hazırlanmış keramika isə idxal malı olaraq qəbul edilmişdir (Şəkil 13, 7; Şəkil 15, 1-3). Digər tədqiqatçılar da bu fikri dəstəkləmişdir (13, c. 12; 16, c. 120). R.Munçayevin fikrinə görə I Kültəpənin, Mil və Muğan düzlərinin boyalı keramikası Cənubi Qafqaza İran Azərbaycanından, Urmiya gölünün şərq bölgələrindən daxil olmuşdur (16, c. 127). İ. Nərimanov (14, c. 126) və R.Munçayev (16, c. 129) qeyd etmişlər ki, Mil düzünün boyalı keramikası müəyyən dərəcədə Təpə Quran yaşayış yerinin boyalı keramikası ilə bən-

zərdir. İ.Nərimanov Mil düzünün boyalı keramikasının mənşəyini Şimal-Qərbi İran abidələri ilə bağlamışdır (14, c. 126). O I Kültəpədən aşkar olunmuş çölməkləri (Şəkil 15, 1) Tell Arpaçiya, Tell Xalaf və Təpə Qavranın keramikası ilə müqayisə edərək belə nəticəyə gəlmişdir ki, boyalı keramika Şərqi Anadoludan Tülkütəpə vasitəsi ilə gələ bilərdi (14, c. 160). Lakin o boyalı keramikanın Zaqros mənşəli ola biləcəyini də ehtimal etmişdir (14, c. 160). İdxal olunmuş malların olmasına baxmayaraq keramika məmulatının əksəriyyətini sadə keramika təşkil edir. Şübhə yoxdur ki, sadə keramika məmulatı yerli istehsalın məhsulu olmuşdur.

**Araşdırmaların dəyərləndirilməsi**

Məlum olduğu kimi, arxeoloji ədəbiyyatda Cənubi Qafqazda Neolit mədəniyyətinin meydana gəlməsi və inkişafı ilə bağlı olduqca müxtəlif fikirlər vardır. Azərbaycanın Gəncə və Qazax bölgəsində mineral qarışıqlı keramika ilə xarakterizə edilən Neolit mədəniyyəti Şomutəpə mədəniyyəti adlandırılmışdır (1, s. 32-38). Naxçıvan, Kür-Araz vadisində, Mil və Muğan düzlərində yayılan saman qarışıq keramika ilə xarakterizə edilən mədəniyyət isə Kültəpə mədəniyyəti adlandırılmışdır (1, 2007, s. 38-58; 13 c. 3-14). Şomutəpə mədəniyyəti Gürcüstan və Ermənistanın da bir qismini əhatə etdiyindən arxeoloji ədəbiyyatda bu mədəniyyət Şomutəpə-Şulaveri (16, c. 97; 30, p. 2), Şulaveri-Şomutəpə (30, p. 85) və Arataşen-Şulaveri-Şomutəpə (28, p. 11-12) kimi adlarla da tanıdılmışdır. Bu anlayışların mahiyyətinə varmadan deyə bilərik ki, bu adlandırmalar düzgün olmamış və müəyyən dərəcədə tədqiqatçıların subyektiv mövqeyini əks etdirmişdir. Belə ki, Kültəpə keramikasının araşdırılması onun forma və texnoloji xüsusiyyətlərinə görə Ağrı vadisinin keramikası bənzər olduğunu və bu mədəniyyətin indiki Ermənistan ərazisinə yayıldığını göstərir. Digər tərəfdən isə e. ə. VI minilliyin ikinci yarısında Naxçıvan, Gəncə və Qarabağ keramikasında ortaq xüsusiyyətlər meydana çıxır və bu mədəniyyətlər müəyyən dərəcədə Kültəpə mədəniyyətindən fərqlidir.

Hazırda I Kültəpə Cənubi Qafqazda keramikalı Neolit dövrünün ən qədim abidəsi hesab olunur. Yaşayış yerinin müxtəlif təbəqələrindən alınan kömür nümunələrinin analizi bu yaşayış yerinin Neolit dövrü təbəqəsinin 6372-5200 –cü illərə aid olduğunu göstərir (2011, c. 32). Lakin, qeyd etdiyimiz kimi, I Kültəpədə və Cənubi Qafqazın digər abidələrində keramikasız Neolit dövrü indiyədək aşkar olunmamışdır. Tədqiqatçılar istehsal təsərrüfatının hazır şəkildə olmasına və boyalı keramikaya əsaslanaraq Neolit mədəniyyətinin idaxal olunduğunu irəli sürmüşlər (7, c. 98; 17, c. 407). Ovçulartəpəsinin siçan sümüklərini araşdıran bəzi xarici tədqiqatçılar da bu fikri dəstəkləmişlər (23. p. 1-12). Qeyd etmək lazımdır ki, I Kültəpədə boyalı keramika qəbirdə aşkar olunmuşdur (5, c. 40). Bu qəbirdə mərhum arxasıüstə uzadılmış vəziyyətdə dəfn edilmişdir. Bu dəfn adəti isə tədqiqatçılar tərəfindən Mesopotamiya sakinləri ilə əlaqələndirilmişdir (20, c. 77). Bu tip dəfn adətinə I Kültəpənin birinci təbəqəsində müxtəlif laylarda rast gəlinmişdir (5, c. 40-46). Buna baxmayaraq tədqiqatçılar Neolit mədəniyyətinin mənşəyini Cənubi Qafqazın Mezolit mədəniyyətdində axtarmağa üstünlük vermişlər (34, p. 279-294). Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Daş dövrünün bütün mərhələləri aşkar olunmuşdur. Digər tərəfdən Cənubi Qafqazın bir-birindən fərqlənən Neolit mədəniyyətləri, şübhəsiz ki, müxtəlif neolitləşmə mərkəzlərinin olduğunu göstərir. Digər tərəfdən fauna və flora qalıqlarının əksəriyyəti yerlidir. Yerli xammalın istifadə olunduğu metallurgiya və metalişləmə sənəti də yerli zəmində inkişaf etmişdir (9, c. 16-29). Neolit məskənlərində Cənubi Qafqaz obsidianının istifadə olunması da Neolit dövrü mədəniyyətlərinin idxal olunmadığını, yerli zəmində inkişaf etdiyini göstərir. Belə ki, Cənubi Qafqaz obsidianı Yaxın Şərq ölkələrinə e. ə. VI minilliyin sonunda daxil olmuşdur (22, p. 310-311). O vaxta qədər isə Yaxın Şərq ölkələrində başlıca olaraq Şərqi Anadolu obsidianı işlədilmişdir. Fikrimizə görə, yüksək keyfiyyətli, Yaxın Şərq mənşəli keramika yalnızca Cənubi Qafqazla Yaxın Şərq ölkələri arasında iqtisadi-mədəni əlaqələrin olduğunu təsdiq edir.

**Nəticə**

Tədqiqatın nəticələri göstərir ki, I Kültəpənin birinci təbəqəsi üçün bir qismi yerdə qazılmış yarımqazmalar xarakterik olmuşdur. İkinci

təbəqənin arxitekturası isə dairəvi formalı evlərlə xarakterizə olunur. Özünəməxsus arxitekturanın mövcudluğu, metal əşyaların mis-mışyak ərintisindən hazırlanması, yerli obsidiandan istifadə, fauna və floranın əsas tərkibi təsdiq edir ki, Neolit mədəniyyəti idxal olunmamışdır. Bu mədəniyyət yerli zəmində yaranmış və Yaxın Şərq ölkələri ilə sıx bağlı olmuşdur. Belə hesab edirik ki, Osmantəpə yaşayış yerinin materialları da bunu təsdiq edir. E.ə. VI minilliyin ikinci yarısına Naxçıvanın, Qarabağın və Şimal-Qərbi İranın (Cənubi Azərbaycanın) Neolit mədəniyyətində ortaq xüsusiyyətlər yaranmışdır. Bu xüsusiyyətlər Xələc və Naxçıvantəpənin keramikasında aydın şəkildə izlənmişdir.

### Ədəbiyyat siyahısı


**1.** Baxşəliyev V. Azərbaycan Arxeologiyası. Bakı: Elm, 2008, 240 s.

**2.** Baxşəliyev V. Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 104 s.

**3.** Həbibullayev O.H.Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959, 134 s.

**4.** Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minillikdə. Bakı: Elm. 2003, 339 s.

**5.** Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм,1982, 316 с.

**6.** Ахундов Т.И У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку: Наука, 2012, 386 с.

**7.** Ахундов Т.И.Неолит Южного Кавказа // Antiquities of East Europe, South Asia and South Siberia in the Context of Connections and Interactions within the Eurasian Cultural Space (new data and concepts) proceedings of the international conference (St. Petersburg, november 18–22, 2019). St. Petersburg, 2019, c. 97-100.

**8.** Бадалян Р. С., Кикодзе 3. К., Коль Ф. Л. Кавказский обсидиан: источники и модели утилизации и снабжения (Результаты анализов нейтронной активации) // Историко-филологическийжурнал,1996, № 1-2, с. 245-264.

**9.** Бахшалиев В. Древняя металлургия и металлообработка на территории Нахчывани. Баку: Элм, 2005, 120 с.

**10.** Бахшалиев В.Б.Новые энеолитические памятники на территории Нахчывана // Российская Археология. № 2. 2014 С. 88–95.

**11.** Бахшалиев В.Б., Маро К., Реми Б., Кулиева З. Археологические раскопки на поселении Кюльтепе / Problems of the Archaeology of theCaucasus and Near East. Neolithic - Late Bronze Age. Baku: Институт археологии и этнографии. 2017, с. 26-41.

Böyük mütəfəkkirin "Üç mədəniyyət" əsəri multikultural əsərlərindən biridir. ***Dünya sivilizasiyasının Budda Brahman, Qərb, yaxud Avropa və İslam kimi 3 nəhəng mədəniyyət şaxələrinə söykəndiyini xarakterizə edən Ə.Ağaoğlu onların*** müştərək və fərqli məqamlarını açıqlayır: Mədəniyyətdə dil ortaqlığı amilini Şərq və Qərbin timsalında müqayisə edən ədib yazır ki, "bu gün ən azı 3 Avropa dilini – fransızcanı, ingiliscəni, almancanı bilməyən ciddi bir avropalı alim və ədibinə həmən rastlanmaz. Bunlar zatən ortaq olan və Avropa mədəniyyəti amillərindən bulunan əski yunan və latıncanı da ta çocuqluqlarından öyrənirlər. Bir zamanlar bu iki dil, islam aləmində ərəbcə və farsca kimi, Qərb aləmində ortaq elm və ədəbiyyat dili idi. Bütün alimlər latınca yazarlardı" [3].

Əhməd Ağaoğlu üç mədəniyyət şaxəsinin fərqli və oxşar cəhətlərini səciyyələndirdikdən sonra bu gün Qərb mədəniyyətinin qalib, İslam və Budda – Brahman mədəniyyətlərinin məğlub olma səbəblərinə diqqəti yönəldir və məğlubiyyətin maddi və mənəvi təzahürlərini səciyyələndirərək: "İslam cəmiyyətləri vəlvələli bir tərzdə süqut etməkdə və məhv olmaqdadır" – kimi qənaətinə gəlir.

Şərq mədəniyyətini tənəzzülə aparan din,

qədərçilik, cəhalət, Qərb mədəniyyətini tərəqqiyə aparan ailə, təhsil, tərbiyə, dövlət amillərini ifadə edir. Avropada və Rusiyada müxtəlif cəmiyyət həyatını qüvvətləndirən cərəyanların mövcudluğu və Şərq aləmində onların olmamasının səbəbi universitet, akademiya kimi təhsil ocaqlarının ya tamamilə yoxluğu və yaxud çox az olması ilə izah etmişdir. Elmi müəssisələrin yoxluğu üzündən, elm, texnika və dolayısı ilə fikir və fəlsəfi cərəyanlar və fikir həmrəyliyi olmamışdır.

Qərb mədəniyyətinin əsas prinsiplərindən biri insanın haqq və azadlıqlarını qoruyan dövlət quruluşudur. Əhməd bəy Ağaoğlu "Üç mədəniyyət" əsərində Şərqdə belə bir dövlət quruluşunun mövcudluğunu müdafiə etmişdir. Bu fikirlərlə "Dövlət və fərd", "Sərbəst insanlar ölkəsində", "Könülsüz olmaz" kimi əsərləri yazmışdır.

Multikulturalizm siyasətinin təməlini təşkil edən bərabərlik, azadlıq, birgəyaşayış qarşılıqlı hörmət onun digər əsərində də öz ifadəsini tapmışdır.

Əhməd bəy Ağaoğlu "Sərbəst insanlar ölkəsində" əsərində xalqı azad olmağa, azad düşünməyə çağırır. Onun aşağıdakı fikirləri eyni zamanda liberal düşüncələrlə yanaşı, multikultural baxışları da ehtiva edir.

"Azadlıq doğruya və cəsarətə söykənir".

"Azadlıq nədir? Sərbəst düşünmək və düşündüyünü sərbəst və səmimi söyləmək deyilmi?"

"Biliksiz və səysiz azadlıq tam sayılmaz. Belə azadlıq şikəst azadlıqdır".

"Uşaqlıqdan öz-özünü idarə etməyə, düşünməyə və mühakiməyə alışdırılan vətəndaşlar həyatda heç kimdən və heç nədən qorxub hürkməzlər".

Fərdlər arasında həmrəylik göstərmək, birgə dəstək nümayiş etdirmək əsasdır" [2].

Cəmiyyətin inkişafında elmin, təhsilin vacibliyini, cəmiyyətin müxtəlif üzvləri ilə birgə azad yaşamaq, qatı millətçilikdən uzaq olmağı fikirlərini irəli sürmüşdür. Bəzi rus mənşəli müəlliflərin qatı millətçiliklə bağlı fikirlərinə qarşı olmuşdur. Ə.Ağaoğlu insanları bir-birini qarşılıqlı tanımasını, milli birlik kimi formalaşmasını arzulayırdı.

Əhməd bəy Ağaoğlunun fikirlərinə əsaslansaq azadlıq, sərbəstlik hökm sürürsə, "birgəyaşayış" barədə də mühakimələr sürmək olar. Məsələn: ədib "düşün görək, şagird dostlarınla sinifdə "birgəyaşayışı" təmin edə bilərsənmi? Sinfimiz məktəbin həyatı ilə hansı "ictimai tellərlə" bağlıdır? Məktəbdən kənardakı cəmiyyətlə "ictimai bağlarımız varmı?" [2].

Əhməd bəy oxucularına izah edir ki, sərbəst və azad yaşamağa qəti qərar vermirsinizsə, özünüzü də dəyişməlisiniz. Sərbəst olmaq elə dəyişmək qərarı və dəyişmək hünəridir. Həmçinin müəllif özünü azad buxovlardan qurtulmuş insanı, mənəvi cəhətdən azad olmağa çağırır. Tamahkarlıqdan uzaq olub, fikir təmizliyi, söz təmizliyi, əməl təmizliyinə sahib olub, yaşayış sadəliyini seçməyi tövsiyə edir.

Öz millətinin qüsurlarını görməzlikdən gəlib, başqa millətləri ucuz düşürməyə qarşı olmuşdur. "Həqiqi millətçi millətini tənqid etməkdən, millətinin eyyubatını, qüsuratını görkəzməkdən, millətinin azarlarını, dərdlərini arıyıb da açıq-açığa deməkdən nəinki çəkinmiyorlar, bəlkə bir an böylə qafil olmuyorlar. Və həmçinin həqiqi millətçilər qeyri millətlərin arasında olan gözəl sifətləri, gözəl adətləri, gözəl binaları öz milləti üçün imtisal edib, millətini bu günə şeyləri əxz etməyə təhrik və təşviq etməkdən çəkinmiyorlar" [1].

Məqalənin sonunda Ə.Ağaoğlu multikultural fikirləri ilə bitirmək istərdim. "Azadlıq olan yerdə fikir müxtəlifiliyi çox təbiidir. Başqasının haqqını qorumaq, əslində vətəndaşın öz hüquqlarının müdafiəsinə qalxması deməkdir" [2].

## Ədəbiyyat siyahısı


1. Ağaoğlu, Ə. Millət və millətçilik // Tərəqqi, – 1909. 4 s.
2. Ağaoğlu, Ə. Sərbəst insanlar ölkəsində / Ə.Ağaoğlu. – Bakı: Bakı kitab klubu, 2016. – 144 s.
3. Ağaoğlu, Ə. Üç mədəniyyət / Ə.Ağaoğlu. – Bakı: Bakı kitab klubu, – 2017. – 184 s.
4. Multikulturalizmə giriş (dərs vəsaiti) / Bakı: Mütərcim, – 2018. – 371 s.
5. Azərbaycan multikulturalizmi (dərslik) / Bakı: BBMM, 2017, – 416 s.
6. Din və etiqad azadlığı / Beynəlxalq regional və milli hüquqi sənədlərdə / Bakı: Elm və təhsil, – 2013. – 208 s.
7. Din və ictimai təhlükəsizliyin aktual problemləri / Bakı: Elm və təhsil, – 2013. –277 s.

8. Qurani-Kərim / – Bakı: Çıraq, – 2005. – 678 s.
9. Süleymanlı, M. Əhməd Ağaoğlunun "İslama görə və İslamiyyətdə qadın" əsərinə elmi tənqidi yanaşmalar / M.Süleymanlı. – Bakı: Letterpress, – 2008. – 148 s.

**Резюме**

**Мустафаева Хумейра**

**Мультикультуральные воззрения Ахмед бека Агаоглы**

В статье отражены мультикультуральные воззрения в творчестве Ахмед бека Агаоглы, которые занимают важное место в произведениях этой выдающейся личности. Показав, что свобода женщин в исламской религии, защита женских прав, участие женщин в исламском обществе подтверждены Ахмед беком Агаоглу историческими фактами, говорится об интеграции в обществе норм и законов равенства, свободомыслия в исламской религии. Основываясь на мультикультуральные воззрения А.Агаоглы в его произведении, рассмотрено наличие положительного влияния различных факторов развития западной культуры на культуру Востока через единый научный язык. Исследовано освещение и в других его произведениях размышлений о составляющих основу политики мультикультурализма сосуществовании, толерантности в отношении различных культур, взаимном ознакомлении.

В статье также, наряду с высокой оценкой характеристики национального в истории эволюции человечества, говорится об отрицании им реакционного национализма. Определяется целесообразность мультикультуральных взглядов выдающегося учёного на свободное сосуществование в свободном обществе, свободное мышление людей различных мировоззрений.

***Ключевые слова:*** *мультикультурализм, культура, наука, образование, сосуществование, свобода, вольность, общество, религия, права женщин, равенство*

**Summary**

**Mustafayeva Humeyra**

**Ahmad bey Aghaoghlu's multicultural views**

Multicultural views in the works by great personality Ahmad bey Aghaoghlu have been discussed in the article. Women's freedom, protection of women's rights in Islam religion, and women's participation in Islamic society are presented with historical facts by A.Aghaoghlu, and it is dealt with the integration of ideas of equality and freedom into society in accordance with *Islamic laws. Based on multicultural opinions in A.Aghaoghlu's works it is considered the presence of scientific language having a positive impact of different development factors the of Western culture on Eastern culture.*

*Cohabitation, respect for various cultures, getting to know each other that form the basis of multiculturalism policy are investigated in his other works.*

The article reflects his high appreciation for the features of nationalism in the history of human development, and his anti-nationalist stance. The article emphasizes multicultural views of great scientist such as the people's living freely, thinking freely, and importance of different opinions in society.

***Keywords****: multiculturalism, culture, science, education, cohabitation, liberty, freedom, society, religion, women's rights, equality*

**UOT 091(Fəlsəfə tarixi)**

**XATİRƏ QULİYEVA**
*Fəlsəfə elmləri doktoru, dosent. AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun “Multikulturalizm və Tolerantlıq Fəlsəfəsi” şöbəsinin müdiri*
*xatire_6262@mail.ru, Azərbaycan*

# AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİK, HƏMRƏYLİK FƏLSƏFƏSİ XXI ƏSRİN MƏDƏNİYYƏTLƏRARASI DİALOQ ÇAĞIRIŞLARI KONTEKSTİNDƏ

## Giriş

İndi aforizm kimi dillər əzbəri olan “Azərbaycan-Türkiyə – Bir Millət-İki Dövlət” kəlamı - bu psixoloji olduğu qədər ictimai-siyasi, mədəni fenomen əslində qədim tarixlərin sınağından çıxmış, iki dövlətin ən ağır günlərində özünü təsdiq etmiş müdriklik fəlsəfəsidir ki, onun meyarları birlik, həmrəylik, dostluq, inam, sevgidir.

Bu fəlsəfə bizim ortak türk kökənli qəbilələrdən, Kıbçak, Bulğar, Oğuz boylarından, Orta Asiyadan gəlmə türk nəsilləri, Selçuqlu türkləri, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər tariximizdən, din, dil, adətlər, etnos, mifologiya, çoxçeşitli və zəngin folklorumuz beləcə, ədəbi klassiklərimizin irsindən və bütünlükdə milli-mənəvi dəyərlərimizdən, habelə ictimai-siyasi, elmi, mədəni, iqtisadi münasbətlərdən qaynaqlanmış, zaman-zaman həyat fəlsəfəsi olub bütün sahələrdə Azərbaycan-Türkiyə –“Bir Millət-İki Dövlət” – düşüncəsinin Yenilməz Gücünü nümayiş etdirmişdir.

Beləcə,Yalçın Tökerin də “Böyük oyanış” əsrində vurğuladığı kimi, - Bilgə Kağandan, hatta daha öncəsində Metə Xandan, Çeçeə Xandan bəri sönməyən bir ataş kimi alovları ilə ürəkləri yandıran bu Türk birliyi inancı, Qaspiralılara, Mirzə Fətəli Axundzadələrə , Mustafa Cəlaləddin, Süleyman və Ahmet Vefik Paşalara, Mehmet Emin Yurdakul və Rəsulzadələrə, Ömər Seyfəddinlərə, Ziya Gökalplara, Muftuoğullarına, Ağaoğullarına, Akçuraoğullarına, Kafesoğullarına, Hamdullah Sübhilere, Atsızlara daha niçələrinə ilham və yaşam qaynağı olmuşdur” (20).

Əlbəttə Yalçın Tökerin adlarını qürurla vurğuladığı türkçülük ideoloqları sırasında Mirzə Fətəli Axundovun xatırlanması təsadüfi deyildir və onun davamçıları olan Azərbaycan maarifçilərinin əsas nümayəndələrindən Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, həmçinin də fəaliyyəti XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərinə təsadüf edən görkəmli dramaturq Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov yaradıcılığında da ümum türk birliyi, ortaq türk dili həmrəyliyi geniş əks olunmuşdur.

Elə öz hesabına “Tərcüman” qəzeti nəşr etdirməklə Azərbaycanla bərabər, Krım, Volqaboyu, Orta Asiyada yayaraq «Dildə, fikirdə, işdə birlik!» kimi ümumbəşəri fəlsəfəni tarixə bəxş etmiş İsmail bəy Qasprnski ideya dəstəyini Azərbaycan maarifçilərindən almış, onlara arxalanmışdır. İsmail bəy Qasprnskinin “Tərcüman”- ı “ Əkinçi”-dən sonra yaranmış və onun yolu ilə bütün Türk dünyasına yol almışdır. Onun açdığı yolu isə “Türkbşmək, İslamlaşmaq və Avropalaşmaq” düşüncəsi ilə türkçüliyə inamla qoşulan Əli bəy Hüseynzadə davam etdirdi. Sonra Türkiyədən Ziya Göyalp “Turkləşmək, İslamlaşmaq, Müasirləşmək” kimi daha möhtəşəm ideyası ilə əbədi türk birlik və həmrəyliyini ucalara qaldırdı. Ziya Göyalpı da yenə Azərbaycan türki Əhməd bəy Ağaoğlu bu sistemli paralelliklə “davam” etdirdi. Əsas məsələ - Türk Birliyi, həmrəyliyi həyat fəlsəfəsinin möhkəmləndirilməsi tarixə zaman-zaman öz pozulmaz, əbədi izlərini hopdurdu və bütün bunlar yenə qaynayıb qarışmış şəkildə, yəni bu yazının müəllifi və Türkiyənin Uludağ Universitetiniin fəlsəfə fakültəsi professoru Kadır Çüçen tərəfndən yazılan fundamental kitabda yazılmaqdadır ki, bu məqalə həmin əsərdən kiçik bir hissəni ehtiva edir.

Beləliklə, bu məqalədə Türk Birliyi, həmrəyliyi həyat fəlsəfəsinin tarixi əsaslarına 100 il qədər uzaq, lakin məzmunca unudulmazlığı ilə çox yaxın hadisələr obyektivindən baxanda daima xoş hisslərlə xatırlanacaq Atatürk-Nəriman Nərimanov, Atatürk-İbrahimbəy Əbilov, Ata-

türk-M.Ə.Rəsulzadə, həmçinin Heydər Əliyev-Süleyman Dəmirəl, İlham Əliyev-Rəcəb Taib Ərdoğan və "Bir Millət-İki Dövlət" gözəl ideyasından daha cazibədar artıq "Bir Millət- Altı Dövlət" idealına aydın üfüqlər açan ictimai-siyasi əlaqələri gözəl bələdçidir.

**Əsas hissə**

Məlumdur ki, 1918-ci il 28 may tarixində Tiflsdə Azərbaycan Demokratik Respublikası élan edilmiş, Rəyasət Heyətinin sədri Məmməd Əmin Rəsulzadə seçilmişdir. Azərbaycan Demokratik Respublikasının milli məclisi açılana kimi Müvəqqəti Milli Şuraya Fətəli xan Xoyski rəhbərlik etmişdir və yeni müstəqil dövlət ilk addımını 4 iyun tarixində - yəni 1 həftə sonra Türkiyə ilə əlaqələrlə başlamışdır. Osmanlı imperatorluğu ilə Azərbaycan Milli Şurası arasında Batum Andlaşması rəsmi sənədinin 4-cü maddəsinə əsasən Türkiyə hərbi güc vasitəsi ilə Azərbaycanın Rusiyanın istilasından xilas olması, xalqın qorunması məqsədilə öz köməyini göstərməyə razılaşmışdı. Tarixi sənədi Türkiyə tərəfdən Ədliyyə naziri Xəlil bəy və 4.Kolordi komutanı Vehip paşa, Azərbaycan tərəfdən Məmməd Əmin Rəsulzadə və xarici işlər naziri Məmməd Həsən bəy imzalamışlar.

Azərbaycanda bolşeviklərə böyük dəstək verən ermənilərin Bakıda törətdikləri soyqırımın qarşısının alınması üçün Məmməd Əmin Rəsulzadə və Dağıstan milli rəhbəri Heydər Mammat İstambula gəkmiş. Tələt və Ənvər paşa ilə görüşmüşlər və Türkiyə dərhal öz ordusunu Azərbaycana göndərmək üçün hazırlamışdır. Lakin Birinci Dünya Müharibəsində məğlub olan Türkiyəyə Almaniya Gürcüstan vasitəsilə mane olmağa çalışmış, ordununBatumdan keçməsinin qarşısı alınmış, lakin Türkiyə əsgərləri nə qədər uzaq məsafə və çətin yollarla olsa da yəni, Qarsdan keçməklə qan qardaşlarının köməyinə yetişmişlər. Digər tərəfdən də Envər paşanın qardaşı Nuru paşanın rəhbərlik etdiyi Qafqaz Müsəlman ordusu Azərbaycan türklərinin də qoşulduğu bu əsl TÜRK ORDUSUNA birləşərək Ruslarla, əslindəsə türkün əbədi düşməni ermənilərlə mübarizə aparmış, soyqırımçıları geri oturtmuşdur.

Tarixin ən ağır hadisəsi müharibə, qırğın isə, ən bəşəri, humanist münasibət haraya yetişmək, xilas etmək, qorumaqdır. Bu baxımdan Türkiyə –Azərbaycan birliyi, həmrəyliyi nümunələrindən yada düşən daha bir nümunə: ... 1918-ci ildə Azərbaycanın harayına gəlmiş "Ya istiqlal, ya ölüm"- hayqıran türk geniralı Kazım Qarabəkir paşa Azərbaycanın qədim məskəni Naxçıvanı erməni daşnaklarından qorumuş, **Azərbaycan Xalq Cümhuriyyəti** və - **Osmanlı İmperiyasının** dəstəyi ilə Naxçıvan və ətrafında yaşayan türklərin təhlükəsizliyini təmin etmək üçün Araz Türk Cümhuriyyətinin yaradılmasına nail olmuşdur. Hələ Kazım Qarabəkir paşa İran Azərbaycanını da ingilisləri dəf edərək fəth etmiş, bir müddət o tərəfli, bu tərəfli Azərbaycan ürək kimi bərabər döyünmüşdür.

Naxçıvana gəldiyi vaxt maarifçilik işlərinə də nəzarət edən Kazım Qarabəkirin məktəblərdə öz yazdığı Marşı öyrətməsi xatırlanmaqdadır.

*Ya istiqlal ya ölüm,*
*Ya istiqlal, ya ölüm !*
*Vətənim, millətim, bayrağım, evim,*
*İstiqlalsız yoxdur yerim !*
*Zəncir vurdurur mu Türklər boynuna,*
*Varlığı fədadır vətən yoluna.*
*Biz tarixin Türk dediyi millətiz,*
*Hür yaşar, hür ölür, nurlu ümmətiz ! (15).*

Həmçinin Kazım Qarabəkirin bu marşı uşaqlara öyrətdiyi məktəbdə müəllim işləyən, sonralar Azərbaycanın böyük şairi, dramaturqu olacaq Hüseyn Cavidin türk geniralı haqqında çıxışında bədahətən söylədiyi misralar da elmi ədabiyyatlara iz salmışdır:

*"İkimiz de 1882'de doğmuşuz.*
*İkimiz de Şair olduk.*
*Kalem ile kılıç, muallim ile asker;*
*Sen hem kalem. hem de hançer;*
*Vatan için Şanlı bir asker" (15).*

Azərbaycanın demək olar ki, bütün bölgələrində cərəyan etmiş və tarixə vandallıq məzmun və mahiyyətində 1918-ci il, 31 mart-02 aprel soyqırım hadisələrinə qısa nəzər yetirdikdə də biz "bir millət, iki dövlət"-in birlik, həmrəylik həyat fəlsəfəsinin şahidi oluruq. ... Ermənilərin Şamaxı şəhərində törətdikləri vəhşətlər tarixdə Erməni vandallığı faktı kimi yaşayır. Onların xalqımıza, millətimizə qarşı törətdiyi soyqırım xəritəsi Bakıya qədər bütün rayonlarımızda, kəndlərimizdə öz vəhşət izlərini qoymuşdur. Göyçayda, Qaraməryəm ərazisində, Hacıqabul,

onun Nəvai qəsəbəsində, Qobustanda və beləcə Bakıda törədilmiş qəddarlıqlar şəxsən mən özüm daxil nəsil-nəsil uşaqlara nənələrinin danışdığı qorxulu nağılların mövzusuna dönmüşdür.

Həmçinin Ermənilərin Quba rayonunda Azərbaycanlılara qarşı 1918-ci il soyqırımında törətdikləri vəhşiliklər şəhid qəbirstanlığında öz aydın izlərini yaşadır. 2007-ci ildə yol təmiri zamanı təsadüf nəticəsində üzə çıxmış, başları bədənlərindən ayrı vəziyyətdə olan yüzlərlə şəhid bədəni tarixdə insan adlanan ermənilərin öz insan həmvarlığına qarşı amansızlığına əyani sübutdur.

Vətənimiz üçün belə bir tarixi-faciəli dövrdə Türkiyə xalqımızla həmrəylik nümayiş etdirərək harayımıza gəldi. "Bir millətin" qardaş dövləti – Türkiyədən hərbi nazir Ənvər paşanın xüsusi əmri ilə osmanlı əsgərlərindən ibarət 15 minə yaxın hərbi qüvvə Azərbaycana gəldi. Sözsüzdür ki, Nuru paşanın komandanlıq etdiyi bu Qafqaz müsəlman Ordusu olmasaydı 1918-ci ildə ermənilərin bolşevik hərbi qüvvələrinin dəstəyi ilə Azərbaycanlılara qarşı həyata keçirdikləri milli soyqırım daha geniş miqyas alardı. Məhz türk ordusunun sayəsində bu qəsbkar və insanlığa sığmayan soyqırım dayandırılmışdır.

1920-ci illərdə də Azərbaycan-Türkiyə – "Bir Millət-İki Dövlət"-in Yenilməz birlik Gücü öz təntənəsini yaşayır. Bu dəfə Azərbaycan Türkiyəyə öz qardaş mətanətini göstərir. Belə ki, 1920-ci il may ayının 3-də Türk Dövlətinin əfsanəvi lideri Mustafa Kamal Atatürk Şərq Cəbhəsi komandanı Kazım Qarabəkir Paşaya aşağıdakı məzmunda bir məktub yazır: "Dövlətdə heç pul qalmadı. Ölkə daxilində pul təmin edə biləcəyimiz bir qaynaq yoxdur. Başqa qaynaqlardan pul əldə edənə qədər, Azərbaycan Hökumətindən borc pul alınmasını təşkil etmənizi istəyirəm".

Kazım Qarabəkir Paşa Atatürkün bu istəyini Azərbaycan hökumətinə bildirir. Bu, Azərbaycan Sovet Sosialist Respublikası ilə Ankara hökuməti arasındakı ilk rəsmi təmas idi. Azərbaycandan Türkiyəyə 1921-ci ildə, Nərimanovun şəxsi əmriylə qardaş əli uzanır.

Azərbaycanın Xarici İşlər Naziri Mirzə Davud Hüseynov savaşda qazanılan uğurlar münasibətilə göndərdiyi teleqramda "…Qazanılan büyük zəfərlərə görə Türk xalqını Azərbaycan Sovet Sosialist Respublikası adından təbrik edirik" yazıb və bu böyük zəfərin şərəfinə Azərbaycan xalqının yardım üçün 30 sistern neft, 2 sistern benzin, 8 sistern kerosin göndərdiyini bildiririb. Həmin ilin may ayında Azərbaycan Türkiyəyə 62 sistern neft göndərmiş və bundan sonra savaş qurtarana qədər eyni dəyərdə neft və üç vaqon kerosin göndərmə öhdəçiliyi götürmüşdü. Mustafa Kamal Paşa 1921-ci ildə Nərimanova bir məktub yazaraq ondan borc pul istəmişdi. Bu məktub səfir vasitəsilə 1921-ci il mart ayının 17-də Nərimanova çatdırılmış, o isə dərhal 500 kq qızıl göndərmişdi. Bunun 200 kq-ı dövlət büdcəsinə, qalanı isə silah və sursat üçün istifadə edilmişdi.

Daha sonra Nərimanov Rusiyadan aldığı 10 milyon qızıl pulu Ankaraya göndərmişdi. Bu yardımlar sayəsində müharibə-döyüş şəraitində olan ölkənin vəziyyəti xeyli yaxşılaşmışdı. Bundan əlavə, 1922-ci ildə Türkiyəyə Batum yolu ilə Azərbaycan tərəfdən doqquz min tondan çox kerasin və 350 ton benzin yardımı göndərilib. Nərimanov Mustafa Kamal Paşaya yazdığı məktubunda Türk xalqının qazanılan uğurlarla imperializmdən qurtulma günlərinin yaxınlaşdığını, buna görə Türk xalqını təbrik etdiyini bildirir və sonra əlavə edirdi: "Paşam, bizdə qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdın tutacaq və tutmağa davam edəcəyik" (12).

Xarakterik bi hadisədir ki, Türkiyə Cümhuriyyəti qurulan dövrdə necə Mustafa Kamal Atatürk Azərbaycandan yardım istəmişdi və onun bu dərin maddi ehtiyacdan doğan müraciətinə Nəriman Nərimanov "bizdə qardaş-qardaşa borc verməz"- mötəbər cavabı verməklə mümkün olandan da artıq yardım yollamışdı. 1991-ci ildə Müstəqil Azərbaycan Dövləti qurularkən Türkiyə Azərbaycan Lideri Heydər Əliyevin çağırışına dərhal cavab vermiş və Azərbaycana maddi-mənəvi dəstək vermişdi. Bu haqda bir qədər sonra.

Təsadüfi deyil ki, Mustafa Kamal Paşa Atatürk 1920-ci ildə Türkiyə Böyük Millət Məclisi qurulduqdan sonra ilk diplomatlığını Bakıda açmış və yazıçı Memduh Çevket Esendalı Azərbaycana öz "orta elçisi" – yəni təmsilçisi olaraq göndərmişdir, Azərbaycanda doğma, isti münasibətlə qarşılanan Esendalı səfirlik bağlanana kimi - 4 illik fəaliyyətini dövründə ilk olaraq Birinci Dünya Müharibəsindən sonra Zaqafqaziya və Rusiyada qalmış türk əsirlərinin

Türkiyəyə qayıtması kimi çox çətin vəzifəsini yerinə yetirmiş, Azərbaycanda ərəb əlifbasından latına keçilməsi üçün çalışmışdır.

... 1921-ci ildə Nəriman Nərimanov da Atatürkün bu inamlı addımından sonra İbrahim Məhərrəm oğlu Əbilovu Azərbaycan Sovet Sosialist Respublikasının (SSC) Türkiyə səfiri vəzifəsinə təyin etdirmiş və onun da Azərbaycanla Türkiyə arasında qardaşlıq, dostluq, birlik, həmrəyıik hisslərinin qüvvətlənməsində böyük rolu olmuşdur.

Beləki, Azərbaycanda bolşevik hakimiyyətinin yeni qurulduğu həmin vaxtlar ölkədə kəskin maddi problemlər yaşandığına rəğmən Nəriman Nərimanovun tövsiyyəsi ilə Azərbaycanın xarici işlər üzrə xalq komissarı Mirzə Davud Hüseynov 1921–ci ilin avqust ayında Türkiyədə fəaliyyət göstərəcək fövqəladə səfirliyin açılmasını məqsədəuyğun bilərək 25 nəfərdən ibarət korpusunu təsdiq etmişdir və bu tərkibdə cəmləşən hər bir əməkdaş səlahiyyətli nümayəndə – İbrahim Əbilov, I katib – Mirzə Davud Rəsulzadə, hərbçi – Ələsgər bəy Əsgərov, şəxsi katib – İsmayıl İsmayılov, şifrəçi – Məbud Zeynalov, işlər üzrə idarə edən – Yusif Axundov, informasiya üzrə müdir – Ağabala Yusifzadə, informasiya şöbəsinin əməkdaşı – Rəhim Hüseynov, informasiya şöbəsinin əməkdaşı – Rza Təhmasib, ticarət şöbəsinin müdiri – Musa Sultanov, əməkdaşları –Yusif Həsənov, – Həbib Əliyev, təsərrüfat üzrə müdir və komendant – Nadir İbrahimov, diplomatik kuryer – Əsgər Topçubaşov və Musa Həsənzadə, İbrahim Əbilovun şəxsi mühafizəçisi – Əsgər Qara Günəş oğlu Dünyamalıyev. Ankaradakı səfirlikdə əsas işçilərdən əlavə 5 əsgər mühafizəçi – Həmidulla Mirzə oğlu, Əminağa İbrahim oğlu, Hənifə Rzayev, Məmməd Emin Aslanbəyov və Məmməd Həci Məmməd oğlu işə məsuliyyətli kadrlar olmaqla bərabər, türk xalqlarının birliyini ali məslək, amal hesab edən əqidə sahibləri idi.

Bu güclü diplomatik korpus Ankaraya gəldikdə Türkiyənin yeni hökumətinin xarici işlər naziri, digər yüksək vəzifə sahibləri, xalq kütləlləri onları izdihsmla qarşılamış, əsl dost, qardaş hisslərini, milli birlik və həmrəyliyin sevincini paylaşmışdılar. İbrahim Əbilovun tarixi qeydindən də aydın olduğu kimi onlar "bir millətin" insanları kimi böyük məhəbbətlə qəbul edilmişlər: "Anadolunun hər yerindən olan insanların bizə qarşı münasibəti səmimi və doğmadır. Bizi Trabzondan Ankaraya qədər bütün şəhər və kəndlərdə isti qarşıladılar və hörmətlə qəbul edildik" (4).

Azərbaycanın Türkiyədəki ilk diplomatik heyətini 1921-ci ilin oktyabr ayında Türkiyə Böyük Millət Məclisinin sədri və Baş komandan Mustafa Kamal qəbul etmiş və İbrahim Əbilov ona Azərbaycan hökumətinin Etibarnamə məktubunu təqdim etmişdir.

Bundan sonraTürkiyədə Azərbaycan səfirliyi binası üzərində Bayrağımız daılğalandırılmış və həmin tarixi ğün təşkil olunmuş möhtəşəm tədbirdə Qazi Mustafa Kamal bir millətin iki dövləti arasındakı əlaqələr haqqında bunları söyləmişdir: "Məncə Türkiyə və Azərbaycan arasındakı Səmimilik və qardaşlıq əlaqələrinin dərəcəsini şərhə lüzum yoxdur. Bu qardaşlıq əlaqələrini təsdiqləmək və gücləndirmək üçün Azərbaycan hökuməti cənab İbrahim Əbilovu bizə səfir olaraq göndərdi. Bu çox uğurlu bir seçimdir. Çünki İbrahim Əbilov zat-aliləri bu qardaşlıq bağlarını canı ilə bağlayır və bizim üçün çox vacib olan missiyanı uğurla yerinə yetirmək üçün bütün lazımi keyfiyyətlərə sahib bir insandır" (4).

Həmçinin də elə məhz həmin tədbirdə nəhəng Türk dünyası Lideri - Qazi Mustafa Kamal Atatürk bu gün dillər əzbəri olan "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur" (12). - bəyanatını Azərbaycanın Türkiyədəki ilk diplomatı –dostu İbrahimbəy Əbilov vasitəsilə bütün dünyaya bəyan etmişdir.

Qazi Mustafa Kamal Atatürk İbrahim Əbilovu anadolu türklərindən ayırmamış, daim ona qarşı yüksək dostluq, qardaşlıq münasibəti bəsləmiş və bu doğmalıq münasibəti tarixə dərin izlər salmışdır. Məsələn, Azərbaycan Tarixi Muzeyində Mustafa Kamal Atatürkün bir tarixi fotoşəkli vardır ki, üzərində "Azərbaycanın Hörmətli Səfirinə, qardaşım İbrahim Abilova. 28 oktyabr 1921."- sözləri yazılmışdır (4) və bu avtoqraf yenilməz türk liderinin Azərbaycan diplomatina xüsusi ehtiramını aydın əks etdirir. Bundan başqa Atatürkün İbrahim Əbilovu ən etibarlı adamı kimi Türkiyə ordusunun böyük hücum hazırlıqları dövründə ön cəbhəyə dəvət etməsi, onu döyüş diviziyaları ilə tanış etməsi, zabitlərlə görüşdürməsi, həmçinin onunla məs-

ləhətləşməsi mövzu ilə maraqlananlara yaxşı məlumdur.

Məsələn, Türkiyənin tanınmış Atatürk irsi araşdırmaçı yazarı D.Özdən bir məqaləsində yazır: “Cəbhə boyu bir çox yerdə Aralov (Rusiyanın səfiri) və Əbilova əsgərlərə müraciət etmək imkanı verilir. Sovet səfiri Aralov, "Cəsur və nəcib türk əsgərləri!" - deyib, Qırmızı Ordunun salamlarını çatdırdıqdan sonra Türk bayrağının İzmirdə dalğalanacağını vurğulayır. Aralovun çıxışı "yaşa!" nidaları ilə kəsilir. Azərbaycan səfiri İbrahim Əbilov isə türk əsgərlərinin başa düşücəyi aydın bir türkcə ilə, Sovet Qızıl Ordusunun İngilislərə, Fransızlara və digər kolonistlərə qarşı qazandıqları qələbələrdən, Rusların çarı necə devirdiklərindən, kapitalistlər, varlılar və hökumətin indi xalqın əlində olduğu haqda danışır. Əbilov, Sovet Rusiyanın Türkiyəyə dəstək verdiyini. Qızıl Ordunun arxa cəbhənin imperialistlərin hücumlarından qoruduğunu bildirir, əsgərləri arxa cəbhəyə görə narahat olmamağa çağırır və Türk əsgərləri Əbilovu böyük coşğu ilə alqışlayırlar. Mustafa Kamal və Müstəqillik Döyüşünün komandirləri; Ön cəbhəyə səfər zamanı Aralov, Əbilov və Sovet Hərbi Attaşesi Zvonaryevlə hərbi sirləri bölüşmüşlər” (5).

“Türkiyənin "Ahəng" qəzeti də Azərbaycan-Türkiyə –“Bir Millət-İki Dövlət”–in Yenilməz iradəsini təmsil edən İbrahim Əbilov haqqında müsbət fikirlər şərh etmişdir: "Türkiyədə Abilovu doğma qardaş kimi sevməyən və ona hörmət göstərməyən bir tək adam yoxdur. O, həqiqətən milli azadlıq mübarizəmizin zirvəsində bir qardaş və dost idi” (5).

İbrahim Əbilova etimad göstərilərək o, daha sonra 3 respublikanın – Azərbaycanla bərabər Gücüstan və Ermənistanın da (Cənubi Qafqaz Federasiyasının) Türkiyədəki səfiri olmuşdur. Əlbəttəki, ölkəmizin ilk diplomatı Azərbaycan-Türkiyə əlaqələrinin daha da dərinləşməsi məqsədilə mühüm addımlar atmış, beynəlxaq, iqtisadi, mədəni sahədə əlaqələri gücləndirmişdir. Bu baxımdan o dövlətlərimizin büynəlxalq münasibətlər tarixinə qiymətli səhifələr yazmış ilk diplomatlarından biridir.

Bu tarixyüklü işlərin sırasında 1922-ci ildə Türkiyə və Sovet respublikalarının iqtisadi əlaqələrinin qurulması məqsədilə yaradılmış və ölkənin bir çox şəhərində şöbələri fəaliyyət göstərən "Azneftesindikat" adlı idxal-ixrac qurumu xüsusilə yada düşür. 1922-ci ildə Azərbaycandan Türkiyəyə ixrac edilmiş 9294 ton kerosin və 340 ton benzin "Azneftesindikat" xətti ilə həyata keçirilmişdir. Bundan başqa İbrahim Əbilovun təşəbbüsü ilə ölkələrimiz arasında dəmir yolu, poçt və teleqraf və s. sahələrdə əlaqələr yaradılmış, müxtəlif müqavilələr imzalanmışdır.

Ibrahim Əbilovu Atatürkün Anadolunun “atası” adlandırmasını vurğulayan D.Özdən yazır ki, “1918-1923 arası müstəqil bir respublika olan Azərbaycanın Türkiyə səfiri İbrahim Əbilovun Türk xalqının və Kamal Atatürkün çox yaxın dostu olaraq, yalnız cəbhədə deyil, yeni və gənc Türkiyə Respublikasının ictimai, mədəni, siyasi və iqtisadi inkişafı üçün böyük faydası olmuşdur. Onun İzmir İqtisadi Konqresinin təşkilində böyük xidmətləri danılmazdır” (5).

İbrahim Əbilov hərtərəfli biliyə, geniş dünyagörüşünə malik bir “sovet” diplomatı olaraq hələ tam olaraq qurulmamış, müharibə reallıqları yaşayan və bu səbəblərdən böyük maddi ehtiyaclar içində olan Türkiyədə yetim uşaqlara yardım etmək məqsədi ilə xeyriyyə tədbirləri də təşkil etmişdir. Hələ İbrahim Əbilovun təkcə təşəbbüsü ilə deyil, həm də lap əsl konsertmestr kimi rəhbərliyi ilə səfirliyin əməkdaşları - təsərrüfat üzrə müdir və komendant Nadir İbrahimov, diplomatik kuryer Əsgər Topçubaşov, şəxsi katib İsmayıl İsmayılov, I katib Mirzə Davud Rəsulzadə “Aşıq Qərib” operasını nümayiş etdirmişlər. Xeyriyyəçilik məqsədilə səfirliyin informasiya şöbəsinin əməkdaşı Rza Təhmasibin rejissorluğu ilə Ə.Haqverdiyevin “Bəxtsiz cavan” pyesi də tamaşaya qoyulmuşdur.

Xeyriyyə məqsədli bu tədbirlər eyni zamanda Türkiyə-Azərbaycan mədəni əlaqələrinin əsası kimi də böyük əhəmiyyət daşıyır.

İbrahim Əbilovun Azərbaycanın Türkiyənin Trabzon və Samsun şəhərlərində konsulluqlarının açılmasına nail olması isə əlbəttəki, onun diplomatik səriştəsindən, peşəkarlığından xəbər verir.

Ancaq, bu sadalanlarla birlikdə və onların fövqündə İbrahim Əbilovun bir fövqəladə səlahiyyətli səfir kimi fikrimcə ən böyük xidməti onun Naxçıvan uğrunda diplomatik mübarizəsi olmuşdur və o, Azərbaycan Dövlət Nəzarətinin Xalq komissarı Behbud bəy Şahtaxtinski ilə bərabər 1921–ci il martın 16-da Rusiya və Türkiyə arasında bağlanan müqavilənin III maddəsi-

nə, - yəni Ermənistanla Naxçıvan MSSR–in sərhədlərinin birmənalı şəkildə müəyyənləşdirilməsinə nail olmuşdur ki, bununla erməni daşnaklarının Azərbaycanın əzəli məskəni Naxçıvana məkirli iddialarına bir dəfəlik son qoyulmuşdur.

Təsadüfi deyil ki, Nəriman Nərimanov İbrahim Əbilovun səfirlik fəaliyyətini bu sözlərlə yüksək qiymətləndirmişdir:"Azərbaycanın siyasi nümayəndəliyinin Türkiyədəki siyasi xətti düzgündür" (11).

Lakin Atatürkün qardaş qədər sevdiyi, Nəriman Nərimanovun ən inanılmış adamı İbrahim Əbilovun diplomat taleyi nə qədər uğurlu, ürək açan aydın rənglərdə olsa da, həyat sonluğu o qədər tünd və faciəvi xarakterdə olmuşdur. Belə ki, İbrahim Əbilovun dəstəyi, təşkilatçılığı ilə keçirilmiş İzmir İqtisadi Konqresində Türkiyə-Azərbaycan əlaqələrinin böyük carçığı, cəfakeşi ilk diplomatik səfir ağır xəstələnir. Ancaq qurultayı tərk etmir, evinə döndükdən sonra həyat yoldaşı bu barədə onun dostu, qardaşı Mustafa Kamala xəbər verir və Əbilovu əvvəlcə Kazım Qarabəkirin məsləhəti ilə İzmirin ən güclü həkimləri Əsəd bəy və Murad bəy müayinə, müalicə edirlər, halı pisləşdikcə (dostu kimi taleyini zəhərlənib ölmək izləyən) böyük Atatürk şəxsi həkimi Tofiq Rüştü Arazı Əbilovu xilas etmək üçün göndərir. Lakin Əbilovu xilas etmək mümkün olmur və o, 1923-cü il 23 Fevral tarixində 41 yaşında Türkiyədə vəfat edir.

"Bir millət-iki dövlət" fəlsəfəsinin yenilməzliyinə bir möhtəşəm misal da Atatürkün öz dostu İbrahim Əbilovu vətəninə son mənzilə göndərərkən onun üçün ərəb və hind mütəxəssislərini çağırması və nəaşini 200 illik mumiyalatdırması hadisəsidir.

Atatürk bununla da sakitləşə bilməmiş İbrahim Əbilovun cənazəsinin olduğu gəmini sanki, dostunu sevdiyi bütün Türkiyə ilə vidalaşdırır. Beləcə, Atatürk İbrahim Əbilovun cənazəsinin və həmçinin ailəsinin olduğu gəmini İzmirdən İstanbula, ordan Batumiyə göndərilməsi əmrini vermişdir. Gəmi Batumidə böyük bir izdihamla qarşılanmış, sonra Bakıya göndərilmişdir.

Azərbaycan-Türkiyə əlaqələri-bir millət iki dövlət fəlsəfəsinin həyati misallarından biri də İbrahim Əbilovun qızı Anadolu ilə bağlıdır. O, Anadolu ilə ki, onu doğuşunu Atatürkün həkimi Tofik Rüştü Araz həyata keçirmişdi. O, Anadolu ki, adını da böyük Atatürk qoymuşdu və o, Anadolu ki, İbrahim Əbilovun vaxtsız və müəmmalı ölümündən sonra həyat yoldaşı onu və digər qızı Zibanı cənazə ilə birlikdə Bakıya apardıqda Atatürk onu buraxmaq istəməmiş, ona Tofik Rüştü Araz vasitəsilə Anadolunu öz övladı kimi böyütmək arzusunu və körpənin Türkiyədə qalması xahişini yetirmişdi...

Lakin Əbilovun həyat yoldaşı bu istəyi qəbul edə bilməmiş, Atatürk və Türkiyəylə vidalaşıb birlikdə Bakıya dönmüşlər.

Əlbəttə İbrahim Əbilov zəhərlənib öldürülmüşdü və bu Azərbaycanın – türkün əbədi düşməni, xalqlarımız arasına nifaq salmaq məqsədli, diplomat haqqında ardı-arası kəsilməyən şikayət məktubları yazan, hələ onun rəhbərlik etdiyi səfirliyi təftiş etdirməyə nail olmuş erməni daşnaklarının məkrli planı idi.

Qəribədir ki, İbrahim Əbilovun 200 illik mumiyalı nəəşinin basdırıldığı qəbir də müəmmalı şəkildə dağıdılmış, atası kimi qəhrəman Anadolu Böyük Vətən Müharibəsindən sonra qəbri ziyarət edərkən onun yerlə-yeksan edildiyini görmüşdür. "1941-ci ildə mən Bakıda Tibb İnstitutunun ikinci kursunda oxuyarkən Böyük Vətən müharibəsi başlandı. Könüllü olaraq cəbhəyə yazıldım. Cərrahiyyə şöbəsinin şəfqət bacısı kimi Ukrayna, Belorusiya, Şimali Qafqaz cəbhələrini qarış-qarış piyada keçib Berlinə qədər getdim. Balet ustası olan böyük bacım Ziba da döyüş briqadalarında çıxış edirdi. Müharibədən sonra cəbhədə ailə qurduğum həkim İskəndər İsmayılovla Bakıya qayıtdım. Atamın məzarını ziyarətə gedərkən qəbrin yerlə-yeksan olunduğunu gördük... Nə qədər axtarılsa da, dəmir qutuda basdırılan mumiyalanmış cəsəd tapılmadı" (11).

Anadolunun xatirələrində Ulu öndərin göstərişi ilə 1981-ci ildə (tarix səhvdir) İbrahim Əbilova Fəxri xiyabanda simvolik qəbir qoyulduğu da əks olunmuşdur.

Bu da bir həqiqətdir ki, Türkiyə hərmişə ölkəmizə qarşı, xalqımıza qarşı isti, doğma münasibətlərdə olmuş, Azərbaycana dost, qardaş köməyini əsirgəməmişdir. Elə həmin mürəkkəb, qarışıq illərdə Azərbaycanın yanında olan Türkiyə öz qoşunlarını Naxçıvandan o vaxt çıxarıb ki, Rusiya Naxçıvan sərhədlərini tanıyıb.

Heç də təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev 1997-ci il 8 may tarixində Türkiyənin İş Adamları ilə Görüşdə söylədiyi nitqində Soyqırım illərində Türkiyə Respublikasının yaradıcısı

Mustafa Kamal Atatürkün Azərbaycana göstərdiyi böyük diqqəti yüksək qiymətləndirərək demişdir: "... böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin erməni millətçilərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-ci ildə Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda Azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq" (13).

Bu gün də Türkiyə işğalçı Ermənistana etiraz olaraq o dövlətlə bütün nəqliyyat yollarını bağlayıb.

Böyük Atatürkün Azərbaycanın ilk müstəqil dövlətinin qurucusu Məhəmməd Əmin Rəsulzadəyə dediyi məşhur sözlərin məzmunundan da türk birliyi və həmrəyliyi ideyası boylanır: "Ben dünyaya senden 3 sene önce geldim. Fakat tüm türk dünyasında türkün cumhuriyyet bayrağını ilk defa sen yükselttin ve bayrak inmesin diye ben senden alıp Türkiye üzerinde dalgalandırdım.İnmez dedin,bu bayrak inmiyecek" (2) .

İndisə, Ulu öndər Heydər Əliyevin 1994-cü ildə, Müstəqil Azərbaycanın Respublikasının prezidenti olaraq ilk xarici səfərini Türkiyədə düşünməsini və bu vaxt "biz bir millət, iki dövlətik" kəlamını bütün dünyaya elan etməsini yada salmaqla ümummilli liderin Azərbaycan-Türkiyə birliyi, həmrəyliyi həyat fəlsəfəsinin qüvvətlənməsi, iki qardaş ölkə arasında əbədi dostuq körpüsünün yaranması üçün gördüyü tarixi işlərin, sınaqdan çıxmış monolit münasibətlərin mümkün qədər lokonik tablosunu canlandırmaq istəyirik. Belə ki, Heydər Əliyev Sovet İmperiyası rəhbərlərinin xalqımıza qarşı ədalətsiz və qəddar münasibətinə etiraz olaraq yüksək vəzifəsinə istifa verib Rusiyadan ayrılaraq vətənə döndükdən sonra doğulub böyüdüyü Naxçıvan Muxtar Respublikasına gedib həmvətənlilərinin əhatəsində yaşadığı 3 il kimi qısa zamanda həyata keçirdiyi tarixi əhəmiyyət kəsb edən böyük dövlət quruculğu İşlərinin mərkəzində məhz Türkiyə ilə əlaqələr yaratmaq məqsədi dayanmışdır.

Yüksək müdriklik xislətinə malik görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın İkinci müstəqillik dövründə və hələ Azərbaycan Ali Məclisinin sədri, Azərbaycan Prezidenti olmamışdan öncə Türkiyə Dövlətinin başçısı Süleyman Dəmirəllə birlikdə gerçək Türkiyə-Azərbaycan körpüsünün yaradılmasına nail olmaqla xalqlarımızın birliyini canlandırmışdır.

Məsələn, Türkiyə-Azərbaycan arasında real bünövrə - Türkiyə Cümhuriyyəti və Azərbaycanı və bu Ulu diyarın bir parçası qədim Naxçıvanı birləşdirən körpünün Araz çayı kimi tarixi qan yaddaşımız üzərində salınması və körpünün "Ümid" adlanması heç də təsadüfi olmayıb böyük müdrik mənalar daşıyırdı.

Heydər Əliyevin böyük səyi və cəsarəti sayəsində yaranan bu əlaqələr və "Ümid" körpüsünün müvəqqəti olaraq 29 oktyabrda, tam olaraq 28 mayda rəsmi olaraq açılması da iki Türk dövlətinin Respublika gününü ifadə edir və yenə xalqımızın Ulu öndərinin türkçülüyə və dəməli milli ideyaya müdrik yanaşmasını birmənalı surətdə təsdiq edir.

Bununla bərabər, görkəmli siyasətçi Heydər Əliyevin Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində krediti nəzərdə tutan müqaviləni həyata keçirməklə düşmənlə həmsərhəd ərazidə blokada şəraitində, digər tərəfdən relyef baxımından sərt iqlimə malik regionda mühüm tələbat ehtiyaclarından məhrum olmuş – işıqsız, qazsız, hətta çörəksiz qalmış xalqın həyatını xilas etməyə nail olması müdrik siyasətin inqilabi təntənəsi idi. Hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolunun imzalanması faktı da zamanına və bütün zamanlara münasibətdə müdrik milli lider qəhrəmanlığı idi ki, müqaviləni Türkiyə tərəfdən imzalamış TC-nin 9-cu prezidenti Süleyman Dəmirəl ömrünün sonuna kimi bu qəhrəmanlığı xatırlayıb yaddaşlara və əlbəttə ki, tarixə həkk etmişdir. Süleyman Dəmirəl: "Qəhrəmanları, böyük insanları, şəxsiyyətləri zaman meydana çıxarır. Onlar siyasi şəraitə uyğun olaraq xalqı çətin vəziyyətdən xilas edir, ona öndərlik edirlər. Böyük dövlət adamı, əziz qardaşım Heydər Əliyev Azərbaycanda daxili çəkişmələr, vətəndaş müharibəsi təhlükəsi olan bir şəraitdə siyasi səhnəyə çıxmışdır. Onun zəngin siyasi təcrübəsi ölkəni bu ağır vəziyyətdən çıxarmağa imkan verdi. Müstəqillik qazandıqdan sonra Azərbaycanın qarşısında duran əsas vəzifə bu dəfə yüksələn bayrağın enməmə-

si idi. Bu bayrağı kim daşısaydı, qəhrəman da o olacaqdı. Bu, Heydər Əliyevin tarixi missiyası idi. Fövqəladə çətinliklərə rəğmən böyük qəhrəmanlıq nümunəsi göstərən dahi şəxsiyyət, o bayrağı əbədi yüksəklərdə tutdu, Azərbaycanı dünyaya bir türk dövləti kimi tanıtdı (13).

Yeri gəlmişkən qeyd edək ki, Ulu öndər 1992-ci il soyuq fevral günlərinin birində iki qardaş arasında isti münasibətlərin möhkəmlənməsi məqsədli "Diplomatik münasibətlərin Yenidən Qurulması ilə bağlı Müqavilə"-nin imzalanmasını həyata keçirmiş, bundan sonra Strateji ortaqlıq, itisadi-ticarət əlaqələri qurulub, möhkəmlənmişdir.

1999-cu ilin noyabrında İstambulda ATƏT-in sammitində ABŞ, Türkiyə Respublikası, Müstəqil Azərbaycan Respublikası, Gürcüstan Respublikası, Türkmənistan Respublikası, Qazaxstan Respublikası birlikdə "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin yaradılmasına dəstək üçün imzalarını atdılar. Bu və həmçinin "Bakı-Tiflis- Ərzurum" təbii qaz xətti, "Böyük İpək yolu" habelə "Bakı-Tibilisi -Qars" dəmiryolu "hadisələri" Azərbaycanın Ulu öndəri Heydər Əliyevin "bir millət-iki dövlət" – birlik, həmrəylik fəlsəfəsindən qaynaqlanan siyasi proqramının ana prinsipləri kimi unudulmazdır.

Onu da qeyd edək ki, Türk Dövlətləri arasında Heydər Əliyev qədər Türkiyəni qarış-qarış ziyarət etmiş, müxtəlif sahə adamları ilə görüşmüş, konfranslarda, tədbirlərdə əsl türk mənsubiyyəti qüruru ilə atəşin nitqlər söyləmiş ikinci bir lider olmamışdır və yoxdur. Ulu öndər Heydər Əliyevin 1997-2003-cü illər arasında Türkiyənin müxtəlif universitet, təşkilat və s. qurumlarının 50-yə yaxın mükafatına layiq görülməsi də dediklərimizi təsdiq edir. Bu baxımdan da deməliyik ki, Heydər Əliyevin "iki dövlətin bir milləti" konsepsiyasına əməli dəstəyi sonsuz olmuşdur.

Burada bir məsələni də xüsusi olaraq vurğulamaq istərdik ki, Heydər Əliyev Azərbaycançılığı türkçülük və islam dəyərləri ilə monolit dövlətçilik mahiyyətində dərk edir və öz idarəçilik prinsiplərində bu əsaslara söykənirdi.

Heydər Əliyevin Atatürk Beynəlxalq Sülh Mükafatını alarkən söylədiyi nitqdən gətirdiyimiz misallar bu fikrimizi təsdiq edir. Ulu öndər demişdir: "Mustafa Kamal Atatürkün həyatı, yaradıcılığı, onun qoyduğu irs sizin üçün örnəkdir və bizim üçün, Azərbaycan üçün də böyük örnəkdir. Biz özümüzü sizdən ayırmırıq"; "Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək öz xalqını daha da yüksəklərə qaldırmışdır"; "Mustafa Kamal Atatürk təkcə Türkiyə üçün yox, bütün dünya türkləri üçün, türk dünyası üçün də çox düşünmüşdür" (13).

Tarix üçün uyğunluqlar xarakterikdir və bütöv Türk dünyasını birləşdirən hadisə və şəxsiyyətlər arasında da oxşarlıq və bağlılıqlar təsadüfi deyil. Bu baxımdan Azərbaycanın istiqlaliyyət tarixi və xalqımızın Ulu öndəri – Heydər Əlirza oğlu Əliyevlə Türk dünyasının "atası" Mustafa Kamal Atatürk arasında da beləcə liderlik taleyi uyğunluğu olmuşdur.

İlk öncə xarizmalılıq keyfiyyətlərindən çıxış etməklə çox qəribə bir bənzərliyi qeyd etmək yerinə düşər. Belə ki, bu hər iki böyük Türk Liderinin ata adlarının eyniliyi xarizma mahiyyətində maraq doğurur. Sanki, bu bir millətin iki qəhrəman oğlu tarixi türk torpaqlarının dövlət bərpası üçün dünyaya gəlməliydi. Beləcə dünyanın biri o başında, biri bu başında və biri-birindən 40 il zaman uzaqlığında Əlirza adlı iki türk ata nəhəng Türk dövləti quracaq, ən əsas da bütöv türk ailəsində "ata" kimi sevilib tarixə iz salacaq oğul övladları dünyaya gətirdilər. Bu başdakı – Əlirzanın oğlu Heydər Əliyev həm də o mübarək ildə doğuldu ki, o başdakı Əlirzanın oğlu – Mustafa Kamal Türk dünyasının əfsanəvi xilaskarı elan edilmiş, Türkiyə Respublikasının yekdilliklə ilk prezident seçilmiş, yeni respublikanın ilk hökumətini "Hakimiyyət qeydşərtsiz millətindir" və "Yurdda sülh, cahanda sülh" ideologiyası əsasları üzərində qurmuşdu. Öz zamanı üçün adi, bizim dövrdən boylandıqda Heydər Əliyevin doğulduğu tarixdən iki il əvvəl isə bu möhtəşəm hadisə yaşanmışdı – Mustafa Kamal Atatürk bir əsrlik zamanı arxada qoymuş "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur" – bəyanatını Azərbaycanın Türkiyədəki ilk diplomatı – dostu İbrahimbəy Əbilov vasitəsilə bütün dünyaya yetirmişdi və fikrimizcə bu dəlil də çox xarakte-

rikdir ki, Türkiyənin ən nüfuzlu mükafatı - "Atatürk Sülh Mükafatına" layiq görülmüş dünya şöhrətli Azərbaycan lideri Heydər Əliyev də prezident statusunda Türkiyəyə ilk səfərində "biz bir millət-iki dövlətik" kəlamını bütün dünyaya bəyan etmişdir və bu dahiyanə kəlam Türk dünyasını birləşdirən ən güzcü, yenilməz həyat fəlsəfəsidir.

Yeri gəlmişkən əgər Atatürk "Türk qadını zəhmətkeşdir, evindən və vətənindən asılı deyil. Qadınlarımız kişilər qədər mərd və mübarizdir. Müasir Türkiyəni onlarla birlikdə quracağıq və yaşatacağıq. Heç kimin türk qadınını çadra və cəfəngiyatla xurafata batırmağa haqqı yoxdur"-(5) demişdisə, Heydər Əliyev də Azərbaycan qadınını eyni yüksək meyarlarla tərif etmişdir: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir" (13)

Belə fikir, amal, əqidə birliyi türk insanlarının qan qardaşlığından qaynaqlanmış və həmişə, hər dövrdə əyani surətdə təsdiqlənmişdir. Bu baxımdan Ulu öndər Heydər Əliyevin məşhur türk alimi və həkimi, Türkiyə Bilkənd Universitetinin yaradıcısı İhsan Doğramacı ilə dostluğu da türk dünyasının iki böyük ziyalısının dövlətlərimiz arasında sağlam mənəvi körpünün əsasına bir tarixi nümunədir və türk birliyi üçün bu gün də əhəmiyyət kəsb edirdi.

Dünya şöhrətli alim İhsan Doğramacı Ulu öndərin 86 illik yubileyinə yazdığı bir məqalədə Heydər Əliyevlə dostluq münasibətlərinin tarixini belə şərh etmişdir:

"Heydər Əliyev mənimlə ilk görüşüylə bağlı müşahidələrini neçə illər sonra Bilkənd Universitetində düzənlənən bir tədbirdə aşağıdakı iltifatlı sözlərlə dilə gətirdi:

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Ankarada İhsan Doğramacının Bilkənd Universitetinə gəldim. Doğramacının Azərbaycan tarixi haqqındakı, Naxçıvan haqqındakı, Azərbaycanın başqa bölgələri haqqındakı dərin məlumatları məni heyran etdi. Sadəcə Azərbaycana deyil, bütün türkdilli xalqlara diqqət göstərmiş, xidmət etmişdir. İhsan Doğramacının böyük xüsusiyyətləri vardır; məsələn, Azərbaycanın Bakı ləhcəsini, Naxçıvan ləhcəsini, Qarabağ ləhcəsini və başqa tərəflərin ləhcələrini bilir. Bizim xalqımızın çoxu bunları bilməz. Bu ilk görüşmələrdən sonra İhsan Doğramacıyla aramızda böyük bir dostluq başladı. Sanki yüz illik bir dostluq. ... Həqiqətən, Heydər Əliyevlə bu səmimi görüşlərdən sonra Azərbaycanla daha çox maraqlandım. Onların universitetləri ilə daha sıx işbirliyi qurduq. Bilkənd Universitetinin müxtəlif bölmələrinə, xüsusilə Musiqi fakültəsinə Azəri təhsil nümayəndələri və sənətçilər təyin olundular. Əliyev mənim doğum günlərimdə məni daim xatırladı"(13).

Görkəmli alim bu məqalədə dostu Heydər Əliyevin onun 1995-ci ildə 80 illiyini və 2000-ci ildə 85 illiyini Bakıda təntənəli surətdə qeyd etməsini unudulmaz xatirə kimi xüsusi vurğulamışdır.

İhsan Doğramacının 2003-cü ildə Ulu öndər Heydər Əliyevin 80 illiyi ərəfəsində onun haqqında öz ürək sözlərini bölüşərək dediyi fikirlər türk dünyasının nəhəng Azərbaycan siyasətçisinə qiyməti kimi də çox dəyərlidir: "Heydər Əliyev əsrimizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir. O, fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük bir şəxsiyyətdir. Ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır" (8).

Beləcə bu iki əsl ziyalının möhkəm dostluğu fiziki itki həqiqətlərindən mənəvi yüksəkliyə ucalmaqla türk dünyasında dostluq simvoluna çevriləcək qədər möhkəm əsaslar yaratmışdır. 2005-ci il Azərtac məlumatlarından birində oxuyuruq:

"İhsan Doğramacı ...xalqımızın ümummilli lideri ilə böyük dostluğunu xatırlayaraq dedi ki, vaxtilə Heydər Əliyev ona yubileyinin Azərbaycanda qeyd olunmasını təklif etmişdi. Bu il də mənə 90 illiyimi müxtəlif ölkələrdə qeyd etmək təklif olunmuş, hətta Yaponiyadan xüsusi təyyarə göndərilmişdi. Lakin mən Azərbaycandayam və yubileyimi burada qeyd edəcəyəm.

Bu gün Heydər Əliyev aramızda olmasa da, onun xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır. Xalqımızın böyük xeyirxahı İhsan Doğramacı bildirdi ki, sədaqətli dostu, türk dünyasının dahi oğlu Heydər Əliyevin arzularının həyata keçirilməsində Fonda yardımçı olmaq, Mehriban xanımın təşəbbüsü ilə görülən işləri dəstəkləmək məqsədi ilə 10 il ərzində öz şəxsi vəsaitindən Fondun hesabına hər il 100 min dollar köçürülməsini qərara almışdır" (6).

Bir milləti birləşdirən ədəbiyyat və sənətin də "ana dili" bizi tarixlər boyu birləşdirmiş, bu gün də eyni dildə danışdıraraq iki dövlətin bir milləti ideyasını təlğin və təbliğ edir. Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyev bu birliyi ədəbi identiklik kontekstində belə tərif etmişdir: "Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamaş", "Koroğlu" dastanları, xalqımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız- Nizami, Yunis İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Mədimqulu, Abay və digərləri xalqımızın tarixini və milli dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir" (3) .

Habelə, Heydər Əliyevin dərin məna kəsb edən aşağıdakı fikirləri də bu dərin ideyadan - Bir Millət-İki Dövlət" – Birlik və Həmrəylik Fəlsəfəsindən qaynaqlanır və bəşəri əhəmiyyət kəsb edir: "Ərəblər və farslar Füzulini öz şairləri sayırlar Türk dilli xalqlar isə hesab edirlər ki, o türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun.Tarixə bəşəri şəxsiyyət kimi düşsün" (13).

Bu baxımdan Heydər Əliyevin təşəbbüsü ilə 1996-ci il YUNESKO Beynəlxalq Humanitar Təşkilatı tərəfindən Füzuli ili elan edildikdə əslən Azərbaycan türkü olub, İraqda doğulub 3 dildə yazıb-yaratmış dahi Söz ustadı Məhəmməd Füzulinin yubiley tədbirlərinin doğulduğu İraqla bərabər, Türkiyədə keçirilməsi, Azərbaycanda yekunlaşması da simvolik məna kəsb etməklə yanaşı yenə Türk birliyinin əyani ifadəsidir.

Heydər Əliyev müdrik siyasətçi, rasional keyfiyyətlərə sahib nəhəng Lider olaraq "biz bir millət, iki dövlətik" fəlsəfəsini bir məqsəddə - Azərbaycan- Türkiyə birliyi, həmrəyliyi ideyasında birləşdirərkən bu bünövrəni uzun onilliklərin siyasi idarəçilik təcrübəsində sınaqlardan çıxmış peşəkarlıq gücü, xarizmatik keyfiyyətlərlə ilə elə formalaşdırmış, sistemləşdirmişdir ki, bu ideya – həyat fəlsəfəsi Ulu öndərin əbədiyyətə qovuşduğu 17 il qədər heç də az olmayan bu müddətdə nəinki sarsılmamış, əksinə qüvvətlənmiş, çiçəklənmişdir. Bu gün "biz bir millət, iki dövlətik" fəlsəfəsinin yenilməz meyarları--TÜRK Birliyi, TÜRK Həmrəyliyi prinsipləri Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyevin dolğun siyasi idarəçilik səriştəsi ilə monolit körpüyə çevrilmişdir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev bu gün Türk Şurasına sədrlik edir və inamla deyə bilərik ki, onun rəhbərliyi ümum türk ailəsi dövlətlərinin inkişafını və ən əsas məsələ birliyi, həmrəyliyi təminatçısıdır. 2019-cu il 15 oktyabr tarixində Bakıda təşkil olunmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünü açan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi müasir dövrdə türk dövlətlərinin həyatın bütün sahələrində əməkdaşlığının genişlənməsinin türk identikliyinə, bütövlükdə türkçilik fəlsəfəsinə müsbət təsirinin önə çəkilməsi baxımından böyük əhəmiyyət kəsb edir, həmçinin türk milli birliyi və həmrəyliyi ideyasının gücünü ehtiva edir.

"Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul edən Azərbaycan bu müddət ərzində ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəkdir. Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir.Türk Şurasının VII Zirvə Görüşü Naxçıvan Sazişinin imzalanmasının onuncu ildönümünə təsadüf edir. 2009-cu ilin oktyabrında dövlət başçılarının Azərbaycanın qədim şəhəri Naxçıvanda keçirilmiş Zirvə Görüşündə ölkələrimiz arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradıldı. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerlə-

şir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada Türk Şurasının yaradılmasına dair qərarın məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir" (19).

Türkçülük və ya türk identikliyinin dərin qatlarından ucalan birlik, həmrəylik fəlsəfəsinin təsdiqi baxımından Qazaxıstanı Rüspublikasınn birinci Prezidenti, Türk Şurasının fəxri sədri Nursultan Abişeviç Nazarbayevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə dediyi fikirlər də burada xarakterik səslənir.

"Hörmətli dostlar, türk sivilizasiyasının dərin kökləri vardır. Əgər tarixə müraciət etsək, biz planetin ən böyük qitəsində həmişə mühüm rol oynamış xalqların xələfləriyik. Türk dünyasının müasir mərhələdə də əhəmiyyətini dərk etmək üçün dünyanın coğrafi xəritəsinə baxmaq kifayətdir. Xüsusilə qeyd etmək istərdim ki, mən ötən müddət ərzində, - 1992-ci ildən 2019-cu ilə qədər 25 ildən artıq müddətdə, - müxtəlif heyətlərlə türkdilli dövlət başçılarının 17 görüşünün hamısında iştirak etmişəm. Mən bunları əxz etmişəm: məsələn, "Türk" sözü, bu sözün hər bir hərfinin mənim üçün xüsusi mənası var. Birinci "t" hərfi - trast, yəni, inamdır, "ü" - uniti, yəni, birlik, "r"- renessans, yəni, intibah və sonuncu "k" hərfi - kinşil, yəni, qohumluq. Bu anlayışa əsaslanaraq mənim birlik daxilində işimin məqsədi ölkələrimizi yaxınlaşdırmaq olub və buna görə də mən çox şadam ki, birgə səylərlə bu məqsədə nail olmuşuq" (19).

Əlbəttə biz məqalədə 2020-ci ildə bizim - Azərbaycan Dövlətinin 30 il mənfur qonşumuz ermənilər tərəfindən işğal olunmuş vətən torpaqlarının geri alınması üçün haqq mübarizəsinə qalxdığı tarixi mərhələdə bütün dünyada əks-səda doğuran Türkiyə –Azərbaycan birliyi, həmrəyliyini, xalqlarımızın qardaşlıq nümunəsini yada salmaya bilmərik. Sözsüzdür ki, ən ağır hadisə müharibə, qırğın isə, ən bəşəri, humanist fenomen, dayaq olmaq, haraya yetişmək, xilas etmək, qorumaqdır. Bu baxımdan Türkiyə –Azərbaycan birliyi, həmrəyliyi necə 100 il əvvəl, Azərbaycanın Vətən müharibəsində də özünü təsdiq etdi.

Türkiyə və Azərbaycanın nəhəng dünya liderləri Rəcəb Taib Ərdoğan və İlham Əliyev Vətən Müharibəmizin ilk günündən Türk dünyasının əfsanəvi Lideri - Qazi Mustafa Kamal Atatürkün Azərbaycanın Türkiyədəki ilk diplomatı –dostu İbrahimbəy Əbilov vasitəsilə bütün dünyaya bəyan etdiyi,- "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur" (11), Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin "Bir Millət-İki Dövlət" müdrik vəsiyyətlərinə sadiqlik nümayiş etdirərək yenilməz Türk Birliyi-həmrəyliyini tarixə daş səlnaməsini həkk etdilər.

Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyevin Türkiyənin dövlət başçısı Rəcəb Tayyip Ərdoğana Azərbaycana dəstəyinə görə göndərdiyi məktubda- ifadəsini tapmış bu fikirlər arxada qalan qanlı-qadalı, lakin çox şərəfli günlərdə Azərbaycan xalqına həqiqi mənada güc-qüvvət qarantı olmuşdur.

"ƏZİZ QARDAŞIM! Üzvü olduğumuz Türk Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının vacibliyi ilə bağlı sentyabrın 28-də bəyanat qəbul etmişdir. Bu bəyanata görə də Sizə öz minnətdarlığımı bildirirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram" (10).

Yazılan tarix təsdiqləyir ki, dünya dövlətləri arasında xüsusi nüfuza malik, gün-gündən inkişaf edən Türkiyə Respublikasının Azərbaycanın haqlı olduğu Vətən Müharibəsində birmənalı olaraq yanında olmasının əyani misalıdır ki, düşmənə yazığı gəldiyi üçün ona maddi-mənəvi kömək olmağa maraqlı olan bəzi qüvvələr ciddi düşünüb, geri çəkildilər, Beynəlxalq hüquq normalarına əməl etməli oldular. Həmişə məzlum donunda, hiyləgər "gedişləri ilə" Rusiyanın dəstəyini qazanan ermənistan rəhbərliyinin bu dəfə o "müttəfiqlərindən" də əli üzüldü.

Bax beləcə, Türkiyə Cümhuriyyətinin böyük lideri Rəcəb Taib Ərdoğanın 80 milyonluq nəhəng Türkiyənin "Can Azərbaycan!" nidası ilə vuran ürəklərinin səsinə səs verən "biz Azər-

baycan xalqının yanındayıq!”, eyni zamanda Müstəqil Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız, cənab İlham Əliyevin hər gün Xalqına Müraciətlərində Türkiyə - Azərbaycan qarşılıqlı əməkdaşlıq münasibətlərini, ən əsas bir millət olmağımızı -qandaşlığımızı yüksək qiymətləndirməsi, məsələn, ABŞ-ın “Fox News” telekanalına müsahibəsində “Türkiyə Azərbaycana siyasi dəstək verir. O, bizim ən yaxın müttəfiqimiz və dostumuzdur. Biz qürurlu və xoşbəxtik ki, belə böyük ölkə bizim tərəfdaşımızdır. Hər bir ölkənin dostu və müttəfiqlərinin olmasına haqqı var”(9)bəyanatını verməsi Türk Birliyinin Yeni əsrdə böyük tarixi qələbəsini təsdiq edir.

Beləliklə,“Azərbaycan-Türkiyə – Birlik, Həmrəylik Fəlsəfəsi” məqaləsini yekunlaşdırarkən xüsusilə vurğulamaq istəyirik ki, Azərbaycan Türkiyə arasındakı Birlik, Həmrəylik hissləri və bütünlüklə "Bir millət - iki dövlət" – türkçülük ideyası Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyevin dolğun siyasi idarəçilik səriştəsi ilə artıq "Bir millət - altı dövlət" monolit körpüsünə çevrilmişdir.

**Nəticə**

Bütün bunlar göstərir ki, dünya xalqları arasında rəngarəng etnos identkliyi, dil, din. mədəniyyət birliyi ilə seçilən Azərbaycan-Türkiyə -- tarixi sınaqlardan keçmiş bu iki güclü dövlət birlik, həmrəylik, dostluq, inam və sevgi hissləri ilə təsdiqlənən elə bir yenilməz həyat fəlsəfəsinə malikdir ki, əslində bu milli tərəqqi konsepsiyası kimi qiymətləndirməli, eyni zamanda, “Azərbaycan-Türkiyə, "Bir millət - iki dövlət" müstəvisindən daha irəlilərə -"Bir millət - altı dövlət " deməli, daha böyük türkçülük, - Bilgə Kağanların, Şah İsmayıl Xətailərin, Həsən bəy Zərdabilərin, Qaspiralıların, Ağaoğluların, Mirzə Fətəli Axundzadələrin, Mirzə Cəlillərin,Mustafa Cəlaləddin, Süleyman və Ahmet Vefik Mehmet Emin Yurdakul və Məmməd Əmin Rəsulzadələrin, Ziya Gökalpların, Əli bəy Hüseynzadələrin Muftuoğullarına, Ağaoğullarına, Akçuraoğullarına, Kafesoğullarına, Hamdullah Sübhilere, Nihad Atsızların arzuladıqları, ömrlərini fəda etdikləri Turan idealına ucalmaq şüurunu dərklə möhkəmləndirməlidir.

**Ədəbiyyat siyahısı**

**1.** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Qadınlarının birinci Qurultayında nitqi. 16 sentyabr, 1998-ci il. http:// lib. Aliyev heritage. org/az/ 182 1833.html

**2.** Azerbaycan Türklerinin Bayrağının Şanlı Tarihi https://www.turktoyu.com/bir-kere-yukselen-bayrak-bir-daha-inmez-mehmet-emin-resulzade-azerbaycan-turk-lerinin-bayraginin-sanli-tarihi

**3.** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996. Bakıda Türk Yazıçılarının III qurultayında nitqi http://elibrary.bsu. az/yenii/ebookspdf/H.%C6%8Fliyev_8ci_kitab.pdf.

**4.** Dulayeva Zarife Tarih Bilimci http://irs az.com/new/ pdf/201312/ 1386 9449 02 39 70 6 785.pdf

**5.** Dursun Özden. Ebilov Ve Aralov Taksim’de https://www.ekonomidunya.com/yazarlar/dursun-ozden/ebilov-ve-aralov-taksim-de/327/

**6.** Dünya şöhrətli alim-həkim İhsan Doğramacı 10 il ərzindəHeydər Əliyev Fonduna hər il 100 min dollar köçürəcəkdir.AzərTAc “Xalq qəzeti”, 30 aprel 2005-ci il”. http://files.preslib.az/site/xsefir/ 2005.pdf

**7.** Heydər Əliyev Atatürk haqqında http://elibrary. bsu.az/books_ 460/N_195.pdf.

**8.** Heydər Əliyev fırtınalı həyatının hər dövründə Azərbaycanı,Türklüyünü unutmayan böyük şəxsiyyətdir https://azertag.az/- xeber/ 981730.

**9.** İlham Əliyevin ABŞ-ın “Fox News” televiziya kanalına müsahibəsi. https:// www. youtube. com/watch?v=tJV-4DyCC04

**10.** İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana məktubu. https:// azertag. az/xeber/_ Turkiye_ Respublikasinin_ Prezidenti_ Zati_ alileri_ cenab_ Receb_Tayyib_Ardogana-1603111

**11.** İbrahim Əbilov – Azərbaycanın Türkiyədə ilk fövqəladə və səlahiyyətli səfirihttp://www.anl.az/down/meqale/respublika/2013/fevral/294855.htm

**12.** Kazım Karabekir ve kafkaslar https//-www.academia.edu/9931289/K%C3%82ZIM_-KARABEK%C4%B0R_VE_KAFKASLAR

**13.** Quliyeva Xatirə. Heydər Əliyev siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı .Elm-2019. 416 səh.

**14.** Nərimanovun Atatürkə köməyi. https://kayzen.az/blog/maraqlifaktlar/211-86/n%C9%99riman-ovunatat%C3%BCrk%C9%99-k%C3%B6m%C9%99yi.html

**15.** Kazım Karabekir ve kafkaslar https//-www.academia.edu/9931289/K%C3%82ZIM_-KARABEK%C4%B0R_VE_KAFKASLAR

**16.** Quliyeva Xatirə. Heydər Əliyev siyəsəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı .Elm-2019. 416 səh.

**17.** Nərimanovun Atatürkə köməyi. https://kayzen.az/blog/maraqlifaktlar/211-86/n%C9%99riman-ovunatat%C3%BCrk%C9%99-k%C3%B6m%C9%99yi.html

**18.** Süleyman Dəmirəl: Heydər Əliyev Vətən Atəşinin İstisi ilə yaşayırdı. https:/-/azertag.az/xeber/ 363340.

**19.** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə yekun vurulub - https://report.az/siyasi-xeberler/xarici-siyaset/bakida-turkdilli-dovletlerin-emekdasliq-surasinin-7-ci-sammiti-baslayi/

**20.** Yalçın Töker "Büyük uyanış" https:/-/books.google.az/books?id=VPZ6DwA-AQBAJ&pgPT53&lpgPT53&d

**Резюме**

**Хатира Гулиева**

**Философия единства и солидарности между Азербайджаном и Турцией в контексте вызовов межкультурного диалога в XXI веке**

Статья доктора философских наук, доцента Хатира Гулиевой «Философия единства и солидарности между Азербайджаном и Турцией в контексте вызовов межкультурного диалога в XXI веке» посвящена анализу философии единства и солидарности двух стран.

В статье анализируются философия жизни двух стран и идеал «Одна нация - шесть государств» в контексте идеи единства, солидарности, дружбы, доверия и сотрудничества, которая является научным нововведением и важной в область философии.

В то же время одним из вопросов, представляющих особый интерес в статье, является то, что автор оценивает идею турецкого единства как программу национального прогресса, основанную на исторических источниках и современных политических и философских основаниях, и подчеркивает полезность применения этой модели в мире.

***Ключевые слова:*** *Азербайджан, Турция, нация, государства, философия*

**Summary**

**Khatira Guliyeva**

**The philosophy of unity and solidarity between Azerbaijan and Turkey in the context of the challenges of intercultural dialogue in the 21st century**

The article by Doctor of Philosophy, Associate Professor Khatir Guliyeva "The philosophy of unity and solidarity between Azerbaijan and Turkey in the context of the challenges of intercultural dialogue in the XXI century" is devoted to the analysis of the philosophy of unity and solidarity of the two countries.

The article analyzes the philosophy of life of the two countries and the ideal "One nation - six states" in the context of the idea of unity, solidarity, friendship, trust and cooperation, which is a scientific innovation and important in the field of philosophy.

At the same time, one of the issues of particular interest in the article is that the author evaluates the idea of Turkish unity as a program of national progress based on historical sources and modern political and philosophical foundations, and emphasizes the usefulness of applying this model in the world.

***Keywords:*** *Azerbaijan,Turkey, nation, states, philosophy*

UOT 342; 349

**ORUC MƏMMƏDOV**
*hüquq üzrə fəlsəfə doktoru, UNEC-in İqtisadiyyat və biznesin idarə edilməsi kafedrasının dosenti, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru*
*oruc_mammadov@mail.ru, Azərbaycan*

# DÖVLƏT QULLUQÇULARININ HÜQUQİ MƏSULİYYƏTİ: NƏZƏRİ-KONSEPTUAL VƏ METODOLOJİ YANAŞMA

***Açar sözləri:*** *dövlət qulluğu, dövlət qulluqçusu, hüquqi məsuliyyət*

**Problemin aktuallığı.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən müasir dövlət quruculuğu prosesi sahəsində kompleks islahatlar uğurla həyata keçirilir və davamlı xarakter daşıyır. Dövlət quruculuğu prosesinin əsas elemetlərindən biri dövlət hakimiyyəti, dövlət idarəetməsi və dövlət qulluğu sistemində etik davranış qaydalarının tətbiqinin və dövlət vəzifəli şəxslərin məsuliyyət hissinin gücləndirilməsidir.

Azərbaycan dövlətinin müasir inkişaf dinamikası, uğurla həyata keçirilən məqsədyönlü islahatlar yeni növ ictimai münasibətlərin yaranması və cəmiyyətin mütərəqqi üsullarla tərəqqisi ilə nəticələnir. Yeni yaranmış ictimai münasibətlərin hüquqla tənzimlənməsi bəzən labüd olur. Buna görə də, məcburi davranış qaydaları tələb edən ictimai münasibətlər dövlət tərəfindən hüquq normaları vasitəsilə tənzimlənir. Bu nöqteyi-nəzərdən, cəmiyyətlə dövlət arasındakı münasibətlərin hüquqi tənzimlənməsində müxtəlif aspektli dövlət qulluğu hüquq münasibətləri mühüm yer tutur. Dövlət qulluğu hüquq institutu olaraq sahəvi xarakterə və mürəkkəb tərkib elementlərə malikdir. Dövlət qulluğu dövlət qulluqçularının peşəkar əmək fəaliyyətinin nəticəsində həyata keçirilir. Dövlət qulluğu dövlət qulluqçuları tərəfindən vəzifə öhdəliklərinin məsuliyyətlə həyata keçirilməsi və etik davranış qaydalarına riayət edilməsi ilə şərtlənir. Dövlət qulluqçuları tərəfindən vəzifə öhdəliklərinin yüksək səviyyədə həyata keçirilməsi onların fəaliyyətinin mükafatlandırılmasına səbəb olur. Dövlət qulluqçuları tərəfindən vəzifə öhdəliklərinin bu və ya digər məzmunda icra edilməməsi və yaxud qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onların hüquqi məsuliyyətə cəlb edilməsi ilə nəticələnə bilər. Dövlət qulluqçularına münasibətdə hüquqi məsuliyyətin müxətlif növləri xüsusi normalar əsasında tətbiq edilir. Nəzərə almaq lazımdır ki, dövlət qulluqçularının mükafatlandırılması mütləq xarakter daşımır. Lakin, dövlət qulluqçuları tərəfindən vəzifə öhdəlikləri bu və ya digər məzmunda icra edilmədikdə və yaxud qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmadıqda onların hüquqi məsuliyyətin müvafiq növünə cəlb edilməsi məcburi xarakter daşıyır. Bu halda dövlət qulluqçuları hüquqi məsuliyyətə cəlb edilə bilər. Qeyd edilənlərin kontekstində belə qənaətə gəlmək olar ki, dövlət qulluqçularının hüquqi məsuliyyətinin xarakterik xüsusiyyətlərinin təhlili müasir dövlət qulluğu hüquq elminin təhlili zəruri olan aktual məsələlərindən biridir.

Yuxarıda qeyd edilənlərin fonunda demək olar ki, dövlət qulluqçularının, daha geniş mənada dövlət vəzifəli şəxslərin hüquqi məsuliyyətinə dair nəzəri-konseptual və metodoloji yanaşmalara aid məsələ müasir dövrdə aktuallığı ilə seçilir. Bu nöqteyi-nəzərdən demək olar ki, dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair məsələ nəzəri-konseptual və təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu aspekt seçilmiş mövzunun aktuallığını özündə ehtiva edir.

Azərbaycanın hüquq elmində dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair məsələyə bu və ya digər aspektlərdə toxunulmasına baxmayaraq, əsaslı təhlillər aparılmamış və onun müasir konsepsiyası formalaşdırılmamışdır. Bu fakt Azərbaycan hüquq elmi üçün seçilmiş mövzunun aktuallığını, onun təhlilinin zə-

ruriliyini, **elmi yeniliyini** və **təcrübi əhəmiyyətini** özündə ehtiva edir.

Tədqiqatın **məqsədi** dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair nəzəri-konseptual və normativ müddəaların təhlilindən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat zamanı qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur: dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair: elmi-nəzəri baxışları ümumiləşdirmək; qanunvericilik bazasını müəyyən etmək; dövlət qulluqçularının hüquqi məsuliyyətinin növlərinin tərkib elementlərini fərqləndirmək; onun müasir elmi-nəzəri modelinin formalaşmasına və müvafiq qanunvericiliyin təkmilləşdirilməsinə aid mülahizələr ifadə etmək.

**Əsas materialın şərhi.** Ümummilli lider Heydər Əliyev xalq, cəmiyyət və dövlət qarşısında məsuliyyətin ağırlıq dərəcəsini öz timsalında konseptual şəkildə ifadə etmişdir. Ümummilli lider Heydər Əliyev 1993-cü il 15 iyun tarixində Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş və Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış edərkən demişdir: "Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib, bu ağır yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm" [11, s.9].

Ümummilli lider Heydər Əliyev 1993-cü il 10 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimindəki nitqində demişdir: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm. Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm" [11, s.201]. Ümummilli lider Heydər Əliyev böyük dövlət xadimi, çoxşaxəli dövlət idarəçiliyi təcrübəsinə malik bir şəxsiyyət olaraq öz timsalında dövlət hakimiyyətinin ən yüksək səviyyəsində vəzifə ilə məsuliyyətin qarşılıqlı əlaqəsini, vəzifə öhdəliklərinin icrasından irəli gələn məsuliyyətin ağırlıq dərəcəsini konseptual formada xarakterizə etmiş və elmi təhlillər üçün baza yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının dövlət qulluğu sistemində hüquqi məsuliyyətə dair fikirləri böyük elmi maraq və təcrübi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışı zamanı demişdir: "Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü və müraciət edərək, onu Bakıya dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün çox hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi" [13, s.282]. Prezident İlham Əliyev cənablarının təcrübəyə əsaslanan elmi xarakterli bu fikirləri bir tərəfdən cəmiyyət və dövlət qarşısında məsuliyyət hissinin Heydər Əliyev nümunəsini özündə ehtiva edir, digər tərəfdən isə, məsuliyyət hissinin cəmiyyət və dövlət qarşısında böyük bir öhdəlik olduğunu göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları dövlət qulluqçularının hüquqi məsuliyyətinin spesifik xüsusiyyətlərini aşağıdakı kimi xarakterizə etmişdir: "Müstəqil Azərbaycan Respublikasında dövlət qulluğunda çalışmaq hər bir insan üçün son dərəcə şərəfli işdir. Bu o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir. Mən imzaladığım fərman və sərəncamlarda, çoxsaylı müxtəlif tədbir və görüşlərdə həmişə

vəzifəli şəxslərdən, səlahiyyət sahiblərindən tələb etmişəm ki, insanların ehtiyac və qayğılarına diqqətlə yanaşsınlar, problemlərini həll etsinlər, təşəbbüskarlıq nümayiş etdirsinlər. Bütün dövlət qulluqçularına mənim münasibətim də, ilk növbədə, onların bu meyarlara və vəzifə öhdəliklərinə nə dərəcədə cavab vermələri ilə müəyyən olunur" [12, s.77-78]. Prezident İlham Əliyev cənabları tərəfindən dövlət qulluqçularının üzərinə düşən vəzifələrlə onların məsuliyyətinin qarşılıqlı əlaqəsi, vəzifə öhdəliklərinin məsuliyyət dərəcəsi və gələcək inkişaf meyarları müəyyən edilmişdir.

Hüquqi məsuliyyətə dair çoxsaylı klassik və müasir elmi-nəzəri konsepsiyalar ifadə olunmuş, hüquqi normalar qəbul və tətbiq edilmişdir [30; 34; 37; 41; 42; 59]. Bununla yanaşı məsuliyyət haqqında ümumi konsepsiyalara, hüquqi normalara və təcrübəyə əsaslanaraq dövlət qulluqçularının hüquqi məsuliyyətinin xarakterik xüsusiyyətlərinə dair bir sıra elmi təhlillər aparılmışdır [33; 35; 36; 39; 44; 45; 48; 49; 50; 55; 56; 58]. Fikrimizcə, nəzəri baxışlar kontekstində, qanunvericiliyin formalaşmış məzmunu fonunda və təcrübi problemlərin həlli istiqamətində dövlət qulluqçularının hüquqi məsuliyyətinin xarakterik xüsusiyyətlərinə dair müasir konsepsiyanı ifadə etmək olar. Dövlət qulluğu kompleks hüquq institutu olduğuna görə məsuliyyətin müxtəlif növlərini özündə birləşdirir.

AMEA-nın müxbir üzvü, prof. M.F.Məlikovanın fikrincə, "Hüquqi məsuliyyət sosial məsuliyyətin dövlətlə, hüquqla bağlı olan növüdür. Sosial məsuliyyətin əhəmiyyəti cəmiyyət, dövlət qarşısında borc hissi, qanunlara hörmət ruhunda insanı tərbiyə etmək vəzifəsinin hüdudlarından çox kənara çıxır. Sosial məsuliyyətin əhəmiyyəti həm də onun cəmiyyətdə qanunçuluğun, hüquq qaydasının, hüquqi təfəkkürün, ədalətliliyin, şəxsiyyətin hüquq və azadlıqlarının təminatlılığının hökmranlığı mühitini yaratmağa qabil olan mühüm amillərdən biri olmasından ibarətdir" [23, s.384]. Hüquq nəzəriyyəsində qeyd olunur ki: "hüquq sosial ədalətin, sosial aktivliyin təcəssümü və daşıyıcısı kimi vahid sosial məsuliyyətlə özünü daha tam göstərir və bununla birgə, o, ictimai münasibətlərdə insanların həyatında qanunsuzluğun, özbaşınalığın, ayrı-ayrı fərdlər və qrupların nəzarətdən kənarda qalmasının aradan qaldırılmasına istiqamətlənmişdir" [29, s.131]. "Hüquqi məsuliyyət - çoxşaxəli kateqoriya olaraq aşağıdakı kimi mövcud olur: a) qadağalar yolu ilə hüquqi tənzimləmə üsulu; b) qanunçuluğu möhkəmləndirmə vasitəsi; c) qanuna tabe olan vətəndaşların tərbiyə olunma vasitəsi, hüquqi düşüncə səviyyəsinin və hüquq mədəniyyətinin artırılması metodu; ç) hüquqi dövlətin fəaliyyət prinsipi" [53, s.505-506]. "Hüquqi məsuliyyət müəyyən etməklə dövlət aşağıdakı məqsədlərə nail olmağa çalışır: birincisi, şəxsiyyətin qanuni maraqlarını və ictimai qaydanı hüquqazidd qəsdlərdən qorumağa; ikincisi, törədilmiş hüquq pozuntusuna görə şəxsi cəzalandırmağa; üçüncüsü, hüquq pozuntusu törətmiş şəxsin hüquqazidd hərəkətləri ilə pozulmuş hüquqların bərpasına" [31, s.321-322].

Ümumi hüquq nəzəriyyəsində göstərilir: "hüquqi məsuliyyət hüquq sisteminin tərkib hissəsi olaraq onda mühüm funksiyaları yerinə yetirir. O, hüquqa zidd davranışı lokallaşdıran, onu təcrid edən və hüquqi sferada insanların ictimai faydalı hərəkətlərini stimullaşdıran hüquqi vasitədir. Geniş (fəlsəfi) mənada məsuliyyət anlayışı şəxsiyyətin onun müəyyən tələbləri yerinə yetirməsi nöqteyi-nəzərindən cəmiyyətə, dövlətə və digər şəxslərə münasibəti, vətəndaşın cəmiyyət, dövlət və digər şəxslər qarşısında öz vəzifələrini (borcunu) dərk etməsi və düzgün anlaması kimi təfsir olunur. Dar, yaxud xüsusi-hüquqi mənada hüquqi məsuliyyət hüquqpozmanın törədilməsinə dövlətin reaksiyası kimi interpretasiya olunur. Sözügedən mənada hüquqi məsuliyyət - şəxsin hüquqpozmanı törətməyə görə qanunda nəzərdə tutulan dövlət-amiranə xarakterli müəyyən məhdudiyyətlərinə dözümlü olmaq vəzifəsidir" [29, s.278-279]. "Hüquqi məsuliyyət, nəyin edilməli və nəyin edilməməli olduğunu müəyyənləşdirən xüsusi qanunlara və dövlət qaydalarına riayət etmək deməkdir: a) təşkilat; b) təşkilatın ayrı bir elementi kimi qrup; c) idarəetmə obyekti kimi bir şəxs" [37, s.27]. Dövlət idarəçiliyi nəzəriyyəsində qeyd olunur ki, "məsuliyyət və səlahiyyətin birliyi hakimiyyət və idarəçiliyin hər hansı iyerarxik strukturunda subyektə qoyulan əsas tələbdir. Əgər hər hansı təşkilatın üzvləri onlar üçün müəyyənləşdirilmiş funksiyaları yerinə yetirmirlərsə, bu tələb pozulur" [6, s.147].

Prof. A.M.Qasımov haqlı olaraq hüquqi məsuliyyəti hüquq münasibəti kimi nəzərdən

keçirərək ona aşağıdakı məzmunda tərif vermişdir: "Hüquqi məsuliyyət hüquq tətbiqedici subyektlə hüquq pozucusu arasında bu subyektin hüquq normaları ilə nəzərdə tutulmuş sanksiyaları tətbiq etmək hüququ və hüquq pozucusunun hüquq pozuntusu törətməsi ilə əlaqədar əlverişsiz nəticələrə məruz qalmaq vəzifəsi ilə xarakterizə olunan hüquq münasibətidir" [20, s.631]. Prof. A.M.Qasımovun mülahizələrindən aydın görünür ki, hüquqi məsuliyyət özünəməxsus hüquq münasibətlərinin, müəyyən öhdəliklərin, vəzifələrin yaranmasına səbəb olur.

Prof. Z.A.Əsgərov yazır: "hüquqdan kənar hüquqi məsuliyyət mövcud deyil. Hüquqi məsuliyyət insan davranışlarına görə yaranır və həmişə də hüquq pozuntusunu törətmiş şəxs üçün arzuolunmaz nəticələr doğurur. Hüquqi məsuliyyət anlayışı daim inkişafdadır və hər bir hüquq sahəsi öz münasibətlərinin xüsusiyyətlərindən irəli gələn hüquq məsuliyyəti mexanizmi işləyib hazırlayıb. Məsuliyyət mütləq baş vermiş hüquq pozuntusunun xarakterinə uyğun gəlməli, qorunan münasibətlərin xüsusiyyətləri nəzərə alınmalıdır" [15, s.284]. "Avropa hüququ" adlı dərsliyin müəllifləri hesab edirlər ki, "Avropa hüquq məsuliyyəti institutu dedikdə, subyektlər tərəfindən Avropa hüququnun pozulması ilə bağlı olaraq yaranan məsuliyyət münasibətlərini nizamlayan və qaydaya salan hüquq normalarının məcmusu başa düşülür" [5, s.239].

Prof. Ə.H.Rzayevin fikrincə, "hüquqşünas alimlərin bir qrupu hüquqi məsuliyyəti yalnız sosial məsuliyyətin retrospektiv (neqativ) aspektində, yəni keçmiş hərəkətlərinə, hüquq pozuntularına görə məsuliyyətdə görürlər. Onlar hüquq məsuliyyətinə qanuna zidd hərəkətlərə cavab verməyə borcluluq (və ya cavab vermək); müəyyən məhrumiyyətə məruz qalmaq, sanksiya tətbiq etmək, dövlətin məcburi tədbirləri kimi baxırlar" [27, s.16-23]. V.M.Manoxin təklif edir ki, "qanunun məsuliyyət bölməsində əvvəl pozitiv məsuliyyət, sonra isə intizam xətasına görə məsuliyyət təsbit olunsun [47, s.96]. Q.V.Atamançukun fikrincə, "məsuliyyət müsbət hərəkətlərin təsirinin mükafatlandırılması ilə müşaiyət olunan pozitiv, aktiv, perspektiv, prospektiv qiymətləndirilməsi və ya bu hərəkətlərdə nöqsanlara, xətalara yol verən günahkarların neqativ qiymətləndirilməsi, yəni yol verilmiş və məlum əmələ görə sanksiyalarının tətbiq edilməsi ilə müşaiyət olunur" [32, s.415, 417]. İ.V.Maksimovun fikrincə, "məsuliyyət subyektin xüsusi statusa malik olması əsasında baş verir. Status məsuliyyəti subyektin öz vəzifə borclarını və hüquqlarını lazımi qaydada yerinə yetirməsini ifadə edir" [46, s.31-34]. B.Z.Kuşxova hesab edir ki, "pozitiv hüquqi məsuliyyət olduqca mürəkkəb bir fenomendir, o nəinki mövcud olmaq hüququna malikdir, həmçinin, uzunmüddətli perspektivdə dövlət hakimiyyəti ilə əlaqəli bir prioritet olacaqdır [43, s.17].

Prof. A.M.Qasımov yazır: "hüquqi məsuliyyətin məzmununun müəyyən edilməsinə fərqli yanaşmalara baxmayaraq, müəlliflər onun yalnız hüquq normasının pozulması halında yaranması ilə razılaşır. Bu, hüquq normasında təsbitini tapmış qadağana riayət olunmaması, öz vəzifələrinin yerinə yetirilməməsi və yaxud lazımınca yerinə yetirilməməsi, yəni hüquq pozuntusunun törədilməsi ola bilər. Buradan belə bir nəticə çıxır ki, hüquqi məsuliyyəti qanunla onun üzərinə düşən vəzifələri yerinə yetirməmiş, yaxud lazımınca yerinə yetirməmiş şəxs üçün yaranan mənfi xarakterli hüquqi nəticələr vasitəsilə nəzərdən keçirmək olar" [21, s.21]. N.A.Paşayevanın fikrincə, "intizam xətası əmək vəzifələrinin təqsirli surətdə icra olunmamasıdır" [26, s.181]. N.Y.Əsgərovun fikrincə, "intizam xətası - işçinin özünün əmək qanunvericiliyində və əmək müqaviləsində nəzərdə tutulmuş əmək vəzifələrinin təqsirli surətdə icra etməməsində ifadə olunan hüquq pozuntusudur" [16, s.166]. Mənbədə intizam məsuliyyətinin iki növü verilmişdir: "ümumi intizam məsuliyyəti; xüsusi intizam məsuliyyəti" [22, s.158].

Hüquqi məsuliyyətin xarakterik xüsusiyyətlərinə dair ifadə edilən həm ümumi, həm də xüsusi elmi baxışlar müasir tədqiqatlar üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan dövlət qulluqçularının hüquqi məsuliyyəti xüsusi növ müxtəlifliyi ilə fərqlənir, ümumi prinsiplər kontekstində xüsusi yanaşmalarla diqqəti cəlb edir.

Dövlət hakimiyyəti və dövlət idarəetmə səlahiyyətlərinə malik olan hər bir şəxsin - dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının üzərinə düşən vəzifə öhdəlikləri onların xalq və dövlət qarşısındakı məsuliyyəti ilə birbaşa şərtlənir. Dövlət qulluğunu özünə peşə fəaliyyəti kimi seçmək istəyən hər bir vətəndaş, ilk növbədə, onun məsuliyyətinin ağırlıq dərəcəsini nəzərə al-

malıdır. Bu amil dövlət qulluqçularının hüquqi məsuliyyətinin sosial mahiyyətini özündə ehtiva edir. Vətəndaş dövlət vəzifəsinə seçilməklə və ya təyin olunmaqla öz üzərinə böyük məsuliyyət götürmüş olur. Dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair dəyərli siyasi baxışlar, ümumi və xüsusi elmi-nəzəri konsepsiyalar, beynəlxalq və milli hüquqi normalar mövcuddur.

Dövlət qulluqçuları, daha geniş anlamda dövlət vəzifəli şəxslər dövlət hakimiyyəti və dövlət idarəetmə səlahiyyətlərinə malikdirlər. Bu səlahiyyətlərin qarşılığı isə hüquqi məsuliyyətin müxtəlif növlərini özündə ehtiva edir. Dövlət tərəfindən dövlət qulluqçularına digər vətəndaşlara nisbətən üstün səlahiyyətlər və fərqli imtiyazlar verilir. Bunun qarşılığında isə, dövlət qulluqçularının üzərinə dövləti vəzifələr, həmin vəzifələrə müvafiq olaraq müəyyən öhdəliklər qoyulur, bir sıra məhdudiyyətlər və qadağalar tətbiq edilir. Dövlətin məqsədlərinin və funksiyalarının dövlət qulluqçuları tərəfindən həyata keçirilməsi onların hüquqi məsuliyyətinin tərkib elementlərinin mürəkkəb olduğunu bilavasitə özündə ehtiva edir. Buna görə də, dövlət qulluqçularının hüquqi məsuliyyətinin tərkib elementləri mürəkkəb xarakteri, növ müxtəlifliyi və məsuliyyətin ağırlıq dərəcəsi ilə fərqlənir.

Dövlət qulluqçularının hüquqi məsuliyyətinin xarakterik xüsusiyyətləri onların cəmiyyət və dövlət qarşısındakı öhdəliklərini, ictimai nüfuzunu, peşəkarlıq səviyyəsini, dövlət qulluğu fəaliyyətində səmərəliliyi əhatə edir. Bu amillər dövlət qulluqçularının məsuliyyətinin sosial mahiyyətindən irəli gəlir. Sosial məsuliyyət daha geniş anlayış olaraq hüquqi məsuliyyəti də özündə birləşdirir. Bu isə o deməkdir ki, dövlət qulluqçularının hüquqi məsuliyyəti sosial məsuliyyətin xüsusi növlərindən biridir. Dövlət qulluqçularının hüquqi məsuliyyəti bir tərəfdən onların dövlət qulluğu fəaliyyətində peşəkarlığını, digər tərəfdən isə qeyri-peşəkarlığını özündə ehtiva edir.

Azərbaycan hüquq ədəbiyyatında dövlət qulluqçularının hüquqi məsuliyyətinin mahiyyətinə dair məsələyə bu və ya digər məzmunda toxunulmuşdur [14; 18, s.175-186; 19; 27, s.16-23; 28, s.354-379;]. Prof. Ə.H.Rzayev yazır: "məsuliyyətin obyektiv tərəfi siyasi, iqtisadi və hüquqi islahatların aparılması, dövlətçiliyin, dövlət intizamının möhkəmləndirilməsi, dövlət qulluqçuları ilə dövlət orqanları arasında əlaqələrin səmərəli həyata keçirilməsi ilə bilavasitə əlaqəlidir" [28, s.354]. Təqdirə layiq hal kimi qeyd etmək lazımdır ki, müəllifin dəyərli elmi mülahizələri göstərir ki, dövlət qulluqçularının hüquqi məsuliyyəti mürəkkəb strukturu və tərkib elementlərinə malikdir.

Müasir demokratik vətəndaş cəmiyyətinin bərqərar edilməsi özlüyündə dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarının vəzifəli şəxslərinin, dövlət qulluqçularının ictimai həyatda hüquqi məsuliyyətinin artırılmasını zəruri etmişdir. M.İ.Tsurkan təklif edir ki, "ictimai qulluqçuların məsuliyyətinin gücləndirilməsi tədbirləri arasında ictimai qulluqçuların davranış qaydalarının pozulmasına görə intizam məsuliyyətinin müəyyənləşdirilməsi və ictimai qulluqçuların intizam məsuliyyətinə cəlb edilməsi prosedurunun hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi qeyd edilməlidir" [54, s.43]. N.C.Hüseynov dövlət qulluğunun xüsusi növü olan hərbi qulluqçuların hüquqi məsuliyyətini təhlil edərək yazır: "Hərbi qulluqçuların hüquqi məsuliyyətinin növləri aşağıdakılardır: intizam, inzibati, mülki-hüquqi, maddi və cinayət. Onlar arasında olan çoxşaxəli fərqli cəhətlərin bəzilərini qeyd etmək məqsədəuyğundur. Məsələn, cinayət məsuliyyəti daha yüksək ictimai təhlükəyə malik olan hüquqpozmanın, yəni cinayət qanunu ilə qadağan olunmuş əməlin törədilməsinə görə yaranır. Odur ki, cinayət cəzaları daha ciddi, daha sərt xarakterli olur (məsələn, ömürlük azadlıqdan məhrum etmə; uzun müddətə azadlıqdan məhrum etmə; yüksək məbləğli cərimələr və s.). Hüquqi məsuliyyətin digər növləri hüququn əsas sahələrinə uyğun gəlir. İntizam məsuliyyəti və maddi məsuliyyət hərbi qulluqçular tərəfindən hərbi xidmət vəzifələrinin icrası ilə bağlı yaranan ictimai münasibətlər sahəsində tətbiq olunur. Bu zaman intizam məsuliyyəti hərbi qulluqçular tərəfindən hərbi xidmət vəzifələrinin pozulduğu, maddi məsuliyyət isə hərbi hissənin (digər hərbi qurumun) əmlakına zərər vurulduğu halda tətbiq olunur. İnzibati məsuliyyət inzibati hüquqi aktlarla tənzimlənən ictimai münasibətlərin müdafiəsi üçün nəzərdə tutulur və inzibati hüquqpozmaların törədilməsinə görə tətbiq olunur. Mülki-hüquqi məsuliyyət əmlak xarakterli hüquq münasibətləri sahəsində tətbiq olunur və müqavilə öhdəliklərinin pozulması, yaxud bu öhdəliklərə aid

olmayan maddi zərərin vurulması zamanı yaranır" [19, s.17]. Müəllif haqlı olaraq hərbi qulluqçulara münasibətdə hüquqi məsuliyyətin xarakterik xüsusiyyətlərinə həm ümumi, həm də xüsusi kontekstdə yanaşmışdır. Hərbi qulluq dövlət qulluğu sisteminə daxildir və dövlət qulluğunun növlərindən biri kimi özünəməxsus hüquqi tənzimlənmə mexanizminə malikdir.

Dövlət vəzifəli şəxslərin hüquqi məsuliyyətinə dair məsələ dövlət hakimiyyəti münasibətləri mövcud olduğu zamandan etibarən aktuallığı ilə diqqəti cəlb etmişdir. Belə ki, M.M.Speransky yazır: "1802-ci ildə nazirliklərin yaradılması dövlət idarəçiliyi üçün çox vacibdir, lakin onların fəaliyyəti bir sıra çatışmazlıqlarla qeyd olunur: məsuliyyət məsələlərinin həll edilməməsi, bəzi qeyri-dəqiq və qeyri-mütənasib davranış, dəqiq qaydaların və qurumların tam olmaması, nazirliyin hansı fəaliyyət göstərməli olduğu, xidmət edənlərin mənəviyyatının aşağı olması" [52, s.20]. Müəllif haqlı olaraq məsələyə kompleks yanaşır və dövlət vəzifəli şəxslər sırasında məhz nazirlik səviyyəsində məsuliyyətin əhəmiyyətini xüsusi vurğulayır. L.A.Çikanova hesab edir ki, "dövlət qulluğunda xidməti münasibətə uyğun olaraq – mülki qulluqçuya təyin olunduğu vəzifəni tutmaq imkanı vermək, pul təminatı təyin etmək, vəzifə borclarını yerinə yetirən dövrdə məcburi davranış qaydaları müəyyən etmək, qulluq vaxtı rejimi müəyyən etmək xidməti hüquqi münasibətdən irəli gələn öhdəliklər üzrə məsuliyyət daşımaq qabiliyyətidir" [57, s.111-112]. M.B.Dobrobaba dövlət qulluqçularının hüquqi məsuliyyətinə xüsusi yanaşma göstərmişdir. Müəllif, dövlət qulluqçularının hüquqi məsuliyyətinin növlərindən birini geniş təhlil etmişdir. O, yazır ki, "qulluq-delikt hüquq institutunun hüquqi əsasını qulluq hüquq münasibətləri çərçivəsində intizam məcburiyyətinin əsas forması kimi dövlət və bələdiyyə qulluqçularının intizam məsuliyyəti təşkil edir" [38, s.690]. M.B.Dobrobabanın fikrincə, "dövlət qulluqçularının maddi məsuliyyəti intizam məsuliyyəti ilə ayrılmaz şəkildə bağlı olan və dövlət qulluğu hüquq münasibətləri çərçivəsində tətbiq olunan hüquqi məsuliyyətin növüdür, bu vurulmuş ziyana görə hüquqi sanksiyaların tətbiq edilməsi imkanlarından ibarətdir" [40, s.43]. Müəllif haqlı olaraq maddi və intizam məsuliyyətinin qarşılqlı əlaqəsini dövlət qulluğu hüquq münasibətlərində ifadə edilən hüquqi məsuliyyətin növü kimi xarakterizə edir. Nəzərə almaq lazımdır ki, müəllifin bu mövqeyi dövlət qulluğunun əmək hüquqi xarakterini özündə ehtiva edən əsas amillərdən biridir. Ədəbiyyatda qeyd edilir ki, "peşəkar məsuliyyət konkret hərəkətləri yerinə yetirmək üçün daimi psixoloji hazırlıq tələb edir. İdarəetmə vəzifələri də daxil olmaqla bəzi vəzifələrdə məsuliyyət bütün iş vaxtı müddətində zehni gərginliyin əsas mənbəyidir" [37, s.26]. Bu yanaşma göstərir ki, dövlət qulluğu sistemində peşəkarlığın əsasını məsuliyyət təşkil edir. Fikrimizcə, dövlət qulluğu sistemində peşəkarlıqla məsuliyyət qarşılıqlı vəhdətdə təzahür edir. Buna görə də, peşəkarlıq dövlət qulluqçularının hüquqi məsuliyyətinin əsas xarakterik xüsusiyyətlərindən biridir. Bu yanaşma isə dövlət qulluqçularının hüquqi məsuliyyətinin pozitiv və neqativ aspektlərini özündə ehtiva edir.

Hüquqi məsuliyyətin pozitiv aspekti dövlət qulluqçularının davranışını tənzimləyən vicdan, əxlaq, şərəf və ya etik kodekslərdə və etik davranış qaydalarında təsbit edilmişdir. Dövlət qulluqçularının hüquqi məsuliyyətinin pozitiv aspektlərinə dair normalar bir sıra dövlətlərin normativ hüquqi aktlarında öz əksini tapmışdır. Belə ki, ABŞ-da "Qulluqçunun əxlaq kodeksi", İngiltərədə "Nazirin etik kodeksi", Qazaxıstanda "Dövlət qulluqçusunun vicdan kodeksi" [51, s.230], Azərbaycanda isə "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları" [4], "Hakimlərin etik davranış kodeksi" [17], "Azərbaycan Respublikası hakimlərinin əxlaq kodeksi"; "Dövlət qulluqçularının etik davranış qaydaları" [8]; "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış kodeksi"; "Ədliyyə orqanları işçilərinin etik davranış qaydaları"; "Daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksi"; "Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin şərəf kodeksi"; "Vergi işçisinin etik davranış kodeksi"; "Azərbaycan Respublikası miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları"; "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və tabeliyində olan ASAN xidmət mərkəzlərində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları" və s. qəbul edilmişdir [10].

Qeyd edildiyi kimi hüquqi məsuliyyət sosial məsuliyyətin xüsusi növüdür. Sosial məsuliyyət kompleks xarakter daşıyır və hüquqi məsuliyyətin müxtəlif növlərini özündə ehtiva edir. Azərbaycan dövlətinin və cəmiyyətinin inkişafının müasir mərhələsində hər bir vətəndaşın, o cümlədən, dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının üzərinə düşən vəzifələrdən biri də sosial məsuliyyət hissinin dərindən dərk edilməsidir. Elmi mülahizələr belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluqçuları tərəfindən vəzifə ödəliklərinin pozulması hüquqi məsuliyyətin yaranması ilə nəticələnir, hüquq pozuntusuna adekvat olan hüquqi məsuliyyətin növünü müəyyənləşdirir və müvafiq sanksiyanın tətbiqini zəruri edir. Bu baxımdan dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının qanunvericiliklə müəyyən edilmiş vəzifə öhdəlikləri onların hüquqi məsuliyyətinin ağırlıq dərəcəsini və növ müxtəlifliyini özündə ehtiva edir. Nəticə etibarı ilə, dövlət qulluqçuları tərəfindən törədilmiş hüquq pozuntusu hüquqi məsuliyyət üzrə hüquq münasibətlərinin yaranmasına səbəb olur.

Dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi onların hüquqi məsuliyyətinin yaranmasına səbəb olur. Fikrimizcə, dövlət qulluqçularının hüquqi məsuliyyətinin növlərinə aşağıdakılar daxildir: 1) dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyəti; 2) dövlət qulluqçularının inzibati məsuliyyəti; 3) dövlət qulluqçularının intizam məsuliyyəti; 4) dövlət qulluqçularının maddi məsuliyyəti; 5) dövlət qulluqçularının mülki-hüquqi məsuliyyəti; 6) dövlət qulluqçularının cinayət məsuliyyəti; 7) dövlət qulluqçularının peşəkar məsuliyyəti.

Ümumi və xüsusi hüquqi aktlarla müəyyən edilmiş vəzifə öhdəliklərinin dövlət qulluqçuları tərəfindən icra edilməməsi onların müvfiq hüquqi məsuliyyətini özündə ehtiva edir. İlk növbədə, Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş normalar dövlət qulluqçularının hüquqi məsuliyyətinin konstitusion əsaslarını müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasının "Məsuliyyət" adlanan 80-ci maddəsi ilə müəyyən edilir ki, "Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur" [1]. Konstitusiya ilə məsuliyyətə dair müəyyən edilmiş müddəalar ümumi prinsipləri özündə ehtiva edir. Bununla yanaşı Konstitusiyanın normativ müddəalarına əsaslanaraq demək olar ki, dövlət qulluqçuları tərəfindən Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilmiş məsuliyyətin yaranmasına səbəb olur".

Konstitusiyanın 68-ci maddəsində ("Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ") təsbit edilir ki, "... Hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır" [1]. Göründüyü kimi Konstitusiya ilə birbaşa dövlətin, dövlət qulluqçuları ilə birlikdə mülki məsuliyyətinin konstitusion əsasları və bu məsuliyyəti daşıyan subyektlərin dairəsi müəyyən edilmişdir.

Dövlət, dövlət qulluqçuları ilə birlikdə dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində:

- insan hüquq və azadlıqlarına dəymiş ziyana görə mülki məsuliyyət daşıyır;
- insan hüquq və azadlıqlarının təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.

Fikrimizcə, dövlət qulluğu sistemində konstitusion-hüquqi məsuliyyətin əsas təyinatı dövlət qulluqçusuna preventiv təsirdən ibarətdir. Konstitusion-hüquqi məsuliyyət dövlətin məqsədlərini və funksiyalarını həyata keçirən dövlət qulluqçularının konstitusion səlahiyyətlərini mükəmməl və məsuliyyətlə yerinə yetirməyə məcbur edir [25, s.27].

Dövlət qulluğunun həyata keçirilməsi sistemində dövlət qulluqçularının hüquqi məsuliyyəti mühüm əhəmiyyət kəsb edir və dövlət qulluğunun daha məsuliyyətli bir peşəkar sahə olduğunu göstərir. Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununda dövlət qulluğuna aşağıdakı məzmunda anlayış verilmişdir: "Dövlət qulluğu Azərbaycan Respubli-

kasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir (maddə 2.1) [7]. Dövlət qulluqçularının vəzifə səlahiyyətləri bilavasitə onların məsuliyyətini özündə ehtiva edir. Bu nöqteyi-nəzərdən qanunla dövlət qulluğuna verilmiş leqal anlayışa əsaslanaraq demək olar ki, dövlət qulluğu sistemində hüquqi məsuliyyət Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi, hüquqi aktlarla müəyyən edilmiş vəzifələrdən irəli gələn öhdəliklərin icrası və qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlərə əməl olunması ilə bilavasitə şərtlənir.

Dövlət qulluğu haqqında qanunvericiliklə, o cümlədən Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu [7] ilə müəyyən edilmiş vəzifə öhdəliklərinin, dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi onların hüquqi məsuliyyətini özündə ehtiva edir. Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluğunun əsas vəzifələri" adlanan 3-cü maddəsi ilə dövlət qulluğu sistemində hüquqi məsuliyyətin yaranmasını şərtləndirən əsas və prinsipial istiqamətlər müəyyən edilmişdir. Həmin maddəyə əsasən dövlət qulluğunun əsas vəzifələrini aşağıdakı kimi təsnifləşdirmək olar:

- Azərbaycan Respublikasının Konstitusiyası əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
- qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
- dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması;
- dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların qəbul edilməsi;
- dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların icrası;
- dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların icrasına nəzarət edilməsi;
- dövlət orqanlarının səmərəli fəaliyyətinin təmin edilməsi;
- dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi.

Dövlət qulluğunun əsas vəzifələrinin hər biri ayrı-ayrılıqda dövlət hakimiyyət və dövlət idarəetmə orqanlarının və dövlət səlahiyyətli vəzifəli şəxslərin vəzifə öhdəliklərinin əsas bazasını yaradır. Məhz bu tip öhdəliklərin pozulması hüquqi məsuliyyətin yaranmasına səbəb olur. Qanunla dövlət qulluğunun əsas vəzifələri ilə yanaşı dövlət qulluqçularının da əsas vəzifələri müəyyən edilmişdir.

Dövlət qulluğu haqqında Qanunda dövlət qulluqçusunun məsuliyyətinə dair xüsusi maddə (maddə 25) təsbit edilmişdir. Lakin, dövlət qulluqçularının hüquqi məsuliyyətinin leqal anlayışı qanunla verilməmişdir. Bu fakt dövlət qulluğu haqqında qanunvericilikdəki boşluqlardan biri kimi qiymətləndirilir. Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluqçusunun məsuliyyəti" adlanan 25-ci maddəsində deyilir: "Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur (maddə 25.1) [7]. Bu maddədən tam aydın görünür ki, dövlət qulluqçularının məsuliyyətinin əsasını intizam xətası təşkil edir. Bu hal dövlət qulluqçularının fəaliyyətinin əmək hüquqi xarakterini özündə birbaşa ehtiva edir. Dövlət qulluqçusu Dövlət qulluğu haqqında Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər (maddə 25.2):

- töhmət (maddə 25.2.1);
- bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması (maddə 25.2.2);
- həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi (maddə 25.2.3);
- daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi (maddə 25.2.4);
- ixtisas dərəcəsinin bir pillə aşağı salınması (maddə 25.2.5);
- dövlət qulluğundan azad edilməsi (maddə 25.2.6) [7].

Fikrimizcə, Dövlət qulluğu haqqında Qanunun 25.2.3-cü maddəsi (həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi) və 25.2.4-cü maddəsi (daha aşağı təs-

nifatdan olan vəzifəyə keçirilməsi) praktiki cəhətdən uğursuzdur. Bu maddələrin tələblərinə uyğun olaraq vakant vəzifə olmadığı halda həmin normaların tətbiqi mümkün deyildir. Buna görə də, həmin maddələrin Dövlət qulluğu haqqında Qanundan çıxarılması və aşağıdakı məzmunda yeni bir maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir: "sonuncu xəbərdarlıqla şiddətli töhmət".

Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsaslar olduqda, müvafiq dövlət orqanı rəhbərinin əmri ilə araşdırma aparılır, dövlət qulluqçusundan yazılı izahat alınır. Zərurət olduqda, müvafiq dövlət orqanının rəhbəri xidməti yoxlama təyin edir. Dövlət qulluqçusunun yazılı izahat verməkdən imtina etməsi rəsmiləşdirilir və bu, intizam tənbehinin tətbiqinə mane olmur (maddə 25.3). Xidməti yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir (maddə 25.4) [7].

Dövlət qulluqçularına intizam tənbehi Qanunda nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir (maddə 25.5) [7].

Dövlət qulluqçularına münasibətdə dövlət qulluğundan azad edilmə növündə intizam tənbeh tədbiri aşağıdakı hallardan biri mövcud olduqda tətbiq edilə bilər:

- vəzifələrin icrası zamanı kobud pozuntulara yol verildikdə;
- vəzifələrin icrası zamanı mütəmadi olaraq pozuntulara yol verildikdə;
- dövlət orqanlarında əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvəqqəti əvəz edilməsi halları istisna olmaqla), seçkili və ya təyinatlı vəzifə tutduqda;
- elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olduqda;
- dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olduqda;
- qulluq keçdiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getdikdə;
- qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etdikdə;
- tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etdikdə;
- dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etdikdə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verdikdə.

Dövlət qulluqçularına intizam tənbeh tədbirləri tətbiq edə biləcək vəzifəli şəxslərin dairəsi aşağıdakı kimi müəyyən edilmişdir:

1) Dövlət qulluğu haqqında Qanunun 25.2.1-25.2.6-cı maddələrində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən tətbiq edilə bilər;

2) Dövlət qulluğu haqqında Qanunun 25.2.1-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri isə, habelə dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən səlahiyyət verilmiş vəzifəli şəxs (şəxslər) tərəfindən tətbiq oluna bilər.

Dövlət qulluğu haqqında Qanuna əsasən intizam tənbeh tədbirinin tətbiq edilməsi barədə əmrdən, onun imzalandığı gündən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət vermək olar. Bu zaman həmin orqan tərəfindən intizam tənbeh tədbiri 10 iş günü müddətində ləğv olunmalı və ya qüvvədə saxlanılmalıdır. Tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir (maddə 25.8) [7]. Azərbaycan Respublikasının Prezidentinin 2001-ci il 3 sentyabr tarixli Fərmanı ilə "Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamə" təsdiq edilmişdir [9].

Dövlət qulluğu haqqında Qanunun [7] 18-ci maddəsində "Dövlət qulluqçusunun əsas vəzifələri" təsbit edilmişdir. Həmin maddəyə görə dövlət qulluqçuları vəzifədə olaraq aşağıdakıları etməlidirlər:

1) qanunvericiliyi və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktları həyata keçirməli;

2) rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirməli;

3) dövlət orqanında müəyyən edilmiş qulluq reqlamentinə riayət etməli;

4) başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud qulluq keçdiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli;

5) vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli;

6) lazım gəldikdə öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görməli;

7) dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən dövlət qulluğuna xitam verildikdən sonra da saxlamalı;

8) vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və vətəndaşların şəxsi və ailə həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamalı və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, belə məlumatların verilməsini tələb etməməli;

9) qulluq keçdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı verməli, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməli;

10) qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti olaraq başqa yaşayış yerinə keçməli, başqa yerdə qulluq keçməli və ya başqa vəzifələri icra etməli;

11) qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinə keçməli;

12) etik davranış qaydalarına əməl etməlidir.

Dövlət qulluqçularının hüquqi məsuliyyətinə səbəb olan amillərdən biri də qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasıdır. Dövlət qulluğu haqqında Qanunun [7] "Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər" adlanan 20-ci maddəsinə əsasən dövlət qulluqçusunun aşağıdakılara ixtiyarı yoxdur:

- dövlət orqanlarında əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvəqqəti əvəz edilməsi halları istisna olmaqla), heç bir seçkili və ya təyinatlı vəzifə tutmağa (maddə 20.1.1);

- elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa (maddə 20.1.2);

- dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa (maddə 20.1.3);

- dövlət qulluğuna xitam verildikdən sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə (maddə 20.1.4);

- qulluq keçdiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməyə (maddə 20.1.5);

- qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə (maddə 20.1.6);

- tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə (maddə 20.1.7);

- dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə (maddə 20.1.8).

- Seçki komissiyasının həlledici səs hüquqlu üzvü dövlət qulluğunda ola bilməz (maddə 20.2).

- Dövlət qulluqçusu bu maddənin tələblərinə zidd hərəkət etdikdə, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir (maddə 20.3).

Dövlət qulluğu haqqında Qanunun 25.9-cu maddəsi ilə müəyyən edilmişdir ki, "Dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilər" [7].

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin "İnsan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipi" adlanan 5-ci maddəsinə əsasən "İnsan və vətəndaş hüquqları və azadlıqları ali dəyərə malikdir. Bu hüquqların və azadlıqların pozulmasına yol verən bütün dövlət orqanları, qurumları və vəzi-

fəli şəxslər məsuliyyət daşıyırlar (maddə 5.1). Bu Məcəllə insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları, qurumları və vəzifəli şəxslər tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin edir (maddə 5.2). İnzibati xətalar haqqında işlər üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən insan ləyaqətini alçaldan qərarların verilməsinə və hərəkətin edilməsinə yol verilmir (maddə 5.3) [2].

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsi ilə "Vəzifəli şəxslərin inzibati məsuliyyəti"nə dair müddəalar aşağıdakı kimi təsbit edilmişdir: "Vəzifəli şəxslər öz vəzifələrinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi ilə bağlı inzibati xətalara görə inzibati məsuliyyətə cəlb olunurlar" [2]. Həmin maddənin Qeyd hissəsi ilə vəzifəli şəxslərin dairəsi müəyyən edilmişdir. Qeyd hissədə deyilir ki: "Dövlət hakimiyyətinin nümayəndəsi funksiyasını həyata keçirən şəxslər, dövlət orqanlarında, bələdiyyələrdə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, dövlət və qeyri-dövlət təşkilatlarında, idarə və müəssisələrində, o cümlədən publik hüquqi şəxslərdə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən şəxslər və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq belə səlahiyyətləri yerinə yetirən fiziki şəxslər vəzifəli şəxs hesab edilirlər". Göründüyü kimi vəzifəli şəxslərin subyekt dairəsi kifayət qədər geniş müəyyən edilmişdir. Heç şübhəsiz ki, dövlət qulluqçuları da həmin subyektlərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Dövlət qulluğu haqqında Qanunla müəyyən edilmişdir ki, "Dövlət qulluqçusunun şəxsi işinin aparılması ilə bağlı tələblərin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar (maddə 15-1.4) [7]. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən: "Dövlət qulluğuna qəbul edilən şəxslər və digər dövlət qulluqçuları haqqında qanunvericiliklə müəyyən edilmiş məlumatların müvafiq dövlət orqanları tərəfindən Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinə vaxtında, tam və ya düzgün verilməməsinə görə - vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir (maddə 600). "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş şəxsi işin aparılması qaydalarının tələblərinin kadr qurumlarının vəzifəli şəxsləri tərəfindən pozulmasına görə - dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir (Maddə 600-1)" [2].

Vəzifəli şəxs olaraq dövlət qulluqçularının cinayət məsuliyyətinə dair normalar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin "Vəzifə səlahiyyətlərindən sui-istifadə" adlanan 308-ci maddəsində deyilir: "Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda – iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (maddə 308.1) [3]. Bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (maddə 308.2) [3].

Həmin maddənin qeyd hissəsi ilə müəyyən edilir ki, "Bu fəslin maddələrində "vəzifəli şəxs" dedikdə aşağıdakı şəxslər başa düşülür:

1. hakimiyyət nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş, yaxud xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, za-

bit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları;

2. dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər;

3. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, o cümlədən publik hüquqi şəxslərin, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri;

4. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, o cümlədən publik hüquqi şəxslərdə, həmçinin kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər;

5. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər;

6. xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri;

7. beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər, xarici andlı iclasçılar.

Dövlət qulluqçularının qanunla müəyyən edilmiş hüquqi məsuliyyətinin növlərindən biri də maddi məsuliyyətdir. Dövlət qulluğu haqqında Qanuna əsasən "Dövlət qulluqçusu onun təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır. Dövlət qulluqçusunun qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə Azərbaycan Respublikasının dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikasının büdcəsinin vəsaiti hesabına ödənilir (maddə 25.10) [7]. Bu normalardan aydın olur ki, dövlət qulluqçusunun qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Dövlət qulluqçusunun qanuna zidd hərəkətləri nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsinə dair norma həmin qanunla müəyyən edilməmişdir. Bu halda Azərbaycan Respublikasının Əmək Məcəlləsinin normaları tətbiq edilməlidir.

Dövlət qulluqçularının fəaliyyətində hüquqi məsuliyyətinin yaranmasına səbəb olan hallardan biri də korrupsiya hüquqpozmalarıdır. Bu baxımdan dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizə mühüm əhəmiyyət kəsb edir. "Azərbaycanda korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə siyasətinin əsas hədəflərindən biri dövlət qulluğu sahəsidir. Buna görə də, korrupsiya dedikdə, ilk növbədə dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının fəaliyyətinin neqativ nəticələri başa düşülür. Dövlət qulluqçularının hüquqazidd davranışı onun hüquqi məsuliyyətinin yaranmasına səbəb olur. Dövlət qulluqçularının korrupsiya hesab edilən hər bir əməli qanunla korrupsiya hüquqpozmaları kimi xarakterizə edilir. Nəticədə korrupsiya hüquqpozmaları dövlət qulluqçularının hüquqi məsuliyyətinin tərkib elementlərindən biri kimi çıxış edir [24, s.6-7]. Dövlət qulluğu haqqında Qanunla müəyyən edilmişdir ki, "Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur (maddə 25.11) [7]. Göründüyü kimi dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunla müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunda göstərilən hüquqpozmaları törətdikdə onların əməli inzibati, cinayət və ya intizam məsuliyyətinin yaranmasına səbəb olur. Bu halda da, ilk növbədə, dövlət qulluqçularının intizam məsuliyyəti nəzərdə tutulmuşdur. Bu hal, bir daha dövlər qulluqçularının peşəkar fəaliyyətinin əmək hüquqi xarakterini özündə ehtiva edir.

Dövlət qulluğu haqqında Qanunda dövlət qulluqçusunu məsuliyyətdən azad edən xüsusi norma təsbit edilmişdir. Qanunun 26-cı maddəsi "Qanunsuz göstərişin yerinə yetirilməsi üstündə dövlət qulluqçusunun məsuliyyəti" adlanır. Orada deyilir: "Dövlət qulluqçusu öz hərəkətlərinin qanuniliyi üçün cavabdehdir (maddə 26.1). Rəhbər işçinin göstərişini qanunsuz sayan dövlət qulluqçusunun etirazına baxmayaraq, həmin rəhbər işçi öz göstərişini qüvvədə saxlayırsa və ondan yuxarı vəzifəli rəhbər işçi

həmin göstərişi ləğv etmirsə, dövlət qulluqçusu məsuliyyətdən azad olunur (maddə 26.2) [7].

Dövlət qulluğu haqqında Qanunun 25.1-ci maddəsində deyilir: "Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur". Bu maddənin məzmunundan tam aydın olur ki, dövlət qulluqçularının hüquqi məsuliyyətinin əsasını intizam məsuliyyəti təşkil edir. Mahiyyət etibarı ilə qanunvericiliyin bu yanaşması təqdirəlayiqdir və düzgün yanaşmadır. Fikrimizcə, bu yanaşma dövlət qulluğunun əmək hüquqi xarakterindən irəli gələn əsas xüsusiyyətlərdən biridir.

Dövlət qulluqçularının hüquqi məsuliyyəti aşağıdakı xarakterik xüsusiyyətlərə malikdir:

- dövlət qulluqçularının hüquqi məsuliyyəti üzrə münasibətlər həm ümumi normalar, həm də xüsusi normalar əsasında tənzimlənir;
- dövlət qulluqçularına münasibətdə tətbiq edilən hüquqi qadağaların və məhdudiyyətlərin dairəsinin genişliyi onların hüquqi məsuliyyətinin yaranmasına səbəb olan hüquqpozmaların tərkibinin çoxaspektliyini özündə ehtiva edir;
- dövlət qulluqçularına münasibətdə daha ciddi hüquqi məsuliyyət tətbiq olunur;
- dövlət qulluqçularının fəaliyyətinin əsasını əmək münasibətləri təşkil etdiyinə görə onlara münasibətdə daha çox intizam məsuliyyəti tətbiq edilir.

**Nəticə**

Aparılmış elmi təhlillərin nəticəsi olaraq aşağıdakıları ifadə etmək olar.

Azərbaycan Respublikasında müasir demokratik vətəndaş cəmiyyətinin bərqərar edilməsi, uğurlu dövlət quruculuğu prosesi özlüyündə dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarının vəzifəli şəxslərinin, dövlət qulluqçularının ictimai həyatda hüquqi məsuliyyətinin artırılmasını zəruri etmişdir.

Dövlət qulluqçuları tərəfindən Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilmiş məsuliyyətin yaranmasına səbəb olur.

Dövlət qulluğu sistemində hüquqi məsuliyyət Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi, hüquqi aktlarla müəyyən edilmiş vəzifələrdən irəli gələn öhdəliklərin icrası və qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlərə əməl olunması ilə bilavasitə şərtlənir.

Dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair dəyərli siyasi baxışlar, ümumi və xüsusi elmi-nəzəri konsepsiyalar, beynəlxalq və milli hüquqi normalar mövcuddur. Ümumi və xüsusi elmi-nəzəri müddəalar, konseptual baxışlar, metodoloji yanaşmalar, qanunvericiliyin məzmunu və təcrübi problemlərin həlli fonunda dövlət qulluqçularının hüquqi məsuliyyətinə dair müasir konsepsiyanı ifadə etmək olar. Dövlət qulluğu kompleks hüquq institutu olaraq hüquqi məsuliyyətin müxtəlif növlərini özündə birləşdirir.

Dövlət hakimiyyəti və dövlət idarəetmə səlahiyyətlərinə malik hər bir şəxsin - dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının üzərinə düşən vəzifə öhdəlikləri onların xalq və dövlət qarşısındakı məsuliyyəti ilə birbaşa şərtlənir. Dövlət qulluğunu özünə peşəkar fəaliyyət kimi seçmiş hər bir vətəndaş, ilk növbədə, onun məsuliyyətinin ağırlıq dərəcəsini nəzərə almalıdır. Bu amil dövlət qulluqçularının hüquqi məsuliyyətinin sosial mahiyyətindən irəli gəlir. Vətəndaş dövlət vəzifəsinə seçilməklə və ya təyin olunmaqla öz üzərinə böyük məsuliyyət götürmüş olur.

Dövlət qulluqçuları, daha geniş mənada dövlət vəzifəli şəxslər dövlət hakimiyyəti və dövlət idarəetmə səlahiyyətlərinə malikdirlər. Bu səlahiyyətlərin qarşılığı isə hüquqi məsuliyyətin müxtəlif növlərini özündə ehtiva edir. Dövlət tərəfindən dövlət qulluqçularına digər vətəndaşlara nisbətən üstün səlahiyyətlər və fərqli imtiyazlar verilir. Bunun qarşılığında isə, dövlət qulluqçularının üzərinə dövləti vəzifələr, həmin vəzifələrə müvafiq olaraq müəyyən öhdəliklər qoyulur, onlara münasibətdə bir sıra qanuni məhdudiyyətlər və qadağalar tətbiq edilir.

Dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi fonunda dövlət qulluqçularının hüquqi məsuliyyətinin tərkib elementləri

mürəkkəb xarakteri, növ müxtəlifliyi və məsuliyyətin ağırlıq dərəcəsi ilə fərqlənir.

Dövlət qulluqçularının hüquqi məsuliyyətinin xarakterik xüsusiyyətləri onların cəmiyyət və dövlət qarşısındakı öhdəliklərini, ictimai nüfuzunu, peşəkarlıq səviyyəsini, dövlət qulluğu fəaliyyətində səmərəliliyi əhatə edir. Bu amillər dövlət qulluqçularının məsuliyyətinin sosial mahiyyətindən irəli gəlir. Dövlət qulluqçularının hüquqi məsuliyyəti sosial məsuliyyətin xüsusi növlərindən biridir. Sosial məsuliyyət kompleks xarakter daşıyır və hüquqi məsuliyyətin müxtəlif növlərini özündə ehtiva edir. Azərbaycan dövlətinin və cəmiyyətinin inkişafının müasir mərhələsində hər bir vətəndaşın, o cümlədən, dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının üzərinə düşən vəzifələrdən biri də sosial məsuliyyət hissinin dərindən dərk edilməsidir. Elmi mülahizələr belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluqçuları tərəfindən vəzifə ödəliklərinin pozulması hüquqi məsuliyyətin yaranması ilə nəticələnir, hüquq pozuntusuna adekvat olan hüquqi məsuliyyətin növünü müəyyənləşdirir və müvafiq sanksiyanın tətbiqini zəruri edir. Bu baxımdan dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının qanunvericiliklə müəyyən edilmiş vəzifə öhdəlikləri onların hüquqi məsuliyyətinin ağırlıq dərəcəsini və növ müxtəlifliyini özündə ehtiva edir. Nəticə etibarı ilə, dövlət qulluqçuları tərəfindən törədilmiş hüquq pozuntusu hüquqi məsuliyyət üzrə hüquq münasibətlərinin yaranmasına səbəb olur.

Dövlət qulluqçularının hüquqi məsuliyyəti bir tərəfdən onların dövlət qulluğu fəaliyyətində peşəkarlığını, digər tərəfdən isə qeyri-peşəkarlığını özündə ehtiva edir. Bu yanaşma göstərir ki, dövlət qulluğu sistemində peşəkarlığın əsasını məsuliyyət təşkil edir. Fikrimizcə, dövlət qulluğu sistemində peşəkarlıqla məsuliyyət qarşılıqlı vəhdətdə təzahür edir. Buna görə də, peşəkarlıq dövlət qulluqçularının hüquqi məsuliyyətinin əsas xarakterik xüsusiyyətlərindən biridir. Bu yanaşma isə dövlət qulluqçularının hüquqi məsuliyyətinin pozitiv və neqativ aspektlərini özündə ehtiva edir. Hüquqi məsuliyyətin pozitiv aspekti dövlət qulluqçularının davranışını tənzimləyən vicdan, əxlaq, şərəf və ya etik kodekslərdə, etik davranış qaydalarında təsbit edilmişdir. Dövlət qulluqçularının hüquqi məsuliyyətinin pozitiv aspektlərinə dair normalar bir sıra dövlətlərin normativ hüquqi aktlarında öz əksini tapmışdır.

Dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, qadağalara və məhdudiyyətlərə əməl edilməməsi onların hüquqi məsuliyyətinin yaranmasına səbəb olur. Fikrimizcə, dövlət qulluqçularının hüquqi məsuliyyətinin növlərini aşağıdakı kimi ifadə etmək olar: 1) dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyəti; 2) dövlət qulluqçularının inzibati məsuliyyəti; 3) dövlət qulluqçularının intizam məsuliyyəti; 4) dövlət qulluqçularının maddi məsuliyyəti; 5) dövlət qulluqçularının mülki-hüquqi məsuliyyəti; 6) dövlət qulluqçularının cinayət məsuliyyəti; 7) dövlət qulluqçularının peşəkar məsuliyyəti.

Elmi təhlil belə qənaətə gəlməyə əsas verir ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 25.2.3-cü maddəsi (həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi) və 25.2.4-cü maddəsi (daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi) praktiki cəhətdən uğursuzdur. Bu maddələrin tələblərinə uyğun olaraq vakant vəzifə olmadığı halda həmin normaların tətbiqi mümkün deyildir. Buna görə də, həmin maddələrin Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunundan çıxarılması və aşağıdakı məzmunda yeni bir maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir: "sonuncu xəbərdarlıqla şiddətli töhmət".

Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25.1-ci maddəsində verilmiş anlayışın məzmunundan tam aydın olur ki, dövlət qulluqçularının hüquqi məsuliyyətinin əsasını intizam məsuliyyəti təşkil edir. Mahiyyət etibarı ilə qanunvericiliyin bu yanaşması təqdirəlayiqdir və düzgün yanaşmadır. Fikrimizcə, bu yanaşma dövlət qulluğunun əmək hüquqi xarakterindən irəli gələn əsas xüsusiyyətlərdən biridir.

Dövlət qulluqçularının hüquqi məsuliyyətini aşağıdakı xüsusiyyətlər üzrə xarakterizə etmək olar:

- dövlət qulluqçularının hüquqi məsuliyyəti üzrə münasibətlər həm ümumi normalar, həm də xüsusi normalar əsasında tənzimlənir;
- dövlət qulluqçularına münasibətdə tətbiq edilən hüquqi qadağaların və məhdudiyyətlərin

dairəsinin genişliyi onların hüquqi məsuliyyətinin yaranmasına səbəb olan hüquqpozmaların tərkibinin çoxaspektliyini özündə ehtiva edir;

- dövlət qulluqçularına münasibətdə daha ciddi hüquqi məsuliyyət tətbiq olunur;
- dövlət qulluqçularının fəaliyyətinin əsasını əmək münasibətləri təşkil etdiyinə görə onlara münasibətdə daha çox intizam məsuliyyəti tətbiq edilir.

Aparılmış elmi təhlilin nəticəsi olaraq, dövlət qulluqçularının hüquqi məsuliyyətinə aşağıdakı məzmunda anlayış vermək olar. Dövlət qulluqçularının hüquqi məsuliyyəti dedikdə, Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməməsi və ya lazımi şəkildə yerinə yetirməməsi, habelə qanunvericiliklə müəyyən edilmiş vəzifələrdən irəli gələn öhdəliklərin icra edilməməsi, qadağalara və məhdudiyyətlərə əməl olunmaması nəticəsində tətbiq edilən sanksiyalara məruz qalmaq vəzifəsi başa düşülür.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2016, 92 s.
2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2021, 448 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2021, 672 s.
4. Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 766-VQ nömrəli Qanunu // Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2017, №08, maddə 170
5. Avropa hüququ. Dərslik. E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: "Günəş-B", 2016, 764 s.
6. Dövlət idarəçilik nəzəriyyəsi. Dərslik. Bakı: Elm və təhsil, 2010, 552 s.
7. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №01, maddə 1
8. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2007-ci il 31 may tarixli 352-IIIQ nömrəli Qanunu // Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007, №08, maddə 750
9. Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 571 nömrəli Fərmanı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №09, maddə 586
10. Etik davranış kodekslərinin toplusu. Bakı: "Time Print", 2014, 101 s.
11. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
12. Əliyev İ.H. İnkişaf – məqsədimizdir. On səkkizinci kitab. Bakı: Azərnəşr, 2014, 424 s.
13. Əliyev İ.H. İnkişaf – məqsədimizdir. Doxsan dördüncü kitab. Bakı: Azərnəşr, 2019, 392 s.
14. Əliyev A.C. Hərbi qulluqçuların hüquqi məsuliyyəti. Bakı: Səda, 2008, 152 s.
15. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti, 2011, 760 s.
16. Əsgərov N.Y. İntizam məsuliyyətinin əsası kimi intizam xətalarının əsas əlamətləri // Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi-məqalələr məcmuəsi. 13-cü buraxılış. Bakı, 2005, s.163-167
17. Hakimlərin etik davranış kodeksi : Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 2007-ci il 22 iyun tarixli qərarı ilə təsdiq edilmişdir // Azərbaycan Respublikası Normativ Aktlarının Bülleteni, 2007, №09-10
18. Hüseynova N.Ş. Dövlət qulluğu və kadr siyasəti. Monoqrafiya. Bakı: Adiloğlu, 2013, 476 s.
19. Hüseynov N.C. Hərbi qulluqçuların hüquqi məsuliyyəti: anlayışı, növləri və tətbiqi. Bakı: Qanun, 2017, 160 s.
20. Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı: Letterpress, 2016, 840 s.
21. Qasımov A.M. İntizam məsuliyyətinin anlayışı haqqında məsələyə dair // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2019, №1, s.20-28

22. Qasımov A.M., Cəfərov Z.İ., Məmmədov R.Y., Məmmədov O.C., Ələsgərova L.H., Əkbərli Ü.A. Əmək və sosial təminat hüququ sxemlərdə. Dərs vəsaiti. Bakı: Hüquq Yayın Evi, 2020, 320 s.

23. Məlikova M.F. Hüquq nəzəriyyəsi. Dərslik. Bakı: Elm və təhsil, 2019, 448 s.

24. Məmmədov O.C. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizənin hüquqi təminatları. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018, 180 s.

25. Məmmədov O.C. Dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyəti hüquqi məsuliyyətin xüsusi növü kimi // Qanun, 2019, №05 (295), s.19-31

26. Paşayeva N.A. Əmək hüququnda hüquqi məsuliyyət // Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq qurucu-luğunun aktual problemləri. Elmi-məqalələr məcmuəsi. 14-cü buraxılış. Bakı, 2006, s.179-183

27. Rzayev Ə.H. Dövlət qulluqçusunun hüquqi məsuliyyəti // Azərbaycanda dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi-məqalələr məcmusu. 2-ci buraxılış. Bakı: Digesta, 2002, s.16-23

28. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları. Bakı: Elm, 2011, 480 s.

29. Ümumi hüquq və dövlət nəzəriyyəsi. Dərslik / V.V.Lazarevin redaktorluğu ilə. Bakı: Qanun, 2007, 491 s.

30. Adil Bucaktepe. Devlet memurluğu ve memurlarin değerlendirilmesi üzerine düşünceler // Gazi Üniversitesi Hukuk Fakültesi Dergisi C. XVIII, Y. 2014, Sa. 3-4, s.459-489

31. Абдулаев М.И. Теория государства и права: Учебник. М.: Право, 2010, 468 с.

32. Атаманчук Г.В. Теория государственного управления. Курс лекций. М.: Омега-Л, 2006, 584 с.

33. Алжеев И.А., Болдырева Е.В., Каменева Е.Н., Чепунов О.И., Чепус А.В. Конституционная ответственность лиц, занимающих государственные должности: российский и зарубежный опыт. М.: 2015, 65 с.

34. Базылев Б.Т. Сущность позитивной юридической ответственности // Правоведение. 1979, №4, с.40-46

35. Буравлёв Ю.М. Виды юридической отвественности в системе государственной службы. Монография. М.: Юрист, 2008, 154 с.

36. Буравлёв Ю.М. Юридическая ответственность в системе государственной службы: проблемы совершенствования // Государство и право. 2013, №5, с.5-15

37. Габричидзе Б.Н., Чернявский А.Г. Юридическая ответственность. Учебное пособие. М.: Альфа-М, 2005, 686 с.

38. Добробаба М.Б. Дисциплинарная ответственность в служебно-деликтном праве: понятие и правовая природа // Актуальные проблемы российского права. М., 2013, №6, с.689-697

39. Добробаба М.Б. Принципы дисциплинарной ответственности государственных служащих: конституционные основы и проблемы реализации в нормах служебного права // Ленинградский юридический журнал. СПб., 2015, №2(40), с.131-145

40. Добробаба М.Б. Дисциплинарная ответственность в системе государственно-служебных правоотношений: дис. ... док. юрид. наук: Саратов, 2018, 463 с.

41. Капустина М.А. Институт юридической ответственности как элемент системы правового регулирования // Вопросы российского и международного права. 2016, №9, С.52-62

42. Кузьмин И.А. Система права и система юридической ответственности: монография. Иркутск: ИГУ, 2018, 163 с.

43. Кушхова Б.З. Юридическая ответственность публичной власти в современной России: общетеоретический аспект : Автореферат дис. ... канд. юрид. наук: Краснодар: 2009, 28 с.

44. Лещина Э.Л. Основные подходы к пониманию дисциплинарной ответственности: трудоправовой и административно-правовой аспекты // Юридическая наука и правоохранительная практика, 2016, №3 (37), с.62-68

45. Ломакина Л.А. Совершенствование российского законодательства о дисциплинарной ответственности на государственной гражданской службе // Журнал российского права, 2016, №7, с.112-120

46. Максимов И.В. Концепция позитивной административной ответственности в теории и праве // Государство и право, 2006, №8, с.29-37

47. Манохин В.М. Концепция закона о государственной службе // Государство и право, 1991, №12, с.90-98

48. Медведев П.С., Ратаев Д.П. Административная ответственность государственных служащих // Вопросы российского и международного права, 2017, Том 7, №5А. с.224-237

49. Миннигулова Д.Б. Административная и уголовная ответственность государственных гражданских служащих: коллизии правового регулирования // Административное право и процесс. 2012, №6, с.27-29

50. Носова Ю.Б. Дисциплинарная ответственность государственных гражданских служащих Российской Федерации: монография. Воронеж: Воронеж. гос.ун-та, 2011, 208 с.

51. Оболонский А.В. Мораль и право в политике и управлении. М.: ГУ ВШЭ, 2006, 262 с.

52. Сперанский М.М. План государственного преобразования (введение к Уложению государственных законов 1809 г.). М.: Типолитография товарищества И.Н.Кушнерев и К.Пимен, 1905, 359 с.

53. Теория государства и права: учебник / под ред. В.К.Бабаева. М.: Юрайт, 2019, 582 с.

54. Цуркан М.І. Правове регулювання публічної служби в Україні. Особливості судового розгляду спорів : монографія. Харків: Право, 2010, 216 с.

55. Федорова Т.В. Государственная служба Российской Федерации: традиции, правовые аспекты, ответственность. Учебное пособие. М.: РГУП, 2018, 108 с.

56. Чаннов С.Е. Дисциплинарная и административная ответственность государственных и муниципальных служащих: вопросы эффективности // Журнал российского права, 2018, №2, с.59-69

57. Чиканова Л.А. Применение трудового законодательства к служебным отношениям на государственной гражданской службе: теория и практика: Дис. … докт. юрид. наук: М., 2005, 312 с.

58. Шин А.Г. Конституционно-правовая ответственность кандидатов в депутаты или на выборные должности за использование на выборах преимуществ своего должностного (служебного) положения: монография. Иркутск, 2013, 215 с.

59. Шугрина Е.С., Нарутто С.В., Заболотских Е.М. Ответственность органов публичной власти: правовое регулирование и правоприменительная практика: учебник. Москва: Юрайт, 2019, 347 с.

## Резюме

**Орудж Мамедов**

### Юридическая ответственность государственных служащих: теоретико-концептуальный и методологический подход

В статье анализируются теоретические взгляды, концептуальные и методологические подходы, законодательная база юридической ответственности государственных служащих. В статье обобщены научные концепции юридической ответственности государственных служащих, отмечена важность политических взглядов, уделено внимание общим и частным научно-теоретическим концепциям, международным и национальным правовым нормам и выражена его современная концепция, было внесено предложение по совершенствованию законодательства.

В статье показано, что обязанности государственных служащих напрямую связаны с их ответственностью перед народом и государством. Каждый гражданин, желающий выбрать государственную службу в качестве профессиональной деятельности, должен, в первую очередь, учитывать тяжесть своей ответственности. Этот фактор содержит в себе социальную сущность юридической ответственности государственных служащих. С назначением на государственную службу гражданин берет на себя большую ответственность.

Государственные служащие обладают полномочиями государственной власти и государственного управления. Взаимность этих полномочий включает различные виды юридической ответственности. Государство предоставляет государственным служащим более высокие полномочия и другие привилегии по сравнению с другими гражданами. А взамен на государственных служащих возлагаются государственные обязанности и определенные обязательства в соответствии с этими обязанностями, применяется ряд ограничений и запретов.

Как сложный правовой институт государственная служба сочетает в себе разные виды ответственности. В статье отмечается, что существуют следующие виды юридической ответственности государственных служащих: 1) конституционно-правовая ответственность государственных служащих; 2) административная ответственность государственных служащих; 3) дисциплинарная ответственность государственных служащих; 4) материальная ответственность государственных служащих; 5) гражданско-правовая ответственность государственных служащих; 6) уголовная ответственность государственных служащих.

Наконец, высказана современная научно-теоретическая концепция о характеристиках юридической ответственности государственных служащих и внесено предложение по совершенствованию законодательства.

***Ключевые слова:*** *государственная служба, государственный служащий, юридическая ответственность.*

## Summary

**Oruj Mammadov**

## Legal responsibility of civil servants: theoretical-conceptual and methodological approach

In the article it has analyzed theoretical views, conceptual and methodological approaches, legal framework on the legal responsibility of civil servants. In the article the scientific concepts on the legal responsibility of civil servants were summarized, the importance of political views were emphasized, it was focused on general and specific scientific and theoretical concepts, international and national legal norms and its modern concept was expressed, and was nominated a propose to improve the legislation.

It is showed that the duties of civil servants are directly conditioned by their responsibility to the people and the state in the article. Every citizen who wants to choose the civil service as a professional activity must first take into the degree of severity of its responsibilities. This factor contains the social nature of the legal responsibility of civil servants. By being appointed to the civil service, a citizen assumes a great responsibility.

Civil servants have the power of government and public administration. The reciprocity of these powers contains various types of legal liability. The state gives civil servants superior powers and different privileges compared to other citizens. In return, civil servants are subjected to public duties and certain obligations in accordance with those positions, a number of restrictions and prohibitions are applied.

As a complex legal institution, the civil service combines different types of responsibilities. In the article it is noted that there are the following types of legal liability of civil servants: 1) constitutional and legal responsibility of civil servants; 2) administrative responsibility of civil servants; 3) disciplinary responsibility of civil servants; 4) financial responsibility of civil servants; 5) civil legal responsibility of civil servants; 6) criminal responsibility of civil servants.

Finally, a modern scientific-theoretical concept on the characteristic features of the legal responsibility of civil servants was expressed and nominated a propose to improve the legislation.

***Keywords:*** *civil service, civil servant, legal responsibility*

UOT:338.1;/006; 1 JEL:Il2.

**SEYFƏDDİN SƏMƏNDƏROV**
*i.e.d., dosent*
*Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu*
*seyfeddinsamandarov@mail.ru, Azərbaycan*

# MİLLİ BİRLİK VƏ MİLLİ İQTİSADİYYAT TARİXİ-FƏLSƏFİ DƏYƏRLƏNDİRMƏLƏR KONTEKSTİNDƏ

***Açar sözlər:*** *millət , milli iqtisadiyyat, iqtisadi sistem, milli iqtisadi model*

**Giriş**

Müasir dövrün başlıca xüsusiyyətlərindən biri dünyada milli və etnik rəngarəngliyin mövcud olmasıdır. Üçüncü minilliyin əvvəllərində yer planetində 245 ölkə, 5000 etnik qrup və 600-dən yuxarı etinik icmalar mövcuddur. Həmin ölkələrdən ancaq 193 rəsmi tanınan dövlətlərdir. Birləşmiş Millətlər Təşkilatına 192 dövlət üzv olmuşdur.

Belə bur fikir vardır ki, qloballaşmanın təsiri altında dünya ictimaiyyətinin strukturu ciddi deformasiyaya məruz qalmaqdadır. XX əsrin sonlarında hal-hazırda mövcud olan etnik dillərin yarısı yox olacqdır. Müvafiq olaraq etnos və millət anlayışlarının məzmunundakı fərqlərə diqqət yetirək. Etnos (etnik birlik)- təbii-landşaft şəraiti, qan qohumluğu, antropoloji xüsusiyyətləri, spesifik və ümumi dini, dil, mədəniyyət, düşüncə tərzinin mövcudluğu şəraitində inkişaf edin böyük insan qruplarıdır. Etnosun tarixi formaları kimi tayfa, xalq, millət göstərilə bilər.

**Millət-** tarixən formalaşmış ümumi dil, ərazi, iqtisadi həyat, mədəniyyət, düşüncə tərzi olan insan birliyidir. İndiki dövrdə getdikcə belə bir fikir üstünlük qazanmağa başlamışdır ki, millət insanların etnik birliyindən daha çox dövlət, sosial-iqtisadi, mədəni birliyidir. Həmin birliyin ümumi tarixi maraqları və mənəvi özünəməxsus xüsusiyyətləri vardır [5].

Eyni zamanda müasir elmi fikirdə belə bir fikir də səslənir ki, millətlər feodal cəmiyyətinin təsərrüfat iqtisadi baxımdan pərakəndəliyinin aradan qaldırılması, əmtəə istehsalının, ictimai əmək bölgüsünün genişləndirilməsi, əmək bölgüsü vasitəsi ilə ictimai əlaqələrin azad və müstəqil inkişaf edən bazarlar formasında möhkəmlənməsinin təmin olunması zəminində formalaşmışdır.

Göründüyü kimi, millətlərin insan birliyi və cəmiyyətinin formalaşmış və fəaliyyət göstərən forması kimi bir sıra ümumi cəhətlərinə xüsusi diqqət yetirlir. *Sabit və dayanıqlı insan birliyi –millətlər üçün – ümumi- dil, ərazi, iqtisadi-təsərrüfat həyatı birliyi, dünyagörüşü-mədəniyyət birliyi xarakterikdir.*

Eyni zamanda daha bir fikir də vardır ki, bu ümumi komponentlərdən hər hansı birinin yoxluğu xalqın millət kimi mövcudluğundan bəhs edilməsini qeyri mümkün edir [6]. Bütün bunlar belə deməyə əsas verir ki, millət elə bir insan birliyidir ki, burada insanların özünəməxsus xüsusiyyətləri qorunur və adı çəkilən insan birliyi forması ortaq dəyərlər, ortaq vətəndaşlıq münasibəti çərçivəsində birləşmə meylləri əsasında formalaşır. Nəticədə insan birliyinin hər hansı birliyi forması zəminində millətlərin yaranmasından sonra müvafiq olaraq milli iqtisadiyyatların yaranması mümkün olmuşdur.

## 1. *Millət və milli iqtisadiyyat anlayışının məzmun və mahiyyəti iqtisadi fikirdə*

D.Rikardo millət dedikdə coğrafi məkanda təbii faktorlara sahib, qeyri bərabər məhsuldarlıq imkanlarına görə iqtisadi fəaliyyətlərinin xarakteri ilə müəyyənləşən insan birliyini başa düşürdü. C. Mill millət anlayışının məzmununa dövlətin hüdudları ilə məhdudlaşan istehsal faktorlarının səfərbər olduğu regionu daxil edirdi [4].

Eyni zamanda iqtisadi ədəbiyyalarda ***milli iqtisadiyyat*** – vahid təsərrüfat orqanizmi kimi formalaşmış – ölkə hüdudlarında istehsal münasibətləri və iqtisadi artıma təsir edən təsərrüfatçılığın sosial mədəni ənənələrinin, dəyərlə-

rinin məcmusu kimi təqdim olunur və iddia olunur ki, milli iqtisadiyyatların formalaşması prosesi sənaye çevrilişi dövründən başlanır. Daha sonra XIX əsrin ortalarından etibarən dünya iqtisadi fikrində milli iqtisadiyyatla bağlı elmi bilik və dünyagörüşü sistemi təşəkkül tapmağa başlayır. Adekvat ***iqtisadi quruluş*** və cəmiyyətin müvafiq ***institutları*** (mədəni, sosial, siyasi, dini) formalaşmışdır. Həmçinin özünün inkişafı prosesində ölkənin iqtisadi quruluşu və onların fəaliyyət mexanizmi dəyişikliklərə məruz qalır.

XX əsrin əvvəllərindən etibarən milli iqtisadiyyatlarla əlaqədar fikir və mülahizələrin sistemləşdirilməsi bir qədər də vüsətləndi. Müvafiq olaraq milli iqtisadiyyatların inkişaf etdirilməsi ilə əlaqədar fundamental və strateji proqramlar tərtib olunmağa başlanıldı [7]. Məhz bu baxımdan bir daha qeyd olunmalıdır ki, milli iqtisadiyyat ölkənin çox əsrlik inkişafı nəticəsində formalaşmış vahid və bütöv təkrar istehsalın məcmusudur. Burada təkrar istehsal sözün geniş məzmununda dərk olunmalı, həmçinin ölkənin coğrafi mövqeyi, təbii sərvətləri, əhalinin milli tərkibi, dövlət quruluşu, demoqrafik situasiya, beynəlxalq əmək bölgüsündə iştirak səviyyəsi sözügedən anlayışın elementləri kimi çıxış edir.

### 2. Azərbaycan milli birliyi və milli iqtisadiyyatının formalaşmasının tarixi-iqtisadi məsələləri ictimai-iqtisadi ədəbiyyatlarda

Qeyd olunduğu kimi, müasir millətlər əsrləri əhatə edən üç böyük inkişaf mərhələsi üzrə formalaşmışdır və bu proses hələ də davam etməkdədir. Birinci mərhələ insan birliyinin millət kimi təşəkkül tapmasına qədər olan dövrü əhatə edir. Bu mərhələdə millətlər qəbilə, tayfa, xalq kimi insan birlikləri formasında inkişaf yolu keçmişdir. İkinci mərhələ xalqların milli birlik formasında təşəkkülü dövrünü əhatə edir. Nəhayət üçüncü mərhələ müasir informasiya cəmiyyəti dövründə, qloballaşmanın, beynəlmiləlləşmənin getdikcə daha çox dərinləşməsi kontekstində milli mədəniyyət və təsərrüfatların spesifik inkişaf yolu ilə tərəqqisinə görə diqqəti cəlb edir.

Bu baxımdan qeyd edilməsi yerinə düşərdi ki, müasir dünyanın bütün aparıcı millətlərində olduğu kimi Azərbaycan milli dünyagörüşü, mədəniyyəti və təsərrüfatçılıq ideologiyası yuxarıda qeyd edilən mərhələlər üzrə formalaşmış və inkişaf edir.

Azərbaycan milli birliyinin millət kimi tarix səhnəsində diqqəti cəlb etməsinə qədər olan gerçəkliklər respublikanın tarixçiləri, arxeoloqları, etnoqrafları, digər ictimai və humanitar elm sahələrində çalışan mütəxəssislərin elmi araşdırmalarının nəticəsində meydana çıxarılmışdır. Tədqiqatçılarımız Azərbaycan milli birliyinin min illikləri əhatə edən inkişaf yolu, müxtəlif ictimai iqtisadi quruluşlarda inkişaf xüsusiyyətləri ilə əlaqədar dəyərli məlumatlar əldə etmişlər. Artıq təkzibedilməz həqiqətdir ki, Azərbaycan milləti də hər bir millətin təşəkkülü prosesinin kökündə olduğu kimi tayfa və qəbilə birliklərindən xalqın formalaşmasına qədər, daha sonra xalqlar, etnik birlik və konqlomeratlarından millət olmağa qədər formalaşma dövrlərini yaşamışdır və müvafiq olaraq Azərbaycan etno- mədəniyyəti bazasında spesifik təsərrüfat sistemi- milli təsərrüfat, həmin təsərrüfatla əlaqədar təsəvvürlər (sistemləşdirilmiş, praktiki və nəzəri əhəmiyyət kəsb edən biliklər məcmusu formalaşmış) milli dünyagörüşün digər mühüm elementləri təşəkkül tapmışdır.

Çox aşkar görünür ki, millətlərin formalaşması və tərəqqisində milli ideologiyanın və o cümlədən milli təsərrüfatçılıq konsepsiyasının təşəkkül tapmasının olduqca böyük əhəmiyyəti vardır. Burada söhbət milli birliyin formalaşmasındakı ikinci böyük dövrdən gedir, yəni xalqların millətlərə çevrilməsi proseslərinin getdiyi dövrdən. Bu dövr Azərbaycan milli ideologiyasının və milli təsərrüfatçılıq konsepsiyasının formalaşması ilə diqqəti cəlb edir. Belə bir zəmində Azərbaycanda etnik formalaşma proseslərini bir sıra tarixi mərhələlərə bölmək olar: 1) ən qədim dövrlərdən XIX əsrin əvvəllərinə qədər ki, tarixi inkişaf mərhələsi, 2) XIX əsr və XX əsrin əvvəlləri, 3) XX əsrin əvvəllərindən 1920-ci ilə qədərki mərhələ (bu mərhələ Cümhuriyyətə gedən yol, Cümhuriyyətin təşəkkülü dövrü kimi də xarakterizə edilə bilər), 4) XX əsrin 20-80-ci illəri (60-70-ci illər xüsusi ilə diqqəti cəlb edir), 5) XX əsrin sonu və XXI əsrin əvvəlləri (müstəqilliyin və milli təsərrüfatın bərpası illəri), 6) müasir dövrdə milli birliyin qorunması və milli təsərrüfat konsepsiyasının inkişafı dövrü.

Daha sonra qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda milli məfkurənin (*o, cümlədən milli iqtisadi təfəkkürün)* formalaşması və inkişafı prosesinin gedişatı zamanı hər bir dövrdə həmin dünyagörüşün inkişafında müəyyən bir pik məqamları vardır. Deyilən fikrin tarixi nümunələr əsasında bir qədər də daha aydın izah edilməsinə ehtiyac var. Məsələn Azərbaycan tarixinin xanlıqlar və feodal pərakəndəliyi, feodal ara müharibələri dövründən sonra rus istilası dövründə milli dünyagörüşün inkişafı üçün irəliləyiş faktı kimi nəyi qeyd etmək olar ? Təbiidir ki, bu fakt maarifçi demokratların ədəbi, fəlsəfi, ictimai fəaliyyətləri ilə əlaqədardır. Azərbaycan maarifçi demokratların öz əsərlərini ən azı milli dildə yazmaları, burada epizodikdə olsa mentalitetin iqtisadi elementlərinin əks olunması faktları xüsusi maraq kəsb edir. Nümunə üçün qeyd etmək olar ki, Mirzə Fətəli Axundovun "Hacı Qara" komediyasının iqtisadi fikir tarixinin dəyərləri baxımından əsil qəhrəmanı elə Hacı Qaranın özüdür. Hacı Qara rus proteksionizmindən maddi zərər görən, milli ticarət burjuaziyasının tragikomik vəziyyətə düşən tipik nümunəsi kimi qiymətləndirilə bilər.

Digər fakt, çox qısa bir dövrdə olsa da "Əkinçi" qəzetinin milli dildə nəşri, burada digər məsələlərlə yanaşı, ticarət, əkin və ziraət məsələlərinə xüsusi yer ayrılması təbiidir ki, bütünlükdə iqtisadi fikrin milli iqtisadi fikrə qədər inkişafı prosesində dövrünün əhəmiyyətli pik məqamı kimi dəyərləndirilə bilər.

Azərbaycan milli təsərrüfat konsepsiyasından danışarkən təbiidir ki, hər şeydən çox Azərbaycan Demokratik Cümhuriyyətinin ideoloqlarının, xüsusən də M.Ə.Rəsulzadənin ideyalarından danışmamaq mümkün deyildir. M.Ə.Rəsulzadə özünün "Milli Təsanüd", "Millət olmaq əzmi", "Millətçilik-Patriotizm" və digər məqalələrində milli dünyagörüşü və Azərbaycan üçün məqbul sayılacaq milli iqtisadi konsepsiyanın baza dəyərləri ilə əlaqədar fikirlər irəli sürmüşdür.

Deyilən fikrə aydınlıq gətirilməsi üçün müəyyən iqtibasların da gətirilməsi yerinə düşərdi:

M.Ə.Rəsulzadə "Milllət olamaq əzmi" məqaləsində milliyyət və millət anlayışlarının fərqli məzmunlarına diqqət yetirərək yazırdı: *"Millət anlamını ifadə üçün dilimizdə iki söz vardır: milliyyət və millət. Bunlardan birincisi lisani (dil), dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluluğu ifadə edər. İkincisi isə bu topluluqda doğan ümumi bir iradəni anladır"* [3, s.29]. "Millət" və "milliyyət" anlayışlarının məzmununun "Millətçilik-Patriotizm" məqaləsində də izahını davam etdirərək M.Ə.Rəsulzadə yazırdı: "*milliyyət etnik bir anlam ikən, millət siyasi anlamdır"- dedik...; milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik (müstəqər) varlıqdır, millət isə bu statik varlığın süurlaşan dinamik (fəal) bir şəklidir"* [3, s.31].

Azərbaycan milli birliyinin və milli təsərrüfatçılıq konsepsiyasının inkişafında

XX əsrin 60-cı illərin sonlarından 80-ci illərin əvvəllərinə qədər olan bir dövr növbəti və xüsusi əhəmiyyəti olan bir dövr kimi qiymətləndirilə bilər. Bu dövrdə respublika rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi mövcud olması üçün siyasi, iqtisadi, sosial, ideoloji və psixoloji zəmin hazırlandı. Aparılan məqsədyönlü dövlət siyasəti Respublika iqtisadiyyatının elmi əsaslarla inkişaf istiqamətləri və metodlarının müəyyənləşdirilməsinə yönəldilmişdi. Bu illərdə iqtisadçı alimlərimiz Ə.Ə. Mahmudov, A.A.Nadirov, A.K.Ələsgərov, Ş.M.Muradov, M.M.Allahverdiyev, Z.Ə.Səmədzadə, B.E.Əbdürrəhmanov, E.K.Mehrəliyev və b. sənayenin, kənd-təsərrüfatının, nəqliyyatın inkişaf etdirilməsi imkanları, əmək ehtiyatlarının formalaşması və onların rasional istifadəsi, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, iqtisadi rayonlar üzrə respublikadaxili istehsal kompleksləri, mövcud istehsal strukturu və onlardan effektiv istifadə edilməsi məsələləri ilə əlaqədar nəzəri və praktiki əhəmiyyət daşıyan araşdırmalar aparırdılar. Azərbaycanda həyata keçirilən məqsədyönlü idarəetmə siyasəti və o, cümlədən elmi araşdırmalar üzvü vəhdət halında hələ sovet praktikası çərçivəsində milli iqtisadiyyatın elmi əsaslarla idarə olunması konsepsiyasının formalaşması və inkişafına xidmət edirdi.

Qeyd etmək yerinə düşərdi ki, sonrakı illərdə, daha doğrusu 90-cı illərin əvvəllərindən etibarən, Azərbaycan müstəqillik əldə etdikdən sonra artıq milli təsərrüfatçılıq konsepsiyası ge-

niş akademik araşdırmalar mövzusu olmaqla yanaşı rəsmi doktrina statusunu da qazandı, keçid dövrünün bütün ziqzaqlarına baxmayaraq milli iqtisadiyyatının inkişaf strategiyası, müvafiq dövlət layihə və proqramları hazırlanaraq uğurla həyata keçirildi.

Belə bir zəmində xüsusi olaraq qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan gerçəkliklərindən çıxış edərək milli birliyin formalaşması və yaşamaq hüququ qazanmasında etno-psixoloji-sosial faktorların roluna xüsusi diqqət yetirirdi. Məhz bu baxımdan H.Əliyevin çıxışlarında *milli şüur, milli ruh, milli əhval ruhiyyə, milli oyanış, milli hiss, milli ideologiya, milli mənlik, milli heysiyyət* kimi sözlər tez-tez işlədilirdi. Yuxarıda göstərilən bütün bu anlayışlar milli dünyagörüşün milli ideologiyaya qədər inkişaf prosesində əhəmiyyətli elementlərdir.

Deyilən fikrin təsdiqi üçün cənab Heydər Əliyevin müxtəlif tribunalardan, rəsmi tədbirlərdə səsləndirdiyi fikirlərə diqqət yetirilməsi yerinə düşərdi. Məsələn... "Biz indi əsrin sonuna doğru addımlayarkən müstəqil dövlət kimi öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır" [2, s.79]; "Hər bir xalqın, o, cümlədən Azərbaycan xalqının milli mənliyi var. ..xalq milli əhval ruhiyyə ilə milli mənlik zirvəsinə qalxır....." [2, 132-133]; "Hamı *(vəzifəli şəxslər)* bizim milli ideologiyamızın, milli əxlaqımızın, mənəviyyatımızın prinspiləri əsasında yaşamalıdır.." [2, s.360]; "Milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazım idi. Bu asan proses deyildir. Çox vaxt tələb eləyən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi.." [2, s.363].

Qeyd etmək lazımdır ki, 90-cı illərin əvvəllərindən məqsəd kimi seçilən amallara artıq nail olunmuşdur. Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2010-cu il iyulun 22-də Mətbuat Şurasındakı fikirləri diqqəti cəlb edir: "Azərbaycanda elə bir model yarada bildik ki, həm iqtisadi islahatlar, həm siyasi islahatlar paralel şəkildə aparılır və ölkəmizin hərtərəfli inkişafını təmin edir. Azərbaycanın böyük və zəngin tarixi vardır. Bizim milli dəyərlərimiz vardır. Bu dəyərlər bizim üçün əsasdır. Biz ümumbəşəri dəyərləri bölüşürük...milli mənəvi dəyərlər üzərində müasir, dünyəvi, dünyaya açıq olan dövlət qurmaq bizim əsas məqsədimizdir[1, s.147].

2020-ci ildə 44 günlük müharibədə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü təmin etməsinə nail olması milli birliyin möhkəmlənməsi və inkişafı üçün yeni perpektivlər yaradır. Heç də təsadüfi deyildir ki, 30 ilə yaxın dövr ərzində Azərbaycan milli iradəsinin prioritet məsələsi işğal edilmiş torpaqlarının azad ediılməsi idi isə, indi artıq iqtisadi məsələlər, azad olunmuş torpaqların iqtisadi dirçəlişinə nail olunması, milli təsərrüfat konsepsiyasının yeni reallıqlara cavab verməsi prioritet məsələyə çevrilmişdir.

## Ədəbiyyat siyahısı

**1.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Bakı, 2010-cu il

**2.** Heydər Əliyev, Müstəqilliyimiz əbədidir, çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr üçüncü kitab, 1994 dekabr-1995 iyun: Bakı, Azərnəşr, 1997

**3.** Rəsulzadə Məhəmməd Əmin, Milli Birlik : Bakı, "Çıraq" 2009, 176 s.

**4.** Градов А.П., Национальная экономика. 2-е изд. –СПб.: Питер, 2005, с.41

**5.** Колин К. К., Неоглобализм и культура: новые угрозы для национальной безопасности // Знание. Понимание. Умение. 2005. №2. URL: https://cyberleninka.ru/article/n/neoglobalizm-i-kultura-novye-ugrozy-dlya-natsionalnoy-bezopasnosti

**6.** Курганов И.А., Нации СССР и русский вопрос:, Комитет за права и свободу России, 1961, с.8, с.13

**7.** Савченко П.В. (под.ред), Национальная экономика. -М: «Экономист», 2005, 813 с.

## Резюме

### Сейфаддин Самандаров

### Национальное единство и национальная экономика в контексте историко-философских оценок

В статье исследуются историко-экономические особенности процесса формирования национального мировоззрения относительно к таким его компонентам как, национальная экономика. В статье также рассматриваются содержания таких понятий как нация, национальная экономика с точки зрения методологических критерий современной Азербайджанской общественно-экономической литературы.


***Ключевые слова***: *нация, национальная экономика, экономическая система, экономическая модель*


## Summary

### Seyfaddin Samandarov

### National unity and national economy in the context of historical and philosophical assessments

The article explores the historical and economic characteristics of the formation of a national outlook with respect to its components such as the national economy. The article also discusses such concepts, their contents, as a nation, the national economy in terms of methodological criteria from the standpoint of modern Azerbaijani socio-economic literature.


***Keywords:*** *nation, national economy, the economic system, the economic model*

**UOT 321.1**

**ANAR EYYUBOV**
*UNEC "İqtisadiyyat və idarəetmə" kafedrasının baş müəllimi, t.ü.f.d.*
*anar_eyyubov@unec.edu.az; anar_rustam@rambler.ru, Azərbaycan*

# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNDƏ TARİXİ NARRATİVLƏR: MÜQAYİSƏLİ TƏHLİL

***Açar sözlər:*** *tarixin tədrisi, münaqişə, milli miflər, millətçilik, ideologiya*

*"Rus sülhməramlıları Stepanakertdə (Xankəndində - müəl.) məktəblərin birinin minalardan təmizləmiş, istilik və işıq xəttlərini bərpa etmişdilər, və müəssisə öz fəaliyyətini bərpa etmişdir"*

*"Kavkazki uzel" dərgisi [11]*

Münaqişələrin uzunmüddətli təsirlərindən, və hətta münaqişənin bitməsinə imkan verməyən vacib amillərdən biri münaqişənin səbəbləri, gedişatı və eskalasiyadan sonrakı dövrlə bağlı ictimai şüurda, xüsusən də yeniyetmələr, uşaqların şüurlarında bir çox ictimai institutlar, lakin, şübhəsiz, ilk növbədə təhsil sistemi tərəfindən formalaşdırılan stereotiplər, miflər, ideoloji təlqinlərdir. Xankəndində açılan məktəbdə tarixi hadisələr, baş verən müharibə, azərbaycanlılarla, türklərlə münasibətlər hansı prizmadan tədris edilir?! Yerli erməni icmasını azərbaycanlılarla birgə yaşamağa hazırlayırmı?! Yeni nəsil "tarixi ədalət", "tarixi vətən" kimi anlayışları beynəlxalq hüquq normaları ilə, etnik mənsibiyyətlə vətəndaş mənsubiyyətini ayırmağa hazırdırmı?! Yaxud XXI əsrin ortalarında xalqları yenə qırğına verəcək yeni radikal-millətçi "ordu" yetişdirilirmi?! Bu suallara cavab vermədən münaqişənin bitməsindən danışa bilmərik, çünki ictimai şuurda davam edən münaqişə gec-tez yenidən silahlı toqquşmalara, müharibələrə gətirib çıxarır...

Tarixin tədrisini üç istiqamətin vəhdəti kimi nəzərdən keçirmək lazımdır: 1) elmi istiqaməti, yəni tədris alanları tarixi faktlar, hadisələr, şəxsiyyətlər və s. haqqında məlumatlandırmaq; 2) təcrübənin ötürülməsi – yəni tarixi proseslərdən nəticə çıxararaq müəyyən təcrübə, səbəb-nəticə alqoritmlərini mənimsəmək; 3) ideoloji istiqaməti – bütün tarixin öyrənilməsi mümkün olmadığı üçün dövlət səviyyəsində müəyyən seçim, seleksiya edilir, yalnız bilikli şəxs deyil, dəyərləri olan vətəndaş yetişdirmək prizması önə çıxır və bu zaman ideoloji yanaşmalardan qaçmaq mümkün deyil. Bu üç istiqamət üzrə ideal bərabərliyin apriori mümkün olmasa da (demokratik idarəetmədəki hakimiyyətin üç qola bölnməsi prinsipinə bənzər), müəyyən tarazlıq vacibdir. Təəssüf ki, Sovet cəmiyyətində və hələ də o dövrün ideoloji tədris metodlarını tətbiq edən postsovet məkanında ideoloji tərəf daima "diktator" rolunu oynamış (qeyd edək ki, demokratik Qərbdə də tarixin tədrisində ikili standartlar mövcuddur, lakin onlar daha darçərçivəli xarakter daşıyır və Sovet cəmiyyətindəki kimi digər fənnlərin tədrisində mütləq element kimi olması tələbləri səviyyəsinə çatmır) və tarixin ideologiyanın xidmətçisi səviyyəsinə endirilmişdir [4.; 9. s. 165-167; 12.].

Sovet imperiyasının süqutundan sonra keçmiş respublikalarda milli kimlik axtarışları, milli ideologiyanın formalaşdırılması prosesi başladı. Bu zaman ayrı-ayrı siyasilər, ziyalılar, alimlər tərəfindən sovet tarixinin formalaşdırılması düstur və mexanizmlərini sadəcə yeni müstəvidə təqdim edildi. İmperiyanın ömür sürməsi üçün istifadə edilən ictimai dərketmə manipulyasiyaları özlərinin gənc və bu imperiya iddialarına cavab verməyən ölkələrinin tarixinə, bu gününə və gələcəyinə şamil edildi. «Roma papasından daha çox katolik» olmaq prinsipi ilə tarixi institutlar, sovet şinelindən çıxmış alimlərin əksəriyyəti ifrat millətçilik, şovinizmə yuvarlandılar. Buna bənzər prosesləri bütün postsovet dövlətlərində izləmək olar [8.]. Oxşar proseslərin baş verməsi heç də hər yerdə Azərbaycan-Ermənistan münasibərlərində kimi sonunclanmaması şərtləndirən əsas məsələlərdən

biri bu tarixi allüziyalar və illüziyaların nə dərəcədə milli siyasi, mədəni elita tərəfindən ciddi qəbul edilməsi, hüquqi, dövlət quruculuğu proqramları, sənədlərində əks olunması, ictimai şüurda möhkəmlənməsi idi. Niyə milli narrativlərin real həyatda ziddiyyətləri və fəlakətləri ilk və geniş miqyaslı formada məhz bu iki dövlət arasında baş verdi?! Və burada erməni dövlətçilik ideologiyasının, ictimai şüurda kök salmış milli-tarixi stereotiplərin müstəsna rolunu qeyd etməmək olmaz (obyektivlik naminə qeyd edim: azərbaycan cəmiyyətində də tarixdən ideoloji silah kimi, tarixlə manipulyasiyalar, elmin ideologiyaya boyun əyməsi prosesləri baş verib və verməkdədir. Lakin bu proseslər ümumi postsovet milli miflərin yaradılması və ictimai şüurda möhkəmlənməsi səviyyəsindən bir o qədər kənara çıxmır. Yəni rəsmi dövlətin yürütdüyü siyasətdə, hüquqi sənədlərdə, ictimai şüurda milli miflər "olum-ölüm" prizmasından baxılmır, konyuktur xarakter daşıyır və bəzi ifratlıqlar kütləvi təsir alətlərindən (ilk növbədə məktəb dərsliklərindən) çıxarılmaqdadır [1. s. 52-63].)

**Etnik və dövlətlərarası münaqişələrə ictimai-ideoloji zəmin hazırlayan milli miflərin əks olunması səviyyəsi (müqayisəli)**

| | Ermənistan | Azərbaycan |
|---|---|---|
| Zaman | Sovet dönəmində də NATO üzvü Türkiyəyə qarşı alət olan antitürkçülüyün təbliğatı çərçivəsində | Sovet dövründə millətçiliyin təqibi, müstəqillik dönəmində formalaşmağa başlaması |
| Ərazi | Yuxarıda qeyd edilən istiqamətdə nəinki Ermənistan, bütün Sovet imperiyası çərçivəsində, diasporalar vasitəsilə qlobal səviyyədə | Böyük əksəriyyəti daha çox daxili auditoriyaya hesablanmış deyə Azərbaycan, Türkiyə və qismən digər türkdilli dövlətlər |
| Əks olunma | Sovet dərslikləri və elmi arsenalı, sonradan milli dərsliklər, xaricdəki çoxsaylı dərgilər, mətbu orqanlar və s. | Müstəqillik dönəmində dərsliklər, Türk dünyasındakı dərgilər, mətbu orqanlar və s. |
| İctimai institutlar | Diaspora, kilsə, ziyalı və siyasi elita | Siyasi-bürokratik aparat və qismən ziyalı elita |
| Auditoriya | Monoetnik sosiumda yaşayan toplum | Polietnik sosiumda yaşayan toplum |
| Dinamika | Ardıcıllıq, tədricən yüksələn xətt | Nizamsızlıq, dalğavari xətt |
| Əhatə dairəsi | Kilsə və diaspora vasitəsi ilə həm Ermənistan, həm dünya ermənilərin böyük əksəriyyətini | Güclü rusdilli, həmçinin qeyri-dindar düşüncəli elitanın mövcudluğu şəraitində respublikadakı azərbaycanlıların bir qismini |
| Formalaşması | İstisnalıq, artan maksimalizm və "anti"lik əsasında | Daha böyük birliklərin parçası kontekstində, ilkin kompromisslikdən tədricən sərtləşməsi |

**Qeyd:** Cədvəlin Ermənistan tərəfində göstərilənlərə dair xeyli istinadlar vermək olar, lakin obyektivlik naminə əksər məqamlarla bağlı A.İskandaryan və B.Arutyunanın məqaləsinə istinad etmişəm [6. s. 145-158].

Gördüyümüz kimi, Ermənistanda uzunmüddətli, məqsədyönlü və cəmiyyətdə nüfuz sahibi olan kilsənin bilavasitə iştirakı ilə, vətənində hamısını əbədi düşmən elan etdiyin qonşu xalqlarla yaşamaq dərdini çəkməyən diasporanın maddi və digər dəstəyi ilə erməni ictimai şüurunda radikal millətçilik və mifoloji stereotiplərlə bəslənən neçə nəsil yetişdirildi və yetişdirilməkdədir. Ermənistanın müstəqilliyə meyli də milli dövlət quruculuğundan deyil, başqa dövlətin ərazisinə iddialarla, yəni etnik münaqişəyə düşünülmüş şəkildə getməklə başlandı [6. s. 145]. Bir tərəfdə "Sözdə soyqırım-türklər düşmənimiz, azərbaycanlılar türklərdir, deməli onlar da düşmənimizdir" məntiqi, qonşu dövlətlərin ərazilərinə "Böyük Ermənistan"ın "bərpası" prizmasından yanaşaraq iddiaları siyasi platformada, hüquqi səviyyədə təsbiti + dini istisnalıq (hətta xristian dünyasında belə fərqli, birinci olmaq, digər xristianların, dünya ictimaiyyətinin onlara hansısa uzaq keçmişdəki xidmətlərinə görə borclu olması təsəvvürləri). Digər tərəfdə cəmi 20 il ərzində təbliğ edilən və cəmiyyətdə güclü, əsaslı təməlləri formalaşmayan türkçülük, islamçılıq "kosmopolitizmi" ki (qeyd edək ki, uzun dövrlər ərzində polietnik yaşayış siyasi elitanın dövlətçilik quruluşunda etnik istisnalığın təhlükəliyini dərk olmasına səbəb olmuşdur), onlar daima dövlət siyasətinin ardıcıl yanaşmasında daima güclü nəzarətdə saxlanılırlar (xüsusən, radikal islamçılıq meylləri).

Bu müqayisə ümumi şəkildə yalnız münaqişənin başlama səbəblərini göstərmir. Münaqişənin real bitməsinə imkan verməyən aspektləri, münaqişənin yenidən alovlanması təhdidləri vurğulayır. 1994-cü ildən bu yana erməni cəmiyyətini iddia etdikləri keçmiş Dağlıq Qarabağ Muxtar Respublikasının ətrafındakı və bundan öncə siyasi müstəvidə müzakirə predmeti olmayan əraziləri qaytarmağa hazırlayırdılarmı-? Əksinə mifolojik yanaşma praqmatizmi tam məğlub edərək yüksəliş xətti ilə gedirdi: Dağlıq Qarabağ - bütün Qarabağ, imkan olsa Naxçıvan, Ermənistan dövləti Qarabağsız mövcud ola bilməz və s. (Bu cür milli-mifoloji təbliğat və təhsilin məhsulu olan Siyasi və iqtisadi strateji tədqiqatlat mərkəzinin rəhbəri Beniamin Poqosyanı dinləyin [10.]). Dırnaqarası Dağlıq Qarabağ respublikası bütün işğal etdiyi əraziləri öz "sərhədlərinə" daxil edərək rəsmi olaraq ərazisinin 11,430 kvadrat kilometr olduğunu bildirməkdədir [13. s. 23]. Halbuki keçmiş Dağlıq Qarabağ Muxtar vilayətinin SSRİ dövründə ərazisi yaradılanda cəmi 4161 км², sonralar 4400 км² idi [2.; 3.].

2000-ci illərin əvvəllərində Tbilisidə psixoloqlara yaxşı tanış olan bir fenomenin şahidi oldum: 17 yaşlı erməni gənci yerli azərbaycanlı qəbiristanlıqda Avropada da tanınan şair Mirzə Şəfi Vazehin qəbirüstü abidəsini görən kimi huşunu itirir. Ayıldanda dili topuq çala-çala "Tələt paşa" dedi (1915-ci ildə Osmanlı Türkiyəsinin rəhbərlərindən biri-müəl.). Beləliklə, 3,5 milyonluq, 29 743 kvadrat kilometrlik dövlət ərazisinə sahib xalqı ən azı İkinci Dünya Müharibəsi dövründən bu yana – 70 ilə yaxın "Böyük Ermənistan" imper mifi, sözdə erməni soyqırımı, xristian dünyasının beşiyi, "barbar" türk-müsəlman dünyası qarşısında son hədd psixologiyası ilə yetişdiriblər və əfsuslar, bu proses indi də davam etməkdədir. Təbii, Azərbaycanda da tarixi keçmiş, itirilmiş tarixi ərazilər və s. bu kimi aspektlərin tədqiqi və təbliğatı zamanı ifrata varanlar var. Lakin bu ideyalar heç vaxt praqmatik dövlət maraqları, dövlətçiliyin dayanıqlığını, beynəlxalq hüququi normaları və ən başlıcası, qonşularla münasibətləri qanlı dava səviyyəsinə çatdıracaq səviyyədə olmayıb. Məsələn, XVI əsrin Səfəvi dövlətinin sərhədlərini bərpa etmək, tarixən etnik azərbaycanlıların yaşadığı bütün bölgələri, beynəlxalq hüquq və reallıqları unudaraq, respublikanın tərkibinə qatmaq kimi utopik ideyalar ictimai diskursda, ictimai şüurda, dövlət siyasətində ciddi nəzərdən keçirilməyiblər. Ermənistanın isə dövlət gerbində belə, qonşu dövlətlərin əraziləri «tarixi Ermınistan» ərazisi kimi göstərilir və bu məsələ Konstitusiyada da (həmçinin Müstəqillik Bəyannaməsində də) qeyd edilir [7. s. 4; 5.].

**Ermənistan və Azərbaycan futbol idman növü üzrə yüksək liqadakı komandaların adları**

| Ermənistan | Azərbaycan |
|---|---|
| Ararat (qonşu dövlətin ərazisindəki dağın - Ağrıdağın ermənilərin əsassız olaraq verdiyi ad – həm ərazi iddiası olaraq, həm də dağın güya məhz Bibliyada qeyd edilən dağ olması kimi təsdiq edərək özünün xristianlığını qədimləşdirmək məqsədi ilə) | Neftçi (peşə adı) |
| Ararat-Ermənistan (eyni mifologiya) | Qarabağ (Ağdam) |
| Alaşkert (qonşu dövlətin ərazisində şəhər) | Zirə (paytaxt ətrafı qəsəbə) |
| Lori | Sumqayıt (paytaxt yaxınlığında şəhər) |
| Noa (mifik dini şəxsiyyətə, onun ermənilərlə bağlılığına işarə) | Qəbələ (bölgə şəhəri) |
| Urartu (eramızdan əvvəl mövcud olmuş və etnik mənsubiyyəti mübahisəli olan çarlıq) | Sabail (paytaxtın bir rayonu) |
| Van (qonşu dövlətin ərazisi) | Keşlə (paytaxtdaxili qəsəbə) |
| Şirak | Sabah Bakı |
| Pyunik | |
| Qandzasar (qonşu dövlətin ərazisi) | |

Mənbə: [14.; 15.]

Cədvəldən aydın olur ki, Azərbaycanda cəmi bir komandanın adını şərti olaraq ideoloji layihə adlandırmaq olarsa (yenə də söhbət Azərbaycan ərazisindən gedir, qonşu dövlətin ərazisindən deyil), Ermənistanda 10 komandanın 7-sinin adı ideoloji-mifoloji xarakter daşıyır və dolayısı yolla ictimai diskursda qonşuların beynəlxaq hüquqla tanınmış ərazilərinə iddiaların ictimai şüurda nə qədər dərin kök salmasının daha bir göstəricisidir.

Tarixi hadisələrin siyasi diskursda müzakirəsi, bəzi qruplar tərəfindən radikal forma alması təbiidir və dünyanın ən inkişaf etmiş demokratiyalarında belə mövcuddur [16.]. Etnik və dövlətlərarası münasibətlərə, son nəticədə ümumən beynəlxalq təhlükəsizliyə təhdidə çevrilmə halı radikal-şovinist millətçilik ideyaları və miflərin dövlət siyasətinin təməli elan edildikdə, hüquqi sənədlərdə, tarix dərsliklərində, illüziyaların əhalinin mütləq əksəriyyətində reallığı əvəz etdikdə baş verir. İtaliyanın indi Roma imperiyasının sərhədlərini bərpa etmək, Fransanın Böyük Karl imperiyasını yenidən dirçəltmək kimi istəklər dövlət siyasətini müəyyən etsələr, nə qədər fəlakətlərin baş verə biləcəyini təsəvvür edə bilərik (bu mənada Fransa, Belçika, Niderland paralamentlərində qəbul olunan sənədlərin absurdluğunu qeyd etməklə yanaşı, mən bunu bu ölkələrin siyasi elitasının məkrli bir planı kimi deyil, bir qrup qanunvericilərin dünyagörüşünün darlığı və siyasi savadsızlığı ilə izah etməyi tərci edirəm).

Qeyd edilənlər münaqişənin neqativ uzunmüddətli təsir və təhdidlərinə dair idi. Düşünürəm ki, Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasının vacib amillərindən biri daha praqmatik, tolerant, radikal, mifoloji stereotipləri inkar, dəlilik, dövlət və regional təhlükəsizliyə, bu regionda yaşayan bütün xalqlar üçün təhlükəli olduğunu dərk və qəbul edən cəmiy-

yətlərin qurulmasından keçir. Və bu məsələdə siyasi və mədəni elitanın, təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət və vəzifələr düşür.

### Ədəbiyyat siyahısı


1. Eyyubov, A.K. Azerbaycan okullarında tarih eyitimi: Sovet ideolojisinden vazgeçiş ve otoriter yöntemlerin sürdürelmesi // Akademik Tarih və Düşünce Dergisi, - 2018. № 5 (16), - s. 52-63;

2. Азербайджанская Советская Социалистическая Республика: [электронный ресурс]. - https://www.booksite.ru/fulltext/1/001/008/107/025.htm;

3. Атлас Союза Советских Социалистических Республик — Москва: ЦИК СССР, - 1928. – 114 с.;

4. Бердинских, В.А. Ремесло историка в России / - Москва: Новое литературное обозрение, - 2009. – 608 с.;

5. Декларация о независимости Армении: [электронный ресурс]. - https://www.gorby.ru/userfiles/armenia.pdf;

6. Искандарян, А., Арутюнян, Б. Армения: «Карабахизация» национальной истории // Сборник «Национальные истории в советском и постсоветских пространствах» / Под редакцией К.Аймермахера, Г.Бордюгова, - Москва: Фонд Фридриха Науманна, - 2003, - с. 145-158;

7. Конституция республики Армения: [электронный ресурс] - s.4. https://legalns.com/download/books/cons/armenia.pdf

8. Национальные истории в советском и постсоветских пространствах» / Сборник под редакцией К.Аймермахера, Г.Бордюгова, - Москва: Фонд Фридриха Науманна, - 2003, - 432 с.;

9. Огнев, Д.А. Советская историческая наука и идеология: постсоветская перцепция // Вестник Томского государственного университета, - 2019. № 439, - с. 165-167;

10. Погосян, Б. Интервью в передаче «Düz danışaq»: [электронный ресурс] – 12 dekabr, 2020. - https://www.youtube.com/watch?v=Y55TEWussZo

11. Работа школы возобновлена в Степанакерте (Xankendi – müəl.): [электронный ресурс] / Интернет СМИ «Кавказский узел», - 28.11.2020. - https://www.kavkaz-uzel.eu/articles/356987/;

12. РОССИЯ И ИДЕОЛОГИЯ (опыт практического философско-хозяйственного концептуализма) / под ред. Ю.М.Осипова, Е.С.Зотовой, Н.П.Недзвецкой. – Москва: Экономический факультет МГУ им. М.В.Ломоносова, - 2020, - 152 с.;

13. Статистический ежегодник «Нагорно-Карабахской республики» (2008-2014 г.) - Степанакерт (Xankəndi – müəl.), - 2015;

14. Таблица чемпионата высшей футбольной лиги Азербайджана [электронный ресурс] / Интернет-издание. - https://www.flashscore.ru/football/azerbaijan/premier-league/ ;

15. Таблица чемпионата высшей футбольной лиги Армении [электронный ресурс] / Интернет-издание. - https://www.flashscore.ru/football/azerbaijan/premier-league/ ;

16. Ян, Э. Спорные политические вопросы с точки зрения современной истории / Москва: Политическая энциклопедия, - 2014. – 359 с.

## Резюме

**Анар Эюбов**

### Исторические нарративы в армяно-азербайджанском конфликте: сравнительный анализ

Статья посвящена одной из актуальных проблем в послевоенной ситуации в армяно-азербайджанском конфликте – вопросам завершения конфликта в общественном сознании двух народов и роли преподавании истории, создаваемых политических мифов в этом.

Автор в сравнении указывает, что по ряду объективных и субъективных причин исторические аллюзии и мифы играют большую роль в армянском обществе и приводит примеры, показывающие, насколько глубоко в общественном сознании армянского общества засели идеи исключительности и максимализма. Высказывается убеждение, что без отражения послевоенного «отрезвление» ряда политической, культурной элиты Армении в преподавании истории, как одного из ключевых факторов формирования общественного сознания, невозможное действительное и долговечное завершения армяно-азербайджанского конфликта.


***Ключевые слова**: преподавание истории, конфликт, национальные мифы, национализм, идеология*


## Summary

**Anar Eyyubov**

### Historical narratives in the Armenian-Azerbaijani conflict: Comparative analysis

The article is devoted to one of current issues in the post-war situation in the Armenian-Azerbaijani conflict - the issues of ending the conflict in the public consciousness of the two peoples and the role of teaching history, created political myths in this regard.

The author points out in comparison that for a number of objective and subjective reasons, historical allusions and myths play a significant role in Armenian society and gives instances showing how profoundly the ideas of exclusivity and maximalism have penetrated into the public consciousness of the Armenian society. The conviction is expressed that without reflecting the post-war "sobering up" of a number of the political and cultural elite of Armenia in teaching history, as one of the key factors in the formation of public consciousness, it is impossible to achieve a real and durable end to the Armenian-Azerbaijani conflict.


***Keywords:** teaching history, conflict, national myths, nationalism, ideology*

UOT 327

**AYNUR ƏLİŞANOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*aynuralishanova7@gmail.com, Azərbaycan*

# BEYNƏLXALQ SÜLH PROSESLƏRİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Açar sözlər:*** *BMT, MDB, ATƏT, GUAM, NATO, münaqişələr, sülh, dilemma*

Beynəlxalq sülhməramlı fəaliyyətin BMT-nin yarandığı gündən götürsək, faktiki olaraq 76 ilə yaxın tarixi vardır. Ancaq ötən əsrin son 25 ili ərzində bu fəaliyyətin miqyası xeyli genişlənmiş, beynəlxalq sülhməramlı fəaliyyətlərdə iştirak edən aktorların sayı artmışdır. Yuxarıda göstərildiyi kimi, bugün sülhməramlı fəaliyyət təkcə BMT tərəfindən deyil, həm də regional təşkilatlar, dövlətlərin müvəqqəti koalisiyaları tərəfindən həyata keçirilir. Bu fəaliyyətin özü də keyfiyyətcə dəyişmiş və dəyişməyə davam etməkdədir. Hazırki dövrdə bu fəaliyyət təhlükəsizlik sferasındakı bütün səviyyələrdə və ilk növbədə regional səviyyədə ən mühüm beynəlxalq idarəetmə alətlərindən biri kimi qəti şəkildə möhkəmlənmişdir [2, s. 81].

Şübhəsiz ki, müxtəlif mübahisəli məqamları nəzərə alsaq, dünyada sülhməramlı fəaliyyətin mükəmməl olmadığını görərik. Səmərəlilik səviyyəsinin aşağı olması, bəzən də sülhün qorunması məqsədilə gerçəkləşdirilən əməliyyatların gedişatında buraxılan faciəvi səhvlərə görə dünya ictimaiyyəti tərəfindən tənqid atəşinə tutulmaqdadır. Ancaq bütün bunlara baxmayaraq müasir sülhməramlı fəaliyyət bütövlükdə beynəlxalq aləmdə, bu və ya digər formada beynəlxalq siyasi arenanın iştirakçısı olan ölkələrdə, eləcə də beynəlxalq sülhməramlı missiyaları qəbul edən dövlətlərin əksəriyyətində geniş yer almış və qəbul edilmişdir. Sülhməramlı fəaliyyət beynəlxalq və regional təhlükəsizlik sferasında silahlı münaqişələrin qarşısının alınmasına, hərbi toqquşmanın dayandırılmasına və siyasi yollarla tənzimlənməsinə, sülhün və dinc yanaşı yaşamağın bərqərar olunmasına yol açan nisbətən qərəzsiz və daha az səviyyədə siyasiləşmiş tənzimləmə və idarəetmə forması kimi qavranılır və qəbul edilir [15, s.9].

Hələ ki indiyə qədər beynəlxalq sülhməramlı fəaliyyətin ümumi qəbul edilmiş dəqiq bir tərifi yoxdur. Təriflərin əksəriyyəti təsviri xarakter daşıyır və bir çox hallarda dəyişməkdə olan doktrinaları və təcrübəni xarakterizə etməkdə gecikir. BMT-nin rəsmi nəşrlərində sadəcə olaraq bildirilir ki, o, “beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması üzrə BMT-nin alətlərindən biridir” [15, s.17], sülhün qorunub saxlanılması üzrə fəaliyyət isə “münaqişə vəziyyətindən çıxışın mürəkkəb dövrünü yaşamaqda olan və kömək qəbul edən ölkələrə yardım göstərilməsi üçün BMT-nin ixtiyarında olan ən effektli alətlərdən biridir” [14]. Bununla yanaşı burada nəzərdə tutulur ki, beynəlxalq sülhməramlı fəaliyyətin başlıca növlərindən biri münaqişələrin “məhdudlaşdırılması və tənzimlənməsi” məqsədilə çoxmillətli silahlı qüvvələrin hərəkətə keçməsinin təşkil edilməsidir [13]. Ancaq burada söhbət heç də münaqişəyə yönəldilən beynəlxalq müdaxilənin bütün hər hansı bir formasının tətbiq edilməsindən getmir.

Beynəlxalq sülhməramlı fəaliyyətin müəyyənləşdirilməsi və tərifi haqqında mübahisələrin davam etməsinə baxmayaraq, son onilliklər ərzində geniş beynəlxalq təcrübəyə söykənən sabit bir konsensus formalaşmışdır. Bu konsensusa görə, sülhməramlılıq özünü beynəlxalq cəmiyyətin həyata keçirdiyi kollektiv hərbi tədbirlərin xüsusi bir növü kimi göstərir. Bu tədbirlər prinsipcə məcburi xarakter daşıyan və BMT-nin Təhlükəsizlik Şurasının Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin VII fəsli çərçivəsində (“Sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər”) tətbiq edilən

tədbirlərlərdən fərqlənir [16]. Məcburi xarakter daşıyan tədbirlər beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması və bərpası, həmçinin dövlətlərin müstəqil olaraq və ya beynəlxalq koalisiyanın tərkibində bu yöndə atdığı addımların 51-ci maddə əsasında dəstəklənməsi məqsədilə tətbiq edilir ("Dövlətin fərdi və ya kollektiv şəkildə özünü müdafiə hüququ") [16].

Real həyatın həmişə nəzəriyyədən zəngin olmasına baxmayaraq, məhz *qərəzsizlik* meyarının tətbiqi və münaqişədə iştirak edən bütün əsas tərəflərin razılığı sülhməramlı kateqoriyasına aid olan və ya olmayan beynəlxalq hərbi əməliyyatlar arasında aydın bir hüdudun qoyulmasına imkan verir. Digər tərəfdən bu hüdudların müəyyənləşdirilməsinin həmin əməliyyatların hansı beynəlxalq formatda və hansı beynəlxalq və ya regional təşkilatların və institutların qərarı ilə (və ya belə qərarlar olmadan) həyata keçirilməsindən asılılığı yoxdur.

Qərəzlilik və ya qərəzsizlik meyarının tətbiqi və münaqişədə iştirak edən tərəflərin razılığının olması və ya olmamasının nəzərə alınması həyata keçirilən bu və ya digər sülhməramlı əməliyyatların legitimliyinin müəyyənləşdirilməsində həlledici rol oynayır. Digər hallarda dövlətlərin müdaxiləsinin və onların başqa ölkələrin ərazisindəki silahlı münaqişələrdə iştirakının legitimliyi başqa meyarlar əsasında müəyyən edilir (BMT Nizamnaməsinin 51-ci maddəsi əsasında). Bu məsələnin dərindən araşdırılması apardığımız tədqiqatın çərçivəsindən bir qədər kənara çıxsa da, bu spesifik aspektin də baxılmasına yer ayıracağıq. Ancaq göstərilən halda bizim üçün qərəzsizlik meyarının ayrıca göstərilməsi beynəlxalq hərbi fəaliyyətin geniş spektrindən xüsusi bir kateqoriyanın, daha doğrusu sülhməramlı əməliyyatlar kimi xarakterizə olunan kateqoriyanın ayrılması baxımından xüsusi önəm daşıyır.

Müasir dünyada soyuq müharibə illərində həyata keçirilən sülhməramlı fəaliyyətlərdən kəskin şəkildə fərqlənməkdə olan hazırki sülhməramlı fəaliyyətlərin spesifikliyini müəyyən edən silahlı münaqişələrin dərin və davam etməkdə olan transformasiyası fonunda yuxarıda göstərilən fərqin təsbiti xüsusi əhəmiyyət kəsb edir. Dünyada baş verən müasir münaqişələrin bizim məqalədə baxılan ən önəmli xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

- *Birincisi, dünyadakı silahlı münaqişələrin miqdarının və intensivliyinin azalması* üzrə ümumi bir təmayülün olması; bu xüsusiyyətlər bir qayda olaraq hərbi münaqişələrdəki qurbanların miqdarı ilə ölçülür.
- *İkincisi*, dövlətlərarası hərbi münaqişələrin azalması fonunda dövlətdaxili münaqişələrin böyük əksəriyyət təşkil etməsi. *Dövlətlər getdikcə daha az hallarda bir-birlərilə vuruşurlar,* bununla yanaşı, müasir dünyada dövlətdaxili münaqişələrin beynəlmiləlləşməsinin müxtəlif formalarının baş verməsinə kifayət qədər rast gəlmək olar. Bu və bundan əvvəlki xüsusiyyətlər soyuq müharibənin bitməsindən sonrakı dövr üçün xarakterikdir və çoxillik statistika ilə təsdiqini tapmışdır.
- *Üçüncüsü,* bu xüsusiyyətlər müasir beynəlxalq sülhməramlı fəaliyyətin spesifikliyini müəyyən etmişlər. Bu spesifikliyin mahiyyəti ondan ibarətdir ki, son iki onillikdən bir qədər çox olan dövrdə *beynəlxalq ictimaiyyət* münaqişələrin tənzimlənməsi məqsədilə *getdikcə daha tez-tez dövlətdaxili münaqişələrə müdaxilə edir.*

Soyuq müharibə illərində BMT-nin sülhün qorunub saxlanılması üzrə dövlətdaxili silahlı münaqişə zonalarında həyata keçirdiyi əməliyyatlar bu təşkilatın praktikasında bir qayda olaraq deyil, istisna hallar kimi dəyərləndirilə bilər. Bugün isə vəziyyət tam əksinədir: əvvəllər dövlətlərarası silahlı münaqişələr zonasında keçirilən sülhməramlı əməliyyatlar, o cümlədən Yaxın Şərqdə (Ərəb-İsrail münaqişəsində), Hindistan-Pakistan münaqişə zonasında (Kəşmirdə) aparılan əməliyyatlar beynəlxalq təşkilatların təcrübəsində nadir rast gəlinən istisnalardır. Halbuki, sonrakı dövrlərdə dünyanın bir çox dövlətləri və regionları (o cümlədən Bosniya və Hersoqovina, Haiti, Kipr, Konqo Demokratik Respublikası, Kosova, Kot-d'İvuar, Liberiya, Livan, Qərbi Səhra, Timor-Leşti və bir çox başqaları) faktiki olaraq beynəlxalq sülhməramlı fəaliyyətin daimi resipiyentlərinə çevrilmişdilər.

Bu vəziyyət 1980-ci illərin sonlarında və 1990-cı illərin əvvəllərində beynəlxalq ictimaiyyəti, o cümlədən BMT-ni ciddi bir çağırış qarşısında qoydu. Belə ki, onların dünyanın müxtəlif regionlarında dövlətin daxilində baş verən silahlı münaqişələrə müdaxilə etmələri *suveren dövlətlərin daxili işlərinə qarışmamaq*

*prinsipinə ciddi şəkildə riayət etmələri* ilə həyata keçirmələri tələb olunur. Bu çağırış qarşısında cavabları daimi və dinamik təkmilləşmə prosesində olan beynəlxalq sülhməramlı

Apardığımız tədqiqatda beynəlxalq sülhməramlı fəaliyyətlə bağlı məsələlər regional təhlükəsizlik sferasındakı beynəlxalq idarəetmə prizması arasından baxılır. Buna görə də beynəlxalq sülhməramlı missiyaların həyata keçirildiyi zonalardakı silahlı münaqişələrin özü və həmçinin sülhməramlı əməliyyatların başlanması, həyata keçirilməsi və idarəsi ilə bağlı konkret məsələlər tədqiqatın diqqət mərkəzində yer almamışdır. Bizi birinci növbədə aşağıdakılar maraqlandırır:

– beynəlxalq sülhməramlı fəaliyyətin tənzimlənməsi – onun beynəlxalq normativ-hüquqi əsasları, o cümlədən onun həyata keçirilməsində tətbiq olunan meyarlar və prinsiplər, bu prinsiplərin beynəlxalq sülhməramlı fəaliyyət təcrübəsində əks olunması;

– bu fəaliyyətin doktrinaları və əsas növləri, onun həyata keçirilməsi üçün beynəlxalq standartların formalaşması;

– əsas iştirakçılar – dövlətlər və beynəlxalq təşkilatlar – və onlar arasında qlobal və regional səviyyədə qarşılıqlı əlaqə;

– və müəyyən bir səviyyədə beynəlxalq sülhməramlı fəaliyyətin siyasi iqtisadiyyat tərəfləri.

1990-cı illərdə postsovet məkanında sülhməramlı əməliyyatların aparılması üzrə əsas təşkilat rolunu oynamağa iddialı qurum Müstəqil Dövlətlər Birliyi (MDB) olmuşdur. Onun sülhməramlı fəaliyyətinin hüquqi əsasını 1992-ci ildə iştirakçıların imzaladığı Müstəqil Dövlətlər Birliyində sülhün qorunub saxlanılması üzrə hərbi müşahidəçilər qrupları və kollektiv hərbi qüvvələr haqqında Saziş təşkil etmişdir [12].

Sazişdə MDB-yə daxil olan dövlətlərin başçıları Şurasının qərarı ilə "münaqişə tərəflərini ayırmaq, atəşkəs və ya sülh barışığı haqqında razılaşmaların yerinə yetirilməsi üzrə müşahidələrin aparılması, bir-birilə qarşıdurmada olan tərəflərin silahsızlandırılması haqqında razılaşmalara nəzarət edilməsi, yaranan mübahisələrin və münaqişələrin dinc yolla tənzimlənməsi üçün şəraitin yaradılması, insan haqlarının və azadlıqlarının təmin edilməsinə kömək göstərilməsi, humanitar yardımın göstərilməsi (o cümlədən ekoloji qəzaların və ya təbii fəlakətlərin baş verdiyi hallarda) kimi vəzifələrin həyata keçirilməsi üçün" hərbi müşahidəçilər qruplarının və sülhün qorunub saxlanılması üzrə qrupların formalaşdırılması nəzərdə tutulmuşdu [12].

Qəbul edilməli olan müvafiq qərarlar sülhün qorunub saxlanılması üzrə BMT-nin qəbul etdiyi əsas prinsipləri nəzərə almalıdır. O cümlədən sülhün qorunub saxlanılması üzrə qruplar "yalnız o halda formalaşdırıla bilər ki, qarşıdurmada iştirak edən bütün tərəflərdən müraciət daxil olsun, həmçinin onlar arasında atəşin və digər düşmənçilik fəaliyyətlərinin dayandırılması haqqında razışlaşmalar əldə edilmiş olsun" [12]. Bu qruplardan döyüş əməliyyatlarında iştirak etmək üçün istifadə edilə bilməz, sazişi imzalayan iştirakçı dövlətlər isə onların "sülhməramlı, bitərəf və qərəzsiz statusuna" ciddi şəkildə riayət etməyi və heç bir halda onların hərbi xidmətçilərinin hərbi toqquşmada "hər hansı bir qarşıdurma tərəfinin maraqlarına uyğun olaraq birbaşa iştiraka cəlb edilməməsini" öhdələrinə götürürlər. Sülhün qorunub saxlanılması üzrə qruplar könüllülük əsasında formalaşdırılmalı və onların tərkibinə münaqişədə iştirak edən tərəflərin hərbi hissələri daxil edilməməli idi.

Lakin *MDB-nin sülhməramlı fəaliyyətinin potensialı tələbsiz qaldı, eləcə də MDB məkanında sülhün qorunub saxlanılması üzrə tam yararlı bir çoxmillətli qüvvələr formalaşmadı*. Dövlət başçıları Şurası yalnız bir dəfə sülhün qorunub saxlanılması üzrə əməliyyatın aparılması haqqında qərar qəbul etdi – 1994-cü ildə gürcü-abxaz münaqişəsi zonasında [3, s.152-153; 10, s.161-162]. Bununla belə MDB orada çoxmillətli hərbi qüvvələrin yerləşdirilməsinə nail ola bilmədi. Belə ki, Rusiyadan başqa heç bir dövlət həmin qüvvələrin formalaşdırılmasında iştirak etmədi. 2008-ci ilin avqustunda Tbilisinin bu əməliyyatın davam etdirilməsindən imtinası ilə əməliyyat başa çatmış oldu.

1992-ci ildə əldə edilmiş razılaşmalar əsasında – Dnestryanı və gürcü-cənubi-osetin münaqişə zonalarında nəzərdə tutulan iki digər sülhməramlı əməliyyatlar MDB-nin iştirakı olmadan həyata keçirildi. Öz mahiyyətinə görə bu əməliyyatlar daha çox dövlətlərin müvəqqəti

koalisiyalarının həyata keçirdiyi əməliyyatları xatırladırdı, hərçənd ki, hər iki halda bu koalisiyalar qeyri-adi xarakter daşıyırdı: bu, münaqişə tərəflərinin özlərinin hərbi hissələrinin iştirak etməsilə Rusiyanın həyata keçirdiyi sülhməramlı əməliyyatlar idi.

1993-cü ilin sentyabrında MDB daxilində kollektiv sülhməramlı qüvvələrin (KSQ) Tacikistanda tətbiq edilməsi haqqında daha bir qərar qəbul edildi. Lakin bu qüvvələr sülhün qorunub saxlanılmasına xidmət edən qüvvələr deyildi. Hərçənd ki, 1993-cü il sazişinin preambulası konkret olmayan istinada əsaslanan bir məzmunda idi: "müdafiə, təhlükəsizlik və sülhün qorunub saxlanılması məsələləri üzrə iştirakçı dövlətlər arasında bağlanan razılaşmalar və sazişlər" [5, s. 54]. Beləliklə də KSQ-nin tətbiq edilməsində sülhün qorunub saxlanılması üzrə kollektiv qüvvələrin (SQKQ) formalaşdırılması üçün heç bir şərtə riayət edilməmiş oldu. Tacikistanda həmin dövrdə atəşkəs haqqında razılaşma olmamışdı. KSQ-nin hərəkətə gətirilməsi Birləşmiş tacik müxalifətinin razılığı olmadan ölkənin iqtidarının xahişi ilə həyata keçirilmişdi. KSQ-yə qərəzsizlik prinsipi aid edilmirdi: bu qüvvələr KSQ-nin tərkibinə daxil edilmiş Tacikistanın hərbi qüvvələri ilə birlikdə müxalifətə qarşı döyüş əməliyyatlarının aparılması üçün yaradılmışdı [5, s. 54].

Zaman keçdikcə KSQ-nin xarakteri dəyişdi və onların tərkibindən Tacikistanın silahlı qüvvələri çıxarıldı. KSQ-nin özü strateji baxımdam mühüm obyektlərin qorunmasına yönəldildi, döyüş əməliyyatlarında isə onlar başlıca olaraq Əfqanıstan sərhədlərini qorumaqda olan Rusiya sərhədçilərinə dəstək verilməsi üçün iştirak edirdilər. Münaqişənin yekun mərhələsində MDB-nin kollektiv sülhməramlı qüvvələri 1997-ci ildə imzalanmış "Tacikistanda sülh və milli həmrəylik haqqında ümumi sazişin" hərbi müddəalarının yerinə yetirilməsinin təminində mühüm rol oynamış oldu.

15 may 1992-ci ildə Daşkənddə MDB ölkələrinin kollektiv təhlükəsizliyi haqqında Müqavilə imzalandı. Lakin Azərbaycan Respublikasının Milli Məclisi MDB-nin təsis sənədlərini ratifikasiya etmədi və Azərbaycandan olan nümayəndələr MDB-nin bu toplantısında müşahidəçi simasında iştirak etdilər [6, s. 28]. Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Milli Məclisinin sədri seçildikdən sonra Azərbaycan bu təşkilata daxil olmaq haqqında Müqaviləni ratifikasiya etdi və 24 sentyabr 1993-cü ildə MDB-yə daxil oldu.

Ölkə Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üçün kollektiv yardıma ümid edirdi, ancaq Azərbaycanın ümidləri özünü doğrultmadı və respublika 1999-cu ildə sənədin (kollektiv təhlükəsizlik haqqında müqavilə) qüvvədə olma müddətini uzatmaqdan imtina etdi və KTM-dən çıxdı [4, s. 309].

Azərbaycan Respublikasının MDB-də iştirak etməsinə onun dünyanın digər regionlarının iqtisadi-maliyyə və mədəni strukturlarına inteqrasiyası yolunda atdığı çox mühüm bir addım kimi baxılırdı [1, s. 9-10].

Azərbaycan 1997-ci ildə yeni dövlətlərarası qurumun – Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat – GUAM-ın qurulmasının təşəbbüskarlarından biri olmuşdur. GUAM-ın iştirakçısı olan ölkələrin ən önəmli və xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, Sovet İttifaqının müttəfiq respublikaları olduqları dövrdə bu ölkələrin tərkibində bu və ya digər səbəblər üzündən etnik azlıqların kompakt yaşadıqları ərazilər formalaşmışdır. SSRİ dağıldıqdan sonra bu ərazilərdə milli zəmində gərginlik ocaqları yaranmış oldu. De-fakto bu təşkilat üçün ən başlıca məsələlərdən biri həm də real və potensial münaqişələrin həll edilməsi haqqında olan məsələdir.

1 yanvar 2019-cu ildən Ukrayna Demokratiya və iqtisadi inkişaf təşkilatı – GUAM-da sədrlik səlahiyyətlərini qəbul etdi. Qeyd edək ki, GUAM ölkələrindəki ərazi münaqişələri faktiki olaraq uzanmış və ya "dondurulmuş" xarakter almışdı. Əslində, münaqişəyə birbaşa cəlb olunmuş bütün tərəflər mövcud status-kvodan narazı qaldıqlarına görə "dondurulmuş münaqişələr" kimi adlanan hallar reallıqda sadəcə olaraq təxirə salınmış münaqişələrdir. Tərəddüdlər və süründürməçiliklər üzündən itirilmiş olan uzun illərdən sonra münaqişənin yenidən kəskinləşməsi ehtimalı çox yüksəkdir.

Hazırda beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına böyük əngəl olan münaqişələrin həllində bir sıra amillər var və onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Nüfuzun yatırılması (basılması). Uzanmış münaqişələrin həll edilməsində iştiraka qar-

şı olan arqumentlərdən biri də – şöhrət gözləmək lazım deyil. Münaqişə tərəfləri arasında razılaşmaların əldə edilməsində önəmli rol oynaya bilən kənar subyektlər üçün uzanmış münaqişələr problemə çevrilir. Belə ki, müəyyən zaman və resurs sərf edən kənar subyekt böyük ehtimalla heç bir beynəlxalq dəyər qazanmaya da bilər, halbuki belə bir beynəlxalq tanınmanı (dəyəri) öz ölkəsində asanlıqla siyasi kapitala çevirə bilərdi. Ölkələrin və təşkilatların rəhbərləri münaqişələri dayandıra bilsələr və ya böhranı tənzimləməyə nail olsalar təşəkkür, minnətdarlıq qazana bilərdilər. Ancaq uzanmış olan münaqişə ilə məşğul olmaq şöhrət qazanmaq üçün heç də asan bir yol deyildir və dərhal uğur qazanmağa zəmanət vermir. Üstəlik, potensial razılaşmalar əksər hallarda kütləvi informasiya vasitələrindən uzaqda, pərdə arxasındakı danışıqlarda əldə edilir və əsasən bir neçə tərəfin uzunmüddətli bir dövr boyunca göstərdiyi səylərinin nəticəsi kimi ortaya çıxacaqdır. Böhranın şiddətli münaqişəyə keçməsinin qarşısının alınması daha az effektli göründüyü üçün uzanmış münaqişənin bitməsi elə də böyük bir qəhrəmanlıq təsəvvürünü yaratmır. Ancaq yenicə qızışmış münaqişənin dayandırılması yerli elektorata və ya üzv ölkələrə böyük bir nailiyyət kimi nümayiş etdirilə bilər.

Bununla belə, iştirak edən dövlətlərin bürokratik sistemləri və ya regional təşkilatlar önəmli dividendlər əldə edə bilərlər. Halbuki onlar siyasətçilərdən fərqli olaraq, müvəqqəti qələbələrə daha az dərəcədə əhəmiyyət verirlər və daha çox özlərinin inandırma imkanlarının və öz təsir etmə güclərinin geosiyasi nümayiş etdirilməsində maraqlıdırlar. Belə təşkilatlar həm də qərarların onlara daxil olan ölkələr tərəfindən kollektiv şəkildə qəbul edilməsi prosesi kimi qarşısıalınmaz bir yükün altında olduğundan AB, BMT, NATO və ATƏT daha mühüm rol oynaya bilərlər. Eyni zamanda qonşu ölkələr nüfuz qazandıran bu cür əlavə dividendlərin əldə edilməsinə az maraq göstərirlər. Onları daha çox yaxınlıqlarındakı regionların təhlükəsizliyi düşündürür, buna görə də onlar uzanmış münaqişələrin uzun müddətli qarşılıqlı münasib olan qərarlar vasitəsilə həlli ideyasına birbaşa və ciddi şəkildə bağlı olmaları ilə fərqlənirlər.

2. Havadarlıq edən güclə münasibət və onun təsiri. Qara dəniz sahili boyu və Cənubi Qafqaz regionlarındakı separatçı qurumlar SSRİ-nin dağılmasından sonra miras qalan geosiyasi qaydalara uyğun olan cəbhə xətti rolunu oynayırlar. Vaxtilə Moskvanın bu regionlardakı hegemonluğuna bugün beynəlxalq və regional subyektlər (ABŞ, NATO və AB) və regional liderlər (Türkiyə və İran) meydan oxuyurlar. 1989-cu ildən sonra Şərqi Avropada və keçmiş Sovet İttifaqı ərazisində Rusiya ilə Qərb arasında baş vermiş maraqların toqquşması və təsirlərin proyeksiyası özünü həm antoqonistik təzahürlərdə (Rusiyanın “yaxın xaricdə” öz strateji maraqlarını təsdiq etməsi və onun Qərb tərəfini müdaxilə etməkdə günahlandırması), həm də qarşılıqlı olaraq maraqların (terrorizm və qaçaqmalçılıqla mübarizədə əməkdaşlıq) təmin edilməsi planında açıq-aşkar göstərməkdədir. Zəifləmiş olan regional gücün və onun yerinə keçməyə iddialı olan digər mövcud olan gücün və ya inkişaf etməkdə olan gücün fonunda beynəlxalq münasibətlərdə nüfuz dairələrinin dinc yolla yerdəyişməsi çətin ki, “təhlükəsizlik üzrə birliklər” (biri-birindən fərqli siyasi və sosial təşkilati sistemlərə malik olan) çərçivəsində baş verə bilər, böyük ehtimalla bu yerdəyişmənin “biri-birinə uyğun gələn dəyərləri və institutları paylaşan klublar” çərçivəsində baş verməsi gözlənilir (o cümlədən kollektiv identiklik və inam əsasında) [7, s.138-158; 8].

Həm separatçı rejimlər, həm də metropoliya ölkələrinin siyasi və iqtisadi seqmentləri keçmiş hegemon qüvvə ilə əlaqələrin mürəkkəb sistemini diqqətə almaqdadırlar. Məsələn, 2003-cü il “Qızılgül” inqilabından sonra Gürcüstanın hökuməti tərəfindən Rusiyaya və separatçı bəyanatlara qarşı münasibətdə daha kəskin (ancaq daha az səmərəli) bir yanaşma seçildi. Azərbaycan Qərb üçün açıq ölkə oldu, ancaq eyni zamanda Rusiya ilə siyasi və neft əlaqələrini qoruyub saxladı ki, bu da Dağlıq Qarabağ məsələsində Ermənistana təsir göstərə bilər. Beləliklə, separatçı rejimlərin Rusiya tərəfindən dəstəklənməsi onların mövcud olmasını təmin edir, ancaq tərəqqi etməsinə imkan vermir.

Avropa Birliyinin uzanmış olan münaqişələrə münasibəti də qeyri-müəyyən xarakter daşıyır. Belə ki, birliyin üzvü olan müxtəlif ölkələr faktiki olaraq, havadarlıq edən ölkəyə münasibətdə fərqli mövqe tuturlar. Praktiki olaraq AB-nin passivliyi uzanmış münaqişələrə Rusi-

yanın təsir etmə haqqının tanınması deməkdir. AB münaqişələrin tənzimlənməsinin Rusiyanın dominant olduğu mövcud danışıqlar mexanizminin köməyi ilə baş tutacağını gözləməklə özünü aldatmaqla məşğuldur. AB havadar ölkənin bu münaqişələrin həlli yollarını tapmaqda maraqlı olmadığı faktını bildiyi halda, belə bir mövqe tutmaqda davam edir [11, s. 2].

3. Yeni reallıqlar, köhnə problemlər. Separatçı qurumlarda hökumət, konstitusiya, seçkilər, silahlı qüvvələr və s. kimi "dövlətçilik" görüntüsü yaradan atributların olması yeni reallıqların yaranmasına yol açır. Nəticədə bu reallıqlar münaqişələrin həll edilməsi üçün ciddi maneələrə çevrilir.

2008-ci ilin avqustunda Cənubi Osetiyada baş verən beş günlük müharibə yeni bir vəziyyətin yaranmasına səbəb oldu, ancaq vəziyyətin mahiyyətində ciddi bir dəyişiklik yaratmadı: beş günlük qaynar döyüş əməliyyatlarından sonra dondurulmuş müharibə təkrarən donduruldu. Yeni reallıq ondan ibarətdir ki, Gürcüstan əvvəlkindən daha az ərazini nəzarəti altında saxlayır, Rusiya iki separatçı qurumu rəsmən tanıyır, açıq şəkildə həmin rejimləri dəstəkləyir və onların ərazilərində öz varlığını gücləndirir.

Faktiki olaraq uzanmış olan münaqişələr müxtəlif nəticələrin yaranmasına gətirib çıxarır. Münaqişənin siyasi nəticəsi separatçı rejimin *a contrario* qanuniləşdirilməsindən ibarətdir ki, bu da metropoliyaya ziddir və qanunsuz hakimiyyətin konsolidasiyası üçün öz xeyrinə vaxt qazanmasına xidmət edir. Uzanmış olan münaqişənin iqtisadi nəticəsi iqtisadi tənəzzül və təhlükəsizliyin təmin edilməsi üçün ayrılan resursların yenidən bölüşdürülməsi ilə xarakterizə olunur.

4. Qeyri-ardıcıllıq və qətiyyətsizlik. Kənar subyektlərin və metropoliya ölkələrinin separatçılarla və havadar ölkə ilə genişləndirilmiş dialoqda iştirak edib-etməmələri ilə bağlı məsələlərdə qətiyyətsizliklərinə separatçı rejimin de-fakto tanınma səbəb ilə narahatlıq keçirmələrinə görə haqq qazandırmaq olar. Separatçıların legitimliyi və de-fakto tanınması ilə bağlı siyasi mülahizələr kontekstində özünün iştirakı ilə separatçıların cəlb edilməsi arasında balansın axtarışı problemi qarşısında duran metropoliya dövlətləri və kənar subyektlər əksər hallarda öz seçimlərini təcrid etmə strategiyası üzərində saxlayırlar.

Beləliklə, göründüyü kimi SSRİ-nin dağılmasından sonra GUAM ölkələrində separatçı "hökumət"lər 30 ildir ki, möcuddurlar. Aparılan təhlildən bu qənaətə gəlmək olur ki, göstərilən açıq-aşkar dilemmanın öhdəsindən gəlmək üçün qəbul etmək lazımdır ki, dondurulmuş münaqişələri vahid bir universal yanaşma ilə həll etmək mümkün deyildir.

Şərqi Avropada və Balkanlarda AB-yə daxil olma və NATO-ya inteqrasiya olma perspektivi ilə bağlı olaraq həyata keçən islahatlarla və dəyişikliklərlə müqayisədə Avropa Birliyi yeni şərq qonşuluğunda olan məkanda daha məhdud imkanlara malikdir. Bununla belə, AB siyasi vasitəçilik rolunda və iqtisadi yardım göstərilməsində öz səylərini artırmaq gücünə malikdir. Birinci üsulun səmərəsiz olduğu üzə çıxdığına görə AB Moldovanın, Ukraynanın, Belarusun və Cənubi Qafqaz ölkələrinin gələcək iqtisadi inkişafının dəstəklənməsinə daha çox diqqət ayırması haqqında düşünməsi məqsədəuyğun olardı. Bizim təsəvvürümüzə görə bu istiqamət, öz növbəsində separatçı qurumlar üçün də cəlbedici ola bilər və AB-nin şərq qonşuluğunda uzanmış olan münaqişələrin həll edilməsi üçün yumşaq modellərin yaradılmasına şərait yaradar.

AB siyasi vasitəçilik, iqtisadi yardım, insan haqlarının qorunması və humanitar yardım sahəsindəki fəaliyyətlərinə əlavə olaraq sülhməramlı missiyaların və ya genişləndirilmiş mülki müşahidəçi missiyalarının ayrılmaz hissəsi olmaq üçün cəhdlərini davam etdirməlidir. Beləliklə, AB özünün şərq qonşuluğundakı dondurulmuş münaqişələrin tənzimlənməsi üzrə ardıcıllıqla aparılan strategiya ilə daha təsirli təminatçılıq rolunu öz üzərinə götürməlidir.

Qarşılıqlı razılaşmasız həll yolu həyata keçməsi mümkün olmayan həll yolunun təxirə salınması ilə müqayisədə daha pisdir. Lakin münaqişənin həllinin qeyri-müəyyən vaxta təxirə salınması razılaşdırılmamış həll yolu üçün əsas ola bilər. Hər iki variant risklidir və çətin ki, sabitliyi təmin edə bilər. Böyük regional gücə və havadar ölkəyə qarşı münasibətdə konfrontasiyalı yanaşma riski oyunda sıfır məbləğlə iştirak etmə ehtimalı ilə eynidir. Yəni bərabər olmayan və perspektivsiz bir vəziyyətdə olmaq-

la bərabər imkanlara malik olmaq kimi bir ehtimalla eynidir. Buna görə də AB uyğun olaraq öz təsirini tədricən artırmalıdır. Bu isə ondan daha fəallıqla fəaliyyət göstərməsini tələb edir.

**Nəticə**

Hər halda həyata qabil olan və uzunmüddətli həll yolu çətin ki, məcburi yanaşmanın tətbiq edilməsilə baş tuta bilər. Belə bir həll yolunun *iki* qarşılıqlı surətdə bağlı olan proqramların nəticəsində əldə edilməsi ehtimalı daha böyükdür.

Birincisi, metropoliya-ölkə insan azadlıqlarına və haqlarına, eləcə də həyat səviyyəsinə münasibətdə hörmət edilməsi istiqamətində yanaşma baxımından cəlbedici olmalıdır ki, bu da separatçılıq həvəslərini azalda bilər [9, s.49]. Metropoliya əsas diqqətini iqtisadi inkişafa və demokratik institutların və nizamın möhkəmləndirilməsinə yönəltməlidir. Bu da öz növbəsində separatçılar tərəfindən metropoliyanı nüfuzdan, etibardan salmaq üçün istifadə olunan təbliğatı məhdudlaşdırar. Belə olan halda separatçı qurumlardakı vətəndaşlar metropoliya ilə *birləşmək* istiqamətində separatçı liderlərə qarşı ciddi təzyiqlər etməyə başlaya bilər ki, bu da son nəticədə uzunmüddətli həll yolunun əldə edilməsinə gətirib çıxara bilər. Məsələnin kökündə duran dilemma separatçı rejimin rəsmən dəstəklənməməsi və de-fakto tanınmamasına istiqamətlənmiş prosesin bütün aspektlərinə təsir göstərməkdədir. Eyni zamanda, bununla paralel olaraq separatçıların metropoliyaya cəlb edilməsi üçün imkanlar yaradır. Belə ki, onlarla ticarət dövriyyəsinə, sərbəst hərəkət etmə hüququna və mülkiyyət hüququna müəyyən səviyyədə imkanlar verir və nəticədə bütün bunlar qarşılıqlı maraqlar şəbəkəsinin yaranmasına yol açır. Alternativlik ondan ibarətdir ki, separatçılar getdikcə daha çox havadar ölkəyə güvənəcəklər və metropoliya ilə münasibətdə daha çox uzaqlaşmış və özgələşmiş olacaqlar. Tərəqqi yolunda olan və demokratik metropoliya-dövlət separatçı qurumlarda yaşayan əhalinin belə bir alternativin olması səbəbilə bağlı narahatlıqlarını azalda bilər.

İkincisi, beynəlxalq cəmiyyətin metropoliyalara verdiyi dəstək separatçı rejimlərin rəsmən tanınmasından imtina ilə məhdudlaşmamalıdır. Onun dəstəyi həm də demokratikləşmə prosesində və metropoliyanın institusional inkişafında ifadə olunmalıdır ki, regionda *qravitasiya* üçün şərait yaransın və metropoliya separatçılar üçün cəlbedici ölkəyə çevrilsin. Bununla yanaşı, beynəlxalq qurumlar separatçı qurumlarda həqiqi plüralizmi təşviq etmək üçün metropoliyalarla birlikdə çalışmalıdırlar. Belə bir yanaşma separatçılarla qeyri-rəsmi "sövdələşmələr" üçün münasib şərait yarada bilər. Bunun üçün lazımdır ki, metropoliya separatçıların nəzarət etdiyi ərazilərdə yaşayan insanları təcrid etmək və onlarla bütün təmasları kəsməyə çalışmaq əvəzinə, onlara qarşı münasibətdə konstruktiv yanaşma yolunu seçsin. Məntiqi olaraq ehtimal etmək olar ki, separatçı qurumlarda yaşayan əhalinin müəyyən bir hissəsi de-fakto kvazi-müstəqillikdən heç nə qazanmamışdır və həmin hissəni metropoliya-dövlətdən götürülmüş yaxşı nümunələrlə cəlb etmək olar. Həmçinin beynəlxalq ictimaiyyət və qurumlar metropoliyaların separatçı qurumlara müdaxiləsinin marginallaşdırılması yolu ilə daim onlara dəstək verməlidirlər. Son nəticədə hakimiyyətin müəyyən dərəcədə bölgüsü və inklüzivlik ilə xarakterizə edilən bir formul tətbiq edilməlidir. Bu formul separatçıların təqib olma narahatlığını azalda bilər və onların metropoliyanın tərkibində hansısa bir səviyyədə iştirakına və ya yüksək səviyyədə muxtariyyətinə təminat verə bilər.

Beləliklə, beynəlxalq ictimaiyyət qarşısında duran başlıca vəzifə – metropoliya ölkələrinin gələcək durumunun daha da sabitləşməsi və demokratikləşməsi məqsədilə daim göstərilən regional və beynəlxalq köməkləri birləşdirən sülhməramlı prosesin razılaşdırılmış strategiyasının işlənib hazırlanması, havadar ölkəyə müəyyən təzyiqlərin edilməsi və onunla mümkün olan təmas nöqtələrinin axtarılması və metropoliyanın separatçılarla konstruktiv dialoqundan ibarətdir.

**Ədəbiyyat siyahısı**

1. Азербайджанская Республика в Содружестве Независимых Государств / Секретариат Президента Азербайджанской Республики. - Баку: Nurol, 2001. - 287 с.
2. Загорский А.В. Доктрины и практика миротворчества // Россия в полицентрич-

ном мире / Под ред. А.А. Дынкина, Н.И. Ивановой. М., Весь мир, 2011.

3. Заявление Совета Глав Государств о проведении операции по поддержанию мира в зоне грузино-абхазского конфликта [15 апреля 1994 года] // Содружество. Информационный вестник Совета глав государств и Совета глав правительств СНГ. № 1 (14), 1994.

4. Кулагин В.М. Международная безопасность. / Учебное пособие для студентов вузов / В. М. Кулагин. - М.: Аспект Пресс, 2007. - 318 с.

5. Соглашение о Коллективных миротворческих силах обороны и совместных мерах по их материально-техническому обеспечению [Москва, 24 сентября 1993 года] // Содружество. Информационный вестник Совета глав государств и Совета глав правительств СНГ. 1993, № 4 (12).

6. Шакирзаде Н.А. Содружество Независимых Государств / Институт философии, политических и правовых исследований НАНА. Азербайджанская Республика во внешнеполитических и внешнеэкономических процессах: 1991-2006 гг.: монография. - Баку: Сада, 2007. - 512 с.

7. Charles A. Kupchan, Emanuel Adler, Jean-Marc Coicaud and Yuen Foong Khong, Power in Transition: The Peaceful Change of International Order, UN University Press, 2001, pp. 138-158.

8. Emanuel Adler & Michael N. Barnett, Security Communities, Cambridge, Cambridge University Press, 1998.

9. Kaufman, Stuart J. Spiraling to Ethnic War, 21 Int'l Security 108, 130-131, 1996 cited in The Association of the Bar of City of New York City report, Thawing a frozen conflict: Legal aspects of the separatist crisis in Moldova, 2005.

10. Kreikemeyer A., Zagorski A.V. The Commonwealth of Independent States // L. Jonson, C. Archer C. (eds). Peacekeeping and the Role of Russia in Eurasia. pp. 161-162.

11. Socor, V. The frozen conflicts: a challenge to Euro-Atlantic interests, Hesabat Almaniyada Marşall Fondu tərəfindən NATO-nun 2004-cü il Sammiti münasibətilə "A new euro-Atlantic St0072ategy for the Black Sea region".

12. http://www.adlia.tj/show_doc.fwx?Rgn=1001 [Elektron resurs] - Соглашение о группах военных наблюдателей и коллективных силах по поддержанию мира в Содружестве Независимых Государств.

13. http://www.un.org/ru/aboutun/booklet/peace.shtml [Elektron resurs] - ООН на страже мира и безопасности во всем мире.

14. https://peacekeeping.un.org/ru/what-is-peacekeeping [Elektron resurs] - ООН, Что такое деятельность по поддержанию мира.

15. https://peaceoperationsreview.org/wp-content/uploads/2015/08/HIPPO_Report_1_June_2015.pdf [Elektron resurs] - UN, Report of the High-level Independent Panel on Peace Operations on "Uniting our strengths for peace - politics, partnership and people".

16. https://www.un.org/ru/sections/un-charter/chapter-vii/index.html [Elektron resurs] - Устав ООН, Глава VII,  Действия в отношении угрозы миру, нарушений мира и актов агрессии.

## Резюме

**Айнур Алишанова**

### Сравнительный анализ деятельности международных организаций в процессах урегулирования мира

В статье исследуются вопросы миротворческой деятельности международных организаций и проводится их сравнительный анализ. Рассматривается влияние на процессы урегулирования таких международных организаций, как ООН, СНГ, ГУАМ, ОБСЕ, НАТО и др. Автор затрагивает аспект «замороженных» конфликтов, особо подчеркивая характер неопределенности Совета Европы по отношению к затянувшимся конфликтам.

В статье приведены и сгруппированы ряд факторов, являющихся помехой в процессе обеспечения мира и безопасности: 1.Влияние давления (нажим). 2.Отношения с покровительствующими силами и их влияние. 3.Новые реалии, старые проблемы. 4.Непоследовательность и непродуманность.

Вывод проведенного анализа позволяет признать, что в дилемме решения затянувшихся конфликтов не может присутствовать какой-либо единый подход.

***Ключевые слова:*** *ООН, СНГ, ГУАМ, НАТО, конфликты, мир, дилемма*

**Summary**

**Aynur Alishanova**

**Comparative analysis of the activities of international organizations in international peace processes**

The article examines and comparatively analyzes the activities of international organizations in the international peace process. The influence of the UN, CIS, GUAM, OSCE, NATO and other international organizations on the peace process was discussed. The study discusses frozen conflicts and concludes that peacekeeping is not perfect in the world. The uncertainty of the European Union's approach to protracted conflicts was also highlighted.

The study discusses a number of factors in resolving conflicts that are a major obstacle to international peace and security, and groups them as follows: 1. To create a penetration. 2. Attitude to the patronizing force and its impact. 3. New realities, old problems.4. Inconsistency and indecision. From the analysis, it can be concluded that in order to overcome this obvious dilemma, it is necessary to accept that it is impossible to resolve frozen conflicts with a single universal approach.

***Keywords:*** *UN, CIS, OSCE, GUAM, NATO, conflicts, peace, dilemma.*

UOT 327

**ELDAR ƏMİROV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*
*Azərbaycan*

# FƏLƏSTİN – İSRAİL QARŞIDURMASININ NÖVBƏTİ DALĞASI (10-21 MAY 2021-Cİ İL): İRANIN GEOSİYASİ MARAQLARI KONTEKSTİNDƏN BAXIŞ

**Açar sözlər:** *Fələstin-İsrail münaqişəsi, İran, "HƏMAS", geosiyasi maraqlar, ərəb dünyası, Əli Xamnei, Binyamin Netanyahu*

**Giriş**

21 may 2021-ci ildə gecə saatlarında Misirin vasitəçiliyilə Fələstinin "Həmas" qruplaşması ilə İsrail arasında 11 gün davam edən toqquşmalara son qoyulmuş, tərəflər arasında müvəqqəti atəşkəs sazişi imzalanmışdır. Müxtəlif məlumatlara görə toqquşmalar zamanı 243 fələstinli həlak olmuş, 1910 nəfər yaralanmışdır. İsrail tərəfindən isə 12 nəfər dinc sakin həlak olmuş, onlarla insan müxtəlif xəsarətlər almışdır. ***[9].***

Onilliklərdir ki, davam edən münaqişənin bu dalğasının alovlanmasına təkan verən başlıca addım İsrail polisinin müsəlmanlar üçün müqəddəs sayılan Ramazan ayı ərəfəsində fələstinlilərin əl-Aksa məscidinə girişinə yaratdığı əngəl olmuşdur. İsrail tərəfinin bu qərarı son nəticədə radikal qrupların, xüsusilə də "HƏMAS" hərəkatının yəhudi dövlətinə qarşı silahlı mübarizəyə çağırış etməsinə, dərhal sonra isə ölkənin sərhəd rayonlarını raket atəşinə tutmasına gətirib çıxarmışdır. ***[3].***

Lakin qeyd edilənlər təbii ki, baş verənlərin yalnız zahiri tərəfini təşkil etməkdədir. Müharibə dalğasının gercək səbəblərini anlamaq üçün Yaxın Şərq regionunda cərəyan edən hərbi-siyasi prosesləri ətraflı şəkildə təhlil etmək, İsraillə İran arasında son dövrlərdə xüsusilə dərinləşmiş qarşıdurmanın gedişinə diqqət yetirmək zəruridir.

## 1. İran-İsrail ziddiyyətlərinin dərinləşməsi fonunda İsrailin ərəb dünyası ilə yaxınlaşması cəhdləri.

İsrail xüsusi xidmət orqanlarının son 1 ildə İranın nüvə mütəxəssislərinin məhvi məqsədilə həyata keçirdiyisilsilə uğurlu əməliyyatlar, həmçinin Suriyada İran hərbçilərinə qarşı artan aviazərbələr Tehranla Tel-Əviv arasındakı ziddiyyətlərin pik həddinə çıxmasıilə nəticələnmişdir. İsrailin İranın Suriya ərazisində möhkəmlənmək cəhdlərinə inadla müqavimət göstərməsi Tehranın müəyyən cavab addımları atmasını, daha dəqiq İsrailin başını yeni münaqişə zonası ilə qatmasını zərurətə çevirmişdi. Xüsusilə də 2020-ci ilin əvvəllərində SEPAH-ın "Əl-Qüds" xüsusi təyinatlı qüvvələrinin komandanı general Qasım Süleymaninin öldürülməsindən sonra İranın Yaxın Şərqdəki əməliyyatlarında koordinasiyanın, effektivliyin ciddi şəkildə pozulduğu hiss edilirdi və göstərilən dövrdən etibarən Tehranın ciddi uğurlar əldə etməkdə çətinlik çəkməsinin buna sübutdur. Bu mənada Fələstin cəbhəsi İran üçün olduqca effektiv bir istiqamət kimi önə çıxırdı. Çünki, Suriyadan və Livandan fərqli olaraq Fələstinə yanaşmada İsrail malik olduğu aviasiya üstünlüyündən istədiyi miqyasda istifadə etmək imkanından məhrumdur. İkincisi, Fələstin İsrail sərhədlərinin yaxınlığında yerləşdiyindən hərbi qarşıdurma zamanı yəhudi dövlətinin ərazisini hədəf almaq imkanları olduqca genişdir. 10-21 may tarixində gedən döyüşlər də göstərdi ki, Fələstin ərazisindən atılan raketlərin heç də hamısını zərərsizləşdirmək mümkün deyil və endirilən zərbələr İsrail ərazisində ciddi dağıntılar törətməklə yanaşı insan tələfatına da səbəb olur. Baş verənlərlə bağlı yaranan daxili narazılıq isə son nəticədə İsrail hökumətinə qarşı yönələn, onu nüfuzdan salan etirazlara səbəb olur. Fələstində axan qanın dayanmaması İrana həm də İs-

railin istər dünyada, istərsə də dünyada neqativ obrazının formalaşdırılması üçün lazım olan psixoloji təsir alətidir. Çünki, əksər hallarda öz raket qurğularını və silahlarını yaşayış məntəqələrində, uşaq bağçalarının və xəstəxanaların üzərində cəmləşdirən fələstinli döyüşçülürin hücumlarına cavab olaraq İsrailin endirdiyi zərbələrin qurbanları arasında dinc sakinlər, xüsusilə də uşaqlar üstünlük təşkil edir. Bu isə son nəticədə dünyada İsrailə qarşı etirazların artmasına səbəb olur.

Son hadisələr ərəfəsində İranı Fələstin kartından istifadəyə vadar edən proseslərdən biri də heç şübhəsiz ki, İsrail rəhbərliyinin intensiv şəkildə ərəb dünyası ilə münasibətlərini normallaşdırmaq istiqamətində yürütdüyü diplomatik xətt olmuşdur. Bu xəttin ən aktiv icraçısı "MOSSAD"-ın ("İsrail Xarici Kəşfiyyatının") sabiq rəhbəri Yosi Koen idi. İsrailin baş naziri B.Netanyahunun elan etdiyi yeni xəttin məqsədi ərəb dünyası ilə, xüsusilə də Körfəz ölkələrilə münasibətlərin normallaşdırılması yolu ilə İslam aləmində yəhudi dövlətinin üzləşdiyi təcriddən çıxmaq idi. Hətta bəzi İsrail KİV-lərinin yaydıqları məlumata görə münasibətlərin normallaşdırılması və təmasların başlanması məqsədilə 2020-ci ilin yayında B.Netanyahunun 3 dəfə Birləşmiş Ərəb Əmirliklərinə gizli, qeyri-rəsmi səfər etdiyinə dair şayiələr yayılmışdı. ***[7].***

Lakinhəmin dövrdə "MOSSAD" rəhbəri Yosi Koenin BƏƏ səfəri şayiə deyil, fakt idi. Hər iki tərəf səfərin başlıca məqsədinin təhlükəsizlik məsələlərinin müzakirəsi olduğunu bildirsə də, başlıca söhbətin İsraillə ərəb dünyası arasında münasibətlərin bərpası ətrafında getdiyi hər kəsə yaxşı məlum idi. ***[6].***

Qeyd etmək lazımdır ki, bu səfərlər, həmçinin İsrail diplomatiyasının sözügedən istiqamətdə apardığı ardıcıl iş öz bəhrələrini qısa müddətdə verməyə başlamışdı. Belə ki, 2020-ci ilin oktyabrında tərəflər vizasız rejimin tətbiqinə dair razılıq əldə etdilər. Həmin saziş İsraili ərəb dövləti ilə imzaladığı bu qəbildən olan ilk razılaşma kimi tarixə düşmüşdür. ***[1].*** Doğrudur, sonradan tərəflər sazişin icrasını təxirə salsalar da, bu ümumi yaxınlaşma prosesinə ciddi təsir göstərmək iqtidarında deyildi. İsrailin ərəb dünyası ilə münasibətlərini normallaşdırma cəhdi yalnız BƏƏ ilə məhdudlaşmırdı. Behreynin də bu prosesə cəlb edilməsi nəticəsində 15 sentyabr 2020-ci il tarixində Vaşinqtonda üç ölkənin nümayəndələri arasında Sülh sazişi adlı birgə sənəd imzalandı. Sənəd İsrailin hər iki ərəb dövləti tərəfindən tanınmasını ehtiva edirdi. ***[8].***

Bu sazişdən bir neçə ay sonra, daha dəqiq desək, 2021-ci ilin yanvarında İsrailin BƏƏ-də səfirliyi fəaliyyətə başlamış, BƏƏ rəhbərliyi isə öz növbəsində Tel-Əvivdə səfirliyin açılacağına dair qərarını elan etmişdi. ***[2].***

İsrail diplomatiyasının həyata keçirdiyi uğurlu diplomatik fəaliyyət BƏƏ və Behreynlə münasibətlərin əhəmiyyətli dərəcədə yaxınlaşmasına imkan verdi. Nəticədə BƏƏ və Bəhreyn Misirlə İordaniyadan sonra İsraili dövlət kimi tanıyan, onunla münasibətlər yaradan ərəb ölkələri kimi tarixə düşdülər. Təbii ki, bu yaxınlaşma bölgədəki İran maraqlarına öldürücü zərbə effektinə malik idi. İranın ali dini lideri Ayətullah Xamneinin bu prosesə verdiyi isterik reaksiya bunun ən yaxşı sübutu hesab olunmalıdır: *"BƏƏ etdiyi xəyanəti hər zaman xatırlayacaqlar. Onlar sionist rejimə (İsrailə) Fars körfəzi bölgəsinə daxil olmağa şərait yaratdılar və Fələstini unutdular. Əmirliklər əbədiyyən rüsvay oldular. Ümid edirəm ki, onlar bir gün ayılacaqlar və etdikləri əməli dərk edəcəklər".* ***[4].***

## 2. Ərəb-İsrail yaxınlaşması İranı niyə narahat edir? İdeoloji və geosiyasi aspektlərə dair

İran hakimiyyəti İsraillə Fars körfəzi regionundakı ərəb dövlətləri arasındakı yaxınlaşma prosesinə birbaşa maneə törətmək iqtidarında olmadığından dolayı yolla, üçüncü tərəf vasitəsilə müdaxilə etmək yoluna əl atdı. Həmin üçüncü tərəf qismində isə fələstinlilər, daha dəqiq desək, "HƏMAS" qruplaşması çıxış etdi. Bəs ərəb-İsrail yaxınlaşması hansı səbəblərdən İranın maraqlarına toxunur və Tehranın bu proseslərə belə kəskin reaksiyası nə ilə bağlıdır? İlk növbədə onu qeyd etmək lazımdır ki, İranın Yaxın və Orta Şərq regionunda 1979-cu ildən bəri yürütdüyü siyasətin ideoloji təməllərindən biri İslam inqilabı ideoloqlarının "Sionist rejim" adlandırdıqları İsraillə mübarizə təşkil edir. İran rəsmiləri, ölkənin dini liderləri İsraili dünya müsəlmanlarının ən qəddar düşmənlərindən biri kimi səciyyələndirir, yəhudi dövlətinin

yaşamaq haqqını tanımaqdan imtina edir və onunla silahlı mübarizəni İslam dünyasının ümdə vəzifələrindın biri sayırlar. İranın ali dini lideri ayətullah Xamnei də öz çıxışlarında açıq şəkildə ölkəsinin İsraillə silahlı mübarizəyə başalayacaq istənilən quruma açıq şəkildə kömək edəcəyini vurğulayıb. İsraillə mübarizə İran rejimi üçün daxili resursları da səfərbər etmək üçün olduqca əlverişli siyasi-ideoloji kartlardan biridir.

İsrailin ərəb dövlətləri, ümumilikdə İslam aləmi ilə münasibətlərinin məhdudluğu, İranın hərəkət və təbliğat imkanlarını birə-beş artırır. Fələstin məsələsinin indiyədək həllini tapmaması İrana bütün İslam aləmi tərəfindən həssas qəbul edilən bu münaqişədən öz geosiyasi və ideoloji maraqlarını qorumaq naminə sui-istifadə üçün geniş manevr imkanları yaradır. Fələstin məsələsində İsrailə qarşı ən qatı mövqedən çıxış etməklə Tehran milyonlarla müsəlmanın rəğbətini öz tərəfinə çəkməklə yanaşı, həm də ərəb dövlətləri üzərində psixoloji üstünlük yaradaraq İslam aləminin lideri rolunu ələ keçirməyə çalışır. Yeri gəlmişkən, 2006-cı ilin yayında İranın dəstəklədiyi "Hizbullah" hərəkatı ilə İsrail arasında 33 gün davam edən və yəhudi dövləti üçün arzuolunmaz nəticələrlə müşayiət olunan 33 gün müharibəsindən Tehran indiyədək təbliğat işinin aparılması üçün geniş şəkildə istifadə edir. İranın təbliğat maşını sözügedən müharibəni indiyədək müsəlmanların İsrailə hərbi münaqişələrdə əldə etdikləri ən ciddi uğur kimi qələmə verir və yalnız Tehranın müsəlman dünyasında açıq şəkildə yəhudi dövlətinə qarşı mübarizə aparmaq iqtidarında, istəyində olduğu fikrini ictimai rəydə hər vəchlə möhkəmləndirməyə can atır.

Ancaq İranın Fələstin məsələsindəki maraqları yalnız ideoloji aspektlə məhdudlaşmır. Məsələnin həm də kifayət qədər ciddi hərbi aspekti mövcuddur. Belə ki, Fələstində münaqişənin qorunub saxlanması İranın bölgədə qalması deməkdir. Fələstində möhkəmlənmək isə fiziki cəhətdən İsrailə yaxın olmaq, mümkün hərbi toqquşma zamanı ona effektiv zərbə imkanı endirməyə malik olmaq deməkdir. Daim İsraillə münaqişə ehtimalının yüksək olduğu İran üçün qeyd olunan amil kifayət qədər böyük əhəmiyyətə malikdir.

Bu mənada ərəb ölkələrilə İsrail arasında yaxınlaşmanın gələcəkdə Fələstin məsələsinin də həllinə təkan verəcəyi ehtimalı Tehran tərəfindən narahatlıqla qarşılanır. Yaxın və Orta Şərqdə İran İsrail münasibətlərində köklü dönüş yaranmayanadək Fələstin məsələsində gərginliyin, zorakılığın səngiməsi inandırıcı görünmür.

**3. Fələstin – İsrail qarşıdurmasının son dalğası İrana nə verdi?**

11 günlük qarşıdurmanın yaratdığı nəticələrini təhlil etdikdə əsas etibarı ilə belə demək mümkündür ki, proseslər müvəqqəti də olsa İranın arzuladığı məcraya yönəlib. İlk növbədə ona görə ki, İsrailin "HƏMAS"-ın raket zərbələrinə cavab olaraq 200-dən çox dinc fələstinlinin, o cümlədən onlarla uşaq və ahıl şəxsin öldürülməsi ərəb dünyasında qismən sakitləşmiş anti-yəhudi əhval-ruhiyyəsini yenidən alovlandırmış oldu. Dinc fələstinlilər arasında müşahidə edilən çoxsaylı itkilər nəinki ərəb dünyasında, eləcə də Qərbdə böyük etirazla qarşılandı və ictimai rəyin İsrailin əlehinə çevrilməsilə nəticələndi. Təbii ki, baş verənlər İsraillə Körfəz ölkələri arasında gedən yaxınaşma prosesə də müəyyən dərəcədə neqativ təsir göstərəcək. BƏƏ və Bəhreyn hökumətləri bütün istəklərinə baxmayaraq ümumi ictimai fikri də nəzərə almaq məcburiyyətində qalacaqlar.

İranın qarşıdurmanın bu dalğasından əldə etdiyi başqa bir siyasi divident də İsraildə hökumətin istefaya getməsilə bağlıdır. Döyüş əməliyyatları zamanı dinc əhali arasındakı itkilər, həmçinin İsrailə dəyən ciddi maddi ziyan B.Netanyahu hökumətinin son nəticədə öz mövqelərin itirməsilə nəticələndi. Məlum olduğu ki, B.Netanhayu kabineti İranın nüvə proqramı, həmçinin bu ölkənin Suriyadakı hərbu iştirakı ilə bağlı məsələlərdə ən sərt, barışmaz mövqedən çıxış etməsilə seçilirdi. Bu kabinetin dəyişməsi İrana müəyyən müddət ərzində vaxt qazandırmaqla yanaşı, həm də müharibə tərəfdarlarını bir qədər də dərindən düşünməyə vadar edəcək. Doğrudur, İsraildə iqtidara gələn yeni hökumət də mühafizəkar baxışları ilə seçilir və ilk günlərdən etibarən onlar da sələflərinin yollunu davam etdirərək ərəb dövlətlərilə yaxınlaşma xəttini davam etdirməyə qərarlı olduqlarını nümayiş etdirirlər. Ancaq baş verənlərin təcrü-

bəsindən çıxış edərək heç şübhəsiz ki, İsrailin yeni hökuməti Yaxın Şərqlə bağlı atacağı addımlarında daha diqqətli olacaq. İsraili ehtiyatlı davranmağa vadar edən digər amil də İranda keçirilən son prezident seçkilərində İbrahim Rəisinin qalib gəlməsi faktıdır. İbrahim Rəisi İranın ali dini lideri Əli Xamneiyə yaxınlığı ilə seçilən siyasətçilərdəndir və o, daha çox mühafizəkar baxışları ilə seçilən səxs kimi səciyyələndirilir. Bəzi şərhçilər isə İ.Rəisini hətta Ə.Xamneinin gələcək varisi kimi də təqdim edirlər. Ancaq hər necə olursa olsun, həm İsrail də həm də İranda mühafizəkarların hakimiyyət başına gəlmələri gərginlik ehtimalını əhəmiyyətli dərəcədə artırmışdır.

11 günlük münaqişədən siyasi dividentlər götürən tərəf heç şübhəsiz ki, hələ ki, İrandır. Təsadüfi deyil ki, atəşkəs haqqında razılığın əldə olunmasından sonra İranın dini lideri Ə.Xamnei fələstinliləri əzmkar mübarizə və qələbə münasibətilə təbrik etmişdir. Öz çıxışında İranın dini lideri Fələstin xalqının sionist rejim üzərində qələbə qazandığını və düşmənin çarəsizlikdən atəşkəsə razı olduğunu bəyan edərək, bu zəfərin Fələstinin gələcəyi baxımından olduqca böyük əhəmiyyətə malik olduğunu vurğulamışdır. ***[5].*** Əslində bu təbrik sətiraltı Tehranın əldə etdiyi uğura ölkə rəhbərliyi tərəfindən verilən qiymət kimi də qəbul edilməlidir. Toqquşmaların davam etdiyi günlərdə baş verən hərbi proseslərin təhlili də göstərdi ki, İsrail müdafiədə özünü biruzə vermiş müəyyən boşluqlar üzərində yenidən düşünməli və işləməlidir. “HƏMAS”-ın İsrail ərazisinə atdığı raketlərin müəyyən bir qisminin “Dəmir qübbə” adlanan raket əlehinə müdafiə sistemindən yayınaraq insan tələfatına, həmçinin dağıntılara səbəb olması sistemin təkmilləşdirilməsi zərurətini diqqət mərkəzinə gətirmişdir. Eyni zamanda bu illər ərzində “HƏMAS” ilk dəfə olaraq İsrailə qarşı pilotsuz açuş aparatlarından istifadə etməklə hərbi ekspertlərin diqqətini özünə cəlb etmişdir. Aydındır ki, illərdir mühasirə şəraitində yaşayan, ərzaq və dərman təhcizatını belə İsrailin nəzarəti altında təmin edən Fələstində belə silah və texnikanın istehsalı qeyri-mümkündür. Həmin vasitələrlə “HƏMAS”-ı üçüncü qüvvənin, daha dəqiq desək, İranın təmin etdiyi heç kəsdə şübhə doğurmur. Döyüş əməliyyatlarının ümumi təhlili belə deməyə əsas verir ki, İran mütəxəssisləri raketlərin hazırlanmasında, onların dəqiqliyinin artırılması işində texnoloji cəhətdən kifayət qədər irəliləyiblər. İsrail-Fələstin qarşıdurmasının son dalğası zamanı“HƏMAS”-ın atdığı raketlər İsrailin raket əlehinə müdafiə sistemlərinin zəif cəhətlərini ortaya çıxarmağa imkan verdi ki, bu da İran hərbçiləri üçün olduqca vacib məlumatlardan hesab olunur. Bu məlumatlardan gələcəkdə İran mühəndislərinin raketlərin daha da təkmilləşdirilməsi məqsədilə istifadə edəcəkləri şübhəsizdir. Eyni zamanda, artıq qeyd olunduğu kimi “HƏMAS” raketlərinin əvvəlki dövrlərlə müqayisədə İsrailin raketəlehinə müdafi sistemini daha uğurla aşaraq dinc əhali arasında itkilərə, həmçinin ciddi dağıntılara səbəb olması da İranın təbliğat üçün əldə etdiyi psixoloji üstünlük kimi qəbul oluna bilər. İsrail ordusunun məğlubedilməzliyinin süni yaradılmış mif olduğunu daim təbliğ edən İran üçün bu arqumentlər əyani sübut kimi müəyyən əhəmiyyət daşımaqdadır.

**Nəticə**

Beləliklə, Fələstinin “HƏMAS” təşkilatı ilə İsrail arasında 11 gün davam etmiş toqquşmaların doğurduğu nəticələr baxımından bu iki tərəfdən daha çox İranın maraqlarına uyğun gəldiyini nümayiş etdirən ciddi amillər göz önündədir. Bu döyüşlərin gedişində onlarla günahsız fələstinlinin və israillinin qanı bahasına İran İsraillə Körfəz regionunun ərəb dövlətləri arasında gedən intensiv yaxınlaşma prosesinə müəyyən səviyyədə kölgə salmağa müvəffəq oldu. Doğrudur, tərəflər münasibətlərin yaxınlaşması məsələsində qətiyyətli olduqlarını bəyan etsələr də, bir çox məsələlərin qeyri-müəyyən vaxta qədər təxirə düşəcəyi ehtimalı var. İkinci tərəfdən, İran bu münaqişənin İsraildə doğurduğu etirazlar və narazılıqlar fonunda B.Netanhayu hökumətinin gedişini sürətləndirməyə müvəffəq oldu. Ən nəhayət, döyüşlərin gedişində iranlı hərbi mütəxəssislər İsrailin raket əlehinə müdafiə sistemindəki boşluqları əyani şəkildə görmək imkanı qazandı.

## Ədəbiyyat siyahısı

1. "ANADOLU" İnformasiya Agentliyi - 20.10.2020 - https://www.aa.com.tr/ru/мир/израиль-и-оаэ-вводят-безвизовый-режим/2012764
2. "ANADOLU" İnformasiya Agentliyi - 25.01.2021 - https://www.aa.com.tr/ru/мир/израиль-и-оаэ-открыли-посольства-друг-у-друга/2121582
3. BBC İnformasiya Agentliyi (Rus xidməti) - 21.06.2021 - https://www.bbc.com/russian/news-57198727
4. "EURASIADAILY" İnformasiya Agentliyi- 1/09/2021 - https://eadaily.com/ru/news/2020/09/01/ayatolla-hamenei-oae-pokryli-sebya-vechnym-pozorom-pustiv-izrail-v-zaliv
5. "İRNA" İnformasiya Agentliyi - 21.05.2021. - https://ru.irna.ir/news/84338168
6. "KANAL 7 İSRAEL" televiziyasi - 18.08.2020 - https://www.7kanal.co.il/News/News.aspx/221703
7. "PARSTODAY" İnformasiya Agentliyi 18.08.2021 - https://parstoday.com/ru/news/middle_east-i117218
8. «Lenta.ru» İnformasiya Agentliyi - 15.09.2020 - https://lenta.ru/news/2020/09/15/izbahr/
9. "TACC" İnformasiya Agentliyi - 21.06.2021 - https://tass.ru/mezhdunarodnaya-panorama/11434369

## Резюме

**Эльдар Амиров**

### Очередной виток Палестино-израильского противостояния: взгляд в контексте геополитических интересов Ирана

В статье автором проанализированы последствия последнего витка напряжения между палестинской группировкой «ХАМАС» и Израилем с позиций геополитических интересов Ирана в ближневосточном регионе. Отмечая обеспокоенность Ирана в связи с процессом сближения Израиля с арабскими странами Персидского залива, запущенного израильской дипломатией в начале прошлого года, автор также указывает на ряд других факторов, которые подталкивали Тегеран на поджигание очередного витка напряжения и столкновений между Палестиной и Израилем. Последствия этого витка также принесли ряд дивидендов Ирану как в политико-идеологическом, так и в военном плане. Самым же большим достижением можно считать уход правительства Б.Нетаньяху, который всегда отличался своей непримиримой позицией по отношению к Ирану, особенно его ядерной программе. Автор делает вывод, что приход к власти в Иране консерватора И.Раиси, скорее всего, внесет дополнительное напряжение в отношения двух стран и Палестина, по-видимому, еще не раз станет полем противостояния между Тегераном и Тель-Авивом.

***Ключевые слова**: Палестино-израильский конфликт, Иран, «ХАМАС», геополитический интерес, арабский мир, Али Хаменеи, Б.Нетаньяху*

## Summary

**Eldar Amirov**

## Another round of the Israeli-Palestinian confrontation: a view in the context of Iran's geopolitical interests

In the article, the author analyzes the consequences of the latest round of tension between the Palestinian group "Hamas" and Israel from the standpoint of Iran's geopolitical interests in the Middle East region. Noting Iran's concerns about Israel's rapprochement with the Arab countries of the Persian Gulf, launched by Israeli diplomacy early last year, the author also points to a number of other factors that pushed Tehran to ignite another round of tensions and clashes between Palestine and Israel. The consequences of this round have also brought a number of dividends to Iran, both politically, ideologically and militarily. But the greatest achievement can be considered the departure of the government of B. Netanyahu, who has always been distinguished by his irreconcilable stance towards Iran, especially its nuclear program. The author concludes that the coming to power in Iran of the conservative I. Raisi is likely to introduce additional tension in relations between the two countries and Palestine, apparently, will become a field of confrontation between Tehran and Tel Aviv more than once.

***Keywords:*** *Palestinian-Israeli conflict, Iran, “HAMAS”, geopolitical interest, the Arab world, Ali Khamenei, B. Netanyahu*

**UOT 322**

**GÜNEL MƏLİKLİ**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA-nın Fəlsəfə və Sosiologiya institutunun*
*"Siyasi nəzəriyyə" ixtisası elmlər doktoru proqramı üzrə dissertantı*
*gunelmelikli88@gmail.com, Azərbaycan*

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ İNKİŞAF SİYASƏTİNDƏ DAVAMLI İNKİŞAF: ASAN XİDMƏT VƏ DOST MƏRKƏZİ

**Açar sözlər**: *dövlət, davamlı inkişaf, müasir cəmiyyət, "ASAN Xidmət", dost mərkəzi, dost agentliyi.*

Məlum olduğu kimi, müasir cəmiyyətin siyasi sisteminin fəaliyyət mexanizmi hakimiyyətin səlahiyyətlərinin həyata keçirilməsi üzərində qurulur. Obyektiv şərait siyasi sistemin transformasiyasına, yenidənqurulmasına və yaxud dağılmasına gətirib çıxara bilər. Hər bir dövlətin başlıca vəzifəsi siyasi sistemin sabitliyini qoruyub saxlamaqdır. Qurulmuş siyasi rejimə həm idarəçilik üsulları, həm də milli-tarixi ənənələr təsir göstərir. Aydındır ki, sabitliyə iqtisadi, siyasi, sosial, təşkilati amillər daxildir.

Bu, bir həqiqətdir ki, ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı Prezident İlham Əliyevdir.

Digər həqiqət isə ondan ibarətdir ki, möhtərəm prezidentimizin qazandığı bütün uğurların kökündə Heydər Əliyev siyasətinə sadiqlik və onun dünyanın yeni geosiyasi reallıqları kontekstində kreativ və innovativ yanaşmalarla davam etdirilməsi kursu dayanır. Azərbaycan Prezident İlham Əliyevin məqsədyönlü, sistemli, düşünülmüş və müdrik siyasəti sayəsində sabitlik və təhlükəsizlik adasına çevrilmişdir. Xalq öz prezidentinə inanır və onu dəstəkləyir. Prezident də ayrı-ayrı beynəlxalq siyasi dairələrin və dövlətlərin diqtəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn bir müstəqil siyasət həyata keçirir. [8, s.105]

Davamlı inkişaf yolunda ciddi uğurlar qazanmış Azərbaycan islahatları davam etdirir. Məqsəd həyatımızın ayrı-ayrı sahələrində özünü göstərən müasirləşmə və inkişaf meyillərini vahid axarda daha sıx əlaqələndirmək, müxtəlif layihələrin reallaşdırılmasını sürətləndirmək və insanların rifahını daha da yaxşılaşdırmaqdır.

Dövlət başçısı hökumətin fəaliyyətini son 18 ildə özünəməxsus tələbkarlıqla təkmilləşdirmiş, "cilalandırmışdır". İdarəçilik sistemində özünü göstərən cüzi qüsurların belə aradan qaldırılması üçün ardıcıl kadr və struktur islahatları həyata keçirmiş, xalq layiqli xidmət məramını vəzifədə irəli çəkdiyi kadrlar qarşısında ümdə vəzifə kimi aktuallaşdırmışdır. "Xalqa doğru – haqqa doğru" prinsipinə əsaslanan bu siyasət vətəndaşların dövlət rəhbərinə olan sevgisini, rəğbətini, inamını daha da atrırmışdır. "ASAN xidmət", "ASAN kommunal" və "Dost" kimi unikal xidmət mərkəzlərinin yaradılması da xalqa layiqli xidmət məramının təcəssümü olmuşdur. [12, s.138]

Bu baxımdan 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması bu məqsədə nail olunması istiqamətində mühüm addım olmuşdur.

Agentliyin tərkibində vətəndaşlara xidmət məqsədilə ASAN xidmət mərkəzləri yaradılmışdır ki, onların da fəaliyyəti vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalmasına, vətəndaşlara münasibətdə etik qaydalara əməl edilməsinə, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə vəs. bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasına nail olunmasına gətirib çıxarmışdır.[2]

"ASAN xidmət" şəbəkəsinin genişləndirilməsini, təkcə Bakıda-paytaxtda yox, həm də digər şəhərlərdə və bölgələrdə uğurla fəaliyyət göstərməsini xüsusi qeyd etməliyik..

Araşdırmalara əsasən belə demək olar ki, kiçik və orta biznesin fəaliyyəti xeyli optimallaşmışdır. Bu baxımdan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) gördüyü işlər diqqəti cəlb edir. Agentlik "KOB Dostu" şəbəkəsinin, sahibkarların dövlət xidmətlərinə rahat çıxışının təmin edilməsi, KOBİA-nın dəstəkləyici imkanlarının, biznesdən-biznesə xidmətlərin vahid məkanda əlaqələnməsi ilə bağlı KOB evlərinin təşkili istiqamətində fəal iş aparır.

Hazırda 12 "KOB Dostu" fəaliyyət göstərir; onların gördüyü işlər etiraf olunur və bəyənilir. Agentliyin fəaliyyətinin mühüm istiqamətlərindən biri də müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi və bu prosesdə KOB maraqlarının daha dolğun nəzərə alınmasıdır. Bu istiqamətdə müəyyən addımların atılması təqdirəlayiqdir. Belə ki, Agentliyin təklifləri əsasında "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsi hazırlanmışdır.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri artıq 6 ildir ki, ölkə vətəndaşlarının xidmətindədir. Bu mərkəzlər yarandığı gündən fəaliyyətini "Vahid məkan" prinsipi üzrə qurublar ki, bu da hər cəhətdən olduqca səmərəlidir.

"ASAN xidmət" mərkəzi Bakıdan cəmi 3 ay sonra, 2013-cü ilin mayında Sumqayıtda da açılmışdır. Böyük şəhərlərdə qərarlaşan "ASAN xidmət" mərkəzləri bölgələrdə də səyyar xidmətlər göstərirlər. Bu xidmətlər üçün də hesablaşmaların nağdsız aparılması, şəffaflığın təmin edilməsi, vətəndaşların dövlət orqanlarına etimadının gücləndirilməsi başlıca prinsiplərdir. Hazırda regionlarda Səyyar "ASAN xidmət" avtobusu və Səyyar "ASAN qatar" vasitəsi ilə vətəndaşlara zəruri xidmətlər göstərilir. Belə xidmətlərin həyata keçirilməsi dövlət xidmətlərinin vətəndaşlara daha rahat, innovativ qaydada çatdırılması, vətəndaşların məmnunluğunun təmin edilməsi məqsədlərini izləyir. Bu mərkəzlərin fəaliyyəti vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Respublikamız üzrə keçirilən səy sorğularına əsasən belə demək olar ki, vətəndaşların "ASAN xidmət" mərkəzlərindəki xidmətlərdən məmnunluq əmsalı 100 faizə yaxındır, daha doğrusu, 99,6 faizdir. "ASAN xidmət" cəmiyyətimizdə gedən müasirləşmə, yeniləşmə, inkişaf proseslərinin konkret sahədə-vətəndaşlara xidmət göstərilməsində təzahürünü çox yaxşı nümayiş etdirir. Təsadüfü deyildir ki, bir sıra xarici dövlətlər tərəfindən Azərbaycan təcrübəsi çox yüksək qiymətləndirilir, diqqətlə öyrənilir və tətbiq edilir.

Ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri ilə sosial ədalət prinsiplərinin birləşdirilməsi özünü doğruldur. Son illər ərzində yüzdən çox köçkün şəhərciyinin tikilməsi, şəhid ailələrinə, müharibə veteranlarına, müharibə əlillərinə 6650 mənzilin təqdim olunması xüsusi qeyd olunmalıdır.

Azərbaycanın təhlükəsizlik, sabitlik məkanı olması xüsusi vurğulanmalıdır. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondan ibarətdir ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Başlıca səbəb bu siyasətin ölkəmizin güclü dövlətə çevrilməsinə, xalqın rifah halının yaxşılaşmasına istiqamətlənməsidir, konkret məzmun kəsb etməsidir. Azərbaycan öz maraqlarını tam şəkildə, yetərincə qorumağı bacarır. Dövlətimiz xaricdən gələn mümkün risklərin idarə olunması, azaldılması, aradan qaldırılması, dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmləndirilməsi sahəsində öz fəallığını daha da artırır. Respublikada biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı, güzəştli şərtlərlə kreditlərin verilməsi, yetərli səviyyədə mailiyyə resurslarının yaradılması, sənaye parklarının, aqroparkların səmərəli fəaliyyəti və s. – bütün bunlar nəticəlilik baxımından diqqətəlayiqdir.

Azərbaycanın kosmik kluba daxil olması bir tərəfdən əldə edilmiş innovasiyaları, müasirləşmə məqamlarını nümayiş etdirməyə digər tərəfdən biznes xarakterli əməliyyatlar dairəsini genişləndirməyə imkan verir. Hazırda dünyada Azərbaycan məhsulu kimi tanınan "ASAN xidmət" brendi ölkəmizin intellektual inkişafını ifadə edir. Təsadüfü deyildir ki, indi bu sistemi tətbiq edən ölkələrin sayı artmaqdadır.

"ASAN xidmət" mərkəzlərinə 26 milyondan çox insanın müraciət etməsi, iki yüzdən çox xidməti göstərilməsi, proseslərin tam şəffaf aparılması, qanun pozuntusuna yol verilməməsi, bəyənilmə əmsalının yüz faizə yaxın olması

– bu, həqiqətən böyük nailiyyətdir. Məhz dövlətin verdiyi dəstək sayəsində innovasiyaların, yeni texnologiyaların, müasir dünya təcrübəsinin tətbiqi sayəsində ölkəmizdə aqrar sektor həm gəlirli, həm də maraqlı, cəlbedici sahəyə çevrilmişdir.

Azərbaycanın yeniləşməsi, müasirləşməsi və güclənməsi mənəvi sahədə də aydın nəzərə çarpan meyilləri və xüsusiyyətləri nümayiş etdirir. Mənəvi zənginlik, yüksək mədəni inkişaf, milli-mənəvi köklərə bağlılıq, biliklərə, peşələrə dərindən yiyələnmək indiki mərhələdə xüsusi əhəmiyyət kəsb edir.

Dost agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış İlham Əliyev söyləmişdir: "Sosial sahə bizim üçün proritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir." [3, s.55]

Akademik Ramiz Mehdiyev "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq" əsərində Azərbaycanda siyasi elitaların təkamül yolu ilə əvəzlənməsinin iqtisadi inkişaf proseslərinə təsirini təsdiq etmişdir. Müəllif əsərdə haqlı olaraq göstərir ki, kadrların yeni, intellektual və kreativ insanlarla əvəz edilməsinin təkamül xarakteri əvvəlki nəsillərin ənənələrinin, təcrübəsinin qəbul olunması, onlara hörmət edilməsi müasir inkişafın və postmodernist demarşın tələblərinə uyğun olaraq yenilik gətirən ideyaların tətbiqi prinsipi əsasında qurulur. Azərbaycanda yeni siyasi elitanın  formalaşdırılması daha çox dövlət idarəçiliyinin müasirləşdirilməsi, "elektron hökumət"in yaradılması, bir sözlə, bütün sahələrdə idarəetmənin kompüterləşdirilməsi, innovasion yeniliklərin tətbiqi ilə şərtlənir. "ASAN xidmət" mərkəzləri öz etimadını qazanaraq Azərbaycanın brendinə çevrilmişdir. Azərbaycan dünyada sayı çox olmayan kosmik ölkələr klubuna daxil olub: 2013-cü il fevralın 8-də Azərbaycanın birinci, 2014-cü il iyunun 30-da ikinci, 2018-ci il sentyabrın 26-da isə üçüncü telekommunikasiya peyki orbitə çıxarılıb. 2003-cü ildən sonrakı dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib və ya təmir edilib. Yüzlərlə tarixi bina, muzey, teatr və kitabxanada genişmiqyaslı yenidənqurma və təmir işləri aparılıb, onlar yeni avadanlıqla təchiz edilib. Ölkənin ali məktəblərində, elmi mərkəzlərdə, respublika Milli Elmlər Akademiyasının müəssisələrində də analoji işlər aparılıb. Ölkədə 16 il ərzində 15 min kilometrdən çox asfalt yol çəkilib, 443 körpü inşa edilib. Bakı Metropoliteninin 4 yeni stansiyası istifadəyə verilib. Bu müddətdə Azərbaycanda altısı beynəlxalq olmaqla, 7 aeroport tikilib. Bütün bunlarla bərabər, 2003-2019-cu illərdə ölkədə 31 elektrik stansiyası tikilib istifadəyə verilib. Nəticədə Azərbaycan qonşu ölkələrə elektrik enerjisi ixrac etməyə başlayıb. Respublikanın yaşayış məntəqələrinin təbii qazla təmin edilməsi göstəricisi artaraq 51 faizdən 96 faizə çatdırılıb. Oğuz-Qəbələ-Bakı su kəməri xətti çəkilib, ən iri sutəmizləyici qurğu tikilib, regionlarda çoxsaylı subartezian quyuları qazılıb, yüzlərlə modul tipli sutəmizləyici qurğu istifadəyə verilib, əhalinin içməli su ilə fasiləsiz təchizatı təmin olunub.

Son 16 ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş aparılıb. [11, s.137]

Ölkədə bütün çadır düşərgələri və "fin evləri"ndən ibarət qəsəbələr ləğv edilib, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilib. Şəhid ailələri, müharibə veteranları və əlilləri xüsusi qayğı ilə əhatə olunub. Onlara dövlət hesabına 5500-dən çox mənzil, 6 mindən çox minik avtomobili verilib. Sosial sahədə islahatlar inqilabi xarakter daşıyıb. 2019-cu il sentyabrın 1-dən etibarən pensiyalar, əlilliyə görə müavinətlər, tədris müəssisələrində təqaüdlər yüz faizdən çox artırılıb. Dövlət qulluqçularının, hüquq-mühafizə orqanları işçilərinin, hərbi qulluqçuların və başqalarının əməkhaqqı artırılıb.Ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb. Dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistem şəklində birləşdirən "ASAN xidmət" və "DOST" Azərbaycanın brendlərinə çevrilib. Ötən illər ərzində Azərbaycanın xarici siyasət kursu da milli maraqlar çərçivəsində bir sıra keyfiyyət dəyişiklikləri

edilməklə uğurla həyata keçirilib. Dövlətimizin başçısının xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, özünün nümayiş etdirdiyi peşəkar siyasi məharət, milli məqsədlər naminə dünyanın ən nüfuzlu tribunalarından diplomatik bacarıqla istifadəsi Azərbaycan dövlətçiliyi və nüfuzu baxımından mühüm əhəmiyyət kəsb edib. Bu müddətdə Azərbaycan qonşu və uzaq dövlətlərlə mehriban dostluq və beynəlxalq hüquq normalarından irəli gələn şərtlər çərçivəsində münasibətlərini xeyli gücləndirib. Avroatlantik məkana inteqrasiya istiqamətində mühüm nailiyyətlər qazanan, Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti proqramında uğurla iştirak edən ölkəmizin Şərq dövlətləri ilə də münasibətlərində yeni səhifələr açılıb. Əvvəllər münasibətlərimiz, ümumiyyətlə, mövcud olmayan və ya sadəcə diplomatik əməkdaşlığımız olan ölkələrlə hərtərəfli əlaqələr qurulub, münasibətlər daha da dərinləşdirilib. Ölkə rəhbərinin dövlətçilik təfəkkürünü, idarəçilik səriştəsini səciyyələndirən əsas amillər inkişaf, tərəqqi, siyasi sabitlik, sosial rifah, firavan həyat və güclü müasir Azərbaycandır. Məhz cənab İlham Əliyevin gərgin fəaliyyəti və ugurlu siyasəti nəticəsində qazanılan bu nailiyyətlərdən cəmiyyətin bütün üzvlərinə pay düşür. XXI əsrin başlangıcında dünyada çox böyük dəyişikliklər baş verib. Fikrimcə, bu dəyişikliklər sırasında ən mühümü vətəndaş cəmiyyətinin inkişafında əsas amilə çevrilən insan kapitalıdır. Əgər dünənə qədər həlledici amil hərbi güc, iqtisadi sistemin inkişafı, informasiya texnologiyası sahəsində nailiyyətlər idisə, hazırda bu, insan kapitalıdır. Sabitlikdən innovasiyalı, sosial orientirli mərhələyə keçən indiki Azərbaycanda bu, xüsusilə mühüm önəm daşıyır. Prezident İlham Əliyevin inkişaf strategiyasının əsas mahiyyəti də bundan ibarətdir. “Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik”. Bu, o deməkdir ki, indiki mərhələdə Azərbaycan dövlətinin başlıca siyasi-ideoloji vəzifəsi, onun fəaliyyətinin əsası insan - vətəndaşdır və dövlət başçısı bu vətəndaşın yüksək intellektual səviyyəsinin təmin olunmasında israrlıdır. Ayrı-ayrı dövlət qurumların fəaliyyətinin, həmçinin ümumilikdə e-hökumətin fəaliyyətinin dəyərləndirilməsi baxımından dövlət xidmətlərinin müəyyən meyarlar əsasında qiymətləndirilməsi önəmlidir. Azərbaycanda dövlət xidmətlərinin qiymətləndirilməsi Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət agentliyinə həvalə edilmişdir. Belə ki, Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq Dövlət Agentliyi elektron Reyestrə daxil edilmiş xidmətlərin qiymətləndirilməsini həyata keçirir. Qiymətləndirmə “ASAN xidmət indeksi”nə uyğun olaraq aparılır. “ASAN xidmət indeksi”ni təşkil edən parametrlər aşağıdakılardır:

- Xidmət barədə məlumatlandırma (xidmət üçün tələb olunan sənədlər və xidmət haqları barədə məlumatlandırılma, sorğu xidmətinə edilən müraciətlərin cavablandırma operativliyi və s.);
- Xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa);
- Xidmətin göstərilmə müddəti;
- Xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası;
- Vətəndaş məmnunluğunun ölçülməsi mexanizmlər və s.[6, s.94 ]

Cənab prezident söyləmişdir: “Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır-islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik , yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcəkdir”.[3, s.55]

### Ədəbiyyat siyahısı

1. Alim kəndə qayıdır//Azərbaycan qəzeti. – 2019, 27 yanvar.
2. “ASAN xidmət” mərkəzləri haqqında ümumi məlumat [Elektron resurs] /URL: https:// asan.gov.az/az/about
3. Dost agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılışında İlham Əliyevin

nitqi/Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə. - Bakı: - 2019, - s.55.

4. Dövlətçiliyin, Milli maraqların və təhlükəsizliyin qarantı. /-Bakı: «Şərq-Qərb» Nəşriyyat evi, -2015, -380 s.

5. Hüseynli İ. İlham Əliyev Azərbaycanin Yeni İnkişaf mərhələsinin əsasini yaratdi//Azərbaycan qəzeti. - 2017, 15 sentyabr.

6. Quliyev V. Azərbaycanda dövlət xidmətləri sektorunda islahatlar.// - Bakı: Geostrategiya noyabr-oktyabr. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. - 2019, s.92-97.

7. Məlikli G. İlham Əliyevin siyasi stratgiyasında milli prioritetlər./ G.Məlikli. -Bakı: "Nurlar Poliqrafiya mətbəəsi", - 2018. - 208 s.

8. Nəsirov E. Prezident İlham Əliyevin son 1 illik fəaliyyəti: İslahatların miqyası və xalqın reaksiyası//. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə- 2019, - s.105-110

9. Prezident gənclərə tam güvənir, Prezident İlham Əliyevin nitqi//Azərbaycan qəzeti. – 2019, 2 fevral.

10. Prezident Vətənə, xalqa və dövlətə sədaqət andı içdi//Azərbaycan qəzeti. – 2018, 19 aprel.

11. Vəliyev İ. Dövlət siyasətində prioritet hədəflər: güclü dövlət, müstəqil siyasət, yüksək sosial rifah. // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu. Elmi əsərlər, - 2018, №1(30), - s.132-141.

12. Vəliyev İ. Yüksək səriştəli idarəçilik modeli// - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət idarəçiliyi:Nəzəriyyə və təcrübə. -2019, - s.137-142.

## Резюме

**Гюнель Меликли**

## Устойчивое развитие в национальной политике развития Азербайджанской Республики: центр АСАН и агентство ДОСТ

Азербайджан, добившийся значительного прогресса на пути устойчивого развития, продолжает свои реформы. Эта политика, основанная на принципе «к людям - к правде», повысила любовь, симпатию и доверие граждан к главе государства. Создание уникальных сервисных центров «АСАН сервис», «АСАН сервис» и «ДОСТ» также стало воплощением достойного служения народу. Оценка государственных услуг в Азербайджане была поручена Государственному агентству по обслуживанию граждан и социальным инновациям при президенте. Цель - более тесно связать тенденции модернизации и развития в разных сферах нашей жизни, ускорить реализацию различных проектов и еще больше улучшить благосостояние людей. Главная цель успешной модели развития Азербайджана заключается в том, чтобы проводимая в нашей стране политика поддерживалась народом. Основная причина в том, что эта политика направлена на превращение нашей страны в сильное государство, повышение благосостояния народа и имеет конкретное содержание. Азербайджан способен полностью и адекватно защищать свои интересы. Сегодня Ильхам Алиев объединяет в Азербайджане крупнейшие державы мира.

***Ключевые слова:*** *государство, устойчивое развитие, современное общество, АСАН сервис, центр ДОСТ, агентство ДОСТ.*

**Summary**

**Gunel Melikli**

**Sustainable development in the national policy of development of the Republic of Azerbaijan: ASAN center and DOST agency**

Azerbaijan, which has made significant progress on the path to sustainable development, is continuing its reforms. This policy, based on the principle of "to the people - to the truth", raised love, sympathy and trust of the citizen to the head of the state. The creation of unique service centers "ASAN service", "ASAN service" and "DOST" also became the embodiment of a worthy service to the people. Assessment of public services in Azerbaijan was entrusted to the State Agency for Civil Service and Social Innovations under the President. The goal is to more closely link the trends of modernization and development in various spheres of our lives, to accelerate the implementation of various projects and to further improve the well-being of people. The main reason is that this policy is aimed at transforming our country into a strong state, increasing the well-being of the people and has a specific content. Azerbaijan is able to fully and adequately defend its interests. Today Ilham Aliyev unites the largest powers of the world in Azerbaijan.

***Keywords:*** *state, sustainable development, modern society, ASAN service, DOST center, DOST agency.*

UOT 32

**HUMAY TAĞIYEVA**
*Bakı Dövlət Univeritetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakultəsinin*
*"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının doktorantı*
*taghiyeva.humay@gmail.com, Azərbaycan*

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ MÜNAQİŞƏLƏR PROBLEMİ

***Açar sözlər:*** *münaqişə, müharibə, nəzəriyyə, liberalizm.*

***Beynəlxalq münaqişələr – bir sıra sanballı amillərin təsiri üzündən – köklü tədqiqatların seçilən elmi problemlərindəndir. Belə üstün mövqe onu, təbii olaraq, çağdaş aparıcı təlim – nəzəriyyələrin və elmi məktəblərin tədqiqatlarının baş mövzularından biri etmişdir.***

***Münaqişə və dinclik, müharibə və sülh problemləri liberalizm, marksizm, faşizm və digər təlimlərdə fərqli yönlərdən dəyərləndirilmişdir. Həmin dəyərləndirmələrin müqayisəli təhlili xeyli diqqətçəkici məqamları üzə çıxarmağa və əməli qənaətlərə gəlməyə ciddi əsaslar vermişdir. Bu kontekstdə müxtəlif qayə və məramlı münaqişələrə haqq qazandıran, onlarda "faydalılıq əmsalı" axtaran elmi baxışların ərsəyə gəlməsi də böyük nəzəri-siyasi maraq doğurur.***

Müasir dünya siyasətinin elmi-nəzəri və əməli məsələləri sırasında beynəlxalq münasibətlərdə münaqişələr problemi çox mühüm yer tutur. Beynəlxalq münasibətlərdə münaqişələr məsələsi çox qədim tarixə malik olmaqla yanaşı, çağdaş dünya üçün də böyük aktuallıq kəsb edir. Bu kontekstdə də beynəlxalq münasibətlərdə münaqişələr və, ələlxüsus da, etnosiyasi konfliktlər zəruri və ciddi elmi-siyasi marağa səbəb olur.

Bununla əlaqədar olaraq da burada öncəliklə münaqişə fenomeni ilə bağlı bəzi məqamları nəzərdən keçirmək lazım gəlir. Davamlı və əhatəli elmi araşdırmaların da təsdiqlədiyi kimi, münaqişə çoxsahəli bir proses, nəzəriyyə və sairədir. Məsələyə dair xeyli və fərqli elmi-siyasi baxışlar və mövqelər mövcuddur.

Əksər tədqiqatçılara görə, münaqişə sosial bir hadisədir. O, əsasən, çoxşaxəli ideyaların, maraqların və fəaliyyətlərin toqquşması kimi qəbul edilir,başa düşülür. Münaqişə ən azı iki şəxsiyyətin və ya ictimai qüvvənin, iki tərəfin iştirak etdiyi müxtəlif yönlü və mahiyyətli qarşıdurmanın təzahürlərindən biridir. [6, s.53].

Müasir dünya və cəmiyyətlər də müxtəlif baxış və mövqelərə malik subyektlər arasındakı mövcud qarşıdurmalarsız və ziddiyyətlərsiz keçinə bilmir. Belə ziddiyyətlər isə bir çox hallarda münaqişələr ilə nəticələnir. ABŞ sosioloqu, alman əsilli L. Kozer isə ictimai sistemin dayanıqlılığının təmin edilməsində münaqişələrin müsbət rolunu əsaslandırmışdı [7,s.40-41]. O həm də münaqişələrə belə bir tərif vermişdi: "Münaqişə– tərəflərdən hər birinin digərinin məqsədlərini neytrallaşdırmaqla və boğmaqla dəyərlər, status, hakimiyyət və ya nadir ehtiyatlar uğrunda apardığı mübarizədir" [12,s.241].

Məlumdur ki, konfliktologiyanın bir elm kimi formalaşması alman sosioloqu Q. Zimmelin adı ilə bağlıdır [7,s.36-39]. Məhz Q. Zimmel elmi dövriyyəyə "münaqişənin sosiologiyası" anlayışını gətirmişdir [7,s.37]. Son illər bir çox ölkələrin araşdırmaçıları və tədqiqat institutları münaqişələrin öyrənilməsi ilə məşğul olurlar.

İndi münaqişələrin öyrənilməsi ilə məşğul olan mərkəzlərin sayı 300-dən çoxdur. Onlardan ən səmərəli və məhsuldar fəaliyyət göstərənlərə isə Oslo Beynəlxalq Sülh Tədqiqatları İnstitutunu, Stokholm Sülh Tədqiqatları İnstitutunu, Vyana Beynəlxalq Sülh İnstitutunu, Hessen Sülh və Münaqişə Problemlərinin Tədqiqatı Fondunu, Harvard məktəbi nəzdindəki Münaqişələrin Nizamlanması üzrə Qrupu nümunə ola bilər [10, s.187].

"Münaqişə" anlayışının izahı zamanı öncə onu ifadə edən sözün etimoloji kökünü araşdırmaq lazımdır. "Konflikt" ifadəsi latınca "conf-

lictus" sözündən olub, "toqquşma" mənasını verir. O, tərəflərin, fikirlərin, mövqelərin, qüvvələrin qarşılaşması və toqquşması kimi başa düşülür.

Hazırda verilən ortaq bir tərifə görə isə "münaqişə" – çeşidli, əksqütblü maraq və maraqlarını müxtəlif müstəvi və miqyaslarda qarşıdurması, toqquşması anlamına gəlir. Etnosiyasi münaqişələrin anlayışı və mahiyyətinə dair elmi araşdırmalar, yanaşmalar və mövqelərdə, ilk baxışdan qəribə görünən, ziddiyyətli bir dəyərləndirmə də maraq doğurur.

Belə ki, bəzi konfliktoloqlar etnosiyasi münaqişələrin müsbət, faydalı məqamlara da malik olmaları qənaətindədirlər. Məsələn, L.Kozerə görə, münaqişələr (etnosların qarşıdurması, toqquşması daxil) sosial-siyasi sistemlərin daşlaşmasına, sümükləşməsinə mane olur və bununla da yeniləşməyə, yaradıcı cəhdlərə, səylərə çağırışlar edir. Alman ümumi konflikt məktəbinin tanınmış simalarından olan R.Darendorfun fikrincə isə, münaqişələr ümumi sosial dəyişikliklərin amili kimi gərəklidir [7, s.35, 39].

Beynəlxalq münasibətlərdə münaqişələr problemini araşdıranlardan F.Brayar ilə M.-R.Cəlili bəzi fərqli təlimləri və konkret politoloji baxışları qarşılaşdıraraq müəyyən qənaətlərə gəlmişlər. Onların tədqiqatlarından [2,s.108-109] bəlli olur ki, anqlo-sakson məktəbinin - "Konfliktin həlli" baxışının, üslubunun Avropa məktəbinin də qəbul etdiyi "Sülh axtarışı" yanaşmasından, metodundan ciddi fərqləri vardır. Birincinin təmsilçisi C.Bartona görə, beynəlxalq münaqişələr əslində subyektiv səciyyə daşıyırlar; bu da münaqişə tərəflərinin gerçəkliyi dürüst dəyərləndirməmələrinin nəticəsidir. İkincinin nümayəndəsi, norveçli Y.Qaltunq isə münaqişələri obyektiv reallığın təzahürü, ifadəsi kimi qiymətləndirir. O habelə münaqişələrin qaynağını güc (zor) amilinə söykənən strukturlarda görür.

1945-ci ildə BMT Nizamnaməsi qəbul olunana qədər "konflikt" termininin və ya onun sinonimlərinin istifadəsində müəyyən qədər sərbəstlik vardı. Bu terminin bir dildən digərinə tərcüməsi ilə bağlı da vahid fikir yoxdu. Münaqişələrin sülh yolu ilə nizamlanmasına aid ilk konvensiyalar fransız dilində idi. Onların rus və ingilis dillərinə tərcümələrində isə bəzi fərqlər müşahidə olunurdu.

Məsələn, "Beynəlxalq münaqişələrin sülh yolu ilə nizamlanmasına dair 1899-cu il Konvensiyası" və s [3], [4]. Sənədi nəzərdən keçirəndə görürük ki, orada fransız dilindəki "konflikt" sözü ingiliscəyə "mübahisə" kimi tərcümə olunmuşdur. Bu fərqlər bir sıra müvafiq konvensiyaların mətnində də özünü açıq-aydın göstərir.

Beynəlxalq münasibətlər bəşər tarixinin və dünya siyasətinin tərkib hissəsidir. Bu kontekstdə xalqlararası siyasi münaqişələr də beynəlxalq əlaqələrdən ayrılmazdır. Beynəlxalq siyasi münaqişə bir çox yönləri ilə yanaşı həm də çoxşaxəli mənafelərin toqquşmasıdır. Başqa sözlə, xalqlararası siyasi münaqişələrə yalnız dövlətlərin və onların birliklərinin siyasi fəaliyyətlərinin nəticələri olan qarşıdurmaları deyil, həmçinin beynəlxalq münasibətlərin digər iştirakçılarının bir çox hərəkətlərinin siyasi məqamları ilə şərtlənən konfliktlərin də aid edilməsi məqsədəuyğundur [ 1,s.58].

Beynəlxalq münaqişələrin əsas səbəbini dünya siyasətində aparıcı rol oynayan aktorların maraqları arasındakı ziddiyyətlər təşkil edir. Elə beynəlxalq münaqişələrin başlıca səbəblərini də, əsasən, bu ziddiyyətlərdə axtarmaq lazımdır. Beynəlxalq münasibətlərin nəzəri müddəalarına və praktiki nəticələrinə görə, dünya siyasəti münaqişələrlə kompromisslərin əməkdaşlığından ibarətdir.

Dövlətlərin xarici siyasəti əsrlər boyunca qədim romalıların "Sülh istəyirsənsə, müharibəyə hazır ol" prinsipi əsasında qurulubdur. Beynəlxalq münaqişələr də həmişə olubdur. Amma beynəlxalq münasibətlərdə daima köklü və ötəri dəyişikliklər getdiyinə görə konfliktlərin səbəbləri, iştirakçıları, məzmunu və xarakteri də davamlı olaraq dəyişir. Onu da qeyd etməliyik ki, beynəlxalq münasibətlər sistemində "konflikt" konsepsiyası Millətlər Cəmiyyətinin fəaliyyətinin ilk illərində meydana gəlmiş və 1950-ci illərin sonlarında daha da mühüm önəm kəsb etmişdir.

Bununla əlaqədar olaraq beynəlxalq hüquq da, öz növbəsində, "beynəlxalq münaqişələrin nizamlanması" adı altında dövlətlərarası münasibətlərdə meydana çıxan müharibə, mübahisə,

qarşıdurma, fikir ayrılığı və digər halların tənzimlənməsi ilə davamlı məşğul olmağa başladı. Beynəlxalq hüquq xalqlararası konfliktləri hərbi və silahsız qarşıdurmalar kateqoriyalarına böldü. Beynəlxalq humanitar hüququda hərbi münaqişələr daha çox diqqəti cəlb edir. Belə ki, hərbi münaqişələr - silahlı əməliyyatlar zamanı mülki əhalinin müdafiəsi, əsirlər, yaralılar və başqa şəxslərin müdafiəsi də gündəmə gəlir.

Dövlətlər arasındakı hərbi münaqişələr həmişə beynəlxalq humanitar hüququn tənzimləmə predmeti olubdur. Daxili münaqişələrin nizamlanması isə 1949-cu ilə kimi dövlətlərin birbaşa səlahiyyətlərinə aid edilirdi. 1949-cu il Cenevrə Konvensiyasına əsasən daxili münaqişələrin nizamlanmasının beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həyata keçirilməsi qərara alındı.

Həmin Konvensiyaya 1977-ci ildə əlavə edilən 1saylı Protokol isə beynəlxalq münasibətlərin subyektlərinin sayını artırdı. Habelə öz müqəddəratını təyin etmək üçün müstəmləkəçilik, işğalçılıq, irqçilik və s. qarşı mübarizə aparan xalqların hüquqlarının da bu Konvensiya ilə qorunmasına başlanıldı. Konvensiyaya daha bir əlavə, yəni 2 saylı Protokol isə daxili hərbi münaqişələr anlayışını dəqiqləşdirdi və onlara tətbiq olunan beynəlxalq humanitar hüquq normalarının sayını artırdı [13].

Yenə də beynəlxalq münasibətlərin bir sıra sanballı elmi-əməli qənaətlərinə dayanaraq bu vacib məqamı da vurğulamağı lazım bilirik: beynəlxalq münaqişənin baş verməsi üçün ən azı iki tərəfin movcudluğu, onların öz məqsədlərinə nail olmaqdan ötrü güc sərf etmələri və qarşı tərəfi özlərinə əngəl kimi görmələri əsas şərtlərdəndir.

Ümumiyyətlə, istənilən münaqişənin təhlili üçün onun əsas elementləri sayılan bu kimi önəmli məsələlərin elmi cəhətdən araşdırılması tələb olunur: konfliktin - a) iştirakçıları (qarşı tərəflər, qarşıdurmanın subyektləri, münaqişənin tərəfləri); b) resursları və səbəbləri, c) münaqişədə birbaşa iştirak etməyən, lakin onun nəticəsində maraqlı olan tərəflərin mövcudluğu; ç) rəqiblərin maraqları və fəaliyyətləri; d) baş verdiyi şərait (müvəqqəti, məhəlli, sosial- iqtisadi böhran, çətinlik) kimi məsələləri araşdırmaq lazımdır.

Müasir beynəlxalq münasibətlər nəzəriyyələrinin əhatə etdiyi və əsas tədqiqat obyekti olaraq müəyyənləşdirdiyi elmi problemlərdən biri də xalqlararası münaqişələrdir. Birinci Dünya müharibəsindən sonra qalib dövlətlərdən olan tədqiqatçılar müharibə (münaqişə) və sülh problemi ilə bağlı çoxlu taleyüklü elmi-siyasi suallara cavab tapmaqdan ötrü xeyli araşdırmalar aparmışlar:

Həmin problemlər və suallar beynəlxalq münasibətlər nəzəriyyələrinin, demək olar ki, bütün məktəbləri tərəfindən araşdırıldı. Bu zaman hər bir məktəb problemə öz baxış bucağından yanaşdı. Nəticədə qənaət belə oldu ki, münaqişələrin elmi-nəzəri cəhətdən tədqiq olunması onların gələcəkdə baş verməsinin qarşısını ala biləcəkdir. Ancaq müasir beynəlxalq münasibətlərin çox ciddi problemləri bu kimi yanaşmaları əsla təsdiqləmədi.

Beynəlxalq münasibətlərə dair nəzəriyyələrin ilk məktəbi sayılan idealizm və ya liberalizm qətiyyətlə hərbi müdaxiləyə qarşı çıxırdı. Hələ XVII əsrdə H. Qrotsi müharibələri üç yerə bölürdü:

1) Xüsusi – şəxslər arasında.

2) Ümumi (ictimai) – vətəndaşla hakimiyyət arasında.

3) Qarışıq – bir tərəfdən xüsusi, digər tərəfdən ümumi. [8,s.31]

H.Qrotsi həm də ümumi (ictimai) müharibələri ədalətli və ədalətsiz olmaqla 2 yerə ayırırdı. Onun traktatında "ədalətli müharibə" özünü müdafiəni həyata keçirməyin əsas vasitəsi kimi səciyyələndirilirdi [8,s.34].

XVIII-XIX əsrlərdə liberallar bütün dünyada sülhün bərqərar olmasına dair öz təkliflərini irəli sürəndə bunu da vurğulayırdılar: müharibələri yox etmək üçün demokratiyanı aristokratiyadan, sərbəst ticarəti avtarkiyadan və kollektiv təhlükəsizliyi qüvvələr balansından üstün tutmaq lazımdır. Belə bir yanaşmanın əsasında isə insanların mənəvi və siyasi birliyi, onların təbii hüquqları ideyası dururdu.

Liberallar demokratik ənənənin tərəfdarı olan insanlar arasında daimi sülhün bərqərar olmasını mümkün sayırdılar. Habelə inanırdılar ki, insan mükəmməl bir ictimai varlıqdır və onun zəkasına, çoxşaxəli potensialına əsaslanaraq müharibələrin qarşısını almaq olar.

Müharibə, münaqişə və sülh problemləri bir çox liberallar tərəfindən tədqiq olunmuşdur. Həmin tədqiqatların müəyyən fərqli nəticələrinə baxmayaraq, onlar arasında əsas bir oxşar xüsusiyyət mövcuddur. Bu xüsusiyyət bütün liberalların münaqişələrə mənfi, arzuolunmaz bir hal kimi yanaşmaları və onların qarşısını almağın yollarını araşdırmalarından ibarətdir.

Liberallar müharibəni əldə olunmuş inkişafı zəifledən hal kimi dəyəndirirlər. Daha sonrakı dövrdə geniş yayılan iqtisadi liberalizm təliminin nümayəndələri isə, ümumiyyətlə, müharibənin qatı əleyhdarı rolunda çıxış edərək onu azad ticarətin qazandığı bütün uğurları, nailiyyətləri məhvə aparan hadisə kimi qəbul edirlər.

Liberalların bir çoxunun baxışlarına görə, dövlətlər arasındakı münasibətləri səmərəli və normal tənzimləyən bir normalar, prinsiplər toplusu və yaxud hər hansı bir ictimai müqavilə ziddiyyətlərin qarşısını müəyyən qədər ala bilər. Liberalizm beynəlxalq əməkdaşlığın inkişafını müharibələrin qarşısını ala biləcək real qüvvə kimi qiymətləndirir. Onların digər qənaətinə görə isə, XX əsrdə öncə Millətlər Liqasının, daha sonra da BMT ilə, Aİ-nın yaradılması liberalizm ideyalarının praktiki baxımdan reallaşdırılması yolunda atılan addımlar oldu.

Burada müqayisəli təhlil üsulundan yararlanaraq münaqişələr probleminə beynəlxalq münasibətlər nəzəriyyəsinin digər bir məktəbi olan siyasi realizmin nöqteyi-nəzərindən baxmaqda da fayda vardır. XX əsrin 20-30-cu illərində Avropada faşizm ideyalarının yayılması və beynəlxalq birliyin nasizmin (faşizmin) ideologiyası və işğalçı siyasətinin qarşısını ala bilməməsi, nəticədə də, İkinci Dünya müharibəsinin başlanması liberalizm ideyalarının puça çıxmasına və Realizmin güclü nəzəri baxışa çevrilməsinə səbəb oldu.

Məlumdur ki, realizm də beynəlxalq münasibətlər nəzəriyyəsinin aparıcı və təməl təlimlərindən hesab olunur. Onun əsasında xalqlar arasında mübarizə baxışı durur. Beynəlxalq münasibətlər nəzəriyyəsinin bütün təlim və istiqamətlərində olduğu kimi, realizmdə də araşdırılan problemlər arasında münaqişə və əməkdaşlıq, müharibə və sülh məsələləri mühüm yerlərdən birini tutur.Realistlər belə hesab edirlər ki, müharibələrin qarşısını almaq istəyi liberalizmi xəyala çevirdi.

Onların başqa bir qənaətinə görə isə müxtəlif dövlətlər öz güclərini çoxaltdıqca milli maraqlarını da qoruya bilirlər. Milli maraqların toqquşması müharibələri törədir. Bu toqquşmaların qarşısının alınmasının yeganə səmərəli yolu dövlətlər arasında təxmini qüvvələr tarazlığının yaradılmasıdır. Fikrimizcə, qüvvələr balansı beynəlxalq münaqişənin səbəbi deyil, əksinə, sülhün ən yaxşı təminatçısıdır.

Realistlərə görə beynəlxalq münasibətlərdə hər bir dövlətin çoxşaxəli maraqları olduğundan münaqişəli vəziyyətlərdən və qarşıdurmalardan yayınmaq qeyri-mümkündür. Bu səbəbdən xalqlararası münaqişələr beynəlxalq münasibətlərin və proseslərin mərkəzində dayanır. Realizm və müharibəsiz sülhü dünyanı keçici ideal hal hesab edir.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin digər bir məktəbinin təmsilçiləri, yəni neorealistlər realistlərdən fərqli olaraq, beynəlxalq sistemin mərkəzinə münaqişələri deyil, “müharibə və sülh” məsələlərini qoyurlar. Onlar belə hesab edirlər ki, sülhə aparan yolu tapmaqdan ötrü müharibənin əsl mahiyyətini və təbiətini düzgün başa düşmək lazımdır. Qeyd edək ki, neorealistlər əsasən fövqəldövlətlər arasında başverən qlobal və ya “böyük müharibələr”ə diqqət ayırırlar və yalnız onların beynəlxalq siyasətdəki həlledici rolunu vurğulayırlar. Belə ki,bu müharibələr rəqibin iqtisadiyyatının,siyasi sisteminin, ideologiyasının dağılmasına və dünya nizamının yenidən qurulmasına yönəlir.

Neorealistlər beynəlxalq münaqişələrin əsas səbəbini dünyada güc balansının pozulmasında görürlər. Bu məktəbin görkəmli nümayəndəsi K. Volts qeyd edir ki, dünyanın bipolyar quruluşu çoxqütblü strukturdan fəqrli olaraq münaqişələrin qarşısını istənilən halda daha yaxşı alır. Öz mövqeyinə dəlil kimi o, İkinci Dünya müharibəsindən sonra “Soyuq müharibə” dövründəki SSRİ-ABŞ münasibətlərinə istinad edir [9, s.246].

Beynəlxalq münaqişələr problemi marksizm təlimində də ciddi təhlil olunmuşdur. Marksizm nəzəriyyəsinin əsasını sinfi-ideoloji yanaşma təşkil edir. Marksistlərə görə, müharibə ən güclü kapitalist dövlətlərində yığılan artıq sərvətin yeni bazarlara yerləşdirməsi zərurətindən irəli gəlmişdir. Onların elmi-siyasi baxışla-

rında əlavə kapital yığımı sülhə əsaslanan beynəlxalq şəraitin pozulmasının əsas səbəbi kimi vurğulanır.

K.Marksla F.Engelsin və sonra da V.Leninin təhlillərində beynəlxalq siyasət siniflərarası münasibətlərin ifadəsi kimi nəzərdən keçirilirdi. Onların nəzər-nöqtəsinə görə, beynəlxalq münaqişələrin səbəbini sinfi maraqlar arasındakı ziddiyyətlərdə axtarmaq lazımdır. Müasir marksistlər "Soyuq müharibə"ni imperializmə qarşı sinfi mübarizə kimi qiymətləndirirlər. Marksistlərin fikrincə, beynəlxalq sülhün təmin olunması yalnız burjuaziyanın hakimiyyətinin radikal şəkildə məhdudlaşdırılması ilə mümkündür [11, s.27].

Beynəlxalq münaqişələrin elmi tədqiqatında onların təsnifatlaşdırılması məsələləri də çox mühüm yer tutur və önəm daşıyır. Konfliktoloq və diplomatların ümumi qənaətinə görə, münaqişələrin əksəriyyət tərəfindən qəbul edilən təsnifatlaşdırılması müəyyən çətinliklərə malikdir. Amma buna baxmayaraq beynəlxalq münaqişələri təxminən aşağıdakı kimi qruplaşdırmaq olar:

I. Maraqların toqquşma sahələri üzrə:
  1. Dövlətlərarası iqtisadi ziddiyyətlər və qarşıdurmalar.
  2. Diplomatik çəkişmələr və qarşılaşmalar.
  3. Ərazi iddiaları, mübahisələri və müharibələri.
  4. Dini - siyasi mübarizə.

II. Funksional baxımdan:
  a) konstruktiv (yaradıcı, qurucu);
  b) destruktiv (dağıdıcı)

III. İştirakçıların tərkibi cəhətdən:
  - fərdlərarası;
  - qruplararası;
  - dövlətlərarası;

IV. Miqyası ilə əlaqədar:
  1. Ölkədaxili.
  2. Regional.
  3. Beynəlxalq.

V. İştirakçıların sayına görə:
  - ikitərəfli;
  - çoxtərəfli.

VI. Qarşıdurma gərginliyi və səviyyəsi cəhətdən:
  a) daha sərt;
  b) gərgin;
  c) potensial.

Araşdırmaçıların başqa bir təsnifatına əsasən beynəlxalq münaqişələri, ümumiyyətlə, 2 yerə bölürlər: 1) Qeyri-ərazi münaqişələri; 2) Ərazi münaqişələri. Bu zaman birinciyə aşağıdakılar aid edilir:

1) Başqa bir ölkədə hər hansısa dini, məzhəbi, ideologiyanı yaymaq məqsədi.

2) Müəyyən iqtisadi üstünlüklər əldə etmək və ya onu itirmək xətti.

3) Bir dövlətin digərinin həddindən artıq güclənməsinə yolverməmək planları.

4) Bir millətin digər ölkədə yaşayan soydaşlarının hüquq və maraqlarının təminatına dəstəyi;

5) Öz şərəf, ləyaqət və nüfuzunu qorumaq niyyəti.

6) Hər hansı bir xeyirxah prinsipi müdafiə etmək mövqeyi.

Sadaladığımız bu qrupların özləri də müəyyən subkateqoriyalara bölünə bilirlər. Ancaq, bizcə də, onları ümumiləşdirib 3 böyük qrup yaratmaq daha məqsədəuyğun olardı:

- iqtisadi zəminli münaqişələr;
- ideoloji təməlli konfliktlər;
- gücə əsaslanan qarşıdurmalar.

Az öncə yuxarıda qeyd etdiyimiz ikinci qrup, yəni ərazi münaqişələrinə gəldikdə isə onlar da müəyyən fərqli cəhətlərə malikdirlər. Digər yandan da, ərazi konfliktləri ilə əlaqədar bir sıra məsələlər, bu və ya digər formada, əvvəldə yazdığımız 3 böyük qrupdan ibarət təsnifatla da səsləşir və kəsişir [5, s.304].

Ümumiyyətlə isə, bir çox beynəlxalq münaqişələrdə həm ərazi, həm də qeyri-ərazi məsələləri öz əksini tapır. Bütün bunları ümumiləşdirərək beynəlxalq münaqişələrin təsnifatını aşağıdakı cədvəldə bu cür ifadə edə bilərik:

| Ərazi konfliktləri | Qeyri-ərazi münaqişələri |
|---|---|
| a) iqtisadi zəminli münaqişələr:<br>- potensial təbii ehtiyatlara malik ərazilərə sahiblənməyə görə;<br>- tanınmış ərazilər;<br>- həyati məkan uğrunda; | a) iqtisadi motivli münaqişələr:<br>- müəyyən iqtisadi üstünlük qazanmaq və ya onun müdafiəsi; |
| b) ideoloji təməlli konfliktlər:<br>- işğal səciyyəli dini yürüşlər;<br>- dini fəthlər; | b) ideoloji özüllü münaqişələr:<br>- dini müdaxilə;<br>- inqilabi ekspansiya; |
| c) gücə əsaslanan qarşıdurmalar:<br>- torpaq;<br>- fəza;<br>- müdafiə xətləri;<br>- nüfuz və şərəflə bağlı narahatlıq; | c) gücə əsaslananqarşıdurmalar:<br>- təhlükəsizlik;<br>- nüfuz;<br>- beynəlxalq hüququn dəstəklənməsi;<br>- xaricdə yaşayan vətəndaşların müdafiəsi |
| d) milli (etnik) əsaslı münaqişələr:<br>- dil, irq, etniklik;<br>- əhalinin istəyi;<br>- "tarixi hüquqlar". | - |

ABŞ politoloqu K. Volts beynəlxalq münaqişələri 3 fərqli səviyyədə təhlil edir. Bu "üçlükdə" yer alanlar aşağıdakılardır: şəxsiyyət, dövlət və beynəlxalq sistem. Birinci səviyyədə beynəlxalq münaqişələrin mənbəyi şəxsiyyətlərdir. Bu baxımdan insan təbiəti və onun bəzi psixoloji göstəriciləri münaqişəni törədən əsas faktorlar hesab edilir. İkinci səviyyədə münaqişələri törədən amillər dövlət qurumları ilə bağlı olur. Bu zaman, əsasən, coğrafi vəziyyət, təbii ehtiyatlar, demoqrafik durum nəzərə alınır.

Üçüncü səviyyəyə görə münaqişələrin törəməsi və inkişafına beynəlxalq sistemin özündəki bəzi məqamlar təsir göstərə bilir. Beynəlxalq sistemdə tam inteqrasiyanın yetərsizliyi, onun qismən hərc-mərclik səviyyəsinə malik olması, müxtəlif dövlətlərin öz maraqlarının müdafiəsi üçün qanuni zor tətbiqetmə hüququndan istifadə imkanları kimi hallar da münaqişələrin əmələ gəlməsinə müsbət zəmin yaradır.

Münaqişələrə üç səviyyədə yanaşma bir-birini tamamlasa da, beynəlxalq sistem səviyyəsi daha köklü səciyyə daşıyır. Son illərin elmi araşdırmalarından irəli gələn qənaətlərə görə, beynəlxalq sistemdəki bəzi boşluqlara başqa amillərin də əlavə edilməsi münaqişələrə şərait yaradır [2, s.106].

Beynəlxalq münaqişələrin əsas subyektləri, adətən, dövlətlər olur. Lakin siyasi-hərbi koalisiyalar, ayrı-ayrı etnik qruplar və s. də vaxtaşırı beynəlxalq münaqişələrin iştirakçıları qismində çıxış edirlər. Dövlətlərin iştirakçı olmaları baxımından isə beynəlxalq münaqişələri aşağıdakı kimi təsnifatlaşdırmaq mümkündür:

- dövlətlərarası münaqişələr (bu zaman münaqişədə bir-birinə qarşı duran hər iki tərəf dövlət və ya dövlətlər koalisiyasıdır);
- ölkədaxili münaqişələr (bu halda tərəflərdən biri dövlətdir): milli-azadlıq naminə, müstəmləkə əleyhinə və irqçiliyə qarşı müharibələr və s.

Məqalədə nəzərdən keçirdiyimiz məsələlərlə bağlı aşağıdakı ümumiləşdirmələri qeyd edə bilərik:

- hələ bizim eradan əvvəlki dünya tarixindən qaynaqlanan münaqişə anlayışı zaman-zaman yeni keyfiyyətlər əxz edərək çoxçalarlı mahiyyət daşımağa başlamışdır. Qayə və ifadəsini Q.Zimmel, L.Kozer, A.Aklayev, Ə.İbrahimov, E.Məmmədov və b. verdikləri təriflərdə

tapan münaqişə aktı beynəlxalq münasibətlərin də danılmaz elementlərindən biridir;

- çoxsahəli hadisə və fəaliyyət kimi də səciyyələndirilən konfliktin aparıcı meydanlarından birini də beynəlxalq münaqişələr təşkil edir. Beynəlxalq münaqişələrin bir xeyli nəzəri -əməli məsələləri liberalizm, neorealizm, marksizm və digər təlim-məktəblərin diqqət mərkəzində olmuşdur. Nəticədə münaqişə (müharibə) və sülh problemi ətrafında çoxlu fərqli mövqelər ortaya çıxmışdır;
- beynəlxalq münaqişələr də bir sıra cəhətlərinə görə müəyyən mürəkkəbliklərə malikdir. Bu da, öz növbəsində, onların təsnifatlaşdırılması və ortaq qruplaşdırılma aparılması işini xeyli çətinləşdirir;
- ancaq beynəlxalq münaqişələrin təsnifatlaşdırılmasına bəzi cəhdlər edilmişdir. Onların sırasında da J.Duraselle, K.Volts və b. bölgüləri diqqəti cəlb edir.

### Ədəbiyyat siyahısı


1. Abbasbəyli A.N.,Darabadi P.Q, İbrahimov Ə.G. Konfliktologiya. Bakı: Bakı Universiteti, 2006, 208 s.
2. Brayer F., Cəlili M. Beynəlxalq münasibətlər. Bakı: Azərbaycan, 2010, 128 s.
3. Convention for the pacific settlement of international disputes / Hague, July 29, 1899
4. Convention pour le règlimentpacifique des conflitsinternationaux / La Haye, le 29 juillet, 1899
5. Duroselle J.B., La nature des conflitsinternationaux. Revue Française de Science politique. Volume XIV, N2. 1964, p. 295-308
6. Аклаев А.Р. Этнополитическая конфликтология: Анализ и менеджмент. Москва: Дело, 2005, 471 с.
7. Гришина Н.В. Психология конфликта, 2-е изд. СПб.: Питер, 2008, 544 с.
8. Гроций Г. О праве войны и мира. Репринт с изд. 1956 г. Москва.: Ладомир, 1994, 868 с.
9. Конышев В.Н. Американский неореализм о природе войны: Эволюция политической теории. Санкт-Петербург, Наука, 2004, 372 с.
10. Тишков В.А., Шабаев Ю.П. Этнополитология: политические функции этничности. Москва: Московский университет, 2011, 376 с.
11. Хмылев В.Л. Современные международные отношения.: учебное пособие. Томск: Изд-во Томского политехнического университета, 2010, 210 с.
12. Цыганков П.А. Международные отношения. Москва: Новая школа, 1996, 320 с.
13. Женевская конвенция от 12 августа 1949 года о защите гражданского населения во время войны // URL: http://www.un.org/ru/documents/decl_conv/conventions/geneva_civilian.shtml


### Резюме

**Хумай Тагиева**

### Проблемы конфликтов в современных международных отношениях

Вследствие влияния ряда весомых факторов, международные конфликты являются одной из научных проблем для фундаментальных исследований. Эта приортетная поизция естественным образом делает ее одной из главных тем современных ведущих теорий.

Конфликт и затишье, война и мир оценивались с различных сторон либерализмом, марксизмом, фашизмом и другими учениями. Эти оценки дали основание вывести на свет достойные внимания моменты и практические выводы путем сравнительного анализа. Также вызывает интерес появление научных взглядов отдающих должное и ищущим "коэффициент полезного действия" в конфликтах в этом контексте.

***Ключевые слова:*** *конфликт, война, теория, либерализм*

**Summary**

**Humay Taghiyeva**

**Conflict issues in modern international relations**

Due to the influence of a number of significant factors, international conflicts are one of the scientific problems for fundamental research. This prioritization naturally makes them one of the main themes of modern leading theories.

Conflict and truce, war and peace evaluated from different angles by liberalism, marxism, fascism and other doctrines. These evaluations gave reason for bringing to light moments worth attention and practical conclusions using comparative analysis. Scientific views paying tribute to conflicts and looking for "efficiency factor" in them are also interesting.

***Keywords:*** *conflict, war, theory, liberalism*

UOT 327

**İLYAS HÜSEYNOV**
*Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasının doktorantı,*
*Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi*
*ilyasdiplomat@gmail.com, Azərbaycan*

# MÜASİR DÖVRDƏ AVROPA İTTİFAQININ ENERJİ TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ AZƏRBAYCAN-YUNANISTAN MÜNASİBƏTLƏRİ

**Açar sözlər:** *Yunanıstan, enerji təhlükəsizliyi, Avropa İttifaqı, enerji diplomatiyası, Cənub Qaz Dəhlizi, Şahdəniz, TAP*

**Giriş**

Enerji təhlükəsizliyinin təmin edilməsi problemi coğrafi mövqeyindən, dövlət quruluşunun növündən, iqtisadi inkişaf səviyyəsindən və sənaye potensialının həcmindən asılı olmayaraq, istisnasız olaraq bütün ölkələr üçün aktuallıq kəsb edir. Dünya iqtisadiyyatının inteqrasiya və qlobal hala gəldiyi keçən əsrin sonlarından bəri "enerji təhlükəsizliyi" konsepsiyası elmi ictimaiyyət tərəfindən daha əhatəli şəkildə şərh edilməyə başladı. Onun tədqiqinə mühəndis və energetiklərlə yanaşı, iqtisadçılar, hüquqşünaslar, ekoloqlar və hətta politoloqlar da qoşuldu. Bundan başqa, siyasi-iqtisadi aspekt enerji təhlükəsizliyinin təmin edilməsi probleminin öyrənilməsində tədricən üstünlük təşkil etməyə başladı, çünki dövlətlər enerji sistemlərinin işləməsinin etibarlılığı və texniki təhlükəsizliyi problemi ilə yanaşı, enerji resursları ilə öz milli iqtisadiyyatlarını təmin etmək üçün mənbələrin, forma və metodların müəyyənləşdirilməsi məsələlərini ön plana çəkdilər.

**Enerji təhlükəsizliyi problemi**

Müasir dünyada "neft-qaz siyasəti" və enerji təhlükəsizliyi məsələləri mühüm əhəmiyyət kəsb edir. Bir sıra aparıcı elmi araşdırma mərkəzləri dünyada hazırda yürüdülən "neft və qaz siyasəti" ilə əlaqədar müəyyən qənaətlərə və müddəalara malikdirlər [3, s.258]. Ölkələrin enerji təhlükəsizliyi ilə milli təhlükəsizlikləri arasında birbaşa və çox güclü bir əlaqə mövcuddur. Hazırda dünyada gedən qanlı müharibələrin və siyasi qarşıdurmaların böyük əksəriyyəti enerji qaynaqlarına yiyələnməyi, alternativ enerji mənbələrinə çıxışı təmin etməyi və enerji mənbələrində hasil olunan kabhohidrogen ehtiyatların nəqli ilə bağlı problemləri özündə ehtiva edir.

Enerji təhlükəsizliyi problemi müasir dövrün ən çox müzakirə olunan və daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Enerji təhlükəsizliyi hazırda təkcə iqtisadi deyil, həm də siyasi məna kəsb edir. Hətta israr etmək olar ki, ikinci bir çox hallarda birincini üstələyir [2, s.195].

Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik konsepsiyasının ən mühüm elementlərindən biridir. 1999-2010-cu illərdə Vudro Vilson adına Beynəlxalq elmi mərkəzin prezidenti olmuş Li Hamiltonun fikrincə, "enerji təhlükəsizliyi milli müdafiədən sonra dövlət təhlükəsizlik siyasətinin əhəmiyyətinə görə ikinci komponentidir" [11, s.19]. Hər bir ölkə geosiyasi imkanlarından, resurs bazasından və iqtisadi vəziyyətdən çıxış edərək enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində öz strategiyasını formalaşdırır. Enerji təhlükəsizliyini təmin edərkən, enerji ixrac edən ölkələr əsas diqqəti enerji mənbələri üçün "tələbin sabitliyi və təhlükəsizliyi"nin qorunmasına, enerji alıcısı ölkələr sərbəst və dayanıqlı girişin təmin edilməsinə, inkişaf etməkdə olan ölkələr isə özlərini iqtisadi artımın dəstəklənməsi üçün kifayət qədər enerji resursları ilə təmin etmək imkanlarına əsas diqqət yetirirlər [18, s.21].

"Cambridge Energy Research Associates" şirkətinin prezidenti, neft və qaz sənayesinə dair kitabların müəllifi Daniel Yerqin hesab edir ki, enerji təhlükəsizliyi mövzusu yenə də ən mühüm problem kimi meydana gəlib, bu gün bu məsələ yenidən diqqət mərkəzindədir. Amma indi o, yenidən düşünməyi tələb edir, çünki

son üç onillik ərzində enerji təhlükəsizliyinin paradiqması həddindən artıq məhdud xarakter alıb və çoxlu sayda yeni amilləri özünə daxil edərək genişləndirilmişdir [17].

Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın yeri və rolu

Hələ 1999-cu ildə "Şahdəniz" yatağında zəngin qaz yataqlarının aşkar olunması bir çox ölkələri, xüsusən də Qərb dövlətlərini ölkəmizlə bu sahədə əməkdaşlığa cəlb etmişdir. Qeyd edək ki, Azərbaycan və Yunanıstan arasında əməkdaşlığın mühüm hissəsini enerji sahəsində olan münasibətlər tutur. Bu sahədə çoxşaxəli ikitərəfli əməkdaşlıq mövcuddur. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının mühüm tərkib hissələrindən olan Bakı-Tbilisi-Ceyhan layihəsinin inşası üçün podratçı şirkətin müəyyən edilməsi məqsədilə elan olunmuş beynəlxalq səviyyəli tenderin qalibi Yunanıstanın "Konsolideytd Kontraktors Kompani" (CCIC) şirkəti olmuşdur [4].

Yunanıstan Avropa İttifaqının üzvü olduğu üçün enerji sahəsində əməkdaşlığı həm də Azərbaycan-Avropa İttifaqı kontekstində nəzərdən keçirə bilərik. Qlobal miqyasda qarşılıqlı asılılığın getdikcə artdığı müasir dünyada gerçəkləşməkdə olan enerji siyasətində Avropanın özünəməxsus rolu vardır. Hazırda Avropa yeni enerji erasına qədəm qoymuşdur. Avropa İttifaqının rifahı və təhlükəsizliyi sabit və bol enerji təchizatından asılıdır. Avropa İttifaqı 450 milyondan çox istehlakçıya sahib olan dünyanın ikinci ən böyük enerji bazarıdır. Yeni enerji landşaftı dünyanın digər regionları kimi, Avropa regionunu da enerji təhlükəsizliyinin, sabit iqtisadi şəraitin və iqlim dəyişikliyinə qarşı effektiv fəaliyyətin təmin edilməsi prosesində qarşılıqlı asılı vəziyyətə gətirmişdir [9, s.4]. Hal-hazırda Aİ istehlak etdiyi enerjinin 53% -ni idxal edir. Aİ-nin enerji idxalını xam neft (demək olar ki, 90%), təbii qaz (66%), daha az dərəcədə qatı yanacaq (42%) və eləcə də nüvə yanacağı (40%) təşkil edir. Avropa İttifaqının gündəlik xarici enerji fakturası 1 milyard avrodan və bütün Aİ idxalının 1/5 hissəsindən çoxdur. Avropa İttifaqı illik 350 milyard avro dəyərində enerji idxal edir ki, bunun da 1/3 hissəsi Rusiyanın hesabına təmin edilir [6, s.2].

Ukraynadakı böhran, Cənub Qaz Dəhlizinin (CQD) inşasının və istifadəyə verilməsi ilə bağlı müzakirənin sürətlə davam etdiyi və ABŞ-dakı şist qaz inqilabının qlobal qaz dövriyyəsində ticari və geosiyasi dinamikanı dəyişdirdiyi bir vaxtda ortaya çıxdığı üçün Avropanın enerji təhlükəsizliyi konsepsiyasının yenidən nəzərdən keçirmək tələb olunurdu. Ukrayna böhranı, Qərbin alternativ təbii qaz mənbələri axtarması və eyni zamanda öz şist qaz yataqlarını inkişaf etdirməsi üçün katalizator rolunu oynadı. Enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyan enerji təchizatının əsasən məhdud çərçivədə cəmləşməsi Avropa dövlətlərini istər-istəməz alternativ mənbələrin axtarışına sövq etmişdir.

Ölkəmizin nəhəng qaz ixracatçısına çevrilməsi istiqamətində aparılan ardıcıl və qətiyyətli fəaliyyətin nəticəsi kimi "Şahdəniz" qaz-kondensat yatağının kəşf edilməsindən sonra Azərbaycan qazının Avropa bazarına çıxarılması ən ümdə vəzifə hesab edilirdi. Azərbaycan Respublikasının qaz strategiyasının işlənməsində mühüm mərhələ Ümummilli lider Heydər Əliyevin 17 Avqust 1999 - cu il tarixli Sərəncamı oldu ki, bu Sərəncama uyğun olaraq "Şahdəniz" yatağından təbii qazın beynəlxalq bazarlara ixracı məsələlərinin həlli üçün Azərbaycan nümayəndələrindən və bu layihənin səhmdar şirkətlərindən ibarət xüsusi işçi qrupu yaradıldı. Qrupun əsas vəzifələrindən biri də Azərbaycan qazını almaq və qaz kəmərini ərazilərindən keçirmək istəyən müxtəlif ölkələrin səlahiyyətli nümayəndələri, şirkətləri və maliyyə qurumları ilə danışıqlar aparmaq olmuşdur [16. s.186].

Xəzər regionundan və Yaxın Şərqdən Türkiyə vasitəsilə Avropaya qazın gətirilməsi ideyası, 1990-cı ildən etibarən Avropada siyasi müzakirələrin mövzusu olmuşdur. Belə bir dəhliz üçün ən çox ehtimal olunan qaz mənbələri Xəzər regionunda Azərbaycan və Türkmənistan, İran və İraq əraziləri əsas hədəfə çevrilmişdir. Avropa Komissiyası tərəfindən dəstəklənən ilk müzakirələr 2002-ci ildə "Nabukko" kəməri layihəsi üzrə beş şirkət arasında aparılmışdır. Bu çərçivədə Xəzər dənizindən keçərək Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Cənub-Şərqi Avropaya Türkmənistandan 31 milyard kubmetr həcmli qaz kəmərinin tikintisi qərarlaşdırılmışdı. 2008-ci ilədək bu Avropa Komissiyası tərəfindən İkinci Strateji Enerji İcmalının tərkib hissəsi kimi təsdiq edilən "Cənub dəhli-

zi"nə çevrilmişdir [8, s.2]. Ancaq layihə ticari reallıqdan daha çox siyasi iradənin bir ifadəsi olaraq qalmışdır. Türkmənistanla təchizata dair heç bir əsaslı müqavilə əldə olunmamış və Trans-xəzər boru kəmərinin (TCP) inşasıyla bağlı ümidlər dənizin siyasi və hüquqi statusu ilə çıxılmaz vəziyyətə düşmüşdür. Əsasən, iki böyük Xəzəryanı dövlətlər, Rusiya və İran belə bir boru kəmərinin inşasında maraqlı olmadığını bildirmiş və buna görə də dənizin statusuna dair hüquqi mübahisənin həllinə maraq nümayiş olunmamışdır [7, s.24].

Avropa İttifaqı enerji resurslarının, xüsusilə də təbii qazın ən iri idxalçılarından biridir. Bu idxaldan asılılıq, xüsusilə də sosial-iqtisadi və ya geosiyasi münaqişələr potensialı olan bölgələrdən tədarük olunan enerji təchizatı təhlükəsizliyi ilə bağlı narahatlıqları vurğulayır. Avropa İttifaqına enerji daşıyıcılarının tədarükünü təhdid edən bəzi hadisələrə 2009-cu ildə Rusiya-Ukrayna qaz mübahisəsini və 2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaq edilməsini aid etmək olar. Belə hadisələr enerji təchizatında ehtimal olunan fasilələrin aradan qaldırılması və xüsusilə təchizat variantlarının diversifikasiyası yolu ilə təhlükəsizlik problemlərinin yumşaldılması üçün daha konkret enerji siyasətinin vacibliyini vurğulayır [5, s.1086].

Avropa Komissiyası Xəzər regionundan Aİ-yə təbii qazın çatdırılması üzrə nəhəng infrastruktur layihəsi olan CQD-nin həyata keçirilməsini diversifikasiya strategiyasının mühüm elementi kimi qəbul etmişdir [14, s.346]. Hazırda Azərbaycan mövcud infrastrukturla təbii qazı Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya çatdıran yeganə Xəzəryanı dövlətdir [13, s.8].

2007-ci ildə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Yunanıstanın Baş naziri Kostas Karamanlis Şahdəniz qaz yatağının birinci fazasından 750 milyon kubmetr Azərbaycan qazının Yunanıstana nəql edilməsi üçün "İnterconnector Greece-Turkey" (ITG) Türkiyə-Yunanıstan qaz kəmərini açılışını etdilər. Türkiyə ilə Yunanıstanın qaz kəmərləri şəbəkələrini birləşdirəcək bu boru xəttinin inşasına dair ilkin sənəd 2002-ci ilin aprelində imzalanmış, 2003-cü ilin fevralında hökumətlərarası razılıq əldə olunmuşdur. 296,5 kilometrlik kəmərin 210 kilometri Türkiyənin, 86,5 kilometri Yunanıstanın ərazisindən keçir. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev Azərbaycan qazının ilk dəfə olaraq, Avropa İttifaqı bazarına çatdığını bildirmişdir. "Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq yeni yaranır və bunda Yunanıstanın rolu çox önəmlidir. Yunanıstan Avropa İttifaqının ilk ölkəsidir ki, bu sahədə bizimlə əməkdaşlıq edir və biz bu əməkdaşlıqdan çox razıyıq. Əminəm ki, Yunanıstanla Azərbaycan arasında dostluq münasibətləri, o cümlədən enerji sahəsində əməkdaşlıq daha da genişlənəcək və bütövlükdə bölgədə yeni bir əməkdaşlıq formatı yaradılacaq" [1].

**TAP layihəsi və Azərbaycan-Yunanıstan münasibətləri**

Onu da qeyd etməyə dəyər ki, nə koronavirus (COVID-19) pandemiyası, nə də Vətən müharibəsi Azərbaycanın TAP layihəsini yekunlaşdırmasına mane ola bilməmiş və ilk Azərbaycan qazı artıq Avropa istehlakçılarına tədarük edilmişdir. Boru kəmərinin başlanğıc gücü ildə 10 milyard kubmetr il qaz təşkil etsə də gələcəkdə genişləndirmə sayəsində boru kəmərinin ötürücülük qabiliyyətini ildə 20 milyard $m^3$ qədər artırmaq mümkün olacaq [12, s.125]. Bununla bağlı olaraq yunan enerji mühəndisi Y.Kazanas düşünür ki, Serres prefekturasında əlavə kompressorun qoşulması tələb olunacaq [20, s.30].

Boru kəməri il ərzində 8 milyard $m^3$ qazı İtaliyaya, qalan 2 milyard $m^3$ qazı Yunanıstan və Bolqarıstana çatdıracaq. Bu qaz Avropanın ehtiyaclarının cəmi 3%-ni təmin edəcəkdir. Ancaq 2023-cü ildə bu rəqəmin 26 milyard $m^3$, 2026-cı ildə isə 31 milyard $m^3$ çatdırılması gözlənilir. Üstəlik, bütün infrastruktur elə qurulmuşdur ki, üçüncü ölkələrin təbii qazını da buradan nəql etmək mümkün olsun [19].

TAP-ın səhmdarları BP (20%), Azərbaycanın SOCAR (20%), İtaliyanın "SNAM" (20%), Belçikanın "FLUXYS" (19%), İspaniyanın "ENAGAS" (16%) və İsveçrənin "AXPO" (5%) şirkətləridir. Göründüyü kimi, TAP, bir çox ölkəni, beynəlxalq enerji şirkətlərini, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa İnvestisiya Bankı kimi maliyyə qurumlarını əhatə edən nəhəng enerji layihəsidir. TAP layihəsi bütün iştirakçı tərəflərin əməkdaşlığı sayəsində reallığa çevrilmişdir. 2020-ci il TAP boru kəməri üçün əlamətdar bir

il olmuş, həmin ilin oktyabrında TAP Yunanıstan-Türkiyə sərhədindən İtaliyanın cənubundakı boru kəməri qəbul terminalına qədər təbii qazla doldurulmuşdur. Nəhayət, noyabrın 15-də Yunanıstan, Albaniya, Adriatik dənizi və İtaliya vasitəsilə qaz nəqli sistemi kommersiya istismarına başlamış, bununla da "Şahdəniz-2"-dən təbii qaz Avropaya tədarük edilmişdir [10].

Uzunmüddətli perspektivdə Azərbaycan öz qaz ixracı azalacağı təqdirdə Mərkəzi Asiyadan qaz ixracına yardımdan müəyyən tranzit gəlirləri əldə etməkdə maraqlı ola bilər və beləliklə, zəngin enerji resursları olan Mərkəzi Asiya ölkələri ilə gəlirli Avropa bazarları arasında əlaqəni təmin etməklə əhəmiyyətli tranzit ölkəyə çevrilə bilər [15, s.25].

2021-ci ilin əvvəlində "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması göstərir ki, Xəzər dənizində bütün məsələlər dialoq və əməkdaşlıq mühitində həll oluna bilər. Gələcəkdə türkmən qazının da Cənub Qaz Dəhlizi şəbəkəsinə daxil olması bu istiqamətdə həm Türkmənistana əlavə gəlirlər qazandıra, təbii qaz ixracının artmasına imkan yarada, həm də Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini artırmaqla yanaşı, Azərbaycanın bu istiqamətdə gəlirlərinin daha da çoxalmasına təkan verə bilər.

Avropanın böyük bir hissəsi qaz təchizatına görə məhdud sayda mənbədən asılı vəziyyətdə olduğunu nəzərə alsaq, Azərbaycanın 2,8 trilyon $m^3$ artıq təsdiqlənmiş həcmində dəyərləndirilən qaz ehtiyatları Avropa məkanının enerji təhlükəsizliyində mühüm rol oynayacaqdır. Bununla yanaşı, Azərbaycan ilə Avropa arasında enerji sahəsində əməkdaşlıq qarşılıqlı əməkdaşlığa və dialoqa müsbət töhfə verəcəkdir. Etibarlı tərəfdaş imicinə sahib olan Azərbaycanla əməkdaşlıq Yunanıstanın da geoiqtisadi maraqlarına uyğundur. Nəhayət, Azərbaycan effektiv enerji siyasətini həyata keçirərək strateji hədəflərə yönəlməyi bacarmış və ölkənin Avropa istehlakçılarına təbii qaz ixrac etmək potensialı ildən-ilə artmışdır. İqtisadi inteqrasiya və enerji təhlükəsizliyini dəstəkləyən Cənub Qaz Dəhlizi layihəsinin bütün hissələrinin istifadəyə verilməsi Azərbaycanın böyük nailiyyətidir.

**Nəticə**

Belə qənaətə gəlmək olar ki, enerji təhlükəsizliyi problemi hər bir dövlət üçün öz aktuallığını qoruyur. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm rola malik olmaqla yanaşı, ötən dövr ərzində Azərbaycanın enerji diplomatiyasında əldə etdiyi mühüm uğurlar sayəsində bu gün ölkəmizin karbohidrogen ehtiyatları dünya bazarına daxil olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli maraqlarımıza söykənən qətiyyətli, ardıcıl və prinsipial fəaliyyəti nəticəsində Şahdəniz yatağından hasil olunan Azərbaycan qazını Avropa İttifaqının enerji istehlakçıları istifadə edir. Azərbaycanın enerji siyasətində Cənub Qaz Dəhlizi layihəsinin xüsusi önəmi vardır və layihənin icrası ilə bağlı bütün hadisələr həssas geosiyasi region üçün yeni çağırışları müəyyən etmişdir. Geosiyasi və geoiqtisadi baxımdan TAP Xəzər qazını Avropaya tədarük edən ilk boru kəməridir. Avropa üçün ilk növbədə TAP boru kəməri qaz mənbələrinin və tədarük yollarının şaxələndirilməsindən ibarətdir. TAP layihəsi Yunanıstan ilə Azərbaycan arasında əməkdaşlığın təməl elementini təşkil edir.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan qazı Avropa İttifaqı bazarına çatdırıldı. Türkiyə-Yunanıstan qaz kəmərinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Azərbaycan. – 2007, 20 noyabr. – s. 1.

2. Məmmədov, H.B. Xarici siyasət. / H.Məmmədov. Bakı: Elm, – 2019. – 324 s.

3. Musayev, İ.M. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: [3 cilddə] / İ.Musayev. – Bakı: Bakı Universiteti, c. 3. – 2011, – 776 s.

4. Sadıqlı, F. Azərbaycanı Avropa ilə birləşdirən polad kəmər // Azərbaycan. – 2010, 25 may. – s. 10.

5. Bilgin, M. Scenarios on European energy security: outcomes of natural gas strategy in 2020 // Futures, Volume 43, İssue 10. (December 2011) p. 1082–1090.

6. Communication from the Commission to the European Parliament and the Council.

European Energy Security Strategy. {SWD(2014) 330 final}. European Commission, Brussels, 28.05.2014. COM (2014) 330 final. 24 p.

7. Dickel, R. Hassanzadeh, E. Henderson, J. Honoré, A. El-Katiri, L. Pirani, S. Rogers, H. Stern, J. Yafimava, K. Reducing European Dependence on Russian Gas: distinguishing natural gas security from geopolitics. OİES PAPER: NG 92, Oxford İnstitute for Energy Studies, October 2014. 81 p.

8. EU Energy Security Review and Solidarity Action Plan: Second Strategic Energy Review, MEMO 08/703, Brussels, 13.11.2008. 4 p.

9. Green Paper. A European Strategy for Sustainable, Competitive and Secure Energy. {SEC(2006) 317}. Commission of the European Communities, Brussels, 08.03.2006. COM (2006) 105 final. 20 p.

10. Hajiev, Sh. The news you possibly missed: TAP pipeline up and running: [Electronic resource] / "Euractiv.com", 19.11.2020. URL: https://www.euractiv.com/section/azerbaijan/opinion/the-news-you-possibly-missed-tap-pipeline-up-and-running/#ea-comments

11. Kalicki, H.J. and Goldwyn, L.D. (eds.) / Energy and Security: Toward a New Foreign Policy Strategy. Washington – Baltimore: Woodrow Wilson Center Press with Johns Hopkins University Press, 2005. 640 p.

12. Natural gas market outlook. What price is right? / World Energy Outlook 2013. Chapter 3. International Energy Agency. Paris: IEA Publications. 708 p.

13. Pirani, S. Azerbaijan's gas supply squeeze and the consequences for the Southern Corridor // Oxford: Oxford Institute for Energy Studies, July 2016, 21 p.

14. Ruble, I. European Union energy supply security: The benefits of natural gas imports from the Eastern Mediterranean // Energy Policy, Volume 105 (June 2017), 341-353 p.

15. Tsakiris,T. & Rzayeva,G. Strategic Imperative: Azerbaijani Gas Strategy and the EU's Southern Corridor / SAM Review – Baku: SAM Center for Strategic Studies, – 2012 – 44 p.

16. Алиев, И.Г. Каспийская нефть Азербайджана / И. Алиев. – Москва: Известия, – 2003. – 712 с.

17. Ергин, Д. Старые вопросы, новые ответы: [Электронный ресурс] / Россия в глобальной политике. – 2006, Январь/Февраль. – №1. URL: https://globalaffairs.ru/articles/garantirovat-energeticheskuyu-bezopasnost/

18. Шлычков, В.В. Новая парадигма энергетической безопасности // – Казань: «Вестник экономики, права и социологии», – 2008. № 5, – с. 40-45.

19. Эфендиев, М. Азербайджан расширяет Южный газовый коридор [Электронный ресурс] / "Haqqin.az", 14.05.2015. URL: https://haqqin.az/news/45090

20. Καζάνας, Γ. Ο Διαδριατικός Αγωγός (TAP) Προβλεπόμενη χάραξη και χωροθέτηση του συμπιεστή, αξιολόγηση επιπτώσεων και εναλλακτικές / Αριστοτέλειο Πανεπιστήμιο Θεσσαλονίκης, Πολυτεχνική Σχολή, Τμήμα Πολιτικών Μηχανικών, Μεταπτυχιακό Πρόγραμμα Διοίκηση και Διαχείριση Τεχνικών Έργων. Θεσσαλονίκη, Νοέμβριος 2015. 120 σ.

## Резюме

**Ильяс Гусейнов**

### Азербайджано-греческие отношения в контексте энергетической безопасности Европейского Союза в современный период

В статье анализируются азербайджано-греческие отношения в контексте энергетической безопасности Европейского Союза в современный период. Отмечается, что Южный газовый коридор, который был введен в эксплуатацию играет важную роль в энергетической безопасности Европейского Союза. В целом, наблюдается положительный прогресс в

Tədqiqatın praktik əhəmiyyəti müasir zamanda qlobal məsələlərinin həlli baxımından multikulturalizmin rolunun və əhəmiyyətinin populyarlaşdırılmasındadır.


***Açar sözlər:*** *Azərbaycan multikulturalizmi, sivilizasiya, bəşəriyyət, qloballaşma, tarixi əhəmiyyət, xalqların konsolidasiyası.*


## Summary

**Maharramova Lamiya**

**Multiculturalism as a model for solving the problems of modernity**

The article notes the significance of the phenomenon of multiculturalism at the present stage - total disunity and mutual distrust of peoples, at the same time - an increase in global threats, natural and man-made disasters. The article analyzes the key factors of our time, caused by the weakening and destruction of established forms of collective, territorial, social identity, which gives rise to new philosophical and methodological questions.

It is emphasized that the actualization of planetary thinking, burdened by multiplying global challenges, collisions and conflicts, orients towards absolute values. It is concluded that in an era when the realities of globalization are an important incentive for close cooperation and interaction of representatives of different countries and peoples, the truth of the strategy of multiculturalism becomes more and more obvious, an example of which is Azerbaijan with its primordial multicultural traditions, which implements a policy of peacefulness and hospitality.

The relevance of the research lies in the need to study the phenomenon of multiculturalism at the present stage.

The scientific novelty of the research lies in the comparison of various trends of multiculturalism in the world and the model of Azerbaijan multiculturalism.

The practical significance of the study lies in the popularization of the role and significance of multiculturalism in terms of solving global problems of our time.


***Keywords:*** *Azerbaijan multiculturalism, civilization, humanity, globalization, historical significance, consolidation of peoples.*

**УДК 327.7**

**РАМИЛА ДАДАШОВА**
*Доктор политических наук, доцент, Институт Кавказоведения НАНА, заместитель директора по научной работе*
*dadashova.ramila@rambler.ru, Азербайджан*

# ИССЛЕДОВАНИЕ ВОПРОСА СОТРУДНИЧЕСТВА ООН С РЕГИОНАЛЬНЫМИ И СУБРЕГИОНАЛЬНЫМИ ОРГАНИЗАЦИЯМИ В РЕГУЛИРОВАНИИ МЕЖДУНАРОДНЫХ КОНФЛИКТОВ

***Ключевые слова:*** *сотрудничества ООН с региональными и субрегиональными организациями, международные конфликты, ОБСЕ, НАТО, Африканский Союз, Устав ООН.*

## Введение

Целью исследования сотрудничества ООН с региональными и субрегиональными организациями в регулировании международных конфликтов является изучение правовой основы сотрудничества ООН с региональными организациями, изучение положительных и отрицательных сторон данного сотрудничества, выявление научных результатов

Проблема была частично рассмотрена в работах некоторых исследователей. Российский исследователь В.Ф. Заемский своей работе пишет, что некоторые региональные организации, в частности ОБСЕ, более активно действуют, пытаясь уменьшить роль ООН как лидера, пытаются сыграть ключевую роль в урегулировании конфликтов в соответствующем регионе [7, с.23-24]. Российский исследователь А.И.Никитин подтверждая неуспешную миротворческую деятельность ОБСЕ в Нагорном Карабахе, наряду с этим отмечает такие преимущества как участие региональных организаций в миротворческих операциях, расположение зон конфликтов на территории ОБСЕ, высокий уровень межправительственных связей, незавершенность полномочий и миротворческий функций ООН и ОБСЕ и приводит в качестве причин неудачи миротворческих операций ОБСЕ в регионе конфликта обострение вражды, нехватку материальных и военных контингентов [16, с.426]. Авторы книги “Международные отношения: теория, конфликты, организации”, отмечающие неудачу Минской группы в урегулировании Нагорно-Карабахской проблемы, считают неприемлемым иметь мало знаний о конфликте для его урегулирования. Авторы отмечают, что конфликты неотделимы от политики, необходимо понимать их роль, функции, условия возникновения, характер. Участие третьей стороны в урегулировании конфликтов должно осуществляться не с целью оказания помощи одной из сторон конфликта, а с целью мирного урегулирования [8, с.93-94]. Вместе с тем, в перечисленных трудах сотрудничество ООН с региональными и субрегиональными организациями в регулировании международных конфликтов не было юридически обосновано, не были классифицированы положительные и отрицательные стороны сотрудничества.

## Правовые основы сотрудничества ООН с региональными и субрегиональными организациями

Государства-члены поддержали рекомендацию о региональных соглашениях и принятие активного участия в деятельности ООН данной в “Повестке дня для мира” Бутроса Бутрос-Гали [3, с.377]. Совет Безопасности в резолюции от 28 января 1993 года предложил изучить пути укрепления региональных соглашений, структуры и функций организаций в соответствии с требованиями ООН. Резолюция Генеральной Ассамблеи № 48/42 от 10 декабря 1993 года одобрила предложение Бутроса Бутрос- Гали. 1 августа 1994 года в Нью-Йорке состоя-

лось первое заседание на данную тему с Генеральным секретарем и руководителями региональных организаций. В заседании приняли участие СНГ, Секретариат ООН, ОБСЕ, Европейский Союз, Лига арабских государств, НАТО, Африканский Союз, Организация Американских Государств, Западноевропейский Союз. Несмотря на приглашение Экономическое сообщество стран Западной Африки не смогло принять участие в заседании. Участники согласились с мнением о том, что основная ответственность ложится на Совет Безопасности, контроль за соблюдением санкций на основе главы VIII Устава, постоянный обмен информацией между ООН и региональными организациями способствует тесному сотрудничеству [3, с.378-379]. С этой целью Генеральный Секретарь в августе 1994 года встретился с руководителями ряда региональных организаций, в январе 1995 года в дополнение к “Повестке дня для мира” было классифицировано сотрудничество ООН с региональными организациями. В настоящее время существует пять форм такого сотрудничества. Первая это форма консультации. В регулярных консультациях достигаются официальные соглашения. Вторая это форма дипломатического посредничества. В таком случае региональная организация применяет дипломатическую силу. Например, ОБСЕ оказывала техническую помощь в вопросах конституции, связанные с абхазской проблемой. С другой стороны, ООН может поддержать региональную организацию. Например, ООН поддержала ОБСЕ в Нагорно-Карабахском конфликте, оказала техническую помощь ОБСЕ в урегулировании Нагорно-Карабахского конфликта [3, с.256-257]. Третья - ООН и региональные организации могут участвовать в оказании оперативной поддержки. Например, авиационная поддержка НАТО в бывшей Югославии. Четвертая - проводится совместная военная подготовка. Миссия ООН действовала в Либерии совместно с Экономическим сообществом стран Западной Африки, со СНГ в Грузии. Пятая - могут проводиться совместные операции. Например, в Гаити ООН проводила такую операцию совместно с Организацией Американских Государств [4, с.457].

Сотрудничество ООН с региональными и субрегиональными организациями должно осуществляться в соответствии с главой VIII Устава. В статье 52 Устава говорится, что региональные соглашения ни в коей мере не затрагивает применение статей 34 и 35 [18]. То есть, сохраняются права Совета Безопасности ООН, и он может проводить расследование с целью поддержания международного мира и безопасности. Любое государство может довести до сведения Совета Безопасности или Генассамблеи любой спор или условия, нарушающие международную безопасность. Резолюция № 49/57 от 9 декабря 1994 года посвящена совершенствованию сотрудничества между ООН и региональными соглашениями или органами в области поддержания международного мира и безопасности [4, с.458].

Глава VIII Устава ООН отражает решения и принципы современного международного права, возможности использования региональных организаций и соглашений для поддержания мира и стабильности в регионах и урегулирования конфликтов. Согласно 52 статье Члены Организации, заключившие такие соглашения или составляющие такие органы, должны приложить все свои усилия для достижения мирного разрешения местных споров при помощи таких региональных соглашений или таких региональных органов до передачи этих споров в Совет Безопасности [18]. Согласно 53 статье Совет Безопасности использует, где это уместно, такие региональные соглашения или органы для принудительных действий под его руководством. Однако никакие принудительные действия не предпринимаются, в силу этих региональных соглашений или региональными органами, без полномочий от Совета Безопасности [18]. По 54 статье Совет Безопасности должен быть всегда полностью информирован о действиях, предпринятых или намечаемых в силу региональных соглашений или региональными органами, для поддержания международного мира и безопасности [18].

Совет Безопасности в резолюциях № 1197 от 18 сентября 1998 года и № 1327 от 13 ноября 1998 года вновь поддержал инициативы сотрудничества с региональными и субрегиональными организациями [9]. В резолюции № 1539 от 22 апреля 2004 года была указана значимость сотрудничества ООН с Европейским Союзом и другими региональными организациями [10; 13]. В Декларации тысячелетия, принятой на 55-й сессии Генассамблеи в 2000 году, была отмечена необходимость укрепления сотрудничества ООН с региональными организациями для поддержания мира и безопасности [5].

В докладе Группы высокого уровня по угрозам, вызовам и переменам было отмечено, что Совет Безопасности ООН не использовал потенциальные возможности региональных и субрегиональных организаций [6].

25-26 июля 2005 года состоялось совещание с участием ООН, региональных организаций и других межправительственных организаций. На совещании подчеркивалась необходимость сотрудничества с региональными и субрегиональными организациями, в частности, африканскими региональными и субрегиональными организациями по поддержанию мира и безопасности, было рекомендовано созданной Миротворческой Комиссии поддерживать тесные связи с подобными организациями [11].

На Всемирном саммите, состоявшемся в сентябре того же года, государства-участники вновь подтвердили значимость роли региональных и субрегиональных организаций в поддержании мира и безопасности и отметили их крепкое сотрудничество, особенно Африканского Союза с ООН. В резолюции № 1625 от 14 сентября, принятой Советом безопасности, было указано необходимость консультаций с региональными и субрегиональными организациями, использования потенциальных возможностей [11].

Наряду с повторением содержания вышеупомянутой резолюции в резолюции Совета Безопасности № 1631 от 17 октября, региональные и субрегиональные организации были призваны усилить сотрудничество с ООН в борьбе с международным терроризмом, предотвращать продажу оружия. В пункте 9 резолюции говорится: «вновь подтверждает обязанность региональных организаций в соответствии со статьей 54 Устава полностью информировать Совет Безопасности об их деятельности в целях поддержания международного мира и безопасности» [12]. Совет Безопасности обратился к Генеральному Секретарю с просьбой доложить о возможностях сотрудничества ООН с региональными, субрегиональными организациями и возникающих проблемах [12].

На 61-й сессии Генеральной Ассамблеи в 2006 году была принята резолюция об укреплении сотрудничества ООН с Европейским Союзом, Организацией Экономического Сотрудничества, Лигой Арабских Государств. Постоянный представитель России при ООН Виталий Чуркин на 63-й сессии Генассамблеи в 2008 г. отметил, что принятие резолюций сыграет важную роль в осуществлении Целей Декларации Тысячелетия, а также подчеркнул, значимость сотрудничества ООН с Шанхайской Организацией Сотрудничества, созданной с целью борьбы с международным терроризмом, незаконным оборотом наркотических товаров и т. д. в Евразийском регионе [17].

**Миротворческие операции ООН в сотрудничестве с региональными и субрегиональными организациями**

Участие ОБСЕ в мирных операциях впервые было принято на встрече в Праге в январе 1992 г., и этот вопрос был решен 9-10 июля того же года на Хельсинской встрече. Страны-участники объявили о роли ОБСЕ в урегулировании региональных конфликтов в соответствии с главой VIII Устава ООН. Миротворческие операции ОБСЕ в Нагорном Карабахе с 1993 года наблюдались ростом враждебности в регионе, показало, что ОБСЕ и другие региональные организации не могут действовать в одиночку в миротворческих операциях.

ООН действовала в Абхазии в контексте военных операций с СНГ сотрудничающий с миссией ООН по Грузии [4, с.463].

С 1994 года ООН начала укреплять сотрудничество с европейскими региональны-

ми организациями. 6 декабря 1994 года на саммите ОБСЕ в Будапеште ООН и ОБСЕ договорились о совместной деятельности на европейском континенте. Европейский Союз также сотрудничал с ООН начиная с 1992-1993 годов, и после принятия Лиссабонской декларации 1995 г. в проведении миротворческих операций в Югославии, Косово, Боснии и Герцеговине, Македонии, Демократической Республике Конго и Афганистане. Во время Югославского конфликта Россия наложила вето на резолюции Совета Безопасности, разрешающие вмешательство НАТО в Косово. Совет Безопасности 23 сентября 1998 года принял резолюцию № 1199. В резолюции отмечается, что в случае неудовлетворения его содержания Совет Безопасности «будет предпринимать дополнительные шаги и меры по поддержанию или восстановления мира и стабильности в регионе». Поэтому эта резолюция не позволила какой-либо стране или региональной организации военное вмешательство. Однако 24 марта 1999 года НАТО начала кампанию по бомбардировке Югославии. 10 июня Совет Безопасности принял резолюцию № 1244, положившую конец бомбардировке НАТО. В резолюции была упомянута что цель ООН, основная задача Совета Безопасности - это поддержание международного мира и безопасности и осуждены действия НАТО [19, p.20-21]. Исследовательца из США Мэри О'Коннелл в статье о международном праве после Косово отмечает, что с точки зрения международного права применение силы НАТО не соответствует Уставу ООН и резолюции Совета Безопасности [19, p.21]. С этим мнением согласны многие аналитики, такие как немецкий исследователь Бруно Симма. Он пишет, что члены НАТО обоснуют свои действия основываясь на гуманитарные положения. Они заявили, что ситуация исключительная и не создаст прецедента, что они не намерены нарушать резолюцию Совета Безопасности, обязаны соблюдать решения Совета Безопасности ООН и получить согласие на меры, которые будут применены в будущем [19, p.22]. Однако политики США никогда не упоминали об этом вмешательстве. США продемонстрировали свой потенциал, чтобы нарушить решение Совета Безопасности. Военные действия НАТО против бывшей Югославии могут быть оправданы под предлогом тяжелого гуманитарного положения народа Косово. После начала бомбардировки многие беженцы вернулись домой, и это привело к переселению не албанского населения. Война началась без согласия Совета Безопасности [19, p.22]. Проведение НАТО военных операций в Югославии без мандата Совета Безопасности ООН вызвало конфликт в мировом сообществе. Так как эта военно-политическая организация в соответствии с Вашингтонским Договором 1949 года может проводить военные операции только на территории стран-членов.

В мае 2001 года после переговоров представителя НАТО при ООН усилилось сотрудничество. Между Департаментом по вопросам разоружения Секретариата ООН и Центром по оружию массового уничтожения при НАТО были установлены связи. В Секретариате было предложено использовать потенциал НАТО в период от предотвращения конфликтов до установления мира [7, с.133].

Следует отметить, что сотрудничество НАТО с ООН соответствует закону, но это сотрудничество должно осуществляться в соответствии со статьями 52-54 Устава ООН. Напомним, что в эти статьях изложено что Совет Безопасности использует, где это уместно, такие региональные соглашения или органы для принудительных действий под его руководством. Однако никакие принудительные действия не предпринимаются, в силу этих региональных соглашений или региональными органами, без полномочий от Совета Безопасности. А также Совет Безопасности должен быть всегда полностью информирован о действиях, предпринятых или намечаемых в силу региональных соглашений или региональными органами, для поддержания международного мира и безопасности [18].

Сотрудничество ООН с Африканским Союзом дает более эффективные результаты [1, с.89-95]. Первое сотрудничество ООН с

региональными миротворческими силами было осуществлено в 1993 г. в Либерии в лице Союза Западноафриканских государств. По инициативе Африканского Союза были созданы региональные бригады, миротворческие операции в Дарфуре, Судане, Западной Сахаре, Бурунди, Кот-д'Ивуаре, Демократической Республике Конго, Эфиопии и Эритреи осуществлялись в сотрудничестве с ООН. В 2004 году ООН предложила Африканскому Союзу провести мониторинг для достижения мира в Тиморлеште, Дарфуре и Судане. Миссия ООН, основанная в Сьерра-Леоне, способствовала защите прав человека, экономических и социальных прав, проведению прозрачных выборов [1, с.89-95].

До 1995 года 15 из 49 миротворческих операций ООН были осуществлены в сотрудничестве с региональными и субрегиональными соглашениями или органами. В том же году Генеральный секретарь Бутрос Бутрос-Гали в своем докладе "Повестка дня для мира" отметил, что участие региональных организаций в урегулировании конфликтов наряду с уменьшением тяжести ответственности на Совете Безопасности позволяет в решении международных вопросов прийти к демократии, консенсусу. Так, Совет Безопасности уполномочивает региональные органы или соглашения вывести регионы из кризисной ситуации [20]. Несмотря на то, что Доклад Генерального Секретаря от 13 апреля 1998 г. основном касался мира в Африке, данный доклад имел актуальное значение и для других регионов. После обсуждения доклада 28 мая Совет Безопасности принял резолюцию № 1170. На основании резолюции было принято решение об учреждении рабочей группы для рассмотрения рекомендаций [9].

**Заключение**

Обобщая проводимые исследования, можно сделать вывод о том, что одним из критериев повышения эффективности ООН для предотвращения, урегулирования конфликтов в XXI веке является сотрудничество этой универсальной организации с региональными и субрегиональными организациями в миротворческих операциях. Это сотрудничество должно осуществляться в соответствии с главой VIII Устава ООН. В противном случае деятельность региональной организации будет неэффективной и может привести к расширению конфликта в регионе. В качестве примера, как отмечалось выше, можно привести неэффективную деятельность СНГ в Грузии, ОБСЕ в Азербайджане. В статье 5 Гаагской Конвенции о мирном решении международных столкновений от 18 октября 1907 года говорится: «Обязанности посредника прекращаются с того времени, когда одна из спорящих Сторон или сам посредник удостоверятся, что предложенные средства примирения не были приняты» [2].

Принятие Генеральной Ассамблеей, Советом Безопасности резолюций о сотрудничестве ООН с региональными и субрегиональными организациями, принятие решений на совещаниях и заседаниях, созываемых по инициативе ООН для укрепления сотрудничества с региональными и субрегиональными организациями, мнения отдельных государств не является необоснованным. Так, значение сотрудничества ООН с региональными и субрегиональными организациями в урегулировании региональных конфликтов заключается в том, что эти организации лучше знают регион, язык населения, традиции и т.д. В то же время потенциал данных организаций облегчает тяжесть ответственности в материальном, техническом и др. отношениях которая лежит на ООН. Однако сотрудничество ООН с региональными и субрегиональными организациями приводит к негативным явлениям, если оно не осуществляется в соответствии со статьями 52-54 Устава. Так, региональная организация может выступать с предвзятой позиции в регулировании, большое региональное государство, используя свои «миротворческие» попытки, может реализовать в регионе особые интересы. В то же время региональная организация не может действовать в одиночку. Как правило, у него мало возможностей для привлечения мирового сообщества, и в таких условиях возникает необходимость объединения миротворческих сил ООН с региональными организациями.

### Список литературы


1. Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı: Təknur 2011, 186 s.

2. I Гаагская конвенция о мирном решении международных столкновений. http://ppt.ru/newstext.phtml?id=32048

3. Гали Б.Б. Во имя мира и развития 1994 Доклад о работе Организации за период с сорок восьмой до сорок девятой сессии Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1994, 436 с.

4. Гали Б.Б. Навстречу новым вызовам 1995, Доклад о работе Организации за период с сорок девятой по пятидесятую сессию Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1995, 512 с.

5.Декларация тысячелетия Организации Объединенных Наций. https://www.un.org/ru/documents/decl_conv/declarations/summitdecl.shtml

6. Доклад Группы высокого уровня по угрозам вызовам и переменам (A/59/565 + corr/ 1), Часть четвертая. Более эффективная ООН для XXI века. http:// www.un.org

7. Заемский В.Ф. ООН и миротворчество. Курс лекций. М.: Международная отношения, 2008, 312 с.

8. Международное отнощения: теория, конфликты, организации: Учебник пособие / Под ред.проф. Цыганков П.А. М.: Альфа, 2004, 288 с.

9. Перечень резолюций Совета Безопасности принятых в 1997 году, www.un.org/russian

10. Перечень резолюций Совета Безопасности принятых в 2000 году, http://www.un.org

11. Перечень резолюций Совета Безопасности принятых в 2004 году, www.un.org/russian

12.Перечень резолюций Совета Безопасности принятых в 2005 году, http://www.un.org

13. Перечень резолюций Совета Безопасности принятых в 2009 году, http://www.un.org

14. Резолюция принятая Генеральной Ассамблеей 8 сентября 2000 года, Декларация тысячелетия Организация Объединенных Наций, http: // www.un.org/russian

15. Резолюция 1631 (2005),принятая Советом Безопасности 17 октября 2005 года https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N05/556/44/DOC/N0555644.DOC

16. Современные международные отношения и мировая политика: Учебник / Отв. Ред. А.В.Торкунов. М.: Просвещение, 2005, 990 с.

17. Украина призывает укреплять сотрудничества ООН с региональными организациями с целью урегулирования конфликтов в Азербайджане, Грузии и Молдова. (Дата посещения: 20.10.2006.), Центр Новостей ООН, www.un.org

18. Устав Организации Объединенных Наций. https://www.un.org/ru/sections/un-charter/introductory-note/index.html

19. Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012, 74 p.

20. Report of the secretary-general on the work of the organization. Supplement to an agenda for peace: position paper of the secretary-general on the occasion of the fiftieth anniversary of the united nations A/50/60-S/1995/1 http://www.un.org/documents/ga/docs/50/plenary/a50-60.htm

**Xülasə**

**Ramilə Dadaşova**

**Beynəlxalq münaqişələrin tənzimlənməsində BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı məsələsinin təhlili**

Məqalədə beynəlxalq münaqişələrin tənzimlənməsində BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığının hüquqi əsasları tədqiq edilmiş, bu əməkdaşlığın müsbət və mənfi tərəfləri göstərilmişdir. Əsərdə göstərilir ki, BMT-nin fəaliyyətinin səmərəliliyini artırmaq meyarlarından biri BMT-nin sülhməramlı əməliyyatlarda regional və subregional təşkilatlarla əməkdaşlıq etməsidir. Bu əməkdaşlıq BMT Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq həyata keçirilməlidir. Əks halda regional təşkilatın fəaliyyəti səmərəli olmaz və hətta regionda münaqişənin genişlənməsinə gətirib çıxarar. Təhlükəsizlik Şurası bu cür regional saziş və təşkilatlardan öz rəhbərliyi altında məcburiyyət tədbirləri üçün istifadə etsə də, Nizamnaməyə əsasən Təhlükəsizlik Şurasının mandatı olmadan həmin regional sazişlər və ya regional təşkilat tərəfindən heç bir məcburiyyət tədbiri görülməməlidir.Təhlükəsizlik Şurasına hər bir zaman beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün sazişlər və ya regional təşkilatlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barəsində tam məlumat verilməlidir. Çünki regional təşkilat nizamasalmada qərəzli mövqedən çıxış edə bilər. İri region dövləti öz “sülhməramlı” cəhdlərindən istifadə edərək regionda xüsusi maraqlarını həyata keçirməyə çalışa bilər. Eyni zamanda, regional təşkilat nizamasalmada tək hərəkət edə bilməz. Bir qayda olaraq, onun dünya birliyini cəlb etmək üçün imkanları azdır və belə bir şəraitdə BMT-nin regional təşkilatlarla sülhməramlı qüvvələrini birləşdirmək zərurəti ortaya çıxır.

***Açar sözlər:*** *BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı, beynəlxalq münaqişələr, ATƏT, NATO, Afrika Birliyi, BMT-nin Nizamnaməsi.*

**Summary**

**Ramila Dadashova**

**Analysis of the United Nations Relations with regional and subregional organizations in regulation of international conflicts**

In the article the legal basis of cooperation between UN regional and subregional organizations in the regulation of international conflicts has been researched and has positive and negative aspects of this cooperation have been given. It is stated that one of the criteria to increase the effectiveness of the UN's activity is the cooperation with regional and subregional organizations in peacekeeping operations. This cooperation should be implemented in accordance with Chapter VIII of the Charter of the United Nations. Otherwise, the activities of the regional organization will not be efficient and would even lead to expansion of conflict in the region. Although the Security Council uses such a regional agreement and organizations for mandatory measures under its power, no regional co-operation or regional co-ordination measures should be taken without the mandate of the Security Council according to statement in the Charter. The Security Council should always be provided with full information on the agreements for maintenance of international peace and security or measures taken or planned by regional organizations. Because a regional organization can act biasedly in the regulation. The big regional state may try to implement its special interests in the region by using its "peacekeeping" attempts. At the same time, a regional organization cannot act alone in the regulation. As a rule, it has fewer opportunities to attract the world community, and in such a situation for the UN it is necessary to unite the peacekeeping forces with regional organizations.

***Keywords:*** *cooperation between UN regional and subregional organizations, international conflicts, OSCE, NATO, African Union, UN Charter.*

UOT 316.33

**ƏLİYAR ORUCOV**
*FHN- nin Akademiyasının Tədris şöbəsinin böyük metodisti, mayor, f.ü.f.d., dosent AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmlər doktorluğu üzrə doktorantı*
*orucov.aliyar@mail.ru, Azərbaycan*

# AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİNİN FORMALAŞMASINDA VƏ MÜASİRLƏŞMƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU (SOSİAL-SİYASİ TƏHLİL)

***Açar sözlər:*** *H.Əliyev, İ.Əliyev, vahid komandanlıq, Silahlı Qüvvələr, hərbi təhlükəsizlik, milli təhlükəsizlik, müdafiə-sənaye kompleksi, maddi, insan, maliyyə ehtiyatları, hərbi kadr hazırlığı, hərbi məktəblər, Vətən müharibəsi.*

## Giriş

Məlum olduğu kimi, milli təhlükəsizliyin tərkib hissəsi hərbi təhlükəsizlikdir. Hərbi təhlükəsizlik dövlətin öz suverenliyini, ərazi bütövlüyünü müdafiə etmək qabiliyyətilə səciyyələnir. “Beləliklə, hərbi təhlükəsizlik milli təhlükəsizliyin əsas elementlərindən biridir. Çünki o, milli təhlükəsizliyin bütün tərkib hissəsinin fəailiyyətinin xaricdən və daxildən müdafiəsini təmin edir. Buna görə də hərbi təhlükəsizlik digər tərkib hissələrinə də təsir edir” [16, s.19].

Hərbi təhlükəsizliyin isə ayrılmaz tərkib hissəsi iqtisadi təhlükəsizlikdir. Buna görə də bunlar qovuşaraq milli təhlükəsizliyin tərkib hissəsi olan “hərbi-iqtisadi təhlükəsizlik” kimi çıxış edir. Rusiyalı hərbi mütəxəssis D.V.Qordienko özünün “Dövlətin hərbi-iqtisadi təhlükəsizliyi” monoqrafiyasında yazır: “Dövlətin hərbi təhlükəsizliyi və onun iqtisadi tərkib hissəsi bir çox aspektlərlə qarşılıqlı əlaqədədir. Buna görə də dövlətin hərbi-iqtisadi təhlükəsizliyini onun ehtiyat imkanlarının təmin edilməsi səviyyəsinin qiymətləndirilməsi hesab etmək olar” [15, s.38].

Dövlətin hərbi təhlükəsizliyi, həm də əsas olaraq milli təhlükəsizliyi onun silahlı qüvvələrinin, müdafiə-sənaye kompleksinin vəziyyətindən, zəruri maddi, insan, maliyyə ehtiyatlarının mövcudluğundan asılıdır. Buna görə də milli təhlükəsizliyin qarantı dövlətlərin hərbi və ordu quruculuğu, müdafiə qabiliyyətinin gücləndirilməsidir.

Məqalədə sovet dövründə milli hərbi kadrların hazırlanmasında, müstəqillik dövründə Azərbaycan Respublikasının milli-hərbi təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimizin formalaşmasında və müasirləşməsində Ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu sosial-siyasi aspektdən araşdırılmış, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə hərbi təcavüzü zamanı özünümüdafiə batalyonlarının rəşadətli döyüşünün və batalyonlar arasında əlaqələrin strateji və taktiki səhvləri təhlil edilmiş, vahid komandanlıq, hərbi qurumların birgə səyilə Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatları və düşmənə ağır zərbə vurmaları şərh olunmuş, 1993-2003-cü illərdə dövlət başçısı, Ali Baş Komandan kimi Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu və atəşkəs rejiminin ölkədə hərbi sahəni inkişaf etdirmək üçün zəruri olması məsələləri tədqiqat obyektinə çevrilmiş, 2016-cı ilin Aprel döyüşlərinin, 2020-ci il 44 günlük Vətən müharibəsinin dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu hərbi siyasətinin yekunu kimi Azərbaycan hərb tarixində əhəmiyyəti göstərilmişdir.

**Tədqiqatın metodoloji əsasını** sosial-siyasi, hərbi hadisə və proseslərin inkişaf və fəaliyyətinin əsas sosioloji təhlil prinsipləri təşkil edir. Məqalə hərb elmi, fəlsəfə, politoloji və sosioloji elmlərin qanunları, prinsipləri, anlayışları, kateqoriyaları, ideyaları və müddəaları əsasında yazılmışdır. Tədqiqat işində tarixi analiz və sintez, təsnifatlaşdırma və sistemləşdirmə, nəzəri ümumiləşdirmə, təsvir və s. metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işində Azərbaycan Respublikasının qanunvericilik

aktlarına, ölkə prezidentinin sərəncamlarına, hökumətin qərarlarına, Müdafiə Nazirliyinin rəsmi sənədlərinə, hərbi-siyasi almanaxlara, müharibəyə aid digər materiallara da istinad olunmuşdur.

Bütövlükdə məqalədə: Rəsmi sənədlərdən və faktik məlumatlardan; Dövri mətbuatdan; Azərbaycan və rus dillərindəki xüsusi elmi ədəbiyyatdan istifadə olunmuşdur.

**Tədqiqatın əsas məqsədi** Azərbaycan Respublikanın Silahlı Qüvvələrinin formalaşmasında və müasirləşməsində Ümummilli lider Heydər Əliyevin rolunu sosial-siyasi aspektdən təhlil etməkdir.

**Tədqiqatın elmi yeniliyi** ondadır ki, məqalədə ilk dəfə olaraq Azərbaycan Respublikanın Silahlı Qüvvələrinin formalaşmasında və müasirləşməsində Ümummilli lider Heydər Əliyevin rolunu sosial-siyasi aspektdən hərtərəfli və kompleks təhlilinə cəhd edilmişdir.

**Məqalənin** elmi-nəzəri əhəmiyyəti ondadır ki, ordu quruculuğu siyasi-hərbi amillər ümumiləşdirilmiş, hərtərəfli araşdırılmışdır.

**Tədqiqatın elmi- praktiki əhəmiyyəti** ondadır ki, tədqiqat işinin materialları, tövsiyyələri və nəticələri hərbi-siyasi, etnososial, mədəni-konfeksional hadisələrin nəzəriyyə və praktikasının işlənməsinə kömək edə bilər, onun materiallarından hərb tarixinin, döyüş fəaliyyət tarixinin yazılmasında, Azərbaycan tarixi və hərb tarixi elmlərində, sosial-siyasi elmlərin, müxtəlif ümumiləşdirici əsərlərin, orta, orta ixtisas və ali məktəb dərsliklərinin yazılmasında istifadə oluna bilər. Məqalənin ümumiləşdirmələri və nəticələri gənc nəsil arasında vətənpərvərlik tərbiyəsi işinin təşkili üçün faydalı ola bilər. Əsərin faktik materialları mənfur ermənilərə və onların havadarlarına qarşı informasiya müharibəsi üçün də çox qiymətlidir.

**1.Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə milli hərbi kadr hazırlığı siyasəti**

Sovet dönəmində XX əsrin 60-cı illərində vahid sovet ordusunda ildə təxminən 60 min azərbaycanlı əsgər xidmət edirdi. "H.Əliyev hakimiyyətə gələnə qədər azərbaycanlıların yalnız 15%-i döyüş hissələrində, qalan 85%-i isə tikinti və digər hərbi hissələrdə xidmət edirdilər. Döyüş hissələrində xidmət edən 15%-in də yarıdan çoxu həmin hissələrin yeməkxanalarında, bərbərxanalarında, ümumiyyətlə, xidmət sahələrində işləyirdi" [9, s.139]. Kommunist rəhbərliyi SSRİ-nin türk- müsəlman, gürcü və pribaltikalı əhalisinə etimad göstəmir, onlardan yüksək rütbəli zabitlərin yetişməsini istəmirdi. Böyük britaniyalı tarixçi Cefri Hoskinq bu barədə belə yazır: "sovet ordusunda yüksək rütbəli zabitlər içərisində müsəlmanlar, gürcülər və pribaltikalılar yox idi" [17, s.441].

Belə bir şəraitdə azərbaycanlı hərbçi kadrların hazırlanmasına ehtiyac duyulurdu. Bu isə H.Əliyevin əvəzsiz siyasi qabiliyyəti, istedadı və polad iradəsi ilə mümkün idi.

Bu dövrdə Bakıda iki ali hərbi məktəb var idi. Biri Ali Ümumqoşun Komandirləri Məktəbi, o birisi isə Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik məktəbi idi. Lakin bu məktəblərdə azərbaycanlı kursantların sayı çox az idi. "70-ci illərdə hərbi xidmətə çağırılan azərbaycanlılarn demək olar ki, 95%-i döyüş hissələrində xidmət edirdi. H.Əliyev çağırış yaşlı gənclərin sağlamlığına qayğı göstərilməsi barədə göstəriş vermişdi. Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında gündəlikdə duran ikinci məsələ kimi çağırış yaşına çatmamış və çağırışçı gənclərin müalicə-sağlamlıq işlərinin yaxşılaşdırılması haqqında ən məxfi qrifi ilə qərar qəbul edildi və müvafiq göstərişlər verildi" [9, s.144].

H.Əliyevin birinci hakimiyyəti illərində Ümummilli liderin təşəbbüsü ilə orta məktəblərdə ibtidai hərbi hazırlıq fənni tədris edildi, hərbi kadrların hazırlanması həyata keçirildi, hərbçilərə qayğı göstərildi, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi.

H.Əliyevin təşəbbüsü ilə Bakıda 1971-ci ilin noyabr ayında gəncləri ali hərbi məktəblərə hazırlayan ilk ümumtəhsil məktəbi olan ixtisaslaşdırılmış internat məktəbi açıldı. Yeddinci sinfi bitirən gənclər orada təhsillərini davam etdirməklə yanaşı hərbi təhsil və fiziki tərbiyə alır, rus dilini öyrənir, ali hərbi məktəblərə hazırlaşırdılar. H.Əliyev bununla da Azərbaycan və azərbaycanlılar üçün hərbi məktəbi yarada bildi, "digər tərəfdən, 1976-1977-ci illərdən başlayaraq SSRİ-nin ali hərbi məktəblərinə ildə 800-900 nəfər gəncin göndərilməsinə nail oldu. Əlbəttə, həmin gənclərin hamısı bu məktəbləri bitirə bilməsə də, hər halda bir qismi rütbəli

hərbçilər olurdular. Məktəblərdə ildə təxminən 700 nəfər zabit hazırlanırdı. Bu, H.Əliyevin böyük tarixi xidməti idi”[9,s.144]. Bir müddət keçdikdən sonra hərbi məktəbə görkəmli Azərbaycan generalı Cəmşid Naxçıvanskinin adı verildi. Hərbi məktəbə getmək istəyən gənclərin bir qisminin isə fiziki hazırlığı zəif idi. Hərbi məktəbi açmağın başqa çətinlikləri də var idi. Bu da əsasən ölkədə yeridilən rəsmi siyasətlə bağlı idi. Əvvəla, belə bir məktəbin açılmasına Moskvada bəzi qüvvələr açıqcasına mane olurdular. Digər tərəfdən, Azərbaycanda bu sahədə kifayət qədər təcrübə toplanmamışdı. Yerli peşəkar hərbçi müəllimlər azlıq təşkil edirdi. Maddi-texniki bazanın yaradılması işində də xeyli çətinliklər mövcud idi. H.Əliyev bu barədə 1981-ci ildə açıq şəkildə belə deyirdi: “… biz məktəbin təşəkkülü və inkişafı dövründə qarşıya çıxan və aradan qaldırılan çətinliklər barədə də danışmalıyıq. Açıq deyək ki, bu yol asan olmamışdır. Qarşımıza aydın məqsəd qoymuş olsaq da, on il bundan əvvəl müvafiq təcrübəmiz, praktikamız yox idi. Bir çoxlarını ixtisaslaşdırılımış məktəbin məqsədəuyğunluğuna inandırmaq lazım gəlirdi, orta məktəbin adi kollektivindən bir qədər fərqlənən müəllim kollektivi açıb toplamaq, müvafiq maddi-texniki baza yaratmaq və başqa tədbirlər həyata keçirmək lazım idi” [5]. Bütün çətinlikləri aradan qaldıran H.Əliyev məktəbi yaratmaqla istəyinə uğurla nail oldu. Məktəbin yaradılmasının böyük tarixi əhəmiyyəti var idi. Azərbaycanlıların hərb elminə olan maraqları artır, peşəkar hərbçilərin sistemli hazırlanması üçün fəaliyyətin əsası qoyulurdu. Məktəbin açılmasından sonra həyata keçirilən tədbirlər deyilənləri aydın şəkildə təsdiq edirdi. H.Əliyev məktəbin yubileyinin keçirilməsinə də xüsusi önəm verirdi. Azərbaycan KP MK və Nazirlər Soveti 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbin 10 illiyinin qeyd olunması haqqında qərar qəbul etdi. Qərardan məlum olur ki, azərbaycanlılar arasında məktəbə daxil olmaq istəyən yeniyetmələrin sayı getdikcə artırdı. MK və Nazirlər Sovetinin qərarına əsasən 250 nəfər üçün əlavə yataq korpusu ilə birlikdə internat məktəbin üçüncü növbəlilik tikintisini 1982-ci ildə başa çatdırmaq nəzərdə tutulmuşdu. İnternat məktəbin yeni obyektlərinin: iki yataq korpusunun, idman kompleksinin, qazanxana və b. lazımi layihə-smeta sənədlərini işləyib hazırlamaq barədə Dövlət Layihə İnstitutuna göstəriş verildi. Qərarda şagirdlərə göstərilən məişət, tibbi və mədəni xidmətin daha da yaxşılaşdırılması nəzərdə tutulurdu [1].

1981-ci ilin dekabr ayında H.Əliyevin iştirakı ilə C.Naxçıvanski adına internat məktəbin 10 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. Tədbirdə H.Ə.Əliyev geniş nitq söylədi və müdavimlər üçün yaradılan məişət şəraiti ilə tanış oldu. Dərin məzmun daşıyan bu nitq onun Azərbaycanda hərb elminə və azərbaycanlılardan ibarət peşəkar hərbçi kadrların hazırlanmasına böyük önəm verdiyini göstərir, eyni zamanda həyata keçirilən tədbirlərin inkişaf dinamikasını sübut edirdi. H.Əliyevin məruzəsindən aydın olur ki, 1971-1981-ci illərdə məktəbin 540 nəfər yetirməsi akademiyalara, məktəblərə və ya hərbi məktəblərə daxil olmuşdu. Onlar 47 ali məktəbdə təhsil alırdılar. Bu gənclərin 130 nəfəri zabit olmuşdu. 1981-ci ildə hərbi məktəbdə 500-dən artıq şagird oxuyurdu. Onların 310 nəfəri hərbi məktəbə yalnız 1981-ci ildə qəbul edilmişdi [5]. Bütün bunlar bilavasitə H.Əliyevin qayğısı sayəsində qısa müddət ərzində məktəbin nüfuzunu artırmışdır. Əslində bu, H.Əliyevin hərbçi kadrların yetişdirilməsi sahəsində fəaliyyətinin təntənəsi idi. H.Əliyev bununla bağlı olaraq deyirdi: “Bu müddət ərzində onun nüfuzu istər Azərbaycanda, istərsə də ölkədə artmışdır, respublikanın ictimaiyyəti məktəbin yaradılması faktının özünü də, onun kollektivinin müvəffəqiyyətli işini də yüksək qiymətləndirir”[5]. Qısa müddət ərzində Azərbaycanda gənclərin hərb elminə olan marağı heyrətamiz dərəcədə artdı, məktəbə daxil olmaq istəyənlərin sayı çoxaldı. Məsələn, 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbə planda nəzərdə tutulan 300 yerə 650 nəfər qəbul üçün ərizə vermişdi [5]. Nəticədə məktəbə qəbul zamanı müsabiqə yüksək olur və yalnız istedadlılar qəbul olunurdu. Şagird heyətinin bilik keyfiyyəti də yüksəlirdi. Bu isə H.Əliyevin fəaliyyətinin uzaqgörənliyini və doğruluğunu təsdiqləyirdi. Belə vəziyyət Azərbaycan rəhbərini sevindirirdi. O, nitqlərinin birində aydın şəkildə deyirdi: “…ixtisaslaşdırılmış internat məktəb yaradılmaqla 1971-ci ildə necə yüksək bir iş başlanmışdır” [5]. H.Əliyev məktəbə qəbul planının ildən-ilə artırılmasına çalışır və buna uğurla nail olurdu. Məsələn, artıq 1985-ci ildə

hərbi məktəbə 500 nəfərin qəbul edilməsi nəzərdə tutulmuşdu [5]. Qeyd etmək lazımdır ki, məktəbi bitirmiş peşəkar hərbçilər Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra milli ordunun nüvəsini təşkil edərək ərazi bütövlüyü uğrunda döyüşlərdə fəal iştirak etdilər. H.Əliyev azərbaycanlıların təkcə C.Naxçıvanski adına hərbi məktəbdə təhsil almaları ilə kifayətlənmir, onların SSRİ-nin ali hərbi məktəblərində oxumasına xüsusi diqqət yetirir, bunun üçün Moskvadan böyük iradə və inadla icazə alır, istəyinə nail olurdu. Məsələn, əgər 1971-ci ildə SSRİ hərbi məktəblərinə 71 azərbaycanlı daxil olmuşdusa, 1974-cü ildə onların sayı 149 nəfərə çatdırıldı. Bu isə başlanmış işin böyük uğurundan xəbər verirdi. SSRİ Müdafiə Nazirliyi hərbi-təhsil müəssisələri baş idarəsinin rəisi, tank qoşunları general-leytenantı V.Makarov Azərbaycan KP MK-ya yazdığı 1975-ci il 14 mart tarixli 207/163 №-li məxfi məktubunda "yerli azərbaycanlı millətindən olan gənclərin hərbi təhsil müəssisələrinə cəlb edilməsini müsbət iş» hesab edir və respublika rəhbərliyinə təşəkkürünü bildirirdi"[9, s.145]. Artıq qeyd edildiyi kimi, 70-ci illərin sonunda baş verən İran inqilabı və Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra SSRİ-nin beynəlxalq mövqelərinə ağır zərbə vurulmuşdu. Sovet dövləti üçün həm Qərbdə, həm də müsəlman ölkələrində çox ağır vəziyyət yaranmışdı. Sovet dövlətinin bu ölkələrə münasibətdə yeritdiyi siyasət əhali tərəfindən etirazla qarşılanırdı. Müsəlman dünyasında təkcə sovet siyasətini yeridən xadimlər deyil, eyni zamanda praktik işləri həyata keçirən, müsəlman xalqları arasında pis qarşılanmayan, İslam dininə itaət edən əsgər və zabitlər də lazım idi. H.Əliyev məhz bu məqamdan böyük məharətlə istifadə edərək azərbaycanlıların hərbi işlərə daha geniş şəkildə cəlb edilməsinə başladı. Bundan sonra SSRİ-nin türk, müsəlman xalqlarının nümayəndələrindən olan peşəkar hərbçi kadrların hazırlanması işi əvvəlki illərlə müqayisədə xeyli genişləndi. Belə şəraitdə H.Əliyev azərbaycanlı gənclərin hərbi məktəblərə daha çox qəbul edilməsinə nail oldu. Məsələn, belə bir fakt əhəmiyyətlidir ki, artıq 1982-ci ildə ölkənin hərbi məktəblərinə Azərbaycandan 1000 nəfər daxil olmuşdu. Onların da 550 nəfəri yerli millətin, azərbaycanlıların nümayəndəsi idi [9, s.145].

H.Əliyevin peşəkar hərbçilər hazırlanması istiqamətində tarixi əhəmiyyət daşıyan fəaliyyəti öz bəhrəsini uğurla verirdi. Azərbaycanlılardan olan yüksək rütbəli zabitlərin sayı sovet ordusunun döyüş hissələrində artmağa başlamışdı. Hərbi texniki hissələrdə xidmət edən yüksək rütbəli azərbaycanlı zabitlərin sayı bütün sovet hakimiyyəti illəri ilə müqayisədə heç vaxt 70-80-ci illərdəki qədər olmamışdı. Bu isə H.Əliyevin Azərbaycan xalqı qarşısında tarixi xidməti olub, gələcək müstəqilliyin təməllərindən birinin hazırlanması demək idi.

H.Əliyev hakimiyyətdə olduğu illərdə azərbaycanlılardan peşəkar hərbi dənizçilərin yetişdirilməsinə də diqqət yetirirdi. Döğrudur, yuxarıda qeyd edildiyi kimi, H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan paytaxtında Qafur Məmmədov adına Bakı Dənizçilik Məktəbi fəaliyyət göstərirdi. Onun təşəbbüsü ilə Dənizçilik Məktəbinin fəaliyyətinə dair məsələlər MK bürosunda müzakirəyə çıxarılır və müvafiq qərarlar qəbul edilirdi [2]. MK bürosu məktəbin yubileyini keçirmək barədə qərar qəbul etdi. Bundan sonra H.Əliyev məktəbin yaradılmasının 10 illiyi münasibəti ilə 1981-ci il sentyabr ayının 29-da Sov.İKP MK-ya 20/518 №-li məxfi məxfi məktub yazaraq yubileyin keçirilməsini və maddi-texniki bazasının möhkəmləndirilməsini xahiş etdi və bu istəyinə nail oldu. Bundan sonra məktəbə diqqət daha da artırıldı [9, s.146]. Məktəbin təchizatı yaxşılaşdırıldı, təntənəli yubiley tədbiri keçirildi, dənizçilər haqqında mahnılar bəstələndi, mətbuatda məqalələr dərc olundu. Heç şübhəsiz, bütün bu tədbirlərin ciddi nəticələri olurdu: azərbaycanlı gənclərin dənizçilik peşəsinə olan maraqları daha da artır, məktəbin müdavimləri arasında onların sayı çoxalırdı. Azərbaycanlı dənizçilər artıq nəinki Xəzər dənizində, həmçinin dünya dəniz və okeanlarında üzən sovet gəmilərində işləməyə başlamışdılar. Hərbi dəniz donanmasında qulluq edən azərbaycanlı zabitlərin sayı da çoxalırdı. Heç əbəs deyil ki, Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edərkən və milli dövlət quruculuğu illərində Xəzər dəniz donanması respublikanın su sərhədlərinin qorunmasında başlıca rol oynadı. Ümumiyyətlə, Azərbaycanda bütün sovet dövründə peşəkar hərbi dənizçilərin hazırlanması sahəsində ən yüksək inkişaf məhz H.Əliyevin hakimiyyəti illərində olmuşdur.

Azərbaycan rəhbəri kosmonavtlar içərisində azərbaycanlıların olmaması faktı ilə barışa bilmir, bu sahədə geriliyin aradan qaldırılmasına çalışırdı. Lakin kosmonavtların cərgəsinə yalnız təyyarəçilik məktəbini bitirənləri götürürdülər. Həmin məktəblərdə təhsil alanlar arasında isə azərbaycanlılar yox idi. H.Əliyev Bakı Ümumqoşun Komandirləri Məktəbinin rəisindən qətiyyətlə tələb edərək açıq şəkildə bildirir ki, yerli əhalinin nümayəndələrini həmin məktəblərə təhsil almağa göndərmək lazımdır. “H.Əliyevin göstərişi əsasında Kiyev Mülki Aviasiya institutuna 42 nəfər azərbaycanlı gənc oxumağa göndərildi” [9, s.147]. Bu təyyarəçilərin böyük əksəriyyəti Azərbaycan mülki aviasiyasında, müstəqillik illərində isə respublikanın hərbi hava qüvvələrində xidmət etdilər.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında milli təhlükəsizliyimizin tam təmin olunması naminə hazırlanan ordu quruculuğu konsepsiyasının təntənəsi kimi dəyərləndirmək olar. Ulu öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. “O vaxtlar Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi” [13, s.7].

Göründüyü kimi, H.Əliyev böyük ustalıqla hərbi məktəb açır, onun maddi-texniki bazasını gücləndirir, azərbaycanlı gəncləri hərbi təhsilə və hərb elminə cəlb edirdi. Hərbçi kadrların hazırlanması H.Əliyevin müstəqil dövlətçilik baxışlarının tərkib hissəsi idi. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra ordu quruculuğuna olan tələbat H.Əliyevin milli hərbçi kadrların hazırlanması sahəsində fəaliyyətinin uzaqgörənliyini və doğruluğunu sübut etdi.

### 2. H. Əliyevin müstəqil Azərbaycanda ordu quruculuğu siyasəti

Müstəqilliyin ilk illərində ordu quruculuğu sahəsində ciddi səhvlərə yol verildi. Azərbaycan ordusu siyasiləşdi, siyasi məqsədlərə xidmət etdi və hakimiyyət uğrunda mübarizə vasitəsinə çevrildi. Bəzi peşəkar, vətənpərvər hərbçilər, vahid komandanlığı olmayan batalyonlar döyüş meydanlarında qəhrəmanlıqlar göstərsələr də düşmən qarşısında məğlubiyyət halları artırdı. Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycan xalqı ölüm-dirim mübarizəsinə qalxdı. Qarabağda və ətraf bölgələrdə 22 özünümüdafiə batayonları yaradıldı. Bu batalyonları Azərbaycan Müdafiə Nazirliyi 1991-ci ilin sentyabrında cəbhə bölgəsində yerləşən rayonlarda yaratdı. Həmin batalyonlara hərbi rütbəli və mülki şəxslər komandirlik edirdilər. Azərbaycan Ordusundakı böhranı səciyyələndirən cəhətlər aşağıdakılardan ibarət idi:

“orduya dövlət rəhbərliyi təmin edilməmişdi; hərbi quruculuq ilə bağlı dövlətin aydın proqramı yox idi; dövlət və ordu bir–birindən ayrı düşmüşdü; ordu siyasi proseslərə cəlb edilmişdi; silahlı qüvvələr daxilində siyasi mənsubiyyətə və məqsədlərə görə parçalanma yaranmışdı; orduda xaos, özbaşınalıq, qanunsuzluqlar baş alıb gedirdi; sovet ordusundan miras qalmış hərbi əmlakın böyük bir hissəsi məhv edilmişdi; çağırış işi özbaşına buraxılmışdı; döyüş qabiliyyəti zəruri tələblərə cavab vermirdi; vahid komandanlıq təmin edilməmişdi” [14].

Vətənpərvər hərçilərimizin və könüllülərimizin qəhrəmanlıqlarına baxmayaraq əsaslı kəşfiyyat-müşahidə işləri aparılmadığından, düşmənin real gücü müəyən edilmədiyindən, döyüşən qüvvələr arasında lazımı səviyyədə əlaqələr olmadığından qısa müddətə hazırlanan və keçirilən əməliyyatlar çox vaxt uğursuzluqla nəticələnirdi. Vahid komandanlığın olmaması nəticəsində silahlı dəstələr müxtəlif şəxslərin əlində cəmləşir, ordu quruculuğu normal, elmi əsaslarla aparılmır, səriştəsizlik öz mənfi nəticələrini göstərirdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci gəlişilə ordu quruculuğunda yeni mərhələ başlandı, Ermənistanın Azərbaycana hərbi təcavüzü milli ordunun yaradılmasını tarixi zərurətə çevirdi, müdafiə qabiliyyətli, nizam-intizamlı vahid komandanlığa nail olan ordu quruculuğuna başlanmasını tələb etdi. Mükəməl olmasa da 1991-ci il oktyabrın 9-da qəbul edilmiş “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Qanun o dövrdə hərbi quruculuq üçün mühüm hüquqi baza rolunu oynadı. Lakin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev bu sa-

hədə əsil çevriliş yaratdı. Ali Baş Komandan kimi dahi rəhbər "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının yeni qanununu qəbul etdirdi. "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında". "Fövqəladə vəziyyət haqqında" və bir sıra digər qanunlara dəyişikliklər aparıldı. "Sərhəd qoşunları haqqında", "Daxili qoşunların statusu haqqında", "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasını Qanunları və ordu quruculuğunda əvəzsiz rolu olan "Müdafiə haqqında" Qanun hazırlanaraq qəbul edildi. Beləliklə, ölkənin hərbi quruculuğunun ilk hüquqi əsasları yaradıldı. Bununla da quru qoşunlardan, hava hücmundan müdafiə, hərbi hava qüvvələrindən habelə hərbi dəniz qüvvələrindən ibarət ərazi bütövlüyümüzü bərpa edəcək silahlı qüvvələrin yaradılması yolunda ciddi və əzmkar bir proses başladı.

Təşkilati baxımından Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi birləşmələrdən, birliklərdən, hərbi hissələrdən, hərbi təşkilat və hərbi təlim müəssisələrindən ibarət ordu yaradılmağa başlandı. "Qanunvericiliyin öyrənilməsi Silahlı Qüvvələrin bir sıra quruculuq və fəaliyyət prinsiplərini fərqləndirmək imkanı verir. Buraya qanunçuluq, ordunun nizamiliyi, qarışıq komplektləşdirmə prinsipi, kadr məsələləri, mərkəzləşdirilmiş və vahid rəhbərlik, yüksək hərbi intizam, daimi döyüş və səfərbərlik hazırlığı, hərbi qulluqçların sosial-hüquqi müdafiəsinin təmini aiddir" [4, s.283-284]. Müəllif artıq inkişaf etmiş ölkələrin hərbi quruculuq standartlarına uyğun ordu yaradıldığına başlandığını qeyd edir.

Ölkənin müdafiəsinə dövlət rəhbərliyinin təşkilinin konsepsiyasını həyata keçirən Heydər Əliyev onun ideya və prinsiplərini də formalaşdırdı. Beləliklə, ölkənin müdafiəsinə dövlət rəhbərliyini dövlət başçısı Ali Baş Komandan kimi reallaşdırdığı kimi, Milli Məclis hərbi quruculuğun qanunvericlik təminatını həyata keçirdi, hərbi məhkəmələr hərbi münasibətlər sahəsində ədalət mühakiməsini təmin etdi. Ali Baş Komandan kimi Heydər Əliyev Azərbaycan Respublikasını Təhlükəsizlik Şurasını, Müdafiə Nazirliyini daha da təkmilləşdirdi. Silahlı Qüvvələrin qurulması və inkişafı, silah və hərbi texnika barədə dövlət proqramları layihələrini, Silahlı Qüvvələrin səfərbər edilməsi, yerləşdirilməsi və tətbiqi planlarını, büdcədən müdafiə üçün ayrılmaları həyata keçirdi, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, onların birləşmə, birlik və hərbi hissələrinin şəxsi heyətinin kəmiyyətini müəyyənləşdirdi, öz səlahiyyətləri daxilində hərbi kadrları hazırladı və yerləşdirdi, digər ölkələrin Silahlı Qüvvələri ilə əməkdaşlıq etdi [4, s.287-288]. Bütün bunlar silahlı qüvvələrin döyüş qüdrətinin artmasına, Ermənistanın hərbi təcavüzünün dəf edilməsinə yönəlmişdi.

1993-cü il noyabrın 1-də Prezidentin müvafiq Fərmanı ilə Dövlət Müdafiə Şurası yaradıldı. Ordu quruculuğuna, müdafiə məsələlərinə dair dünya təcrübəsinə və milli dəyərlərə əsaslanan mühüm qərarlar qəbul edildi. Qısa müddətdə - nizami milli ordu formalaşmağa başladı. Hərbi qabiliyyəti olan zabitlər rəhbər vəzifələrə təyin edildi. Şəxsi heyətin vətənpərvərlik ruhu gücləndirildi, döyüş hazırlığının səviyyəsi yüksəldildi. Milli ordu ixtisaslı zabit kadrları ilə təmin edildi. Prezident Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət edərək hamını ölkənin milli təhlükəsizliyinin təmin edilməsinə çağırdı. Prezidentin çağırışı ilə könüllülər, Əfqanıstan müharibəsi iştirakçılarıları döyüşməyə yollandılar. 1993-cü il noyabrın 23-də Milli Şurada "Müdafiə haqqında" Qanun qəbul edildi. Qanunda ordu quruculuğunda məsul vəzifəli şəxslərin və orqanların fəaliyyəti sistemləşdirilərək məsuliyyət sahələri dəqiqləşdirilirdi. 1993-cü ilin "noyabr-dekabr aylarında 40 ehtiyat taboru təşkil edildi. Az sonra ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi şəxsən cəbhə bölgələrində ordunun, əsgərlərin vəziyyəti ilə yaxından tanış oldu, konkret tədbirlər müəyyənləşdirdi. Bu, ordunun şəxsi heyətinin mənəvi hazırlığını əhəmiyyətli dərəcədə yüksəltdi. Bununla yanaşı, Prezident vəziyyətə uyğun çevik qərarlar da qəbul edirdi [10].

1993-cü ilin sonunda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi sayəsində cəbhədə vəziyyət Milli Ordunun xeyrinə bir qədər dəyişdi. Azərbaycanın hərbi-siyasi rəhbərliyi bir sıra mühüm tədbirlər həyata keçirdi. Mərkəzləşmiş komandanlıq və idarəetmə sistemi daha da təkmilləşdirildi, təlim mərkəzləri və poliqonlarda döyüş hazırlığının səviyyəsi yüksəldildi, MDB-nin ay-

rı-ayrı yerlərindən azərbaycanlı zabitlərin Milli Orduya cəlb olunması prosesi intensivləşdirildi. Noyabrın 2-dən etibarən Milli Orduya könüllülərin geniş şəkildə cəlb olunmasına başlanıldı. 1993-cü ilin oktyabrından 1994-cü ilin mayına qədər Silahlı qüvvələrə 4 çağırış həyata keçirildi. Azərbaycan ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. 1994-cü il mayın 4-5-də Bişkekdə bağlanan atəşkəs rejimi mayın 11-dən 12-nə keçən gecə qüvvəyə mindi. Ermənistan işğalçı müharibə nəticəsində Azərbaycanın 3360 km-lik sərhəddini pozmuş, Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək 198 kilometrlik Azərbaycan-İran sərhəddini nəzarət altına almışdır. İlkin hesablamalara görə, müharibə nəticəsində Azərbaycana 60 milyard ABŞ dolları məbləğində də zərər dəyişmişdir.

Nəhayət, ümummilli lider Heydər Əliyevin 1998-ci il mayın 28-də imzaladığı Fərmanla 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu. Bu Fərman ordumuzun quruculuğunda varislik ənənələrinin bərpası və tarixilik baxımından böyük əhəmiyyətə malikdir. Ermənistan tərəfindən Azərbaycana elan olunan müharibəni 3 mərhələyə bölmək olar: - Ermənistan tərəfindən müharibənin ideoloji, taktiki və strateji planlaşdırma mərhələsi, əlverişli mühitin formalaşması, həmçinin aparılacaq hərbi müdaxilə üçün maddi-maliyə hazırlığın görülməsi (1984-1988-ci illər) - Erməni silahlı birləşmələrinin öz aqressiv planlarının həyata keçirilməsi, Ermənistanın bütün hərbi, iqtisadi və siyasi potensialının istifadəsi, Azərbaycan torpaqlarının zorla mənimsənilmə mərhələsi (1988-1994-cü illər) - Ermənistan tərəfindən Azərbaycan torpaqlarının nəzarətdə saxlanılma mərhələsi (1994-2020-ci illər). Bu dövrü səciyyələndirən əsas xüsusiyyətlərindən biri Ermənistanın Azərbaycanın bütün diplomatik cəhdlərini qeyri-konstruktiv yönə istiqamətləndirməsidir. **Ordu quruculuğu Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir**. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, ordumuz yeni silah və texnika ilə təchiz edilir. Təminatı yaxşılaşdırmaq üçün Müdafiə Sənayesi Nazirliyi tərəfindən müxtəlif təyinatlı silah növləri istehsal edilir. Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Milli Ordumuz müstəqilliyimizin, milli və hərbi təhlükəsizliyimizin qarantıdır. Yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir. Silahlı Qüvvələrdə aparılan struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirib. “1997-ci ildən Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələri NATO standartlarına keçib. Azərbaycanın Silahlı Qüvvələri bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən ordularından biridir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesi davamlı sürətdə təkmilləşdirilir, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunur, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılır”[10]. Bakıda keçirilən Beynəlxalq müdafiə sənayesi sərgilərində ölkəmizin müdafiə sənayesinin istehsal etdiyi məhsullar, ordu quruculuğunda qazanılmış nailiyyətlər nümayiş olunur. Bu sərgi, digər tərəfdaş dövlətlərlə əməkdaşlıq əlaqələri qurmaq baxımından da olduqca faydalıdır.

1997-ci ildə H.Əliyev tərəfindən təsdiq edilmiş “Hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən həqiqi hərbi xidmətin aşağıdakı növləri müəyyən edilmişdir: “əsgərlərin, matrosların və çavuşların müddətli həqiqi hərbi xidməti; əsgərlərin, matrosların və çavuşların müddətdən artıq həqiqi hərbi xidməti; hərbi məktəb kursantlarının həqiqi hərbi xidməti; gizirlərin və miçmanların həqiqi hərbi xidməti; zabitlərin həqiqi hərbi xidməti. Ehtiyatda xidmət toplanışları keçməkdən və müharibə zamanı səfərbərlik üzrə çağırış qaydalarını yerinə yetirməkdən ibarətdir”[6]. Onun 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust 2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Si-

lahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar, heç şübhəsiz, bu istiqamətdə əsaslı dönüş yaratdı. Bütün bunların nəticəsidir ki, hazırda Azərbaycanda güclü maddi-tədris bazasına, müasir texnologiyalara malik, yeni tədris metodları ilə fəaliyyət göstərən, uğurları ölkəmizin sərhədlərindən də uzaqlara yayılan hərbi təhsil sistemi mövcuddur. Bu gün Azərbaycanın ali hərbi məktəblərində bir sıra xarici ölkələrin nümayəndələri təhsil alırlar. Ordu quruculuğunda aparılan kompleks işlərin nəticəsində Azərbaycan Respublikasının qanunvericilik orqanı olan Milli Məclisin 18 noyabr 1993-cü il tarixli iclasında müdafiə və təhlükəsizlik məsələləri müzakirə edildi. Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması və genişlənməsi də məhz ümummilli liderimizin adı ilə bağlıdır. Bu əlaqələrin əsası 1994-cü ildə qoyulmuşdur. Belə ki, həmin il may ayının 4-də Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuş, Azərbaycan ilə NATO arasında hər il fərdi əlaqələndirmə proqramı hazırlanır və təsdiq edilir ki, bu da Silahlı Qüvvələrimizin NATO standartlarına uyğunlaşdırılması, mərkəzləşdirilmiş maddi-texniki bazasının yaradılması, hərbi təhsil sisteminin yeni prinsiplər əsasında qurulmasına əsaslı zəmin yaratmışdır.

Respublikamızın müdafiə siyasətini özündə əks etdirən Hərbi doktrinada Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin fəaliyyəti üçün hüquqi sistemin, komanda və idarəetmə sisteminin çevikliyinin təmin edilməsi kimi qabiliyyətlərin inkişaf etdirilməsinin vacibliyi vurğulanır.

Hərbi doktrinanın "Silahlı qüvvələrin və başqa silahlı birləşmələrin vəzifələri" bölməsində qeyd olunur ki, "Azərbaycan Respublikası öz təhlükəsizlik mühitini, real və potensial hərbi təhdidləri, eləcə də ümumi hərbi-strateji vəziyyəti qiymətləndirərək və ölkənin mövcud resurs və potensialını nəzərə alaraq, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müasir şəraitdə hərbi təhlükəsizliyin təmin edilməsi üzrə bütün kompleks məsələlərin həllinə maksimal dərəcədə uyğunlaşdırılmış strukturunu formalaşdırır və inkişaf etdirir"[7].

Silahlı Qüvvələr və başqa silahlı birləşmələr, əsasən, Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının və milli maraqlarının silahlı müdafiəsi, dövlətə qarşı silahlı təcavüzün qarşısının səmərəli alınması və dəf edilməsi üçün zəruri hərbi qabiliyyətin yaradılması və saxlanılması, "Azərbaycan Respublikasının tarixi təcrübəsindən və dünyanın müasir hərbi quruculuq təcrübəsindən səmərəli istifadə edilməsi, qarışıq (könüllü və çağırış üzrə) sistemə uyğun olaraq komplektləşdirmə, daim döyüşə və səfərbərliyə hazır vəziyyətin saxlanılması, strukturun, döyüş heyətinin, say tərkibinin, texniki təchizatın və səfərbərlik resurslarının səmərəli yetərliyə uyğun olması prinsiplərinə uyğun olaraq yaradılır" [7].

Heydər Əliyev əsl sərkərdəlik istedadı və hərbi kadr hazırlığı sahəsində reallaşdırdığı siyasət müstəqillik illərində öz bəhrəsinin verdi. Belə ki, Ulu öndərin yaratdığı C. Naxçıvanski adına liseyi bitirən, ali hərbi məktəblərə daxil olan 10 minə yaxın gənc Azərbaycanın hərb meydanlarında əsil igid adı qazanmışdır. "Təkcə onu demək kifayətdir ki, Qarabağ müharibəsində adıçəkilən təhsil ocağının 1500 nəfərdən çox məzunu erməni işğalçılarına qarşı vuruşlarda əsl qəhrəmanlıq nümunələri göstərmişdir" [13, s.7].

H.Əliyevin 13 mart 1998-ci il tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında C. Naxçıvanski adına hərbi liseyin filialı açılmış, Prezident İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə bu filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. Bu təhsil ocaqları maddi-tədris bazasına müasir komputer, sürətli dil öyrətmə kabinetlərinə malikdirlər. Prezident, Ali Baş Komandan İlham Əliyev 26 iyun – Silahlı Quvvələr Günü munasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarını və muəllimlərini təbrik edərək demişdir: "Bilirsiniz ki, bu məktəbin təməlini ulu ondər Heydər Əliyev qoymuşdur. Onun təşəbbusu ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu Ondər hələ o vaxt bilirdi ki, bizə milli hərbci kadrlar lazım olacaq və belə də oldu. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yuksək səviyyədədir. Ulu Ondərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam et-

diririk. Ordu quruculuğu prosesi uğurla, surətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü gostərir və göstərməlidir. Biz muharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək" [12].

Hazırda Azərbaycanda hərbi kadrlar aşağıdakı məktəblərdə hazırlanır: C.Naxçıvanski adına Hərbi Lisey; H.Əliyev adına Ali Hərbi Məktəb; Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası; H.Əliyev adına Hərbi Lisey; Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsi; Hərbi Tibb Məktəbi [8].

Hərb tariximizə Dördgünlük müharibə və ya Aprel döyüşləri, qəhrəmanlıq və zəfər vuruşu kimi daxil olan bu fenomenal hadisənin ərazi bütövlüyümüzün bərpasında,ordumuzun döyüş qabiliyyətinin nümayiş etdirilməsində öz yeri və rolu vardır. Şövqi Bünyatovun qeyd etdiyi kimi "Aprel döyüşləri və ya Dördgünlük müharibə Azərbaycanın ən yeni tarixində şərəfli səhifələrdən yalnız biridir. Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş bu hərbi münaqişə əslində Ermənistan işğalçılarının növbəti atəşkəsi pozmalarına verilən cavab olmuşdu...Yəni Azərbaycan ordusu bütün Beynəlxalq sülh prunisplərinə sadiq qalsa da, qarşı tərəfin mənfur niyyəti, arxadan vurmaq xisləti, xainliyi özünü növbəti dəfə göstərəndə, ordumuz sadəcə onlara yerlərini göstərmişdi" [3, s.43-44]. Müəllif aprel döyüşlərinin başlanma səbəblərini, mahiyyətini, hərbi, mülki-psixoloji əhəmiyyətini ətraflı, hərtərəfli şərh edir.

2020-ci il sentyabrın 27-də əks-həmlə ilə başlanan və Vətən müharibəsi kimi xarakterizə edilən cəmi 44 gün çəkən İkinci Qarabağ müharibəsində 5-ci nəsil müasir, modern silahlarla təchiz olunmuş, peşəkar Azərbaycan Ordusu Ulu öndər Heydər Əliyevin ordu quruculuğu siyasətini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində işğalçı və cinayətkar Ermənistan ordusunu darmadağın edərək dünya hərb tarixinə düşən şanlı qələbə qazandı. Düşmənə yerdə və havada sarsıdıcı zərbə endirən Silahlı Qüvvələrimiz "məğlubedilməz erməni ordusu" mifini dağıtdı. Ermənistan ordusunun canlı qüvvəsi itkilərə məruz qaldı, hərbi texnikasının 80 faizini itirdi. Azərbaycan özünün bütün ərazisi üzərində siyasi-hüquqi suverenliyini və ərazi bütövlüyünü təmin etdi. Dağlıq Qarabağın statusu məsələsi gündəlikdən çıxdı, orada yaşayan ermənilər adi Azərbaycan vətəndaşları hesab olunur. Azərbaycan İran İslam Respublikası ilə dövlət sərhədini bərpa etdi. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan, Ermənistanla Xankəndi arasında dəhlizlər yaradıldı. İşğaldan azad edilmiş ərazilərdə qeyri-qanuni fəaliyyətlərə, qanunsuz məskunlaşmalara son qoyuldu. Azərbaycan məğlub ölkədən qalib millətə, dövlətə çevrildi. "Müasir döyüş sirlərinə dərindən bələd olan, döyüş meydanında intizamlı savaş aparan, beynəlxalq qaydaları əldə rəhbər tutan qalib bir Azərbaycan Ordusu haqqında stereotip formalaşmaqdadır. Apardığı peşəkar əməliyyatlarla dünya ordu qərargahlarını şoka salan müzəffər Azərbaycan Ordusunun beynəlxalq reytinqdə irəliləyəcəyi heç şübhə doğurmur. Bu uğur beynəlxalq miqyasda bundan sonra aparılacaq sülhə məcburetmə əməliyyatlarında Azərbaycan Ordusunun potensialından və təcrübəsindən geniş yararlanmağa imkan verəcək" [11]. Azərbaycan Ordusunun şanlı zəfəri ilə Cənubi Qafqazda yeni geosiyasi reallıq yarandı, əsasında ərazı iddiaları duran ermənilərin millətçi-faşist ideologiyaları tənəzzülə uğradı.

**Nəticə**

Beləliklə, Heydər Əliyev hələ dünyada ən güclü orduya və totalitar rejimə malik sovet dövründə azərbaycanlılardan ibarət hərbi kadr hazırlığı üçün bir neçə istiqamətdə fəaliyyət göstərmişdir:

1. Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etmiş hərbi litsey yaratdı;

2. Bakıda fəaliyyət göstərən hərbi mətəblərdə azərbaycanlıların təhsil alması üçün şərait yaratdı;

3. SSRİ-nin hərbi ali məktəblərində təhsil almaq üçün azərbaycanlı gəncləri göndərdi.

Müstəqilliyin ilk illərində Ermənistan Respublikası sərhədlərini genişləndirərək Azərbaycan torpaqlarını işğal etdi. Bu zaman ermənilər azərbaycanlılara qarşı hərbi cinayətlərə, geno-

sid aktlarına və soyqırımlara əl atdılar. Ermənistanın hərbi təcavüzünə qarşı azərbaycanlılar əvvəlcə Dağlıq Qarabağ və onunla həmsərhəd ərazilərdə 22 özünümüdafiə batalyonları tərkibində erməniləri ağır təlafata uğratdılar. Lakin özünümüdafiə batalyonları Azərbaycanın ərazi bütövlüyünü müdafiə edə bilmədi.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə Azərbaycan Respublikanın Silahlı Qüvvələrinin formalaşmasında və müasirləşməsində yeni mərhələ başladı: vahid komandanlıq altında milli ordu yarandı; nizam-intizam gücləndirildi, fərariliyə son qoyuldu; müasir silahlar alındı, peşəkar zabit kadrları yetişdirildi; şəxsi heyətin döyüş qabiliyyəti möhkəmləndirildi; ermənilərə ağır zərbə vuran milli ordumuz düşməni atəşkəs müqaviləsi bağlamağa məcbur etdi ki, nəticədə ölkəmizin iqtisadi inkişafı, ordu quruculuğu üçün əlverişli şərait yarandı. Bu gün Ulu Öndər Heydər Əliyev və onun layiqli siyasi varisi dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev dünya standartlarına cavab verən, modern silahlı qüvvələr yaratdı ki, nəticədə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, 44 gün Vətən müharibəsilə 30 illik işğala son qoydu.

### Ədəbiyyat siyahısı

1. Azərbaycan KP MK və Nazirlər Soveti 1981-ci ildə C.Naxçıvanski adına hərbi məktəbin 10 illiyinin qeyd olunması haqqında qərar //«Kommunist» qəzeti, 19 iyul 1981-ci il, № 165 (17799).

2. Bakı Dənizçilik Məktəbinin fəaliyyətinə dair Azərbaycan KP MK-nın qərarı // «Kommunist» qəzeti, 13 dekabr 1981-ci il, № 287 (17921).

3. Bünyadov Ş. 20 Yanvar hadisəsi və Aprel döyüşlərinin milli ruhumuzun inkişafındakı rolu. Bakı: Zərdabi LTD MMC, 2017, 300 s.

4. Əliyev N. Heydər Əliyev və hərbi qanunvericilik //Dirçəliş-XXI əsr,2004, aprel-may, N 74-75, s.281-290.

5.H.Ə.Əliyevin C.Naxçıvanski adına internat məktəbin 10 illiyinə həsr edilən təntənəli yığıncaqda nitqi. "Kommunist" qəzeti, 11 dekabr 1981-ci il, № 285 (17919).

6."Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununu, 3 oktyabr 1997 -ci il // "Respublika" qəzeti, 3 oktyabr 1997- ci il.

7.Hərbi doktrina-ölkənin müdafiə siyasətinin təməl prinsipləri // //https: // www. mdi. qov. az./filles/uploder/harbi-doktrina-2 doc. 17.12.2015

8.Hərbi məktəblər. //https:herbvesen.jumderfel.com./ hərbi məktəblər/11.12.2020.

9.Qasımlı M. C. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşr., 2006, 608 s.

10.Mustəqil Azərbaycanda ordu quruculugu.// https://azertag.az/ xeber/Musteqil_ Azerbaycanda_ordu_quruculugu-1013315

11.Nəcəfov Z. 44 günlük müharibənin nəticələri.//NEWTIMES/ /https:newtimes /az/politics/6987/16/11/2020

12.Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub //Mülkiyyət qəzeti, 29 iyun 2019-cu il, №26 (1131).

13.Rüstəmov İ. Heydər Əliyev- Azərbaycan ordusunun qurucusudur.// "Respublika" qəzeti, 12 dekabr 2009 cu il, N 270, s.7.

14.Süleymanov M. Heydər Əliyev: Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır // xalqqazeti.com /az/news/31744/31/12/2020

15.Гордиенко Д.В. Военно-экономическая безопасность государства. Монография. Москва: Военная Академия Генерального штаба ВС РФ, 2008, с.38 (288с.).

16.Кузнецов Д.А. Система индикаторов оценки военной безопасности страны. //Вестник ТвГУ. Серия «Экономика и управление». 2015, № 2, с.19 (18-26).

17.Хоскинг Д. История Советского Союза. 1917-1991. Пер. с англ., Москва: Вагриус, 1994, 510 с.

## Резюме

**Алияр Оруджов**

**Роль Общенационального Лидера Гейдара Алиева в формировании и модернизации Вооруженных Сил Азербайджанской Республики (социально-политический анализ)**

В статье анализируется деятельность Г. Алиева в области национальной военной подготовки в советский период, его роль в формировании и модернизации Вооруженных Сил Азербайджанской Республики в период независимости в социально-политическом аспекте. Общенациональный лидер увеличил количество и качество вооружения национальной армии, повысил уровень боевой готовности, военно-экономический потенциал и мобилизационные возможности личного состава. В результате операции по принуждению врага к миру выиграл время для экономического и военного развития страны. После этого он укрепил обороноспособность Азербайджана благодаря единству политического, военного, экономического, научного, социального и морального потенциала. С каждым годом увеличивались расходы на оборону, закупалось новое вооружение и военная техника, развивалась оборонная промышленность, мобилизовались боевая готовность, человеческие, материальные и финансовые возможности и потенциал войск. Был расширен состав воинской службы. Увеличились материальные, боеприпасы, технические, продовольственные, медицинские, финансовые запасы, запасы национальной валюты и ценных бумаг. Под руководством Президента Азербайджанской Республики, Верховного Главнокомандующего Вооруженных Сил Ильхама Алиева, достойного продолжателя идей Общенационального Лидера Гейдара Алиева, строительство армии стало приоритетом государственного строительства. В результате была улучшена материально-техническая база армии, обеспечено самое современное в мире вооружение и военная техника, модернизирована инфраструктура армии, усилена социальная защита военнослужащих, армия было оснащена самыми современными вооружениями, боеприпасами и боевой техники, разработанные с применением высоких технологий. Это внесло неоценимый вклад в рост нашей армии, восстановление территориальной целостности и национальной безопасности Азербайджана. Как воплощение идей Г. Алиева, наша армия одержала беспрецедентную победу в 44-дневной войне против военной агрессии Армении.

***Ключевые слова:*** *Г. Алиев, И. Алиев, единое командование, Вооруженные Силы, военная безопасность, национальная безопасность, оборонно-промышленный комплекс, материальные, человеческие, финансовые ресурсы, военная подготовка, военные училища, Отечественная война.*

## Summary

**Aliyar Orujov**

**The National Leader Heydar Aliyev’s role in the formation and modernization of the Azerbaijan Republic Armed Forces (socio-political analysis)**

H. Aliyev's activity in the field of national military training during the Soviet period, his role in the formation and modernization of Azerbaijan Republic Armed Forces during the independence period was analyzed from the socio-political aspect. The National Leader developed the armament of the national army in quantity and quality, increased the combat readiness level, military-economic potential and mobilization capabilities of personnel. As a result of compelment operation of the enemy to the peace was gained time to develop the country economically and militarily. He

strengthened Azerbaijan's defense capabilities by the political, military, economic, scientific, social and moral potential unity after that. Every year, was increased defense expenses, new weapons and military equipment were purchased, defense industry was developed, were mobilized troops' combat readiness, human, material and financial capabilities and potential. Has been expanded military service composition. Were increased material stocks, ammunition, technical, food, medical stocks, financial stocks, national currency and securities stocks. Army building has become a priority of state building under the leadership of Azerbaijan Republic President, Supreme Commander-in-Chief of the Armed Forces, National Leader Heydar Aliyev's ideas worthy successor Ilham Aliyev. As a result, was improved the material and technical base of the army, equipped by the world's most modern weapons and military equipment, modernized infrastructure of the army, has been strengthened social protection of servicemen, army was provided by the most modern, high-tech weapons and ammunition capable of accurate destruction in a large area. It made invaluable contributions to the growth of our army, Azerbaijan's territorial integrity restoration and national security. Our army won an unprecedented victory in the 44-day war against the Armenian military aggression as an embodiment of H. Aliyev's ideas.

***Keywords:*** *H. Aliyev, I. Aliyev, Unified Command, Armed Forces, military security, national security, defense-industrial complex, material, human, financial resources, military training, military schools, Patriotic War.*

UOT 37

**KONUL IBRAGIMOVA**
*Doctoral student of OdlarYurdu University*
*konulibrahimova1976@mail.ru, Azerbaijan*

# FUNDAMENTALS OF EDUCATIONAL SERVICES IN THE HIGHER EDUCATION SYSTEM: INTEGRATION AND MODERNIZATION PROCESSES

***Keywords:*** *Economy, Higher education, renewal process*

The adaptation of the educational sphere of the higher education system to the processes taking place in the world in our country and the further modernization of such an important stage of education is a requirement of the time. It is difficult to achieve the high results required in the field of education when carrying out the necessary reforms in these areas. Therefore, at the state level, important steps are being taken to implement the renewal process in each of these areas, which play an important role in the development of higher education.

Acceleration of the process of integration of the higher education system of the Republic of Azerbaijan into the European educational space, the formation of an effective higher education system that provides access to higher education meeting modern international requirements is already considered a necessity [1].

In general, the size of the world educational services market and the share of a particular country in this market are determined by various indicators. These indicators include: the total number of students in the world and the average number of students per countries; the rate of increase or decrease in the number of foreign students; the share of each country in the number of international students around the world; financial resources coming into the country from foreign students; annual government spending on education; government spending per student; the share of the number of foreign students in the total number of students in the country; distribution of foreign students by universities and majors; percentage of distribution of foreign students by country, etc. [2].

In recent years, the number of foreigners studying at the bachelor's and master's level in state and non-state higher educational institutions of the Republic of Azerbaijan has been increasing [3]. For example, if in 2000-2001 the number of students in our country was 1,870 people, then in 2019/2020 this figure increased 2.5 times and, thus, reached 4,688 people. In 2019/2020, 783 people from the CIS countries, 450 people from Georgia, 1,927 people from Turkey, 853 people from Iran, 218 people from Iraq and others received education in Azerbaijan (Graph 1).




**Graph 1**

**Dynamics of the number of foreigners studying at the bachelor's and master's level in state and non-state universities of our country (at the beginning of the academic year, people)**

In recent years, there have also been significant changes in the number of Azerbaijani citizens studying in foreign universities through the state line [3]. For example, if in 2015/2016. the number of our citizens studying in foreign countries was 2998, then in 2019/2020 this figure dropped to 807 people. The number of our citizens studying in the CIS countries in 2019-2020 was 807 people, the number of students studying in Turkey - 237 people, and in Hungary - 178 people (Graph 2).

The relative decline in the flow of students to foreign countries, the growth of trust and interest in the country's universities are already an indicator of progress in the field of higher education. It is necessary to maintain and develop the current level by strengthening this important indicator. We believe that, in accordance with the Law on Science in Azerbaijan, the creation and expansion of research universities is one of the main arguments in favor of improving the image of universities. in the country.




**Graph 2**

**ThenumberofAzerbaijani citizens studying in universities of foreign countries through the state line (at the beginning of the academic year).**

Experience shows that there is a need to optimize the integration processes that already exist in economic education. This will make it possible to find an effective solution to the problem of conducting very serious complex research by simultaneously training economists in accordance with educational programs. Thus, it is relevant to study theoretical and methodological problems associated with innovations in the field of economic education, methodology for the development of mechanisms for managing educational structures and assessing the effectiveness of integration processes in the system of economic education. And this led to a radical change in economic relations in the market of educational services, as well as the choice of research topics, goals and objectives in the context of scientific provisions of management, the development of educational innovations and modern technologies.

As an exhaustive theory and methodology for managing economic and innovative changes in the system of economic education services in unstable conditions, poor study of economics creates the need for the following: development of a methodology in the area in which the problem is being studied; developing strategies to manage key positions and economic results; increasing the innovativeness of the economic system of education (integration into the system of economic education, as well as into the labor market and educational services, clarification of the categorical apparatus in the field of interaction). All this, in turn, provides a broad opportunity for the modernization of education. Thus, we consider it necessary to implement the following measures for the development of the education system in Azerbaijan: one of the important initiatives that should be taken in the field of science in the coming years is the development of relations in terms of education, research, and innovation in educational institutions. Clusters should be formed in some specialized universities in Azerbaijan. At the same

time, the use of scientific results in the educational process should be encouraged. The effectiveness of education and science, including industrial relations in the country, should be increased, and in accordance with the state strategy for the development of education in Azerbaijan and the concept of the country's development, education in Azerbaijan should be at the forefront of international rankings in terms of quality, coverage, and competitiveness.

The implementation of the state program will conduce to the achievement of the following results:

- as a result of the creation of a regulatory legal framework for teaching young people in prestigious foreign universities, sending foreign students to priority areas will be improved;

- the mechanism for selecting talented young people sent to study abroad will be improved;

- majors will be determined in accordance with the requirements of economic development and the labor market of the Republic of Azerbaijan;

- in the medium term, significant progress will be made in solving the problem of providing the country with highly qualified personnel in accordance with the requirements of the labor market;

- the scientific and scientific-pedagogical potential of the country will be consolidated as well as the export potential of intellectual property will increase;

- in the Republic of Azerbaijan, teaching staff will be built in order to train specialists at the level of international standards;

- will be created an information base of specialists studying abroad;

- human capital will develop in the Republic of Azerbaijan, which, in turn, will increase the country's competitiveness and ensure sustainable development by increasing labor productivity .

One of the most important achievements in the field of higher education in our country in recent years is the increase in the number of places occupied by Azerbaijani universities in international rankings compared to previous years. It is also an indicator of the developing base of educational services in the field of higher education in Azerbaijan. Taking a broader place in the list of globally recognized universities by continuing to develop the base of educational services in the following years means further modernization of our higher education system with a help of internal capabilities. This will reduce the flow of students from one country to another, and vice versa, will expand the flow of students from abroad to our country. This is the backbone of each country's higher education strategy. To acquire more opportunities in these areas, it is necessary to include in the provisions of the draft law "On Higher Education" provisions that may affect the change in the balance of education of foreign students in our country through study abroad.

## References


1. Akhmedov H. Strategy for the development of education in Azerbaijan Baku, Science, 2010, 800 p.

2. Vurnyasheva L.A. You use active and interactive teaching methods in the educational process in high school. KNORUS. 2016,192 S.

3. Constitution of the Republic of Azerbaijan Baku, 1995

4. Law of the Republic of Azerbaijan "On Education". Baku, 1992

5. Education reform program of the Republic of Azerbaijan, Baku, 1999

6. Concept of General Education in the Republic of Azerbaijan (National Curriculum), "Azerbaijan Teacher", December 1, 2006

7. Order of the President of the Republic of Azerbaijan "On the State Commission for Education Reform in the Republic of Azerbaijan", Baku, March 30, 1998.

8. Agamaliev R. Azerbaijan education towards the twentieth century: management, problems, reforms, Baku, 1998.

9. "Educational policy", (Special literature on education) ACI-YF, Baku, 2005.

10. Weil, David N. (2009). Economic growth (second). Boston: Pearson Addison-Wesley.

**Xülasə**

**Könül İbrahimova**

**Ali təhsil sistemində təhsil xidmətləri bazaları: inteqrasiya və müasirləşdirmə prosesləri**

Məqalədə ölkədə təhsil xidmətləri bazarının keyfiyyətcə yeni mərhələyə çatdırılması xaricə tələbə axınının qarşısının alınması və ali təhsilin daha da inkişaf etdirilməsi məsələlərindən bəhs olunur. Müəllif xaricdə tələbə təhsili ilə xarici tələbələrin ölkəmizə gəlib təhsillərini davam etdirməsinə fərqli yanaşmaq əsasında, ölkəmizin ali məktəblərinin daxili imkanlar hesabına daha da genişləndirilməsini mühüm şərti kimi qiymət verir.
***Açar sözlər:*** *İqtisadiyyat, ali təhsil, müasirləşdirmə prosesi*

**Summary**

**Konul Ibrahimova**

**Fundamentals of educatıonal servıces ın hıgher educatıon: ıntegratıon and modernızatıon processes**

The article discusses the issues of bringing the market of educational services in the country to a new level in terms of quality, preventing the influx of students abroad and the further development of higher education. The author finds important the further expansion of the universities of our country with a help of internal opportunities based on a different approach to teaching students studying abroad. She also emphasizes on the arrival of foreign students in our country to continue their studies.
***Keywords:*** *Economy, Higher education, renewal process*

**UOT 297**

**YEGANƏ RƏHNULLA**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, elmi işçi*
*yegane.rahnulla@mail.ru, Azərbaycan*

# ALLAHIN ZATI ADLARININ DİNİ-ELMİ TƏHLİLİ (AZƏRBAYCAN ƏLYAZMALARINA ƏSASƏN) (İKİNCİ HİSSƏ)

***Açar sözlər:*** *İslam, Quran, hədis, təsəvvüf, kəlam, "Əsmaul-husna" (Allahın gözəl adları), əlyazma*

AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycan, ərəb, türk, fars, rus, özbək və s. dillərdə 40 min addan çox material, 1000-ə yaxın tarixi-arxeoqrafik sənəd, XIX əsrin ikinci yarısı – XX əsrin birinci yarısını əhatə edən Azərbaycan mədəniyyət xadimlərinin 20 minə qədər saxlama vahidini əhatə edən şəxsi arxivləri, 10 mindən artıq litoqrafik (daşbasma) və əski çap kitabları toplanmışdır [1, s. 6]. Burada saxlanılan əlyazmalar içərisində ərəbdilli əlyazmalar üstünlük təşkil edir. Buna səbəb isə Orta əsrlərdə İslamı qəbul etmiş xalqların elm və mədəniyyətinin inkişafında ərəb dilinin mühüm rol oynamasıdır. Bu dövrdə İslam aləminin məşhur alim və mütəfəkkirlərinin İlahiyyat elmlərinin müxtəlif sahələrinə aid yazılmış əsərlərinin əlyazma nüsxələri mühafizə olunur. Bu nüsxələr Quran daxil olmaqla İslam dininin hədis, təfsir, təcvid, fiqh (islam hüququ) və s. sahələrini əhatə edir [7, s. 221].

Əlyazmalar İnstitutunda saxlanılan İlahiyyata aid olan əsərlər içərisində Əsmaul-husna – Allahın gözəl adlarından bəhs edən əsərlər xüsusi yer tutur. Əlyazmalar İnstitutunda "Əsmaul-husna"-Allahın gözəl adlarından bəhs edən 30-dan artıq əlyazma nüsxələrinin arasında Sədrəddin əl-Konəvinin *"Şərhi əsma-Allahil-husna",* Sədrəddin əş-Şirazinin *"Təfsir əl-Quran" və "Şərh əsmallah"* əlyazma nüsxələri tədqiqata cəlb olunmuşdur. Konəvi, hər bir adın lüğətdə izahını verəndən sonra اعلم انّ [Mən bunu bilirəm; həqiqətən bilirəm; bilinməlidir ki] ifadəsinin ardınca sufilərin kəşf və müşahidə biliklərinə əsaslanaraq, varlıqların bu adlar vasitəsi ilə Allaha istinad etmə məsələsinin şərhinə geniş yer vermişdir [2, v. 92a]. Əş-Şirazi, *"Təfsir əl-Quran"* əsərində "Əsmaul-husna"dan bəhs edən məşhur hədis və adların şərhindən sonra bu hissənin İbn Mələk adı ilə məşhur olan Əbdüllətif b. Əbdüləziz Ruminin *"Şərh əl-Məsabih"* əsərindən olduğunu qeyd etmişdir. Bu əsərlər əsasında "Əsmaul-husna" ya daxil olan Allahın gözəl adları üç hissəyə (zatı adlar, kəvni adlarının, Allahın insanla əlaqəli adları) ayrılaraq həm dini, həm də elmi cəhətdən təhlil olunacaq. Yaradanın "Allah", "Zulcəlal", "Quddus", "Əzim", "Saməd", "Huvə" zati adları, Onun cəlal zatına məxsusdur. Allahın zatına aid olan bu növ adlar yaradılışa və mümkünül-vücuda (varlığı mümkün olan hər bir varlığa) aid ola bilməz, əslində bunlar sübutiyyə sifətlərdir. Zat ad həqiqətdə vacibul-vücüdun ali dərəcəsidir və zatın özüdür, başqasına və ya digər bir işə bağlı deyil. Bu eynilə bütün kamal sifətlərin cəmi və kamil zatının göstəricisi olan Allah adı kimidir [6, s. 66-67]. Zatı adlar: Ər-Rəhman, ər-Rəhim, əl-Quddus, əl-Salam, əl-Əziz, əl-Cabbar, əl-Mutəkəbbir, əl-Qahhar, əl-Alim, əs-Səmi, əl-Bəsir, əl-Xabir, əl-Əzim, əl-Əliyy(Əli), əl-Kəbir, əl-Cəlil, əl-Kərim, əl-Vasi, əl-Hakim, əş-Şəhid, əl-Haqq, əl-Qaviyy, əl-Mətin, əl-Həmid, əl-Muhsi, əl-Hayy, əl-Vacid, əl-Məcid, əl-Vahid, əl-Əhəd, əs-Saməd, əl-Qadir, əl-Muqtədir, əl-Əvvəl, əl-Axir, əz-Zahir, əl-Batin, əl-Mutəal, əl-Bərr, ər-Rauf, Zul Cəlali vəl ikram, əl-Ğəniyy, ən-Nur, əl-Baqi, əl-Varis, ər-Rəşid. Burada Allahın zatı adlarından əl-Vahid adından başlayaraq ər-Rəşid adına kimi adların dini-elmi cəhətdən təhlil verilir.

Əl-Vahid - zatında ortağı olmayan, təkdir, əl-Əhəd-Bir tək olan, bənzəri və oxşarı olma-

yandır. Əl-Vahid-əl-Əhəd, ilahilik baxımından bölünməyən deməkdir. O-nun varlığı heç kəsə bağlı deyildi və heç kəsin hökmü ona şamil ola bilməz. Bu adın içərisində ümumi hamı üçün bir ümid, seçilmişlər üçün isə فتحا – fətih [fateh] vardır. Quranda Allah hamıya xitab edərək belə buyurur: *"Sizin tanrınız tək olan Allahdır. Ondan başqa tanrı yoxdur"* [əl-Bəqərə, 163] [5, s. 23].

Əl-Əhəd - zatında heç kəsin şəriki olmadığı bir fərdin adıdır, əl-Vahid isə, sifətlərində şəriki olmayan fərdin adıdır. İsmi əzəm olan Allahın vəhdəti, hər hansı bir birlik, tövhid və ya Haqqın özü üçün bir olması deyildir ki, Allahın birliyi yaransın və məchul olsun. Çünki, Allahın الكنه– kunhu, fərdiliyi və özü üçün birdir, mütləq birliyi də öz zatından qaynaqlanır. Haqqın mütləq birliyi, ortağı olmayan İlahiyyət rütbəsinə tək sahib olmasıdır.

*"Əl-Vahid və əl-Əhəd eyni mənalı sözlərdir, onların arasındakı fərq odur ki, əl-Əhəd, ədəddən onunla birlikdə deyilənləri (şərik olanları) inkar etmək üçün, əl-Vahid isə, ədədin açılması üçün düzəlib"* [4, v. 281b].

Əs-Saməd - hər şey O-na mühtac olan, dəstək verən deməkdir. Ehtiyac və sıxıntıda O-na yönəlir, niyyət edilir. Allahın mərtəbəsində ülvi xəzinəsi, qeyb xəzinəsi, şəhadət mərtəbəsindəki xəzinə, sübut mərtəbəsindəki xəzinə, vücud mərtəbəsindəki xəzinə kimi olmaqla müxtəlif xəzinələr var. Bunların açarı Allahın əlindədir, bunları istədiyi vaxt, istədiyi kimsələrə istədiyi şəkildə açar. Buna görə Allah, bütün işlərdə O-na tapınan və hər zaman müraciət olunan əs-Səməddir. Möhtaclıq, varlıq xəzinələrinin şəxlərinin bir-birinə paylaşıldığı üçün, bu vəziyyətdə varlıqlardan hər birinin sadəcə özü ilə zühür edə bilən "samədlik" bir payı vardır.

Əl-Qadir - qüdrət sahibi olan, iqtidarın qabiliyyətlərə nüfus etməsi ilə muqtədir (səlahiyyətli) olan deməkdir. Əl-Muqtədir-Hər şeyə gücü çatan deməkdir. Əl-Qadirin iqtidarının zühurlarını idarə etdiyi qabiliyyətdir. Həmçinin, əl-Qadir, öz əllərimizlə etdiklərimiz vasitəsilə də muqtədir olandır. Bu vəziyyətdə iqtidar O-na aid, əməl isə bizim əllərimizdən yaranar. Bu halda işi həyata keçirən əl, Haqq ilə muqtədir olması baxımından Haqqın əlidir. Əl-Qadir adının bir çox əsərləri vardır. Allah bu əsərlərə "ol" deyə xitab edərkən mümkünlərə varlıq verməsində gizlətmişdir. Sədrəddin Konəvi, "Şərh əsma Allah əl-husna" əsərinin 147a-148a vərəqlərində hər iki adın şərhini Quran ayələri və İslam Peyğəmbərinin (s) hədisləri əsasında geniş şərh etmişdir.

*"Əl-Qadir və əl-Muqtədir adlarının mənasını necə vəsf etsələr belə, Allahdan başqası, mütləq qüdrəti təsvir edə və bir söz deyə bilməz"* [4, v. 282a].

Əl-Əvvəl - varlığının başlanğıcı olmayandır. Vacibliyi, xeyirxahlığı ilə başlaması etibari ilə əl-Əvvəldir. *"Əl-Əvvəl, ondan əvvəl və onunla birlikdə heç bir şey olmayandır"* [4, v. 282a]. Əl-Axir-Varlığının sonu olmayandır. Məxfirəti ilə əmrlərinin (işlərinin) özünə qayıdan kimsə olması etibarı ilə əl-Axirdir. *"Əl-Axir, yaradılmşıların məhvindən sonra qalandır*" [4, v. 282a]. Buna görə Allah, hər şeyin yaradıcısı olmasına görə əvvəldir, bütün işlərin özünə qayıtmasına görə də axırdır. Bütün ilahi adlar bu iki adın arasında zühur edərlər və vücud hökmünün mütləqliyi baxımından bu vəziyyətdədirlər. Allah, əl-Əvvəl olduğunda, insan əl-Axirdir, çunki insan, vücud mərtəbəsinin sonunda mövcuddur. Həmçinin, insan, aləmlərin işinin özünə qayıtması etibarı ilə də əl-Axirdir, bu vəziyyətin səbəbi aləmlərin nizamının zühur etməsi və insanın varlığı ilə onların məmur olmasıdır.

Allah, həmişə bəndə və yoxluq arasında maneə olmuşdur. Vücud dövrü olduğu üçün, sonun başlancığı təyin olunmuşdur. الكون əl-kəvn mərtəbəsinin varlıqları, əyanları, varlıq mərtəbəsində səyahət edib dayanarlar. السايِر əl-Sayir sahibinin üzü həmişə əl-Əvvələ, arxası isə, əl-Axır adına baxar.

Əz-Zahir - varlığı, qüdrətiylə aşkar olandır. *"Əz-Zahir, varlığının dəlilini yer və göydə, həmçinin onların arasında xəlq olunanlarda göstərəndir. O, hər şeydən üstün və yüksək görünəndir. O, əqli mülahizə yolu ilə hərəkət və təsvir əsərlərindən meydana gələn Arifdir"* [4, v. 282a]. Allah, əz-Zahir adı ilə təzahür etdiyində, bu təzahürdə sabit qalmaz, çünki, o, özü (nəfsi) ilə haqlarını yerinə yetirməkdədir. Muhdis (yeniləciyi) isə, özünə zühur edərsə, əsərini silər. Bu halda, əl-Qadimi görməyə kim tab gətirə bilər ki? Haqqın zühuru qarşısında Haqqın görməli və eşitməli olduğu kimsə sabit dura bilər. Quranın əl-Əraf surəsinin 143-cü ayəsin-

də Musa peyğəmbərin (ə) Allahı görmək istədiyi və Allahın da ona cavabında *"Sən məni əsla görə bilməzsən. Lakin dağa bax. Əgər o yerində dura bilsə, sən də məni görə bilərsən deyə buyurdu. Rəbbi dağa təcəlli etdikdə onu parça-parça etdi. Musa da bayılıb düşdü"* [5, s. 140]. Musa (ə) Allahın onun eşitməli olduğu vaxtda Haqqın sözünü eşitmək üçün sabit qala bilmişdir. Lakin, təcəlli olunan vaxt Musanın (ə) Allahı görməsi lazım olmadığı üçün bayılmışdır. Beləliklə, Allahı görmək, nə Musa (ə) üçün, nə də dağ üçün reallaşmadığına görə Musa (ə) bayıldı, dağ da parça-parça oldu. Əgər görmə hadisəsi olsaydı, bu hallar baş verməzdi, çünki o vücuddur və vücud bütövlüklə xeyirdir. Xeyir isə sadəcə xeyir gətirər və vücud sadəcə vücud gətirər.

Əl-Batin - mahiyəti gizli olandır. *"Əl-Batin, qürurunu örtmək üçün xəlq olunmuşların gözlərindən gizlənəndir"* [4, v. 282a]. İlahi pərdələr (hicab) daima Haqq ilə məxluqun arasında maneə olmuşdur. Əgər bu pərdələr olmasaydı, vəchinin (simasının) parıltıları gözünün gördüyü bütün məxluqatı yandırardı. Əgər pərdələr yaradılmasaydı, bu vəziyyətdə nə pərdə vardır, nə də pərdələnmək. Əgər pərdələr yaradılmışdılarsa Allahın vəchinin parıltıları bunları niyə yandırmır? Buna görə, həqiqətən pərdə, Allahın məxluqatdan gizlətdiyi bir sirridir və bu gizlətmək də "pərdə" adı ilə adlandırılmışdır.

Ariflərin bilmədiyi mərifət də "Haqqın bilinməz olduğu" xüsusiyyətidir. Çünki, Allah bilinmiş olsaydı batin olmazdı, halbuki Haqq, əl-Batindir. Zühur vücuda məxsus olduğu kimi, batinlik də mümkünlərə məxsusdur. Haqqın özünün vəsf etdiyi batinlik, mümkünün haqqındadır, buna görə mümkündür. Haqqın batini, xəlqin isə zahiridir. Çünki, haqqın batinliyindən الكون əl-kəvn zühur etmiş, zühur etdiyi şey ilə pərdələnmiş, batin olduğu şeydə isə zühur etmişdir. Bu halda əl-Əvvəl, əl-Axirin eyni (عين) olduğu kimi, əz-Zahir də, əl-Batinin eyni olmuşdur.

Əl-Mutəal - izzət və şərəf baxımından ən uca olan, yerüzündə aliləşmək, böyük olmaq istəyənlərə və sahib olmadığına iddia edənlərə qarşı üstün olan deməkdir. Əl-Əliyy (Əli) adından əmələ gəlmişdir. "*Əl-Mutəal, Qüsurların üzərində yüksəklərin ən yüksəyi mənasında yüksək* العلّى *sözünün mübaliğə (şişirtmə dərəcəsi) qəlpindəndir"* [4, v. 282a]. *"O,* العلاء *sözünün mübaliğidir və qüsurlardan daha yüksəkdir"* [3, v. 10a].

Əl-Bərr - bütün yaxşılıq və gözəlliyin sahibidir. *"Əl-Bərr, xeyirxahlıqdır, Əslində Allahdan başqa heç bir yaxşılıq və xeyirxahlıq yoxdur. O, xeyirxahlığı və salehliyi ilə bəndələrinə lütf edəndir"* [4, v. 282a]. Allah, möhtac olduqları üçün məxluqatına bəxş etdiyi ehsanı, ikramı və neməti ilə əl-Bərrdir (Salehdir). Əl-Bərr, xeyirxahlığının və ehsanının ümumiliyi, rəhmət və minnətinin imkanlarını qaranlığın yoxluğundan çıxartmış, onlara varlıq paltarını (xalatını) geytirmiş, الكون əl-kəvn mərtəbələrinin varlıqlarına (əyanlarına) sirayət etmişdir. Bu sifət bütün varlıq mərtəbələrinə sirayət edir. Allah-təala, məxluqatına xeyirxahlığını və rəhmətini mərhəmmədli bəndələri vasitəsi ilə çatdırır. Ona görə onların məxluqlara mərhəmət etməsi, Allahın da onlara mərhəmət etməsinə səbəb olur. Çünki, onların əməlləri özlərinə qayıdar.

Ər-Rauf - الرأفه- "Rifah" sözündən əmələ gəlib, çox lütfkar və şəfqətli deməkdir. Ər-Rauf, tövbəsi ilə günahkarlara, qorunmaq üçün Ona yaxınlaşanlara şəfqətlidir. Qəlblərdən çıxan lüftkarlıq, cəzbə kimidir. Cəzbə və rifah eyni mənada işlənir, islah etmək deməkdir. Buna görə Haqqın rifahı, bəndələrinə rəhmətini bəxş etmişdir. Bu rəhmət, əvvəlki və sondakı rəhmətdir. Allah-təala Fatihə surəsinin birinci ayəsində buna işarə edərək buyurur: "Bağışlayan və rəhm edən Allahın adı ilə". Bu hər şeydən əvvəl gələn xəlq etmə rəhmətinə işarə edir."Aləmlərin Rəbbidir, Rəhman və Rəhimdir" ayəsində isə sondakı rəhmətə işarə edir. Beləliklə, mütaqabil (qarşılıqlı) adların da daxil olduğu aləmin bütün işləri, bu iki rəhmətin əhatəsində yerləşr. Adların hökmlərini və məzhərlərdəki səltənətlərini bitirdikdən sonra əməl, ümumi rəhmətə keçir. Bu adın hökmü də xüsuslarda keçərlidir, bu səbəbdən Allah, Tövbə surəsinin 128-ci ayəsində Peyğəmbərini (s) *"...möminlərə şəfqətli və mərhəmətlidir"* [5, s.174]. "Rauf" adı ilə adlandırmışdır. Burada Peyğəmbərin (s) özünə qarşı "rauf" olduğu insanları iman ilə təmin etməsi, bu rəhmətin möminlərə məxsus bir rəhmət olduğunu göstərir.

Zul Cəlali vəl ikram - böyüklük və kərəm sahibi deməkdir. *"O, ilahi şərəf, kamillik və ondan yayılan ilahi nifrətə sahib olmayandır,*

*çünki şan və şərəf O-nun yaradılışında daha çoxdur"* [4, v. 282a].

Əl-Ğəniyy - hər kəsin möhtac olduğudur. *"O, bəndələrindən istədiyini zəngin edəndir.O, bəndələrində olanların ən zənginidir, çünki onlara O-ndan başqa heç nə qalmayacaq"* [4, v. 282a]. Zənginliyi ilə aləmdən imtina edən deməkdir, çünki o, itaət edənlərin itaətinə möhtac deyildir. Zənginlik, Haqqın zənginliyi və xəlqin zənginliyi olmaqla iki cürdür. Xəlq mərtəbəsində ilk dərəcə, qənaət və əldə olanla kifayətlənməkdir. Zənginlik, pərdəli insanların xəyal etdikləri, daha çoxunu tələb etməklə bərabər malın çoxluğu demək deyil, çünki, belə insan yoxsulluğun məhkumudur. Elə iddialı insanlar var ki, əlində özünə və övladlarına kifayət qədər mal vardır, lakin o, daha çox mal əldə etmək üçün iddia və tamahla özünü həlak edər. Bunun səbəbi, insanın imkan mərtəbəsinin tələb etdiyi üslubda, zatının (şəxsən) fəqir (yoxsul) yaradılmasıdır. Bu heyvan-insanın hökmüdür. İnsan növünün kamili isə, iki aydınlığa sahibdir: Bunlardan biri Allaha möhtaclığı, ikinci isə الكون əl-kunə qarşı zənginliyidir. Buna görə kamil Haqqa möhtacdır və onun sayəsində zəngindir, kamil sadəcə buna çatmaqla öyünər.

Ən-Nur - nəfsi ilə zahir, başqasını isə məzhər (izhar) edəndir. *"Ən-Nur, görməyənləri öz nuru ilə nurlandırır və bu cazibə ilə hidayətini irşad edir. Öz nəfsinin zahirindən başqalarının zahirini işiqlandıran əz-Zahir, Nur adlanır"* [4, v. 282b]. Ən-Nur, övliyaların qəlbini mərifəti ilə, yerüzünü isə övliyaların daxilindəki nur ilə nurlandırandır. Nurun bir çox dərəcəsi vardlr: Qatında idrakın reallaşdığı dərəcə; İdrakın özü ilə reallaşdığı dərəcə; Özü ilə idrak edilən dərəcə; parlaqlığı səbəbindən idrak olunmayan dərəcədir (məsələn günəş). Əgər Nur, işıq dərəcəsinin ən zəifi olan məxsus işığı olsaydı belə, yenə də idraka maneə yaradardı. Əgər zəif dərəcəli işıq belə təsir edirsə, onda ən böyük mütləqlik və məhdudiyyətərdən belə münəzzəh olan mütləq nurun təsirini təsəvvür belə etmək mümkün olmazdı. Əgər mütləq nur, cəlal pərdəsi ilə örtülməsəydi vəchinin parıltısı özünü idrak edən hər şeyi yandırardı.

Pərdələrin ən böyüyü və əzəmətlisi nur pərdəsidir, Haqq da nurdur. Allah, nurda və nur ilə örtülmüşdür. Beləliklə, Allah özü (nəfsi) üçün örtünmüş, bəndəsi üçün isə pərdənin özüdür. Nurun əsas iki dərəcəsindən biri olan məxsus nurlarına misal olaraq günəşi, ayı, ulduzu, çırağı misal gətirmək olar. O biri dərəcə olan məqul dərəcəsinə isə gözü, ağlı, elmi və kəşfin nurunu göstərmək olar. Bütün bunların açarı isə, ağıl və şəriət nurudur.

Əl-Baqi - vücud və yaratması ilə davamlı, əbədi olandır. *"Əl-Baqi, istiqbalında sonuncu bitməyənə qədər vücud yaratmaqda davam edəndir, yox olmağı qəbul etməyən daimi vatlıq O-dur"* [4, v. 282b]. Quranda Allah-təala buyurur: *"Sizdə olan (dünya malı) tükənir, Allah dərgahında olan (axirət nemətləri) isə əbədidir..."* [ən-Nəhl, 96] [5, s. 246]. Başqa bir ayədə isə *"...Allah yanında olan (nemətlər) isə daha yaxşı və daha baqidir (əbədidir)..."* [əl-Qəsəs, 60] [5, s. 383]. Buna görə bəndələr və bəndələrin sahib olduqları Allah qatındadılar. الكون əl-kəvn mərtəbələrinin varlıqları-əyanları, bütünlüklə Allahın qatında yerləşən Haqqın xəzinələrini qorumaqdadılar. Allah qatında olanlar, hətta başqa mərtəbələrə keçsə də belə bakidir (əbədidir). Bəndənin sahib olduqları tükənir, Haqqın qatında olanlar isə tükənməzdir.

Varlığın özü haqqında hökm və əmrləri Haqqa aid olduğu üçün, الكون əl-kun, Haqqın baqisi ilə baqidir. Allah-təala Taha surəsi 73-cü ayədə bu haqda belə buyurur: *"...Allah daha xeyirli və baqidir"* [5, s. 291]. Ona görə də Allah xeyirli və baqi olanlardan daha xeyirli və daha baqidir.

Əl-Varis - hər şey yox olduğu zaman diri olan və hər şeyə sahib olandır. *"Əl-Varis, yaradılmışlara onların ölümündən sonra varis olan və yaşayandır. Allah-təala buyurur: "yer üzünə və onun üzərində olan hər şeyə Biz varis olacayıq [Məryəm, 40]" Yer əhli məhv olur, lakin məmləkəti qalır"* [4, v. 282b]. Yaratdıqlarının Bərzəğə köç edəndən sonra geridə qalanlarına varis olan deməkdir. Bu adın hökmləri, mənəvi və suri bütün mərtəbələrə sirayət edir. Buna görə suri mərtəbələrə varis olmaq, hər kəsin dünya həyatından bütöv olaraq axirət həyatına köç edəndən sonra Haqqın yerüzünə və onun üzərində olanlara varis olmaq şəklindədir. Həmçinin, Allah bu yaranmışlara hökm və ədalət yolu ilə istədiklərini ona miras vermək üçün bəzi bəndələr də varis ola bilər.

Peyğəmbərlər, elmdən və Allahın onlara verdiyi mirasdan başqa heç bir mirasa sahib de-

yillər. Buna görə peyğəmbərlər Allahın, alimlər isə, peyğəmbərlərin varisidir. Bu halda Allah, hər baxımda həm varis, həm də miras bəxş edəndir. Buna görə bəzi alimlər, nübuvvətin zahirindən hökm və şəriət elmlərinə, bəzi alimlər isə nübuvvətin batinindən sirr və kəşf elmlərinə varis olur.

Ər-Rəşid - "ruşd" sözündən əmələ gələrək, doğru yola yönəldən, bütün canlıların saçlarından tutaraq, onları sirat körpüsünə irşad edən mənasını verir. *"Ər-Rəşid, məxluqları yaxşılığa yönəldən və onları hidayət edəndir. O, bəndələrini onların rufahı üçün yönləndirəndir"* [4, v. 282b]. İnsan, əmr və iradəni ayird etməzdən əvvəl cahil olduğu və özündən yaranan şeylər ilə Haqqın elmindən yaranan və Haqqın elmi də məluma tabe olduğu üçün, əmr və iradə arasında heç bir ziddiyyət ola bilməz. Ziddiyyət, əmr ilə elmin möhtac olduğu şey arasındadır. Bu səbəbdən, varlıqların hər birinin, zatının tələb etdiyi üslubda spesifik bir istiqaməti və "ruşdu" vardır. Lakin, bəzən kəmala yüksəldən üç sifətin əsərləri (elm, iradə və əmr) bir tək şəxsdə cəmlənə bilər. Bu vəziyyətdə həmən şəxs, ən üstün istiqamət və ruşd dərəcəsinə sahibdir.

"Əsmaul-husna"ya daxil olan Allahın bütün ad və sifətləri Allahın təkliyini bildirir və O-nun mütləq və kamil vücuduna şamil olur. Əl-Vahid, əl-Əvvəl, əl-Axir, əl-Varis kimi Allahın əzəli və əbədi sifətləri, onların əksinin Allahda olmasını inkar edir. Allah əzəldən kamil, qüdrət, izzət, ehtiyacsızlıq və s. sifətlərə malik idi, onların əksi acizlik, zəiflik, ölüm kimi xüsusiyyətlər Allahın mütləq vücudundan uzaqdır. Allahın zatı adları, O-nun kəvni və insanla əlaqəli adlarından əvvəl gəlir və əzəlidir. Çünki, Allahın zatı adları heç nədən aslı olmayaraq mövcüddur, lakin kəvni və insanla əlaqəli adlarının mövcudluğu üçün isə məxluqat lazımdır. Belə ki, Allah ər-Rəzzaqdır - ruzi verəndir, lakin əvvəl məxluqu xəlq edir, sonra isə ona ruzi verir. Bu səbəbdən Allahın kəvni və insanla əlaqəli adlarını, zatı adlar kimi əzəli və əbədi hesab olunmur.

Beləliklə, bütün zamanlarda aktual olan Allahın gözəl adlarının bir çox İslam alimi tərəfindən müxtəlif aspektlərdən təhlili olunmuşdur. "Əsmaul-husna"ya daxil olan bu zatı adların həm zahiri, həm də batini olaraq təsəvvüfdə təhlili isə Azərbaycan İlahiyyat elmində bu sahə üzrə yeni cığır açır. Bu təhlillərin, Azərbaycanda saxlanılan Sədrəddin Konəvinin yazılı elmi irsinin bir hissəsini özündə cəmləyən yeganə əlyazma məcmuəsinə daxil olan *"Şərhi əsma-Allahil-husna",* dünya əlyazma xəzinələrində və kitabxanalarında olmayan Sədrəddin əş-Şirazinin *"Təfsir əl-Quran" və* müəllifi məlum olmayan "*Şərh əsmallah"* əsərləri əsasında olması İlahiyyatla yanaşı Azərbaycan mətnşünaslığına da yenilik gətirir. Kəlam elminin bir sahəsi olan Allahın ad və sifətlərinin ərəbdilli Orta əsr mənbələrindən tərcümə olunaraq tədqiqi, gələcək tədqiqatların aparılmasında da müstəsna rol oynayacaq.

## Ədəbiyyat siyahısı


**1.** Ədilov M. Azərbaycan paleoqrafiyası / M. Ədilov. – Bakı: Elm, - 2010. – 223 s.

**2.** Əlyazmalar İnstitutu. A-409, v.90b القونوى ص. شرح الاسماالله الحسنى / ص. القونوى.

**3.** Əlyazmalar İnstitutu. B-2195, 2b-11a. شرح اسماالله.

**4.** Əlyazmalar İnstitutu. B-2872 v.278b-284b. 1336/1724 الشيرازى ص. تفسير القران / ص. الشيرازى

**5.** Qurani-kərim: / Tərcümə edənlər: Z. Bünyadov, V. Məmmədəliyev - Bakı: Azərnəşr, -1991. -710 s.

**6.** Müqtədiri M. Əsmaul-hüsna – Quranda Allahın gözəl adları / M.Müqtədiri.- Bakı: Nurlar, -2013. - 158 s.

**7.** Rəhnulla Y. Azərbaycan əlyazmalarında Əsmaul-husna- Allahın gözəl adlarından bəhs edən əsərlər (ərəbdilli əlyazmalar) // - Bakı: BDU İlahiyyat fakültəsinin elmi məcmuəsi, - Dekabr-2016, №26, - s. 221-225.

**Резюме**

**Егяна Рахнулла**

**Религиозно-научный анализ сущностных Имен Аллаха (на основе Азербайджанских рукописей) (часть вторая)**

В исламе, как и во всех мировых религиях, имена и атрибуты Аллаха широко изучаются на основе хадисов и аятов из Корана. Эти атрибуты Аллаха, сгруппированные в религиозном термине «Асма аль-хусна», вместе образуют основной раздел различных теологических дисциплин, особенно богословия. Ученые расходятся во мнениях и имеют серьезные разногласия по поводу божественных атрибутов - противоречивой ветви богословия (калама). Обобщая все эти идеи, на основе классификации «Асма аль-Хусны» известного исламского ученого Абу Иса ат-Тирмизи атрибуты Аллаха можно разделить на три части: зати (существенные), кавни - связанные с созданием существованием, и имена, связанных с человеком. Эта статья содержит религиозно-научный анализ ряда сущностных (зати) имен Аллаха, включая само имя аль-Вахид до имени аль-Рашид, на основе, содержащихся в Азербайджане, рукописных копий «Шарх асма Аллах аль-Хусна» Садраддина аль-Конави, «Тафсир аль-Коран» Садраддина аш -Ширази и «Шарх асмаллах» неизвестного автора.

Хотя автор «Шарх асмаллах» не известен, среди рукописей, описывающих имена Аллаха, произведение отличается большим объемом и подробными толкованиями имен. В институте рукописей НАНА сохраняются произведения Садраддин аль-Ширази *«Тафсир аль-Коран».* В толкование хадиса о прекрасных именах Аллаха достаточно хорошо представлено список имён, значение и толкование.

Согласно мнению Садраддина Конави, отмеченном в произведении «Шарх Асма Аллах аль-Хусна», развитие человеческой нравственности и достижение им истины возможно через изучение «Асмауль-Хусны». По этой причине раскрытие, толкование и изучение прекрасных имен Аллаха в суфизме является одной из самых важных областей.


***Ключевые слова:*** *Ислам, Коран, хадис, тасаввуф (суфизм), богословие, «Асма аль-хусна» (прекрасные имена Аллаха), рукопись*


**Summary**

**Yegana Rahnulla**

**Religious-scientific analysis of the names of Allah (on the basis of Azerbaijani manuscripts) (part two)**

As in all monotheistic religions, the names and attributes of Allah are comprehensively studied on the basis of ayats and hadiths of the Quran. These attributes of Allah constitute the main branch of various theological fields, especially the science of discourse (science of kelam) under the religious term “asmaul-husna". Scholars have different opinions and serious disaccords about the divine attributes, a controversial branch of the science of discourse. Summarizing all these ideas, the attributes of Allah are divided into three parts – essential names, names related to creation, existence, and the names related to human being, according to the classification of the “Asmaul-husna” of Abu Isa at-Tirmizi, a famous Islamic scholar. This article contains the religious-scientific analysis of the manuscript copies of Sadraddin al-Konavi's work "Sharh asma Allah al-husna",

Sadraddin al-Shirazi's work "Tafsir al-Quran" and the other one named “Sharh asmallah” by an unknown author. These mentioned works that are kept in Azerbaijan contain the names of Allah – beginning from al-Vahid to al-Rashid.

Although the author of “Sharh Asmallah” is not known, it is distinguished by its large volume and extensive interpretation of names among the manuscripts about the beautiful names of Allah. The work “Tafsir al-Quran” Mahammad ash-Shirazi written İn the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. Besides the interpretation of the surahs and ayats of Quran, the interpretation of the hadiths written on various themes is also given in this work. In the interpretation of the hadith on Allah’s beautiful names perfectly presented the lists of the names, their meanings and interpretations.

According to Sadraddin al-Konavi's erudite opinion in his work “Sharh Asma Allah al-Husna”, the development of human morality and the attainment of truth is possible through the study of “Asmaul-Husna”. For this reason, the explanation, interpretation and the research of Allah's beautiful names in Sufism widely spread as one of the most important fields.

***Keywords:*** *Islam, Quran, tasavvuf (sufism), hadith, theology “Asma al-husna”(beautiful names of Allah), manuscript*

# RESENZİYALAR

# РЕЦЕНЗИИ

# REVIEWS

## İnkişafda olan Akademiya

### Siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Qurbanəli qızı Məliklinin "Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi şərəfli tarixi yolu" adlı kitabı haqqında

Azərbaycan Milli Elmlər Akademiyası tarixi zərurətdən yaranmış, ölkəmizin və xalqımızın tərəqqisi yolunda mühüm rol oynamışdır. Azərbaycanda cəmiyyət həyatının müxtəlif sahələrinin inkişaf etdirilməsində, milli ziyalılığın və ictimai fikrin formalaşdırılması və daha da möhkəmləndirilməsində, dövlət müstəqilliyi uğrunda mübarizə yollarında Azərbaycan Milli Elmlər Akademiyasının böyük xidmətləri var.

Milli Elmlər Akademiyasının ölkəmizin tarixindəki rolu, xidmətləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin aşağıdakı sözlərində dolğun şəkildə ifadə edilib: "***Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi şərəfli yol Azərbaycan xalqının tarixində böyük səhifədir. Çoxəsrlik tariximizdə böyük elmimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıb. Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir***".

Gənc alim siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məliklinin "Azərbaycan Milli Elmlər Akademiyasının Şərəfli Tarix Yolu" adlı kitabı elm tariximizin öyrənilməsinə və gələcək nəsilə çatdırılmasına böyük töhfədir.

Azərbaycan elminə hər zaman həssaslıqla yanaşan ulu öndər Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının inkişaf etməsinə qayğısını daim əsirgəməyib. Xalqına dərindən bağlanan, həyatını Azərbaycanın tərəqqisinə həsr edən dahi şəxsiyyət Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini həmişə diqqət mərkəzində saxlayıb, onun dünya miqyasında tanınmasına nail olmuşdur.

Müəllif Azərbaycan Milli Elmlər Akademiyasına dair mövcud ədəbiyyatı diqqətlə izləyib və müvafiq mənbələrdən səmərəli istifadə etmişdir. Onun qənaətləri məntiqli, əhatəli olaraq, ümummilli lider Heydər Əliyevin və cənab prezident İlham Əliyevin mülahizələri zəminində yetərincə əsaslandırılır.

Kitabda Azərbaycan elminə ümumi baxış təqdim edilərkən onun köklərinin minilliklərin dərinliklərinə təzahür edildiyi qeyd edilir. Mezolit və Neolotin tədqiqi Azərbaycanda elmi biliklərin meydana gəlmə mənbələrini dəqiq öyrənməyə imkan verir. Azərbaycanda ali təhsilin bünövrəsi Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən qəbul olunmuş qərar əsasında 1919-cu ildə Bakı Dövlət Universitetinin yaranması xüsusi mərhələ kimi qiymətləndirilir. Azərbaycanda universitet təhsilinin təməli qoyuldu ki, bu da milli şüurun, müstəqil dövlətçilik hisslərinin gücləndilirməsinə təsir edirdi.

Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti, habelə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu respublikada elmi fəaliyyətlə məşğul olan yaradıcı qüvvələri bir yerdə cəmləşdirmək, onların elmi fəaliyyətlərini müəyyən olunmuş istiqamətlər üzrə əlaqələndirmək baxımından bir çox faydalı addımlar atmaqla gələcək Akademiya üçün müəyyən zəmin hazırlamışdır.

Müəllifin gəldiyi qənaətlərdən biri ondan ibarətdir ki, hazırda Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycanın milli intellektual elitasının fəaliyyət göstərdiyi möhtəşəm mərkəzlərdən birinə çevrilmişdir. İqtisadi kapitalı insan kapitalına çevirək şüarını irəli sürən Azərbaycan Prezidenti İlham Əliyev bəyan etmişdir ki, ölkəmiz bölgənin elm mərkəzinə çevrilməlidir. Bu, AMEA-da ölkəmizin bütün el-

mi-tədqiqat müəssisələrində çalışan alimlər və təhsil işçiləri üçün böyük bir çağırışdır.

Araşdırmada elmi-nəzəri aspektlərlə konkret faktların nisbəti məsələsi diqqətdə saxlanılıb. Bu kitabın elmi yeniliyi ondan ibarətdir ki, ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin həyata keçirdikləri milli siyasi strategiyasının xüsusiyyətləri kompleks tədqiqatın obyekti olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı geniş miqyaslı islahatların işığında yeni cəmiyyət quruculuğu istiqmətində və ölkəmizdə müstəqil dövlətçilik ideallarının daha da möhkəmləndirilməsi yollarında şərəflə və məsuliyyətlə addımlamaqda davam edir.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyası XXI əsrin mühüm elmi problemlərini yerinə yetirməyə səy göstərən və ölkəmizdə müstəqil dövrlərimizin elm siyasətini uğurla həyata keçirən elmi qurum olaraq tarixi yolunu irəliyə aparır.

**İsa Həbibbəyli,**
*AMEA vitse prezidenti, Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun direktoru, akademik*

**XATİRƏ QULİYEVA**

**"ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNİN MÜDRİKLİK GÜCÜ"**
Bakı, "Kitab çapı.az", 2021, 290 s.

## AZƏRBAYCAN FƏLSƏFİ FİKRİNƏ DƏYƏRLİ TÖHFƏ




Filosoflar həmişə cəmiyyətin inkişafını "mütləq" "mən"də, "böyük şəxsiyyətlərdə", "fölqəl-insanda", "görkəmli şəxsiyyətlərdə", "texnokratik elita" və başqa amillərdə axtarmışlar.

Bu da bir həqiqətdir ki, tarixi şəxsiyyətlərə əsl düzgün qiymət müəyyən zaman keçdikdən sonra verilir. Əlbəttə elə şəxsiyyətlər var ki, onların həyat və fəaliyyətindən nə qədər yazılırsa yazılsın yenə də onları yenidən dərk etmək marağı azalmır. Azərbaycan xalqının Ulu öndəri, tarixi şəxsiyyət Heydər Əliyev də məhz belə dahi şəxsiyyətlərdəndir. Heydər Əliyev şəxsiyyəti, ömrü, zəngin irsi siyasi-mənəvi tariximizdə elə uca bir zirvədir ki, bu zirvənin əzəmətini gələcək nəsillərə çatdırmaq biz elm adamlarının, o xüsusilə də filosofların ümdə vəzifəsidir.

Hər şeydən öncə ümummilli lider Heydər Əliyevin daxili aləmində, həyat yolunda, fikrində, sözündə, əqidəsində xalqına və vətəninə bağlılığında elə dərin bir müdriklik vardır ki, bunun özü elə bir fəlsəfi traktatdır. Bundan sonra dövlət quruculuğu strategiyası, qlobal məsələlərin həllində siyasi taktikası illər boyu dərindən öyrənilib qiymətlənməli siyasi-fəlsəfi mövzudur.

Təsadüfi deyil ki, dünyanın inkişaf etmiş, qabaqcıl ölkələrinin dövlət başçıları və tanınmış siyasət adamları türk dünyasının görkəmli siyasi xadimi, böyük lider Heydər Əliyevi dahi şəxsiyyət, siyasət ustadı kimi qəbul etmiş, onun siyasi idarəçilik yolunun bir məktəb olduğunu vurğulamışlar. Ümummilli lider Heydər Əliyev öz xalqı üçün Müstəqil dövlət, xalqının elmi təfəkkürü üçün dolğun bir idarəçilik proqramı, bütövlükdə daim əxz ediləcək siyasi təcrübə modeli qoyub getdi.

Bu gün Ulu öndərin həyatda olmadığı bir vaxta biz onun ölməzliyini siyasətinin müdriklik gücündə, ideyalarının yeniliyi, aktuallığı, əbədiyaşarlılığında görürük və öz xalqına həsr olunmuş bu mübariz həyat yolunun elmi əsaslarla öyrənilməsi, bu nadir şəxsiyyətin dövlət quruculuğu və idarəçilik məktəbinin dərindən öyrənilməsi üçün geniş tədqiqatlar aparılmalıdır.

Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutunun "Multikulturalizm və Tolerantlıq fəlsəfəsi" şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru Xatirə Quliyevanın Ulu öndər Heydər Əliyev siyasi irsini tədqiqatları deyə bilərik ki, uzun illəri və çox müxtəlif kontekstləri əhatə edir. Belə ki, o, Ulu öndərə həsr olunmuş "Heydər Əliyev və mənəvi-estetik dəyərlər" (Bakı-Azərnəşr, 2002), "Heydər Əliyev siyasəti:Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat" (Bakı- Elm, 2019) adlı 2 elmi monoqrafiyanın, ölkədə və xaricdə çap olunmuş onlarla elmi məqalənin müəllifidir.

"Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" adlanan bu kitab da Xatirə Quliyevanın elə həmin monoqrafiyalarının əsasını təşkil edən habelə digər aktual mövzulu, elmi

yeniliyə əsaslanan əhəmiyyətli elmi məqalələrinin toplusudur.

Elmi məqalələr toplusunda təqdim olunan məqalələrlə tanışlıq bizim yaddaşımızda Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücünü yeni elmi materiallarla, dəlillərlə və alimin özünəxaüs elmi yanaşma və dəyərləndirmə meyarları ilə bir daha təsdiqləyir və təravətləndirir.

"Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü", "Heydər Əliyevin Ulu öndərlik missiyası", "Heydər Əliyev siyasi kursunun təntənəsi", "Ulu öndər Heydər Əliyevin siyasi idarəçilik proqramında maarifçi Cəlil Məmmədquluzadə irsi", "Böyük İnamın Təsdiqi. Ruhun şad olsun Ulu Öndər!","Azərbaycan – Türkiyə Birlik, Həmrəylik fəlsəfəsi". Müəllifin adlarından, sərlövhələrindən belə siyasi fəlsəfi məzmun ucalan bu məqalələrində böyük liderin Azərbaycan xalqının yolunda şam kimi əritdiyi ömrü və sənətlərin ən çətini kimi qiymətləndirdiyi milli dövlət quruculuğu siyasəti tarixi xronoloji aspektlərdən əhatəli surətdə və elmi-obyektivliklə siyasi - fəlsəfi təhlil olunmuşdur.

Konkret olaraq "Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" məqaləsindən bir iqtibasla tanışlıq filosof alimin Ulu öndər Heydər Əliyevin siyasi idarəçilik proqramına elmi fəlsəfi yanaşmasının yeniliyini təsdiq edir: "Politologiyada elmi cəhətdən öyrənilib, "məktəb" tipində qiymətləndirilən, tətbiq olunan məsələlər arasında bütün sahələrə şamil edilən müdrik yaradıcı şüur, fitri bacarıq, səriştə kimi mühüm amillər xüsusi olaraq diqqəti cəlb edir. Çünki, müdriklik elə bir mənəvi dəyər, əxlaqı keyfiyyətdir ki, o istər fərdi məzmunda, istərsə də ictimai-siyasi mahiyyətində tərəqqi və tənəzzülü müəyyən edir". ... Problemə bu tarixi tipoloji qiymətləndirmələr kontekstindən və eləcə də müasir politoloji aspektlərdən yanaşdıqda xalqımızın görkəmli şəxsiyyəti Ulu öndər Heydər Əliyevin yeritdiyi idarəçilik siyasət müdriklik keyfiyyətləri ilə diqqəti cəlb edir. Həm də xüsusilə vurğulamalıyıq ki, Heydər Əliyev müdrik siyasətçi Lider zirvəsinə heç də təsadüfi, "anidən" deyil, pillə-pillə, ömür sınaqları və iş təcrübələrindən inamla çıxmaqla, yüksək peşəkarlığa yiyələnməklə ucalmışdır.

Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü Milli Dövlət ideyasını şərtləndirən ən əsas qayə əlbəttə ki, onun milli Lider missiyası idi və o bu missiyasını nəinki ölkəmizin müstəqillik əldə etdiyi mərhələdəki siyasi fəaliyyətində, hətta sərt totalitar sovet imperiyasında ən yüksək siyasi kürsülərdə təmsil olunduğu dövrdə nəhəng bir dövləti idarəetmə siyasətində xüsusi diqqətdə saxlamış, öz məqsəd və amalı olaraq dərk edib bütün qüvvəsilə həyata keçirmişdir. Bu ağır və ikiqat məsuliyyətli işin öhdəsindən o, məhz milli lider şəxsiyyətindən irəli gələn güclü iradə, mətinlik, qəhrəmanlıq keyfiyyətlərinin cəmləndiyi müdrik siyasət vasitəsilə gəlmişdir".

Müəllifin geniş və elmi təhlillərə əsaslanan bu məqalələrində Ulu öndər Heydər Əliyevin siyasi qüdrəti tarixi kontekstdə o cümlədən dünyanın Mustafa Kamal Atatürk kimi əfsanəvi siyasi Liderinin dünya quruculuğu siyasəti ilə müqayisədə təhlil olunur. Məzmunun dolğunluğu məqalənin gələcəkdə müstəqil bir elmi monoqrafik kitab kimi meydana çıxmasını şərtləndirmişdir.

Belə ki, müəllifin "Azərbaycan – Türkiyə Birlik, Həmrəylik fəlsəfəsi" məqaləsində Ulu öndər Heydər Əliyev və böyük Atatürkün xarizmatik türk liderlik keyfiyyətləri kimi yeni elmi aktual mövzunun təhlil və qiymətləndirmə ştrixləri diqqəti cəlb edir: "Tarix üçün uyğunluqlar xarakterikdir və bütöv Türk dünyasını birləşdirən hadisə və şəxsiyyətlər arasında da oxşarlıq və bağlılıqlar təsadüfi deyil. Bu baxımdan Azərbaycanın istiqlaliyyət tarixi və xalqımızın Ulu öndəri – Heydər Əlirza oğlu Əliyevlə Türk dünyasının "atası" Mustafa Kamal Atatürk arasında da beləcə liderlik taleyi uyğunluğu olmuşdur.

İlk öncə xarizmalılıq keyfiyyətlərindən çıxış etməklə çox qəribə bir bənzərliyi qeyd etmək yerinə düşər. Beləki, bu hər iki böyük Türk Liderinin ata adlarının eyniliyi xarizma mahiyyətində maraq doğurur. Sanki, bu bir millətin iki qəhrəman oğlu tarixi türk torpaqlarının dövlət bərpası üçün dünyaya gəlməliydi. Beləcə dünyanın biri o başında, biri bu başında və biri-birindən 40 il zaman uzaqlığında Əlirza adlı iki türk ata nəhəng Türk dövləti quracaq, ən əsas da bütöv türk ailəsində "ata" kimi sevilib tarixə iz salacaq oğul övladları dünyaya gətirdilər. Bu başdakı – Əlirzanın oğlu Heydər Əliyev həm də o mübarək ildə doğuldu ki, o başdakı Əlirzanın

oğlu – Mustafa Kamal Türk dünyasının əfsanəvi xilaskarı elan edilmiş, Türkiyə Respublikasının yekdilliklə ilk prezident seçilmiş, yeni respublikanın ilk hökumətini "Hakimiyyət qeyd-şərtsiz millətindir" və "Yurdda sülh, cahanda sülh" ideologiyası əsasları üzərində qurmuşdu. Öz zamanı üçün adi, bizim dövrdən boylandıqda Heydər Əliyevin doğulduğu tarixdən iki il əvvəl isə bu möhtəşəm hadisə yaşanmışdı – Mustafa Kamal Atatürk bir əsrlik zamanı arxada qoymuş "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur" – bəyanatını Azərbaycanın Türkiyədəki ilk diplomatı – dostu İbrahimbəy Əbilov vasitəsilə bütün dünyaya yetirmişdi və fikrimizcə bu dəlil də çox xarakterikdir ki, Türkiyənin ən nüfuzlu mükafatı - "Atatürk Sülh Mükafatı"na layiq görülmüş dünya şöhrətli Azərbaycan lideri Heydər Əliyev də Prezident statusunda Türkiyəyə ilk səfərində "biz bir millət-iki dövlətik" kəlamını bütün dünyaya bəyan etmişdir və bu dahiyanə kəlam Türk dünyasını birləşdirən ən güzcü, yenilməz həyat fəlsəfəsidir".

Heç də təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev siyasətinin əbədiyaşarlığını onun xarizmalı lider ilahi keyfiyyətləri ilə təzahür etmiş "Xalqa son müraciət" tarixi oçerki də təsdiqləmişdir. Xatirə Quliyevanın "Böyük İnamın Təsdiqi. Ruhun şad olsun Ulu Öndər!" məqaləsi Heydər Əliyevin xalqımızın 8 noyabr kimi tarixi Qələbəsinə, Ulu öndərin öz siyasi xələfinə - Böyük Vətən Qələbəmizin yenilməz gücü, ölkə rəhbərimiz cənab İlham Əliyevə siyasi inamının təsdiqinin elmi-obyektiv təhlil və qiymətləndirilməsinə həsr olunmuşdur. Sitat: "Ulu öndər Heydər Əliyevin ölkədə və dünyada mürəkkəb və gərgin hadisələrin cərəyan etdiyi bir vaxtda sonsuz çətinliklər bahasına qurduğu gənc Müstəqil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ata vəsiyyətini tamamlaması, inamı təsdiq etməsi, etibarı doğrultması üçün bir Zəfəri qalırdı – işğal altında olan müqəddəs torpaqlarımızın mənfur düşməndən azad olunmasına nail olmaq.

Varis buna hər gün, hər saat hazırlaşırdı. Bu gün möhtəşəm Zəfər günündə dilə gələn kəlmələr o illərlə yol gələn məqsəddən, amaldam ucalır: "Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə o xoş xəbəri qarşılayır. Biz məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq güc toplayırdıq və toplamışıq - İqtisadi güc! Əgər iqtisadi güc olmasaydı, bu qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən, heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik! Və bu bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək. Eyni zamanda Ordumuzu gücləndirək".

Məqalələr toplusunda Heydər Əliyev siyasətinin əsasında dayanan identiklik, azərbaycançılıq, multikulturalizmə, bu ideyaların tarixi və müasir inkişaf xüsusiyyətləri mövzularında olan məqalələr də elmi yeniliyi və aktuallığı ilə maraq doğurur. Məsələn, "Azərbaycanda etno-milli və regional identikliyin inkişaf strategiyası", "Azərbaycançılıq ideologiyasından Multikulturalizmə kimi milli mədəniyyətlərarası dialoq fəlsəfəmiz", "Multikulturalizmin "Dialoq Fəlsəfəsi"-nə Tətbiqinin Elmi Metodoloji Aspektləri (problemə giriş)", "Multikulturalizm etikası - tərəqqi konsepsiyası", "Qloballaşma dövründə Qlobal antietika məsələləri və problemin həllində ortaq türk ailəsi modeli", "Qobustan qayaüstü abidələrində qədim türk ailəsinin "dialoq fəlsəfəsi" və b. məqalələr.

Kitabda Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin siyasi idarəçilik fəaliyyətində prioritet təşkil edən və ölkə rəhbərinin müəllifi olduğu, özündə tarix-müasrliyi birləşdirən Azərbaycan multikulturalizm modeli geniş təhlil obyektidir. Əlbəttə monoqrafik çəkidə olan bu məqalələrin meydana çıxmasının bir səbəbi fəlsəfə elmləri doktoru Xatirə Quliyevanın Ulu öndər Heydər Əliyev irsinin bacarıqlı tədqiqatçılarından biri olaraq mövzuya dərindən bələdliyidirsə, digər səbəb alimin AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun "Multikulturalizm və Tolerantlıq fəlsəfəsi" şöbəsinin rəhbəri olaraq bu yeni elmi sahədə araşdırmalar aparması ilə əlaqədardır.

Bu baxımdan kitabda mühüm əhəmiyyət kəsb edən "Multikulturalizmin "Dialoq Fəlsəfəsi" nə tətbiqinin elmi metodoloji aspektləri (problemə giriş)" məqaləsi xüsusilə maraq doğurur. Alim bu məqalədə dünya elmi təcrübə-

sində ilk dəfə olaraq "Multikulturalizmin "Dialoq Fəlsəfəsi"nə tətbiqini əsaslandırmışdır.Müəllifin bu yeni və aktual ideyası bir sıra beynəlxalq jurnallar tərəfindən maraqla qarşılanmış və çap olunmuşdur.

Topluda "Süni intellekt fəlsəfəsinin proqressiv və reqressiv İnkişaf məsələləri" adlı geniş elmi oçerkdə alimin çağdaş dövrümüzün reallığı, süni intellekt hadisəsi, sünii intellekt fəlsəfəsinin tarixi və müasir problemləri ilə bağlı dolğun dəlillərə əsaslanan elmi təhlil və proqnozları maraq doğurur.

Qeyd etmək lazımdır ki," Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" elmi məqalələr toplusunda fəlsəfə elmləri doktoru Xatirə Quliyevanın dövlət fərmanlarından irəli gələn vəzifələr istiqamətində böyük maarifçilərimiz Mirzə Cəlil, Ə. Haqverdiyev, habelə görkəmli filosov alim Z.Göyüşov yaradıcılığına həsr olunmuş məqalələri də ətraflı təqdim olunmuşdur və öz elmiliyi ilə seçilir..

Əlbəttə alim ilk növbədə vətəndaşdır. Bəlkə də əsl alim olmaq üçün sözün tam mənasında vətəndaş olmaq şərtdir. Kökündə Vətən kəlməsi dayanan vətəndaşlıq hissinə, amalına sadiq olduqda doğma vətənin hər ağrısı, acısı, hər uğuru, sevinci əsər olur, tarixi səhifə olur. Bu baxımdan adlarından da vətəndaşlıq ucalan "Sülh gözəldir, torpaqlar isə müqəddəsdir", "Azərbaycan-Türkiyə Birlik, Həmrəylik Fəlsəfəsi XXI əsrin Mədəniyyətlərarası Dialoq Çağırışları Kontekstində", "Azərbaycanın haqq mübarizəsi – 2020: Tarix, həqiqətlər və reallıq", "Türkiyə bizimlədir – Zəfər bizimlədir", "Gözün aydın Azərbaycan! Gözün a ydın Türkiyə!" adlı məqalələr siyasi-fəlsəfi əhəmiyyəti ilə seçilir və tarixi elmi oçerklər olaraq aktuallıq kəsb edir.

Ümumiyyətlə deyə bilərik ki, fəlsəfə elmləri doktoru Xatirə Quliyevanın "Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" adlı elmi məqalələr toplusunda Azərbaycan xalqının Ulu öndəri, tarixi şəxsiyyət Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycanda ictimai-siyasi həyatın, elm, təhsil və mədəniyyətin tərəqqisi yolunda böyük xidmətlərinin elmi-fəlsəfi əhəmiyyətindən, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin siyasi idarəçilik proqramından, o cümlədən ölkə rəhbərinin böyük uğurla rəhbərlik etdiyi multikulturalizm siyasəti, bütün dünyada mədəniyyətlərarası dialoqun inkişafına böyük töhvəsindən, həmçinin onun daxili və xarici siyasəti kimi hərbi siyasətinin uğurlu dinamikasından qaynaqlanan siyasət modelindən bəhs edən məqalələri müasir mərhələdə Azərbaycan fəlfəfi fikrini təmsil edir, təcrübi və tətbiqi baxımdan əhəmiyyətlidir.

Fəlsəfə elmləri doktoru Xatirə Quliyevanın "Ulu öndər Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" adlı elmi məqalələr toplusu Azərbaycan xalqının Ümummilli Lideri, dahi şəxsiyyət Heydər Əliyev irsini öyrənənlər, habelə multikulturalizm tədqiqatçıları, bütövlükdə filosoflar, humanitar və istimai elm sahəsinin alimləri, doktorantlar və geniş oxucu kütləsi üçün faydalıdır.

**Məmməd Rzayev**
*Naxçıvan Dövlət Universitetinin professoru,*
*fəlsəfə elmləri doktoru,*
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

## “AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI SOSİAL ELMLƏR” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ DAİR TƏLƏBLƏR

**1.** “Azərbaycan Milli Elmlər Akademiyasi Sosial Elmlər” jurnalında orijinal elmi tədqiqatların nəticələrini özündə ehtiva edən, elmi yeniliyi, mühüm elmi və təcrübi əhəmiyyəti olan məqalələr çap edilir.

**2.** Materiallar (məqalə, resenziya və s.) Azərbaycan, rus və ingilis dillərində çap şəkildə, elektron daşıyıcıda və ya e-mail (socialsciences.anas@gmail.com) vasitəsi ilə təqdim edilə bilər.

**3.** Məqalə elmi (ali təhsil) müəssisənin müvafiq şöbəsində (kafedrasında) müzakirə edilərək müsbət rəy aldıqdan sonra elmi şurasında çapa məsləhət görülməlidir. Müəllif elmi şuranın iclasının protokolundan çıxarışını redaksiyaya təqdim etməlidir.

**4.** Redaksiyaya təqdim olunmuş məqalə müəllifin ixtisasına uyğun iki anonim eksperta rəyə göndərilir. Rəyləşdirmə prosesi nəticəsində iki müsbət rəy almış müəlliflərin məqalələri çapa göndərilir.

**5.** Məqalənin həcmi 6-12 səhifə (şəkillər, cədvəllər, qrafiklər, əlavələr, ədəbiyyat siyahısı, xülasələr daxil olmaqla) olmalıdır. Məqalələrin mətnləri Times New Roman – 12 şrifti ilə, 1 sətirarası intervalla çap olunmalıdır.

**6.** Hər bir məqalədə UOT indekslər və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməli və ən azı 5 sözdən ibarət olmalıdır.

**7.** Məqalədə istifadə edilmiş mənbələr və ədəbiyyat çap olunduqları dillərdə (əvvəlcə Azərbaycan, sonra türk, rus, ingilis, fransız, ərəb və s.) məqalənin mətnindən sonra **Ədəbiyyat siyahısı** başlığı altında verilməli, əlifba sırası ilə, ardıcıl nömrələnərək siyahıda göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları barədə” qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin tələbləri əsas götürülməlidir (daha ətraflı bax: http://aak.gov.az).

**8.** Istifadə olunmuş ədəbiyyat siyahısından sonra məqalənin xülasəsi verilməlidir. Azərbaycan dilində olan məqalələr üçün xülasə əvvəlcə ingilis, sonra rus dillərində, rus dilində olan məqalələr üçün isə əvvəlcə Azərbaycan, sonra ingilis dillərində tərtib edilməlidir. Hər bir xülasənin başında məqalənin adı, müəllifin adı, soyadı, təmsil etdiyi müəssisə və ölkə göstərilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr 100-200 sözdən ibarət olmalıdır.

**Məqalənin strukturu aşağıdakı ardıcıllıqla qurulmalıdır:**
- Məqalənin UOT indeksi
- Müəllifin adı və soyadı
- Müəllifin çalışdığı yer, vəzifəsi, elmi dərəci və elmi adı, təmsil etdiyi ölkə və e-mail ünvanı
- Məqalənin adı
- Məqalənin yazıldığı dildə açar sözlər
- Məqalənin mətni
- Ədəbiyyat siyahısı
- Məqalənin yazıldığı dildən əlavə digər iki dildə yazılmış xülasələr və açar sözləri

Qoyulan tələblərə cavab verməyən, ciddi elmi, qrammatik səhvləri olan məqalələr dərc edilmir. Redaksiyaya təqdim olunan əlyazmalar geri qaytarılmır. Redaksiya heyəti məqalələrdə redaktə xarakterli dəyişikliklər və ixtisarlar aparmaq hüququnu saxlayır.

## ТРЕБОВАНИЯ К СТАТЬЯМ, ПРЕДСТАВЛЯЕМЫМ В ЖУРНАЛ «ОБЩЕСТВЕННЫЕ НАУКИ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА»

1. В журнале «Общественные науки Национальной Академии Наук Азербайджана» издаются статьи, содержащие результаты оригинальных научных исследований, представляющие научную новизну, важное научное и практическое значение.
2. Материалы (статья, рецензия и др.) могут быть представлены на азербайджанском, русском и английском языках в печатном виде, на электронном носителе или посредством электронной почты (socialsciences.anas@gmail.com).
3. Статья должна быть рекомендована к печати научным советом научного (высшего учебного) учреждения, получив положительный отзыв в результате обсуждения в соответствующем отделе (на кафедре). Автор должен предоставить редакции выписку из протокола заседания научного совета.
4. Представленная редакции статья в соответствии со специальностью автора направляется двум анонимным экспертам на рецензирование. При получении двух положительных отзывов в результате процесса рецензирования статья направляется в печать.
5. Объем статьи должен составлять 6-12 страниц (включая изображения, таблицы, графики, приложения, список литературы, резюме). Статья должна быть напечатана шрифтом Times New Roman – 12, с межстрочным интервалом 1.
6. В каждой статье должны быть указаны индекс УДК и ключевые слова. Ключевые слова должны быть на трех языках (на языке самой статьи и двух резюме) и составлять не менее 5 слов.
7. В статье использованные источники и литература приводятся после текста статьи под заголовком **Список литературы** и пронумерованы в алфавитном порядке (сперва на азербайджанском, затем турецком, русском, английском, французском, арабском и др. языках). При указании библиографического описания использованного источника следует брать за основу требования раздела «Использованная литература» действующих инструкций Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики «О правилах оформления диссертаций» (подробнее см.: http://aak.gov.az).
8. После списка использованной литературы следует разместить резюме статьи. Для статей, написанных на азербайджанском языке, необходимо разместить резюме сперва на английском, а затем на английском, а для статей на русском языке, необходимо разместить резюме сперва на азербайджанском, а затем на английском. Над каждым резюме необходимо указать название статьи, имя, фамилия, место работы и страну автора статьи. Оба резюме должны быть идентичными и соответствовать содержанию статьи. В резюме должны быть кратко отражены научные выводы, к которым пришел автор, научная новизна работы, практическая значимость статьи и т.д. резюме должны состоять из 100-200 слов.

**Структура статьи должна быть составлена в порядке, указанном ниже:**
- УДК индекс статьи
- Имя и фамилия автора
- Место работы, должность, научная степень и научное звание, страна и адрес электронной почты автора
- Название статьи
- Ключевые слова на языке статьи
- Текст статьи
- Список литературы
- Два резюме и ключевые слова, написанные на двух других языках.

Статьи, не отвечающие требованиям, имеющие значительные научные, грамматические ошибки, не издаются. Представленные в редакцию рукописи не возвращаются. Редакция оставляет за собой право производить изменения редакторского характера и сокращения.

## REQUIREMENTS FOR ARTICLES SUBMITTED TO THE JOURNAL OF SOCIAL SCIENCES OF THE AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

1. Articles of scientific and practical significance, which cover the results of original scientific studies and scientific innovations are published in the Journal of Social Sciences of the Azerbaijan National Academy of Sciences.
2. The documents (articles, reviews, etc) can be submitted in Azerbaijani, Russian and English in a hard copy form, on electronic media or via e-mail (socialsciences.anas@gmail.com).
3. The article shall be recommended for publication once it has received a positive feedback following the discussions at the relevant department (chair) of the scientific (higher education) institution. The author shall submit to the editorial office an extract from the minutes of the meeting of the Scientific Council.
4. The article submitted to the editorial office shall be sent to two anonymous reviewers according to the author's area of specialty. The articles of authors who received two positive feedbacks as a result of the review process will be published.
5. The article shall be 6-12 pages (including pictures, tables, charts, appendices, list of reference, and summaries). Texts shall be printed in 12 pt Times New Roman font with line spacing of 1.
6. Each article shall include UDC indexes and keywords. Keywords shall be provided in three languages (in which the articles and summaries are written) and consist of at least 5 words.
7. The sources and bibliography used in the article shall be listed in sequentially numbered alphabetical order, following the body text, titled **References**, in their original languages (starting from Azerbaijani, then followed by Turkish, Russian, English, French, Arabic, etc.). The bibliographic description of the referenced source shall be based on the requirements of the "Cited Bibliography" section of the "Guidelines for Drafting Dissertations" of the State Commission for Academic Degrees and Titles reporting to the President of the Republic of Azerbaijan (see: http://aak.gov.az).
8. The reference list shall be followed by the summary of the article. The summary for articles in Azerbaijani shall be written first in English, then in Russian, and for articles in Russian, first in Azerbaijani and then in English. The title of the article, the author's name and surname, the organization and the country he/she represents shall be provided at the beginning of each summary. Article summaries in different languages shall be identical and correspond to the content of the article. The summary shall provide a brief description of the scientific conclusions reached by the author(s), the novelty and practical importance of the scientific work, etc. Summaries shall consist of 100-200 words.

**The article shall be structured in the following order:**

- UDC index
- Author's name and surname
- Author's place of work, position, academic degree and rank, country and e-mail address
- Article title
- Keywords in the original language of the article
- Main body
- Reference list
- Summaries and keywords in other two languages in addition to the original language of the article.

Articles that do not meet the requirements, have serious scientific or grammatical errors will not be published. Manuscripts submitted to the editorial office will not be returned. The editorial staff reserves the right to make editorial changes and reductions in articles.

Nəşriyyatın direktoru: *Səbuhi Qəhrəmanov*
Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^{1}/_{8}$
Həcmi 38 ç.v.
Tirajı 300

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 28